FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 01

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2017

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Möhsün Nağısoylu, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., prof. Əzizxan Tanrıverdiyev, f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e.d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, fil.ü.f.d., dos. Nəzakət Məmmədli

Buraxılışa məsul: akademik Teymur Kərimli

Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2017, № 1

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2017

DİLÇİLİK

NURİDƏ NOVRUZOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti

MƏTNİN KOQNİTİV TƏHLİLİNİN NƏZƏRİ ƏSASLARI

Açar sözlər: *koqnitivizm, mətnə koqnitiv yanaşma, koqnitiv strukturlar*
Ключевые слова: *когнитивизм, когнитивный подход к тексту, когнитивные структуры*
Key words: cognitivism, cognitive approach to text, cognitive structures

XX əsrin 90-cı illərində mətnin semantikası üzrə tədqiqatlar yeni səviyyədə, koqnitiv yanaşma işığında aktuallaşır. Koqnitivizm mətnin həm qavranılmasının, həm də yaranmasının modelləşməsinin nəzəri platforması kimi nəzərdən keçirilir. Son illərin dilçiliyində də mətnə koqnitiv istiqamətdə yanaşma aparıcıdır. Problemlərə baxılma qaydası onların dilçilikdə "liderlik etməsi"nin xronoloji ardıcıllığına deyil, antroposentrik yanaşmanın məntiqinə uyğun gəlir, yəni koqnitivizm (lat. cognitio – bilik, idrak) dil şəxsiyyətinin "fikirdən sözə" universal ideonitq dövrəsinin həyata keçirilməsi prosesində struktur təşkilinin dil-koqnitiv səviyyəsində meydana çıxan fenomenləri tədqiq edir.

Dilçilikdə mətn sintaksisinin əsas istiqamətlərindən biri koqnitiv tədqiqatlarla bağlıdır. "Koqnitiv tərəqqi" XX əsrin son illərində dilçiliyin inkişafını müəyyənləşdirən amillərindən birinə çevrilmişdir(13,34-47). Koqnitiv dilçiliyin mahiyyəti "Koqnitiv dilçiliyin qısa lüğıtində" belə verilmişdir: "Koqnitiv dilçilik linqvistik və ekstrolinqvistik deyə bölünməyən semantikanın təntənəsindən başqa bir şey deyildir"(12, 41).

Koqnitiv paradiqmanın sürətli inkişafının əsasında dilçilikdəki antroposentrik tendensiyalar durur. Koqnitivizm hal-hazırda liderlik edir və öz orbitinə digər paradiqmaları gətirməyə iddia edir, lakin ümumi antroposentrik panoramada o, öz strukturuna görə dil-koqnitiv səviyyəyə malik olan dil şəxsiyyəti nəzəriyyəsinin yalnız bir hissəsidir.

Koqnitiv paradiqma çərçivəsində semantika, sintaktika və praqmatikanın sintezi mümkündür. Belə ki, semantika və praqmatikanın koqnitiv sahəyə meyl etməsi intensionallıq problemini həm sırf insani, həm də təkamül-bioloji aspektlərdə öyrənilməyə başladı. Koqnitivlik rakursunda sintaktika məntiqin və idrak nəzəriyyəsinin bir sıra spesifik problemlərini üzə çıxardı. Koqnitiv problemlər kompleksi üçün fundamental olan biliyin konsepti "praqmantaksisə"

(Ç.Fillmor) yeni impuls verir: məna "çalarlarının" fərqləndirilməsi yenidən aktuallaşır, mental vəziyyət və mental streotip anlayışları ilə bağlı mədəni konseptlər olan "həqiqət", "ədalət", "qanun", "səbəb", "fakt" və başqaları ön plana çıxarılır, K.Q.Yunqun arxetipləri ilə paralellər aparılır və s.

Rusiyada koqnitivizmin mənbələrini L.V. Şerbanın, A.M. Peşkovsakinin, A.İ. Smirnitskinin irsində axtarmaq lazımdır. Çünki onlar sözü qrammatik, semantik və diskursiv xassələrin daşıyıcısı kimi qəbul edirdilər.

Lakin Rusiyadakı müasir koqnitiv tədqiqatlar xarici, xüsusilə də Amerika alimlərinin əsərləri ilə fəallaşmışdır. Xüsusilə dilçiliyin inkişafında yeni dönüş N.Xomskinin adı ilə bağlıdır. Rusiya Federasiyasının bir sıra elmi dərgilərində dil haqqında elmin yeni istiqaməti haqqında bir sıra məqalələr çap olunmuşdur: "Вопросы языкознания." jurnalında ((9,12, 16,19, 20, 21 və başqaları); "Язык и интелект. Сб. (13, 34-47) və «Вестник Московского университета" jurnal və məcmüələrində tanınmış xarici koqnitivistlərin L.Talmi, E.Fava, V.Lanqaker, P.Sören və başqalarının əsərlərinin tərcüməsi yer almışdır(10, 385-411).

Voronej universitetinin "Filoloji araşdırmalarında" belə bir ümumiləşdirmə təklif olunur: "Koqnitiv dilçiliyin əsas obyekti nitq-fikir fəaliyyətinin mexanizmləri, nitqin yaranması və anlanılması proseslərdir. Onun əsas məqsədi dilin semantik sistemində (leksik və qrammatik mənalarda) möhkəmləndirilmiş dil biliyinin qeyri-dil biliyi ilə necə bağlı olduğunu, təbii dilin mental dillə (fikir dili ilə) qarşılıqlı təsirini anlamaqdır" (6, 172 -173).

Müvafiq olaraq "dilçilik tədqiqatlarında bir sıra yeni aksentlər meydana çıxdı, o cümlədən, insan ünsiyyətinin dilxarici amillərinə, məsələn, dünya haqqında insanın bilikləri istiqamətlənmə" (21.59).

Rusiyada koqnitivizmin mənbələrini L.V.Şerbanın, A.M.Peşkovskinin, A.İ.Smirnitskinin irsində axtarmaq lazımdır. Onlar sözü qrammatik, semantik və diskursiv xassələrin daşıyıcısı kimi qəbul edirdilər. Lakin Rusiyadakı müasir koqnitiv tədqiqatlar xarici, xüsusilə də Amerika alimlərinin əsərləri ilə fəallaşmışdır. Və burada dilçiliyin inkişafında yeni dönüş N.Xomskinin adı ilə bağlıdır. Amerika strukturalizminin nəhəng nümayəndəsi olan Xomski 1957-ci ildə «Sintaktik strukturlar» adlı kitabını nəşr etdirmişdir. Bu əsər generativ (törədici) qrammatikanın əsasını qoydu.

Generativ dilçiliyin əsasında dilin törədici modeli haqqında təsəvvür yer almışdır, yəni məhdud qaydalar dəsti vardır ki, dilin yalnız düzgün cümlələrini yaratmaq qabiliyyətinə malikdir. Bu, dil iyerarxiyasının hansı tərəfindən nitqin yaranması haqqında təsəvvürləri alt-üst etdi. Törədici dilçiliyə görə, nitqin yaranması sintaksisdən fonologiyaya doğru baş verir, yəni ən absrakt sintaktik strukturlardan başlayaraq. V.Rudnevin qeyd etdiyi kimi, Xomskinin aradıcılları anlamağa başladılar ki, sintaksis yox, semantika cümlənin mənasını müəyyənləşdirir. Yeni istiqamət formalaşır – törədici semantika, onun

təşəkkülündə rus alimləri İ.A.Melçuk, A.K.Jolkovski və başqaları mühüm rol oynamışlar (17,36). Xomskinin əsərlərinin əhəmiyyətinin artması ilk növbədə kütləvi kommunikasiya problemlərinin həlli ilə bağlı meydana çıxan praktiki məsələlərlə izah olunur.

N.Xomskinin adı ilə bağlı olan radikal dəyişikliklər hər bir elmi inqlab kimi keçmiş strukturalist biliklərlə əlaqəni kəsirdi və yeni transformasiya-törədici istiqamətə yol açırdı. "Törədici qrammatika" terminin özü 70-ci illərin əvvəlində C.Serl və Fr.Nyumeyerin əsərlərində meydana çıxmışdır. ABŞ-da strukturalizm ənənələrindən tam imtina göz qabaqığında idi. N.Xomskinin əsərləri psixologiya sahəsində dəyişikliklər yaratmış, o, davranışı stimullara fizioloji reaksiyalar kimi qəbul edən biheviorizmdən imtina etmişdi.

Heç bir alimə dilçilik tarixində yaradıcılığının bütün aspektlərinə N.Xomski qədər diqqət yetirilməmiş, ziddiyyətli qiymətlər verilməmişdir. Onun konsepsiyasının əsas müddəası alimin ümumiyyətlə biliyə və o cümlədən dilçilik biliyinə fərqli yanaşmasıdır. Hələ 80-ci illərdə koqnitivizmlə bağlı üç problem fərqləndirilir: biliyin təbiəti, insan şüurunda biliklər sisteminin meydana çıxması, biliklərin istifadə olunması mexanizmləri. Lakin buna oxşar məsələləri N.Xomski daha erkən əsərlərində nəzərdən keçirmişdi. Bütövlükdə Xomskinin etdiyi inqlab biliklərin üç yeni sahəsinin meydana çıxması ilə bağlıdır: sintaksisin semantikası, qrammatikanın formal xüsusiyyətləri və koqnitiv-yönəldilmiş psixologiya.

Xomski paradiqmasının bütün bu tərəfləri Xomskiyə həsr olunmuş çoxsaylı əsərlərdə öz inkişafını tapmışdır. Dilçilərin (Xomskinin özünün də) xüsusi diqqətini koqnitivistikanın dilçiliklə əlaqələri, koqnitiv elminin əsas anlayışlarının dilin təhlili ilə qarşılıqlı əlaqədə tədqiqinin perspektivliyi cəlb edirdi. E.S.Kubryakova qeyd etdiyi kimi, törədici qrammatikanın təşəkkülü sadəcə olaraq koqnitiv elmin meydana çıxması illərinə təsadüf etməmişdi: hər ikisi insan ağılının və onun əsas tərkib hissəsi olan dilin tədqiqinə yeni yanaşmaları gətirdi(12,193).

Beləliklə, törədici qrammatika insanın bütün təbiətinə və onun davranışına baxışın dəyişməsində mühüm amilə çevrildi. İnsanın davranışının onun biliklərindən, qabiliyyətlərindən, bioloji təşkilindən asılı olduğu fikri irəli sürüldü. Xomskinin ayrı-ayrı müddəalarının mübahisəli olmasına baxmayaraq, məsələn, dil şüurunun andangəlmə olması haqqında fikir, məsələnin belə qoyuluşu elmi fikrin inkişafına təkan verdi.

ABŞ-da törədici qrammatika üstün mövqe tutdu, lakin Avropada onu canlı insan ünsiyyətinə yönəlmiş modellər – nitq aktları nəzəriyyəsi, məntiqi semantika sıxışdırdı. Nitq aktları sahəsindəki kəşf ondan xəbər verir ki, dil təkcə reallığı təsvir etmir, eyni zamanda özü onun bir hissəsidir. 60-cı illərin performativ fərziyyəsinə görə, bütün fellər potensial olaraq performativdir və bütün cümlələr potensial nitq aktlarıdır.

Bütövlükdə koqnitiv dilçilik N.Xomskinin təlimi ilə mübahisədə öz mövqelərini möhkəmləndirirdi. Bu istiqamət bir sıra tanınmış adlarla təmsil olunurdu: L.Talmi, Ç.Fillmor, R.Lanqaker, C.Lakoff, U.Çeyf, R.Cekendorff.

L.Talmi obyektin koqnitiv təmsilçisi anlayışını işləmişdi ki, onun müxtəlif komponentləri dilin leksik və qrammatik yarımsistemləri ilə səciyyələnir (11,91). "Dildə və təfəkkürdə güclərin dinamikası", "Mədəniyyətin koqnitiv sistemi", "Narrativ koqnitiv təsəvvürlər çərçivəsində" kimi əsərlərin müəllifi olan L.Talmi bir çox koqnitiv kateqoriya və anlayışları dəqiqləşdirdi; onun axtarışları rus tədqiqatçıları A.A.Xolodoviç, T.B.Bulıginanın tədqiqatlarına tipoloji cəhətdən yaxındır.

Obyektin koqnitiv təmsilçisi cümləni, nitq situasiyasının, fon mənaların anlanılmasını təşkil edən referensial mənaların müxtəlif koqnitiv proseslərin elementlərinin köməyi ilə yaradılır. Koqnitiv təmsilçini izah etmək üçün L.Talmi dilin iki yarımsisteminin dixotomiyasının – leksik və qrammatik səviyyələrinin universallığını qeyd edir. «Hər iki sistem bir-birinə münasibətdə zəruri və əlavə olan aydın semantik funksiyalara malikdir. Bu zaman cümlə (yaxud diskursun hər hansı digər hissəsi) dinləyicinin şüurunda onun təcrübəsinin müəyyən hissəsini fəallaşdırır və həmin hissə koqnitiv təmsilçidir(11.94).

L.Talmiyə görə, cümlənin qrammatik və leksik yarımsistemləri koqnitiv təmsilçinin müxtəlif komponentlərini ümumi halda səciyyələndirir. Cümlənin qrammatik elementləri koqnitiv təmsilçinin strukturunu müəyyənləşdirir, leksik elementləri isə onun məzmununun böyük hissəsini təşkil edirlər. Beləliklə, cümlədəki yaxud diskursun digər elementindəki qrammatik xarakteristikalar konseptual çərçivəni yaxud Talminin izah etdiyi kimi, leksik cəhətdən ifadə olunan konseptual material üçün özülü təmin edir. Qrammatik elementlər cəm şəkildə ciddi müəyyən olunmuş çoxsaylı əsas konusitləri səciyyələndirir; qrammatik cəhətdən ifadə olunan çoxçaylı anlayışlar dilin əsas konseptual strukturyaradıcı sistemini təşkil edir: geniş mənada qrammatika dildə koqnitiv sistemdəki kimi konseptual strukturu müəyyənləşdirən amildir və belə anlamda qrammatika müasir dilçilikdə əsas obyektə çevrilir(11,97).

Qeyd edildiyi kimi, koqnitiv tədqiqatlarda nitq aktları nəzəriyyəsi, onların tanınması və interpretasiyası barədə fərziyyələr mühüm rol oynayır. Nitq ünsiyyətini səmərəli və adekvat edən qayda və şərtlərin təbiəti qrammatik səriştəliyi həmişə nəzərdə tutur, qrammatik nəzəriyyənin özünün töhfəsi mübahisə doğurur. Hər hansı bir dilxarici kontekstə müraciət etmədən bu və ya digər söyləmi dəqiq təfsir etmək olmaz, çünki o, eyni bir qrammatik xarakteristikalar zamanı hə təsdiq, həm sual, həm də xahiş kimi səslənə bilər. Amerika dilçisi G.Fava "illokutiv gücün dil göstəriciləri" anlayışı ilə bağlı morfosintaktik meyarlar dəstinin adekvat təsvirinin mühümlüyünü müdafiə edir. Morfosintaktik meyarlar dəsti dedikdə söyləmi müəyyən növ hərəkət kimi, hərəkətə vadar etmə, sual, təsdiq, inandırma və s. kimi şərh etməyə imkan verən

dil elementləri başa düşülür. Fava tanınmış dilçilərin illokutiv güclərin göstəriciləri kimi fel şəkilləri barədə (C.Ostin), xalis semantema kimi felin şəkli və imperativi barədə (E.Benvenist) fikirlərini ümumiləşdirir. Fava illokutiv gücün göstəricilərinin şərhində oxşarlıq və fərqliliyi qeyd edir, D.Devidson isə cümlənin formasını və funksiyasını fərqləndirir – təsdiq etmək, əmr vermək, arzu ifadə etmək, suallar vermək. Felin şəkilləri cümləni təsnif edir, funksiyalar isə söyləmi təsnif edir. Digər həll təklif edənlər nitq aktları nəzəriyyəsini generativ qrammatikada şərh etməyə cəhd göstərirlər. Danışığı və bu zaman edilən hərəkəti fərqləndirərək C.Seydok sual imperativlərini, sual deklaritvlərini, impozitivləri, psevdoimperativləri və başqalarını fərqləndirir. Qrammatik struktur və illoktutiv güc arasında korrelyasiyaları təsəvvürün daha ümumiləşdirici formalarına calamaq tendensiyası daha çox yayılmışdır. Qrammatik struktur və illokutiv güc arasında sərhədlər silinmiş kimi görünür. Söyləmin illokutiv gücünün göstəriciləri kimi ara sözlərin sintaksisi və semantikası rus-italyan paralelləri aspektində xüsusi tədqiqat predmetinə çevrilir (17,79-100).

Rusiyada koqnitivliyin öyrənilməsi xarici alimlərin əsərlərinin tərcüməsi ilə stimullaşdırılır.(6,8,9) Məsələn, R.Lanqaker koqnitiv qrammatikasında semantika problemlərinə diqqət yetirərək, mənaların qarşılıqlı əlaqəsinin koqnitiv mexanizmlərini ətraflı surətdə təhlil edir. "Koqnitiv qrammatika danışanan dilin mövcud şərtlərini bilməsini səciyyələndirməyə cəhd göstərir. Koqnitiv qrammatika ayrı-ayrı morfoloji yaxud sintaktik vahidlərin mövcud olmasını postulat kimi qəbul etmir. Öz təbiətinə görə rəmzi qrammatik struktur (morfologiya və sintaksis) leksikonla birlikdə simvolik vahidlərin kontinuumunu əmələ gətirir ki, onlardan hər biri semantik və fonoloji qütbə malikdir. Qrammatik modellər yaxud qaydalar sxematik simvolik vahidlər formasında təqdim olunur, onların strukturu bu modelləri konketləşdirən ifadələrin strukturunu təkrar edir. Belə sxematik vahidlər ümumiləşdirməni tutur, ümumi olanı təmsil edir, həmçinin şablon kimi çıxış edir ki, danışan bundan düzgün tipli ifadələrin yaradılması və qiymətləndirilməsi zamanı istifadə edə bilər (8,73-74). Beləliklə, koqnitvlik mətnlə şüurlu manipulyasiya etmənin yeni imkanlarını açır.

Koqnitiv dilçilik üzrə son fundamental əsərlərdən biri E.S.Kubryakovanın tədqiqatlarıdır. Kubryakova koqnitiv dilçiliyi koqnitiv elmin təsiri altında formalaşan elmi biliyin posttörədici paradiqması kimi müəyyənləşdirir, özü də koqnitivlik dedikdə kənardan daxil olan informasiyanı emal edən mental proseslərin cəmini başa düşür. Məhz dil insan şüuru və əqlinin koqnitiv (konseptual) strukturları barədə məlumatların mənbəyidir (13,34-37). Məhz buna görə dil kateqoriyalaşdırması, Kubryakovanın haqlı olaraq yazdığı kimi, "biliyin məzmun strukturlarına" izomorf kimi başa düşülə bilər. Kubryakovanın konsepsiyasının yeniliyi ondan ibaətdir ki, koqnitivizm ideyaları diskursun kom-

munikativ təhlili ilə sintez olur, buna görə kitabda nitq hissələrinə koqnitiv və diskursiv törəmələr kimi baxılır və konsepsiyanın özü isə diskursiv-koqnitiv adlandırılır. Kubryakova nitqin yaranmasının koqnitiv və diskursiv mexanizmlərini təhlil edərək, törədici dilçilik nümayəndələri ilə, Xomski və onun ardıcılları ilə mübahisəyə girişir; koqnitiv strukturlar biliyi, onun fikrincə, diskursdan əvvəl gəlir(13,41-47).

Son dövr linqvistik tədqiqatlarda mətn dilçiliyinin iki əsas mərhələsi qeyd olunur. "Birinci mərhələ mətnin funksional –praqmatik səviyyədə öyrənilməsi; ikinci mərhələ mətnin koqnitiv səviyyədə araşdırılmasıdır. Mətnin funksional-praqmatik araşdırılmaları Avropa və rus dilçiliyində əsasən bədii mətnlər üzərində aparılıb. Lakin hazırda mətn praqmatikasına mətn və ədəbi prosesin digər subyektləri arasındakı əlaqəni təsvir edən kommunikativ modelin bir hissəsi kimi baxan yanaşma daha perspektivli görünür(14,108).

Koqnitiv dilçiliyin təşəkkülü və inkişafı barədə, mətnə koqnitiv yanaşmanın mahiyyəti və onun kateqorial aparatına dair təsəvvürlər Avropa və rus dilçiliyində yeni formalaşsa da, artıq bu emin yeni istiqamətləri haqqında bir sıra məqalələr çap olunmuşdur.

Voronej universitetinin "Filoloji araşdırmaları"nda koqnitiv dilçiliyin obyekti barədə belə ümumiləşmə təklif olunur: Koqnitiv dilçiliyin əsas onyektini nitq-fikir fəaliyyətinin mexanizmləri, nitqin yaranması və anladılması proseslərdir. Onun əsas məqsədi dilin semantik sistemində (leksik və qrammatik mənalarda) möhkəmləndirilmiş dil biliyinin qeyri-dil biliyi ilə necə bağlı olduğunu təbii dilin mental dilə (fikir dilinə) təsirini anlamaqdır(6, 27).

E.S. Sobolyevanın fikrincə, həm obyektiv, həm də subyektiv reallığı əks etdirən freymləri təsvir ekmək olar. freym-vəziyyətləri və freym-ideyaları araşdıran müəllif ona əsaslanır ki, freym kompleksləri mətnaltı informasiyanın formalaşmasının əsasıdır . Məlumdur ki, produsient və resipient hər hansı hadisələr barədə faktual informasiyanın özünü deyil, bu hadisələrin şəxsi interpretasiyasını qeydiyyata alırlar. " Söyləmin əməlyat işlənməsi" (Van Deyk) dil materiallarının qavranılması və onun interpretasiyasının eyni vaxtda baş verməsi ilə fərqlənir. müəllifə görə, mətnin təşkili zamanı koqnitiv yanaşma çərçivəsindən kənara çıxmaq lazımdır. Yəni mətnə psixolinqvistik yanaşma lazımdır ki, bu zaman mətnə müəllif şüuru obrazlarının verballaşdırılması kimi baxılır.mətnin qavranılması isə müəəllifin və resipientin şüurlarının ümumiliyi ilə şərtlənir. O cümlədən koqnitiv təhlilin psixiolinqvistik təhlillə kəsişməsində reklam mətnlərinin örənilməsində daha çox tətbiq edilir(13, 230-231).

Beləliklə, qrammatika vizual qavrama sistemi kimi digər koqnitiv sistemlərin sırasında qəbul olunur, bu fikirlər tədqiqatçıları insan şüurunda konseptual strukturun ümumi təbiəti barədə fikirə gətirib çıxarır. Bu ideya hal-hazırda tam qəbul olunmayıb. Pyatiqorsk linqvistik universiteti "Koqnitiv paradiqma" adlı beynəlxalq konfransın proqramına koqnitiv fəlsəfə, koqnitiv

dilçilik, koqnitiv ədəbiyyatşünaslıq, koqnitiv psixologiya, pedaqogika, metodika kimi problemləri daxil etmişdi. Bu siyahıda sosiologiya, politologiya, tarix, hüquqşünaslıq və hətta iqtisadiyyat nəzəriyyəsi də unudulmamışdı. Bu siyahıya ritorika salınmayıb, koqnitiv dilçiliyin daxilində nəzərdə tutulub, koqnitiv paradiqma hər şeydən əvvəl ritorikaya tətbiq olunur(14.108). Buna görə koqnitv və linqvoritorik paradiqmaların qarşılıqlı əlaqələri məsələsi xüsusi əhəmiyyət kəsb edir. Fikrimizcə, linqvoritorik yanaşma ritorikanın dilçilik statusunu möhkəmləndirir, onun üstün xarakterininə aydınlıq gətirir (ənənəvi dilçiliyin nümayəndələri deyirlər ki, ritorika ədəbiyyatşünaslıq sahəsidir) Linqvoritorik paradiqma filologiyanın iki budağının birləşməsi məsələlərinə cavab verir ki, buna da bugün çox ehtiyac duyulur.

Beləliklə, koqnitiv dilçiliyin bu gün üçün nailiyyətlərini göstərmək mümkündür:

- dilçilik dil mənzərəsinin tərkib hissəsi kimi daxil olduğu dünyanın koqnitiv(mental) mənzərəsi haqqında təlimdir;

- koqnitiv dilçilik bu mənzərənin (sistemin) komponentləri kimi dünya haqqında bizim biliklərin ayrı-ayrı kvantlarının mental reprezedentləri kimi çıxış edən konsept və freymlər haqqında təlimdir;

- koqnitivlik əsasən öz qaydalarına uyğun fəaliyyət göstərən modulların mürəkkəb sistemi kimi dil haqqında təlimdir.

ƏDƏBİYYAT

1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri, Bakı 1999.
2. Abdullayev K. və başqaları Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı, 2012.
3. Musayev M.M. Türk dillərində mürəkkəb cümlə sintaksisi, Bakı. 2011. 401 səh.
4. Novruzova N.S. Mətnin öyrənilməsində əsas yanaşmalar: nəzəriyyələr. mülahizələr. problemlər.Bakı,2015. 258 səh.
5. Piriyev E. Koqnitiv dilçilik üzrə praktikum (dərs vəsaiti) Bakı, Mütərcim 2012. 106 səh.
6. Васильев Л.М. Общий взгляд на лингвистику XX века // Филологические записки. Вестник литературоведения и языкознания. – Вып. 11. – Воронеж, 1998. – С. 167-174.
7. Баранов А.Г. Функционально-прагматическая концепция текста. – Ростои-на Дону, 1993. 192;.
8. Ворожбитова А.А. Лингвориторическая парадигма: теоритические и прикладные аспекты: Монография. – Сочи, 2000.

9. Демьянков В.З. Когнитивная лингвистика как разновидность интерпретирующего подхода // Вопросы языкознания. – 1994. - № 4. – с. 17-33.
10. Динсмор ДЖ. Ментальные пространства с функциональной точки зрения // Язык и интелект. Сб. / пер. с англ. И нем. / сост. И вступ. Ст. В.В. Петров. – М., 1995. – с. 385-411.
11. Когнитивная лингвистика: Учеб. пос. Минск, 2004.
12. Кубрякова Е.С. Демьянков В.З., Панкрац Ю.Г., Лузина Л.Г. Краткий словарь когнитивных терминов / Под общей ред. Е.С. Кубряковой. –М., 1996.
13. Кубрякова Е.С. Начальные этапы становления когнитивизма: лингвистика – психология- когнитивная наука // Вопросы языкознания. -1994 а. - № 4 – с. 34-47 .
14. Михалев А.Б. Слои языковой картины мира // Международная научная конференция «Язык и культура». – М., 2001. – с. 108.
15. Розина Р.К. Когнитивные отношения в таксономии. Категоризация мира в языке и в тексте // Вопросы языкознания. -1994. - № 6. с. 60-78.
16. Руднев В.П. Словарь культуры XX века – М., 1997.
17. Рузин И.Г. Когнитивные стратегии именования: модусы перцепции и их выражение в языке // Вопросы языкознания. -1994. – 3 6. – с. 79-100.
18. Соболева Е.С. О возможности сочетания когнитивного анализа рекламных текстов с психолингвистическим // XIII Международный симпозиум по психолигвистике и теории коммуникации. Еуз. Докл. Москва, 1-3 июня 2000 г. \ Ред. Е.Ф.Тарасов. – М., 2000. – с. 230-231.
19. Чернейко Л.О.Металингвистика : хаос и порядок // ВМУ. Сер. 9. Филология. -2001. -№ 5. с.39-52.
20. Шаховский В.И.Языковая личность в эмоциональной коммуникативной ситуации // Филол. Науки. 1998.-№ 2. с. 59-65.

НУРИДА НОВРУЗОВА

ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ КОГНИТИВНОГО АНАЛИЗА ТЕКСТА

РЕЗЮМЕ

В статье нашли отражение тезисы о теоретических основах когнитивного анализа текста в европейском и русском языкознании. Раскрывается понятие когнитивизм, рассматриваются теоретические вопросы восприятия и создания текста как одного из направлений

синтаксиса текста. Также здесь описывается история создания когнитивного языкознания, его основные направления, ученые и их труды. Отмечается, что основы когнитивизма в России надо искать в трудах А.И.Смирнитского, А.М.Пешковского, Л.В.Щербы, потому что они воспринимают слово как носителя грамматического, семантического и дискурсивного свойств. Однако современные когнитивные труды в России активизировались трудами зарубежных, особенно американских ученых. Е.С.Соболева, Е.С.Кубрякова, Р.К.Розина, А.Б.Михайлов, В.П.Руднов, Л.О.Чейнейко, В.И.Шаховский, А.А.Ворожбитова, А.Г.Баранов уделяли большее внимание семантическим проблемам когнитивной грамматики. В европейском языкознании это направлении представляли такие ученые, как: Л.Тальми, Ч.Фильмор, Р.Лангакер, Дж.Лакофф, Р.Джейф и др. Л.Тальми использовал понятие конгнитивный представитель объекта. Л.Тальми уточнил многие когнитивные категории и понятия, которые впоследствии повлияли на исследования русских и азербайджанских ученых.

NURIDƏ NOVRUZOVA

THE THEORETICAL BASIS OF COGNITIVE ANALYSIS OF THE TEXT

SUMMARY

The article contains the main thesis about cognitive theoretical basis of the text in the European and Russian linguistics. Cognitivism concept is explained, the comprehence of the text also theoretical issues of its foundation is being looked through. Also, the foundation of cognitive linguistics, the main directions and researchers, their works and articles are defined. Sources of cognitivism in Russia must be researched in the works of L. V. Sherba, A. M. Peshkovsaky, A.I. Smirtinsky. Because they regard the word as grammatical, semantic and discursive phenomena. But modern cognitive researches in Russia were activated in foreign specially by American scientists. E.S.Soboleva, E.S.Kubryakova, Rozina R.K., MikhailovA.B., Pudnov V.P.,Çeyneyko L.O., Shaxovskiy V.İ. Vorojbitova A.A., Baranov A.Q., paid special attention to cognitive grammar and problems of semantic . This movement was represented by some well-known names in European linguists: L.Talmy, Ch.Fillmor, R.Langaker, C.Lakoff, U.Cheyf, R.Cekendorff. Dinsmor C. and others investigated the phenomena of cognitive representative of the object. L. Talmy defined some cognitive category and phenomenon that impacted the researches of Russian and Azerbaijan scientists.

Rəyçi: prof.Qəzənfər Kazımov

AYGÜL HACIYEVA
AMEA Nəsimi adına Dilçilik İnstitutunun
dosenti,Türk dilləri şbəsinin müdiri
aygul.akhundoff@gmail.com

R.BAĞDADİ "DİVAN"INDA SUBSTANTİVLƏŞƏN VƏ ADVERBİALLAŞAN MORFOLOJİ VAHİDLƏR

***Açar sözlər**: R.Bağdadi, morfoloji vahid, substantivləşmə, adverbiallaşma*
***Ключевые слова**: Р.Багдади, морфологическая единица, субстантивация, адвербиализация*
***Keywords**: R.Baghdadi, morphological unit, substantivization, adverbialization.*

Müxtəlif nitq hissələrinə məxsus olan sözlər zahiri formalarını dəyişmədən isim qrupuna keçir. Dilçilikdə bu hadisə substantivləşmə - isimləşmə adlanır. Baüqa sözlə desək, müxtəlif şəraitdə müstəqil nitq hissəsinə aid olan söz əşyavi mahiyyət kəsb edir; öz əsas mahiyyətini dəyişib isimlərə uyğun olaraq müxtəlif cümlə üzvü kimi çıxış edir. Substantivləşmə maddi varlığa, materiyaya xas olan əlamət və keyfiyyətin dildə maddi varlığı, materiyanı əvəz etməsi hadisəsi, nitq hissələrinin bir-birinə keçmə hadisəsidir ki, dilçilikdə buna keçid prosesi, başqa sözlə, konversiya da deyilir [1, s.15]. Nitq hissələrinin bir-birini mənaca əvəz etməsi məsələsinin mahiyyəti dilçilikdə uzun müddət mübahisəli olmuşdur [2, s.9]. R.Abdullayev dildəki bu cür dəyişməni yeni söz yaradıcılığı üsulu sayanların da olduğunu göstərir [3, s.26].

Substantivlşmənin iki növü vardır: sabit substantivləşmə və kontekstual (okkazional) substantivləşmə. Sabit substantivləşmə onunla izah edilir ki, əvvəllər müəyyən nitq hissəsinə mənsub olan söz daha sonralar həmin nitq hissəsi ilə əlaqəsini tamam kəsir və təkcə isim kimi (göy – "göyərti", quymaq, qazmaq, quymaq və s.) işlənməyə başlayır. Belə sözlər həm əvvəl mənsub olduğu nitq hisssi kimi, eləcə də isim kimi dilin lüğət tərkibində sabitləşib qalır.

R.Bağdadi "Divan"ında sabit substantivləşməyə məruq qalan sözlər müəyyən dərəcədə müxtəlif üslubi məqamlarda işlənmişdir:

***Guşəgir** olsəm əcəb mülkində eyb etmin məni,*
Bulmadım şərti-vəfadə qövli-yarani dürüst (s.203);

*Baş açuq, **yalın** ayaq, vadiyi-eşqi tolanur,*
*Qanu Ruhi kibi aləmdə bu gün bir **səyyah** (s.213);*

Ol ərəbzadə cəvanə eylədikcə ərzi-ruh,
Ğəmzəsi eylər işarət ziri-çeşmindən ki, ruh (s.213) və s.

Kontekstual substantivləşmədə bu və ya digər nitq hissəsinə mənsub olan söz müəyyən bir mətn daxilində xüsusi şəraitdən asılı olaraq isim kimi çıxış edir. Bu, substantivləşmənin daha geniş yayılmış usulu sayılır. Əslində bütün nitq hissələri kontektdən asılı olaraq isimlşə bilirlər. Sabit substantivləşmə ilə kontekstual substantivləşmənin fərqi ikincidəki substantivləşmənin müvəqqəti, yəni keçici olmasıdır. Kontekstual substantivləşmədə sintaktik şəraitlə yanaşı, isimlərə xas qrammatik əlamətlər əsas rol oynayır. Xüsusi şəraitə düşən belə sözlər müəyyən kontekst daxilində kəmiyyət şəkilçisi olan -lar,-lər və üçüncü şəxs mənsubiyyət şəkilçilərini (-ı,-i,-u,-ü;-sı, -si,-su,-sü) şəkilçilərindən birini qəbul edib isim funksiyası daşıyır.

Qeyd edək ki, "Divan"da kontekstual substantivləşmə özünü ən çox sifət, say, işarə əvəzlikləri və feili sifətlərdə, az hallarda isə köməkçi nitq hissələrində göstərmişdir. Məsələn:

• <u>*Sifətlərin substantivləşməsi*</u>:

*Yoq degil gərçi **gözəllərdə** lətafət, amma,*
Səndə, ey şuxi-səfapişə, məlahət, ğalib (s.195);

*Mey söhbətidür **tolular** iç saqiyi-bəzmə,*
Al pusəyi-rüxsarini bir vəchi-zərafət (s.201);

***Xublər** ilə içməği Ruhiyə təklif eyləmin,*
Can qərar anlərmi bir məclisdə kim, dilxah yoq (s.448)

• <u>*Sayın substantivləşməsi*</u>:

R.Rüstəmov sayların substantivləşməsini türk dilləri üçün xarakterik hal sayır [4, s.61]. Sayların substantivləşməsinə "Divan"da aşağıdakı nümunədə təsadüf etdik:

***Çoqların** vəsfi-xətinlə müşkilinhəll eylədim,*
Kim, verür hal əhli-dil yaranə qali-dilguşə (s.182);

• <u>*Əvəzliyin substantivləşməsi*</u>:
"Divan"da qeyri-müəyyən və sual əvəzlikləri substantivləşə bilimişdir:

Bu cəfalər ki yolində çəkəriz cananın,
***Kimsələr** bilməz, ey Ruhi, xudadən bilüriz (s.284);*
***Neçələr** hicrün ilə oldi yolunda əğyar,*
Var ümidim ki, yalan isə də ol gerçək ola (s.183);

• *Feili sifətin substantivləşməsi*:

Feili sifət şəkilçiləri ilə feilin zaman və şəkil kateqoriyası şəkilçiləri ortaqlıq təşkil etsə də, bunlar mətn daxilində fərqlənir. F.Zeynalov haqlı olaraq yazır ki, feili sifətlər həmin şəkilçilərlə işləndikdə əşyanın təyini kimi işlənir. Yalnız substantivləşdikdə müstəqil işlənir [5, s.115].

Saidin dağını görüncə yaqdı Ruhi cismini,
Yerü gög toldi düxanilə, ***görənlər*** *sandi şəb (s.195);*

• *Qoşmanın substantivləşməsi*:

Köməkçi nitq hissələrinin substantivləşməyə məruz qaldığı zaman mübtəda vəzifəsində işləndiyi "Divan"da aşağıdakı nümunələrdə öz əksini tapmışdır:

Həlak olmadan ***ğeyrilər*** *yoq çarəmiz,*
Nə səndən tərəhhüm, nə aşiqdə tab (s.292);

• *Ədatın substantivləşməsi*:

Nolalar *girdi əbayə, ey Ruhi,*
Ətləsi-çərxi heçə satdıq biz (s.285) və s.

Substantivləşməyə aid toplanan nümunələrdən də göründüyü kimi, substantivləşmə hadisəsi özünü ən çox sifətlərdə göstərmişdir.

R.Bağdadi "Divan"ı dilində adverbiallaşan sifətlər.

Nitq hissələrinin semantik dəyişməsi, funksional yerləşməsi və mətni situasiya vəhdətindən asılı olaraq formal cəhətdən bir-birindən fərqlnən müxtəlif sözlər adverbiallaşa bilir. S.Abdullayeva başqa nitq hissələrindən zərf əmələ gəlməsi yolları barədə bəhs edən tədqiqatçıların məhz bir qayda olaraq, dilin semantik inkişafını yüksək qiymətləndirdiyini göstərir [2, s.36].

Məlumdur ki, dilin semantik inkişafı özünü təkcə ayrı-ayrı leksik vahidlərdə yox, eləcə də müxtəlif sözdəyişdirici şəkilçilər vasitəsilə başqa nitq hissələrindən törəyən sözlərdə də əks etdirir. Bir sıra tədqiqatçılar müxtəlif linqvistik amillərlə əlaqədar digər nitq hissələrindən düzələn və zərfin əlamətlərini daşıyan sözləri "zərfləşən sözlər" adlandırırlar. Bu sahədə F.S.Kotelnikin tədqiqatları çox böyük əhəmiyyət kəsb edir [6, s.5-6].

F.S.Kotelnik adların adverbiallaşmasını söz yaradıcılığının leksik-semantik və qrammatik üsulu hesab edərək sözlərin semantik cəhətdən

dəyişərək bir nitq hissəsindən digər nitq hissəsinə doğru inkişafında abstraktlaşmanın əsas rolunu göstərir. Eləcə də ayrı-ayrı leksik vahidlərin adverbiallaşmasında onun aid olduğu sözün mənasının böyük əhəmiyyətini də qeyd edir.

M.Ş.Şirəliyev sifət və zərf məsələsinə həsr etdiyi məqaləsində "yaxşı" sözünün leksik-qrammatik mənasında hər zaman sifət olaraq qaldığını qeyd edir və bu sözün yalnız feillə əlaqələndiyi təqdirdə zərflik funksiyası daşıdığını göstərir [7, s.177].

Göründüyü kimi, sifətlə zərfin fərqləndirilməsində meydana çıxan mübahisələrin əsasında leksik və morfoloji cəhətdən sifət və zərfin bir-birinə yaxınlığı durur. Lakin bu yaxınlığa baxmayaraq E.Kuriloviçin də göstərdiyi kimi, "leksik cəhətdən sifət - əlamət, zərf isə münasibət bildirir" [8, s.65].

Dilçilik ədəbiyyatında sifətlərin substantivləşməsinin asan, adverbiallaşmasının isə çətin dərk edilməsi yazılır [9, s.65]. Bunun əsas səbəbi zərflərin tarixən zəif formalaşması, onların spesifik əlamətlərinin və lüğət ehtiyatının az olması ilə izah olunur [10, s.114-115].

R.Bağdadi öz "Divan"ının dilində qədimdən mövcud olan sözlərdən müxtəlif məqamlarda istifadə etməklə əşyanın əlamət və keyfiyyəti ilə hərəkətin əlaməti və keyfiyyəti arasında uyğunluq yaradılmasına nail olmuşdur:

*Gərçi ol ləli-ləbindən **gözəl** irişür canə səfa,*
Sonra amma xəti sevdasinə düşmək nə bəla! (s.210);

*Ruhiya, bağı-lətafətdə **xub** açılmış güllər,*
Baddən sanmə qızarmışdır o ruyi-ziba (s.313);
***Asan** idi tövbə cami-meydən,*
Gər olmasa baisi-nədamət (s.203) və s.

Ruhi Bağdadinin "Divan"ında işlənmiş sifətlər içərisində maraqlı cəhətlərdən biri də yalnız keyfiyyət bildirən sifətlərin feillərdən əvvəl işlənə bilməsidir. Bu, onu göstərir ki, zərflik funksiyasında işlənmə adverbiallaşma üçün zəruri amillərdən biridir və təbii ki, zərflik funksiyasında işlənən hər söz adverbiallaşa bilməz. Çunki hər hansı bir sözün adverbiallaşa bilməsi üçün onun semantik cəhətdən dəyişməsi zəruridir. Yalnız rəng bildirən sifətlər istisnalıq təşkil edir; belə sifətlərdə semantik dəyişmə baş vermədiyindən onlar adverbiallaşmırlar.

Yuxarıda Ruhi Bağdadi "Divan"ından verilən faktik nümunələrdən də görünür ki, misralardakı *gözəl, xub, asan* sifətləri öz əlamət və keyfiyyət məzmununu saxlamaqla bərabər, yeni məzmun xüsusiyyəti (zərf xüsusiyyəti) də qazanmışlar.

ƏDƏBİYYAT

1. Юлдашев А.А. Конверсия в тюркских языках и ее отражение в словарях // Советская Тюркология, 1970, №1.
2. Abdullayeva S.Ə. Müasir Azərbaycan dilində zərf. Bakı, "Maarif", 1991, c. 9. -122 s.
3. Abdullayev R. Türk dillərində konversiya və ya keçid prosesi. Bakı, "Elm və təhsil", 2011, s. 26. -200 s.
4. Rüstəmov R. Türk dilinin morfologiyası. Bakı, 2007, s.61.
5. Zeynalov F.R. Türk dillərinin müqayisəli qrammatikası. ADU nəşri, Bakı, 1975, s.115.
6. Котельник Ф.С. Адвербиализация имен существительных и прилагательных в современном молдавском литературном языке. АКД., Кишинев, 1965.
7. Ширалиев М.Ш. О синтаксической функции частей речи. Структура и история тюркских языков. М., 1971, с.177.
8. Курилович Е. Деривация лексическая и деривация ситаксическая. - «Очерки по лингвистике». М., 1963
9. Джафаров Дж.А.Переходные процессы в частях речи в современном азербайджанском языке. Докторская дисс., Баку, 1991,-314 с.
10. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 2010, s.114-115.

А. ГАДЖИЕВА

СУБСТАНТИВИЗИРОВАННЫЕ И АДВЕРБИАЛИЗИРОВАННЫЕ МОРФОЛОГИЧЕСКИЕ ЕДИНИЦЫ В ЯЗЫКЕ «ДИВАНА» РУХИ БАГДАДИ

РЕЗЮМЕ

Субстантивация – это замена материальной действительности, материи в языке на признаки и качество материи, переход одних частей речи в разряд других, процесс, который в языкознании именуется как переходный, другими словами, конверсия. Значимость проблемы замены одних частей речи другими по смыслу долгое время в языкознании носила спорный характер. В «Диване» субстантивация отразилась более всего на прилагательных, числительных, указательных местоимениях и причастиях, реже во вспомогательных частях речи. В литературе о языкознании указывается на то, что субстантивация прилагательных воспринимается легче, а адвербиализация гораздо сложнее. Основную

причину объясняем слабым историческим формированием наречий, их специфическими признаками и ограниченным словарным запасом.

A.HAJIYEVA

SUBSTANTIVIZED AND ADVERBIALIZED MORPFOLOGICAL UNITS IN THE LANGUAGE OF "DIVAN" BY RUHI BAGHDADI

SUMMERY

Substantivization is the process of substituting the signs or qualities which belong to things or matters in the languages, and the change of parts of speech which is called the transitional process in linguistics, in other words, it is also called conversion. The content of the problem concerning the substitution of parts of speech according to their meanings has been the matter of argument in linguistics for a long time. In "Divan" substantivization is mostly seen in adjectives, numerals, demonstrative pronouns and participles, but in fewer cases, it is found in secondary parts of speech. In linguistic literature much is written about substantivization of adjectives to be easy, but adverbialization of them is difficult. The real reason of it is mainly explained with historically weak formation of adverbs, their specific features and less vocabulary stock.

Rəyçi: filologiya elmləri doktoru, professor Roza Eyvazova

RƏHİLƏ HÜMMƏTOVA
ADPU

İMADƏDDİN NƏSİMİ POEZİYASINDA TEMPORALLIĞIN QRAMMATİK FORMALARLA İFADƏSİ

Ключевые слова: *Насими поэзия, понятие времени, когда грамматика, грамматические формы, глагольные фото*
Keywords: *Nasimi poetry, the concept of time, when grammar, grammatical forms, verb photos*

XIV yüzilliyin böyük filosof şairi İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatı tarixində bədii-fəlsəfi poeziyamızın əsasını qoymuşdur. Həm fars, həm də ana dilində divan yaradan şairin ölməz misraları xəlqiliyi, dil-ifadə və üslub gözəlliyi, forma və məzmun vəhdəti ilə könülləri riqqətə gətirir. Nəsimi poeziyası məhəbbət və gözəllik, ilahi və dünyəvi eşq, ağıl və idrak fəlsəfəsinin harmoniyasından yoğurulmuşdur. Bu dahi sənətkarın əbədiyaşar şeirləri bu gün də öz təravət və ətrini onu duyan qəlblərə bəxş edir. Nəsimi poeziyası oxucuya humanizm, müdriklik, saf duyğular aşılayır, məslək və əqidə döyüşlərində dəyanət, dönməzlik, mənəvi ucalıq hissləri yaradır.

"Günəş batanda saralar, ancaq Nəsimi sənəti saralmır, solmur, əksinə gündən-günə parlayaraq yeni-yeni üfüqlərə işıq saçır. Zəmanəsinin eşq günəşi kimi parlayan şair orta çağların poeziya göylərinə bir aydınlıq, şəfqət gətirmiş, ana dilimizi və bədii sözümüzü yeni-yeni zirvələrə qaldırmışdır " (1, səh. 22).

Orta çağlarda yaşamasına baxmayaraq, Nəsimi zamanların şairidir. Zamanın fövqündə dayanan Nəsimi poeziyasında zaman anlayışının (temporallığın) ifadəsi olduqca zəngindir. Şairin misralarında temporallıq müxtəlif dil vahidləri ilə – leksik, morfoloji, sintaktik vahidlərlə ifadə edilmişdir. Xüsusilə qrammatik zaman misralardakı əsas zaman məzmununun yaradılmasında xüsusi bir lay təşkil edir. Qrammatik zaman keçmişdə icra olunmuş, indi icra olunan, gələcəkdə icra olunacaq işin zamanı ilə icra olunmuş, olunan və olunacaq iş, hal və hərəkət haqqında məlumat verilən vaxt arasındakı zamandır və hər bir zamanın özünəməxsus morfoloji göstəriciləri vardır. Felin zaman şəkilçiləri: indiki zaman (-ır, -ir, -ur, -ür, -r); keçmiş zaman – nəqli və şühudi keçmiş zaman (-mış, -miş, -muş, -müş; -ıb, -ib, -ub, -üb; -dı,-di, -du, -dü); gələcək zaman, xüsusilə qeyri qəti gələcək zaman şəkilçiləri, (-ar, -ər, -r) Nəsimi poeziyasında üstün mövqedə dayanır.

Nəsimi yaradıcılığında temporallığın morfoloji əlamətlərlə ifadəsini nəzərdən keçirək:

Keçmiş zamanın morfoloji əlamətləri. Şühudi keçmiş zaman

Şühudi keçmiş zaman iş, hal və hərəkətin şahidlik yolu ilə icra olunduğunu bildirir. Bu zamanda iki iş özünü göstərir. Biri keçmişdə icra olunmuş iş, digəri isə həmin iş barəsində şahidlik yolu ilə məlumat verilən iş. Şühudi keçmiş zaman **-dı, -di, -du, -dü** şəkilçiləri ilə formalaşır: yazdı, gəldi, oxudu gördü və s. Şühudi keçmiş zamanda olan iş, hal və hərəkət bütün şəxslər üzrə dəyişir: yazdım, gəldin, gəldik, gördünüz, oxudu, oxudular.

İ. Nəsimi poeziyası üzərində aparılan araşdırmalar onu deməyə əsas verir ki, şühudi keçmiş zamanın morfoloji əlaməti müasir ədəbi dilimizdəkindən fərqlənmir. Hər üç şəxsin iştirakı və şahidliyi ilə iş, hal, hərəkət icra edilir. Bəzən danışanın özü keçmişdə icra olunmuş işin, prosesin bilavasitə iştirakçısı və şahididir:

Könlümü viran eylə**dim**, mehrin yerin can eylə**dim**,
Eşqin mana şan eylə**dim**, düşdü qəmin can üstünə (səh. 62).

Bəzən danışan II şəxsin təki tərəfindən icra olunmuş iş və hərəkətin şahidi olur:

Mərhəba, xoş gəl**din**, ey ruhi-rəvanım, mərhəba!
Ey şəkərləb yari-şirin laməkanım, mərhəba!(səh. 25).

Bəzən danışan III şəxsin təki tərəfindən keçmişdə icra olunmuş işi şahidlik yolu ilə bildirir. Danışanın şahidliyi ilə iş, hal, hərəkətin III şəxsin təki tərəfindən icra edilməsi Nəsimi poeziyasında üstün mövqedədir:

Aldı könlüm, **qılmadı** ol bivəfa bir gəz vəfa,
Yıxdı məmur şəhrini, gör necə viran **eylədi** (səh. 111).

Bəzən iş, hal və hərəkətin icrasında bir neçə şəxs iştirak edir və bu şəxslər qeyri-müəyyəndir. Danışan işi özünün bilavasitə şahidliyi ilə çatdırır:

Dişlərin nəzminə dürdanəvü gövhər **dedilər,**
Görcək üzünü xəlq ayəti-əkbər **dedilər** (səh. 274).

Bəzən də şühudi keçmiş zamanda bir işin icrası nəticəsində yeni bir işin icra olunması üçün şərait yaranır. Proses bu şəkildə ardıcıl olaraq növbələşir:

Çəkdi mişkin zülfünü, **aldı** əlimdən ruzigar,
Şol səbəbdən könlümün halı pərişan **oldu**, gəl! (səh. 127)

Nəsimi poeziyasında şühudi keçmiş zaman, qeyd edildiyi kimi bütün şəxslər üzrə dəyişir.

Nəqli keçmiş zaman. Bu zaman əvvəlcə icra olunmuş bir iş haqqında xəbər verilən zaman şahidlik vermədən, müşahidəçi olmadan, yalnız işin, hal və hərəkətin icrasının nəticəsini bildirən zaman arasındakı vaxtdır. Yəni iş əvvəlcə icra olunur, sonra heç bir şahidlik olmadan həmin işin icrası nəql olunur. Nəqli keçmiş zaman **-mış,-miş, -muş, -müş; -ıb, -ib, -ub, -üb** şəkilçiləri ilə formalaşır: almışam, alıbsan və s. Bütün şəxslər üzrə dəyişir.

İ.Nəsiminin şeirlərində -mış4, -ıb4 şəkilçiləri ilə formalaşan nəqli keçmiş zaman müasir ədəbi dilimizdəki kimidir:

Saqi, ləbindən **əsrimişəm** şol qədəhdən uş,
Məstanə gözlərin kibi məstanəyəm yenə (səh. 68).

Beytin mənası belədir: Saqi (şərabpaylayan), o qədəhdən – şərabdan artıq dodağından sərxoş olmuşam. Sərxoş, kefli gözlərin kimi mən yenə sərxoşam. "Əsrük", "əsrimək" qədim türk leksik yayında işlək vahid olub, "sərxoş", "cöşub-daşan", "kefli" mənalarını bildirir. "Məst" leksik vahidi isə mənşəcə fars dilinə mənsub olub "sərxoşluq", "keflilik" mənalarını ifadə edir. Göründüyü kimi, dahi söz ustadı eyni lüğəvi mənaya malik olan vahidləri mənşəcə türk və fars dilindən götürməklə həm təkrara yol verməmiş, həm də beytin poetik tutumunu qüvvətləndirmişdir. **-miş** şəkilçisinin yaratdığı təəssürat lirik qəhrəmanın ovqatı ilə üst-üstə düşür. **Əsrimişəm** feilindəki **-miş** şəkilçisi göründüyü kimi, iş və hərəkətin qəti olaraq bitməsini deyil, yalnız işin, hal və hərəkətin icrasının nəticəsini bildirir.

Nəsimi bəzən də nəqli keçmiş zaman şəkilçisi ilə icra olunmuş iş, hal və hərəkətin artıq bitdiyini, qurtardığını qəti olaraq bildirir:

Düşmüş müənbər sünbülün xurşidi-taban üstünə,
Şol rəsm ilə mişkin bənin gülbərgi-xəndan üstünə (səh. 62)

Beytin mənası: Ənbər qoxulu saçların (saç əvəzinə sünbül verilərək güclü metafora yaradılmışdır) parlaq günəşin (üzünün) üstünə düşmüşdür. O qayda ilə (o cür) gözəl qoxulu xalın açılmış gül yarpağının üstünə düşmüşdür. Göründüyü kimi, "düşmüş" feli ilə iş və hərəkətin bitdiyi qəti olaraq öz əksini tapır.

Və yaxud:

Gözlərin **süzmüş** və **üzmüş** canını aşiqlərin
Asılı zülfündə yüz min Şiblivü Mənsur idi (səh. 106).

Bu feillərdə ifadə olunan iş və hərəkətin bitdiyi, qurtardığı qəti şəkildə bildirilir.

Müasir Azərbaycan ədəbi dilində nəqli keçmiş zamanın ikinci və üçüncü şəxslərində həmçinin

-ıb,-ib,-ub, -üb morfoloji əlamətlərindən də istifadə olunur. Qeyd etmək lazımdır ki, nəqli keçmiş zamanın -ıb,-ib, -ub, -üb qrammatik forma ilə ifadəsi yalnız müasir ədəbi dilimiz üçün deyil, klassik ədəbiyyatımızın dili üçün də xarakterikdir.

İ. Nəsiminin misralarında nəqli keçmiş zamanın -ıb (-ib, -ub, -üb) morfemləri ilə ifadəsi də müşahidə edilir:

Səni kimdir Adəm oğlu deyən, allah, allah,
Bu sifətdə kim **görübdür** bəşəri cahan içində (səh. 72).

Qeyd etdiyimiz kimi, müasir Azərbaycan ədəbi dilində -ıb (-ib, -ub, -üb) şəkilçisi yalnız ikinci və üçüncü şəxslərə aid olur. Lakin Nəsimi poeziyasında nəqli keçmiş zamanın –ıb,-ib, -ub, -üb morfeminin birinci şəxsə aid olduğuna da təsadüf edilir:

Kəpənək geymişəm, əndişədən azad **olubam,**
Üşümək müşkilini eylədi asan kəpənək (səh. 124).

Qeyd. "Kəpənək" qədim türk sözü olub, "yapıncı" mənasını bildirir. Beytin mənası belədir: Yapıncı geymişəm, qayğıdan azad olmuşam. Üşümək çətinliyini, əngəlini yapıncı asan eylədi. Əslində beytin sətiraltı mənası daha güclüdür. Şairin fikrinə görə, yapıncı (xirqə) öz əqidəsinə, məsləkinə sadiq olan, Allahın nuru üzündə təcəlla tapan kamil insanların, igidlərin donudur (geyimidir). Allahı inkar edənlər onu geyinməz. Digər bir tərəfdən şair lirik qəhrəmanın dili ilə sosial bərabərsizliyə işarə vurur. Yapıncı həmçinin sadə, yoxsul insanların geyimidir, onları soyuqdan qoruyur.

Göründüyü kimi, Nəsimi bir misrada nəqli keçmiş zamanın hər iki qrammatik formasından birinci şəxsin təkində istifadə etməklə həm təkrara yol verməmiş, həm də poetik fikri məhz birinci şəxsin üzərinə yönəltmişdir.

İndiki zaman. Bu zaman hal-hazırkı dövrdə icra olunan işin zamanı ilə həmin iş barəsində məlumat verilən vaxt arasındakı zamandır. Yəni əvvəlcə hər hansı bir işin icrasına başlanır və bu icra sona çatmamış onun haqqında məlumat, xəbər verilir. Bunların hər ikisi eyni zamanda baş verir. İndiki zamanın morfoloji göstəricisi **–ır, -ir, -ur, -ür** şəkilçiləridir və bütün şəxslər üzrə dəyişir. İndiki zaman digər zamanlar üçün meyardır.

İ. Nəsimi yaradıcılığında temporallığın indiki zamanla ifadəsi, əsasən, **-r** və bəzən də -ır, -ir, -ur, -ür morfoloji əlaməti ilə verilir. Araşdırmalar onu deməyə əsas verir ki, Nəsimi poeziyasında indiki zamanın morfoloji əlaməti sonu saitlə bitən feillərə qoşulduqda şəkilçinin tərkibindəki sait itmiş vəziyyətdə işlənib və bu fakt əvvəlcə də qeyd etdiyimiz kimi, daha çox müşahidə olunur:

Gərçi asandır **der**, ey can, eşqini hər bixəbər,
Kim ki şol sevdayə düşdü, bildi kim, asan degil.

Ey ki, sultan olmaq **istərsən,** fəqir ol kim, yəqin,
Kim ki sultan olmadı, sultan degil (səh. 138).

Onu da qeyd edək ki, "r" ünsürü yalnız indiki zamanın deyil, qeyri-qəti gələcək zamanın ünsürü kimi də işlənir. M. Kaşğari bu haqda yazırdı: " ... müzare şəkli feillərin hamısı "r" ilə düzəldilir. Sözün sonunda "r" hərfi varsa, ikinci "r" əlavə edilir. Birinci "r" sözün kökündə mövcud olan "r" dir, ikincisi isə müzare və istiqbal hərfi olan "r" dir... Oğuzlar dildə sürət naminə bəzi feillərdə müzare şəkilçisində olan iki "r" -dən birini atırlar və sözü əmr şəkli kimi bir "r" ilə tələffüz edirlər" (2, səh. 59-60).

Misralarda müşahidə edilən indiki zamanda icra olunan iş, hal və hərəkət subyektə aid olur:

Abdal oluban bəylik edən arifi gör kim,
Bu səltənətin qədrini **sultan bilir** ancaq (səh. 41) .

İndiki zamanda icra olunan bəzi iş, hal və hərəkət yalnız indiki zamanı deyil, qeyri-qəti gələcək zamanı da əhatə edərək aforizm kimi səslənir:

Ey Nəsimi, aqibət varır yelə,
Bivəfa ilə yeyən nanü nəmək (səh. 123).

Beytin mənası belədir: Ey Nəsimi, vəfasızla yeyilən duz-çörək axırda yelə gedər (heç olar). Yeri gəlmişkən, "varmaq" feli ədəbi dilin aktiv lüğət fondundan çıxsa da, "fərqinə varmaq ", "var-gəl etmək" kimi dil vahidlərində, eləcə də qərb dialektində qalmaqdadır.

İndiki zamanda icra olunan iş, hal və hərəkət təbiətə də aid ola bilir. Bu hal xüsusi olaraq poetik məqsədə xidmət edir:

Könlüm gəmisi qərq edə gər eşq dənizinə
Kim, bu dənizin bəhrini **ümman bilir** ancaq (səh. 41).

Şairin poeziyasında bəzən -ar (-ər) şəkilçi morfeminin -ır (-ir, -ur, -ür) şəkilçisini, yəni indiki zamanı ifadə etdiyinə daha çox təsadüf edilir. Bunu misraların semantik yükünə istinadən müəyyənləşdirmək mümkündür. Nümunəyə nəzər salaq:

Daneyi-xalın cahanı tutdu çün,
Türrədən niçün **düzərsən** bunca dəm? (səh. 167)

Beytin mənası: Bir xalın bütün cahanı tutdu, daha qıvrım telindən nə üçün tələ qurursan?

Bu cür əvəzlənmələr " Kitabi - Dədə Qorqud " dastanının, eləcə də folklorun, onun xüsusi qolu olan aşıq ədəbiyyatının dili üçün də xarakterikdir. Məsələn, "Qadın ana! Qarşum alub nə bögrərsən? Nə bozlarsan, nə ağlarsan? Bağrımla yürəgim nə tağlarsan? Keçmiş mənim günimi nə andırarsan?..." "Bu parçadakı -ar2 şəkilçili sözlərin hər biri indiki zamandadır: bögrərsən – böyürürsən (inləyirsən), ağlarsan – ağlayırsan, tağlarsan – dağlayırsan, andırarsan – andırırsan. Bu cür sadələşdirmə mətnin ümumi semantik yükü ilə birbaşa bağlanır" (3, səh, 299).

İ. Nəsimi şeirlərində təsadüf olunan maraqlı dil faktlarından biri də ümumiyyətlə, qrammatik zaman formasının, xüsusən indiki zamanın morfoloji göstəricisinin itməsidir. Müasir ədəbi dilimizdə indiki və qeyri-qəti gələcək zamanın inkarında sait düşümü baş verir: almıram, almaram. Nəsiminin misralarında isə indiki və gələcək zamanın morfoloji əlaməti olan "r" bəzən itmiş vəziyyətdə olur. Nümunəni nəzərdən keçirək:

Qatımdan getməz oldu nari-hicran,
Çəkə **bilməm** nedim, arami-canım (səh. 146).

Misraların semantik yükü "çəkə bilməm" frazeoloji vahidinin məhz indiki zamanı ifadə etdiyini sübuta yetirir – çəkə bilmirəm.

Gələcək zaman. Keçmiş zamanda olduğu kimi, bu zaman anlayışının meydana çıxmasında da indiki zaman əsas meyar olaraq qalır. Gələcək zaman nə vaxtsa icra olunacaq və ya olunmayacaq iş, hal və hərəkətin əvvəlcədən xəbər verilməsini bildirir. Gələcək zaman işin icrasının qəti və qeyri-qətiliyinə görə iki yerə ayrılır. **Qəti gələcək zaman** gələcəkdə qəti şəkildə icra olunacaq və olunmayacaq işin vaxtı ilə həmin iş barəsində xəbər verilən vaxt arasındakı zamanı əhatə edir. Felin bu zamanında işin icrası gələcəkdə qəti şəkildə yerinə yetirilir və -acaq (-əcək) şəkilçisi ilə formalaşır.

Qeyri-qəti gələcək zaman isə gələcəkdə qeyri-qəti şəkildə icra olunacaq işin zamanı ilə həmin iş barəsində məlumat verilən zamanı əhatə edir və -ar (-ər) şəkilçisi ilə formalaşır. Qeyri-qəti gələcək zaman təkcə

qeyri-qəti gələcək zamanı deyil, digər zamanları da ifadə edə bilir. Bu, əsasən, ümumi şəxsli cümlələrdə, atalar sözü və məsəllərdə, aforizmlərdə özünü daha çox büruzə verir.

Ə. Tanrıverdi yazır: "... türk dillərində, o cümlədən Azərbaycan dilində gələcək zamanın qrammatik formaları keçmiş və indiki zamanlara nisbətən sonrakı dövrlərdə formalaşıb " (3, səh. 303).

Gələcək zaman digər zamanlarla müqayisədə dildə az işlənir. Lakin İ. Nəsimi poeziyasında qeyri-qəti gələcək zamanın təsdiq və inkarda verilməsi olduqca üstün mövqedədir. Qəti gələcək zamanın qrammatik formasına isə, demək olar ki, təsadüf olunmur. **-acaq** morfoloji əlaməti ilə verilmiş sözlər gələcək zaman məzmunlu feli sifət kimi işlənmişdir:

Dünya **duracaq** yer deyil, ey can, səfər eylə!
Aldanma anın alına, andan həzər eylə! (səh. 56)

Bəzən də misraların semantik tutumuna istinadən **-acaq** feli bağlama şəkilçisi olaraq verilir:

Musa kimi gər aşiq isən könlünü arıt,
Saf **olmayacaq** ayinə didar ələ gəlməz (səh.84).

Beytin mənası belədir: Əgər sən Musa kimi aşiqsənsə, könlünü təmizlə. Güzgü saf olmayınca üzü görmək olmaz. Təbii ki, beytin məcazi mənası daha dərindir.

Şair fəlsəfi fikirlərini, lirik qəhrəmanın hiss və duyğularını çox vaxt bütün zamanları özündə ehtiva edən qeyri-qəti gələcək zamanla (həm təsdiq, həm inkarı ilə) ifadə edir. İ. Nəsimi duyğu və düşüncələrinin birinci və üçüncü şəxslərlə ifadə edilməsinə daha çox üstünlük vermişdir. Qeyri-qəti gələcək zamanın qrammatik formaları Nəsimi seirlərində **-ar (ər), -r** morfemləri ilə verilir:

Adət budurur kim, dili dildarə **verərlər,**
Dil getdi əlimizdən, dildar **bulunmaz** (səh. 81).

Daş alubani dilbər könlüm şişəsin **atar,**
Qarşu **tutaram,** şişə bilməm qala, ya sinə (səh. 46)

Müasir Azərbaycan ədəbi dilində "... qeyri-qəti gələcək zamanın xüsusiyyətlərindən biri də felin inkar şəkli ilə işlənməsində özünü göstərir. ... inkar bildirən feillərdə birinci şəxs yenə də həmin şəkilçilərlə (-ar, -ər) işləndiyinə baxmayaraq, ikinci və üçüncü şəxslərdə bu şəkilçilərin sait və

samitlə bitən feillərdə həm sait, həm də samitdən əvvəlki **y** səsi düşür və **r** səsi **z** səsi ilə əvəz olunur, yəni qeyri-qəti gələcək zamanı yalnız **z** samiti ifadə edir ” (4, səh. 154).

Klassik ədəbiyyatda, folklor nümunələrində, bəzi dialektlərdə qeyri-qəti gələcək zamanın inkarında I şəxsin təkində **r** səsinin **n** və **z** səsi ilə əvəz olunması da müşahidə edilir. Məsələn,

Dərya, səndə **üzmənəm,**
Boylasam da, **üzmənəm,**
Yarı məndən üzsən də,
Mən yardan əl **üzmənəm** (bayatı).

İ. Nəsimi poeziyasında bu fakt, xüsusilə **r-z** əvəzlənməsi olduqca üstündür. Nümunələrə nəzər salaq:

Deməzəm dil dərdini dildar haqqiçün inan,
Yummazam göz gecələr didar haqqiçün inan (səh. 171).

Şikayət **eyləmənəm** dilbərin cəfasindən,
Onun cəfası mana yegdürür vəfasindən (səh. 195).

Məndə **sığar** iki cahan, mən bu cahana **sığmazam!**

İ. Nəsiminin daha çox qeyri-qəti gələcək zamanın inkarından istifadə etməsi onun öz əqidəsinə, təriqətinə, dininə bağlılığından, əqidə və məslək döyüşlərindəki dönməzliyindən irəli gəlir.

İ. Nəsiminin yaradıcılığında gələcək zaman məzmununun yaradılmasında felin təsriflənən formalarına daxil olan əmr və arzu, şərt formalarının da xüsusi çəkisi vardır. Felin bu formaları zamana görə dəyişməsə də, yəni konkret olaraq zaman kateqoriyasının morfoloji əlamətini qəbul etməsə də, iş, hal və hərəkətin icrasının gələcəyə aid olması heç bir şübhə doğurmur. Nümunələrə nəzər salaq:

Yarın gərək ki, mehri-rüxi dilpəzir **ola,**
Ta hüsn içində xəlqi-cahana əmir **ola** (səh. 35).

Ey Nəsimi, incuyi dürri bilən sərrafə **sat,**
Cövhəri nadana **satma** lölöi-şəhvarini (səh. 103).

Bu nümunələrdə, göründüyü kimi, feillər arzu və əmr formasındadır. Qrammatik zamanın morfoloji əlamətləri olmasa belə, misraların semantik yükü iş və hərəkətin gələcəkdə icra olunmasını nəzərdə

tutur. Yeri gəlmişkən, arzu şəklində işlənmiş fel əmr formasının sinonimi kimi də işlənə bilir: ola – olsun .

Nəsimi şeirlərində gələcək zamanın əmr şəkli və ikinci şəxsin təki ilə ifadəsi olduqca üstündür:

Yüzünü məndən nihan etmək dilərsən, **etməgil!**
Gözlərim yaşını rəvan etmək dilərsən, **etməgil!** (səh. 141).

Müasir Azərbaycan ədəbi dilində felin əmr şəklinin ikinci şəxsinin təki şəkilçi ilə işlənmir. Nəsimi yaradıcılığında felin əmr forması həm şəkilçisiz (müasir ədəbi dilimizdə olduğu kimi), həm də **-gil** şəkilçi ilə işlənir.

İ. Nəsimi poeziyasında feli bağlama və feli sifət şəkilçiləri də temporallığın yaradılmasında xüsusi əhəmiyyətə malik olan qrammatik vasitələrdir. Feli bağlama şəkilçilərinin bəziləri müasir Azərbaycan ədəbi dilində olduğu kimi, bəziləri isə müəyyən fonetik fərqlərlə müşahidə edilir. Müasir Azərbaycan ədəbi dili ilə eyni olanlar: -ınca4; -alı (-əli); -anda (-əndə); -dıqca; -

Müasir Azərbaycan ədəbi dili ilə fərqli olanlar: -cəgin; -ıban4; -ubani; - cəgiz, -gəc və s.

Feli sifət şəkilçiləri də müəyyən fonetik fərqləri nəzərə almasaq (-digi, -dügün, - dığı, -duğu; -düyüm; -an (-ən); -acaq (-əcək); -mış, -miş, -muş, -müş), müasir ədəbi dilimizdən fərqlənmir. İstər feli bağlama, istərsə də feli sifət şəkilçiləri iş, hal-hərəkəti keçmiş və indiki zaman kəsimləri ilə əlaqələndirməkdə mühüm rol oynayır.

Göründüyü kimi, İ. Nəsimi yaradıcılığında qrammatik zaman anlayışı müxtəlif qrammatik formalarla ifadə edilmişdir. Bütün bu vasitələr isə obyektiv zamanın dildə ifadə vasitələridir.

ƏDƏBİYYAT

1. İmadəddin Nəsimi. Mən bu cahana sığmazam. "Gənclik". Bakı, 1991
2. M. Kaşğari. Divanü lüğət-it-türk. II cild, Bakı, 2006
3. Ə. Tanrıverdi. "Dədə Qorqud" un möcüzələr dünyası. "Elm və təhsil". Bakı, 2015
4. M. Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. "Şərq – Qərb". Bakı, 2007

ГУМБАТОВА РАХИЛЯ

ТРАНСПОРТИРОВАНИЕ ВРЕМЕННОСТИ С ГРАММАТИЧЕСКИМИ ФОРМАМИ В ПОЭЗИИ ИМАДАДДИНА НАСИМИ

РЕЗЮМЕ

Статья. И.Насими поэзия в грамматических формах выражения было сказано. Temporallıgın очень богата морфологическое выражение симптомов. Насими mısralarında прошлое, настоящее и будущее время включает в себя детальный сравнительный морфологическая характеристика современного литературного языка. В статье также образует temporallıgın расследование принимал участие в создании глагола команды. Когда концепция формирования деепричастия и прилагательного суффиксов глагола также играет важную роль. В статье приводит к понятию времени, Насими поэзия и словесные прилагательных суффиксы представлены в деепричастия.

HUMMATOVA RAHILA

TRANSPORTATION TIME WITH THE GRAMMATICAL FORMS IN POETRY IMADADDINA NASIMI

SUMMERY

An article I.Nasimi poetry in grammatical forms of expression have been told. Temporality very rich morphological expression of symptoms. Nasimi's verses past, present and future time includes detailed comparative morphological characteristic of the modern literary language. The article also forms temporality an investigation has been involved in the creation of the command verb. When the concept of the formation of the verbal adverb and adjective suffixes of the verb also has an important role. The article leads to the concept of time, Nasimi poetry and verbal adjective suffixes are shown in verbal adverb.

Rəyçi: Əzizxan Tanrıverdi
filologiya üzrə elmlər doktoru, professor

GÜLDANƏ PƏNAHOVA
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Milli Aviasiya Akademiyası

SİNONİMİK MÜNASİBƏTLƏRİN TƏDQİQİNDƏ DİLÇİLİK ƏNƏNƏLƏRİ

Açar sözlər: *sinonimiya, sinonimik münasibətlər, dil vahidləri, dilçilik*
Keywords: *synonyms, synonymous relations, language units, linguistic*
Ключевые слова: *синонимия, синонимические отношения, языковые единицы, языкознание*

Giriş. Bildiyimiz kimi, sinonimiya və ya sinonimik münasibətlər dil vahidləri arasında olan və dilçilikdə mövcud olan universal münasibətlər tipinə aid edilir. Sinonimiya və ya sinonimik münasibətlərin mahiyyəti dil vahidlərinin mənalarının tam və ya qismən üst-üstə düşməsinə əsaslanır. Dünya dilçiliyində sinonimiya və ya sinonimik münasibətlərə maraq çox qədim zamanlardan yaranmışdır. Məsələn, rus dilçiliyində sinonimiya və sinonimik münasibətlər haqqında ilk məlumata 1627-ci ildə Kiyev şəhərində işıq üzü görmüş "Slavan-rus kleksikonu və adların izahı" kitabında rast gəlinir (1). Alman dilində isə "sinonim" terminindən 1794-cü ildə çap olunmuş "Alman sinonimiyası və mənasına görə qohum olan sözlər" (2) kitabında istifadə olunmuşdur. İngilis dilçiliyində sinonimlərə müraciət, alimlərin də qeyd etdiyi kimi, fransız dilinin və fransız dilçiliyinin təsiri ilə olmuşdur. Bu təsirin tarixi isə Q.Xirar adlı fransız müəllifinin 1718-ci ildə işıq üzü görmüş "Düzgün fransız dili" kitabı (3) ilə başlayır. İngilis dilində sinonimiyaya münasibət bu kitabın təsiri ilə yazılmış və daha dəqiq desək, adıçəkilən kitabın C.Trasler tərəfindən edilmiş tərcüməsi ilə başlayır. C.Traslerin kitabı "İngilis dilində sinonim hesab edilən sözlər arasında fərq" başlığı ilə çap etdirir (4). Azərbaycan dilçiliyində sinonimiyaya bu cür tərif verilir: "Sinonimlik dilçiliyin leksikologiya, üslubiyyat, semasiologiya və başqa sahələrində tədqiq olunur. Bu isə o deməkdir ki, sinonimlik anlayışı genişdir. Sinonimlər lüğət tərkibini zənginləşdirir, başqa dil vahidlərinin bir-birinə yaxın variantlarını reallaşdırır, semasiologiyada isə yaxın, incə məna çalarları yaradan, eyni zamanda sözün semantikasının parçalanması və genişlənməsi prosesinə xidmət edən bir vasitə kimi öyrənilir.

Sinonimlər öz potensial imkanları ilə ana dilimizin məna zənginliyini təqdim edir. Həm ana dilimizdə, həm də elə xarici dillərdə sinonimlərin xidməti həmin dillərin bilavasitə işlənməsini intensivləşdirir.

Sinonimlər leksik-semantik kateqoriya kimi aşağıdakı cəhətləri ilə diqqəti cəlb edir:

1. Danışıq dilini zənginləşdirir.

2. Dili incələşdirir, onun təsir gücünü artırır.

3. Mənanı qüvvətləndirir.

4.Dildə emosiya yaradır.

5. Nitq mədəniyyətində həlledici rol oynayır.

6. Fikri çatdırmaq üçün ona aydınlıq gətirir, eyni za□manda həm də dəqiqləşdirir.

7. Arzuolunmaz təkrarın qarşısını alır.

8. Təsirliliyi artırır və s.” (5, 3).

Azərbaycan dilçiliyində bu leksik hadisə haqqında söylənmiş bütün məlumatların ümumiləşdirilməsindən belə bir nəticə alınar: “Sinonimlər – dilçilikdə müxtəlif cür tələffüz olunan və yazılan, ancaq eyni və ya oxşar mənaları olan sözlərdir. Sinonimlər nitq qabiliyyətini zənginləşdirməyə xidmət edir. Sinonimlər arasında oxşarlıq olsa da, onlar öz fikri ifadə zənginliyi, müəyyən üslubla bağlılığı və işlədilmə dərəcəsinə görə fərqlənirlər. Sinonimləri təşkil edən sözlər eyni nitq hissəsinə aid olur. Bədii ədəbiyyatda hər hansı bir deyimin təsir gücünü, bədiiliyini artırmaq üçün sinonim sözlərdən istifadə olunur. Sinonimlər dilin zənginliyini və ifadə qüdrətini göstərən əlamətlərdən biri sayılır”.

Çağdaş dönəmdə sinonimiya və sinonimik əlaqələrin tədqiqi sahəsində bir neçə konsepsiya formalaşmışdır. Bu konsepsiyalar əsasən sinonimiya sözünün və anlayışının ifadə etdiyi mənalar əsasında təsnif edilmişdir. Bu cəhətdən konsepsiyaları iki əsas istiqamətə ayırmaq mümkündür:

Birinci konsepsiyaya görə, sinonimlər semantik cəhətdən eyni olan, amma üslubiyyat sistemində fərqli yerlər tutan sözlərdir. Bu konsepsiyanın tərəfdarları belə hesab edirlər ki, sinonimik əlaqədə olan sözlərin birinin əsas mənası və digərinin məcazi mənası bir-birinin ekvivalenti kimi qəbul edilə bilməz.

İkinci konsepsiyaya görə isə, sinonimik əlaqədə olan sözlər semnatik eynilik və semantik yaxınlığı ilə fərqlənirlər. Çağdaş dünya dilçiliyində bu konsepsiyanın tərəfdarları daha çox üstünlük təşkil edirlər.

Fikrimizcə, ikinci konsepsiya dana məntiqəuyğundur. Çünki bir-biri ilə sinonimik əlaqədə olan sözlərin mənaları heç zaman tam şəkildə üst-üstə düşə bilməz. Mənaca üst-üstə düşən sözlər çox zaman leksik dubletlər və variantlar kimi götürülür. Əsl sinonimlər kimi isə mənalarının biri uyğun olmayan sözlər hesab edilir (6).

Görkəmli rus dilçisi Q.Vinokur szlərin sinonimliyinə dair belə bir fikrə gəlir ki, “sözlərin sinonimliyi fiksiyadan, uydurmadan başqa bir şey deyildir” (7). Sinonimiyanın bu şəkildə inkar edilməsi sinonimik sözlərlə mütləq sinonimlərin eyniləşdirilməsi zamanı baş verir. Çağdaş dilçilikdə isə artıq mütləq sinonimiyanın mövcud olmaması barədə fikirlər bərqərar olmuşdur. Avropa dilçisi Blumfild də bu barədə yazırdı: “Hər bir linqvistik forma daimi və spesifik formaya malik olur. Formalar fonetik cəhətdən fərqlidirlərsə, biz belə

hesab edirik ki, onların mənaları da fərqli olmalıdır... Uzun sözün qısası biz belə hesab edirik ki, həqiqi sinonimlər mövcud deyildir" (8). Bununla yanaşı, dilçilikdə belə bir fikir də mövcuddur ki, tam sinonimiyaya yalnız terminologiya sahəsində rast gəlmək mümkündür. Amma bu məsələyə toxunan ingilis dilçisi C.Layonz yazırdı: "iki və daha artıq sinonim termin, prinsip etibarilə, aid olduğu ixtisas sahəsində yalnız bir müddət paralel şəkildə işlənib yaşaya bilər. Müəyyən müddətdən sonra onlardan biri dildə öz mövqeyini bərkidəcək, digəri isə rəqabətə dözməyib sıradan çıxacaqdır" (9, 138). Rus dilçiləri E.Tolikina və A.Krıjanovskayanın fikrinə görə isə, "termin sinonimiyadan qaçmalıdır, çünki sinonimiya – ümumi ədəbi dilin xeyirli semantik prosesidir, terminologiyada isə bu çatışmazlığa çevrilir" (10; 11, 12-13).

Macar dilçisi S.Ulman isə yazır ki, mütləq sinonimlik bizim dilə münasibətimizə tamamilə əksdir. Dildə bir-birini tam şəkildə, hər zaman, hər bir kontekst daxilində əvəz edə bilən sinonimlər mövcud ola bilməz. Bu zaman həmin sözlər mütləq şəkildə nominativ məna, emosional çalar və s. baxımından dəyişikliyə uğrayacaqdır (12, 141). Diliçilikdə sinonimlərə münasibəti ümumiləşdirsək, deyə bilərik ki, bu fikirlər əsaən üç bpyük qrupa salına bilər. Birincisi, məna baxımından tamamilə üst-üstə düşən sözlər sinonimiya yarada bilər. İkincisi, sözlər ayrı-ayrı komponentlərinə görə sinonimiya yarada bilər. Üçüncüsü, eyni cisim, predmet və hadisəni ifadə edən sözlər sinonimiya yarada bilər. Əlbəttə, dilçilərin böyük əksəriyyəti sinonimiyaya mənaca yaxın olan sözlər kimi yanaşırlar. Fikrimizcə, bu, çağdaş dönəm üçün ən düzgün yanaşma sayıla bilər. Amma bu halda da bəzi istisnaları mütləq nəzərə almaq lazımdır. Ümumiyyətlə, sinonimləri və kvazisinonimləri fərqləndirmək lazımdır.

Dilçilikdə sinonimiya və sinonimik münasibətlərlə bağlı bir qisim mübahisəli məqamlar da mövcuddur. Sinonim anlayışının tam müəyyənləşməsi üçün sinonimiya daxilində mövcud ola biləcək fərqlilikləri öncədən müəyyənləşdirmək lazımdır. Bu fərqliliklər isə sinonimiya hadisəsində mütləq şəkildə olmalıdır. Bu fərqliliklər sinonimiya barədə tədqiqat əsəri yazan bütün dilçilər tərəfindən təsbit edilmişdir. Beləliklə, sinonimik əlaqədə olan sözlərin hər birinin özünəməxsus məna çaları olur, digər sözlərlə sinonimik əlaqəyə girən zaman da söz bu özünəməxsus çaları itirmir, bu zaman sözün kateqorial funksiyalarına toxunmur.

Məhz bu məna çaları dilin sinonimiyasında mühüm əhəmiyyətə malik olur. Sinonimiya nitqi daha canlı, fərqli, dolğun və zəngin edir. Sinonimik əlaqədə olan sözlər danışıq zamanı təsvir olunan cisim, predmet və hadisə barədə daha dolğun və dəqiq təsəvvür yaratmağa imkan verir.

Sinonimiyanın mənşəyinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu barədə də dilçilik ədəbiyyatında müxtəlif fikirlər mövcuddur. Amma bu fikir və mülahizələri ümumiləşdirərək belə yekdil qənaətə gəlmək mümkündür ki, bu v ya digər dilin lüğət fondunda sinonimiyanın mənbələri fərqli ola bilər. amma bu

fərqliliyini içərisində hər zaman ümumi cəhətlər də tapmaq mümkündür ki. həmin ümumi və ya ortaq cəhətləri aşağıdakı şəkildə ümumiləşdirmək mümkündür:

1. qeyri dillərə məxsus sözlər: məsələn, dünyanın əksər dillərində linqvistika sözü həmin dildəki ekvivalenti ilə paralel şəkildə işlənir. Azərbaycan dilində - *dilçilik – linqvistika* və ya rus dilində *языкознание- лингвистика* və s.
2. dilin dialektlərindəki söz ehtiyatı da hər zaman sinonimik cərgənin yaranmasında bilavasitə rol oynayır.
3. dildəki jarqon sözlər də sinonimik cərgəni yarada bilir. məsələn, oğru sözü julik sözü ilə paralel işlənir.

Dildə həm də frazeoloji sinonimiya da mövcuddur ki, sinonimiya və sinonimik münasibətlər haqqında danışarkən bu məqamı mütləq şəkildə nəzərə almaq lazımdır. Bəzən elə sözlər sinonimik cərgə yarada bilir ki, adi hallarda onlar sinonimlik münasibətində olmurlar. Belə sözlər bu və ya digər frazeoloji birləşmələr daxilində sinonimik münasibətə girə bilirlər ki, belə hallarda frazeoloji sinonimiya hadisəsi baş verir. Məsələn, rus dilində belə frazeoloji sinonimiyanı "дело-факт-обстоятельство" sözləri yara bilirsə, Azərbaycan dilində buna qarşılıq olaraq "iş-hal-vəziyyət-qəziyyə" sinonimik cərgəni misal gətirmək mümkündür.

Amma bu halda sinonimlər və sinonimiya ilə paradoks bir halla qarşılaşırıq. Paradoks isə ondan ibarətdir ki, dildə şübhəsiz. bir-birinə mənaca yaxın və ya eynimənalı sözlər mövcuddur ki, onlar müəyyən kontekst daxilində bir-birini əvəz edə bilir. Amma bütün hallarda onlar arasındakı münasibətlər şərti olacaqdır.

Bu gün çoxlu sayda sinonimlər lüğətləri tərtib edilmiş və nəşr edilmişdir. Lakin həmin lüğətlərlə yaxından tanışlıq zamanı məlum olur ki. o lüğətlərə salınan sinonimlərin heç də hamısı sinonimik münasibətdə olmurlar. Çox zaman lüğətlərdə sinonim kimi təqdim edilən bu sözlər sadəcə yaxın mənalı sözlərdir ki. bəzi kontekstlərdə assosiativ cərgələr yarada bilirlər. Belə sözlərə nəzər yetirərkən məlum olur ki, onlar hətta bir-birini əvəz etmək qabiliyyətinə də malik deyillər və ya çox nadir hallarda bir birini əvəz edirlər.

Bu zaman bir məqam da xüsusi olaraq vurğulanmalıdır. Əksər hallarda sinonimik cərgənin yaranmasında və hətta tədqiqində kitab dilinin leksik qatının böyük əhəmiyyəti vardır. Siyasi, hərbi, iqtisadi və s. sahələrin leksikasında sinonimlər, sinonimiya, sinonimik münasibətlər isə daha az tədqiq olunmuş və ya heç tədqiq olunmamış sahələrdən biridir.

Leksik sinonimiya nəzəriyyəsinin formalaşması yolunda yaranan mühüm problemlərdən biri də sinonimlik faktının formal olaraq təsdiq olunmasıdır. Yəni iki və daha artıq sözün mənalarının üst-üstə düşməsi və ya eyniliyi hələ onların sinonimliyinə və ya qeyri-sinonimliyinə dəlalət edə bilməz. Məhz buna

görə də sinonimlik faktının müəyyənləşdirilməsi üçün dilçilər tərəfindən bir sıra əlavə kriterilər də müəyyənləşdirilmişdir:

- leksik vahidlərin məna ümumiliyinin mövcudluğu
- leksik vahidlərin əşyavi ümumiliyi
- məna yaxınlığı və ya eyniliyi
- sinonimik vahidlərin eyni nitq hissəsinə aid olması
- leksik vahidlərin bir-birini əvəz edə bilmək qabiliyyəti
- leksem uyğunluğunun eyniliyi və s.

Qeyd edək ki, sinonimik əlaqədə olan sözlər, yəni sinonimlər bu göstərilən kriterilərin eyni zamanda bir neçəsinə cavab verə bilər.

Nəticə. Beləliklə, dildə sinonimiya, sinonimlik, sinonimik əlaqələr və sinonim anlayışlarının tədqiq edlməsi üçün dildə olan sözlərinmənasının fərqli aspektləri kriteri kimi götürülür:

- sözün semantik aspekti – sinonimiya yaradan sözlər eyni nitq hissəsinə aid olur, bu sözlərin mənaları yaxındır və ya üst-üstə düşür.
- sözün struktur aspekti – sinonimiya yaradan sözlər bir-birini sözün tərkibində heç bir dəyişiklik olmadan əvəz edə bilər.
- sözün praqmatik aspekti – sinonimik sözlər adlandırılan cisim, predmet və hadisənin eksperssiv-emosional işarəediciləri kimi çıxış edir.

ƏDƏBİYYAT

1. Берында П. Лексикон славяно-российский и имен толкование. Киев: 1627
2. Немецкая синонимия или родственные по значению слова. Сборник статей. 1794
3. Хирар Г. Правильность французского языка. Париж: 1718 с.
4. Траслер Дж. Различия между словами, считающимися синонимами в английском языке. Лондон: 1723
5. Seyidəliyev N. Müasir azərbaycan dilində üslubi sinonimlər. Bakı: 2012, 120 c.
6. Постникова С.В. Синонимы в немецком языке и основные приемы их активизации. Москва: Высшая школа, 1984, 112 с.
7. Винокур Г. Культура языка. Москва: 1929
8. Bloomfield L. Language. Chicago: 1964
9. Лайонз Дж. Язык и лингвистика. Вводный курс / перевод с английского И. Муравьева, Е. Устинова. Москва: 2004
10. Толикина Е. некоторые лингвистические проблемы изучения термина // Лингвистические проблемы научно-технической терминологии. Москва: Наука, 1970, с. 53-67

ПАНАХОВА ГУЛДАНА

ЛИНГВИСТИЧЕСКИЕ ТРАДИЦИИ В ИССЛЕДОВАНИИ СИНОНИМИИ

РЕЗЮМЕ

В статье исследуются синонимические отношения в лингвистике. Как известно, синонимия, или же, синонимические отношения – это тип отношений языковых единиц. Суть этих отношений заключается в полном или частичном совпадении значений этих языковых единиц. Интерес к синонимии и синонимическим отношениям имеет давнюю традицию. Именно исследованию этой традиции и посвящена данная статья. Как известно, **с**инонимия - одна из ключевых тем как при практической работе с языком (будь то писатели, журналисты, редакторы, переводчики), так и при чтении или анализе любого текста. Чем больше в языке синонимических средств, тем он богаче и выразительнее. Синонимия как некая вариативность плана выражения существует практически на всех уровнях языка, но в первую очередь конечно же на лексическом и синтаксическом уровне**.**

PANAHOVA GULDANA

THE LINGUISTIC TRADITION IN THE STUDY OF SYNONYMY

SUMMARY

The article investigates the synonymous relationships in linguistics. As is known, synonyms, or, synonymous relations - a type of relations of language units. The essence of these relations is the full or partial coincidence of the values of linguistic units. Interest in the synonymous and synonymous relationship has a long tradition. It is the study of this tradition and the subject of this article. As is known, synonyms - one of the key themes as in the practical work with the language (whether writers, journalists, editors, translators), and reading or analysis of any text. The more synonymous language means, the richer and more expressive. Synonymy as a kind of variation of the plan of expression exists in almost all levels of the language, but in the first course on the lexical and syntactic level. Author on the extensive material provides an overview of the history of the formation of the science of synonyms, all concepts explore synonymous and approach to them. The article examines the scientific works of English, French and Russian scientists-linguists.

Rəyçi filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Ramazanova

ELMİRA ƏLİYEVA
ADU

MÜASİR DİLÇİLİKDƏ DİSKURS HAQDA MÖVCUD ELMİ-NƏZƏRİ MÜDDƏALARA DAİR

Açar sözlər: *diskurs, nitq, proqressiya*
Key words: *discourse, speech, progression*
Ключевые слова: *дискурс, речь, прогрессия*

Elm inkişaf etdikcə onun anlayışlar sistemi zənginləşdirilir və bu anlayışların adlandırılmasına ehtiyac duyulur. Dilçilik elmində son dövr tədqiqatlarına nəzər salsaq, onlardan biri də diskurs anlayışıdır. Beləliklə, aydın olur ki, mətn böyük anlayışdır. İstənilən diskurs mətndir, lakin istənilən mətn diskurs deyildir. Hətta linqvistik ədəbiyyatda belə bir misal da çəkirlər. Kitab rəfdə olarkən mətndir, amma oxucuya (adresata) çatdıqda diskursa çevrilir. Diskursla mətnin adı filoloji ədəbiyyatlarda yanaşı addımlasa da onlar arasındakı fərq istisna olunmur.

Bu fərqlər aşağıdakı kimi xarakterizə olunur: 1. Diskurs praqmatikadir, mətn linqvistik kateqoriyadır. 2.Diskurs prosesin kateqoriyasıdır, mətn nəticə kateqoriyasıdır. 3. Diskurs abstrakt konstruksiyadır, mətn aktualizasiyadır.

Y.S.Stepanov qeyd edir ki,diskurs dildə dildir, amma özü ilə xüsusi verilənlər təqdim edir. Diskurs öz "qrammatikasında və leksikonunda" mövcud olmur, sadəcə dil formasında olur. V.İ.Karasik diskursun müxtəlif növlərini qeyd edir.Buraya: 1. hərbi 2. tibbi 3.mistik 4. hüquq 5. administrativ 6. pedaqoji. 7. dini 8.diplomatik 9. reklam 10. səhnə 11. kütləvi-informasiya 12. Siyasi 13. idman 14. elmi 15. Işçi . V.Q.Borbotkaya görə, diskurs cümlə və onun birləşmələrindən təşkil olunmuş dilin kommunikativ vahidləri olan mətndir. Tədqiqatçı bu faktı da əlavə edir ki, mətn dil materialı kimi həmişə əlaqəli nitq olaraq təqdim olunmur, məsələn, diskurs kimi.

Filoloji ədəbiyyatda diskurs aşağıdakı kimi xarakterizə olunur:

1. Diskurs öz strukturuna görə verilən dilin digər vahidlərindən seçilir.
2. Diskurs nitqi tam, müntəzəm funksiyalaşdırmaq imkanına malikdir.
3. Diskurs bir dildən başqa dilə ümumi vahid kimi tərcümə edilir.
4. Diskurs nəinki şerlərin ritmika və metrikası, qafiyənin təşkili, hətta poetik aspektdən dil və etnodil spesifikasına malikdir.
5. Diskurs bəzi situasiyaların struktur spesifikasına malikdir.(10, стр. 641-643)

Qeyd edək ki, diskursun özünün sinonimik əvəzlənmələri, həqiqət qanunları, etiketləri vardır. Bu bütövlükdə məntiqi-fəlsəfi termin kimi mümkün "alternativ" dünyadır. Hər bir diskurs "mümkün" dünyadır.

Ənənəvi fransız dilçiliyində diskurs terminlə sinonim götürülürdü. Amma kommunikasiya, sosiolinqvistika, psixolinqvistikanın inkişafı ilə bağlı yeni mənalar kəsb etməyə başladı.

V.İ. Karasik yazır: "Bir-birini tanımayan insanlar arasında xüsusi müxtəlif klişelər vardır. Amma onlar sossiumun normalarına uyğun ünsiyyətə girməlidirlər. Bu instutisional diskursdur". [2, s.80]

Effektiv kommunikasiya müsahibin düzgün anlamını təmin edir. Ünsiyyət təcrübəsi olanlar bu prosesin nə qədər mürəkkəb olmasını, onun iştirakçılarının çətinliklərlə, maneələrlə qarşılaşdığını bilirlər. Bu çətinliklər həm subyektiv, həm də obyektiv xarakterli olaraq müsahibin şəxsiyyəti, onun daxili vəziyyəti, ünsiyyət təcrübəsinin olması və ya olmaması ilə əlaqədar olmayaraq bir sıra obyektiv faktorlardan irəli gələ bilıər. Bu cür çətinliklər xüsusi maraq kəsb edir, belə ki, onların obyektiv xarakteri, real ünsiyyət situasiyasında diskursiv praktika baxımından hesablanılmasını və öyrənilməsini təmin edir. Mədəni kodun transformasiyası anlamanın nəticəsidir. Biliklərin koqnitiv bloklarda reinterpretasiyası zamanı baş verən dekonstruksiyalar yeni obraz üçün stimul yaradır.Diskursa koqnitiv yanaşma diskurs iştirakçılarının koqnitiv bacarıqlarını şərtləndirir.

Koqnitiv yanaşmaya görə nitqin yaranmasına təfəkkür prosesi kimi baxılır, eyni zamanda, bu da koqnitiv və dil strukturlarını onların daim birgə fəaliyyətində və çulğalaşmasında nəzərdən keçirir, amma buna görə prosesin özünün baş verməsi üçün insan beynində yalnız operativ mexanizmlərin olmasına deyil, həmçinin tətbiqinin xüsusi "stasionar" bazası olmasını tələb edir. Daxili leksikon (danışanın yaddaşının dəyişməyən hissəsi) niq fəaliyyətinin vacıb komponenti kimi deyil, onun təmin olunması sistemi kimi öyrənilir. (1. s.20.). Diskurs termini müxtəlif alimlər tərəfindən müxtəlif cür dəyərləndirilə bilər, bununla yanaşı ümumilikdə diskurs termini anlayışı adı altında mətnlər qrupu nəzərdə tutulur. Məsələn, bir mövzu üzrə mətnlərin üst-üstə düşməsi (совокупность) diskurs kimi qiymətləndirilir. Diskurs zaman-məkan ahənginə malikdir. Məkanın parametrləri ən geniş mənada dil, mədəniyyət kimi faktorlarla birləşərək tək, vahid əraziyə münasibət bildirir.

Diskursun bu cür anlamı formasiya haqda təqdimat edir ki, bu da vahid formasiyaya aid olan mətnlər qrupunun yaratdığı diskursdur.

Bütün bu deyilənlərdən aydın olur ki, diskursun linqvokulturoloji aspekti vacib sayılır.

Müasir dilçilikdə iki açar terminlərin- "dil şəxsiyyəti" və"diskurs"un mövcudluğu imkan verir ki, şəxsiyyətin müəyyən tipinin dili dəqiq çizilmiş diskursu ifadə etsin. Yeri gəlmişkən qeyd edək ki, diskurs sosial davranış

forması kimi, sosial dünyanın və elm dünyasının özünün də formalaşmasında alət rolunu oynayır. Bundan başqa, sosial münasibətlərin formalaşmasında da aparıcı rola malikdir. Bu ona görə mümkün olur ki, diskurs sayəsində cəmiyyətdə, insanların baxışlarında və addımlarında dəyişikliklər müəyyən edilir, gizli və aşkar mənalar sahəsi yaradır. Dil vasitələrinin instrumental imkanları ideyası insan beyninin fəaliyyətinin modulyar təşkili sahəsini araşdıran, alimlərin əsərlərində öz əksini tapmışdır

Zaman, məkan, mədəniyyət kimi anlayışların prizmasından diskursun müəyyənləşdirilməsi tədqiqatçını mədəniyyəti dil anlamanın əsas vasitəsi kimi orientasiya edir.

M.Peşe qeyd edir ki, təhlil metodları vardır ki, onların linqvistikaya aidiyyəti yoxdur və onlar ilk olaraq yaranıblar, diqqətə alınmayıblar. Sonralar bu metodlardan istifadə edildi və mətnin mahiyyətini başa düşməyə can atdılar. Əgər mümkünsə, bu "sössürəqədərki" (дососсюровской) forma adlana bilər (Пеше. M . s. 304).Əgər söhbət müasir dilçilikdən gedirsə, bütün "дососсюровские" metodlar yenidən aktuallaşır. Əgər koqnitiv dilçilik baxımından yanaşsaq, model üzrə dil faktlarının təhlili informasiyanın hazırlanması və ötürülməsi dilçilikdə həmişə aktual olmuşdur.Koqnitiv təhlilə görə, işarə onun sistemindən kənarda belə mənaya malikdir. Beləcə, dil şəxsiyyəti, diskursiv tamlıqlar baxımından təhlil edildikdə, mədəniyyətin, mədəni sərvətlərin daşıyıcısı kimi nəzərə çarpır. Burada vacib cəhəti mütləq qeyd etmək lazımdır ki, mədəniyyət dedikdə, fikir məkanı, məqsədlər, quruluşlar, standartlar, etiketlər, ştamplar və s. nəzərdə tutulur.

Beləliklə, dil şəxsiyyəti, xarakterik diskursu əxz edən, diskurs-təhlil aspektində öyrənilən "şəxsiyyət-tip" kimi qəbul edilir. Dil şəxsiyyətinin bütövlüyündən danışmağa imkan verən nitq məkanı diskurs kimi formalaşır.

Beləliklə, diskurs zamanı çoxcəhətliliyin səbəblərini təhlillər əsasında izləyib araşdırmaq, kontekstdə aşkar olunan müxtəlif, rəngarəng, çevik diskurs strategiyalarının təsnifini və təhlilini vermək, tema sərhədinin təbiətini və semantik sahələrini müəyyənləşdirmək maraq doğurur.

ƏDƏBİYYAT

1. Abdullayev Ə.Ə. Koqnitiv dilçiliyin əsasları. Bakı: 2008. s.20.
2.Карасик В.И. Языковые ключи. М: Гнозис, 2009, 406 с.
3. Mammadov Azad/ Person and Media Discourse. Bakı Beynəlxalq Humanitar Forum. "Postmodern Dövrdə Milli Özünüdərk"bölməsinin materialları. ADU, Bakı, 31 oktyabr – 1 noyabr, 2013. s.45-59.

4. Keenan E. Two kids of presupposition in natural language. In studies in linguistic semantics. N.J. 1971, 304 p.
5. Kintsch W and Van Diyk, T. (1978) Toward a model of text comprehension and production. Psychological Review. 85(5), pp. 363-393.
6. Martin J.R., C.I.M. Matthiessen, and C.Painter. Working with Functional Grammar. London: Arnold. 1997.
7. Matthiessen, C.M.I.M. Interpreting the textual metafunction (pp. 37-81). In Davies M. and L. Rabelli (eds), Advanced in Systemic Lingustics. London: Printer.
8. Mathesius, V. On linguistic characterology. Actes du ler Congres International des Linguistes, 1928, pp. 56-63.
9. Miller T. (Ed) Functional approaches to written text. Washington, D.C: US I A. minsky, M (1985)
10. Попова. Е.С. Текст и дискурс. Дифференциации понятий// Молодой ученый – 2014 №=6. стр. 641-643

ALIYEVA ELMIRA

SCIENTIFIC-THEORETICAL VIEWS ON DISCOURSE IN MODERN LINGUISTICS

SUMMARY

This article deals which the discourse in linguistics the author emphasizes the role of discourse. Referring to the works of scientist that have been researched in this field of linguistics she emphasizes that since its emergence the discourse caught the atlention of linguists a new researches appeared. It is noted that this gives us more power to understand the communication progress clearly and use the language more competently. Text as a complex whole contains verbal and nonverbal components. The analysis shows that these components are interrelated. They are interact and complement each other in the process of text. While analyzing the text great attention was given to the linguistic facts taken from linguistic literature.

АЛИЕВА ЕЛЬМИРА

К ВОПРОСУ О НАУЧНО-ТЕОРЕТИЧЕСКИЕ ИДЕИ ДИСКУРСА В СОВРЕМЕННОЙ ЛИНГВИСТИКЕ

РЕЗЮМЕ

В статье речь идёт о дискурса в сфере лингвистики. Автор пытается раскрыть роль дискурса. Она ссылаясь на работы ученых исследовавших эту область лингвистики, а также подчеркивает ее важность в текстовой лингвистике. Отмечается, что эта дает воспоминать смысл текстов во время анализа еще более ясно, а также использовать язык в еще более разнообразном колорите. Текст как сложное целое содержит вербальные и невербальные компоненты. Анализ показывает, что эти компоненты взаимосвязаны. Они в процессе формирования текста взаимодействуют и дополняют друг друга. В течение анализа текста большое внимание обрашено на лингвистические факты, полученные из лингвистических литератур.

Rəyçi: f.f.d.N .M.Əliyeva

НАИЛЯ ГАДЖИЕВА
кандидат филологических наук, доцент
АМУ
naila.abasova@mail.ru

ИЗУЧЕНИЕ ГЛАГОЛЬНЫХ КОНСТРУКЦИЙ НА ЗАНЯТИЯХ РУССКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО

Açar sözlər: *feli konstruksiyalar, yönlük hal, təsirlik hal, sözlərin birləşməsi, sintaktik konstruksiyaların modelləşdirilməsi, leksik-qrammatik amillər.*
Ключевые слова: *глагольные конструкции, дательный падеж, винительный падеж, сочетаемость слов, моделирование синтаксических конструкций, лексико-грамматические факторы.*
Key words: verbal constructions, dative, accusative, combinability of words, modeling syntax, lexical and grammatical factors.

Изучение принципов сочетаемости слов в структуре предложения на практических занятиях русского языка как иностранного необходимо как для дальнейшей разработки синтаксической теории, так и для практики: не разобравшись в основных правилах сочетаемости слов, конструирования синтаксических моделей, изучающие неродной язык сталкиваются с рядом трудностей [1; 2].

В данной статье делается попытка выявить наиболее эффективные, по нашему мнению, приемы обучения студентов-азербайджанцев одному из частных вопросов синтаксического строя русского языка – моделированию синтаксических конструкций с соподчинительной связью дательного адресата и других объектных уточнителей. Выбор темы связан с актуальностью усвоения принципов сочетаемости слов при изучении русского языка как иностранного, а также с теми ошибками, которые характерны для студентов-азербайджанцев («ей не было дома», «я его сочувствую», «приказал его» и т. п.).

Дательный падеж в синтаксических конструкциях функционально чрезвычайно богат и разнообразен: он имеет ряд специфических позиционных положений. Вместе с тем исключительна и его вспомогательная роль по отношению к другим падежам, особенно к винительному без предлога, в соподчинительную связь с которым он вступает в системе сильного и слабого управления: *подарить книгу сыну, купить тетради сестре* и т. п.

Практика показывает, что значения падежей студентами легко осваиваются при изучении многочленных конструкций, в которых каждый инвариант является оппозицией по отношению к другому.

А. М. Пешковский, считая основным значением дательного падежа «значение дальнейшего объекта», «адресата», кому предназначается предмет или действие, отмечает, что это значение «выступает ясно только при тех глаголах, которые одновременно управляют и винительным (*давать* кому что, *говорить* кому что, *делать* кому что и т. д.)» [3, с. 299]. В. А. Богородицкий заметил: «Когда в предложении требуется в качестве дополнения указать тот предмет, для которого совершается действие, то в этом случае глагольные и частью именные названия распространяются дательным падежом, например: «даю книгу тебе» [4, с. 226].

Как видим, оба языковеда указывают на конструкции, в которых датив вступает в соподчинительную связь с аккузативом прямого дополнения. В конструкциях этого типа аккузатив по отношению к стержневому слову занимает более центральную позицию, чем датив, поэтому и А. П. Пешковский в дательном падеже обнаруживает «значение дальнейшего объекта» [3, с. 299]. Эти позиции (центральная и периферийная) реализуют и оппозицию этих двух различных падежей, как бы противопоставляют их друг другу. При таком противопоставлении, разумеется, и легко определить отличительные черты этих двух инвариантов.

Наиболее результативными в этом являются упражнения на материале глагольных конструкций с зависимым дативом, выражающих отношения предоставления, сообщения, волеизъявлении и содействия. Конструкции этого типа наличествуют и в родном языке студентов (в данном случае мы имеем в виду азербайджанский язык).

Аудиторному практическому занятию должна предшествовать подготовительная работа преподавателя к проведению упражнений с этими конструкциями. Для этого преподавателю необходимо подобрать опорные слова-глаголы, конструирующие модели, выражающие названные синтаксические отношения. К числу этих глаголов относятся глагольные лексемы следующих лексико-семантических групп: а) глаголы со значением предоставления (*давая, дать, передать, передавать, вручить, вручать, поручить* и т. д.); б) глаголы со значением сообщения (*говорить, сказать, сообщить, рассказать* и т. д.); в) глаголы со значением волеизъявления (*приказать, повелеть, велеть, разрешить* и т. д.); г) глаголы со значением содействия (*помогать, способствовать, содействовать* и т. д.), управляющие дательным падежом без предлога.

На практическом занятии преподаватель предлагает вниманию студентов эти группы глаголов и просит определить, чем объединяются глаголы каждой группы в отдельности. Здесь важно определение группы в плане семантическом [5, с. 72]. При затруднении можно дать перевод на родной язык. После перевода студенты легко разграничивают группы глаголов по значению: определяют семантическую их дифференциацию. После выполнения этого задания студентам сообщается, что глаголы, объединяющиеся общностью значений, принято называть лексико-семантическими группами. Не мешает при этом сказать о синонимичности глаголов, составляющих лексико-семантическую группу.

Все это делается под непосредственным наблюдением преподавателя. Ведь практические занятия – одна из самых эффективных форм самостоятельной работы студента: именно в аудитории студент учится работать над языком. Наблюдения над живой системой языка, накопление фактических знаний в ходе самостоятельного анализа языковых фактов, формирование навыков использования справочной литературы – таково в основном содержание аудиторных практических занятий. Преподаватель, заранее продумав задание, направляет мысль студента, организует обобщения по материалу, помогает в анализе, контролирует интенсивность работы каждого.

Далее студентам раздаются карточки с опорными словами (сначала с глаголами предоставления, затем – с глаголами сообщения, волеизъявления и содействия). Перед раздачей карточек желательно составить по одной конструкции при помощи какого-нибудь глагола каждой группы. Конструкция послужит образцом выполнения упражнений.

На первых порах преподаватель должен показать студенту, какие мыслительные и лингвистические операции он должен делать, чтобы обнаружить существенные признаки исследуемых конструкций, а затем требовать от самого студента выделения тех элементов, из которых складывается наиболее сложное синтаксическое объединение – предложение.

В данном случае преподаватель ставит перед собой цель научить студентов составлению синтаксических конструкций и разграничению значений винительного и дательного падежей.

В качестве визуальной экспозиции (зрительного показа) примеров для предварительного анализа на доске могут служить следующие предложения:

1. С Мироновым говорить не стал, попросил сразу *передать трубку члену Военного Совета,* если он еще там (К. Симонов. Последнее лето, 24).

2. Серпилин *велел Дурдыеву прочесть* еще раз приказание и сам во время чтения следил по карте (К. Симонов. Последнее лето, 72).

3. Офицер охраны *решил сообщить начальникам* о неожиданной активности землян (И. Ефремов. Час Быка, 119).

4. Миша *помог отцу задвинуть ящик* на место (С. Крутилин. Косой дождь, 16).

Каждое из этих предложений пишется студентом, вызванным к доске; характеризуются выделенные конструкции; определяется лексико-семантическая группа, в которую входит стержневой глагол. После такой работы внимание студентов обращается на зависимые компоненты выделенных конструкций; студентам предлагается определить формы зависимых компонентов. Студенты определяют формы дательного и винительного падежей и инфинитива как объектных уточнителей. В данном случае необходимо активное вмешательство преподавателя: небольшие сообщения его по теории в одних случаях предваряют, в других – завершают изучение языкового материала. Для воспитания лингвистического мышления студентов важно направлять их деятельность на осмысление новых для них, ранее не изученных языковых фактов.

Студенты выполняют упражнения в основном правильно, хотя у большинства объектный уточнитель в конструкциях со значением сообщения, волеизъявления и содействия бывает выражен придаточной частью типа *Он рассказал ему, что…, Он приказал ему, чтобы…,* и т. д. Эти сложные конструкции объясняются недостаточным знанием студентами падежных значений русского языка.

Употребление сложных конструкций дает основание сделать вывод, что объектный уточнитель может быть выражен и придаточной частью.

В процессе упражнений студенты с помощью преподавателя выясняют значение дательного падежа – адресата действия, т. е. что датив в этих конструкциях обозначает лицо или предмет, к которому обращена речь, которому предназначено действие глагола.

Несколько сложнее обстоит дело с объектными уточнителями, которые чаще всего грамматически отличаются в конструкциях с различными глаголами из различных лексико-семантических групп. Это непосредственно связано с синтаксическим поведением исходного глагола. Учитывая эту особенность, преподаватель предлагает студентам определить семантические и структурные компоненты

каждой разновидности конструкций в отдельности и вывести их модели. При этом каждая модель должна быть доминантой для данной разновидности конструкций [6, с. 10].

Практика показывает, что студенты после специальных упражнений без особого затруднения определяют эти компоненты и составляют их модели.

1. Конструкции, образованные глаголами предоставления, выражают совокупность следующих семантических компонентов: «предоставление +объект предоставления + адресат». В зависимости от содержания и модели этих конструкций трехчленны в структурном отношении: «глагол +винительный падеж + дательный адресата».

2. Конструкции, образованные глаголами со значением сообщения, выражают совокупность следующих семантических компонентов: «сообщение + объект сообщения + адресат». Их модель: «глагол + *о (об)* + предложный падеж + дательный падеж».

В данном случае преподаватель должен сообщить студентам, что объект сообщения может быть выражен и формами других падежей: винительного без предлога и с предлогом *про,* родительного с предлогами *насчет, по поводу*. В связи с этим и структура модели может несколько усложняться согласно вариативному управлению:

Сравним: *Он нам сообщил интересную историю (об интересной истории, про интересную историю).*

3. В конструкциях со значением волеизъявления наличествует совокупность следующих семантических компонентов: «побуждение +адресат побуждения + действие, к которому побуждается адресат». Модель конструкций: «глагол + адресат + действие адресата, выраженное инфинитивом». Важно подчеркнуть, что инфинитив выражает действие не подлежащего, а адресата, поэтому этот инфинитив называют объектным инфинитивом.

4. В конструкциях, образованных глаголами со значением содействия, наличествуют следующие семантические компоненты: «содействие + объект, адресат содействия + сфера содействия». Их модели: «глагол + дательный падеж + *в* + предложный падеж (или инфинитив)».

Студенты с помощью преподавателя приходят к выводу о том, что в зависимости от лексико-грамматических факторов конструирующих глаголов эти модели почти всегда трехчлены, что в этих конструкциях форма дательного падежа вступает в соподчинительные отношения с различными объектными уточнителями. Общими для подобных конструкций особенностями являются: а) многочленность, б) наличие дательного адресата, а отличительными особенностями: а)

семантическая сторона конструкций, б) характер объектного распространителя.

Таким образом, в настоящей статье описывается лишь один из частных, порой незаметных моментов обучения студентов-азербайджанцев конструированию синтаксических моделей. Но этот частный вопрос во многом помогает преподавателю в обучении студентов-азербайджанцев законам синтаксического строя русского языка, а студентам-азербайджанцам – в умении конструировать синтаксические модели, правильно передавать свои мысли на русском языке.

ЛИТЕРАТУРА

1. Костомаров В. Г., Митрофанова О. Д. Методическое руководство для преподавателей русского языка иностранцам. Москва: Русский язык, 1988.
2. Зарубина Н. Д. Методика обучения связной речи. Москва: Русский язык, 1977.
3. Пешковский А. М. Русский синтаксис в научном освещении. Москва: Учпедгиз, 1956.
4. Богородицкий В. А. Общий курс русской грамматики. Москва – Ленинград, 1935, с. 226.
5. Изюмская С. С. Русский язык и культура речи. Учебник для вузов. Москва, 2010.
6. Романова Г. В. Анализ текста как средства развития речи учащихся // Русский язык в школе, 1989, № 1, с. 9-13.

N. H. HACIYEVA

RUS DİLİ XARİCİ DİL KİMİ MƏŞĞƏLƏLƏRİNDƏ FEİLİ KONSTRUKSİYALARIN ÖYRƏNİLMƏSİ

XÜLASƏ

Məqalə rus dilinin xarici dil kimi praktik məşğələlərdə feli kontruksiyaların struktur və semantik xüsusiyyətlərinin öyrənilməsinə həsr edilir. Mövzunun aktuallığı rus dilində sözlərin birləşməsinin prinsiplərinin öyrənilməsi zamanı azərbaycanlı tələbələrin bir sıra səhvlərinin aradan qaldırılması ilə əlaqədardır. Felin ismin yönlük və təsirlik hallarının birləşməsi ilə sintaktik kontruksiyaların yaranmasına xüsusi diqqət yetirilir. Verilmə, məlumat, iradə və yardım münasibətlərini ifadə edən sözlər

olmaqla feli konstruksiyaların materialı əsasında tapşırıqların yerinə yetirilməsi daha yaxşı nəticə verir. Bundan ötrü müəyyən sintaktik münasibətləri ifadə edən modelləri qurmaq üçün dayaq feli sözlərin seçilməsi zəruri hesab edilir. Sonra tələbələrə bu dayaq sözlərdən ibarət vərəqələrin paylanması da mühüm rol oynayır. Bu birləşmələrin leksik-qrammatik və funksional xüsusiyyətləri şərh edilir. Bu tipli sözlərin birləşməsinin qurulma mexanizmi və işlənməsinin mənimsənilməsi azərbaycanlı tələbələrin rus dilində nitqinin inkişafına şərait yaradır. İsmin hal formalarının feli konstruksiyalarda bir-birilə qarşılaşdırılması tələbələrin idrak fəaliyyətini fəallaşdırır. Feli konstruksiyaların tələbələr tərəfindən lazımi səviyyədə mənimsənilməsi vacib amillərdən biridir.

N.H.HAJIYEVA

THE STUDYING OF VERBAL CONSTRUCTIONS IN CLASSES IN RUSSIAN LANGUAGE AS A FOREIGN LANGUAGE

SUMMARY

The article discusses the studying of structural and semantic features of verbal constructions in practical classes in Russian language as a foreign language. The relevance of the topic is associated with elimination of errors made by Azerbaijani students in the study of principles of compatibility of words in the Russian language. Special attention is paid to the creation of syntactic combinations of a verb with a noun in accusative and ablative. Execution of tasks with the participation of words with the value of submitting, information, will and assistance on the basis of the verbal constructions material gives a good effect. The choice of supporting verbal words expressing specific syntactic relationships is important for this. Distribution of cards with key words to the students plays an important role as well. The article describes the lexical and grammatical and functional features of these combinations. Assimilation of mechanism for creating these types of combinations of words and using thereof create favorable conditions for the development of spoken Russian of Azerbaijani students. A comparison of the case forms of nouns in verbal constructions activates the cognitive activity of students.

Rəyçi: prof. Nəsirağa MƏMMƏDOV

ZAUR HACIYEV
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu
zaurhaciyev82@mail.ru

"MUĞNİL-LƏBİB AN KUTUBİL-ƏARİB" ƏSƏRİNDƏ DİLÇİLİK METODU

Açar sözlər: *İbn Hişam, ərəb dili, elmlər, ensiklopediya, müəllif.*
Ключевые слова: *Ибн Хишам, арабский язык, наука, енсиклопедия, автор*
Keywords: *Ibn Hisham, arabian, sciense, encyclopedia, autor.*

Görkəmli ərəb dilçisi Əbu Məhəmməd Abdulla Cəmaləddin ibn Əhməd ibn Abdulla ibn Hişam əl-Ənsarinin həyatı haqqında məlumat olduqca azdır. O, 708/1309-cu ildə Qahirədə anadan olmuş, orada boya-başa çatmış, təhsilini də Qahirədə almış, 761/1360-cı ildə 51 yaşında dünyasını dəyişmişdir (7, 356).

İbn Hişamın "Şərh şuzuruz-zəhəb" kitabının tədqiqatçısı Yusif Şeyx Məhəmməd əl-Baqai yazır ki, Əbu Hişam hələ kiçik yaşlarından elmə böyük həvəs göstərmiş və dövrünün ən qüdrətli alimlərindən dərs almışlar. Onun müəllimləri arasında Məhəmməd ibn Əhməd Əbu Abdulla əs-Sarac əd-Dəməşqi (668-743), Əbu Həyyan Məhəmməd ibn Yusif Əsir əd-Din əl-Qarnati, Əli ibn Abdulla əl-Ərdəbili ət-Təbrizi, Umər ibn Əli ibn Səlim ibn Sədəqa əl-Ləxmi əl-İskəndəri ət-Tac əl-Fəkihəni, əş-Şihəl ibn əl-Murəhhil kimi qüdrətli dilçilər olmuşdur. Bir tərəfdən Bağdad xilafətinin süquta doğru yuvarlanması, digər tərəfdən Əndəlusda baş verən ərəb-ispan hərbi toqquşmaları nəticəsində bu iki qüvvətli elm mərkəzinin mövqeyini zəiflətmiş və ərəb alimləri ərəb dünyasının sakit limanı olan Misrə üz tutmuş, orada məskunlaşaraq elmi fəaliyyətə başlamışlar. Bu səbəbdəndir ki, həmin dövrdə ərəb aləminin ən qüdrətli dilçiləri də Qahirədə toplanmışdı. Doktor Səlim Rizq yazır ki, bu dövrdə Qahirədə əlli beşdən çox mədrəsə var idi və bu mədrəsələrə görkəmli dilçilər rəhbərlik edirdilər.

İbn Hişam məhz belə bir dövrdə yaşamış və müxtəlif ölkələrdən gəlmiş, dilçilikdə öz dəsti-xətti olan alimlərdən dərs alaraq sərf, nəhv, hədis, ədəbiyyatı və əruz elmlərini mənimsəmişdi. Maraqlı burasıdır ki, bütün islam dünyasında qüdrətli bir dilçi kimi şöhrət tapmış Əbu Həyyan əl-Qarnatinin yanında o, qrammatika elmini deyil, ədəbiyyatı öyrənmişdir.

İbn Hişam qısa müddət ərzində elə bir şöhrət qazanmışdır ki, bu şöhrət Misrin hüdudlarını aşaraq Məğribə belə gedib çatmışdır. İbn Xəldun bu barədə yazır: "Biz hələ Məğribdə olanda eşitdik ki, Misirdə ərəb dili sahəsində ibn Hişam adlı bir alim ortaya çıxıb və o, Sibəveyhidən daha

qüvvətlidir (7, 255). İbn Xəldun kimi dahi bir şəxsiyyətin ibn Hişama verdiyi belə bir yüksək qiymət, əlbəttə ki, çox şeydən xəbər verir.

İbn Hişamın dilçilik əsərlərinin bəziləri tələbələrin ərəb dilini tədricən öyrənmələrinə xidmət edir. Doktor əş-Şeyx Məhəmməd əl-Baqai yazır ki, İbn Hişamın ilk "əl-İrab fi qavaidil-irab" əsəri qrammatika elminin ərəb dilini öyrənməyə başlayanlar üçün yazılmışdır və bu əsər bir növ ərəb dilinin karkasıdır. İbn Hişam bu əsərdə ərəb dilini yeni öyrənənlərə qrammatikanın əsas prinsiplərindən yığcam məlumat verir. Əsər çox sadə, anlaşıqlı bir dildə yazılmışdır. Bundan sonra ibn Hişam "Qatrun-nədə və bəllus-sadə" adlı kitabını yazmışdır. Bu kitab ərəb dilinin əsas prinsiplərindən xəbərdar olanlar üçün yazılmışdır və bir növ birinci kitabın genişlənmiş variantıdır. Bundan sonra İbn Hişam kitabı şərh edərək, eyni mövzu ətrafında müxtəlif dilçilərin fikirlərini açıqlamış və tələbələrin əvvəlki iki kitabdan əldə etdiklərini genişləndirmişdir. Daha sonra ibn Hişam "Şuzuruz-zəhəb" kitabını yazmış və ərəb dili qrammatikasını bütövlüklə və təfsilatı ilə əhatə etmişdir. İbn Hişam bununla necə deyərlər, ürəyi soyumamış və bu kitaba şərh yazaraq onda olan məsələləri daha da aydın verməyə çalışmış və xeyli əlavələr etmişdir (5, 5-7).

İbn Hişamın əsərlərinin sayı yuxarıda qeyd edilən beş kitabla məhdudlaşmır. Məxəzlərdə, adətən, İbn Hişamın 26 əsərinin adı çəkilir. Bunlar

1) Əl-İrab an Qavaidil-irab; 2) Əl-Əlcaz; 3) Audahul-Məsəlik ilə əlfiyyəti İbn məlik; 4) Ət-təzkira; 5) Ət-Təhsil vat-tafsil li kitəbil-təzyin vat-təkmil; 6) Əl-Cəmius-sağir; 7) Əl-Cəmiul-kəbir; 8) Risələtun fin-nisab; 9) Risələtun fi stiməl əl-munədi; 10) Raful-xasasa an qurrail-xulasa; 11) Ər-Rauda əl-ərəbiyyə fi şavahidi ümumil-arabiyyə; 12) Şuzuruz-Zəhəb; 13) Şərhul-Burdə; 14) Şərh əş-şavahis-suğra; 15) Şərh əş-şəvahidil-Kubra; 16) Şərh əl-Qəsidətil-Luğziyyə fil-Məsəilin-nahviyyə; 17) Şərhul-ləmhə li Əbi Həyyan; 18) Ümdətut-talib fi sarf İbn əl-Hacib; 19) Fuhu şəzə fi məsələti-kəzə; 20) Qatrun-nədə va bəllus-sadə; 21) Əl-Qavaidus-suğra; 22) Qavaid əl-Kubra; 23) Muxtasarul-İnsaf min əl-kəşşaf; 24) Əl-Məsəllus-Səfəriyyə fin-nəhv; 25) Muğnil-ləbib an Kubutil-Əarib və 26) Mauqidul-Əzhən va Muqaizul-vasnən.

Bu əsərlər arasında İbn Hişamın şöhrətini ən çox dünyaya yayan "Audahul-məsəlik ilə Əlfiyyəti İbn Məlik" (İbn Malikin "Əlfiyyə" əsərinə ən aydın yol) və "Müğnil-ləbib an kutubil-Əarib" (Ərəb kitabları haqqında ağılları zənginləşdirən) əsərləridir.

İbn Hişamın tədqiqat metodu haqqında dilçilər və alimlər arasında yekdil bir fikir yoxdur. İbn Xəldunun fikrincə, İbn Hişam öz tədqiqatlarında İbn Cinni metodunu davam etdirən mosulluların yolu ilə getmişdir (4, 13). Doktor Muxtar Valədabbah İbn Hişamı Bahəddin Əhməd ibn Əli əs-Səbəki,

Muhyəddin Məhəmməd İbn Yusif Nazimul-Ceyqi və Məhəmməd İbn Əbu Bəkr əl-Maxzumi ilə bərabər İbn Malik mədrəsəsinə aid edir və onun öz əsərlərində verdiyi nümunələri Qurani-Kərim, hədis və klassik şeir ardıcıllığı ilə verməsini əsas tutaraq Əndəlis dilçilik məktəbinin metodlarını üstün tutduğunu söyləyir (7, 331). Doktor Şövqi Dayf isə İbn Hişamın Bağdad dilçilik məktəbinin nümayəndələrinə meyl etdiyini söyləyir (8, 344).

Bizə elə gəlir ki, İbn Hişamı bu və ya digər dilçilik məktəbi ilə bağlamaq o qədər də dəqiq fikir deyil. Ancaq müəyyən bir məktəbə meyl etmək fikrini bəlkə də, Misir qrammatika məktəbinin ilk nümayəndələrinə aid etmək olar.

İbn Hişam bütün dilçilərin elmi müddəalarından istifadə etməklə bərabər, öz müddəalarını da irəli sürmüşdür. Bu baxımdan V.M.Məmmədəliyev İbn Hişam haqqında çox haqlı olaraq yazır: "İbn Hişam Bağdad məktəbinə meyl göstərərək, Bəsrə və Kufə qrammatiklərinin fikirlərini tənqidi surətdə nəzərdən keçirmiş, onlardan öz nəzəri müddəalarına uyğun gələnləri qəbul etmiş, bəzən isə heç bir məktəbin fikri ilə razılaşmayıb özünün orijinal mülahizələrini irəli sürmüşdür" (2, 264).

İbn Hişam əl-Ənsariyə xüsusi şöhrət qazandıran dilçilik əsəri onun "Muğnil-ləbib" əsəridir. "Muğni" kitabı müəllifin özündən əvvəlki ərəb qrammatiklərinin bu və ya digər məsələ barəsindəki fikirlərinin müqayisəli təhlilini verən, onları obyektiv şəkildə araşdıran və yeni zamanda ərəb qrammatika elmində XIV əsrə qədər mövcud olmamış bir çox orijinal mülahizə və müddəaları özündə əhatə edən ensiklopedik dilçilik əsəridir. Akademik V.Məmmədəliyev bu əsəri XIV əsrə qədər qrammatika elmində mövcud olmayan orijinal fikir və mülahizələrlə zəngin olan dilçilik ensiklopediyası adlandırır (2, 264).

Tam adı "Muğnil-ləbib an kutubil-əarib" (Ərəb kitabları haqqında ağılları zənginləşdirən) olan və qısa şəkildə "Muğnil-ləbib" adlanan bu əsər İbn Hişamın dilçilik fəaliyyətinin zirvəsi və onun yazdığı son əsəridir. Doktor Mazin əl-Mubarək və Məhəmməd Əli Həmdullah yazırlar ki, bu əsər ortaya çıxdıqdan sonra, tədris sahəsində bütün əsərləri sıxışdırıb çıxarmış və bu günün özündə bütün ali məktəblərdə istifadə olunur (4, 6)

"Muğnil-ləbib" əsərinin ən son, yenidən tədqiq olunmuş, Quran ayələri, hədislər və istifadə olunmuş şeirləri fehristləri ilə birlikdə Dəməşqdə 1972-ci ildə nəşr olunmuşdur. Nəşrin müəllifləri doktor Mazin əl-Mubarək və Məhəmməd Əli Həmdulladır. Tədqiqatçılar İbn Hişamın əsərinin başqa əsərlərə təsirindən, yəni qrammatik hadisələri mövzulara bölərək, məsələn, "Şüzuruz-zəhəb"də olduğu kimi, "Məfruat", "Məğrurat" və "Mənsubat" şəklində tədqiq etməkdən imtina edərək bir növ toplum yolu seçdiyini qeyd edirlər. Onlar İbn Hişamın xüsusilə, əsərin birinci cildində köməkçi nitq

hissələrini bölmədən, ədatların adı altında ümumi şəkildə tədqiq edir, hər bir ədatdan bəhs edərkən onun funksiyası əsasında müxtəlif rollardan danışır.

Tədqiqatçılar yazırlar ki, "Muğnil-ləbib" əsəri bizdən əvvəlki dilçilər üçün daha anlaqlı olmuşdur. Ona görə ki, bizdən əvvəlki dilçilər bizdən daha hafizəli, daha məlumatlı, adi bir müddəanın göstərilməsi ilə onun hansı dilçiyə mənsub olmasını heç bir məxəzə müraciət etmədən təyin etməyə qadir alimlər olmuşlar.

Tədqiqatçılar öz müddəalarını bir növ qüvvətləndirmək üçün yazırlar ki, "Muğnil-ləbib" əsərinin heç bir nüsxəsi ancaq onun mətnindən ibarət olmayıb, əsasən əsər yazılmış haşiyələrdən hesab olunur. Əl-Əmir haşiyəsi, ya da əd-Dəsuqinin haşiyəsi ilə birlikdə köçürülmüşdür. Bu haşiyələrdə Quran qiraət üsullarından tutmuş, kiçik qrammatik məsələlər barədə verilən izahatlar olmadan "Muğnil-ləbib" əsərini başa düşmək çətindir (4, 9). Demək lazımdır ki, "Muğnil-ləbib" əsərində bu və ya digər bir fikri təsbit etmək üçün gətirilmiş şəvahidlər təsəvvür edilməz dərəcədə çoxdur. Təkcə onu demək kifayətdir ki, əsərdə 1425 Quran ayəsi, 78 hədis, 50 atalar məsəli işlədilmiş, 352 şair və dilçinin adı çəkilmiş və onlara istinad edilmiş və 107 dilçilik əsərindən iqtibas gətirilmişdir (4, 920-994) (Bu əsərlərin müəllifləri Bəsrə, Kufə, Bağdad, Şam, Yəmən, Məğrib və Əndəlus dilçilik mərkəzlərinə mənsub olan dilçilərdir. Heç şübhə yoxdur ki, bütün bunlar İbn Hişamın geniş erudisiyasına, müxtəlif elmləri dərindən bilməsinə və hər şeydən əvvəl zəhmətkeşliyinə dəlalət edir).

İbn Hişam əl-Ənsari "Muğnil-ləbib" kitabında köməkçi nitq hissələrini araşdırmaq üçün ona qədər ərəb dilçiliyində rast gəlinməyən bir üsul seçmişdir. O, ümumiyyətlə başlıqlardan imtina etmiş, başqa kitablarda olduğu kimi, "Nida fəsli", "Cərr fəsli" (6, 32-36) kimi ünvanlardan imtina etmiş, "Huruful-cərr", "Huruful-qasəm" kimi ibarələri də başlıq kimi işlətməmiş və onları sadəcə olaraq bir yerə toplayıb, əlifba sırası ilə düzmüşdür. Məsələn, onun اللام المفرد (yalnız ləm) başlığı altında öyrəndiyi köməkçi nitq hissəsinin ədatmı, bağlayıcımı, ön qoşmasımı və ya modal hissəcikmi olduğunu əvvəlcədən demək çətindir. Müəllif bu nitq hissəsini araşdırarkən onun neçə cür işlədildiyini izah edir. Onun izahından başa düşmək olur ki, bu nitq hissəsi müştərək nitq hissəsidir və o, həm ön qoşması, həm bağlayıcı, həm qüvvətləndirici modal söz, həm də təsirsiz bir əlavə ünsür kimi işlədilə bilər. İbn Hişamın "Qavaidul-irab", "Qatrun-nədə və bəllus-sadə" və "Şüzuruz-zəhəb" kitablarını oxuyub başa vurmuş, ərəb qrammatikasına yaxşı bələd olub, onu bilən alimlər üçün yazıldığını nəzərə alsaq, onu əlinə alan bir kəsin bu köməkçi nitq hissəsinin nə olduğunu əvvəlcədən bilməli olduğunu deyərik. İbn Hişam bu əsərində bu və ya digər köməkçi nitq hissəsi barədə də söyləmiş və müxtəlif şəkildə, pərakəndə şəkildə mövcud olan müddəaları bir yerə toplamış, müxtəlif alimlərin bu

barədə dediklərini saf-çürük eləmiş, ya birinə, ya o birinə üstünlük vermiş, ya da heç birini bəyənməyərək, onların fikirlərini rədd etmiş, öz mülahizələrini irəli sürmüş və bu mülahizəni çoxsaylı misallarla təsbit etmişdir. İbn Hişam çox vaxt, ümumiyyətlə terminlərdən istifadə etmir. Məsələn, كيف "keyfə"-dən danışarkən yazır ki, o, iki cür işlədilir (تستعمل على وجهين): şərt üçün كيف تجلس أجلس (Necə otursan, elə də oturaram) və sual üçün (4, 270-271). Bundan sonra bu fikir barədə digər dilçilərin dediklərini əsaslandırır, müəyyən bir nəticə çıxarır və onun təsbit edir. "Keyfə"dən danışarkən o, Qutruba, Sibəveyhiyə müraciət edir. كيف (keyfə) və إذا (izə) ədatları arasında müqayisə aparır. Lakin İbn Hişam "keyfə"nin köməkçi nitq hissəsi kimi ədatamı, əvəzliyəmi, sual əvəzliyinəmi aid olduğunu qeyd etmir. Elə bil ki, köməkçi nitq hissələrinin təsnifat məsələsi İbn Hişamı ümumiyyətlə maraqlandırmır.

Bununla belə, İbn Hişam çox vaxt hərf və ədavat terminlərdən istifadə edir və bəzən onları sinonim kimi işlədir. Əksər halda hərf istilahını İbn Hişam ön qoşması mənasında işlətsə də, bu istilah altında ədatlar da öyrənilir. Məsələn, قد "qad" ədatından danışarkən o, bunun həm isim, həm də ədat kimi işlənməsindən danışır və bir ədat kimi onun beş mənasını göstərir. Bunlar güman, keçmiş zamanın danışıq momentinə yaxınlaşdırılması (təqib), "təqlil", "təhdid", "təksir"dir. İbn Hişam "qad" ədatının bu beş mənasını əl-Əxfar, İbn Asfur, əz-Zəməxşəri kimi dilçilərin əsərlərindən cəm etmişdir (4, 228-230).

Ümumiyyətlə, demək lazımdır ki, ərəb dilçiliyində köməkçi nitq hissələrinin təsnifatı köməkçi nitq hissələrinin özünün təsnifatı kimi mürəkkəb bir məsələdir. XI əsrdən etibarən ərəb dilçiləri Sibəveyhidən gələn üçlük təsnifata qarşı çıxmış, dördlük və yeddilik təsnifat irəli sürmüş, ön qoşmaları ədatlardan ayıraraq sonuncuları elə ədat altında öyrənməyi təklif etmişlər (6, 155-158). Lakin köməkçi nitq hissələrinin bir qismini ayırıb ədat və ya ədavat altında öyrənmək təklifi ərəb dilində olan çaşbaşlığı aradan qaldıra bilməz. Çünki ənənəvi dilçilikdə kufəlilər tərəfindən işlədilən ədat (ədavat) istilahı bəsrəlilərin işlətdikləri hərf (hüruf) istilahının sinonimi kimi dilçilikdə artıq möhkəmlənmişdir. Bunu müasir ərəb dilçisi Abbas Həsən də təsdiqləyir. O yazır:

النحاة يسمون الحروف: "ادوات الربط": لان الكلمة اما ان تدل على ذات: واما ان تدل على معنى مجرد (اي: حدث) واما ان تربط بين الذات والمعنى المجرد منها. فالإسم يدل على الذات والفعل يدل على المعنى المجرد منها والحروف وهو الرابط وحروف الربط نوعان، نوع يسمى: حروف المعنى، لأنه يفيد معنى جديدا مجليه معه، ونوع ليس للمعاني، وانما هو زائد اومكرر..... واكثر الكوفيين يقتصر على تسمية الحروف: "ادوات".

"Qrammatiklər köməkçi nitq hissələrini əlaqə - birləşdirmə ədatları adlandırmışlar, çünki söz ya müəyyən mahiyyəti, ya da mücərrəd mənanı göstərir, ya da mahiyyətlə mücərrəd mənanı əlaqələndirir. Rabitə (əlaqə)

ədatlarının iki növü vardır: onların bir növü "حروف المعنى", yəni başqa sözlərlə işləndikdə müəyyən mənaya malik olanlardır, yəni onlar işləndikləri sözlərlə yeni məna kəsb edir. İkinci növ isə müəyyən mənaya malik olmayandır, o ya qüvvətləndirici, ya da təkid ədatıdır.

Kufəlilərin əksəriyyəti "huruf" istilahının əvəzunə "ədat, ədavat" sözü ilə kifayətlənmişlər".

B.M.Qrande özünün "Müqayisəli tarixi aspektdə ərəb qrammatika kursu" kitabının qrammatik terminlər lüğəti hissəsində hərflərin 40-a qədər növünü göstərir (9, 566-568).

Köməkçi nitq hissələrinin ümumi sayına gəldikdə, onlar İbn Hişamın "Muğnil-ləbib"ində 108-dir. Lakin yuxarıda qeyd etdiyimiz kimi, bu kitabda həm ön qoşması, həm bağlayıcı, həm qüvvətləndirici ədat kimi işlədilən, faktik olan üç, bəzən dörd hesab edilə bilən köməkçi nitq hissəsi bir başlıq altında getdiyi üçün onların sayı daha çoxdur. Hər halda türk ədəbiyyatşünasları Sələmə Bakırcı və Məhəmməd Sani Çökənlinin "Ərəbcə ədatlar sözlüyü" kitabında onların sayı 237-dir (3)

"Qurani-Kərimdə ədatların və əvəzliklərin lüğəti" kitabının müəlliflərindən biri İsmayıl Amayra həmin əsərə yazdığı müqəddimədə deyir:

"... ونستميح القارئ غدرا عن استخدام كلمة الادوات بدلا من المصطلح الشائع "حروف المعنى" فهذه الكلمة او فى بالحاجة من المصطلح المركب من كلمتين "حروف المعنى": فإن من الحروف ما هو خالس فى الحرفية كالباء والفاء وباء... ومنها ما يجمع بين الاسمية والحرفية والفعلية ك "ما" و "حاشا" و "عدا". وهو على اى حال مصطلح كوفي قديم فضلا عن تجدد استعماله لدى المحدثين".

"... Biz çox yayılmış "حروف المعنى" əvəzinə "ədatlar" istilahını işlətdiyimiz üçün qaridən üzr istəyirik. Biz bu istilaha (الادوات) ona görə üstünlük veririk ki, əvvələn iki sözdən ibarət olan mürəkkəb "حروف المعنى" əvəzinə daha sadə bir istilahdır. İkinci səbəb odur ki, bu hissələrdən ب, ف, بل kimi xalis olanları vardır. حاشا, غدا "ما" kimiləri də vardır ki, onlar da, köməkçi nitq hissəsi və fellik xüsusiyyətlərini cəmləşdirə bilir. Hər halda o, müasir qrammatiklərin yeniləşdirib işlətdiklərindən daha üstün olan qədim Kufə istilahıdır" (6)

Ərəb dilçiliyində demək olar ki, bütün köməkçi nitq hissələrinin eyni bir istilahla "ədatlar" adlandırılması bir neçə səbəbdən irəli gələ bilər. bunlardan biri, bəlkə də birincisi odur ki, köməkçi nitq hissələrini bəzən bir-birindən ayırmaq çox çətin olur. Ərəb dilində ayrı-ayrı köməkçi nitq hissələrini "حرف" termini ilə də işlədirlər. Məsələn, حروف الجر, حرف الاستفهام, الحروف المتصلة və s. bununla brabər "ədat" istilahı ilə müəyyənləşdirilən köməkçi nitq hissələri də mövcuddur. Məsələn, اداة التعريف. Nəhayət, köməkçi nitq hissələrini "isim" istilahı ilə də adlandırırlar. Məsələn, اسم الموصول.

"Muğnil-ləbib" əsəri bir neçə dəfə nəşr olunmuşdur. Əsərin əski çap nüsxələri VI-233/7571, XVI-1574/5801, IV-185/1509, V-237/8757, XVI-1639/5867 şifrələri altında Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunub saxlanılır. Bu nüsxələrin hamısında əsər müxtəsər olaraq "Muğnil-ləbib" kimi verilir. VI-233/7571 şifrəli çap nüsxəsi h.1300/m.1882-ci ildə Misirdə nəşr olunmuş, həcmi 367 səhifədən ibarətdir. XVI-1574/5801 şifrəli çap nüsxəsi h.1276/m.1859-cu ildə nəşr olunmuşdur. Burada kitabın nəşr olunduğu tarix göstərilsə də, nəşr olunduğu yeri verilməmişdir. H.1300/m.1882-ci ildə Tehranda "Fəxru Hacı İbrahim" mətbəəsində nəşr olunan "Muğnil-ləbib" əsəri iki nüsxədə; IV-185/1509 və V-237/8757 şifrələri altında mühafizə olunur. Hər ikisi eyni həcmdədir, 366 səhifə təşkil edir. XVI-1639/5867 şifrəli çap nüsxəsi isə h.1292/m.1875-ci ildə nəşr olunmuşdur. Həcmi 366 səhifədir (1, 286-288).

Əsərin əlyazmaları çoxdur. Təkcə Dəməşqdə əz-Zahiriyyə kitabxanasında onun 10 nüsxəsi var. Yeni üsulla olan nəşrin tədqiqatçısı Məhəmməd Məhyəddin Əbd əl-Həmid olmuşdur. Lakin bu nəşrlər təsadüfi, yoxlanılmamış əlyazmaları əsasında nəşr olunduğu üçün dəqiq hesab oluna bilməz, onlar nəinki bir-birlərindən, həm də ən dəqiq hesab olunan nüsxələrdən də fərqlənir.

"Muğnil-ləbib"in ən tam, ən oxunaqlı, gözəl xətlə yazılmış iki nüsxəsi vardır. Birinci nüsxə Dəməşqdədir. Kamil əlyazmalarından hesab olunan bu nüsxə orta həcmli vərəqdə yazılmış və 187 vərəqdən ibarətdir. Əlyazması 965-ci ildə Məhəmməd Əbdülkərim Xətibzadə tərəfindən köçürülmüşdür. İkinci nüsxə birincidən daha qədimdir. O, 195 səhifədən ibarət olub, 765-ci ildə köçürülmüşdür. Xəttat Mahmud ibn Məhəmməd ibn Ömərdir.

Ədəbiyyat

1. Əski çap kitabları kataloqu, III cild. Ərəbdilli kitablar. Bakı, "Nurlan", 2010.
2. Məmmədəliyev V.M. Ərəb dilçiliyi. Bakı, Maarif, 1985.
3. Bakırcı S., Çögenli S. Arapça edatlar sözlüğü. Erzurum, 2000.
4. إبن هشام الأنصارى. مغنى اللبيب عن كتب الأعاريب، جزآن، مكتبة سيد الشهاداء، قم، ايران، د.ت.
5. إبن هشام الأنصارى. شرح شذور الذهب، دار الفكر، بيروت، ١٩٩٨
6. الدكتور إسمائيل أحمد عمائر، الدكتور عبد الحميد مصطفى السيد، معجم الأدوات والضمائر فى القرآن الكريم، مؤسسة الرسالة، بيروت، ١٩٨٨
7. الطنطاوى محمد، نشأة النحو وتاريخ أشهر النحات، القاهرة، ١٩٧٣
8. شوقى ضيف، المدارس النحوية، دار المعارف، القاهرة، ١٩٨٣
9. Гранде Б.М. Курс арабской грамматики в сравнительно-историческом освещении. Москва, Восточная литература, 2001.

ЗАУР ГАДЖИЕВ

ЛИНГВИСТИЧЕСКИЙ МЕТОД В ПРОИЗВЕДЕНИИ «МУГНИЛ-ЛАБИБ АН КУТУБИЛ-ЕАРИБ» ИБН ХИШАМА АЛЬ-АНСАРИ

РЕЗЮМЕ

В арабской грамматической науке произведение Ибн Хишама аль-Ансари «Мугнил-лабиб ан кутубил-еариб» является энциклопедическим лингвистическим произведением охватывающие в себе оригинальных суждений и положений которых были неизвестными до XIV века. Произведение кратко известно как «Мугнил-лабиб». В этом произведении автор вообще отказался от заголовок. Он просто собрал их в одно место и расставил в алфавитной порядке. Ибн Хишам в этом произведении сказал о той или иной служебных частях речи, и собрал в одно место разных, беспорядочных положений, последовательно рассмотрел точки зрения ученых, предпочел той или иной, или же не одобрил никого, отказав от их мнений, выдвигал свою точку зрения, утверждал это суждения с многочисленными примерами.

ZAUR HAJIYEV

A LINGUISTIC METHOD IN THE “MUGNIL-LABIB AN KUTUBIL-AARIB”

SUMMARY

Ibn Hisham al-Ansari’s “Mugnil-labib an kutubil-aarib” work is an encyclopaedic linguistic work covering a lot of original views and propositions that didn’t existin the 14th century. The work is briefly named “Mugnil-labib”. The author generally refused and didn’t use the headings in this work. He simply collected them and ranked in alphabetical order. Besides, Ibn Hisham spoke about the parts of speech. He collected different and scattered views on this topic, analyzed the scholars’ thoughts, either preferred some of them, or rejected them, expressed his own views and maintained his opinions in many examples. According to Ibn Hisham’s explanation, it is clear that this part of speech is a common one and it can be used as a front postposition, conjunction, intensifying modal word and intransitive additional element.

Rəyçi: Laura Orucova
Filologiya üzrə fəlsəfə doktoru

ÜLVİYYƏ HACIYEVA
Filologiya üzrə fəlsəfə doktoru
ADPU

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ LEKSİK BƏDİİ TƏSVİR VASİTƏLƏRİ

Açar sözlər: *bədii əsər, məfhum, satira, nitq, spesifik, məcazi məna*
Ключевые слова: *художественное произведение, концепция, сатира, речь, специфический, переносное значение*
Key words: *literary work, notion, satire, speech, specific, transferred meaning*

Metafora yunan sözü (*metaphorá*) olub bir şeyə uyğun xas əlamət və ya keyfiyyətin başqa bir əşya üzərinə köçürülməsinə deyilir. Məs.:

Ah, Bakı, doğma Bakı, deyə düşündüm, mən səndə tapdığım *ulduzumu* itirdim, nakam ilk məhəbbətə vida etdim [1, 97]

Memory is a crazy woman that hoards colored rags and throws away food; The skies of his future began to darken.

Şəxsləndirmə yunan sözü olub (προσωποποιτα) bir şey və ya təsəvvürü insan halına qoymaqdır. Bu zaman heyvanlar, bitkilər, maddi varlıqlar və abstrakt məfhumlar insan kimi göstərilir. Məs.:

Şəhərin *nəbzi* burada *döyünürdü*, sanki şəhərin *şah damarı* idi. Nəhayət, bir axşam uğultu kəsildi;

The ship began to creak and protest as it struggled against the rising sea; My dog pranced around like a beauty queen.

Canlandırma və ya şəxsləndirmə yunan sözü olub (*ánthrōpos*) söyləmək qabiliyyətinə malik olmayan şeylərə nitq vermək, yəni onları insan kimi danışdırmaqdır. Əsasən göy cisimləri, bitki və heyvanat aləmi nitqləndirilir, bu zaman onların daxili aləmi açılır. Məs.:

Ay üzümə yenə güldü... Tez açıldı qaş-qabağı.
İşıqlandı səhər kimi xəyalımın söz otağı. (S.Vurğun);

Siçan bəy Tık-tık xanımı görcək: "Tık-tık xanım hara gedirsən belə?".

A lion fell in love with beautiful maiden and proposed marriage to her parents;

Metonimiya yunan sözü olub (*metōnymía*) bir sözün başqa bir sözlə əvəz olunması deməkdir, metonimiya bənzəyiş əsasında yox, bir-birindən fərqli olan əşya və ya hadisələrin qarşılaşdırılması üzrə yaranır. Məs.:

Gözəl bacısının dediklərini *bu qulağından alıb, o qulağına verirdi*.

The orders came directly from the *White House*; I am fond of *Dickens.*

Sinekdoxa yunan sözü olub (*synekdochē*) kəmiyyət əlaməti əsasında bir əşyanın o birinin üzərinə keçməsi nəticəsində mümkün olur. Hissənin külli, küllün hissəni əvəz etməsi sinekdoxanın spesifik cəhətidir. Məs.:

Tacirlərimiz *sonyalara* bənd olacaqmış,

Bədbəxt *tükəzbanları* neylərdin, ilahi?! (M.Ə.Sabir)

If I had some *wheel*, I'd put on my best threads and ask for Jane's hand in marriage; *White-collar* criminals.

Kinayə (ironiya, rişxənd) yunan sözü olub (*eirōneía*) bədii ədəbiyyatda bir fikri müstəqim yox, örtülü yollarla – işarələrlə ifadə etməyə deyilir ki, burada əsas şərtlərdən biri kinayədir. Bu termin çox zaman ironiya da adlanır [10]. Məs.:

Olsun də. Guya ki, məktəbi qurtaranda mənə *ağzi ilə quş tutacaq*; Xi... xi... xi... Bəli, *ölülər elə bilirlər ki, dirilər halva yeyir*. (S.Rəhimov).

The food was so delicious I took it home for my dog;

The owner of a butcher shop is a vegetarian!

Latin sözü olan **yumor** (*humour*) gülüşü satira gülüşünə nisbətən yumşaqdır. Yumorda satiradakı kimi öldürücü qüvvə hiss olunmur. Yumor gülüşünün məqsədi islahdır. C.Məmmədquluzadənin əsərlərində yumor xüsusilə müşahidə olunur. Məs.:

Əvvəlcə məni döymək üçün atamın beynini dolduran, döymək istəyəndə də əlindən alan anamı başa düşə bilmirəm [2];

"Doctor, when my hand gets better, will I be able to play the piano?" "Of course" doctor said . "That's great. I could never play piano before!".

Sarkazm (təriz) yunan sözü olub (*sarkasmos*) kinayənin ən yüksək şəklinə deyilir. Əgər yazıçı kinayədə qarşısındakı şəxsin, hadisənin çatışmayan cəhətlərini lağa qoymaqla islah etmək istəyirsə, tərizdə tənqid hədəfinə öldürücü zərbə endirib, ifşa edir [3, 246]. Məs.:

Dilbər – Gülüş can, diliniz çox iti deyilmi?

Gülüş – Bağışlayınız, təzəcə itilətdirmişəm, çarxdan indi gəlmişdir.

Dilbər – Deyirəm axı... Ancaq gözləyiniz, daşa toxundurmayasınız.

Gülüş – Qorxusu yoxdur... Sınamışam, daşdan keçir, ancaq bircə dana gönünə işləmir, batmır ki, batmır. (C.Cabbarlı)

Do you really think this country is going to elect a black guy from the south side of Chicago with a funny name to be president of the US? (B.Obama);

Satira latın sözü olub (*satur*) da ədəbiyyatda şiddətli, ifşaedici və acı gülüşdür. Satira yazıçının qəzəblə, bütün nifrətilə bu və ya başqa hadisəni qələmə aldığı, acı gülüşə tutduğu, hər hansı ictimai zümrəyə və ya mənfi bir adətə nifrətini acı gülüş yolu ilə verdiyi zaman yaranır. Məs.:

Kərəmov. *Mənə toxunublar, Mirzə Hüseyn. Aslanı yaralayıblar. Aslan yaralananda neyləyir, bilirsənmi, Mirzə Hüseyn?*

Mirzə Hüseyn. *Bilmirəm, yoldaş Kərəmov. Mən məktəbdə oxuyanda həmişə heyvanat dərsindən zəif qiymət alardım.* (S.Rəhimov);

"Satire`s like mirror in which man sees everyone's face but his own".

Cinas (təcnis) Latın sözü olub (*punctum*) [4] şəkilcə bir, mənaca müxtəlif olan sözlərə deyilir. Təcnis isə qafiyələri cinas olan şeirlərə deyilir [3, 261]. Məs.:

Qışda dağlar ağ geyinər, *yaz qara*,

Sağ əlində ağ kağıza *yaz qara*. (Aşıq Ələsgər);

- Ancaq indi adını dəyişib başqa şey qoyub. Daha ona Qızyetər demirlər. Bir cür ad tapıb özünə... *"Qoz"*nan *"ətin"* qarışığına oxşayır. Mənim dilim gəlmir.

- Olmaya adını fisincan qoyub?

- Yox, ay bala, bişmiş ət yox, çiy ətilən qoz....

- *Qozetta! ....* (A.Seyfəddin).

A small boy swallowed some coins and was taken to a hospital. When his grandmother telephoned, a nurse said, 'No change yet'.

Bədii nida Latın sözü olub (*interjectio*) dinləyənlərdə həyəcan oyatmaq məqsədilə verilən yüksək ahəngə deyilir. Sevincli bir fikir nida ilə ifadə olunduğu kimi, kin, qəzəb, nifrət hissi də nida ilə ifadə oluna bilər. Azərbaycan dilində əsli nidalardan – *ah, ay, oho,* və funksional-törəmə nidalar – *əhsən, əfsus, heyhat* və s. istifadə edilir [1,181]. Məs.:

Əli əmniyyə başını tərlədib badəni yerə çırpdı: - Gör bişərəf köpək oğlu kimdən istifadə edir ey, əxlaqsızın birindən, *tfu, tfu, tfu!...* ;

Orxan: - *Ah*, gözəl çərkəs qızı, nazlı İsmət!

Mələk üzlü şeytan, incəbel afət!;

İsmət!... *Of*... Sevimli, parlaq ilan! (H.Cavid. "Ana")

"I had a fish Francis. He was verн dear to me. One afternoon, I come downstairs and it vanished. Poof" [9]; Congrats! You finally got your Master's degree.

Epitet (bədii təyin, poetik təyin, vəsf) yunan sözü olub (*epitheton*) müəyyən sözə aid olub, onu təyin edir. Bədii təyin sözü daha da təsirli etmək üçün sözün əvvəlinə gətirilən sifətlərə deyilir. Epitet təsvir edilən hadisənin bu və ya digər xarakter əlamətlərinin meydana çıxarılmasında, onun qiymətləndirilməsində mühüm rol oynayır [5, 131]. Məs.:

İnci qumlar üstündə yenə verib baş-başa

yayı vuraydıq başa. (M.Müşfiq. "Yenə o bağ olaydı");

Catherine the Great; Suleyman the Magnificent;

10:30 is a dark hour in a town where respectable doors are locked at 9.

Təzad (oksümoron [6, 134]) yunan sözü olub (*oxus* və *móros*) ifadənin bədii və təsirli olması üçün bir-birinə zidd olan sözlərin birləşməsindən meydana çıxır və fərdi xarakterə malik olur. Məsələn, *canlı*

məzar, yaşayan ölü, canlı şəkil və s. Bunlar leksik cəhətdən bir-birilə birləşməsi mümkün olmayan sözlərdir. Məs.:

"Səyahətnamə"nin insanı *güldürə-güldürə ağladan* məzmununu dərhal xəyalımdan keçirdim və ixtiyarsız olaraq gözlərim yaşardı. (M.S.Ordubadi); Ən *parlaq gündüzlər gecədən* doğar. (H.Cavid)

Modern dancing is so old fashioned; I like a smuggler he is the only honest thief.

Paradoks yunan sözü olub (*paradoxon*) ilk dəfə yunan Epimenidesin tarixə məlum olan "Bütün yunanlar yalançıdır" fikrini irəli sürməklə yaranmışdır. Mənası "qəribə, gözlənilməz" deməkdir. Bu ayrılıqda iki və ya daha çox fikrin bir araya gəldikdə ziddiyyət yaratmasıdır. Məs.:

"Bir onu bilirəm ki, heç nə bilmirəm" (Sokrat); Mən hər zaman yalan danışıram; Dənizlidə dəniz yoxdur.

Nobody goes to Murphy's Bar anymore – it's too crowded; As I said before, I never repeat myself.

Antonomasiya yunan sözü olub (*antonomasia*) şəxs adları əsasında əmələ gəlir və bu məcaz Azərbaycan dilində metonimiyanın bir növü hesab edilir [1,107]. Bu zaman xüsusi isimlər ümumi isim şəklinə düşür. Bu isə o vaxt özünü göstərir ki, məşhur şəxsə məxsus bir xüsusiyyət başqasına da xas olur. Məs.:

Sanma könül sınasıdır; *Kərəm* olub yanasıdır... (Q.Qasımzadə);

Nə qədər ki, içimizdə yurd yanğısı var,

Xətailər çadırda da doğula bilər. (F.Ziya. "Nikbinlik").

Tarzan, could you come down from that tree; Harry is the *Casanova* of my life.

Təşbih (bənzətmə, müqayisə) Latın sözü olub (*similis*) bədii əsərlərdə ifadə qüvvətli olsun deyə, yazıçının təsvir etdiyi varlığın əsas çizgilərini verməklə kifayətlənməyib, onu başqa şəxs, əşya və ya hadisə ilə müqayisə etməsidir. Bənzətmələr müəyyən sözlərin - qoşmaların: *kimi, tək, sanki, təkin, elə bil,* və s. köməyi ilə əmələ gəlir. Məs.:

Elə bil Ərkinas xanımın qabarlı sinəsindən iti bir ox vurdular. (Mir Cəlal); Böyük bir ailə tamamilə məhv olub getdi, evdə *bayquş kimi* bir mən, bir də xidmətçilər qalmışdılar. (M.S.Ordubadi).

I am so thirsty, that my throat is as dry as a bone.

This contract is as solid as the ground we stand on.

Mübaliğə yunan sözü olub (*hyberbolē*) bədii fikri dərinləşdirmək, təsəvvürü canlandırmaq məqsədilə ədəbiyyatda bir hadisənin, xarakterin, işin, keyfiyyətin həddindən artıq böyüdülməsinə deyilir. Mübaliğə nə qədər inandırıcı olsa, təsiri də bir o qədər artıq olur. Məs.:

Bayramın *gözü kəlləsinə çıxdı*. Kirpiklərini qırpmadan xeyli baxıb birdən qışqırdı... (Ə.Vəliyev);

That joke is so old, the last time I heard it I was riding on a dinosaur;

Perifraz (söz oynatma) yunan sözü olub (*periphrazein*) tək-tək sözlərin yox, frazeoloji birləşmələrin və danışıq dilində geniş yayılan sabit ifadələrin məcazi mənalarda işlədilməsindən yaranır. Bu zaman sabit frazeoloji birləşmədə bir söz əvəzinə iki və ya daha çox söz işlədilir; həkimlər - *ağ xalatlılar*, şir - *heyvanların şahı*, neft - *qara qızıl*, qocalmaq - *saqqalına dən düşmək* və s. Məs.:

- Gəl özün buna cavab ver, qızım, yoxsa bu məni təkləyib *abırımı ətəyimə bükəcək*. (H.Mehdi);

"After only a short time of marriage, he wasn't prepared to offer advice to other youngsters intending *to tie the knot....* (evlənmək);

The big man (Allah) upstairs hears your prayers.

Evfemizm yunan sözü olub (*euphēmismos*) məfhumu altında deyilməsi münasib olmayan, xoşagəlməz, dəhşətli söz və ifadələr əvəzinə işlədilən yumşaldılmış və "təhlükəsiz" ifadələr nəzərdə tutulur [1,188]. Evfemizmlər heç bir emosiya bildirməyən, sırf ekpressiz sözlərdir. Evfemizm əşya, hadisə və hərəkəti öz əsil, həqiqi adı ilə yox, həmin mənanı ifadə edən başqa ifadələr vasitəsilə adlandırmaq deməkdir. Məs.:

Bir parça çörək hərdənbir versələr verirlər, verməsələr, gərək *ağzı möhürlü oturasan*. (N.Nərimanov).

She's a *curvy* (overweight) woman; You are becoming *a little thin on top* (bald); Our teacher is *in the family way* (pregnant).

Fransız sözü olan (*cliché*) **şablon** sözünün Azərbaycan dilində bir neçə mənası vardır. Ən çox istifadə edilən formalardan biri hər hansı bir şeyi çoxaltmaq üçün hazırlanmış nümunə, qəlib, trafaret və ya bir şeyin dəqiqliyini yoxlamaq üçün etalon, standart kimi izahlarla qarşılaşırıq. Məcazi mənada şablon bayağı, basmaqəlib kimi istifadə edilir [7]. Məs.:

Qüvvət elmdədir; Ramazan bayramınız mübarək; Riyaziyyat elmlərin şahıdır. (Karl Fridrix Qaus); Pul əl çirkidir.

Laughter is the best medicine; It is "raining cats and dogs".

Atalar sözləri Latın sözü olub (*proverbium*) frazeoloji vahidlərdir və demək olar ki, bədii ədəbiyyatda əsas yerlərdən birini tutur. Burada xalqın həyat tərzini, adət və ənənəsini təmsil edən epizodlar əks olunur. Atalar sözlərinin tərkibini təşkil edən səslərin yaratdığı ahəngdarlıq, daxili qafiyə və bu kimi poetik keyfiyyətlər oxucuya zövq verir, bədii əsərin ümumi ahəngi ilə birləşərkən daha təsirli olur. Məs.:

Allah tala sənə o qədər gözəllik verib ki, *al da geysən yaraşır, şal da*;

Early to bed and early to rise, makes a man healthy, wealthy and wise;

Epiqram (taziyanə) yunan sözü olub (*epigramma*) Azərbaycan dilində əsasən satirik şeirin çox yayılmış növlərindən biri kimi yayılmışdır. Epiqram

həcmcə çox kiçik, əksərən dörd və ya altı misradan ibarət olur. Şair çalışmalıdır ki, bir neşə misrada böyük fikirlər söyləyə bilsin [3, 90]. Məs.:

Quş kimi göydə gəzir yerdəkilər,

Bizi gömdü yerə mənbərdəkilər. (M.Ə.Sabir).

"Live simply, so that others may simply live" (Mother Teresa).

Sitat Latın sözü olub (*quotation*) hər hansı bir mətnin, məlumatın olduğu kimi əks olunmasıdır. Sitatlar klassik ədəbiyyatdan, bədii əsərlərdən, dövlət başçılarının, şair və yazıçıların, mədəniyyət xadimlərinin və s. nitqindən götürülə bilər. Məs.:

"Nə qəribədir. Sevdiyimiz insanın hər yalanında bir doğru, sevmədiyimiz insanın hər döğrusunda bir yalan axtarırıq" – F.M.Dostayevski; "Təhsilin kökləri acı, meyvələri şirindir" – Aristotel;

Mark Twain said: "Never put off till tomorrow what may be done after tomorrow just as well";

Mötərizə yunan sözü olub (*parenthesis*) nitq şəraitində oxucunun nəzərinə çarpmayan, izahata ehtiyacı olan cəhətləri əhatə edir. Əlavə fikirləri nəzərə çarpdırır. Yazıçı personajların, eləcə də öz nitqindəki bir fikrə münasibətini bildirərkən, mötərizəyə alınmış sözlərin aid olduğu şəxsin hərəkətindəki tərzi, hal-vəziyyəti, hər hansı bir söz və ya ifadəyə nəzəri daha çox cəlb etmək üçün bu vasitədən istifadə edir [5, 351]. Məs.:

Pulun günü-gündən çoxalıb şişməsi onun qarşısında gözəl bir gələcək açırdı (*heç kəsə inanmadığından pulu evdə qoymaz, həmişə cibində gəzdirərdi*). (S.Rəhman);

My family is getting a new dog from the shelter (we are going to name him Barney); Did you leave your bag (red, black) in the classroom?

Alluziya (eyham) Latın sözü olub (*allūsiō*) nitqdə və yazıda istifadə edilən tarixı, ədəbi, dini, mifoloji və s. faktlarla əlaqədar ifadələrdir. Bu zaman mənbə qeyd olunmur, lakin oxucu onun əlamətinə görə hadisəni xatırlayır. Bu xüsusiyyət alluziyanı sitatdan ayırır. Sitatda fikir sözbəsöz deyilirsə, alluziyada bir söz deyilən kimi eyham baş tutur [8]. Məs.:

"*Lete* çayından keçmişdim sanki" ("Lete" yunan mifologiyasında unutmağın, yaddaşı itirməyin rəmzlərindən biridir). (Ə.Məmmədxanlı);

Olsaydı məndəki qəm Fərhadi-mübtələdə,

Bir ah ilə verərdi min *Bisütuni* badə. (M.Füzuli)

You are carrying the weight of the world on your shoulders. (reference to Atlas in myth); "This place is like a Garden of Eden" (iblical allusion to the "garden of God").

ƏDƏBİYYAT

1. Əfəndiyeva.T. Azərbaycan dilinin üslubiyyatı (Bədii üslub). Bakı, Elm, 1980
2. Feat.az
3. Hacıyev C.X. Ədəbiyyat nəzəriyyəsi. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1958
4. http://examplesyourdictionary.com
5. Azərbaycan dilinin bədii üslubiyyatı (Oçerklər).”Elm” nəşriyyatı, bakı, 1970
6. M.Hüseynov. Sözün poetikası. Elm və Təhsil, Bakı, 2010
7. Azərbaycan dilinin izahlı lüğəti (4 cilddə). Bakı, Şərq-Qərb, 2006
8. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik lüğəti. Bakı, Maarif, 1989

ULVIYYA HAJIYEVA

LEXICAL RHETORICAL DEVICES IN THE AZERBAIJANI AND ENGLISH LANGUAGES

SUMMARY

Stylistics is a branch of linguistics. Here we mainly deal with rhetorical devices and functional styles of language. The present article was devoted to the lexical rhetorical devices. Both Azerbaijani and English rhetorical devices were included in the article. Lexical stylistic devices give different meanings to the utterences. Definitions and samples from different literary sources were given about each device. These samples were taken from the works of different authors. The list of references given at the end of the article fully completes the theme.

УЛЬВИЯ ГАДЖИЕВА

ЛЕКСИЧЕСКИЕ ТРОПЫ В АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

Стилистика один из частей лингвистики. Это наука в основном изучает тропы и стили. Статья посвящена изобразительно-выразительные средства. Азербайджанские и английские изобразительно-выразительные средства были включены в эту статью. Лексические изобразительно-выразительные средства придают предложениям различные смыслы. Даются определения и примеры из различных художественных произведений о каждом тропе. Эти примеры были взяты из произведений различных авторов. Список использованной литературы, данный в конце статьи, полностью охватывает тему.

Rəyçi: prof. Nailə Sadıqova

MİRVARİ QASIMOVA
ADPU

ANTONİMLƏRİN ÜSLUBİ XÜSUSIYYƏTLƏRİ

Açar sözlər: *üslub, obraz, bədii-estetiklik, poetik dil, antiteza, oksümoron*
Ключевые слова: *стиль, образ, художественный–эстетизм, язык поэзии, оксиморон, антитеза*
Key words: *style, image, figurative –aestheticism, language of poetry, antithesis, oxymoron*

Müxtəlif xarakterli ziddiyyərləri, qarşı-əks olmaları ifadə edən antonimlər ünsiyyət prosesində bir-birindən fərqli məqsədlərə xidmət edir.

Antonim sözlərin nitq aktında oynadığı rol, ünsiyyətin müxtəlif formalarında hansı məqsədlər üçün istifadə edilməsi, dilin müxtəlif üslublarında təzahürü dilçilikdə maraq doğuran məsələlərdəndir. Antonimlərin qeyd etdiyimiz cəhətləri dilçiliyin leksikologiya və semasiologiya bölmələrində qismən araşdırılsa da, bu işdə əsas iş onun üslubiyyat şöbəsinin öhdəliyinə düşür. Belə ki, Azərbaycan dilçiliyinin leksikologiya və semasiologiya sahələrində S.Cəfərov, M.Hüseynzadə, A.Qurbanov, B.Xəlilov kimi, ingilis dilçiliyində R.Ginzburg, G.Antruşina, İ.Arnold, S.Counz kimi alimlər antonim sözlərin mətn daxilində, müxtəlif üslublarda istifadə zamanı qazandığı xüsusiyyətlər, üslübi cəhətlər barədə qeyd etsələr də, hər iki dil üzrə bu sahədə daha geniş, ətraflı tədqiqatlara antonim sözlərin dildə funksional keyfiyyətlərinin tədqiq edildiyi *üslubiyyatla* əlaqəli mənbələrdə rast gəlinir.

Qeyd etdiyimiz mənbələrdə antonimlərin üslubi imkanları dilçilər tərəfindən müxtəlif şəkildə araşdırılır. Belə ki, alimlərin bir qismi antonimlərin üslubi imkanlarını, keyfiyyətlərini bu sözlərin müxtəlif *növləri*, digərləri isə onların *mətndə həyata keçirdiyi məqsədlər* əsasında tədqiq etmişlər. Hər iki yanaşmanı qiymətləndirmək məqsədi onlarla bir qədər yaxından tanış olmağı labüd edir.

İlk yanaşmaya Ə.Dəmirçizadəninvə Q.Mustafayevanın əsərlərində rast gəlirik. Hər iki mənbədə dilçilər antonimlərin mənşəcə, quruluşca, nitq hissələri baxımdan növlərini üslubi məqsədəuyğunluq baxımdan qiymətləndirmiş, təhlil etmişlər. Antonim sözlərin növlərinin onların üslubu imkanlarının dəyərləndirilməsindəki roluna işarə edərkən Ə.Dəmirçizadə yazır: "Üslubi istifadə məqamını dürüst müəyyənləşdirmə nöqteyi - nəzərindən sözlərin mütləq və ya nisbi antonim olduğunu düzgün bilmənin ciddi əhəmiyyəti vardır" [2, 136].

Bundan başqa bu mənbələrdə antonimlərin növləri arasında *mütləq antonimlər* xüsusilə vurğulanır, onların bədii üslubda, xüsusən təzad və antonim qoşalığı yaratmaq üçün daha münasib olması irəli sürülür.

Bəlkə, doğurdan da, belədir. Bəlkə, varlığın izahsız vaxt düzümündə İndi yoxdur, yalnız *Keçmiş* və *Gələcək* var" (Anar) [9, 160].

Dilimizdə tez-tez işlədilən *alıb-vermək, alt-üst olmaq, ölüm-dirim məsələsi, durub-oturmaq, götür-qoy etmək v*ə s. kimi mürəkkəb ifadələrin başlıca olaraq mütləq antonimlər hesabına düzəlməsini də hər iki müəllif fikirlərinin əyani sübutu kimi təqdim edir [2, 137; 9, 161].

Qeyd etməliyik ki, antonimlərin üslubi imkanlarının ikinci yolla, yəni *mətndə müxtəlif məqsədlərin reallaşma vasitəsi* olma baxımdan öyrənilməsi daha geniş yayılmışdır.

Dilin bütün funksional üslublarında antonim sözlərdən istifadə etmək mümkündür. Yazılı mətnin növündən asılı olaraq antonimlərin müxtəlif növlərindən və müxtəlif məqsədlər üçün istifadə edilir. Antonim sözlərin təbiəti, yəni onun reallıqla bağlı hadisə, proses, hal, vəziyyət, keyfiyyət və s. aid zidd cəhətləri bildirə bilməsi bu sözlərin elmi, publisistik, rəsmi üslublarda da istifadəsinə imkan yaradır. Antonimlər bu üslublarda bir qədər məhdudiyyətlə və daha dəqiq, konkret məqsədlər üçün müəyyən qaydalar, qəbul olunmuş normalar çərçivəsində istifadə olunur. Publisistik və rəsmi üslublarda antonimlərin bütün növlərinə müraciət etmək mümkün olsa da, elmi üslubda daha çox mütləq və ya sabitləşmiş, dəqiq əks mənalara malik olan nisbi antonimlərdən istifadə olunur; məs: İzometrlər tərkibləri *eyni*, lakin molekullarının sayı *müxtəlif* olan maddələrdir [2, 142; 9, 168].

Beləliklə də, antonimlər fərqli mətnlərdə müxtəlif vəzifələr həyata keçirir, müxtəlif üslubi keyfiyyətlərlə səciyyələnir.

Antonimlərin ən geniş şəkildə istifadəsi isə bədii üslubda mümkün olur. Belə ki, burada antonim sözlərin bütün növlərilə yanaşı (*nisbi, mütləq, sadə, düzəltmə, mürəkkəb, milli, alınma və s.*), mətni və eyniköklü antonimlərdən, eləcə də təzad əsasında qurulmuş sabit söz birləşmələrindən, idiomatik frazeoloji tərkiblərdən istifadə etmək mümkündür ki, bu da yazıçıya müxtəlif üslubi məqsədlərə nail olmaq üçün geniş imkanlar verir [3, 68-69].

Göründüyü kimi, antonimlərin üslubi xüsusiyyətləri əsasən bədii dildə reallaşır. *Antonimlərin* bədii dildə yaratdığı üslubi çalarların tədqiq edildiyi mənbələrdə onların rəngarəng *üslubi funksiyaları* əsasən aşağıdakı kimi qruplaşdırılır:

1. Bədii əsərdə hər hansı bir şəxs, predmet, və ya hadisəyə dair əlamət və ya keyfiyyəti qiymətləndirmək, oxucuda müəyyən fikir (müsbət və ya mənfi) formalaşdırmaq. Məsələn: Fon Valterin *balaca* və yumru boyuna nisbətən başı çox *yekə* görünürdü. Alnı elə bil qabağa çıxmışdı. Sarı qaşları

tərpənəndə gözlərinin üstünü örtürdü. onları dərinlərdə gizlədirdi. bilmək olmurdu ki, gözləri çox *batıqdır*, yoxsa qaşları çox *çıxıq* (M.İbrahimov "Gələcək Gün").

There was warmth, but little colour, in her cheeks; her large, dark eyes were soft. But it was at her lips - *asking a question, giving an answer,* with that shadowy smile – that men looked; (J.Golsworthy "The Forsyte Saga")

2. Bədii əsərdə xarakterlərin daxili dünyasını, mənəvi aləmini açmaq, təsvir edilən obrazın daxilində mövcud olan ziddiyyətləri emosional şəkildə vermək. Antonimlərin bu şəkildə istifadəsi bədii personajların xarakteri ilə yanaşı onların daxili və xarici aləmləri arasındakı oxşarlıq və təzadlar haqqında da oxucuda təsəvvür yaradır – O, fitrətən xarici mühitə və insanlara qarşı həssas idi, *yaxşını da yamanı* da tez duyub seçə bilirdi.Yaxşı *sinəsini sevinclə doldurduğu* halda, yaman *ürəyini yaralayırdı*, *kədər oyadırdı, ağrıdırdı* [5, 38].

All that was possible of them was possible of her. She could *love*, and *hate,* may be have hysterics; and she could certainly be jealuos, as she was jealuous now, uttering her last sobs in his arms (J.London "Martin Eden")

3. Təsvir olunan personajın (obyekt və ya predmetin) arzu, hiss və duyğularını qabartamq və daha təsirli ifadəsini təmin etmək: Rüstəm kişiyə elə gəlirdi ki, ağır təzyiq altında sıxılır, əzilir, büzüşür və *balacalaşır*. Şirzad isə *böyüyür, boy atır, ucalır* [5, 38].

4. Cəmiyyətdəki müxtəlif təbəqə və cərəyanları təsvir etmək, əsərdəki qəhrəmanların statusu, dünya görüşü, ideologiyası, savadı barədə oxucuda fikir formalaşdırmaq – Elxan: - Dünya iki cəbhəyə ayrılmışdır. Bir tərəfdə *silahlı güclülər,* digər tərəfdə isə *əliboş məzlumlar*.. (C.Cabbarlı "Od gəlini"); "Həyatda mənim varım, dövlətim sevgidir. Mən yoxsulam, *lüt və çılpağam,* hər şeydən mərhumam, hətta həyatın ən böyük neməti olan günəş işığını belə mənim əlimdən almışlar. Lakin bu yoxsulluğumla mən *hakimlərimizdən, ağalar və kübarlardan varlıyam*" (M.İbrahimov "Çandranın üsyanı").

"I do" said Scrooge. "Merry Christmas! What right have you to be *merry?* What reason have you to be merry? You are *poor* enough."

"Come, then," returned the nephew gaily. What right have you to be *dismal*? What reason have you to be morose? You are *rich* enough. (C.Dickens "A Christmas Carol")

5. Təbiət hadisələrini, təzadlı zaman, məkan, kəmiyyət anlayışlarını daha təbii, eyni zamanda da obrazlı şəkildə canlandırmaq – Qışın dördüncü günü idi. Soyuq qılınc kimi kəsirdi. Göylər matəmlilər kimi *qara* çarşaba bürünmüş, dağlar, çöllər *ağ* kəfənlə örtülmüşdü. (A.Şaiq "Məktub yetişmədi")

6. Oxucuda müəyyən mövzu ilə bağlı müsbət əhval-ruhiyyə, ruh yüksəkliyi, optimist hisslər oyatmaq, əsərdə bədii-estetikliyi təmin etmək. Antonimlərin bu funksiyası qısa məzmunlu nəzm əsərləri üçün daha spesifikdir

Adındı adımın utancaqlığı,
Adındı adımın üzüağlığı.
Ağrının nə *yaxın*, nə *uzaq*lığı (Ə.Çingiz)
Bircə diləyim var, ey qoca dünya,
Qırma bu incədən incə könlümü.
Yandır ömür boyu, yandır şam kimi
Qocaya, cavana, gəncə könlümü (Y. Zəlimxan)

7**.** Bədii dildə antiteza yaratmaq – Antitezanın əsasında təzad durur. Antitezanın güclü bədii təsvir vasitəsi olması hələ lap qədim dövrlərdə yunan alimləri tərəfindən qiymətləndirilmişdir. Təsadüfü deyil ki, Aristotel antitezanı "ziddiyyətlərin qarşılaşdırılması ilə meydana çıxan sübutun ən təsirli ifadəsi" kimi dəyərləndirmişdir. Əks mənalı sözlərdən antiteza vasitəsi kimi istifadə edilərkən "müxtəlif ziddiyyətli anlayışları bir-birindən fərqləndirmək yox, xüsusi üslubi effekt yaratmaq məqsədi güdülür" [8, 80]. Bədii dildə antiteza təkcə antonim sözlərlə deyil, eyni zamanda "obrazlardan və situasiyalardan yaranan fiqurların" [11, 193] müqayisəsi vasitəsilə yaradılır:

"Allah dindirə bilmədiyini pul dindirir!" *Cahan xanımın* atasından dönə-dönə eşitdiyi və inandığı həqiqətlərdən biri bu idi. ...Cahan xanımın tərsinə olaraq *Hürü* bilirdi ki, ... "Pul ki var, əl çirkidir". Onun atasından eşitdiyi və inandığı həqiqət bu olmuşdu. (M.İbrahimov "Pərvanə")

Göründüyü kimi, antiteza "iki dil strukturunun – leksikologiya və sintaksisin – birgə fəaliyyəti nəticəsində meydaba çıxır. Odur ki, onu ancaq leksikologiyanın kateqoriyası, yaxud sintaksisin üslubi vasitəsi hesab etmək düzgün olmaz. Antiteza lesikologiya və sintaksisin bir-birilə sıx əlaqəsi və təsiri nəticəsində ortaya çıxan qüvvətli bədii təsvirdir" [4, 107].

Antonimlər həm də seir dilinin sanballaşdırılması, onun estetik mahiyyətinin dərinləşdirilməsi, həyat-varlıq təzadlarının obrazlı təqdim edilməsi üçün çox mühüm dil vahididir. Lakin poetik dildə sözlər arasıdakı əks, zidd münasibət bir qədər fərqli xüsusiyyət qazanır, yəni "Şeir dilində sözlər arasındakı antonim əlaqələr nominativ səciyyə daşımır, daha çox məfhumların tutuşdurulmasına, qarşılaşdırılmasına əsaslanır" [6, 354].

Antonimlərin seir dilində istifadəsi onların daha çox antiteza yaratması ilə səciyyələnir.

"Antiteza poetik nitqdə geniş şəkildə özünü göstərən və tətbiq olunan bədii təsvir vasitəsidir. Poetik nitqdə onun üslubi imkanları daha genişdir. Hətta bəzi lirik əsərlər bütövlükdə antiteza üzərində qurulur. Poetik janrda

onun işlənməsi təzadlı müqayisələrin müxtəlif növləri ilə daha çox bağlıdır. Antiteza təsvir olunan hadisələr və predmetlər arasındakı kontrastı müqayisə yolu ilə müəyyənləşdirir" [3, 73].

Od gərəksə .... *su* olmusan
Su gərəksə .... *od* olmusan
Yada doğma, doğmalara yad olmusan
Bu minvalla ad almısan
Qəribədir bu dünyanın təzadları (S.Rüstəmxanlı)

It was the *best* of times, it was the *worst* of times, it was the age of *wisdom*, it was the age of *foolishness*, it was the epoch of *belief*, it was the epoch of *incredibility,* it was the season of *Light,* it was the season of *Darkness,* it was the spring of *hope*, it was the winter of *despair*, we had *everything* before us, we had *nothing* before us, we were all going direct to *Heaven,* we were all going direct *the other way*.(*C.Dickens "A tale of Two Cities")*

8. Bədii dildə oksümoron yaratmaq – B.Xəlilov *oksümoronları* antonim sözlərin növlərindən biri hesab edir: "Onlar antonimlərin növlərindən biri kimi, məntiqi cəhətdən bir-birinə zidd olan söz, söz birləşmələri və ifadələrdən əmələ gəlir" [7, 198]. Dilçi antonimlərin bu növünün yanaşı işlənərkən "obrazlı bir ifadə" kimi başa düşüldüyünü qeyd edir. M.Adilov isə "İzahlı dilçilik terminləri" lüğətində *oksimoron* barədə yazır: "mənaca bir-birinə zidd gələn, məntiqi cəhətdən bir-birini inkar edən iki sözün birləşməsindən ibarət *üslubi ifadə tərzi*" [1, 205], məs: *ağıllı dəli, diri ölü, dilənçi milyoner, orijinal nüsxə, danışan sükut, soyuq od, gəliş-gediş, alqı-satqı və s.*

Ü.Hacıyeva isə oksimoronları sözün məntiqi və emotiv mənalarının qarşılıqlı əlaqəsindən yaranan üslubi vasitə kimi təqdim edir, onları "mənanın məntiqə əks olan iki sözün birləşməsi" kimi izah edir. İngilis dilində "*cold fire, the best enemy, ill health, alone together, living death*" kimi oksimoronların nümunəsində müəllif yazır: "bu birləşmələrdə sifət təyin etdiyi ismə mənaca əks olur və bununla da təyin etdiyi obyekti yumor və ya ironiya ilə təsvir edir" [10, 49; 57].

Göründüyü kimi fərqli şərhlərə baxmayaraq osimoronların məntiqcə iki əks, zidd sözün birgə, yanaşı işlənməsindən yaranması hər üç halda qəbul edilir.Yuxarıda verdiyimiz nümunələrdən də göründüyü kimi Azərbaycan dilində oksimoronlar əsasən əks mənalı isim+isim, sifət+isim; ingilis dilində daha çox sifət+isim, isim+isim tərkibli olur.

Məntiqcə birgə işlədilməsi mümkün olmayan belə sözlərin bədii mətndə mümkünlük qazanması təbii ki, müəyyən səbəblərdən doğan məqsədlər güdür. M. Hüseynov bunu oksimoronların "güclü ifadəliliyə, ekspressiv-emosionallığa" malik olması ilə əlaqələndirir [5, 44].

T.Əfəndiyeva isə bu cür ifadələrin əmələ gəlməsini üslubi tələbatla əlaqələndirir və hesab edir ki: "yazıçı daha qaqbarıq və parlaq təsvir vasitəsi yaratmaq, bir sıra məqamlarda satirik tonu qüvvətləndirmək, bəzən fikri kəskin formada ifadə etmək üçün əslində uyuşmayan anlayışları yaxınlaşdırır" [3, 125]. Dilçi bu yolla yaradılan təsvirin mənalı və təsirli olduğunu vurğulayır.

Oksimoronları səciyyələndirən xüsuslardan biri də onun fərdi xarakter daşımasıdır. Dildə indi şablon kimi işlənən bir çox oksimoronların vaxtilə müəyyən ədiblərin əsərlərində bu və ya digər üslubi tələbatlar ilə yaradılması və sonradan kütləviləşməsi bunun əyani sübutudur.

ƏDƏBİYYAT

1. Adilov M.İ., Verdiyeva Z.N, Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı: Maarif, 1989, 358 s.
2. Dəmirçizadə Ə.M. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərtədrisnəşr, 1962, 271 s.
3. Əfəndiyeva T.Ə. Azərbaycan dilini leksik üslubiyyatı. Bakı: Elm, 1980, 250 s.
4. Əfəndiyeva T.Ə. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı: Elm, 2001, 183 s.
5. Hüseynov M.A. Yazıçının dili və üslubu. Yerevan: X.Abovyan adına EDPİ, 1981,78 s.
6. Hüseynov M.A. Dil və poeziya. Bakı: Elm, 2008, 432 s.
7. Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008, 442 s.
8. Məmmədli F. Seçilmiş əsərləri. 3 cilddə, III c., Bakı: Nurlan, 2004, 546 s.
9. Mustafayeva Q.H. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Elm, 2010, 388 s.
10. Hajıyeva U.D. English Stylistics. Baku, 2014, 166 p.
11. Головенченко М.Ф. Введение в литературоведение. М.: 1964, 319 с.

MIRVARI GASIMOVA

STYLISTIC PECULIARITIES OF ANTONYMS

SUMMARY

The article deals with the investigation of the stylistic peculiarities of antonyms – words having strict opposite lexical meanings.

The lexical specifities of antonyms and their contribution to the belles-lettres as means of forming different stylistic devices is given priority to touch upon in the article. The main point of the article is to analyze the

stylistic-aesthetic peculiarities and emotional – expressive effects of antonyms in the belles-lettres.

To achieve this point the author has elaborated the most common use of antonyms and has given proper samples for each model of usage from different literary works.

МИРВАРИ ГАСЫМОВА

СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ АНТОНИМОВ

РЕЗЮМЕ

В статье рассматриваются стилистические особенности слов, имеющие прямо противоположные лексические значения - антонимов.

Здесь на передний план выдвигаются лексические особенности антонимичных слов и их вклад в создании различных стилистических приемов в художественном стиле.

Основная задача статьи заключается в анализе художественно-эстетических особенностей различных видов синонимов в художественном тексте и их эмоционально-экспрессивного эффекта.

Для достижения поставленной цели, автор статьи, приводит разборку самых распространенных случаев употреблений антонимов и дает соответствующие образцы из различных художественных произведений.

Rəyçi: prof.İlham Tahirov

YEGANƏ ABBASOVA
Filologiya üzrə fəlsəfə doktoru
İqtisad Universiteti
yeganehuseynova@mail.ru

İNGİLİS DİLİNDƏ SÖZÖNLƏRİ VƏ SÖZÖNLƏRİNİN AZƏRBAYCAN DİLİNDƏ QARŞILIĞI

Açar sözlər: *sadə sözönləri, düzəltmə sözönləri, mürəkkəb sözönləri, tərkibi sözönləri.*
Ключевые слова: *простые предлоги, производные предлоги, сложные предлоги, составные предлоги.*
Key words: simple prepositions, derivative prepositions, complex prepositions, composed prepositions

Azərbaycan dilindən fərqli olaraq, müasir ingilis dilində sözönü adlanan köməkçi nitq hissəsi vardır.

Müasir ingilis dilində ismin hal kateqoriyası morfoloji baxımdan çox kasıb olduğundan cümlədə isim (yaxud əvəzlik) ilə digər nitq hissələri arasında mövcud olan qrammatik əlaqələr müxtəlif sözönü vasitəsilə ifadə edilir.

Müasir ingilis dilinə xas olan sözönləri iki baxımdan təsnif edilə bilər:

1) Morfoloji quruluşlarına görə.

2) ifadə etdikləri qrammatik mənaya görə.

Morfoloji quruluşlarına görə müasir ingilis dili sözönləri aşağıdakı qruplara bölünür.

a) sadə sözönləri, məsələn:

on, in, at for, with, of, out, to və s.

b) düzlətmə sözönmləri; məsələn:

behind, along, be,low, across və s.

c) mürəkkəb sözönləri, məsələn:

upon, without, inside, outside, into və s.

d) tərkibi sözönləri, məsələn:

in front of, with regard of, because of, out of və s.

İfadə etdikləri qrammatik mənalara görə sözönləri aşağıdakı qruplara bölünə bilər:

a) məkan bildirən sözönləri: in, at, on, in front of, between, around və s. Məsələn:

Old Jolson’s hand trembled <u>in</u> his lavender glass. (Galsworthy).

Artur remained <u>at</u> the gate, … (London).

He stood <u>in front of</u> a gloomy tenement house. (London).

b) İstiqamət bildirən sözönləri: to, into, towards, along, from və s. Məsələn:

Arthur went back to his lodgings. (Voynich)

He pointed to the valley below them. (Voynich)

c) Zaman bildirən sözönləri: for, in, on, at, after, beforem within, during və s. Məsələn:

Dorian did not answer for a moment. (Wildi)

I will call for you at seven o'clock. (Galsworthy)

d) Mürəkkəb əlaqələr ifadə edən sözönləri: with, by, about, because of, in accordance with və s. Məsələn:

You will never make it the same by writing. (Voynich)

Müasir ingilis dilində mövcud olan sözönlərinin ifadə etdikləri qrammatik mənaya görə bölgüsü nisbidir: bəzi sözönləri bir deyil, iki məna ifadə edir; in, at, on və s. Söz önləri bəzən məkan, bəzən isə zaman mənası bildirir. Məsələn: In summer we rest in the village cümləsində in sözönü birinci halda (in summer) zaman, ikinci halda (in the village) isə məkan bildirir. Bu hal göstərir ki, sözönlərinin mənaya görə bölgüsü nisbi hesab edilməlidir.

Sözönləri bir qayda olaraq, aid olduğu sözdən əvvəl işlədilir.

1. Əvəzliklə, yaxud təyinə malik olmayan isimlə işləndikdə sözönü bilavasitə aid olduğu sözün qarşısında durur, məsələn:

«I'm going over to paris» (Maugham). She looked at me with a curious pity. (Braine).

2. İsmin qarşısında təyin (yaxud artikl) olduqda sözönü bilavasitə işindən əvvəl deyil, onu təyin edən sözdən (həm dəartikldan) əvvəl durur, məsələn:

The flat was on the top floor… (Braine)

A sudden smile flashed across his round face. (Maugham)

Sözönü bəzən (xüsusən sual cümlələrində) cümlənin sonunda, yaxud lap əvvəlində işlədilir. Bu halda sözönləri vurğulu olur, məsələn:

What are thinking about? I did not know where he had come from.

Müasir ingilis dilinə xas olan sözönləri Azərbaycan dilinə, əsasən, iki vasitə ilə tərcümə edilir:

1) hal şəkilçiləri və ya hal şəkilçisi qəbul etmiş alt, üst, ara və s. Sözlər vasitəsilə.

2) qoşmalar vasitəsilə.

Sözönlərinin, konkret olaraq, həmin vasitələrdən hansı ilə tərcümə edilməsi, onların (sözönlərinin) hər dəfə ifadə etdiyi qrammatik mənadan asılı olur:

a) məkan bildirən sözönləri dilimizə ya (1) yerlik hal şəkilçisi, ya da (2, 3, 4) yerlik hal şəkilçisi qəbul etmiş alt, üst, ara və s. tərcümə edilir.

Məsələn:

(1) There was a boy in the room- Otaqda (bir) oğlan var idi.

(2) Your coat is on the sofa - Sizin paltonuz divanın üstündədir.

(3) The car stopped under the tree – Maşın ağacın altında dayandı.

(4) There was a beautiful village between the rivers – Çayların arasında gözəl bir kənd var idi.

b) istiqamət bildirən sözönləri dilimizə əsasən ya (1) yönlük, (2) çıxışlıq hal şəkilçisi, ya da (3) yönlük hal şəkilçisi qəbul etmiş, iç, yaxud da (4) boyunca xözü vasitəsilə tərümə edilir. Məsələn:

(1) The pioneers were going to the park – Pionerlər parka gedirdilər.

(2) The children returned from school – Uşaqlar məktəbdən qayıtdılar.

(3) The girl put her books into the bag – Qız kitablarını çantaya (yaxud çantanın içinə) qoydu.

(4) The travelers were going along the river – Səyahətçilər çay boyunca gedirdilər.

b) zaman bildirən sözönləri Azərbaycan dilinə ya (1) yerlik hal şəkilçisi, ya (2) sonra, ya da (3) əvvəl-qabaq sözləri ilə tərcümə edilir, yaxud da (4) heç tərcümə olunmur. Məsələn:

(1) The came back at two o'clock – Onlar saat ikidə geri qayıtdılar.

(2) After a week we left the city – Bir həftədən sonra bir şəhəri tərk etdik.

(3) We must finish our work before holiday – Biz işlərimizi bayramdan əvvəl (qabaq) qurtarmalıyıq.

(4) I saw him on Sunday – Mən onu bazar günü gördüm.

2) Mücərrəd qrammatik əlaqələr ifadə edən sözönlərindən (1) biri (of) dilimizə yiyəlik hal şəkilçisi, qalanları isə əsasən (2, 3) qoşmalar vasitəsilə tərcümə edilir. Məsələn:

(1) The door of the room was pointed – Otağın qapısı rənglənmişdi.

(2) The teacher spoke about new books – Müəllim yeni kitablar haqqında danışdı.

(3) The workers couldn't continue their because of the storm – Fəhlələr tufan olduğuna görə işlərini davam etdir bilmədilər.

Sözönləri, əsasən də isim və özündən əvvəl gələn hər hansı bir söz arasında əlaqə yaradan köməkçi sözlərdir. Bundan başqa, sözönləri hal və cins kateqoriyasına görə də dəyişmirlər. Onlar qeyd edildiyi kimi isimlərini və əvəzliklərin, çox nadir hallarda isə başqa nitq hissələrinin qarşısında gəlirlər.

Beləliklə, sözönlərini belə xarakterizə etmək olar.

1) Sözönləri bir qayda olaraq isimlərin qarşısında gəlir.

2) Sözönləri ismin bütün formaları ilə işləmə bilir (məs., xüsusi isimlər ümumi isimlər, maddə adları bildirən isimlər, mücərrədlik bildirən isimlər).

3) Sözönləri feldən sonra işlənmir, lakin felin formalarından olan cerund və feli isimlə ifadə olunmuş obyektlərin qarşısında işləmə bilirlər. Bu Obyektlər isimdən başqa digərsözlərlə ifadə oluna bilirlər:

1) Əvəzliklərlə

2) Sifətlərlə
3) Zərflərlə
4) Frazalarla
5) Felin şəxsiz formaları ilə
6) Budaq cümlələrlə

Sözönləri həm də fellərlə birləşərək tərkibi fellər yaradırlar.

Hal-hazırda müasir ingilis dilində 150-dən çox sözönü mövcuddur. Bu sözönüləri mənşəyinə görə iki qrupa ayırmaq olar: əsli (ingilis) sözönülərvə alınma sözönülər. Bəzi ingilis sözönülərinin mənşəyini tədqiq etdikdə onların həqiqətən də digər dillərdə mövcud olan sözönüləri ilə uyğun gəldiyini görmək olar. Bu da təbiidir, çünki onlar digər dillərdən alınmadır.

Məlum olduğu kimi, ingilis və Azərbaycan dilləri istər genezis və istərsə də tipoloji quruluş baxımından müxtəlif dil qruplarına daxildir. İngilis dili Hind-avropa dillərinin german qrupuna daxil olub, analitik dil, Azərbaycan dili isə türk dillərinin oğuz qrupuna daxil olub, aqqlyutinativ, yəni sintetik dil adlanır. Bu zəmində həmin dillər arasında ciddi fərqlər mövcuddur. İngilis dilini öyrənən hər bir azərbaycanlı tələbə həmin fərqlər arasında meydana gələn çətinliklərlə qarşılaşmalı olur. Məsələn: ingilis dilində ismin hal kateqoriyası morfoloji ifadə baxımından çox kasıbdır. Sintetik dillərdə, məsələn, Azərbaycan və rus dillərində ismin 6 hah var. Ona görə də, cümlədə isim ilə digər nitq hissələri arasında mövcud olan qrammatik əlaqələr hal kateqoriyası ilə ifadə edilir. Müasir ingilis dilində isə ismin yalnız iki hal var.

Qeyd etmək lazımdır ki. ingilis dili morfoloji sintetik forma baxımından heç də həmişə indiki kimi kasıb olmamışdır. Qədim ingilis dili zəngin və mürəkkəb sintetik formalar sisteminə malik olmuşdur. Bu dövrdə isim qrammatik eins, hal və kəmiyyət kateqoriyasına malik olmuşdur, ismin üç qrammatik cinsi (kişi, qadın, orta) və dörd (adlıq, yiyəlik, yönlük, təsirlik) halı var idi. Hər bir cins və halı bildirmək üçün qədim ingilis dilində şəkilçilər mövcud olmuşdur. Bu da məlumdur ki, dil ictimai bir hadisə olaraq donmuş halda qalmır. Müxtəlif tarixi, ictimai, siyasi hadisələr daima dilə də öz təsirini göstərir. Qədim ingilis dövründə əsasən sintetik dil olan ingilis dili orta dövrdə analitik dilə çevrilmişdir. Məlumdur ki, qrammatik formanın yox olması, qrammatik mənanın yox olması demək deyildir. Buna görə də, sintetik formanı itirmiş qrammatik mənalar hər hansı bir vasitə, forma ilə ifadə edilməli idi. Hər bir dildə, o cümlədən müasir ingilis dilində işlədilən sintetik və analitik formalar bir-biri ilə qarşılıqlı əlaqədə olur və vəhdət təşkil edir. Bu dildə sözlər arasındakı sintaktik əlaqələr köməkçi sözlər, sözönləri, köməkçi fel, artikl və söz sırası vasitəsi ilə ifadə edilir.

The struts of Baku.
We shall go.
The book is interesting.

Tom knows you.

The workers build a new house in our street.

- istiqamət bildirən sözönləri: **to, into, twards, along, from;**
- zaman bildirən sözönləri: **in, at, after, before, untill, during, till;**
- səbəb əlaqəsi bildirən sözönləri: **because of, thanks to, with regard to.**

Demək olar ki, bu bölgü də şərtidir, belə ki, **by, in, on, at** və s. sözönləri cümlədə bir neçə mənada çıxış edə bilir.

To travel by train - qatarda səyahət etmək

To come by 6 o' clock - 6-yə qədər gəlmək

A painting by T.Narimanbeyov – T.Narimanbəyovun əsəri

By the window - pəncərənin yanında

This booh was written by Agatha Christie – Bu kitab Aqata Kristi tərəfindənyazılmışdır.

He usually goes to work by bus.

Do you prefer to travel by air or by train?

in, on, at sözönləri cümlədə ən çox məkan və zaman mənasında işlənir.

She does a lot of works at school

In summer we rest in the village.

At five o ' clock we were still at home.

İllərin, fəsillərin, günün bir hissəsinin, ayların «in», həftənin günlərinin, ayın tarixlərinin qarşısında **«on»,** vaxtı saatla göstərdikdə **«at»** sözönü işlənir.

in 1990, in winter, in ma in the morning


On Sunday, on Monday morning on the 25~ of April, at 9 o' clock. We don' t work on Sundays.

Sözönləri digər nitq hissələri ilə birlikdə birləşir və cümlədə bu və ya digər cümlə üzvü funksiyasında

We stayed in the room

in the room - məkan bildirir, yer zərfliyi funksiyasmda işlənir.

Cümlədə məkan və zaman bildirən bir sözönünü digər özönü ilə əvəz etmək olar.



Müasir ingilis dili demək olar ki, bütün hal şəkilçilərini itirdiyindən (adlıq və yiyəlik halından başqa) bu dilin sözönlərinə böyük ehtiyacı var.

İngilis dilindən olan sözönü birləşmələri Azərbaycan dilindən olan hal şəkilçilərinə uyğun gəlir.

İngilis dilində olan **of** sözönü Azərbaycan dilində olan yiyəlik hala, **to** yönlük hala, **from** çıxışlıq hala uyğun gəlir.

The leg of the table - stolun ayagi

I gave the book to the student - Mən kitabı tələbəyə verdim

I got a letter from him - mən ondan məktub aldım.

İngilis dilindən olan sözönləri ilə Azərbaycan dilində olan hal şəkilçiləri nə qədər oxşar olsalar da, onlar müxtəlif rollar daşıyırlar. Bu fərq də sözönlərindən yox, onların aid olduğu isimlərdən daha çox asılıdır.

Azərbaycan dilində müxtəlif şəkilçilər müxtəlif hallara uyğun gəlir (a, ə, ya, yə, v, i, da, də, dan, dən). Bu şəkilçilər aid olduqları isim və ya əvəzliklərdən çox asılıdır. Onlar isimdən kənarda işlənə bilmir və heç bir məna vermirlər.

İngilis dilində olan sözönləri Azərbaycan dilinə əsasən iki vasitə ilə tərcümə edilir:

1. hal şəkilçiləri və hal şəkılçiləri qəbul etmiş *altında, üstündə, arasında* və s. sözlərlə.

The students are under the tree.

2. qoşmalar vasitəsi ilə *kimi, qədər, dək, haqqında, əwəl, sonra* və s.

We were talking about you.

Məkan bildirən sözönləri Azərbaycan dilinə ya yerlik hal şəkilçisi, ya da yerlik hal şəkilçisi qəbul etmiş *altında, üstündə, arasında* sözləri ilə tərcümə edilir:

Your caat is on the sofa - Sizin paltonuz divanın üstündədir.

İstiqamət bildirən sözönləri dilimizə əsasən ya yönlük, ya çıxışlıq hal şəkilçisi, yaxud da qoşmalarla tərcümə edilir:

Two boys were going to the park.

They came back from London.

The travelers were going along the river - Səyahətçihr çay boyunca gedirdihr.

Zaman bildirən sözönləri Azərbaycan dilinə ya yerlik hal, ya qoşmalar vasitəsi ilə, yaxud da müxtəlif məna çalarlığma malik olması kontekst vasitəsi ilə mümkündür.

He came on Sunday.

After a week they left the city.

ƏDƏBİYYAT

1. O.Musayev «İngilis dilinin qrammatikası» Bakı ş., 2007.

2. Hüseynzadə M. Müasir Azərbaycan Dili III hissə. morfologiya, Bakı, maarif, 1873.

3. Azərbaycan dilinin qrammatikası. I hissə Morfologiya. Bakı, Azərbaycan, SSR Elmlər Akademiyasının nəşriyyatı, 1960.

4. Seyidov Y. Azərbaycan Dili, Bakı, Maarif, 1978.

5. Xəlilov B. Müasir Azərbaycan Dilinin Morfologiyası, Bakı, 2007.

6. N.Məmmədov. Dilçiliyə giriş. Bakı. 1988 il. «Elm» nəşriyyatı.
7. Ə.Z.Abdullayev. Köməkçi nitq hissələri. ADU nəşriyyatı. 1963.
8. A.O.Aslanov. Müasir Azərbaycan dilində sözləri. Azərbaycan EA, 1959, № 4.

ABBASOVA YEGANA

PREPOSITIONS IN ENGLISH AND EQUIVALENTS OF PREPOSITIONS IN AZERBAIJAN LANGUAGE.

SUMMARY

In Modern English the parts of speech are divided into 3 parts: major, auxiliary and independent. One of the auxiliary parts of speech is preposition, because it has not complete lexical meaning and syntactic function. As the case category of noun is very weak in modern English, the prepositions are used for expressing the existing grammatical connections between noun or pronoun and other parts of speech. It is necessary to mention that in Azerbaijan language there is not part of speech as preposition and in Azerbaijan language it is expressed by case affixes and other affixes or words.

АББАСОВА ЕГАНА

ПРЕДЛОГИ В АНГЛИЙСКОМ ЯЗЫКЕ И ЗАМЕНА ПРЕДЛОГОВ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В данной статье говорится о том, что части речи в современном английском языке делятся на 3 части: основные, вспомогательные и самостоятельные части речи. Одной из вспомогательных частей речи является предлог, так как у него полностью отсутствует лексический смысл и синтаксическая функция. В связи с тем, что падежная форма существительного в современном английском языке, с морфологической точки зрения, является очень слабой, для выражения грамматической связи, имеющейся между существительным или местоимением и другими частями речи, употребляется предлог. Также следует отметить, что в Азербайджанском языке нет предлога, и он в основном выражается в Азербайджанском языке с помощью слов или падежей и других суффиксов.

Rəyçi: filol. f.d. dos. B.Səmədov

SEVİNC ŞAHLAROVA
NİGAR NAMAZOVA
Sevinc,nigar.@.mail.ru.

ÖN ŞƏKİLÇİLƏR VASİTƏSİLƏ YARANAN TÖRƏMƏ FEİLLƏRİN İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İFADƏ ÜSULLARI

Açar sözlər: *ingilis dili,azərbaycan dili,prefiks,fellər.*
Ключевые слова: ***английскийязык, азербайджанский язык, префиксы, глаголы.***
Key words: *english,azerbaijani, prefixes,verbes.*

Bir sıra Avropa dilləri ilə müqayisədə ingilis dilinin fel düzəldən prefiksləri bir qədər çox leksik xarakterə malikdirlər və bildiyimiz kimi Avropa dillərindən prefikslər müəyyən qrammatik funksiya daşıyırlar. Prefikslər vasitəsilə düzələn törəmə fellər içərsində bir sıra sinonim prefikslərə də rast gəlinir. Məsələn,**de-,dis-,mis-,un-.**Bu prefikslər törətdikləri fellərə hərəkət və ya əks məna verirlər:to misunderstand, to mistrust, to misuse, to undertake, to underline, to overcame, to overlook, to unrise, to untie, to unpack, to uphold, to repay və s.

Bu prefikslər arasında **over-under-** kimi antonim prefikslər qrupu təşkil edənlərə də rast gəlmək olur. P.M.Karakuş fel düzəldən ön şəkilçilərdən danışarkən onun doqquz növünü göstərir.Fel düzəldən ön şəkilçilərdən danışarkən biz ön şəkilçilərinin nitq hissəsini dəyişə bilən və bilməyən xüsusiyyətlərini nəzərdən qaçirmamalıyiq. Çünki fel düzəldən ön şəkilçilərinin bəziləri hər hansı bir nitq hissəsinə artırılaraq onu dəyişdirir, bəziləri isə dəyişdirmir. Bu baxımdan aşağıdakı modellər yaranır:1)Nitq hissələrini dəyişə bilən ön şəkilçiləri;2)Nitq hissələrini dəyişə bilməyən ön şəkilçiləri.

1)Nitq hissələrini dəyişə bilən ön şəkilçıləri :Be+n=v

Bu modelərin aşağıdakı semantik xüsusiyyətləri var:

1)Əsasın ifadə etdiyi obyekti öyrənmək, əhatə etmək, təmin etmək. Məsələn, cloud-becloud(buludla əhatə etmək)

2)Əsasın ifadə etdiyini bir şeydən məhrum etmək.Məsələn, head-behead(boynunu vurmaq)

3)Əsasın ifadə etdiyi kimi olmaq.Məsələn,slave-beslave(kölə etmək, nökər etmək)

.Bu halda **“be ’**prefiksi əsasən isim vəsifətlə birləşir.Fellərin düzəldilməsinin bu tipi, canlı məhsuldar tip hesab olunur. Məsələn : to bedim –to make dim, to befoul-to make little, to befool -to befool –to make a fool. To beblind-to make blindMüasir dövrdə konversiyanın

inkişafı ilə əlaqədar "be " prefiksinin rolu xeyli azalıb**. " Be"** prefikslə olan sözlərinin olan tarixi və etimologiyası bunu bir daha sübut edir ki, onların əksəriyyəti qədim və orta ingilis dövründə yaranıb.**De+n=v-** Bu model aşağıdaki semantik xüsusiyyətə malikdir.

Əsasın ifadə etdiyi əşyadan məhrum etmək. Məsələn:pasture – to depasture(to deprise to pasture)Son zamanıar bu mənanı ifadə edən bir sıra fellər yaranmişdır.Məsələn, de – sting; de-beak1)İt didnt seem real and it depressed him.(The Path of Thunder,p.61)

2)She would be sure to make a scene and he **detested** scenes of every kind.(The picture of dorion Grey,p.94)**Dis +n=v-** Semantik xüsusiyyəti: yox etmək, məhrum etmək, figure- to disfigure. Nadir hallarda bu ön şəkilçisi "hissələrə bölmək" mənasını ifadə edir. Məsələn,member-dismember1)Martin Eden took a bath ,after which he found that head pf laundryman had dissappeared. To say that Lester was greatly disheartened by this blow is to put it mildly.(Gennie Gerhardt,p.271)**En+v=v-**semantik xüsusiyyətləri:1)Əsasın ifadə etdiyi əşyaya görə yerləşdirmək.O.Espersen aşağıdakı sözləri misal gətirir: camp-encamp, cage -encage, box -embox, cloud encloud2)Əsasın ifadə etdiyinə çevirmək.Məsələn,cash –encashOut +n=v- semantik xüsusiyyət: Əsasın ifadə etdiyindən kənar çıxmaq. Məsələn, outrage, outdistance və s.She seemed outraged at the thought of him sleeping on the floor.(The path of Thunder,p.83) **Un +v=v- bu** model aşağıdaki semantik xüsusiyyətlərə malikdir:1)Əsasını ifadə etdiyi əşyaların azad etmək, məhrum etmək. Məsələn: cage-uncage(qəfəsdən azad etmək),chain – unchain (zənciri açmaq)2)Əsasını ifadə etdiyi əşyadan çixartmaq, azad etmək.Məsələn:carth-unearth (yerdən çixartmaq)**UN** ön şəkilçisi təkcə isimlərdən yox fellərdən də fel düzəldir. Bu zaman bu model yaranır:**Un +v=v**1.Miss miller helpedname to **undress** (Jane eyre,p.20)2.she unlocked a cupboard and brought out a good -sized cake. (Jane Eyre,p.33)

Be=A=V- semantik xüsusiyyət.Əsasını ifadə etdiyi kimi etmək .Məsələn:dim-bedim (tutqunlaşdirmaq), little-belittle(balacalaşdirmaq)1.İn the meantime,Bill had bethought himself of the rifle.(White fang,p.115)2.Then he sawthat no harm befell the dogs that dogs that were near tothem, and he came in closer(White Fang,p.204)

En+A=V-Semantik xüsusiyyet:Əsasını ifadə etdiyi vəziyyətə gətirmək.Məsələn: feblenfeeb(zəifləmək)

En+V=V-Semantik xüsusiyyət:adətən felə gücləndirici məna verir.Məsələn:close-enclose:lighten-enlighten.

1.They should be encould be encouraged to suffer hunger üithout complaint(Jane Eyre,p.29

2.I learnt for the first time to make pleasure in fine scenery? In the hills that enclosed our wouded valley.(Jane Eyre,p.34)

2)Nitq hissələrinin dəyişə bilməyən ön şəkilçiləri:Un+V=V

Un prefiksi fellərə qoşularaq əks hərəkət ifadə edir. Məsələn:to cover(örtmək)-to uncover(üstünü açmaq),to behind(əyilmək)-to unbehind(qalxmaq), to shoe (ayaqabı geymək)-to unshoe(ayyaqabını soyunmaq), to fasten (bərkitmək,bağlamaq)-to unfasten (açmaq)

1.İ dressed unfastened the door üith a trembling hand/and opened it.9Jane Eyre,p.55)

2.He unstopped the mast and furled the sail and tied it.(The Pld Man and the Sea,p.95)

Öz mənalarına görə "**un** "prefiksi ilə əmələ gələn fellər 2 böyük semantik qrupa bölünur:

1Hərəkət bildirən insan əlinin köməyilə həyata keçirilə bilən fellər və ya onları əvəz edən düzəltmə sözlər. Bu fellər aşağıfakı mənaları ifadə edir:

a)birləşdirmək,yapışdırmaq: to bind (bağlamaq),to buckle (kəmərləmək), to brace(bağlamaq),to button (düymələmək), to clasp (qucaqlamaq), to fold (qatlamaq) və s.

But he untidet the harpoon rope from the bitt and passed it through the fishs gills.(The Old Man and the Sea,p.79)

b)burmaq,bələmək,sarımaq: to coil (burulmaq),(spiralvari) to curl (burmaq) to furl (sarımaq) to coil (burulmaq) (spiralvari) to curl (burmaq) to furl (sarimaq qatlamaq), to rool (yumurlamaq) to link (əlaqələndirmək,bağlamaq)

c) örtmək, bağlamaq:to cap (örtmək, to close (bağlamaq), to lock (kilidləmək), to cork (mantarla bağlamaq), to cover (örtmək), to dress (geyinmək), to mask (maskalanmaq), to cage (qəfəsə salmaq), to cloak (plaş geyinmək) və s

1.Miss Miller helped me **to undress**.(Jane Eyre,p.20)

2.She unlocked a cupboard and brought out a good - sizet cake (Jane Eyre,p.33)

2)Əqli və ruhi anlayişları ifadə edən fellər.Bu semantik qrupa daxil olan fellər azliq təükil edirlər. Məsələn:1. İ dislike you the worst of anyone in the world , except John Reed: (Jane Eyre ,p.15)2.Martin took a bath, after which he found that the head of laundryman had disappeared.(Martin Eden,p.142)

2)Bölgü mənası , əsas tərkib hissələrinə bölünmə mənası: to connect birləşdirmək-to disconnet ayırmaq, to join qoşulmaq, birləşnək -to disjoin bölünmək və s.

3)Nədənsə məhrum etmə mənası :to disrank "rütbədən məhrum etmək", ti disclaim " öz hüquqlarından imtina etmək, tanımamaq" və s.Bu məna birinci mənadan demək olar ki ,heç nə ilə fərqlənmir.

Belə ki, burada dis-prefiksi əsasla ifadə olunmuş mənaya əks olan məna yalnız hərəkət mənası ifadə edir.Məsələn, 1.There was I, standing in the middle of the room,none publicly dishonoured.(Jane Eyre,p.31)

2"Do you mean that we may dismiis you to the rainy night?"(Jane Eyre,p.118)

Müasir ingilis dilində roman dillərindən keçmiş dis-prefiksi ilə başlayan çoxlu sayda fellərə rast gəlinir.

Dis-prefiksi sözün əsasını ifadə etdiyi mənaya əks olann məna ifadə edir.Onların bəziləri öz inkişafı dövrundə yeni məna kəsb edərək mənalarını dəyişiblər. Məsələn,

1.İt was discorvered in the strangest way.(Jane Eyre,p.143)

2.The dark cloud of blood had settled and dispersed in the miledeep sea.(The Old Man and the Sea,p.82)

Mis prefiksinə bütün german dillərində rast gəlinir. Qədim ingilis dilində çatışmamazlıq,itgi,yoxluq,yalnış, səhv hərəkətləri ifadə etmək üçün fellərə qoşularaq işlədilirdi.

Müasir ingilis dilində yayılmiş səhv ,pis mənasını ifadə edən feli prefiks mis-prefiksidir. Məsələn, to misname-"düzgün adlandırmayarq",to mistake-"səhv etmək", to miscall-"düzgün çağırmamaq", to miscount-"düzgün saymamaq", to misunderstand-" səhv başa düşmək" və s

Mis-prefiksinin digər mənaları aşağıdakı kimidir: to mistrust "etibar etməmək", to mislike "xoşlamamaq", to misaffect " sevməmək".

Ədəbiyyat

1.Амосова Н." Лексикология английского яэыка".М.1955
2.Antrushina G.B."English Lexicology" .M.1985
3.Axundov A."Ümümi dilçilik "B.1981.

S.SHAKHLAROVA,
N.NAMAZOVA

VERB FORMING PREFIXES IN MODERN ENGILISH

SUMMARY

The subject of our article is" Verb forming prefixes in Modern Engilish Language"

Affixes are considered to be one of the most productive ways of supplying the world formation because they are closely connected lexicology and its branches.

Affixa d types of bases/Affixation is connencteds with morphology.All morphems are subdivided inti two large classes; roots and affixes.This article is of theoret affixes of the language.

In this article methods of usage prefixes in Azerbijan in English,the investigation history,as well as different features in both language are analised.Prefixation is defined as the formation of words by adding derivational prefixes to different types of bases.

С.ШАХЛАРОВА,
Н.НАМАЗОВА

ПРЕФИКСИАЛЬНЫЕ ГЛАГОЛЫ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЫХ

РЕЗЮМЕ

Данная работа посвящена теме «Префиксиальные глаголы в современюном Английском и Азербайджанском языках».

В словаобразовании современного Английского и Азербайджанского языках префиксиальные глаголы играют значительную и важную роль.

В статье также рассматривается различные виды префиксиальные глаголы в Английском и Азербайджанском языках, их употребление в простых и сложных предложениях, а также анализируется усилительные префиксиальные глаголы в обоих языках.В данной статье анализируется также семантические особенности префиксиальные глаголы, которые употребляются в различных частях речи.

RƏYÇİ: Rəfiq Cəfərov
f.e.n.,dosent

RƏNA HÜSEYNOVA
Azərbaycan Dövlət Tibb Universiteti
rəna.@.mail.ru.

KONVERSİYA YOLU İLƏ İNGİLİS DİLİNDƏ YENİ SÖZ YARADICILIĞI VƏ ONUN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ ÜSULLARI

Açar sözlər: *İngilis dili, konversiya, yeni sözlər, Azərbaycan dili, üslubiyyat.*
Ключевые слова: *Английский язык, конверсия, новые слова, стилистика, Азербайджанский язык.*
Key words: *English, convertion, words news, stylistic, Azerbaijani.*

Arxaizmlərə əks olaraq - neologizmlər dilə müasir dövrdə daxil olan və ya yenicə daxil olan yeni sözlərdir. Onlara münasibətdə dildə yaranan sözlərin neologizmlərə aidliyini müəyyən edən xronoloji səddin çəkilməsində müəyyənlik yoxdur. Dil tarixi bu termindən ayrı-ayrı tarixi dövrlərdə lüğət tərkibinin zənginləşməsilə xarakterizə edərək istifadə edir. Stilistik münasibətdə neologizmlər üçün sözün yeniliyinin danışanlar tərəfindən nə dərəcədə mənimsənildiyi, bizə yaxşı məlum olan adət etdiyimiz sözlərin fonunda qeyri- adiliyi ön plana çəkilir.

Geniş, məişətdə, eləcə də qəzet və radioverilişlərdə gündəlik işlənən sözlər tez bir zamanda öz yeniliyini itirir və "yaş qrupu olmayan" sözlərin əsas hissəsinə qarışır. Onların ifadə etdiyi əşyaların yaxın dövrlərdə yaranması haqqında xatirə hələ də onların yaxın onilliklərdə dilə daxil olması haqqında bəzi təsəvvürləri saxlayır: *bus, trolley-bus, radio, TV-program,* TT və s.

Xüsusi terminologiya, elm və istehsalatın ayrı-ayrı sahələrində uzun müddət mövcud olmasına baxmayaraq, çox hallarda yalnız mütəxəssislərə və ancaq tədricən geniş dairələrə məlum olur. Bununla əlaqədar, bu və ya digər termin geniş işlənərsə, çox hallarda onun yeni söz olduğu və ya dar ixtisaslı işlənmədən ümumişlək dilə keçən sözün çoxdan mövcud olduğu qeyri-müəyyən qalır. Buna görə də yenidən yaranan terminlər xüsusi terminologiyanın geniş dairəsinə qarışır, elmi və işgüzar üslub xarakteri alır. Onların yeniliyi, istisna hallarda, zəif mənimsənilir. Məsələn, XX əsrin II yarısında istifadəyə daxil olan *akrilin, aspirin, streptosid, vitamin* kimi dərman maddələri adlarının əvvəllər işlənən antipirin 0891), atropin (1847), qlükoza (1875) sözləri ilə müqayisədə elə də böyük yeniliyi nəzərə çarpmır.

Konversiyanın derivasiya yolu ilə yeni sözlərin düzəldilməsi metodu kimi aktivliyi aşağı düşmüş və sözdüzəltmənin digər növlərindən geri qalmışdır.

Aparılan tədqiqatların nəticələrinə əsasən, konversiya olunmuş vahidlər neologizmlərin ümumi saynın 3 %-ni təşkil edir.

Əsas model kimi yeni terminlərin böyük hissəsini yaradan N—>V modeli olmaqda davam edir: *to hack-stroke, to lesion, to polygraph* və s. İsimlərin böyük hissəsi mürəkkəb isimlərdən yaranır: *sojt-dock* sözündən yaranan *to soft-dock* sözü "mexaniki üsulların köməyi olmadan orbital stansiyanın birləşməsi"; *carpool* sözündən yaranan *to carpool* sözü "işə, mağazalara və s. gedərkən maşının növbə ilə sürülməsi"; *red-lirıe* sözündən yaranan *to red-line* sözü "borc, sığorta vasitəsilə mülkiyyətin sahiblərinə verilməsinə etiraz yolu ilə şəhərin ayrı-ayrı rayonlarının hüquqlanrının tapdalanması".

Dilin inkişafının əvvəlki mərhələlərində olduğu kimi fellərdən isimlərin yaradılması hal-hazırda daha az məhsuldardır. Məlum olduğu kimi, bu ingilis dilində isimlərin fıksasiya yolu ilə fellərdən çox asanlıqla yaranması ilə əlaqədardır.

Konversiya edilmiş isimlər arasında qoşmalarla işlənən fellərdən yaranma tendensiyası güclənir, məsələn: *to rip-off "oğurlamaq"* felindən yaranan *rip-off* "oğurluq" sözü; *workaround* (kosmonavtika termini) "uğursuz uçuş halında alternativ metod"; *give-back, flowback, passalong, buy-oj^Mtoi* işimlərin çok hissəsi konversiya yolu ilə sifətlərdən düzəlir, məsələn: *collectihles* "kolleksiya toplamağa aid olan, əsasən qədim və ya nadir əşyalar"f *m0* "özünə nəzarət, təmkinlilik" sözləri çox hallarda *to lose one's cool, to keep one's cool* ifadələrində işlənir.

İsimlərin *~ic* sonluğu ilə olan sifətlərdən yaranması xüsusilə məhsuldardır, məsələn: *acrylic, transuranic, tricyclic.* Bu modeldən tibdə geniş istifadə olunur: *autistic, astigmatic, İgeriatric, prepsychotic.* Bütün bu vahidlər alcoholic, fanatic, critic kimi məşhur sözlərlə analogiya üzrə yaranmışdır.

Affiksal və mürəkkəb neologizmlər kimi, yeni konversiya olunmuş törəmələr üçün çoxkomponentli strukturlara meyllilik xarakterikdir. Beləliklə, isimlər fel ifadələrindən düzələ bilər, məsələn: *work-to-rule* "fəhlələrin əmək müqaviləsinin bütün müddəalarına riayət etmək tələbi ilə çıxışı, nümayişi".

Çoxkomponentliliyin analoji tendensiyası yeni konversiya olunmuş sifətlər arasında müşahidə olunur: *cents-off* "düşmüş, f enmiş (qiymət haqqında)" (işlənmədə amerika variantı ilə məhdudlaşdırılmışdır).

Bamhartm lüğətində prefiks və yarımprefikslərdən düzələn sifətlərin nadir modelləri qeyd olunmuşdur. Məsələn: *hyper* "həyəcanlanmış, emosional"; *maxi* "böyük ölçülü bir şey".

Dünya xəritəsində yeni sektor olan kompüter texnologiyası dil xəritəsində kompüter terminlərinin ayrıca yeni semantik sahəsi şəklində qeyd olunmuşdur: *CNC* (computer numetrical control) "kompüterin köməyilə məhsulların hesablanmasına nəzarət"; *computer monitoring* "müxtəlif təşkilatlarda işçilərin, terminallarda işləyənlərin işinə nəzarət edən kompüter sistemi"; *electronic mail* "kompüterdə yığılan və qəbul edən kompüterə telefonla göndərilən məktub"; *spread shoot* "kompüter proqramı".

Dilin aktiv nominativ proseslərdə olan son dərəcə mühüm praqmatik ünsürlərindən biri olan peşəkar differensiasiyası kompüter sahəsində işləyənlərin özünəməxsus jarqonunun yaranmasına səbəb olmuşdur. Buna misal olaraq, *brain- box* "kompüter"; *glitch* "programda gözlənilməz nasazlıq" tipli yeni vahidlər işlənmədə "kompüterlə məşğul olanlar" arasında qeyri-rəsmi danışıq sərhədləri ilə məhdudlaşdırılmışdır.

Dünya xəritəsində nisbətən daha yeni bir sektq|>$_4$kosmonavtika sektoru yaranmışdır. İngilis dili sistemi özünəməxsus şəkildə fəaliyyət təcrübəsinin yeni fraqmentinin ayrılmasına reaksiya vermişdir. O, rus dilindən yeni leksik vahidlər almışdır *(lunokhod, planetokhod, sputnik)* və bununla da ingilis dilinin leksik xəritəsində yaranan boşluq ilə doldurulmuşdur. Bir müddət keçdikdən sonra ingilis

dilinin özünə məxsus olan kosmonavtika terminləri yaranmışdır: *npacelab, space- plane, spacefarlng* (seafaring sözü ilə analogiyaya əsasən).

Son onilliklərdə ABŞ-ın kosmik tədqiqatları dairəsi ilə mıhdudlaşan slenq vahidləri yaranır: *chlcken-soup* "Marsda metabolik fəaliyyəti aşkar etmək məqsədilə eksperimentlərdə istifadə edilən amin turşuları, vitamin və s. məhlulu". Kosmik sahədə slenqlərin yaranmasında, peşəkar parametrdən əlavə sözün praqmatikliyinin əsasını təşkil edən ərazi ünsürü iştirak edir. Bu tip bütün vahid işlənmədə amerika variantı ilə məhdudlaşmışdır.

Mənfı sosial təcrübənin nisbətən yeni fraqmenti kimi Jeksik sistem çərçivəsində həyata qarşı nominativ partlayışa səbəb olan narkomaniyaı hesab etmək olar.

Məlumdur ki, dilin leksikası ikili təbiətə malikdir: nüvə və çevrə. Dilin leksik nüvəsi ilk növbədə şəxsiyyətə keçir. Onun tərkibinə (qeyri-terminoloji) isim, fel və digər nitq hissələrinin əsas mənaları daxil olur. Nüvədən asılı olan leksik çevrə (periferiya) mədəniyyətin bütöv dil mənzərəsini təşkil edir.

Narkomaniya sahəsində işlənən yeni nominativ vahidlərin narkotik maddələrdən istifadə edənlər və narkotik satıcıları tərəfindən işlənmədə məhdudlaşdırılmasına baxmayaraq, onlar kütləvi informasiya vasitələrinin köməyilə narkomaniya ilə mübarizənin geniş işıqlandırılması ilə əlaqədar geniş kütləyə malik olur. Narkotik vasitələrini satışının qeyri-qanuni olması

ilə əlaqədar bu fəaliyyət sahəsi ilə məşğul olan şəxslər öz işlərini məxfiləşdirmək üçün yeni sözlər yaratmağa məcbur idilər.

60-cı illərdə qərb incəsənətini bürüyən eksperiment keçirmək prosesi linqvistik xəritədə yeni sinonimlik sıralar yaradan yeni terminlər kimi kodlaşdırılan yeni növ və istiqamətlərin yaranmasına səbəb olmuşdur. Məsələn: *mirıimal art, mlnimalism, rejected art, reduktivism, ABC art* "rəng və formalı elementar tərkib hissələrə bölmək və sadələşdirmək sənəti"; *soft art* "yumşaq materiallardan istifadə olunan sənəd"; *luminal art* "işıq effektlərindən istifadə olunan sənəd"; *op-art* (optical art) "optik effektlərdən istifadə olunan sənəd"; *pop-art* "populyar sənəd" kimi yeni terminlər meydana gəlmişdir.

70-ci illərdə bu sektorun sonrakı genişlənməsi baş vermişdir. Rəsm yaradıcılığında sənət əsərini yaradarkən rəssamın şüurunda və alt-şüurunda baş verən prosesləri xüsusilə nəzərə çarpdıran yeni istiqamətin meydana çıxması ilə əlaqədar bu istiqaməti əks etdirən bir neçə sinonimik termin yaranmışdır: *conceptual art, process art, antifonn art, impossible art.* 80-ci illərdə *computer art* "kompüterlərdən istifadə etmək sənəti" termini meydana çıxmışdır.

Bəzən yeni adlandırma vahidləri artıq çoxdan mövcud olan və dil daşıyıcılarının şüurunda əks olunan, lakin hələ söz formasına gətirilməyən dünya xəritəsinin fraqmentini göstərmək üçün yaranır. Qərb dünyasının mənəvi və etik normaları krizisi artıq uzun müddət idi ki, həyatda dildə müəyyən yazılışı olmadan mövcud olan müxtəlif nikah növlərinə səbəb olmuşdur. 80-ci illərdə bu növ formaların geniş yayılması ilə əlaqədar dildə *coniract marriage* "müəyyən müddətə bağlanan nikah", *open marriage*"həyat yoldaşına (ərə) sosial və seksual azadlıq verilən nikah", *serial marriage*"bəzi müvəqqəti nikahların ardıcıllığı" tipli vahidlər meydana çıxmışdır.

ƏDƏBİYYAT

1. Xavər Zeynalova,Rəfiq Cəfərov “Qərbi Avropa məşəli alinma sözlərin izahli lüğəti” Baki.Elm və Təhsil. nəşri 1914 cü il.
2. R.C.Cəfərov, F.M.Rəhiməva, P.D.Həsənova “Azərbaycan dilinin texni-ki terminologiyasında işlənən mürəkkəb tərkibli və çoxkompanentli terminlər”. Baki. “Elm” nəşriyyatı 1997-ci il.
3. Səbinə Alməmmədova “Azərbaycan dilinin izahlı lüğətində sözlər. Bakı. Elm və Təhsil.20104-il.

РЕНА ГУСЕЙНОВА

СЛОВООБРАЗОВАНИЯ ПУТЁМ КОНВЕРСИИ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье рассматривается классификация неологизмов созданные в современном Английском языке во второй половине XX века, их сравнитеьная характеристика с Азербайджанском языком.а также их роль и значение в простых и сложных предложениях. В статье также анализируется новые слова созданные путём конверсии в Английском языке и ее выражения в Азербайджанском языке.

В статье также анализируется структура конверсии в художественных текстах английского языка и его выражение на Азербайджанском языке.Рассматривается также некоторые проблемы конверсии на английском грамматике и синтактический связ с другими частями речи английского языка.Механизм перевода от точного и конкретного употребление конверсии в простых и сложных предложениях.

R.GOUSSEYNOVA

NEOLOGUIZMS IN INGLISH CONTEMPORIN AND ABOUT CLASS IFICATION

SUMMARY

The article speaks about the classification of neologuizms formed in English At the second part of XX centry, their comparative characteristic with Azerbaijani, also their roles and meaning in the simple and compound sentences:

1)The article deals with the conversiale structure of the literary text in English and its expression in Azerbaijani,

2)The article also analyses some problems of the category conversial of time in the English grammar and syntactical convertion with the other parts of speech in English.

3)Convertial structure of litrrary text in English and its identity in Azerbaijani are spreadly learned and invsestigated by thebconvertial local and foreign scientist-linguists.

Rəyçi: Adilə Zeynalova
filologiya üzrə fəlsəfə doktoru,dosent

SEVİNC ƏSƏDOVA
ADPU, İngilis dili kafedrası
Mail:sevinj_asadova@yahoo.com

XALQIN ETNOQRAFİYASININ ZOONİMLƏRDƏ ƏKSİ

Açar sözlər: *Zoonimlər, frazeoloji birləşmələr, etnoqrafiya, quşlar, atlar, balıqlar və s.*
Ключевые слова: *Зоонимы, фразеологические выражения, этнография, птицы, лошади,рыбы и др.*
Key words: *Animals, birds, fish, belief, phrase logical combinations, ethnography*

Azərbaycan dilçiliyində zoonimlər kifayət qədər geniş, hərtərəfli sistemli tədqiqata cəlb edilməmişdir. Lakin ara-sıra bəzi məqalələr, ayrı-ayrı tədqiqat işlərində zoonimlərlə bağlı müxtəlif fikirlər öz əksini tapmışdır. Aparılan araşdırmalardan belə bir nəticə hasil olmuşdur ki, dilimizin zooloji sistemində it və at adları kəmiyyətcə daha çox işlənmişdir ki, bunu araşdırmaçılar bəzən həmin heyvanların qədim dövrdə totem olaraq qəbul edilməsi ilə; bəzən xalqın təsərrüfat fəaliyyəti ilə; bəzən də xaqanların, sərkərdələrin, başçıların minik və döyüş vasitəsi kimi tarixən öz xüsusi atının olması ilə izah etmişlər (1.59-66).

Belə zooleksemlərə müxtəlif tarixi dövrlərə aid sonsuz sayda nümunələr göstərmək olar. İlk olaraq müqəddəs səmavi kitabımız olan "Qurani-Kərim" dən götürdüyümüz nümunələri təqdim edə bilərik. Məsələn;

1.Həz. Məhəmməd Peyğəmbərin mindiyi və çox sevdiyi heyvanlar olmuşdur:

A) Atlar:

-Düldül: Mukavkıs'ın Peyğəmbər Əfəndimizə hədiyyə etdyi ve müsəlmanların mindiyi ilk qatır idi. Onun katırına, eş-Şehba, bəzən də Düldül deyirlərmiş.

-Fidde: Hz. Ebu Bekir tərəfindən peyğəmbərə verilmişdir.
-Eyliyye: bunu da Hz. peyğəmbərə Eyle məliki hədiyyə etmiştir.

-Neam: Deyilənə görə, dəvə (bəzi mənbələrdə isə at, ya da eşşək balası) idi. O, çox iri cüssəli olduğu üçün minik üçün istifadə edilməmişdir.
- Fidde: Peyğəmbərimizə bu heyvanı Fereve bin Amr hədiyyə etmiş ve O da bunu Hz. Ebu Bekir'e vermişdir.

Hz. Məhəmməd Peyğəmbərin bir neçə atı da olmuş və O, atları çox sevmişdir. Mənbələrdə göstərilir ki,"Rəsulullahın (s.a.v.) ən çox sevdiyi

atlar, doru renkli, burnunda bəyazlıq olan, sürətlə qaçan, insana tez öyrənən, ayağının sağ tərəfində bəyaz xalları olan atlardır".

Hz. Peyğəmbərin atlarının adları da bir-birindən fərqlənmişdir:

-Əl-Mürteciz: İbn Abbas belə söyləmişdir: "Rasulullah'ın (s.a.v.) denilen bir atı vardı.[3]

-Əs-Sekb: Musannif (yazar) şöyle demiştir: Rasulullah'ın (s.a.v.) sahip olduğu ilk at, "es-Sekb" deyilən atdır. Əl-Murteciz de Ona aid olmuşdur.

Eyni zamanda, Əl-Lizaz, et-Tırf, el-Verd, en-Nahif (bazıları "el-Lahîf' demişlər), əl-Yasub adlı atlar da Hz. Peyğəmbərə aid olmuşdur.

B)Dəvələr:

-Əl-Adba: Çox sürətli olmuş, heç bir dəvə onu keçə bilməmişdir. Fəqət bir bədəvinin (ərəb) iş dəvəsi onu keçmişdir.

- Kasva: İbn Ömər şöyləmişdir ki,Rəsulullah (s.a.v.), Məkkəyə devesi Kasvanın üzərində girdi. Kasva Peyğəmbər Əfəndimizin dəvəsinin adıdır. Peyğəmbər Əfəndimiz bu dəvə üzərində hicrət etmişdir. Peyğəmbərimizə vəhy gəlincə, Onu bu dəvədən başqası götürə bilmirdi. Bu dəvənin adının *Əl Adba* və ya Əl-Ceda olduğu da söylənmişdir. Əl-Ceda qulağı qoparılan deməkdir. Bu dəvənin qulağının ucunda kəsiklik olduğu üçün belə adlandırılmışdır.

-Ya'fur / / Ufeyr: Peyğəmbər Əfəndimizin uzunqulağının adıdır.

Dini mənbələrdə rast gəldiyimiz zoonimlər özündə belə bir fikri ehtiva edir ki, bu adlar digər adlardan daha qədim tarixə malikdir.

Həmin fikri folklor nümunələri də isbat edir.

Şifahi xalq ədəbiyyatının ilk nümunələri – ibtidai insanların məişət, təbiət hadisələri, ovçuluq, əmək və digər bu kimi məsələləri haqqında təsəvvürləri və bununla əlaqədər keçirdikləri hissləri tərənnüm edən əsərlərdir.

Həmin əsərlərin ilk nümünələri isə əmək nəğmələri, nağıllar, dastanlar, hikmətli sözləri və s.-dir. Şifahi xalq ədəbiyyatı kollektiv yaradıcılıq məhsulu olduğu üçün xalqın çox hissəsinin arzu və istəklərini, müxtəlif hadisələrə münasibətini, dünya görüşlərini özündə əks etdirir. Folklor nümunələrində eyni zamanda biz tədqiqat obyektimiz olan zooleksemlərlə bağlı, heyvanlara münasibətlə bağlı, onların adlandırılmasının qanunauyğunluqları haqqında kifayət qədər məlumat almaq mümkündür. Belə məlumatlar şifahi xalq ədəbiyyatının lirik, epik və dramatik növünə daxil olan janrlarda öz dolğun ifadəsini tapmışdır.

I. Lirik növün müxtəlif janrlarında zoonimlər:

1. Nəğmələr: Nəğmələr lirik növün qədim və geniş yayılmış janrlarından biridir. Məznununa görə bir neçə yerə bölünür: əmək, mərasim, mövsüm, qəhrəmanlıq və məişət nəğmələri.

Əmək nəğmələri: Əmək nəğmələri əmək prosesində yaranan və oxunan nəğmələrdir. Holavarlar və sayaçı sözlər əmək nəğmələrinin ən geniş yayılmış növlərindəndir. Holavarlar əkinçilik və cütçülüklə bağlı nəğmələrdir. Holavarlarda etnoqrafik xüsusiyyətlərə, istehsal alətlərinin adına, öküzün, kəlin tərifinə tez-tez təsadüf edilir. Məsələn:

Qızıl öküzüm, yeri,
Qoyma şum qala, yeri,
İti tərpən, maralım,
Düşmənlər baxır bəri.

Sayaçı sözlər qoyunçuluqla bağlı yaranmış nəğmələrdir. Sayaçı sözləri, adətən, qoyuna müraciətlə oxunur və ondan xeyir-bərəkət dilənir. Məsələn:

Nənəm, a narış qoyun,
Yunu bir qarış qoyun.
Çoban səndən küsübdür,
Südü ver, barış, qoyun.

2. Epik və lirik növə aid edilən yığcam janrlardan biri tapmacalardır. Folklor ədəbiyyatında zoonim tərkibli tapmacalar da geniş yayılmışdır. Dinləyicilərin, xüsusilə uşaqların və gənclərin zehni qabiliyyətini, biliyini yoxlamaq məqsədilə işlədilib, üstüörtülü əlamətləri deyilir və əşyanın, hadisənin özünün tapılması tələb olunur. Tapmacada hökmən iki tərəf iştirak etməlidir. Həm nəzmlə, həm də nəsrlə ola bilərlər. Məsələn:

1.Aşıq eldən yuxarı
Şana teldən yuxarı.
Aşıq bir şey görübdür,
Dizi beldən yuxarı (çəyirtkə).

3. Zoonim tərkibli bayatılar: Ağız ədəbiyyatının ən qədim nümunələri hesab edilən bayatılarda zooleksemlərə dair kifayət qədər nümunələr vardır:

1. Analar, yanar ağlar.
Tellərin sanar ağlar.
Dönər göy göyərçinə
Yollara qonar ağlar.
2. Nənəm, a nazlı qoyun.
Qırqovul gözlü qoyun
Pendiri kəsmə-kəsmə
Qatığı üzlü qoyun.
3. Mən aşiq Maralyana
Sən də gəl maralyana.
Necəsən bir ah çəkim.
Dağlarda maral yana. Və s.

II. Epik növün müxtəlif janrlarında zoonimlər:

Əfsanələr xalqın əski dünyagörüşü, düşüncə tərzi, arzu və istəkləri ilə əlaqədar yaranmışdır. Əfsanəni digər janrlardan fərqləndirən əsas əlamət odur ki, əfsanədə real zəmindən kənar, müasir ağlın, düşüncənin uydurma, fantastika kimi qəbul etdiyi qeyri-adi, fövqəltəbii əhvalat və hadisələr təsvir olunur. Əfsanələrdə xeyrə, gözəlliyə məhəbbət; şərə, eybəcərliyə nifrət hissi var. Mövzu-məzmun baxımından əfsanələrin aşağıdakı növləri var:

Zoonimik əfsanələr: "Maral", "Qu quşu", "Qızıl ilan", "Turac", "Şanapipik"

Toponimik əfsanələr: "Pəri qala", "Siyəzən", "Beşbarmaq dağı", "Səngəçal", "Dədəgünəş", "Dəmirqaya"…

Etnonimik əfsanələr: "Oğuz", "Bayat"…

Kosmoqonik əfsanələr: "Ayla Günəş"…

Göründüyü kimi, qədim tarixə malik olan əfsanələrin bir qrupu zoonimik əfsanələrdir. Bu cəhət xalqımızın ta qədim dövrlərdən ətraflarında olan heyvanlara münasibəti, onların təsərrüfat, qida və döyüş üçün ram edilməsi, eyni zamanda adlandırılması ilə bağlı fikirləri ifadə edilmişdir (3. 98).

4. Zoonimlərin iştirakı ilə formalşan atalar sözləri:

1. Cücəni payızda sayarlar. 2. Pişiyin ağzı ətə çatmayanda deyər iy gəlir. 3. Dəvədən böyük fil də var. 4. İt hürər karvan keçər. 5. İt qaya kolgəsində yatır, elə bilir öz kölgəsidir. 6. Pişiyi çox sıxışdırma, pələngə dönər. 7.Siçan görəndə pələngə dönən pişik, pələng görəndə siçana dönər. 8. Pişik ölüb, siçanların bayramıdır. 9.Sahibinin yanında pişik də it basar. 10.Pişiyi bağlayıb süfrə açır. 11. Pişiyi çox sıxışdırma, pələngə dönər. 12.Pişiyi bir vursan – dinməz, iki vursan – dinməz, axırda üz-gözünü cırmaqlar. 13.Siçan görəndə pələngə dönən pişik, pələng görəndə siçana dönər. 14.Pişik ölüb, siçanların bayramıdır. 15.Sahibinin yanında pişik də it basar. 16.Pişik yeyəni, aslan qusdura bilməz. 17.Yatağan aslandan gəzəyən pişik yaxşıdır. 18.Pişik miyoldamasın, toyuq qaqqıldamasın. 19. Pişik arxasını yerə vurmaz. 20. Eşşək nə bilir zəfəran nədir? 21.Məscid şamını yeyən pişik kor olar. 22. Pişik atası xeyrinə siçan tutmaz. 23.Yaxşı ata bir qamçı, yaman ata min qamçı. 24. Pişiyi bağlayıb çörək yeyənlərdəndir. 25.Yəhərin ağır yüngülün, at bilir. 26. Dəvəni yel aparsa, keçini göydə gör. 27. Eşşək nə eşşək - tükü məxmər, incə kəmər, üzü qəmər, yerişi at, üstündə yat, belinə min, evinə çat. 28. Meydansız at sürülməz, sınaqsız ər bilinməz. 29. At gücünü karvanda gör, mərd gücünü meydanda. 30. İtə səlam, dəliyə sual olmaz. 31. Quru torba ilə tutulmaz at. 32. Dostuna at vermə, verdinsə "yavaş get" demə. 33. Ər altında at olur, qeyrət altında ər olur. 34.Yemsiz torba, at gətirməz və s.

Göründüyü kimi, atalar sözləri kəmiyyət etibarı ilə xeyli çoxdur və bu sayı artırmaq da mümkündür. Bu nümunələrin kəmiyyət etibarı ilə çox

olması isə tarixən insanların heyvanları ram etməsi, onlardan təsərrüfat, ov, döyüş vasitəsi, qida, bəzə hətta gözəllik xatirinə istifadə edilməsi və digər cəhətlərlə əlaqədardır. Toplayıb təqdim etdiyimiz zoonim tərkibli atalar sözləri isə insanların həyatının bütün sahələrini əks etdirir.

Görkəmli alim A. Nəbiyev Azərbaycan xalq inanclarını aşağıdakı kimi təsnif etmişdir: 1. Məişətlə bağlı inanclar; 2.Təbiət hadisələri, bitki və heyvanat aləmi ilə bağlı inanclar; 3. Astral təsəvvürlər sayəsində yaranan inanclar; 4.Əsatiri görüşlərlə bağlı inanclar (2. 132)

Heyvanat aləmi ilə bağlı inanclar Azərbaycanın bütün ərazilərində tarixən olmuş və bu gün də vardır. Nümunələrə baxaq:

1) "Bağı bədnəzərdən qorumaq üçün ya at, ya da it kəlləsini payaya keçirib qoyarlar bağa". 2)Yəni bağa pis nəzərlə baxan adamın gözü həmin kəllələrlə rastlaşanda kəsərdən düşəcək. 3)"Yahunu (göyərçini) öldürən xeyir görməz" deyirlər. Ona görə ki, göyərçin müqəddəs quşdur, mələklərdən hesab olunur. Ona görə də bir çox ərazilərdə göyərçin ovlanmır və əti yeyilmir. 4)"Hansı həyətdə bayquş ulasa, ev yiyəsi qorxar, tez duz-çörək gətirib quşun qabağına qoyub deyər: "Səni and verirəm bu duz- çörəyə, çıx burdan get, bizdən uzaq ol",- deyərlər. Guya quş həmin yerə bir də gəlməz. 5) Heyvanlarla bağlı başqa bir inanca görə isə, guya bir işin arxasınca gedən insanın qarşısına pişik(qara pişik) çıxarsa xeyirliyə deyil və s.

İnsanlarda belə bir inam var ki, bayquşlar yalnız xarabalıqlarda yaşayır. İnsanların gözünə çox az-az görünürlər. Odur ki, onların bəzi həyətlərə gəlməsi, qeyri-adi səslər çıxarması insanları vahiməyə, təşvişə salır. Hətta bu quşun xalqda yaratdığı həmin mənfi ekspressiyanın nəticəsi olaraq: " Bayquş kimi ulamaq" ifadəsi də yaranmışdır.

Lakin qeyd etmək lazımdır ki, bayquş adlanan quşa münasibət bütün xalqlarda eyni deyildir. İngilislər və slavyan xalqları quşa ağıllı, düşüncəli, adil bir quş növü kimi baxmışlar. Yaxud bir işin arxasınca gedərkən qarşından pişiyin, xüsusilə də qara pişiyin keçməsi Azərbaycanda yaxşı əlamət sayılmır.

ƏDƏBİYYAT

1. M.Seyidov. Ağqoyunlu Qaraqoyunlu etnonimlərinin etimoloji araşdırılması. Qobustan" jurnalı. B. 1979.
2. A. Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. Bakı, Çıraq, 2009.
3. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. Bakı, Elm, 2006.
4. A.Qurbanov. Azərbaycan onomalogiyasının əsasları. Bakı. 2004. s.313.
5. Ə.Tanrıverdiyev. "Kitabi- Dədə Qorqud"da at kultu. Bakı, Elm və təhsil. 2012

S.ASADOVA

DESCRIPTION OF ZOONIMS IN THE ETHNOGRAPHY OF NATION

SUMMARY

In the Azerbaijani language, the zoonims were not wide enough and did not have a comprehensive systematic obsession, but some occasional articles took place. Such a result has been obtained from researches that our dogs and horses are more often processed in the zoological system of our language, which researchers sometimes find that these animals are accepted as totems in the old period; Sometimes with the economic activities of the people, sometimes with the kings, the commanders, and the president's own private horses as instruments of war (Seyidov.1979.59-66).

An infinite number of examples from various historical periods can be shown in such zoolexemes. First, we can present examples of what we call the "Kuran-I Karim", our holy semantic book. For example;

Hz. Muhammad loved animals very much:

For example: 1) Düldül: Mukavk's the first mule to be presented to our Prophet. Sometimes they call him Es-Sehba and sometimes Düldül.

Hz. Muhammed's has also a few horses and he loved the horses very much. It is shown in the sources that "the horses that Rasulullah (S.A.V.) loved the most, were the horses with the correct color, whiteness in the nose, fast running, quick learning to man, white visions on the right side of the foot".

The zoonims we encounter in religious sources include such an idea in themselves, these names have an older age than other names.

This idea also proves examples of folklore.

The first examples of these works are labor songs, epics, wise words, etc. Beliefs about the zoological region have been and remain in all regions of Azerbaijan.

But it should not be forgotten that the relation of birds called owls is not the same in all nations. The English and the Slavian peoples looked at this bird as a clever, just bird.

С.АСАДОВА

ОТРОЖЕНИЕ ЗООНИМОВ В ЭТНОГРАФИИ НАРОДА

РЕЗЮМЕ

В Азербайджанском языке зоонимы не были систематическим и значительно расширенным объектом обсуждения, были распечатаны только несколько статей. Исследовании показали что названии собак и лошадей были значительно использованы в зоологической системе нашего языка и исследователи связывают это экономической деятельностью народа, иногда с тем что они были собственными лошадьми ханов, командиров и главнокомандующих. (Seйидов. 1979.59-66).

Много исторических образцов можно указать о таких зоонимах. Один из этих источников «Гурани Керим».

Например:1) Дулдул: Первый подарок данный в честь Гз.Мухаммедаі. Иногда его называли как Ес-Сехба, иногда Дулдул. .

Гз. Мухаммед имел несколько лошадей, и он обожал их. В источниках указываются, что самые любимые лошади Расуллуллаха были быстро скоростные и укрощаемые, а в основном лошади белыми пятнами на носу и в правой стороне ноги.

В религиозных источниках зоонимы приводят к выводу, что эти имена более историчные чем другие.

Фольклорные источники тоже доказывают это.

Но первые источники этих были песни рабочих, сказки и пословицы. Веры связанные с животным миром всегда существовали и существуют во всех регионах Азербайджана.

Люди верят в то что совы живут только в разрушительных местах и приносят неудачу. Они проводят ночную жизнь и не показываются в глаза людей. И поэтому их приход в сады, и звуки пугает людей. Но не забывайте, что к сове не одинаково относятся во всех народах. Англичане и Славянские народы называют их умными и мудрыми птицами.

Rəyçi: prof.İbrahim Bayramov

ƏFSANƏ CƏBRAYILZADƏ
Bakı Avrasiya Universiteti
Ecabrayilzade@gmail.com

LEKSİKANIN TƏDRİSİNDƏ QARŞIYA ÇIXAN PROBLEMLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI HAQQINDA

Açar sözlər: *sözün mənası, sinonim, omonim, antonim*
Ключевые слова: *значение слова, синоним, омоним, антонимом*
Key words: *the meaning of the word, a synonym, homonym, antonym*

Azərbaycan dilinin tədrisində dilçiliyin digər bölmələri kimi, leksikologiyanın tədrisi də xüsusi əhəmiyyət kəsb edir. Çünkü leksikologiyanın tədqiqat obyekti sözdür. Söz isə tədrisin əsasını təşkil edir. Leksikanın tədrisi haqqında Ə.Əfəndizadə, N.Əhmədov, Ə.Kəlbəliyev, S.Vahidovun birgə hazırladıqları "Orta məktəblərdə Azərbaycan dilinin tədrisi" adlı kitabda belə qeyd olunur: "Leksikanın tədrisi şagirdlərə Azərbaycan dilinin söz ehtiyyatı ilə,onu zənginləşdirən əsas mənbələrlə, lüğət tərkibindəki söz qrupları, onların mənaları,nitqdə işlədilməsi imkanları və s. ilə tanış olmağa imkan verir" [3.175]. Lakin uzun müddət dil tədrisində leksikologiya müstəqil bir bölmə kimi tədqiq olunmamış, çox vaxt fonetika və qrammatikanın tərkibində tədris olunmuşdur. Elə bu səbəbdən də Azərbaycan dilinin tədrisi metodikasına aid kitablarda leksikologiyanın tədrisi ayrıca bölmə kimi tədqiq olunmamışdır. Leksikologiya müstəqil bir bölmə kimi 1992-2002-ci illərdə etibarən V siniflərdə tədris olunmağa başlamışdır. XX əsrin 50-ci illərindən başlayaraq, S. Cəfərovun, A. Qurbanovun, N. Xuduyevin, B.Xəlilovun yazdıqları dərslik və monoqrafiyalarında leksikanın sistemli öyrənilməsinə başlanılmışdır.

Yuxarıdada qeyd etdiyimiz kimi, leksikanın tədqiqat obyekti söz olduğu üçün tədrisində əsas məfhumu sayılır. Bu haqqda S. Cəfərov "Müasir Azərbaycan dili" dərsliyində belə qeyd edilir: "Leksikologiyanın əsas məqsədi sözün mahiyyətini və tərkibini, sözlərin mənasını və çoxmənalılıq problemlərini aydınlaşdırmaqdan, sözün inkişaf qanunauyğunluqlarını dəqiqiləşdirməkdən və sözlərin mənaca quruplarını müəyyənləşdirməkdən ibarətdir" [2.12]. Görkəmli dilçi alimin də fikirlərindən aydın göründüyü kimi leksikologiyada birbaşa söz təqdiq olunur. Elə buna görədə belə demək mümkündürsə şagird məktəbə qədəm qoyduğu gündən leksikanın tədrisi başlanır. II, III və IVsiniflərdə leksik anlayışlar ayrı-ayrı başlıqlar altında tədris olunur. V sinifdən etibarən isə leksikalogiya sistemli şəkildə tədris olunmağa başlayır.

Leksikologiyanın əsasında söz dayandığı üçün o həm özündən əvvəlki fonetika ilə, həmdə özündən sonra tədris olunan sintaksis ilə əlaqəlidir. Belə ki,

tədris zamanı müəllim şagirdlərə səslər sözlərin, sözlər isə cümlələrin yaranmasında əsas "material" olduğunu başa salmalıdır.

Leksikanın düzgün tədrisi həmçinin şagirdlərin lüğət ehtiyatlarının zənginləşməsinə səbəb ola bilər. Çünki leksikologiyanın tərkibində sözün həqiqi və məcazi mənası, leksik və qrammatik mənası, təkmənalılığı və çoxmənalılığı, omonim, sinonim, antonimliyi, həmçinin, neologizimlər və arxaizimlər, frazoloji birləşmələr tədris olunur. Bunlar isə öz növbəsində lüğət ehtiyatını artıran başlıca amillərdir. Hər zaman olduğu kimi burada ən böyük iş müəllimin üzərinə düşür. Belə ki, ümumən ana dilini tədris edən müəllimin, eləcə də leksikanın tədrisi ilə məşğul olan müəllimin nitqi leksik nöqsanlardan uzaq, dialekt və şivələrdən təmiz, örnək bir nitq olmalıdır.

K. Mikayılovun tərtib etdiyi "Azərbaycan dilindən leksikanın tədris" adlı kitabında leksik nöqsanlar belə izah olunur: "Leksik nöqsanlar dedikdə mətnə müvafiq gəlməyən ədəbi dilə xas olmayan söz və ifadələrin, nitqdə yeknəsəklik törədən, onu zibilləyən sözlərin işlədilməsi nəzərdə tutulur." [4.12]. Araşdırmalar göstərir ki, şagirdlərin əksəriyyəti sözün mənasını bilmədikləri üçün leksik səhvlərə yol verirlər. Aparılan araşdırmaların nəticəsindən məlum olur ki, şagirdlərin əsas leksik səhvləri aşağıdakılardan ibarətdir:

1. Sözün mənasını bilməmək. Şagirdlərlə aparılan təcrübədən məlum olmuşdur ki,onlar *xəzan-xəzəl*,*fənn-fənd* və s. sözlərin mənasını bilmir və onları bir-birilə qarışdırırlar.Əlbəttə ki bu problemin əsəs həlli yolu həmin sözləri ayrı-ayrılıqda cümlədə işlətməkdir. Bu zaman sözlərin mənası şagirdlərə aydın olar.

2. Sözün çoxmənalılığını başa düşməmək. Müəllim şagirdə izah etməlidir ki,sözün çoxmənalılığı, ancaq müəyyən mətn içərisində bu və ya digər sözlərlə əlaqəyə girməsi nəticəsində meydana çıxır. Şagirdlər çoxmənalılığı başa düşdükdə müəllim onlara içərisində eyni söz olan bir neçə cümlə verir. Bu zaman şagirdlər fərqli cümlələlərin tərkibində olan eyni sözlərin fərqli mənalarda işləndiyini dərk edirlər. Bunu qruplarla iş zamanı tətbiq etmək daha səmərəli nəticə verir.

3. Formaca yaxın sözləri qarışdırmaq.Təcrübədən buda məlum olmuşdur ki, şagirdlərin böyük əksəriyyəti *mərhum-məhrum,layihə-lahiyə* və s. kimi sözləri qarışdırırlar.

4. Paronimləri qarışdırmaq. Paronimlərdə omonimlər kimi oxşar söz qruplarıdır ki, bu da bilavasitə sözün mənası ilə bağlıdır.Araşdırmalardan məlum olmuşdur ki, dilçiliyimizdə paronim olan *diplomat* (hökumət nümayəndəsi) və*diplomant* (müsabiqədə mükafat alan) kimi sözlər qarışdırılır və mənasına uyğun işlədilmir.

5. Sözlərin yersiz təkrarına yol vermək.

6. Dilimizdə qarşılığı olmasına baxmayaraq sözlərin rus dilində işlədilməsi (*vilka,pol,xolodelnik* və s.). Qeyd olunanlardan da göründüyü kimi bu cür leksik nöqsanların olmaması və aradan qaldırılması üçün tədris

prosesində son dərəcə məsuliyyətli olmağı və il boyu bu cür nöqsanların aradan qaldırılmasına səy göstərilməlidir.

Leksik anlayışların hər birinə ayrı ayrılıqda qısa şəkildə nəzər salsaq bu zaman leksikanın tədrisində daha hansı problemlərə yarandığını görmüş olarıq.

Leksikanın tədrisinə başlayan müəllim ilk növbədə sözlə bağlı atalar sözü və aforizimlərlə qura bilər. Məsələn: *Yeməyin dadı duzunda, dünyanın dadı sözündədir; Düz söz dəmir qapılar açar; Söz bir olsa zərbi kərən sındırar.* Bu kimi parçalar üzərindən motivasiya quraraq leksika bəhsinə giriş etmək olar.

Bildiyimiz kimi leksikanın tədrisi əsasən sözün həqiqi və məcazi mənasının mənimsədilməsi ilə başlayır. Bu zaman əlbəttə ki ilk olaraqsözün həqiqi mənası öyrədilməlidir. Çünki sözün həqiqi mənasıilkin, əsas, məcazi məna isə ondan törəmədir. Həqiqi məna əşya və hərəkətlə birbaşa, məcazi mənası isə dolayısıyla bağlıdir. Sözün həqiqi mənası ilə məcazi mənası arasında fərqi izah etmək üçün nümunələr verilir və həmin nümunələr içindən sözlər həm həqiqi, həm də məcazi mənada işlədilir. Bunun üçün daha çox bədii mətnlərdən istifadə etmək lazımdır. Sözün həqiqi və məcazi mənasının öyrədilməsi çoxmənalılığın öyrədilməsi üçün zəmin rolunu oynayır. Çünki çoxmənalılığın özüdə məcazlaşma ilə bu və ya digər səbəbdən bağlıdır.

Çoxmənalılığın izahı əlbəttə ki təkmənalılığın izahından keçir. Yuxarıda da qeyd etdiyimiz kimi, leksikanın tədrisində əsas prolemlərdən biri şagirdlərin sözün çoxmənalılığını düzgün dərk etməməsi ilə bağlı yaranır. Qeyd etdiyimiz kimi, bu bölmənin izahı ilk növbədə təkmənalılığın izah edilməsi ilə başlayır. Məsələn: *mən, sən, meşə, beş* və s. kimi sözlər təkmənalıdır və sadəcə bir mənanı bildirir. Bu zaman müəllim diqqəti çoxmənalı sözlərə yönəldir:*göz, baş, qaş* və s. sözlərin bir neçə fərqli mənalarda işləndiyi sözlər lövhədə qeyd olunur. Şagirdlər isə bu sözlərin məna fərqinə diqqət yetirir və çoxmənalılığın mahiyyətini qavramış olur.

Əgər çoxmənalılıq düzgün qavranılarsa, bu omonimlərin tədris işinidə yüngülləşdirir. Çünki şagirdlər çox zaman çoxmənalı sözlərlə omonim sözləri qarışdırırlar. Buda leksikanın tədrisində əsas problemlərdən biridir. Tədris zamanı ən mühüm cəhətlərdən biridə onların oxşar və fərqli tərəflərini aydınlaşdırmaqdır. Şagirdə başa salınmalıdır ki, çoxmənalılıq bir mənadan törəyən oxşar mənalardırsa (*insanın qaşı-üzüyün qaşı, insanın başı-dağın ba*şı), omonimlər eyni cür deyilib eyni cür yazılan, lakin leksik mənalarına görə bir-birindən fərqlənən söz qruplarıdır (*top-oyuncaq, top-silah; bağ-alma bağ, bağ-ayaqqabı bağı).*

Nümunələrdən də göründüyü kimi, omonimlərdə sözün hər məna tayı bir leksik vahid sayılır. Çoxmənalı sözlər isə bütün məna çalarları ilə birlikdə eyni söz sayılır və bir nitq hissəsinə mənsub olur. Təsadüfi deyildir ki, izahlı lüğətlərdə çoxmənalı sözlər bir başlıqla, bir söz kimi verilir.

Omonimlərin tədrisində problem yaradan səbəblərdən ən əsası isə paronimlərlə omonimlərin qarışdırılmasıdır. Burada əsasən diqqət sözün səs tərkibinə, ifadə etdiyi mənaya yönəldilməlidir. *Həyat -həyət, mətin-mətn, hərəkət-hərakat* və s. kimi sözlər təkcə səs tərkibinə görə deyil, mənalarına görədə ayrı-ayrı anlayışlardır. Bu problemin ən düzgün həlli yolu müəllimin mətn və tapşırıqlardan bu tipli sözlərin işləndiyi cümlələri şagirdlərə seçdirməsi yoludur ki, bu zaman şagirdlər bu sözlərin cümlə daxilində fərqli mənalarını görmüş olurlar.

Dilimizdə geniş üslubi imkanlara malik nitq vahidlərindən biri də sinonimlərdir. H.B. Balıyev və A.B. Balıyevin "Azərbaycan dilinin tədrisi" kitabında sinonimlər haqqında qeyd olunur. "Nitqdə sinonimlərdən də yerli-yerində istifadə etmək bacarığının formalaşdırılması təlimin məqsədləindən biridir. Nitqi zənginləşdirmək, fikri yığcam və səlis çatdırmaq, sözü təkrarlardan uzaqlaşdırmaq baxımından sinonimlərin əhəmiyyəti böyükdür." [1.181]. Sinonimlərin tədrisində müəllimin əsas məqsədi şagirdə sinonimlərdən nitq situasiyasından istifadə edə bilmək bacarığı formalaşdırmaqdır. Müəllim *gənc, eynək, qaçmaq* və s. sözləri cümlədə işlədir. Daha sonra isə şagirdlərə həmin sözləri cümlənin mənasına xələl gətirmədən başqa sözlə əvəz etməyi tapşırır. Nəticədə *cavan, gözlük, yüyürmək* və s. kimi söz əvəzləmələri şagirdə sinonimlərin mahiyyətini qavramağa kömək edir. Bununlada onlar sinonimlərin formaca müxtəlif, mənaca eyni və ya yaxın mənalı söz qrupları olduğunu dərk edirlər. Burada ən həssas məqam eyni və ya yaxın mənalı hissədir. Çünki şagirdlərin böyük əksəriyyəti sinonimləri hər zaman eyni mənalı söz qrupları kimi qəbul edirlər. Bu problemlərin yaşanmaması üçün müəllim onlara mütləq və nisbi sinonimlik məsələsinidə izah etməlidir. Məsələn: *ürək-könül-qəlb* və yaxud *dünya-cahan-aləm* kimi sinonim cütlüklər heçdə hər zaman bir-birini izah etmir. Biz "Mənim ürəyim ağrıyır" cümləsini "*Mənim könlüm ağrıyır*" yaxud "*Mən I dünya müharibəsi haqqında inşa yazıram*" cümləsini "*Mən I aləm müharibəsi haqqında inşa yazıram*" şəklində yazsaq çox ciddi məna səhvi etmiş olarıq.

Omonim və sinonimlərlə müqayisədə şagirdlər antonimləri daha tez qavrayırlar. Bir-birinə zidd olan bu söz qruplarının tədrisi prossesində elə ciddi bir problem yaranmır. Eyni zamanda ümumişlək sözlərdə bu baxımdan asan qavranılan leksik anlayışlardır.

Leksikanın tədrisində əsas bölmələrdən biri də alınma sözlərdir. Müəllim ilk növbədə şagirdə başa salmalıdır ki, başqa dillərdən söz almaq dilimizin zənginləşməsində vacib prosseslərdəndir. Yəni dünyada yalnız öz sözləri ilə formalaşan dil mövcud deyil. Lakin bu dediklərimiz dilimizdə qarşılığı olmasına baxmayaraq yersiz alınma sözlərin işlədilməsi anlamına gəlməməlidir. Müəllim izah etməlidir ki, alınma sözlər ictimai-siyasi prosseslərin nəticəsində alınıb dilin lüğət fonduna salınan sözlərdir.

Bir çox hallarda şagirdlər alınma sözləri təyin etməkdə çətinlik çəkirlər. Çünki az öncədə qeyd etdiyimiz kimi bu sözlər dilin lüğət fonduna daxil olmuşdur və onları bəzən milli sözlərdən seçmək şagirdlərə çətinlik törədir. Tədris prossesində bu problemlərin olmaması üçün alınma sözlərə xas olan əsas əlamətlər şagirdlərə dəqiq izah edilməlidir.

Tarixi inkişaf nəticəsində dildə bir qrup sözlər köhnələrək öz işləkliyini itirir, bir qrup sözlər isə əksinə ictimai-tarixi tərəqqi nəticəsində dilə daxil olur. Belə sözlər tədris prossesində arxaizimlər və neologizimlər şəklində öyrənilir. Bu qrup sözlərin tədrisində şagirdləri həm arxaik, həm də müasir anlayışları özündə daşıyan paralel cümlələr üzərində işlətməklə, həm köhnəlmiş sözləri izah etmək həm də neologizimlər üçün zəmin yaratmaq olar. Məsələn: *Yüzbaşı oğrunun cəzasın verdi. Polis oğrunun cəzasın verdi.*

Neologizimlərin tədrisi həm köhnəlmiş sözlərin, həm də terminlərin tədrisi ilə əlaqəli qurulmalıdır. Çünki neologizmlər və terminlər arasında ciddi sərhəd qoymaq mümkün deyil. Terminlərin tədrisində onların ayrı-ayrı elm sahələrinə aid olduğu nəzərə alınmaqla təkmənalılıq xüsusiyyətləri şagirdlərin diqqət mərkəzində olmalıdır. Həmçinin müəllim tədris prossesində dilimizdə söz termin (fel, say) və xalis terminlər (fonetika, kurikulum) olduğunuda müqayisəli şəkildə şagirdə izah etməlidir.

Nəhayət, leksikanın tədrisində sonuncu leksik anlayış frazoloji birləşmələrdir. Frazoloji birləşmələrin tədrisində ilk öncə sözlərin məcazi mənasını xatırlamaq lazım gəlir. Bu sabit birləşmələrin tədrisində əsas problem doğuran məsələ birləşmənin sonuncu felinin həqiqi və ya məcazi mənada işlənməsidir. Bu problem daha çox cümlə təhlillərində özünü göstərir. Belə ki, təhlil zamanı bəzi şagirdlər birləşmənin felini həqiqi mənada götürüb onları parçalayaraq təhlil edirlər. Məsələn*: İşçi qrup bu gün yola düşür. Onun illərdir saxladığı məktub heç özüdə bilmədən cibindən yola düşmüşdür*.

Bu cümlələrin hər ikisində də yola düşmək ifadəsi var. Lakin birinci cümlədə məcazi ikinci cümlədə isə həqiqi mənada işlənmişdir. Təhlil zamanı diqqətsizlik edən şagird birinci cümlədə də yola düşmək ifadəsini həqiqi mənada götürüb təhlil etsə, əlbəttə ki səhv etmiş olar. Buna görə müəllim bu məsələdə də şagirdlərə dəqiq izahat verməlidir.

Biz yuxarıda leksikanın tədrisinə qısa da olsa, nəzər salmış olduq və eyni zamanda tədris prossesində hansı problemlərin yarandığını və yarana biləcəyini də qeyd etdik. Bu kimi problemlərin olmaması üçün müəlllimlər tədris prossesində diqqətli olmalıdırlar.

ƏDƏBİYYAT:

1. Balıyev H. B. Balıyev A. H. Ana dilinin tədrisi. B.: "Qismət", 2014, 380 s.
2. Cəfərov S. Müasir Azərbaycan dili. B.: "Maarif", 1970, 235 s.

3. Əfəndizadə Ə. Əhmədov H. Kəlbəliyev Ə. Vahidov C. Orta məktəbdə ana dilinin tədrisi (I hissə). B.: " Maarif ", 1976, 278 s.
4. Mikayılov K. Azərbaycan dilindən leksikanın tədrisi. B.: 1982, 33 s.

АФСАНА ДЖАБРАИЛЗАДЕ

ПРОБЛЕМЫ ВОЗНИКАЮЩИЕ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ ЛЕКСИКИ И ПУТИ ЕЕ РЕШЕНИЯ

РЕЗЮМЕ

В тексте рассказывается о проблемах и решений этих проблем возникикавщих во время обучении лексики. В статье были отмечены вопросы обучения лексики. Какие проблемы возникают или могут возникнуть в ходе обучения. Автор своими примерами и объяснениями показывает как можно решить эти проблемы.

Указывается ; что какая бы ни была проблема.она имеет свое решение. В то же время эти сведения очень важны для учеников в процессе обучения. В решении проблем важно участие и автора статьи и учеников.

AFSANA JABRAILZADEH

ON THE PROBLEMS OCCURRING DURING TEACHING LEXICOLOGY AND THE WAYS OF AVOIDING THEM

SUMMARY

Teaching of lexicon was briefly mentioned in the article. Types of problems during teaching that occurred and may possibly occur in the future were noted as well. The author demonstrates the solution ways of these problems by means of examples and clarifications. Regardless of the problem, there is an absolute solution for it. In the article, these solutions were indicated in detail.

Simultaneously, provided data are of great importance for the students to fathom the lesson easily. Both teachers and students need to perform their responsibilities to the fullest extent so as to overcome obstacles.

Rəyçi: fil.e. d., prof. İkram Qasımov

XƏYALƏ MÜRSƏLİYEVA
Sumqayıt Dövlət Universiteti
murseliyeva.xeyale@mail.ru

QRAMMATİK KATEQORIYALARDA İNTENSİVLİK ƏLAMƏTLƏRİ

Açar sözlər: *qrammatik kateqoriyalar, kəmiyyət fərqi, ikiqat mənsubiyyət şəkilçisi, sifətin intensiv forması, zərfin üstünlük dərəcəsi;*
Ключевые слова: *грамматические категории, количества разницы, двойные суффиксы принадлежности, форма интенсивности прилагательных, высшая степень наречия;*
Key words: *grammatical category, differ with quantity, double possessive suffixes, intensive forms of adjective, superlative degree of adverbs.*

Sözləri bir-birinə bağlayan və onların arasında əlaqə yaradan vasitələr qrammatik kateqoriya adlanır. Qrammatik kateqoriya düşüncənin və təkamülün müəyyən dövrlərində yaranan, insan şüurunda inikas olunan obyektiv varlıqları öz biçim və xüsusiyyətləri ilə konkretləşdirən, dilin daxili inkişaf qanunları ilə əlaqədar olan inkişaf nəticəsində mükəmməlləşən tarixi kateqoriyadır.

Qrammatik kateqoriyalar– ifadə olunduqları söz və ya söz birləşmələri tipləri ilə ziddiyyətli əlaqələri olsa da, müxtəlifliyi mühafizə edən və dildə özünə morfoloji və ya sintaktik ifadə imkanları tapan– qrammatik məfhumlardır.

Qrammatik kateqoriya, nəinki sözün əsas əşya mənasını "müşayiət edir", həm də onunla qarşılıqlı təsirdə olur. Sözdə adətən bir neçə qrammatik kateqoriya birdən-birə müəyyən edilir ki, bu da qrammatik kateqoriyalarla sözün əşya mənası arasındakı əlaqələrin bütün problemini olduqca mürəkkəbləşdirir.

İntensivlik sözdə kəmiyyət fərqi sayılır. Kəmiyyət fərqini ayrı-ayrı kateqoriyalarda intensivliyin iki forması əmələ gətirir.Bu fərqi belə göstərmək olar: intensiv I: *yapyalnız, sapsağlam* və s.; intensiv II: *yapayalnız, sapasağlam*, *sappasağlam* və s.

Hər iki dərəcə gücləndirici funksiya daşıyır. İkincidə isə bu qraduallıq yüksək səviyyədə təqdim olunur.

İntensivlik bir sıra kateqoriyalarda yeganə məqsəd daşıyırsa, bəzi qrammatik kateqoriyalarda əlavə çalarlıq keyfiyyəti yaradır.

Dilimizdə aşağıdakı kateqoriyalarda intensivlik əlaməti yüksəkdir.

1. Mənsubiyyət kateqoriyasının intensivliyi. Mənsubiyyət kateqoriyası sahib şəxslə mənsub əşya arasında aidiyyət əlaqəsini ifadə edir. Tədqiqatçılar türk dillərində mənsubiyyət kateqoriyasının ikiqat şəklinin intensivlik yaratması hallarına toxunmuşlar [18]; [19]; [21].

Azərbaycan dilində, eləcə də onun dialekt və şivələrində intensivlik əlamətini ikiqat mənsubiyyət şəkilçiləri də formalaşdırır. İkiqatlılıq qədim morfoloji hadisələrdən biridir. Sözlərin iki mənsubiyyət şəkilçisi ilə işlənməsi qədim tarixə malikdir. Bu formaya biz "Kitabi-Dədə Qorqud" dastanının dilində də rast gələ bilirik. Məsələn: Bin söylərsən *birisini* qoymaz, ərin sözün qulağına qoymaz [8, s.15].

E.V.Sevortyan ikiqat mənsubiyyət şəkilçisinin bəzi türk dillərində aktiv işləndiyini qeyd edib [22, s.44].

İkiqat mənsubiyyət şəkilçili sözlərin Bakı, Gəncə, Salyan, Şəki dialektlərində və Qazax şivələrində mövcud olduğu aşkar edilmişdir [16]; [14]; [6]; [11].

M.Məmmədov intensivliyin yaranmasında daha çox sədr, haqq, gün, il, alın, say, çox, bir sözlərinin şivələrdə ikiqat mənsubiyyət şəkilçisi qəbul edərək işləndiyini göstərmişdir. Məsələn: gələn günüsi, iydənin iyisi, keçən ilisi, kalxoz sədrisi, biriqada üzvüsü, onun abrısı, qızların sayısı və s. Müəllif fikrini davam etdirərək yazır ki, qədim xüsusiyyətləri mühafizə edən Qax şivəsində də bu əlamətin geniş yayıldığı müşahidə edilir və bu özünü fərqli sözlərdə göstərir; Məsələn: beşin dərdisi, sənlin birisi, yetimin baxtısı, çarığın bağısı, xərmən yerisi və s. [9, s.26].

İkiqat mənsubiyyət şəkilçisinin işlənməsinə danışıq dilində də tez-tez rast gəlmək mümkündür. Müasir Azərbaycan dilində miqdar, bölgü, çoxluq bildirən bir, çox, hər biri, heç biri, bir neçəsi sözlərində ikiqat mənsubiyyət şəkilçisinin işlənməsini qeyd edən İ.Hacıyev bunun səbəbini belə izah edir: "Belə sözlər hər iki şəkildə, yəni həm bir, həm də ikiqat mənsubiyyət şəkilçisi qəbul etdikdə qeyri-müəyyənlik ifadə edir. Lakin bir mənsubiyyət şəkilçisi ilə işləndikdə tam qeyri-müəyyənlik, ikiqat mənsubiyyət şəkilçisi qəbul etdlikdə isə bu qeyri-müəyyənlik nisbətən konkretləşir" [13, s.36].

2. Kəmiyyət kateqoriyasının intensivliyi. Dil sistemində intensivlik kəmiyyət kateqoriyasının bir hissəsi kimi meydana çıxır. Belə ki, ifadənin kəmiyyəti artdıqca intensivlik şkalaları yaranır, qraduallıq artır, artım birbaşa kəmiyyətə təsir göstərir.

Kəmiyyət kateqoriyası mücərrəd kateqoriyadır, insan təfəkkürü real sayılan əşyalardan çox asanlıqla uzaqlaşa bilər. Həmin mücərrədlik yüksək inkişaf və intensivlik dərəcəsinə malik olan dillərin kəmiyyət qrammatik kateqoriyasını daha artıq dərəcədə səciyyələndirir, bu kateqoriya geniş ümumiləşdirmələr daxilində öz semantikasına görə ən müxtəlif olan sözləri birləşdirir. Kəmiyyət kateqoriyası universal, yəni məntiqi kateqoriya olaraq reallığın başa düşülməsində mühüm mərhələlərdən biridir. İntensivlik kəmiyyət kateqoriyasının bir hissəsi kimi meydana çıxır. "İntensiv" termin-anlayışı kəmiyyət kateqoriyasına məxsus bütün fərqli cəhətləri ifadə edir. Geniş anlamda bu anlayış hər hansı dil faktının müqayisəsində üzə çıxır. İki sinonim anlayışın

müqayisəsində ilk əvvəl digər çalarlara nisbətən məhz intensivlik fərqi diqqəti cəlb edir. Ona görə ki, iki müxtəlif əşya və hadisəni qarşılaşdıranda insan şüuru başqa xarakterik cəhətlərə nisbətən kəmiyyət fərqini daha asan şəkildə ayırır, fərqləndirir.

Kəmiyyət fərqi və ya intensivlik fərqi elə bir ümumi kateqoriyadır ki, buraya fikir və qavrayışlarımızın hər hansı obyektlərini daxil edə bilərik. Bu adət əbədi olaraq insan şüuruna xasdır və biz nə qədər istəsək də, bunu tərgidə bilmərik; çünki biz heç bir şeyi mütləq şəkildə, öz-özlüyündə qavraya bilmirik, onu hökmən bir və ya bir neçə bənzər əşya və hadisələrlə müqayisədə dərk edirik.

Kəmiyyət kateqoriyası müasir insan düşüncəsinin ən mücərrəd kateqoriyalarındandır. Abstraktlığın çox yüksək səviyyəsinə malik olduğu üçün kəmiyyət kateqoriyasının obyektiv aləmlə birbaşa əlaqədə olması ilk baxışda tez nəzərə çarpmır.

Dilimizdə kəmiyyət bildirən sayların təkrarı ilə intensivlik yaranır. Məsələn: Buna qədər isə Dağlıq Qarabağ məsələsində ən prioritet məsələ *yüzdə yüz* münaqişə zonasında yeni hərbi əməliyyatların başlanmasına imkan verməmək olacaq.

Aparılan tədqiqat göstərir ki, Azərbaycan dilinin morfologiyasında intensivlik kəmiyyət kateqoriyasının bir tərkib hissəsi kimi meydana çıxır.

3. Qrammatik cins kateqoriyasının intensivliyi. Bu kateqoriya daha artıq mücərrəd olan kateqoriyadır. Qrammatik cins kateqoriyası və ya geniş biçimdə götürdükdə, ad sinfi kateqoriyası, dünyanın ən müxtəlif dillərində mövcuddur. Bu kateqoriyanın intensivliyini kişi və qadın peşələri daxilində qrammatik fərqdə bəzi dilçilər müşahidə etmişlər. Məsələn, R.Budaqov yazır ki, qrammatik cins əlaməti üzrə diferensiasiya çox vaxt mürəkkəb və müxtəlif olur. Rus dilində ткач (toxucu)-ткачика (toxucu qadın), учитель (müəllim)- учительница (müəllimə) arasındakı fərq intensivlik fərqidir və eyni bir peşə daxilində cərəyan edir: kişi ткач, qadın ткачика-nın gördüyü işi yerinə yetirir [4, s.157].

Qaqauz dilində də digər oğuz dillərindən fərqli olaraq qrammatik cins kateqoriyası fəaliyyət göstərir. *Slavyan dillərinin təsiri ilə –ka* morfoloji göstəricisi ilə qaqauz dilində bu kateqoriya formalaşır. Məsələn: *altay-altayka, baldız-baldızka, genç-gençka* və s. [20, s.17,39,78].

Azərbaycan dilində cins kateqoriyası fəaliyyət göstərmir. Dilimizdə cins kateqoriyasının əlaməti bir neçə alınma mənşəli sözün tərkibində qalıb. Bu sözlərin bir hissəsi peşə adı ifadə edir: müəllim-müəllimə, müdir- müdirə, xadim-xadimə, şair-şairə, katib-katibə və s.

Bundan başqa, dilimizdə cins kateqoriyasının əlamətləri bir qrup ərəb, fars mənşəli qadın və kişi adlarının tərkibində aktiv şəkildə qalmaqdadır: Xəyal-Xəyalə, Elnur- Elnurə, Ceyhun- Ceyhunə, Sahil- Sahilə və s.

4. Feilin şəkil kateqoriyasının intensivliyi. Əsas nitq hissələrindən biri olan feil və onun əmr şəklinin intensivlik keyfiyyəti yüksəkdir. Əmr, buyruq, öyüd, nəsihətlər əmr şəklində ifadə olunanda buradakı dərəcələr çoxalır. Gələcək üçün verilən əmrlər indiki zamana nisbətən uzaq və yaxınlığı müəyyənləşdirə bilmir. İntensivlik əmr cümləsinin ümumi məzmununda üzə çıxır və bu zaman gələcək zamanın uzaq və yaxınlığı müəyyənləşir.

Əmr şəklinin semantikasını qüvvətləndirmək üçün həmin biçimdən əvvəl və sonra müəyyən gücləndirici sözlərdən istifadə edilir. Əmr şəklindən əvvəl gələn və onun semantikasını gücləndirən sözlərə *di, qoy, qoysana, gəlin, təki, bircə* və s. aid edilir. Bircə babamı görsəydim; Təki sən səslə məni. Əmr şəklindən sonra işlənənlər və onun semantikasını gücləndirən sözlərə *ha, barı, da, də* aid edilir: Ha qışqırdım, səsimi eşidən olmadı. Barı oxu, adam ol!

Feilin əmr şəklində mövcud olan intensivlik semləri onun üslubi keyfiyyəti ilə əlaqədardır. Belə ki, əmr şəkli şərt formasının sinonimi ola bilir. Misal üçün: Harda *olur-olsun,* lap göyə *çıxsın, gizlənsin,* onu tutub sizin yanınıza gətirəcəyəm. Harda *olsa,* lap göyə *çıxsa, gizlənsə*, onu tutub sizin yanınıza gətirəcəyəm.

Adi danışıqda əmr şəklinin II şəxs tək və cəmində şiddətləndirici *–sana, -sənə, -sanız, -səniz* formaları da işlənərək intensivlik əmələ gətirir: Tez gəlsənə, alıb aparsana.

Müasir Azərbaycan dilində əmr şəkli vacib şəklinin sinonimi ola bilir. Misal üçün: Belə oğul lazımdır ki, anasının nazını *çəksin.* Bu cümlənin ümumi məzmunu vacib formasında bu cür olmalıdır: Belə oğul anasının *nazını çəkməlidir.*

Dilimizdə əmr şəkli arzu formasının da sinonimi ola bilir. Misal üçün: Hələ şübhə altından çıxmayıb, özünü doğrultmayıb, istəyir dövlətdən mükafat alsın, hay, hay! [10, s.307]. Hələ şübhə altından çıxmayıb, özünü doğrultmayıb, istəyir dövlətdən mükafat *ala,* hay, hay! [10, s.307].

Üslubi-semantik cəhətdən bu cür əvəzlənmələr, şübhəsiz, intensivliyi də genişləndirir. Dəyişmələrin üslubi xarakteri kəmiyyət fərqini yaratmaqla yanaşı, intensivlik şəraitini də artırır.

Bu məqamda intensivliyin dəqiqləşdirilməsi mümkün olur: *Di, dillən, qoy çıxıb getsin, Buyurun, gəlin. Tez gəlin! İndi gəlin. Hər halda gəlin! Gəl, vəssəlam. Gəl ha* və s.

"Tonun dəyişdirilməsi" də intensivlik şəraiti yaradır. Q.Mustafayeva yazır ki, danışıqda əmr şəkli əsasında formalaşmış eyni sözü tonun dəyişdirilməsi yolu ilə müxtəlif məqsədlərə uyğun olaraq rəngarəng məna və çalarlıqda işlətmək mümkündür. Məsələn, *oxu, get, gəl* sözlərini bir məqamda əmr, digər məqamda məsləhət, başqa bir məqamda isə xahiş yolu ilə işə təhrikedici vahidlər kimi işlətmək və başa düşmək olar [12, s.344].

5. Feilin növ kateqoriyasının intensivliyi. Feilin növləri (qrammatik növləri) subyektin durumunun morfoloji üsulla təzahürü formasında üzə çıxır. Dilimizdə 4 növ –ın, –ıl, –ış, –aş, –dır, –t, –laş, –lan, –al, –ılda kimi morfoloji göstəricilərin iştirakı ilə formalaşır.

Qayıdış növ feillərin morfoloji göstəriciləri intensivlik yaratma gücünə malikdir. Belə feillərin subyekti fəallaşır, subyekt işi öz üzərində icra edir, hərəkət birbaşa subyektin özünə istiqamətləndiyi üçün kənar bir obyektə ehtiyac qalmır.

Qayıdış növ feillərin böyük bir qismində iş subyektin öz maddi-fiziki varlığına istiqamətlənmiş olur. Məs: Mədəd Vəlidən çəkinirdi. Xalq silkələndi.

İcbar növün şəkilçilərinin artıqlığını, intensivliyini də müşahidə edirik. Belə ki, feillərin bir qismi subyektin qeyri-fəal olduğunu bildirir və diferensial semantika əmələ gətirir, məchul növü təmsil edir.

–t + dır şəkilçisinin yaratdığı intensivlik: O gecə onu saxladılar, yaxşı söhbət *elətdirdilər* [3, s.234]; Bu vasitə ilə ehtiyacda olanları o ki lazımdır *yalvartdırdılar*; Qonağı *çağırtdırdılar*.

6. Şəxs kateqoriyasının intensivlik yaratması. "Şəxs kateqoriyası dildə fikir bitkinliyi və predikativlik yaratmaq, hər an subyekt ehtiyacı olmadan fikri yığcam, qısa və intensiv ifadə etmək baxımından çox mühüm rola malikdir və bütün təsrif sistemlərinin əsasında durur" [7, s.278]. Misal üçün: *Bir xəbər versən* əvəzinə- *bir xəbər versəniz; Harda qaldın* əvəzinə- *harda qaldınız?* işlənəndə intensivlik əmələ gəlir. Bu hadisə onunla əlaqədardır ki, ikinci şəxsin çoxluğunu ifadə edən əsas *z* ünsürü özündən əvvəl *ı, i, u, ü* saitlərini qəbul edərək, ikinci şəxsin təkini ifadə edən n ünsürü ilə birlikdə *–nız (-niz,-nuz,-nüz)* şəklində feilin şühudi keçmiş zamanında, idi ədatı iştirak edən feillərdə və şərt şəklində ikinci şəxsin cəmini ifadə edir [5, s.183].

Tatar dilində şəxs kateqoriyasını personallıq kateqoriyası ilə qarşılaşdıran D.Şahhaydarova da bu intensivliyin öz dillərində geniş yayıldığı qənaətindədir [24, s.6].

7. Tərz kateqoriyasının intensivliyi. Feil tərzləri geniş mənada feillə ifadə olunan işin icra vəziyyətinin xarakterini, işin icra kəmiyyətini bildirir. Q.Kazımov ümumiləşmiş şəkildə tərz kateqoriyasını hərəkətin kəmiyyət şəklinin dəyişməsini göstərən bir kateqoriya hesab edir və yazır ki, hal-hərəkətin icra olunub (və ya olunmayıb) qurtarması, bitib-bitməməsi, başlanıb-başlanmaması tərz kateqoriyasının əsasını təşkil edir [7, s.214].

Tərz feilin cərəyan tərzini, təkrar və davam tərzini, habelə bitmiş olub-olmadığını, zamanların iç-içə keçdiyini və bu kimi anlayışları ifadə edən vasitədir. Tərz davamlılıq, tədricilik və birdən- birəlik ifadə edə bilir.

Tərz kateqoriyasında nəzərə çarpan əsas cəhət hal və hərəkətin bitib-bitməməsidir. Bu əlamət demək olar ki, bütün feillərə aiddir. Lakin tərz əlaməti

feil kökünə deyil, sonuna əlavə olunmuş söz, ortaqlı və ya xüsusi şəkilçilərlə ayırd edilir [5, s.233].

Hərəkətin kəmiyyətə görə şəkli dəyişirsə, mütləq intensivlik formalaşır. Məsələn: Qoca yerində *dondu//donub qaldı.* Ana *durdu//deyinib-durdu*.

İşin davamlılığını, sürəkliliyini, ümumən inkişafını, bir halın başqa bir hala çevrilməsini ifadə edən tərz göstəriciləri intensivlik keyfiyyətlərinə yiyələnir. Misal üçün: Yadına nə düşdüsə, durdu//Yadına nə düşdüsə, gözləyib durdu. Durdu- gözləyib durdu: sonuncu fikir (gözləyib durdu) genişlənir və bu zaman intensiv sem yaranır. Xüsusən də işin davamlılığı və sürəkliliyi nəzərə çarpır. Yaxud, yerində qaldı//yerində donub qaldı. Şübhəsiz, yuxarıda dediyimiz kimi, donub qaldında tərz bir halın başqa bir hala çevrilməsini səciyyələndirir. Yıxılıb qaldı, yatıb qaldı tərz birləşmələrində də intensivliyin keyfiyyət dəyişikliyinin əlaməti qabardılır.

Tərzi ifadə edən şəkilçilər xüsusiliyi ilə seçilir və bunlar vasitəsilə sözün həcmi genişlənir, intensivlik əmələ gəlir. Həmin şəkilçilərin (-ala[2], ü, ı, ux, əclə, idir, ik) qoşulduğu feillərdə tərzin intensivliyi açıq-aydın duyulur. Misal üçün: *didmək//didələmək, səpmə//səpələmək; sürmək//sürümək, qazmaq//qazımaq; solmaq//soluxmaq, donmaq//donuxmaq; döymək//döyəcləmək; əzmək//əzişdirmək, büzmək//büzüşdürmək, bezmək//bezikmək* və s.

Bu tip tərzin morfoloji yolla intensivlik yaratması fikrimizcə, xüsusi tədqiqat mövzusu ola bilər.

Leksik-qrammatik vasitə ilə formalaşan intensivliyin spesifik əlamətləri mövcuddur. Həmin əlamətlər intensivliyin müxtəlif tiplərini əmələ gətirir: 1) mütləq intensivlik; 2) intensivlik mənasının artması, böyüməsi, yəni auqmetativ intensivlik; 3) intensivlik mənasının zəifləməsi, azalması, yəni attenyativ intensivlik [23, s.123].

Həmin intensiv mənaları bitmiş və bitməmiş tərz yaradır. Bitmiş və bitməmiş tərz məfhumlarının ən müxtəlif xüsusi leksik mənada olan feillərin bir sıra qrupunu ümumiləşdirməsi, burada yaranmış ümumiləşdirmə prosesini ifadə edir. Ümumiyyətlə, feilin tərz mənalarında intensivlik əlamətlərinin yuxarıda göstərilən tipləri özünü göstərir. Tərz kateqoriyası feilin hərəkət gedişindəki, onun cərəyan etmə üsulundakı fərqləri göstərir. Aydındır ki, ayrı-ayrı dillərdə feilin tərzə görə fərqlərinin qrammatik ifadə vasitələri müxtəlifdir. Məsələn, tərz fərqlərinin ifadəsi üçün morfoloji vasitələrə malik olmayan Avropa dillərində həmin fərqlər məlum dərəcədə müxtəlif zamanlar üzrə ifadəsini tapa bilir. Misal üçün "O yıxıldı; o dəfələrlə yıxıldı, yıxılmaq adəti vardı" ifadələrindən bəzi hallarda tərz fərqləri üçün, hərəkətin cərəyan etmə prosesini tərz vasitəsilə fərqləndirmək üçün istifadə olunur. Bu isə aydındır, hərəkət müxtəlif şəkildə baş verə bilər.

İntensivlik bildirən tərz kateqoriyası bir qrammatik kateqoriya kimi yalnız bu kateqoriyanın aydın morfoloji cəhətdən yarandığı dillərdə özünü

göstərir. Tərzin, adi qayda üzrə bitmiş və bitməmiş tərzə parçalanması olduqca ümumidir və tiplər, eləcə də qruplaşmaların bütöv zənginliyini əhatə etmir. Bu baxımdan intensivliklə əlaqədar hərəkətin bitməsinin və bitməməsinin müxtəlif dərəcələri barədə bəhs etmək olar. Müxtəlif dərəcəlilik isə intensivliyə yol açır.

Bitmiş tərz daxilində: qəti (oxuyub qurtarmaq, yığmaq), başlanğıc (oxumağa başlamaq, danışmağa davam etmək), ani (göz qırpmaq, ah çəkmək) və digər bir çox yarımmənaları ayırmaq olar.

Tərz kateqoriyası ilə yaranan intensivlik feilə müstəsna ahəngdarlıq və ifadəlilik verir: Uşaq əvvəl qapını döydü. Səs çıxmadı. Uşaq qapını bərk, daha bərk döydü. Dəfələrlə döydü. Dəfələrlə işin görülməsi hərəkətin intensivliyini formalaşdırır. İntensivlik konteksin xüsusi şəraitində üzə çıxır.

8. İnkarlıq kateqoriyanın intensivliyi. İnkarlıq kateqoriyasında intensivlik əsasən bədii əsərlərdə özünü daha qabarıq biruzə verir. Belə ki, hər hansı bir hadisənin təsvirində inkarlıqdan istifadə edilməklə oxucunun gözlənilməz vəziyyətə düşməsi fikrin intensiv ifadəsinə səbəb olur. Məsələn: Qonaqların hamısı gəldi, məclis düzəldi, amma aşıqlar gəlib çıxmadılar [3, s.268]; Arvadın dediklərinin hamısını Aşıq Ələsgər eşitdi, amma heç üstünü vurmadı (3, s.270); Fatmanın acığı tutdu, amma üstünü vurmadı (3, s.271).

İnkarlığın mətn daxilində ifadəsi şəxsin həyatında yaşamış olduğu hadisənin qorxuducu keyfiyyətinin minimallığı və maksimallığı ilə bağlıdır.

Venera Süleymanova positiv və neqativ işarəli intensivlik sahələrini asılılıq münasibətlərinə görə ümumi şəkildə aşağıdakı kimi təsnif etmişdir:

inkarlıq effektinin
a) maksimallaşdırılması
b) minimallaşdırılması
təsdiqlik effektinin
a) maksimallaşdırılması
b) minimallaşdırılması [15, s.78].

Azərbaycan dilində inkarlıq başqa vasitələrlə də ifadə olunur: bəli, hə, var, əlbəttə, yox, xeyr, heç, nə, deyil. Belə ki, təsdiq olunanın inkar olunanla bir müstəvidə təqdimi təsdiq mövqeyində çıxış edən dil vahidini qüvvətləndirmək və fərqləndirməklə bərabər, mətnin estetik dəyərini, ekspressivliyini gücləndirir: Mərə dadı, mən avcı degiləm, bəg oğlı bəgəm [17, s.285-286].

M.Adilov intensivliyin hissi cəhətlə daha çox əlaqədar olduğunu göstərir və bu kateqoriyanın bədii əsərlərin dilində çox işlədildiyini qeyd edir [1, s.24].

Danışıq dili sərbəstliyə daha çox meyillidir. Ona görə də cümlələrin tərkibində işlənən qrammatik vasitələrin dərəcə fərqlənmələri bu kontekstdə özünü göstərir.

Nemət yaxasındakı lövhəyə baxdı: doğrudan da, lövhə ağappaq idi [2, s.5]; Mənim təyin olunduğum Yarpızlı kəndi təbiətin *ən gözəl* guşəsi idi [10, s.151]. Üslubi aidetməni nəzərə alaraq, M.Adilov yazır ki, intensivlər həm

leksikada, həm morfologiyada, həm də sintaksisdə özünü göstərən üslubi vahidlərdir. Bunlar daha çox subyektiv məqamlarla bağlı olduğundandır ki, bir sistem təşkil etmir.

İntensiv bəzi kateqoriyalarda yeganə məqsəd olursa, bir sıra qrammatik kateqoriyalarda əlavə çalarlıq keyfiyyətinə malik olur [1, s.30].

Tədqiqatın nəticələri göstərir ki, intensivlik kateqoriyası morfoloji səviyyədə də əlamətin inkişaf səviyyəsini müəyyənləşdirir. Bu səviyyəni əhatə edən isim, sifət, feil, zərf, qoşma, ədat və s. nitq hissələrinə məxsus morfoloji göstəricilərin köməyilə kəmiyyət əlamətinin dəyişməsinə səbəb olur.

ƏDƏBİYYAT

1. Adilov M.İ. Əsərləri: 7 cilddə, II c., Bakı: Elm və təhsil, 2011, 370 s.
2. Anar. Əsərləri: 2 cilddə, II c., Bakı: Nurlan, 2003, 515 s.
3. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.
4. Budaqov R.A. Dilçiliyə dair oçerklər. Bakı: 1956, 286 s.
5. Hüseynzadə M.H. Müasir Azərbaycan dili (Morfologiya) : 4 cilddə, III c., Bakı: Maarif, 1973, 320 s.
6. İslamov M.İ. Azərbaycan dilinin Nuxa dialekti. Bakı: 1976, 275 s.
7. Kazımov Q.S. Seçilmiş əsərləri: 10 cilddə, IX c., Bakı: Nurlan, 2010, 544 s.
8. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər / S.Əlizadənin tərcüməsi ilə. Bakı: Öndər nəşriyyatı, 2004, 376 s.
9. Məmmədov M.Ə. Azərbaycan dili şivələrində ismin mənsubiyyət kateqoriyası / Metodik vəsait. Bakı, 2000, 54 s.
10. Mir Cəlal P.Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 384 s.
11. Mollazadə S.M. Qax şivələrinin bəzi morfoloji xüsusiyyətləri haqqında. // V.I.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun elmi əsərləri. Bakı: 1965.
12. Mustafayeva Q.H. Azərbaycan dilinin üslubiyyatı. Dərs vəsaiti. Bakı: Elm, 2010, 392 s.
13. Müasir Azərbaycan dili: 3 cilddə, II c., Bakı: AMEA-nın nəşri, 1980, 510 s.
14. Ramazanov K.T. Azərbaycan dilinin Salyan dialekti- əlyazması hüququnda . Bakı, 1955, 236 c.
15. Süleymanova V.M. İnkarın konkret mətn daxilində ifadə müxtəlifliyi // Qafqaz universiteti jurnalı. 2010, 29-cu nömrə, (məqalə 77-80-ci səhifələri əhatə edir).
16. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: 1968, 420 s.

17. Tanrıverdi Ə.V. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm və təhsil, 2012, 464 s.
18. Аракин В.Д. Категория принадлежности // Сравнительная историческая грамматика тюркских языков (Морфология). Москва, 1988, 242 с.
19. Аслиддинов С. Категория принадлежности в современном узбекском литературном языке: Автореф. дис. …канд. фил. наук. Самарканд, 1964, 569 с.
20. Гагаузско-русско-румынский словарь. П.Чеботарь, И. Дрон. Кишинев, 2002, 740 с.
21. Мусаев К.М. Способы выражения принадлежности в караимском языке // Тюркологические исследования. Москва, 1963, 138 с.
22. Севортян Э.В. Категория принадлежности. Исследования по сравнительной грамматике тюркских языков(Морфология). Москва, 1956.
23. Файзиева Г.И. Выражение значений интенсивности в русском, английском и таджикском языках. Хиджанд, 2007, 123 с.
24. Шайхайдарова Д.Ш. Грамматическая категория лица татарского глагола и персональность. АКД, Алма-Ата, 1980, 90 с.

ХАЙАЛА МУРСАЛАЛИЕВА

ПРИЗНАКИ ИНТЕНСИВНОСТИ ГРАММАТИЧЕСКИХ КАТЕГОРИЙ

РЕЗЮМЕ

Грамматическая категория, замкнутая система взаимоисключающих и противопоставленных друг другу грамматических значений, задающая разбиение обширной совокупности словоформ на непересекающиеся классы, различие между которыми существенно сказывается на степени грамматической правильности текста.

Грамматические категории не только сопровождается первоначальными значениями слова, а также взаимодействует с ними. Обычно в слове несколько грамматическая категория определяется одновременно.

Установлено, что в нашем языке двойные суффиксы принадлежности, категория количества, грамматическая категория рода, повелительное наклонение глагола ит. выступают в качестве носителя признаков степени интенсивности. В результате этого исследования становится ясно, что в нескольких категориях интенсивность единственной цель перевозки, а в некоторых категориях создает дополнительный качество оттенок.

XAYALA MURSELALİYEVA

SIGNS OF INTENSITY GRAMMATICAL CATEGORIES

SUMMARY

Grammar categories are the system of confronted grammar meanings to each other and the closed oppositions. Although grammar categories possessing conflicting relations with their expressed word and the type of word compositions, but also are the grammar notions protecting differences and able to find morphological or syntactic expressing opportunities in the language.

Grammar category "observes" not only material meaning of a word and also makes mutual relation with this. Usually some grammar categories are suddenly defined in a word that and this complicates the whole problem of the relations between grammar categories and material meaning of a word.

Intensity creating features in some high intensity categories in our language: the category of possesions, the category of quantity, the category of grammar gender, shape category of verb, the category of person, repetitions, the category of aspect, the category of negation, the category of voise have been defined. In the end of investigation it`s clear that if intensity carries the only aim in some categories, but creates additional shades quality in some grammar categories.

Rəyçi: dos. Əzəmət Rüstəmov

GÜLŞƏN CÜMŞÜDOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

THE WORDS OF THE CATEGORY OF STATE

Açar sözlər: *hal, kateqoriya, nitq hissəsi, dil, əsas, predikativ, zərflik, təyin, funskiya, cümlə*
Key words: *state, category, parts of speech, language, main, predicative, adverb, attribute, function, sentence*
Ключевые слова: *состояние, категория, часть речи, язык, главная часть, предикативный, наречие, определение, функция, предложение*

The words of the category of state denote the temporary state condition of persons or things.

The essence of the words asleep, afloat, astir, ablaze, etc. and their position in the system of parts of speech is still under discussion. They constitute a special part of speech, which may be called "stative" and is characterized by the prefix "-a".

The main function of the statives is that of predicative and in this case they are preceded by a link verb, most usually the verb "be", but occasionally also "fall, keep, feel". Examples with the link verb "be" are very numerous and varied. A few will suffice:

The child was asleep.

The whole house was astir.

Something is afoot.

Statives are also occasionally found in the function of objective predicatives, particularly after the verb "find" or "have" and a noun or pronoun, as in the sentences:

He found his sister alone.

Then he spoke, and in a moment had his audience afire.

The basically predicative quality of the statives is equally evident in all of these cases. It is somewhat weakened when a stative has the function of an attribute following its noun:

A man alive to social interests.

And the predicative quality of the stative is further weakened when it precedes a noun as its attribute.

The phrase "be+stative" may sometimes be synonymous with the continuous form of the corresponding verb. For example:

He is asleep.

He is sleeping.

The existence of the words of the category of state in English on the following grounds:

(1) the meaning of "state" is merely a special variety of the meaning of "property" typical of adjectives;

(2) words of this category can be preceded by the word *more: more ashamed,* etc.

(3) they can be modified by adverbs (*painfully, alive*), by prepositional phrases (*alive with stars*) and they can be the predicative, prepositional or detached attribute, and, less frequently, a prepositive attribute.

In English there is a certain class of words which are still disputable. In works of foreign grammarians, they are not considered to be a separate part of speech. Some dictionaries published in the United Kingdom and the USA refer them to predicative. It is well-known that no grammarians mention this kind of part of speech. To this class of words, we include aboard, alive, asleep, afraid, aghast, awake and so on. Some Russian scientists regard them as a separate part of speech. call them adlinks on the analogy of adverbs. These words can be viewed as a part of speech because of their following features:

1. as meaning they denote state

2. stem building morpheme: it is formed by the help of productive prefixal morpheme /a-/

3. combinability: these words are exclusively combined with the link-verb to be and adverbs

4. Syntactic function: they are always used as predicative.

They do not have any grammatical category and this is the only feature of them which differ them from other parts of speech /notional parts are meant/: This part of speech can't be mixed up with adjectives or adverbs as some linguists do, because they do not possess the degrees of comparison and their combinability is different. "A-" component homonymically combines in itself the functions of prefix, preposition and article. - the prefix a- can express the meanings of prepositions: away, on, up, out. For example:

She is **asleep** - She is sleeping /on/.

He has gone to the shore - He is **ashore**.

This part of speech seems to be more economical as it is seen from the examples above. Therefore, it may be one of the reasons of its wide usage in Modern English.

The words of this type are based on several assumptions which are by no means self-evident or necessary.

Among the words signifying properties of nouns there is a specific set: the words built up by the prefix – a and denoting different states, mostly of temporary duration. They are different from adjectives, because they can't

function as attributes. Their function in the sentence is that of a predicative, rarely – post-positional attributes to nouns. They form a closed set of several dozen, they don't have the degrees of comparison. "The streets were alive with traffic", "No man alive could do it", "Swimmers are afraid of the sharks", "The artist felt ashamed of his bad work", "They were aware of the danger", "The whole town was astir with the news", afire, afoot, askew, ajar = half-open.

These kind of words have the following morphological, semantic and syntactic characteristics:

1) The words of this type denote "states" while adjectives denote "qualities";
2) The words of this type may be characterized by the prefix a- (it derives from the Middle English preposition an 'in, on'): alive, asleep, ajar, etc.;
3) The words of this type do not possess the category of the degrees of comparison;
4) The words of this type are used predicatively only, e.g. He is awake.

Because of the said features, these words are regarded by some grammarians as a separate part of speech which has been variously referred to as the category of state words, adlinks, and statives. The number of such words does not exceed several dozen. The traditional view of the stative, which separates temporary adjectives from other adjectives, does not seem to be convincing: temporary adjectives are part and parcel of the adjective class as a whole. At the same time, we must admit that these adjectives have features (meaning, function) that allow us to assign them to a separate subclass of the adjective. But the features examined are not sufficient for the distinction of the category of state within the adjective.

The words of the category of state is a controversial one. Such words as *asleep, ablaze, afraid*, etc. have been often named adjectives, though they cannot be attributes in a sentence and though their meaning does not seem to be that of property.

(1) Meaning. The meaning of the words of this type is that of a passing state a person or thing happens to be in.

(2) Form. The words of the category of state are invariable.

(3) Function.

(a) The words of the category of state most usually follow a link verb (was asleep, fell asleep). Occasionally they can follow a noun (man alive). They can also sometimes be preceded by an adverb (fast asleep).

(b) In the sentence, the words of the category of state are most usually a predicative. (he fell asleep). They can also be objective predicative (I found

him asleep) and attributes, almost always following the noun thy modify (a man asleep in his chair).

Let's see some examples on the words of the category of state.

1. The afternoon was full of transfiguring sunshine; some Judas trees were **abloom** in the villa gardens.

2. I did not mind for myself. I should not have cared if had been **alone**.

3. His soul was all **ablaze** with bliss.

4. We are not **afraid** of the truth.

5. The rest of his costurne... were the things he had worn at the funeral of his father. So nearly **akin** are human joy and sorrow.

6. The lieutenant... Jay **asleep** on the other bed.

7. He lit a pool of paraffin on the scullery floor and instantly a nest of wavering blue flame became **agog** for prey.

8, He rattled and stormed and felt the parlour already **ablaze** behind him.

9. But Mr. Polly's establishment looked more like a house **afire** than most houses on fire contrive to look from start to finish.

10. You know- everything there is to know about me. There's not much, because I have not been **alive** for very long. He did not answer. I was **aware** again of that feeling of discomfort.

The number of such kinds of words are not many in the English language. But as they have the functions of predicative, adverb and attribute they are called content words.

REFERENCE

1. Kuznetsova V.S. Notes on English Lexicology.- K., 1968.
2. Кунин А.В. Фразеология современного английского языка. - М., 1970.
3. Ginsburg R.S. A Course in Modern English Lexicology. M., 1979.
4. M.Akhmanova O. Lexicology. Theory and Method. - M., 1972.
5. Baugh A.C. and Cable T.A. History of the English Language, London, 1978.

G.İ.CÜMŞÜDOVA

HAL BİLDİRƏN SÖZLƏR

XÜLASƏ

Məqalə ingilis dilində hal bildirən sözlərdən bəhs edir. Bu sözlər qrupu ingilis dilində əsas nitq hissəsi kimi götürülür. Çünki bu qrup sözlərin cümlədə funksiyası olur: predikativ, zərflik, təyin. İngilis dilində hal bildirən sözlər "a" prefiksi ilə düzəlir və əsasən cümlədə predikativ funksiyası daşıyır. Bu tip sözlərin ingilis dilində o qədər də çox deyil, lakin cümlədə funksiyaya malik olduğuna görə onlar əsas nitq hissəsi sırasına daxildir.

Məqalədə ingilis dilində mövcud olan hal bildirən sözlər haqqında kifayət qədər məlumat verilmişdir. Məqalə göstərilən məsələ barədə geniş məlumat əldə etmək istəyənlər üçün faydalı ola bilər.

G.I.JUMSHUDOVA

THE WORDS OF THE CATEGORY OF STATE

SUMMERY

The paper deals with the words of the category of state in English. This group of words are taken as a notional part of speech. Because these words have certain functions in the sentence as: predicative, adverb and attribute. The words of the category of state in the English language are formed by the prefix "a" and are used mainly as predicative in the sentence. The number of this type of words are few in English, but having certain functions in the sentence they are called content words.

Enough information about the words of the category of state existing in English is given in the paper. The paper may be useful for those who want to get information about the mentioned issue.

Rəyçi: dos. L.A.Məsimova

GÜLAY QURBANOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

SOME APPROACHES AND METHODOLOGIES IN TEACHING ENGLISH

Açar sözlər: kurrikulum, oxu, yazı, tədris, tələbə, danışıq, dinləmə, səmərəli, yanaşma, metod
Key words: curriculum, reading, writing, teaching, student, speaking, listening, effective, approach, method
Ключевые слова: учебный план, чтение, писание, обучение, студент, разговор, слушание, эффективный, подход, метод

Language teaching demands a variety of approaches and methodologies. There are some approaches that reflect the principles and priorities of the English curriculum and that can enhance student's language learning by realizing the aims and learning goals of the curriculum. These approaches, however, are not intended to be exhaustive. They should be adapted as appropriate to the needs of the school, the class, the student and the teacher, and be supplemented from the teacher's own talents, expertise and experience. Listening is an essential element of the communicative process because it is through listening that we know what others feel, what they know, what they need, and what they want to tell us. It is important, therefore, that student's listening skills are developed and that they learn to listen actively. Receptiveness to language involves receiving all of the meaning that the speaker or writer wishes to convey. Speech is the most common, natural and accessible means of communication. It entails the use of both language and non-verbal cues, such as tone of voice, and gesture, to convey meaning. Speech facilitates spontaneous expression. It has the immediacy of personal interaction and allows for the quick communication and reception of thought. Students use speech to express ideas, feelings and intuitions and through it they listen to the ideas, feelings, intuitions and reactions of others. In the interaction of listening and self-expression students can clarify their thoughts, modify their perceptions and expand their view of the world. Learning how to use language for different functions in different contexts is important for both speaking and writing. In the early stages, students will write as they speak. In writing for an ever-widening audience, for different purposes and in different genres, students can learn to identify and use appropriate language in particular contexts. Students' receptiveness to printed language is, of course, essential, for the achievement

of literacy, for the development of comprehension skills. The ability to read and comprehend text will have a bearing on students' learning in every curriculum area.

The extent to which students can construct meaning from text will depend, in great measure, on the quality of language they already possess and the level of their awareness of the nuances of words and phrases. However, the students' understanding of what they read can also be developed and extended through discussion. Through the writing process the teacher can consistently guide students towards appropriate forms of language and develop their sense of language awareness to the point where they can choose independently the language best suited to the particular writing task. As a model for the students, the teacher should be conscious of the importance of his/her own use of language and of the significance of such factors as clarity of diction, tone of voice, facial expression and gesture. It is important that students experience challenging vocabulary and sentence structure. The teacher will also enhance the students' language development by consistently drawing their attention to new words and new meanings of words they already know. The interaction of the teacher and the students is an essential feature in enhancing students' language awareness. Through questioning, prompting and suggesting the teacher can expand students' vocabulary, enable them to use language more accurately and expressively, and deepen their appreciation of its communicative power. This interaction will occur in every curriculum area, so that the development of students' language awareness will be a factor of their total learning experience. The student needs to develop the appropriate language needed to perform the common social functions such as greeting, asking questions, saying goodbye and expressing appreciation and sympathy. Through the teacher's example, prompting and guidance, students will develop a sense of how to use language appropriately. As students get older, more structured and formal contexts for developing the appropriate use of language will need to be created. These contexts could include debates, presentations and interviewing interesting people.

As an interactor with the students it is the teacher who creates the general context for oral language activity. This is done in two ways: 1) by ensuring the desired quality and variety of stimulation in the form of ideas and topics. The student's experience, in and out of school, is the natural starting point but this, of itself, is not sufficient. The elements of content in the curriculum indicate the variety of stimuli needed for a comprehensive oral language program; 2) by creating and facilitating the organizational structures in which talk can take place. These will vary with the nature and function of the activity but will consist of the various permutations of whole-

class, group and one-to-one talk and discussion. Whatever the format being used, the teacher has a crucial role to play in ensuring that the talk is directed in the most effective way. In a whole-class context, while the teacher will help to give the most productive direction to the discussion, the students should be encouraged to make the major contribution. In group and one-to-one discussion, the teacher can move from group to group prompting, questioning and suggesting in order to ensure that the maximum learning potential is derived from the particular activity or topic. A group might choose a spokesperson who would report back to the class and this, in turn, might furnish the basis for further whole-class discussion. Improvisational drama should be an essential element of oral language activity. Through drama, students can explore ideas, feelings, characters, actions and reactions in a way that frees them from the constraints of their immediate context and inhibitions. It can also help to create the contexts in which more formal social functions can be learned and practiced. It is a teaching medium which can be used in many areas of the curriculum.

Much of the character and power of the English language is the result of the influence of other languages in the course of its development. This has given an enormous richness and expressive power to the language. In its turn English has influenced other European languages, especially in modern times. It is important that students, particularly in the later stages of the school, are made aware of these connections. The curriculum is quite specific in this regard. It states that the student should be enabled to discuss the meanings and origins of words, phrases and expressions with the teacher. It is important, therefore, that students have the regular experience of examining the origins and history of words. This will not only increase their awareness of language but extend their knowledge, since both culture and history are reflected in the origins of words and the course of their development. There is an obvious point of integration here with the history curriculum.

Oral language activity can be approached through five principal contexts: 1) talk and discussion; 2) play and games; 3) story; 4) improvisational drama 5) poetry and rhyme. In the classroom, talk and discussion should be characterized by a relaxed atmosphere of informality which masks a well-thought-out approach to the language needs of the students. This will consist in providing a range of contexts and strategies in which appropriate language skills can be acquired. For example, students' reading, both in English and in other curriculum areas, will frequently provide a valuable basis for talk and discussion. In learning to initiate and sustain conversations in these various contexts students need to develop an understanding of their role as speakers and listeners. They need to have

practice in 1) listening attentively 2) taking turns to speak 3) offering the information most essential to the listener 4) making comments and responses that are appropriate. It is important that contexts for language are created by the teacher in which the students are encouraged to listen and respond. These may include 1) learning to respond to simple instructions and directions 2) story-based activities such as listening to and retelling stories, recalling particular events in a story, asking questions, and communicating the narrative through role-playing 3) language games, rhymes, songs, poems and jingles through which an awareness of sounds may be fostered 4) clapping and dancing to syllabic rhythms in order to further enhance the student's awareness of sounds.

The teacher should adopt a collaborative, supportive and interactive role in facilitating these activities. Students will require a classroom framework in which the teacher 1) encourages students to engage in conversations in a purposeful manner 2) ensures that students' contributions are valued 3) acts as facilitator and mentor, helping the students to be explicit in what they say through modelling responses, thinking aloud, questioning, prompting, clarifying and extending vocabulary 4) points out possible areas of meaning that the topic might embrace 5) helps students to analyze and categorize these 6) provides appropriate vocabulary, sentence structures, phrases and descriptive language 7) creates contexts with agreed rules for discussion in which contributions are listened to and valued 8) models different types of response.

The mediating role of the teacher is crucial in helping students to use imaginative play to extend and enrich their language ability and their conceptual framework. It is important, in the first place, for the teacher to provide a wide variety of materials and contexts which will facilitate students' play in the classroom. Children will play spontaneously. However, if they are to experience the maximum learning from it the teacher must influence it and direct it. This can be done through interacting with individual student and groups of students, contributing to the particular activity, supporting it with collaborative talk and challenging the students. The teacher can achieve this enrichment of language by 1) asking questions 2) suggesting possibilities 3) initiating dialogue 4) encouraging role-playing 5) encouraging students to talk about what they are doing and to discuss it with other students.

REFERENCE

1. Northern Ireland Guidance Materials for English Belfast, NICC, 1990
2. Scottish Office Education Curriculum and Assessment in Scotland: Edinburgh, HMSO, Department National Guidelines: English Language, 1991.

3. Stratta, L. et al. Patterns of Language: Explorations in the London, Heinemann, Teaching of English 1973

G.R.QURBANOVA

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ YANAŞMA VƏ METODLAR

XÜLASƏ

Məqalə ingilis dilinin tədrisində yanaşma və metodların rolundan bəhs edir. Bildiyimiz kimi ingilis dili hazırda dünyada ən çox danışılan və öyrənilən dillərdən biridir. Digər dillər kimi ingilis dilinin öyrənilməsi və tədrisi o qədər də asan deyil. Bu prosesdə müəllimin dilin tədrisinə yanaşma üsullarından və metodlardan istifadəsi çox mühümdür. Yanaşma və metodlardan düzgün və onu dilin tədrisində səmərəli şəkildə istifadə etmək hər bir müəllim üçün vacib məsələlərdən biridir. Qeyd olunan bu məsələlər nəzərə alınarsa biz o halda dilin səmərəli tədrisindən danışa bilərik. Məqalədə ingilis dilinin tədrisində yanaşma və metodların rolu haqqında kifayət qədər məlumat verilmişdir. Məqalə göstərilən məsələ barədə geniş məlumat əldə etmək istəyənlər üçün faydalı ola bilər.

G.R.GURBANOVA

SOME APPROACHES AND METHODOLOGIES IN TEACHING ENGLISH

SUMMERY

The paper deals with the role of approaches and methodologies in teaching English. As it is known the English language is one of the most spoken and studied languages in the world. As other languages, English is not so easy to teach and learn. It is important for a teacher to use approaches and methodologies of the language in this process. Besides, accurate and efficient usage of approaches and methodologies in teaching English also is very important. Composing accurate curriculum and using it effectively in teaching English are one of the most important issues for teachers. If the above mentioned issues are taken into account, in this case we can speak about effective language teaching. Enough information about approaches and methodologies in teaching English is given in the paper. The paper may be useful for those who want to get information about the mentioned issue.

Rəyçi: dos. L.A.Məsimova

AYGÜN QOCAYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aygün.qocayeva. @mail.ru

LE FUTUR DANS LA GRAMMAİRE FRANÇAISE

Açar sözlər: *Fel, gələcək zaman, qrammatika, təsrif, qrammatik kateqoriyalar.*
Ключевые слова: *Глагол, будущее время, грамматика, спряжение, грамматические категории .*
Key words: *verb, temps future, grammar, conjugation, grammatical categories.*

Radical. Le futur simple se forme le plus souvent sur le radical du présent de l'indicatif : *il chantera*. Pour les autres verbes, on peut partir de l'infinitif *(finir-finira,boire-boira, etc.)* ou de la première personne du pluriel *: devons, devra*.Les verbes *courir et mourir* ont deux *rr* au futur simple : *courrai, mourrai*. Quelques verbes ont une base spécifique : *aller-irai ; avoir-aurai ; être-serai, faire-ferai ; falloir-faudra ; pouvoir-pourra ; savoir-saurai ; valoir-vaudra ; venir-viendrai ; voir-verra ; vouloir-voudra.*

Désinences. Ce sont *:-ai,-as,-a,-ons,-ez,-ont.*

Les temps du futur situent le moment du procès dans l'avenir par rapport au présent de l'énonciation. Un procès projeté dans l'avenir est envisagé avec un certaine part d'hypothèse et incertitude.

L'indicatif dispose deux formes temporelles futures : le futur simple et le futur composé.Le trait commun de ces deux temps, c'est que toutes les deux formes expriment une action future. La différence consiste en ce que le futur composé exprime une action terminée et c'est sa signification grammaticale essentielle.

Le caractère aspectuel du futur simple est plutôt duratif. On indique deux valeurs du futur simple :

1.Valeur temporelle

2. Valeur modale

Valeurs temporelles du futur simple.

L'expression d'une action qui aura lieu dans l'avenir par rpport au présent est exprimée par le futut simple : *Il partira* . Elle peut être confirmée par un adverbe ou complément circonstanciel : *Il partira demain.* Ces compléments peuvent préciser la distance entre le fait à venir et le présent du locuteur : *Il partira tout de suite. Il partira bientôt. Il partira dans dix minutes.* Avec la même valeur le futur simple s'emploie dans une

proposition subordonnée, alors que dans la principale on emploie le présent : Il dit qu'il partira dem ain. Cet emploi se » rencontre aussi dans la proposition principalen alors que dans la subordonnée après la conjonction **si** on emploie le présent de l'indicatif : Si tu as le temps, nous irons au théâtre.

Le présent de l'indicatif peut être employé avec la valeur temporelle du futur simple :

Dans une heure, je viens te voir. Dans ce cas le présent exprime une action futur comme vrai, indiscutable. Mais cette action exprimée par le futur simple, peut exprimer une action probable : *Je viendrai te voir dans une heure.*

Le futur simple s'emploie en corrélation avec un temps passe ; dans ce cas il possède la valeur du conditonnel : *J'ai appris que ce cinéma fermera dand une heure.*

Avec la valeur temporelle le futur simple peut exprimer la sucession chronologique des actions futures : J'irai par la forêt, j'irai par la montagne(Hugo)

Avec la valeur temporelle, le futur simple peux exprimer des actions simultanées. Dans ce cas la proposition subordonnée doit être introduite par les conjonctions *tant que, tandis que,. Ex : Tant qu'il fera beau temps, il y aura des fruits dans les jardins* .

En tant que forme désignant une action à venir, le futur simple peut être employé pour exprimer cette action dans l'enchaînement de faits passés. On lui donne alors le nom de «futur historique » :

Athènes ne lui en éleva pas moins une statue. Lorsque, cent ans plus tard, en 335, Alexandre ordonnera de livrer aux flammes Thèbes la rebelle, il prescrira à ses soldats de laisser seule intacte la maison de Pindaew.(Duché).

Valeurs modales du futur simple.

Le futur simple peux exprimer différentes valeurs modales sans situer l'action au futur.Le futur sert à accomplir trois types d'actes de langage : injonction,promesse, prédication. Ces valeurs modales ressortent du contexte.

Futur injonctif. Avec cette valeur le futur exprime les diverses nuances : règle morale, ordre strict, uggestion, consigne pour un devoir, etc. Ex :

Damien, tu te lèveras, tu prendras ton petit déjeuner et tu iras au collège. Charlotte, tu rangeras tes affaires.

Avec cette valeur du futur on peut exprimer une série de défenses.

Futur de promesse. Le futur simple exprime un acte déterminé, une promesse, vis-à-vis avec son locuteur : *Attendez-moi, je viendrai vous aider.*

Futur prédicatif.La réalisation de la prédication est située dans une époque futur indéterminée. C'est le futur employé dans les prophéties :

Les poissons seront fiers de nager sur la terre et less oiseaux auront le sourire.

*Futur d'atténuation.*Avec cette valeur du futur simple on exprime une incertitude liée à l'avenir qui permet d'atténuer une afirmation : *Je vous dirai que....., Je ferai remarquer que.....*

Futur d'indignation. Le locuteur s'indigne d'un procès qu'il envisage comme possible :

Comment ! Vous achèterez ce poupée pour ce garçon !

Futur de supposition. Le futur simple s'emploie avec cette valeur pour exprimer une action hypothétique. L'énoncé au futur simple est souvent associé à une phrase au présent ou au passé à laquelle il apporte une explication possible :

J'ai trouvé une lettre sur mon bureau. Ce sera la lettre de ma soeur.

Le futur composé (ou antérieur)

Le futur antérieur, c'est la forme composée du futur. Il exprime une action accomplie par rapport au futur simple correspondant.

Le plus souvent le futur antérieur s'emploie dans des propositions subordonnées temporelles. Dans ce cas il marque l'antériorité en corrélation avec le futur simple :

Dès qu'il sera arrivé chez lui, il s'occuperas de ton affaire.

Mais il peit aussi s'employer dans des phrases indépendantes pour exprimer l'achèvement d'une action dans l'avenir. Dans ce cas il est associé à un complément qui exprime le repère temporelle :

Elle sera partie dans une heure(G.Simenon)

Nous seuls l'aurons connu..... Plus rien, pas même un nom !(E.Zola)

Comme le futur simple, ;e futur antérieur peut exprimer une supposition, qui porte sur le passé : *Je ne trouve paas mes lunettes ! je les aurai oubliées.*

A un e époque où l'histoire naturelle était très négligée en France, un voyageur aura, je pense, amené un de ces animaux.....(Balzac)

Avec cette valeur, le futur antérieur correspond temporellement au passé composé *(je les aurai oubliées= je les ai oubliées ; aura amené=a amené).*

Le futur proche

Les grammairiens appellent le futur proche (ou futur immédiat) une forme périphrastique formée du présent de l'indicatif du verbe aller servant d'auxiliaire et de l'infinitif du verbe significatif *: Il va écrire une lettre à son ami.*

Le futur proche est très usité dans le français moderne, surtout dans le langage parlée. Il exprime le plus souvent un fait futurtrès proche du moment de la parole et qui résulte généralment de la situation présente :

Tu vas voir, papa,qu'on ***va manquer*** *le train, disait maman .(Vaillant-Coutourier)*

Mange ta soupe, Lili, dit la mère qui s'impatiente, elle ***va refroidir*** *; Pierrot, fais attention à ce verre, tu* ***vas*** *le* ***renverser****.(Laffite)*

Souvent, surtout à la première personne, le futur immédiat comporte une idée d'intention, il indique ce qu'on a l'intention de faire prochaînement :

Je ***vais*** *vous* ***dire*** *ce qu 'on me rappelle, tous les ans, le ciel agité de l'automne, les premiers dîners à la lampe....(A. France).*

Écoute, je ***vais*** *te* ***parler*** *franchement.(J.Laffite)*

En parlant du futur simple, les auteurs de la *« Grammaire méthodique du français »* écrivent :Le futur simple est concurrencé, dans l'expression de l'avenir ou des modalités qui s'y rattachent, par différents auxiliaires ou périphrases verbales :

•*Aller* au présent+infinitif marque le''futur proche'' ou l'imminence d'un procès.

D'auxiliaires d'aspect, il devient un auxiliaire de temps, très fréquent à l'oral : *Le train va partir.* Il maintient plus nettement le lien avec le présent de l'énonciation et il présente la réalisation du procès comme plus assurée et sa réalité comme plus certaine que le futur, qui laisse subsister un doute : celui-ci est parfois impossible à la place de *aller* + infinitif : *Attention, le train partira/tu tomberas.*

Aller peut s'employer aussi pour exprimer un ordre plus catégorique, immédiatement réalisable :*Vous allez faire ce gtravail(tout de suite)*

Le futur dans le passé

Dans une proposition subordonnée, après un temps passé dans la principale, le futur dans le passé désigne une action postérieure à celle indiquée par le verbe de la principale :

Le docteur lui montra la boulangerie et il convinrent qu'ils se rencontreraient sur la place, dand une heure (Daix).

Dans les grammaires traditionnelles, le futur dans le passé est appellé aussi le futur''hypothétique'' simple, parce qu'il exprime une action future qui n'est pas affirmée d'une façon catégorique.

Martin Riegel et Jean –Chrisophe Pellat analyse le futur proche dans le conditionnel, exactement dans la valeur temporelle du conditionnel. Ils écrivent à ce propos :*'' Le conditionnel peut exprimer un futur vu à partird'un moment du passé. De même que le futur simple exprime l'avenir*

par rapport au présent, le conditionnel exprime l'avenir par rapport au passé : Virginie pense que Paul viendra/ Virginie pensait que Paul ***viendrait''***. Ils continuent :'' Le procès indiqué au conditionnel n'est pas repéré par rapport au point d'énonciation, mais par rapport à un repère temporel antérieur. Dans cette relation de postériorité par rapport au passé, rien n'empêche que le procès soit situé après le présent du locuteur *: Je pensait que Paul* ***viendrait demain''.*** Pour prendre cette valeur temporelle, le conditionnel doit être relié à une indication explicite du passé. Celle-ci est le plus souvent fornie par une proposition principale à un temps du passé (imparfait, passé composé, etc.)

Ces idées nous prouvent encore une fois que le futur dans le passé est rangé tantôt parmi les temps de l'indicatif et tantôt parmis les temps du conditionnel.

BIBLIOGRAPHIE

1. Martin Riegel, JeanChristophe Pellat, René Rioul. Grammaire méthodique du français.PUF. Quadrige. Presses Universitaires de France, 1994, p.312
2. Штейнберг Н.М. Так называемое будущее предварительное (Futur antérieur) в современном французском языке. В сб: «*Вопросы грамматического строя и словарного состава»,* Ленинград,1959,стр.265
3. Martin Riegel, JeanChristophe Pellat, René Rioul. Op.cit.p312-313
4. Martin Riegel, JeanChristophe Pellat, René Rioul. Op.cit.p314
5. Martin Riegel, JeanChristophe Pellat, René Rioul. Op.cit.p315
6. E.A.Référovskaïa, A.K.Vassiliéva, Essai de grammaaire française, Cours théorique. L.,1973,p265-269
7. Martin Riegel, JeanChristophe Pellat, René Rioul. Op.cit.p316

AYGÜN QOCAYEVA

FRANSIZ DİLİNDƏ FELİN GƏLƏCƏK ZAMANI

XÜLASƏ

Aparılmış elmi araşdırmalar bir daha sübut edir ki, gələcək zaman formasının tədrisin ilk mərhələsində dərsliklərə daxil edilməsi məntiqi və ağlabatandır. Müasir fransız dilində, xüsusilə, canlı danışıqda «futur proche» zamanı «futur simple» zamanına nisbətən daha çox işlənilir. «Futur proche»

bilavasitə indiki zamanla bağlı olan gələcək hərəkəti ifadə edir. Fransız dilində bu yaxın gələcək zaman adlanır və o elə hərəkət ifadə edir ki, bu hərəkət yaxın gələcəkdə baş verməlidir. Bu zaman formaları dilöyrənənlərin fransız dilində sərbəst danişmaları üçün əlverişli şərait yaradır.

ГОДЖАЕВА АЙГЮНЬ

БУДУЩЕЕ ВРЕМЯ ГЛАГОЛА НА ФРАНЦУЗСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Проведённые научные исследования ещё раз подтверждают, что включение будущего времени в учебники в начальной стадии обучения логично и приемлемо. В современном французском языке, особенно в живой разговорной речи ближайшее будущее время больше употребляется по сравнению с будущим временем. «Futur proche» выражает действие будущее, непосредственно связанное настоящим. Это ближайшее будущее время во французском языке, которое обозначает должно произойти ближайшем будущем. Это время глагола создаёт благоприятное условие для свободного общения на французском языке.

Rəyçi: prof.Çəmən Babaxanova

SAMİRƏ BABAYEVA
ADPU
Samira.adu.13@gmail.com

SÖYLƏM VƏ KONTEKSTİN SÖYLƏM BÖLGÜSÜ

Açar sözlər: *söz, söz birləşməsi, söyləm, sintaqma, cümlə, kontekst, əlaqə, sintaqmatika*
Key words: *a word, a word combination, a syntagma, a sentence, a context, coherence, syntagmatics.*
Ключевые слова: *слово, словосочетание, синтагма, предложение, контекст, связь, синтагматика, высказывание*

Söyləm anlayışı dilçilikdə müxtəlif şəkildə təyin olunur. Bu terminə münasibət də fərqlidir. Azərbaycan dilinin sintaksisinə aid bəzi mənbələrdə bu termin haqqında məlumat verilmir (1; 2).

Y.Seyidov söz birləşməsi ilə sintaqma arasında müqayisə aparmışdır. O göstərir ki, «sintaqma məsələsi müstəqil mövzu kimi çox da qədim tarixə malik deyildir. Hətta bu haqda nə ümumi dilçilik aspektində, nə də ayrı-ayrı dillərin materialları əsasında müstəqil tədqiqat əsərləri də yazılmamışdır»(3, 66).

Kommunikasiya nəzəriyyəsi, nitq aktları nəzəriyyəsi, koqnitiv dilçilik kimi elmi istiqamətlərdə nitqdə istifadə olunan söyləmlərə fərqli prizmalardan yanaşılmışdır. Söyləm semiotikada və semantikada tədqiqat obyektinə çevrilmiş, onun fonetik semantikada diqqət mərkəzinə çəkilməsinin şahidi oluruq. Bütün bunlar bir daha təsdiq edir ki, söyləm anlayışı və söyləmin linqvistik statusu hələ də dəqiq izahını tapmamışdır. «Söyləm - Müəyyən fikir, anlam ifadə edən ünsiyyət vahidir. Söyləm cümlənin nitqdə reallaşması kimi cümləyə uyğun gələ bilər, habelə cümlənin sxemlərinə sığmaya da bilər. Xüsusilə danışıq dilində söyləm cümlədən daha geniş miqyas alır» [4, 258].

Hər şeydən əvvəl, qeyd etməliyik ki, söyləm və sintaqm/sintaqma eyni anlayış kimi qəbul olunur. F.V.Veysəllinin fikrinə görə, «cümlənin leksemlərdən (sözlərdən) ibarət olması və leksemlərin də (sözlərin) daha kiçik söyləmələrdə -sintaqmlarda qruplaşması artıq qəbul olunmuş aksiomdur. Dilçilik ədəbiyyatında sintaqmın müxtəlif açılışı var. F.de Sössür hər cür dil vahidlərinin sintaqmatik oxda birləşməsini sintaqm adlandırırdı. Şerba məktəbi isə sintaqm danışıq aktında yaranan, fonetik və qrammatik cəhətdən bölünməz konkret məna daşıyan vahid kimi dəyərləndirir. Məsələn, //Dünəndən bəri/ ara vermədən yağan yağış/ yalnız bu gün kəsdi// Göründüyü kimi, cümlə 3 sintaqma bölünür» [5, 167-168].

Söz birləşməsi ilə sintaqmın fərqli vahidlər olduğunu izah edən Y.Seyidov yazır: "Biz sintaqmanı belə başa düşürük: sintaqma cümlə daxilində (nitqdə)

bir-birinin ardınca gələn və bir nəfəsvermə ilə ifadə edilən sözlər qrupudur (bəzən də bircə sözdür). Sintaqmalar xüsusi vurğuya malik olur və bir-birindən pauza ilə ayrılır" (3, 70).

Söz birləşməsi və sintaqmanın fərqi məsələsinə Q.Kazımov da baxmışdır. O da sintaqma anlayışının dilçilikdə müxtəlif şəkildə izah edilməsinə, bəzi müəlliflərin söz birləşmələrini sintaqmlarla qarışdırması məsələlərinə toxunur, sintaqm haqqında geniş yayılmış bir sıra elmi fikirləri diqqət mərkəzinə çəkərək yazır: «Sintaqmın L.V.Şerba tərəfindən izahı fonetik sintaqmlara aiddir. Bu təlimə əsasən sintaqm nitqin məna bütövlüyünə malik ritmik bölümlərindən ibarət olan fonetik vahidlərdir. Sintaktik sintaqmlar haqqında təlim bundan fərqli olub, F.de Sössür, Ş.Balli, V.V.Vinoqradov, F.Mikuş və başqaları tərəfindən hazırlanmışdır [6,39].

Göründüyü kimi, Y.Seyidov da, Q.Kazımov da L.Şerbanın sintaqma haqqındakı fikrini bu və ya digər dərəcədə qəbul edirlər. Y.Seyidov bir nəfəsvermə və xüsusi vurğuya malik olmanı ön plana çəkmişdir. Fikrimizcə, bu məsələ sintaqma üçün mühüm əhəmiyyət daşıyır. Lakin sintaqma və ya söyləm üşün semantik tərəf də nəzərə alınmalıdır. Bir çox hallarda bölgü semantikaya əsaslanmağı da özündə birləşdirir. Y.Seyidovun sintaqmanı təyin etməsi şərtlərinə əsaslansaq, hər hansı nitq parçasını ardıcıl olaraq sintaqmalara ayırmalıyıq. Yəni bu sintaqmalar ardıcıllığından kənarda qalan söz olmamalıdır. Anarın əsərindən götürdüyümüz aşağıdakı parçanı sintaqmlara bölünmüş şəkildə verək: "Stolun üstündə üç növ mürəbbə, iri parçalara doğranmış kəllə qənd, nazik-nazik dilimlənmiş lumu, üç armudu stəkan, bir də bugünkü qəzetlər vardı. Televizor da işləyirdi, amma baxmırdılar. İdman verilişi idi, idmanla bu evdə heç kəs maraqlanmırdı. Fuaddan başqa. Amma Fuad hələ ki, bu evin sakini deyildi.

Fuad salamlaşıb oturduqdan sonra Bilqeyis xanım qalxıb mətbəxə keçdi, dolabı açdı, dairəvi büllur vazada zoğal mürəbbəsi gətirdi. Fuad masa üstündəki üç növ mürəbbədən daha artıq zoğal mürəbbəsini sevirdi və Bilqeyis xanım bunu bilirdi" (Anar. Macal).

Kursivlər sintaqmaları bir-birindən ayırmağa xidmət edir. Birinci sintaqma ilə ikincinin sərhədində duran "üç" sözü ikinci sintaqma ilə birləşə bilir. Bu söz olmadan ikinci sintaqma natamam təsir bağışlayır. Daha doğrusu, növ və mürəbbə sözləri bir-birinə yapışmır. Semantik anlaşmazlıq yaradır. Eyni qayda ilə "stolun üstündə üç" birləşməsi də natamam təsir yaradır. Daha çox "üç" sözünü bu birləşmədən ayırmaq ehtiyacı hiss edilir. Şərti olaraq belə bir cümləyə baxaq: "Stolun üstündə lampa, lampanın yanında kasa, kasanın yanında kibrit vardı". Bu halda biz "stolun üstündə lampa", "lampanın yanında kasa", "kasanın yanında kibrit", "var idi" sintaqmalarını ayıra bilərik. Bir qədər fərqli bir misalı da nəzərdən keçirək. "Stolun üstündə, kitab, kitabın üstündə kasa, kasanın üstündə nimçə var idi". Bu halda da sintaqmalara bölgü oxşar

şəkildə gedəcəkdir. İki cümləni ardıcıl işlətdikdə "kasanın üstündə kibrit" ifadəsi assosiativ olaraq yaranır. Lakin bunun yol verilməz olduğunu (yəni kibrit kasanın üstündə dayana bilməz) göstərən məntiq başqa sözün semantik tam yarada biləcəyini mümkünləşdirir. Biz bir nəfəsvermə şərtini bir kənara qoyaraq, "stolun üstündə lampa var idi", "lampanın yanında kasa var idi", "kasanın yanında kibrit var idi" cümlələr düzəldə bilərik. Bu cümlələrin heç biri bir sintaqma deyildir. Cümlələrdə üçüncü söz sintaqmalara parçalama prosesində ikinci tərəfə keçir. Bölgü belə bir forma alır: "Stolun üstündə/ lampa var idi. Əgər -di şəkilçisindən istifadə olunarsa, sintaqmalara bölgü özünü daha dəqiq göstərir. Cümlədə "idi" sözünün olması "lampa var idi" sintaqmasını əmələ gətirir ki, bu da üç komponentdən ibarət sintaqmadır.

Daha bir məsələnin üstündə durmaq lazım gəlir. Azərbaycan dilçiliyində sintaqm və sintaqma terminləri paralel işlədilir. Terminoloji variativlik istinad prosesində bu yazıda da ifadəsinin tapmışdır. Fikrimizcə, terminin "sintaqma" variantının istifadə olunması daha məqsədəuyğundur.

Söz birləşməsi ilə sintaqma arasında fərqləri bir daha nəzərdən keçirmək lazım gəlir. Əgər söz birləşməsi sintaqma deyildirsə, onda sintaqmaların təyini zamanı söz birləşmələrini sintaqma kimi ayırmaq düzgün olmaz.

Q.Kazımov göstərir ki, "sintaqmlar əlaqə tipindən asılı olaraq fərqlənir və predikativ sintaqmlar, atributiv sintaqmlar kimi növlərə ayrılır. Adətən, binar xarakterdə, yəni ikiüzvlü olur. Sintaqmlar söz birləşmələri ilə oxşar cəhətlərə malik olsa da, əhatə dairəsinə və bəzi xüsusiyyətlərinə görə onlardan fərqləndirilir. Söz birləşmələri sintaktik əlaqə tipinə və əsas komponentin kateqorial səciyyəsinə görə, sintaqmalar isə komponentlər arasındakı sintaktik münasibətlərə, əlaqə tiplərinə görə təhlil edilir. Söz birləşmələrindən fərqli olaraq, sintamların komponentlərini başqa sözlərlə əvəz etmək olur və məna dəyişmir. Bəzi dilçilər söz birləşmələrinin statik keyfiyyətə malik dil faktı olduğunu, sintaqmların isə nitq faktı olmaqla dinamikliyə malik olduğunu qeyd edirlər: söz birləşməsi -özünü mənalı iki vahidin statik-qrammatik birləşməsi kimi göstərən birləşmədir, sintaqm isə sözlərin nitqdə və ya cümlədə aktiv funksiya yerinə yetirən birləşməsidir. Məsələn, Xaçə Ənvər bardaş qurub hökmdarın ayaqları altında, xalçanın üstündə oturdu (Y.Səmədoğlu) - cümləsində hökmdarın ayaqları altında, xalçanın üstündə statik birləşmələr, Xaçə Ənvər oturdu, bardaş qurub oturdu, hökmdarın ayaqları altında oturdu, xalçanın üstündə oturdu birləşmələri dinamik birləşmələr- sintaqmlardır»[6, 39-40].

Burada bir mübahisəli məsələni aydınlaşdırmaq vacibdir. Sintaqmanın söz birləşməsindən fərqlərini qeyd edərkən istər-istəməz biz onları müxtəlif vahidlər kimi ayırırıq. Madam sintaqma söz birləşməsindən fərqlidir, onda sintaqma söz birləşməsi deyildir. Ancaq cümləni ssintaqmalara ayırarkən biz söz birləşməsini də sintaqma kimi götürürük. Əslində, Y.Seyidov bunu dolayısı ilə söyləyir. O,

bir sözün də sintaqma ola bildiyini söyləyir. Madam bir söz sintaqm ola bilirsə, deməli söz birləşməsi də sintaqma olur. Əsas fərq odur ki, sintaqma rabitəli mətndən, daha doğrusu nitqdən götürülür. Nitq kontekstindən seçim olmadıqda sintaqma da yoxdur. Dildə fonem, morfem, söz birləşməsi vahiddir. Bunlar rabitəli nitqdən götülmədən də düzəldilir. Belə bir cümləyə baxaq: «Stolun üstü pəncərənin rəngbərəng şüşələrindən düşən gün işığından əlvan rəngə boyanmışdı». Bu cümləni sintaqmalara ayırsaq stolun üstü, pəncərənin rəngbərəng şüşələrindən düşən, gün işığından, əlvan rəngə boyanmışdı sintaqmalarını alarıq ki, bunlardan birincisi söz birləşməsidir və nitq kontekstindən ayırma nəticəsində sintaqmaya çevrilmişdir. Rabitəli nitqə məhsulunu sintaqmalara ayırdıqda kontekstin bütün ünsürləri sintaqmaların tərkibinə ardıcıl daxil olmalıdır. «Xacə Ənvər bardaş qurub hökmdarın ayaqları altında, xalçanın üstündə oturdu (Y.Səmədoğlu) - cümləsində hökmdarın ayaqları altında, xalçanın üstündə statik birləşmələr, Xacə Ənvər oturdu, bardaş qurub oturdu, hökmdarın ayaqları altında oturdu, xalçanın üstündə oturdu birləşmələri dinamik birləşmələr - sintaqmlardır»»[6, 40]. Sözlərin bir-biri ilə sintaqmatik planda əlaqələnməsi imkan verir ki, Xacə Ənvər oturdu, bardaş qurub oturdu, hökmdarın ayaqları altında oturdu, xalçanın üstündə oturdu kimi birləşmələrin hər birinə sintaqma deyək. Ancaq nümunədə söz düzümü nəticəsində bir sintaktik tam formalaşdırılmışdır: Xacə Ənvər bardaş qurub hökmdarın ayaqları altında, xalçanın üstündə oturdu. Cümlənin üç sintaqması vardır: 1) Xaçə Ənvər bardaş qurub; 2) hökmdarın ayaqları altında; 3) xalçanın üstündə oturdu. Digər şəkildə bölgü, daha doğrusu Q.Kazımovun bölgüsü bir qədər başqa aspektdədir.

Xacə Ənvər oturdu
bardaş qurub oturdu
hökmdarın ayaqları altında oturdu
xalçanın üstündə oturdu

Verilmiş dörd sintaqmanın hər biri predikativ sintaqma şəklindədir. Onların hər birində «oturdu» predikativi istifadə edilmişdir. Bu bölgüdə birinci sintaqma əsas fəaliyyəti və ya nisbi bitmiş fikri ifadə edir. İkinci sintaqmada hərəkətin subyekti çıxarılmış, əvəzində bu subyektin oturma tərzi verilmişdir. Növbəti iki sintaqmada məkan dəqiqləşdirilməsi müşahidə olunur. Cümlə sintaqmalara ardıcıl parçalanırsa, Azərbaycan dilində predikativ son sintaqmanın tərkibinə daxil edilməlidir. O, bütün sintaqmalara daxil etmək düzgün deyildir. Cümlənin predikativ informativ tamlara bölünməsində isə predikativ bütün bölgü vahidlərinə daxil edilə bilər. Əgər cümləni «Xacə Ənvər bardaş qurub hökmdarın ayaqları altındakı xalçanın üstündə oturdu» şəklinə salsaq, onu cəmi iki və ya üç sintaqmaya bölə bilərik:.

I variant:
Xacə Ənvər bardaş qurub

hökmdarın ayaqları altındakı xalçanın üstündə oturdu

II variant

Xacə Ənvər bardaş qurub

hökmdarın ayaqları altındakı

xalçanın üstündə oturdu

Təbii ki, iki və ya üç sintqamaya ayırmanın səbəbi dəqiq deyildir. Məsələ burasındadır ki, «altındakı» söz-forması özündən sonrakı sözü sanki tələb edir.

hökmdarın ayaqları altındakı - nə?

Assosiativ üzə çıxan «nə?» sualı sonrakı sözü (xalçanın) tələb edir. Digər tərəfdən xalçanın söz formasında yiyəlik hal şəkilçisi vardır və bu şəkilçi də «xalçanın nəyi?» sualını doğurur və birləşməni bir qədər də genişləndirmək zərurəti yaranır. Nəticədə «hökmdarın ayaqları altındakı xalçanın üstündə» birləşməsi əmələ gəlir ki, bu da sintaqma təsəvvürü yaradır. Yəni onu sintaqma hesab etmək və ya hesab etməmək mübahisə doğurur. Son sözün- predikativin də bu birləşməyə artırılaraq sintaqmanı tamamlamaq cümlədəki bütün sözləri həm istifadə etmək, həm də predikativ münasibət yaratmaq hissindən irəli gəlir. Təhlil göstərir ki, verilmiş cümləni aşağıdakı şəkildə də sintaqmalara ayırmaq mümkündür:

III variant

Xacə Ənvər bardaş qurub

hökmdarın ayaqları altındakı

xalçanın üstündə

oturdu

Qeyd olunanlar cümlənin sintaqmalara bölünməsinin konkret meyarlarının hələ ki, dəqiq müəyyənləşdirilmədiyini təsdiq edir. Q.Kazımova görə, «sintaqmın xarakter əlamətləri aşağıdakılardır:

-sintaqm binar xarakterdə (iki üzvlü) olub, mütləq özündə iki üzvü birləşdirir;

-sintaqmın bu və ya digər üzvü başqa sintaqma da aid ola bilər;

- sintaqmlar komponentləri arasında tabelilik əlaqəsinin olması ilə xarakterizə edilir. Gənc həkim xəstəni diqqətlə müayinə etdi-cümləsində: gənc həkim, həkim müayinə etdi, xəstəni müayinə etdi, diqqətlə müayinə etdi kimi sintaqmlar vardır. Bunlardan birincisi atributiv əlaqə, ikincisi predikativ əlaqə, üçüncüsü obyekt əlaqəsi, dördüncüsü relyativ əlaqə əsasında qurulmuş sintaqmlardır. Göründüyü kimi, qeyd etdiyimiz sintaqmların hamısı ikiüzvlüdür və tabelilik əsasında qurulmuşdur: həkim sözü iki, müayinə etdi sözü üç sintaqmın tərkibində iştirak etmişdir. Əhatə dairəsinin genişliyi ilə də sintaqmlar söz birləşmələrindən fərqlənir. Bu sintaqmlardan yalnız biri (gənc həkim) sintaktik birləşmələrlə eynidir. Predikativ birləşmələri də əhatə etməsi və cütüzvlü olması ilə sintaqmlar söz birləşmələri çərçivəsindən kənara çıxır» (6, 40).

Belə bir cümləyə baxaq: «Fuad, Şövqi Camaloviçin kürəkəni olmaq istəyən Fuad divanda oturmuşdu». Aydındır ki, sintaqmalara bölgüyə Q.Kazımovun irəli sürdüyü əlamətlər kimi yanaşsaq təqribən aşağıdakı bölgünü alacağıq:

Fuad oturmuşdu
Divanda oturmuşdu
Şövqi Camaloviçin kürəkəni
Şövqi Camaloviçin kürəkəni olmaq istəyən oturmuşdu
Şövqi Camaloviçin kürəkəni olmaq istəyən Fuad oturmuşdu
Şövqi Camaloviçin kürəkəni olmaq istəyən divanda oturmuşdu
Şövqi Camaloviçin kürəkəni olmaq istəyən Fuad divanda oturmuşdu

Göründüyü kimi, bu halda sintaqmaların sayını kifayət qədər artırmaq olur. Nəticədə sintaqmaların təyini ilə bağlı mübahisə doğuran məsələlərin sayı da artır. Bütün bu cəhətlər sintaqmaların təyini məsələsində dəqiqliyin və konkretliyin olmadığını göstərir. Bunu müxtəlif dilçilərin bu məsələ ilə bağlı tədqiqatlarında da görmək olur.

Ə.Abdullayev cümlə və söyləm nəzəriyyələrinin qarşılaşdırılmasındaİ.P.Raspopova istinadla qeyd edir ki, kommunikativ məzmunla müxtəlif sintaktik vahidlər yalnız qrammatik planı deyil, həmçinin aktual üzvlənmə planının əksetdirmə xüsusiyyətinə malikdir. Müəllif bu qənaətə gəlir ki, «dəyişən kommunikativ vəzifəyə uyğun olaraq cümlənin aktual üzvlənməsinin variasiyası və dəyişən şəraitdə qrammatik üzvlənmənin dəyişməz şəkildə qalması cümlədə onların hər ikisinin eyni vacib rol oynadığını təsdiq edir» [7, 79].

Beləliklə, aydın olur ki, sintaqmalara münasibətdə dilçilikdə hələlik kifayət qədər dərindən aparılmış, mübahisəli cəhətləri aradan qaldıra biləcək tədqiqat işləri, demək olar ki, yoxdur. Fikrimizcə, bu məsələnin həlli, ilk növbədə, nəyin sintaqmalara ayrılmasını, sintaqmalara ayırmanın mahiyyətini, bölgü zamanı mümkün ardıcıllığın təyin olunmasını tələb edir.

ƏDƏBİYYAT

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, Maarif, 1972.
2. Müasir Azərbaycan dili. III s. Sintaksis. Bakı, Elm, 1981.
3. Seyidov Y. Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı, Maarif, 1966
4. Adilov M.I., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı, Maarif, 1989
5. Veysəlli F.Y. Dilçiliyin əsasları. Bakı, Mütərcim, 2013.
6. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, Ünsiyyət, 2000.
7. Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs. Bakı, "Zərdabi LTD", 2011, 272 s.

SAMIRA BABAYEVA

STATEMENT AND CONTEXT DIVISION INTO UTTERANCES

SUMMARY

The article studies the relation to the appointment of the concept "statement" which is a controversial issue to the subject of research in the modern linguistics.

In the course of research process we understand that the division of the coherent speech of the product "statement" is made in different ways depending on the criteria and attribute definitions for the phrase. In most cases not all the elements of the statement are taken into account in determining the utterance context.

In the analysis an unambiguous clarification of the need to include a used unit in the context to the few statements is being revealed.

САМИРА БАБАЕВА

ВЫСКАЗЫВАНИЕ И РАЗДЕЛЕНИЕ КОНТЕКСТА НА ФРАЗЫ

РЕЗЮМЕ

В статье исследуются отношение к назначению понятия высказывание которое как спорный вопрос является объектом исследования в современной лингвистике, разные точки зрения к разделению предложения или контекста на высказывания. В ходе исследовательского процесса мы понимаем, что разделение связного речевого продукта на высказывания производится по-разному, в зависимости от критерии и признаков определения фразы.

В большинство случаев в определении высказывания учитываются не все элементы контекста. В ходе анализа обнаруживается однозначное уточнение необходимости включения использованной в контексте единицы в состав нескольких высказываний.

Rəyçi: prof. Əfqan Abdullayev

YELENA İBRAHİMOVA
ADU

ZAMAN BUDAQ CÜMLƏSİNİN MƏTNYARADICI XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *Zaman, temporallıq, nitq zamanı, linqvistik zaman, dil vahidləri.*
Key words: *Время, темпоральность, речевое время, лингвистическое время, языковые единицы.*
Ключевые слова: *Time, temporality, speech time, linguistic time, linguistic units.*

Temporallığın sintaktik-semantik səviyyədə ifadəsi daha geniş funksional imkanlara malikdir. Burada əsas diqqət zaman budaq cümlələri və başqa sintaktik vahidlərin temporallıq ifadə etməsinə yönəlir. Bu, cümlələri bir-birinə bağlayan temporal münasibətdir.

Temporallığın zaman budaq cümlələri şəklində ifadə edilməsi dünyanın bütün dillərinə aid universal cəhətdir. Bununla belə, burada dillərin özünəməxsusluğu özünü göstərir. Qeyd edək ki, Hind-Avropa dillərində (ingilis, alman, rus, fars və s.) zamanın budaq cümləsi şəklində ifadə edilməsi türk dillərinə nisbətən ətraflı yayılmışdır. Bir qədər irəlidə biz bu barədə daha geniş dir qədər irəlidə biz bu barədə daha geniş danışacağıq.

Qeyd etmək lazımdır ki, son tədqiqatlar cümlənin təhlilinə çoxsəviyyəli yanaşma ilə səciyyələnir. Cümləyə forma və məzmunun vəhdəti kimi baxan dilçilər cümlənin səviyyələrinin ayrılıqda təsvirinin onun təbiətinin daha dərindən dərk edilməsi vasitəsi olduğunu bildirir. Bunlar arasında, əsasən üç aspekt – struktur (formal), semantik (məzmun) və kommunikativ (funksional) aspektlər ayrılır və həmin aspektlər dil işarəsinin üç tərəfini (forma, məna və işlənmə) əks etdirir.

Tədqiqata cəlb etdiyimiz mürəkkəb cümlələr öz struktur xüsusiyyətlərinə görə baş bə budaq cümlələrdən ibarətdir. Onlardan hər biri aydın şəkildə təzahür edən subyekt – predikat strukturuna malikdir və asılı hissə zaman zərfliyi funksiyasını yerinə yetirir [4, 72].

Zaman budaq cümləli mürəkkəb cümlənin struktur xüsusiyyətləri onun semantik mahiyyətini şərtləndirir. Həmin cümləyə daxil olan strukturların semantik mahiyyəti onların, işarə etdikləri situasiyalar arasında zaman əlaqəsini əks etdirmələrindədir. Bu sintaktik vahidlərin çoxkomponentli olması ilə bağlı, onların temporal potensialı bir sıra temporal baxımdan relevant elementlərin qarşılıqlı təsirindən yaranır. Həmin elementlərə zaman bağlayıcısının leksik-

qrammatik mənası, zaman budaq cümləli strukturun hər iki hissəsindəki fel-xəbərin tərzi, zaman formalarının kateqorial qrammatik mənası, konkret dil və qeyri-dil təzahürlərinə malik ola bilən praqmatik amillər aidddir.

Mətndə yerinə yetirdikləri funksiyaya görə zaman budaq cümlələri artıq nəzərdən keçirdiyimiz zaman zərflərinə sintaktik və semantik baxımdan oxşarlıqları ilə səciyyələnir.

1) Sintaktik baximdan zaman budaq cümlələri zaman zərfliyidir və təhkiyə müstəvisində baş cümlədəki hərəkətin temporal yerləşdirilməsi funksiyasını yerinə yetirir. Zaman zərfləri ilə zaman budaq cümlələri arasında fərq ondan ibarətdir ki, zaman budaq cümlələri həmin funksiyanı birbaşa deyil, bas cümlə ilə qarşılıqlı asılılıq şəraitində yerinə yetirir.

2) Semantik cəhətdən zaman budaq cümlələri baş cümlədəki hərəkətin temporal yerləşdirilməsinin çərçivəsini dəqiqləşdirir, səciyələndirir və yaxud təsvir edir, lakin onu adlandırmır.

Ümumiyyətlə, zaman budaq cümləli strukturlar mətndə temporallığı ifadə edən əsas vasitələrdən biridir və təhkiyənin potensial komponentləridir. Qeyd etmək lazımdır ki, bu strukturlara daxil olan hissələrin işarə etdikləri hadisələr arasında mövcud zaman münasibətləri, ilk növbədə, bağlayıcılarla göstərilir. Təhlil olunmuş strukturlar universallıq, yəni zaman münasibətlərinin bütün mümkün növlərini ifadə etmək qabiliyyəti ilə səciyyələnir. Hər iki hadisə zamanı bu hadisələrin təsvir etdikləri situasiyanın referensial ümumiliyi, o cümlədən hərəkətin subyektinin və yaxud obyektinin, məkan yerinin və digər parametrlərin ümumiliyi qeyd edilir.

1.Zaman budaq cümləsindəki hərəkət baş cümlədəki hərəkət ilə eyni zamanda cərəyan edir və budaq cümlədəki hərəkətin zaman məsafəsi minimal interval və yaxud zaman müstəvisində bir nöqtə kimi müəyyən olunur. Məsələn:

He was sitting there, his arm hanging, when the boat passed them coming back up the channel. [E. Hemingway 5, 62]

Və:

Kino was in mid-leap when the gun crashed and the barrel-flash made a picture on his eyes. [J. Steinbeck 7, 79]

2.Baş və budaq cümlələrdə hərəkət paralel olaraq cərəyan edir və onların zaman intervalları tam üst-üstə düşə bilər. Məsələn:

When he was in a boat he always felt good and without his boat he felt plenty bad. [E. Hemingway 5, 75]

3.Baş və budaq cümlələrdə hərəkət təqribən eyni zamanda baş verir; hərəkət zamanın baş verməsinin nisbiliyi burada praqmatik komponentlə, əsasən ekstralinqvistik təcrübə və situasiya ilə nizamlanır. Məsələn:

When it comes they will sail to another yacht basin and write another saga. [E. Hemingway 5, 176]

4. Baş və budaq cümlələrdə hərəkətin cərəyan etməsi üçün zaman dövrünün ümumiliyindən başqa hadisələr arasında heç bir digər referensial əlaqəliliyin müşahidə edilmədiyi hallar da mövcuddur. Misal üçün:

The night seemed a little less dark when she looked out, and to the last there was a lightning in the sky, down near the horizon where the moon would show. [J. Steinbeck 7, 76]

5. Zaman budaq cümləli strukturda hadisələrin sürətli əvəzlənməsi münasibəti mövcuddurr, yəni baş cümlədəki hərəkət budaq cümlədəki hərəkətdən dərhal sonra cərəyan edir. Məsələn:

There wasn't much in it, and when I'd finished it, I opened up the only one I had left, and I tell you I felt pretty good steering, and it was a pretty night to cross. [E. Hemingway 5, 50]

6. Baş cümlədəki hərəkət budaq cümlədəki hərəkətdən öncə cərəyan edir. Məsələn:

When I came on board I had just forty cents left. [E. Hemingway 5, 25]

7. Baş cümlədəki hərəkət budaq cümlədəki hərəkətdən sonra baş verir. Məsələn:

When I started out he woke up and went back to sleep again. [E. Hemingway 5, 37]

Və:

When I finished I stopped in at Donovan's and had a beer and talked with the old man and then walked back to the San Francisco docks, stopping in at three or four places for beer on the way. [E. Hemingway 5, 25]

Zaman budaq cümləsində iştirak edən bağlayıcılar mətnin temporallığının təzahürlərindən biridir və həmin budaq cümlənin təsvir etdiyi situasiyanın temporal lokalizasiyası funksiyasını yerinə yetirir. Mətnin strukturlaşması iki səviyyədə - cümlə (baş/budaq) səviyyəsində və cümlələr ardıcıllığı səviyyəsində həyata keçdiyi ilə bağlı temporal lokalizasiyanın zaman budaq cümləsi kimi vasitələri mətndə temporal ardıcıllığın təmin olunmasında iştirak etməklə yanaşı, daha geniş semantik münasibətləri də formalaşdırır. Məsələn, T.Qivon budaq cümlələrin baş cümləyə münasibətdə yerləşmələrindən asılı olaraq onların müxtəlif semantik rollarını qeyd edir. [3, 136] Belə ki, "postpozisiyada" kı budaq cümlələri baş cümlənin semantik strukturuna daha dərindən inteqrasiyaya meyilli olduğu halda, "prepozisiya" mövqeyində onlar daha çox əvvəlki kontekstlə əlaqədədirlər. Və əksinə olaraq, prepozisiyada yerləşən budaq cümlələr əvvəlki kontekstlə daha çox əlaqə nümayiş etdirirlər. Bu müddəalar, həmçinin, V. Ramseyin "when" bağlayıcılı zaman budaq cümlələrin funksiyalarının tədqiqində də göstərilir. [6, 149] Həmin budaq cümlələrin prepozisiyada mövqeyi onların daha çox əvvəlki kontekstlə əlaqələrinin olmasını aşkarlayır. "When" bağlayıcısı ilə birgə zaman budaq cümlələrinin prepozisiyada işləm məqamlarına nəzər salaq:

The supper waited until dark for his father to return. When at last he came in with Billy Buck, Jody could smell the delicious brandy on their breaths.

[J. Steinbeck7, 92]

"When at last he came in with Billy Buck" budaq cümləsi əvvəlki cümlə ilə şam yeməyi ətrafında cərəyan edən eyni bir mövzunun ardıcıl açılması təsviri ilə bağlıdır və ümumi konteksti formalaşdırır:

Digər misalı nəzərdən keçirək:

I got his arm around behind him and came up on it but I brought it too far because I felt it go. When it went he made a funny little noise and came forward me holding him throat and all, and bit me in the shoulder. [E. Hemingway 5, 45]

Burada da "when" bağlayıcısının zaman budaq cümləsinin "When it went" əvvəlində işlənməsi ümumi mətn çərçivəsində əvvəlki kontekstlə bağlılıq nümayiş etdirir.

"When" bağlayıcısı ilə yanaşı "while" bağlayıcısı da mətndə analoji temporal funksiya daşıyır:

And he had known a horse paralyzed with fright to come out of it when his rider told him what it was that was frightening him. While he talked in the mornings, Billy Buck cut twenty or thirty straws into neat three-inch lengths and stuck them into his hatband. [J. Steinbeck 7, 99]

Analoji olaraq prepozisiyada yerləşən artıq "while" bağlayıcısının iştirak etdiyi "while he talked in the mornings" zaman budaq cümləsi də eyni funksiyanı yerinə yetirir, yəni bütöv mətnin struktur cəhətdən formalaşmasına xidmət edir.

Maraqlıdır ki, postpozisiyadakı zaman budaq cümləsi bilavasitə baş cümlə ilə bağlıdır, yəni burada lokal əlaqəlilik eyni cümlə çərçivəsində cərəyan edən iki hadisə arasında mövcud olur. Məsələn:

What we have to do is to use the boat to chase them so they don't take it all when they make their run. [E. Hemingway 5, 19]

Bu mətndə iki komponent "when they make their run" sanki birinci komponentin açılışına xidmət edir və "when" bağlayıcısı burada əsas rol oynayır.

Digər misalda:

Carl Tiflin still drove her to a light cart, and she pulled on a hay rake and worked the Jackson-ford tackle when the hay was being put into the barn.

[J. Steinbeck 7, 152]

Analoji olaraq "when the hay was being put into the barn" komponenti əvvəlki komponentin açılışına xidmət edir.

Nəhayət, zaman budaq cümlələri də təhkiyəli mətndə ardıcıllıq göstəriciləri kimi çıxış edə bilər. İngilis dilində buraya, ilk növbədə, "when" bağlayıcılı budaq cümlələri misal gətirmək mümkündür.

Bu sahədə tədqiqat aparmış M. Salkova "when" bağlayıcılı zaman budaq cümlə strukturlarının mətndə bir neçə növ temporal münasibət ifadə etdiklərini bildirir. Burada əsas diqqət baş cümlə ilə zaman budaq cümləsi arasındakı qarşılıqlı əlaqəyə yönəlir. Məsələn, mətndə hadisələr axarı tezliklə dəyişərkən, budaq cümlədəki hərəkətdən dərhal sonra baş cümlədəki hərəkət baş verir:

Suddenly Nellie jewrked back and nearly freed herself. From the direction of the barn Jody heard a shrill whistling scream and a splintering of wood, and then a man's voice shouting. Nellie reared and whinnied. When Jody help to the halter rope she ran at him with bared teeth. He dropped his hold and scuttled out of the way, into the brush. [J. Steinbeck 7, 145]

Burada komponentlərin zaman ardıcıllığına "when" budaq cümləsi bilavasitə təsir edir. Ardıcıllıq baş cümlə budaq cümlədən öndə yerləşəndə də təmin oluna bilər:

You see what has become of him. And I myself saw the moment when his reason left him. [J. Steinbeck 7,26]

Qeyd etmək lazımdır ki, zaman budaq cümlələrinin prepozitiv və postpozitiv mövqeyi ilə yanaşı baş və budaq cümlələr arasında durğu işarələrinin işlənməsinin də bütöv mətndə zaman ardıcıllığını təmin etmək kimi rolu var. Bu, zaman budaq cümlələrinin hər iki mövqeyi üçün səciyyəvidir. Məsələn:

Simon began to feel a little sick in the stomach. It reminded him of the day he had been interviewed at Coventry Central nearly eight years before. Now that he was a minister of the Crown he wasn't any less nervous.

When he and Elithabeth returned to constituency headquartes they were informed that only two more Candidates had been seen and the third was still being interviewed. They walked around the town once again, even more slowly this time, watching the shopkeepers put up their colored shutters and turn "Open" signs to "Closed". [J. Archer 2, 170]

Və:

How Charles dreaded the moment when he would be standing there watching his brother Rupert in ermine. The only compensation would be if he could produce a son who would one day inherit the title, as it was now obvious Rupert would never marry. [J. Archer 2, 132]

Nümunələr həm prepozisiyada "when he and Elithabeth returned to constituency headquarter" və həm də postpozisiyada yerlşən "when he would be standing there watching his brother Rupert in ermine" zaman budaq cümlələrinin nəzərdən keçirilən mətnləri irəliyə doğru apardığını göstərir. Söhbət cərəyan edən hadisənin yeni vəziyyətə keçməsindən və beləliklə, təhkiyə

boyu irəliyə doğru hərəkət etməsindən gedir. Bu hərəkətin aydın şəkildə görünməsi əlavə durğu işarələrinə ehtiyacın olmamasını şərtləndirir.

Mətndə baş və budaq cümlələrdəki hərəkətin eyni zamanda baş verməsi isə əksinə vergül ilə işarələnir. Müqayisə edin:

As the first weeks of the new Tory administration took shape, Simon and andrew became locked in battle over several issues and were soon known as "the mongoose" and the rattlesnake. When either of the names "Kerslake" or "Fraser" was cranked up on the oldfashioned wall machines indicating one of them had risen to speak, members drifted back into the Chamber. [J. Archer 2, 133]

Və:

Jody stayed a little while running his fingers over the red rough coat, and then he took up the lantern and went back to the house. When he was in bed, his mother came into the room. [J. Steinbeck 2, 112]

Həmçinin:

The Financial Times went one better than its rivals. Its political editor, Peter Riddel spent the whole week trying to contact the 289 Tory members. He succeeded in reaching 228 of them and was able to report to his readers that 101 had said they would vote for Simon Kerslake, ninety-eight for Charles Seymour, while twenty-nine had refused to give any opinion. [J. Archer 2, 430]

Bu nümunələrdə mətnin informativ təşkili vurğu işarələrinin vasitəsilə eynizamanlılıq əsasında təmin olunur.

Eynizamanlılıq əlaqəsi durğu işarələrindən istifadə etmədikdə də yaranır:

I saw both of them shot and father said, "Viva la Republica", when they shot him standing against the wall of the slaughter house of our village.

[E. Hemingway 5, 309]

Temporal birliyin eynizamanlılıq ilə ifadəsi "while"bağlayıcısının iştirak etdiyi zaman budaq cümlələrində "when" bağlayıcısı olan strukturlardan daha qabarıq şəkildə görünür. Məsələn:

The other night I was thinking about Madrid and I thought how I would get there and leave thee at the hotel while I went up to see people at the hotel of the Russians. (E. Hemingway 5, 302)

İnterpozisiyada yerləşən zaman budaq cümlələrinin maraqlı mətnyaradıcı funksiyası müşahidə edilir:

When Andrew heard his own voice on Radio Four one morning answering questions on defonse issues he was suddenly aware that what he had always considered was a faint trace of a Scottish accent was in fact when he was angry or excited-quite pronounced. [J. Archer 2, 298]

Burada zaman budaq cümləsinin interpozisiyada yerləşməsi mətnin komponentləri arasında temporal münasibətlərin səbəb-nəticə münasibətləri ilə həmahəng büruzə verilməsinə şərait yaradır. Tire işarəsindən istifadə isə mətndə

haqqında söhbət gedən obyektin emosional vəziyyətini göstərmək, yəni ekspressiv məqsəd üçün nəzərdə tutulur.

ƏDƏBİYYAT

1. Məmmədov A. Y. Mətn yaranmasında formal əlaqə vasitələri sistemi. Fil. elm. nam. Dis. Avtorefer. Bakı, 2003. 54 s.
2. Archer J. First among equals. Harper Paperbacks. New York 1984, 483 p.
3. Givon T. Syntax: a functional – typological introduction. Amsterdam, 1990. 486 p.
4. Harkness J. Time Adverbials in English and Reference Time // essays on Tensing in English / Ed. By A. Schop /. Tubingen: Niemeyer, 1989 –p. 110.
5. Hemingway E. To have and have not. Panther Books. 1977, 191 p.
6. Ramsay V. The Functional distribution of preposed and postposed "if", and "when" clauses in written discourse // Coherence and grounding in discourse // Amsterdam – Philadelphia, 1984. P. 175-186
7. Steinbeck J. The Pearl. The Red Pony. Penguin Books, 1976, 181 p.

IBRAHIMOVA YELENA

TEXT-PRODUCTIVE FEATURES OF TIME CLAUSE

SUMMARY

The paper relates text-productive features of time clause. It is noted that the time in a language belongs to such categories by which some relationship is set up between linguistic and extralinguistic activities of a human being. The time relates to such categories that not only are described by means of language, but appear in the language itself, its vocabulary and grammatical structure. At the same time, this article provides references to the opinions of scientists such as A. Mammadov, T.Desherieva, M.Makovsky, and Y.Karaulov. With reference to the linguistic time M.Makovsky recommends to distinguish two features. The author considers the linguistic time in terms of diachronic study of linguistic units. The paper further provides the analysis of notions such as linguistic time and grammatical tense. At the same time, we tried to back up our thoughts with the examples taken from the works of such writers as E.Hemingway, J.Steinbeck, J.Archer.

ИБРАГИМОВА ЕЛЕНА

ТЕКСТООБРАЗУЮЩИЕ ОСОБЕННОСТИ ПРИДАТОЧНОГО ПРЕДЛОЖЕНИЯ ВРЕМЕНИ

РЕЗЮМЕ

В статье речь идет о текстообразующих особенностях придаточного предложения времени. Отмечается, что в языке время относится к таким категориям, с помощью которых между лингвистической и экстралингвистической деятельностью человека устанавливается связь. Время входит в ряд таких категорий, которые не только описываются посредством языка, но и проявляются в самом языке, его словарном составе и грамматическом строении. В тоже время в статье даются ссылки на высказывания ученых-лингвистов А. Мамедовой, Т.Дешериевой, М.Маковского, Ю.Караулова, М.Маковский, ссылаясь на лингвистическое время, рекомендует проводить различие между двумя особенностями. Автор рассматривает лингвистическое время с точки зрения диахронного изучения языковых единиц. Далее в статье дается анализ таких понятий, как грамматическое время и лингвистическое время. В то же время, мы старались подкрепить наши мысли примерами, взятыми из произведений таких писателей, как Э.Хемингуэй, Дж.Стейнбек, Дж.Арчер.

Rəyçi: prof. M.Y. Qazıyeva

FİRƏNGİZ PƏNAHOVA
XALİDƏ ZEYNALOVA
AzTU
firəngiz-xalidə.@.mail.ru.

İNGİLİS DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ PROSESİNDƏ LEKSİK-SEMANTİK UZLAŞMALAR

Açar sözlər: *ingilis dili, semantika, Azərbaycan dili, uzlaşmalar, tərcümə.*
Ключевые слова: *английский язык, семантика, азербайджанский язык, координация перевод*
Key words: *English, semantic, Azerbaijani, agreement, translation.*

Mətndə ifadə olunan referensial mənaların verilməsi zamanı məna tərcüməsinin uyğun olmaması tərcüməçinin əsas rastlaşdığı problemdir.

Məna vahidləri – morfemlər,sözlər,sabit söz birləşmələri – öz referensial mənaları ilə tam həcmdə uyğun olan 2 müxtəlif dil yoxdur.

Bunu xüsusən 2 müxtəlif dillərin - azərbaycan və ingilis söz tərkibinin materialları əsasında nümayiş etdirmək olar.

2 dilin leksik vahidləri arasında semantik uyğunlaşmaların bütövlükdə 3 əsas tiplərə aid etmək olar.

1) Tam uyğunlaşma

,2)Qismən uyğunlaşma,

3)Uyğunlaşmanın olmamağı

Bu 3 tiplərə ayrı-ayrılıqda baxaq,tərcümənin nəzəriyyəsi və təcrübəsi üçün xüsusi maraq və çətinlik təşkil edən, 2 sonuncu tipi nəzərdə tutmalıyıq.

Müxtəlif dillərin leksik vahidlərinin referensial mənası ilə bütöv həcmdə tam uyğulaşması halları nisbətən azdır.

Bu sözlər birmənalıdır, yəni 2 dildə ancaq bir leksik mənası var: onların sayı dilin leksikonunda olan ümumi söz cümləsi ilə müqayisədə nisbətən azdır.

Bura aşağıda göstərilən leksik qrupa məxsus olan sözlər aiddir.

1) Xüsusi və coğrafi adlar :
2) Norman – Nomon,Moskva – Moscow,Polşa – Poland
3) Elmi və texniki terminlər,məs
4) :Loqaritm – logarithm,
5) Hidrogen – hydrogen

Proton – proton,Ekvator – equator,Voltmetr – voltmeter

6) Verilmiş 2 sözün semantikasına yaxın olan bəzi qrup sözlər,əksər ayların adı il\ə bağlıdır:

Məs : Sentyabr – september,Oktyabr – october,Noyabr – november

Bura say kimi özünə məxsus söz qrupu aiddir : milyon – million

Elə düşünmək olmaz ki,yuxarıda verilən qrupların bütün sözləri tam uyğunlaşmalar cərgəsinə aiddirlər.

Belə ki,əksər hallarda sözlər – terminlər çoxmənalılıqla xaraktertizə olunurlar və başqa dildə bir yox,bir neçə uyğunluqları var.İngilis termini – power – fizikada - güc,qüvvə,enerji ; - riyaziyyatda isə həmçinin dərəcə - mənalarını daşıyır.

Xüsusən texniki terminologiya fərqlənir ; belə ki,azərbaycan termini "kamera"–ingilis dilində chamber,compartent,camera (fotoaparat),tube (təkərin kamerası),cell (həbsxanada kamera – otaq).

Bir ölkəyə aid olan nadir və yaxud az məşhur olan adlar adətən birmənalı və tam uyğun olurlar. Məs: Oxlu kirpi – porcupine; Qızıl qaz – flamingo.

Lakin yaxşı tanınınmış heyvanların adları nəyinki zooloji terminlərə,hətta ümumi işlənən leksikaya daxildirlər və bununla çoxmənalılıq qazanırlar.

Məs : ingilis sözü "tiger" - "pələng" mənasından savayı bu mənaları daşıyır.Qəddar insan,təhlükəli rəqib,davakar,xuliqan,dələduz.

Nadir hallarda 2 dildə çoxmənalı sözlərdə tam uyğunluğa rast gəlmək olar.Belə ki,azərbaycan sözü "şir" ingilis sözü "lion" kimi bu mənaları daşıyır :

1) nəhəng yırtıcı heyvan;

2) məşhur,dəb qoyan adam ;

3)bürc və zodaik işarəsi.

Çox geniş yayılmış hallardan biri də 2 leksiki vahidlərinin müqayisədə uyğunluğudur.Hər dildə sözlərin böyük əksəriyyəti çoxmənalılıqla xarakterizə olunur,bununla belə bir dildə sözün mənalarının sistemi,adətən başqa dilin mənalar sistemi ilə tam uyğun olmur.

Belə də müxtəlif hallar müşahidə olunur.Hərdən sözün məna dairəsi başqa dildə olan həmin sözün məna dairəsində də geniş olur.

Belə ki, azərbaycan dilində "xasiyyət" ingilis "character" ilə belə məna kəsb edir.

1) İnsanın psixoloji xüsusiyyətlərinin cəmi

2)Möhkəm iradə,məqsədə çatmaqda iradə

3)Xüsusiyyət,keyfiyyət,nəyin isə orijinallığı

İngiliscə "character" – də elə bir məna var ki,o azərbaycan sözündə yoxdur və azərbaycan dilində ayrı sözlərlə verilir.

4)ad,şöhrət;

5) yazılı zəmanət,xarakteristika;

6) fərq,cizgi,əlamət, keyfiyyət;

7) məxsusiyyət; 8) ədəbi obraz, qəhrəman, pyesdə iştirak edən şəxs; 9) çap işarələri, hərf, simvol.Geniş yayılmış hallardan biri də odur ki, 2 söz həm uyğun,həm də uyğun olmayan mənalar daşıyır.

Belə ki,azərbaycan sözü "masa" və ingilis sözü "table" ancaq mebel əşyası mənasında uyğundurlar,lakin başqa mənalarda fərqlənirlər: azərbaycan dilindəki masa sözünün "təam,qida" ("masa və mənzil", "pəhriz masası") və "müəssisə",dəftərxanada şöbə (məs. tapıntı masası,pasport masası) kimi mənaları var.Hansı ki,ingilis "table" sözündə yoxdur və ingilis dilində bu mənalar belə sözlərlə ifadə olunurlar: board,food cooking,diet and office,department.

O biri tərəfdən isə ingilis dilində "table" sözü elə bir mənalar daşıyır ki,bunlar azərbaycan dilində yoxdur və onlar belə sözlərlə verilirlər : lövhə,pilətə,cədvəl,dağ yaylası və.s.

Bir qədər başqa hallar o zaman olur ki, 2 söz müxtəlif dillərdə öz referensial mənaları ilə uyğunlaşırsa,demək bu dillərin birində elə söz var ki,verilmiş anlayış növlərini təyin edir,amma başqa dildə belə bir söz olmur.Belə ki, "mebel əşyası" mənasını daşıyan azərbaycan sözü "masa" və ingilis sözü "table" tam uyğunlaşırlar,lakin masanın müxtəlif növlərindən biri olan "yazı masası" sözünü təyin etmək üçün ingilis dilində "desk" sözü var,o zaman ki,azərbaycan dilində bu anlayış üçün söz birləşməsi – yazı masası işlətmək lazım olur.

Azərbaycan sözü "ev" ingilis sözü "house" "bina" və "sülalə" mənalarında uyğundurlar.(məs. Romanovlar evi,- the House of Romanovs),lakin ayrı mənalarda uyğun gəlmirlər: azərbaycan sözü ev,ocaq,yaşayış yeri mənası var,bu da ingilis sözü "home" la uyğun gəlir,həmçinin "müəssisə,idarə" mənası var,o da tərcümə olanda kontekstə baxılır :

1) uşaq evi – children's və ya orphanage
2) 2)ticarət evi – commercial firm
3)islahat evi (yeri) – reformatory
4)oyun evi – gambling house və ya casino
5)dəlixana – lunatic aslyum

İngilis sözü "house"-un bir çox mənaları var ki,onlar azərbaycan sözü "ev"-də yoxdur.Məs. parlament palatası (the House of commons).Bir qədər ayrı xarakter daşıyan hallar var ki,onları başqa dillə müqayisədə bir dildə mənanın qeyri diferensiallığı adlandırmaq olar.

Belə ki,azərbaycan dilində "əl və qol" sözü var,ona da ingilis dilində 2 söz uyğun olur- arm və hand,onlar da özlüklərində daha dar məna daşıyır: "arm" – yuxarı ətraf-çiyindən biləyədək,hand isə-bilək.Lakin azərbaycan sözü "əl" bütöv ətraf deməkdir.

Analoji olaraq azərbaycan sözü “ayaq”da bütöv aşağı ətrafda ingilis dilinin 2 sözü uyğundur-leg-ayaq,pəncə istisna etməklə və “foot”-pəncə.

Azərbaycan dilində “barmaq” sözünə insan bədəninin hissəsi mənasına ingilis dilində 3 söz uyğundur.“finger”-əldə barmaq “thumb”-əldə baş barmaq və “toe”-insanların və heyvanların ayaqlarında barmaq.

Belə analoji misallar çox gətrmək olar.

Saat {watch,clock,alarmclockYorğan {blanket,quilt

Dan {dawn,evening glow,sunsetVelosiped {bicycle,tricycleYeməkxana {dining-room,mess,canteen,refectorySıyıq {porridge,gruel,Rahat {comfortable,convenient

İmtina etmək {abstain,Özünü saxlamaq {refrain

Ayrı hallarda,azərbaycan sözləri ilə müqayisədə semantik cəhətdən diferensiya olunmayan ingilis sözləri var.

Stove{soda,pilətə(mətbəx),Cold {zökəm,soyuqlama,Cherry{albalı,gilas

Strawberry{bağ çiyələyi,meşə çiyələyi,Story{hekayə,povest,Poem{şer,poema

Blue{mavi,göy,Stale{boyat,ağır hava,To wash{qab yumaq,paltar yumaq

To draw{aralamaq)

Qeyd etmək lazımdır ki,söhbət sözlərin çoxmənalılıqlarından getmir demək olmaz ki,azərbaycan sözləri əl və ayaq-ın 2 mənası var və yaxud ingilis cherry-nin 2 müxtəlif albalı və gilas mənasını daşıyır.Yuxarıda qeyd olunmuş halda bu sözlərin ancaq 1 mənası var,lakin bu mənanın həcmi ayrı dildə olan uyğunlaşmalardan fərqli olaraq bütövlüklə genişdir.

Tərcümə üçün çoxmənalılıq kimi, belə hal o mənada, çətinlik törədir ki, semantik cəhətdən diferensial olmayan sözün verilməsi zamanı,mümkün olan uyğunluqlar arasında seçim aparmaq lazımdır.

ƏDƏBİYYAT

1. O.I.Turksever, E.I.Hajıyev, A.R.Huseynov. «A Practical Grammar of Contemporary English», Bakı-Qismət. 2009.
2. Y.seyidov. «Azərbaycan dilinin qrammatikası». 2002.
3. L.M.Xanbutayevaç: Müasir Azərbaycan və ingilis dillərində infinitiv (ümumi tipoloji tədqiqat) [Mətn] : filologiya e.n.al.dər.a. üçün təq. ed. dis.: 10.02.20/L.A.D.U.

Ф.ПАНАХОВА,
Х.ЗЕЙНАЛОВА

СЕМАНТИЧЕСКАЯ КООРДИНАЦИЯ АНГЛИЙСКОГО ЯЗЫКА В ПРОЦЕССЕ ПЕРЕВОДА НА РОДНОЙ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье рассматриваются семантическая координация английского языка в процессе перевода на родной язык, их трудности и пути их преодоление в семантике английского языка, а также некоторые проблемы синхронного перевода в литературе и лингвистики. В статье также анализируются разные виды перевода в современном английском языке, их семантики и лексические варианты перевода на родной язык. В данной статье также рассматривается роль и значение перевода в межкультурной коммуникации,некоторые мысли и философские оценки и переводнической деятельности в современной лингвистике,а также о стилистике перевода о литературе и в гуманитарной сфере.

В данной статье анализируется некоторые фрагьенты перевода о современной литературе Азербайджана и литературе Западноевропейские страны и России.

F.PANAKHOVA,
KH.ZEYNALOVA

SEMANTIC AGREEMENT ON THE PROCESS FROM ENGLISH TO THE NATIVE LANGUAGE

SUMMARY

The article is devoted to the semantic agreement on then process from English to the native language its difficulties in the ways of elimination in semantic of English also some problem of synchronous translation in literature and linguistic. The article also analyses various kinds of translation imp modern English, ips semantical and lexic variants of translation the nature language.

The article is devoted to the role and the maning of the translation in bicultural communication,some thoughts and philosophical appreciating of translation in modern linguistics also about stylis tically translation in literature and humanitarian shere. In the given article some parts of translation in contemporary literature of Azerbaijan and literature Western European countries and Russia are analised.

Rəyçi: Yusif Süleymanov
filologiya üzrə fəlsəfə doktoru, dosent

RÜBABƏ MUSAYEVA
ADİU
rübabə.@.mail.ru.

MÜASİR İNGİLİS DİLİNDƏ SİFƏT DÜZƏLDƏN ŞƏKİLÇİLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ ÜSULLARI

Açar sözlər: *suffiks, grammatika, produktiv, sifət düzəldən, morfoloji, leksika, semantika.*
Ключевые слова: *Суффиксы, грамматика, продуктивность, образование прилагательных.*
Key words: *suffix, grammar, productive, creating adjectives, morphological, lexics, semantics.*

Tədqiqat məqsədindən asılı olaraq, suffikslərin müxtəlif təsnifatından istifadə olunub və təkliflər olunub. Suffikslər öz mənşəyinə görə, yaratmalı olduqları nitq hissəsinə görə, işlənmə tezliyinə görə (nə qədər tez-tez ona rast gəlinir), praktik olmağına görə, xarakteristikalarına görə təsnif olunurlar. Suffikslər sözün sonunda tam yeni söz əmələ gətirmək üçün yerləşən sözdüzəldici şəkilçilərdir. Suffiksin semantik dəyəri vardır, amma ona müstəqil nitq hissəsi kimi rast gəlinmir Nitq hissələri içərisində suffikslər leksik-qrammatik qruplarina əsasən semantik cəhətdən təsnif olunurlar və nəhayət amma ən azı olmadan onların əlavə olunduğu kök (stem)-lərin növündən asılı olaraq təsnif olunurlar. Sinxron yanaşma ilə uyğun olaraq biz müasir ingilis dilində tez-tez rast gəlinən nitq hissələrinə görə təsnif etməyə başlayaraq bu daha bu daha məqsədəuyğun olardı. Leksik qrammatik sinif eyni leksik-qrammatik məna daşıyan leksik elementlər sinifi kimi və həmçinin bu vahidlərin içərisində ifadə olunan qrammatik kateqoriyalar daxil olan ümumi formalar sistemi kimi təyin edilə bilər. Bir sinifin elemetləri eyni uyğun söz ilə əvəz oluna bilər və özünə xas morfoloji nümunə ilə və ümumi sözdüzəldən affikslər ilə xarakterizə oluna bilərlər.

Sırf sifət əmələ gətirən suffikslərlə yaxından tanış olaq. Hər nitq hissəsinin öz sözdüzəldici suffiksləri olduğu kimi sifətin də özünə məxsus sözdüzəldici suffiksləri vardır. Bu suffikslər də müxtəlif qrulara bölünürlər.

Sifət əşyanın əlamətini bildirir və "what", "what kind of" (necə), "which" (hansı) suallarına cavab olur. Quruluşuna görə sifətlər:

sadə (big, large, red, niece, etc);düzəltmə (historical, hopeless, wonderfull);

mürəkkəb (dark-blue, good-looking, brand-new) olurlar.Sadə sifətlər bir kökdən ibarət olur və onlara heç bir suffiks artırılmır.

Düzəltmə sifətləri əmələ gətirmək üçün isim, fel və sifətlərə sözdüzəldici suffikslər aşağıdakılardır:

- Full – carefull, doubtful (isim);Less –hopeless, useless (isim);Ous – dangerous, famous(isim)– countable, eatable (fel); comfortable (isim) ;ible – responsible (isim) ish – childish (isim;ent/-ant – different, important (fel);al-cultural (isim);some (handsom)

Suffikslər produktiv və qeyri-produktiv olurlar. Qeyri-produktiv suffikslərə-full, -ible, -able, -ent, -ant, -en, -ous, -some aiddir.Sifətlərə xas olan əlamət və keyfiyyətlərin dərəcələri iki yolla ifadə edilir.

1) Sintetik yolla, yəni sifətlərin sonuna suffikslər əlavə etməklə;
2) Analitik yolla, yəni sifətlərin əvvəlini köməkçi söz əlavə etməklə.

Bu üsullardan hansının seçilməsi ixtiyarı olmuyub, sifətin fonetik tərkibindən asılı olur: birhecalı və bəzi ikihecalı sifətlərin dərəcə formaları sintetik, iki və daha çox hecalı sifətlərin dərəcə formaları isə analitik yolla düzəldilir.

Sifətin adi dərəcəsini düzəltmək üçün heç bir suffiksdən istifadə olunmur. Sifətlər adi dərəcədə as...as, not so...as bağlayıcıları ilə işlənərkən müqayisə olunan şəxs və əşyaların eyni dərəcəli keyfiyyətə, əlamətə malik olub olmadığını bildirir. Məsələn:

1) My brother is as strong as yours – Mənim qardaşım sənինki kimi güclüdür.
2) Their way is not so long as mine – Onların yolu mənimki kimi uzun deyil.

Birhecalı sifətlərin müqayisə dərəcəsini düzəltmək üçün onların sonuna "-er" üstünlük dərəcəsini düzəltmək üçün isə "-est" suffiksi artırılır.

İkihecalı sifətlərin əksəriyyətini və çoxluhecalı sifətlərin hamısının müqayisə dərəcəsi analitik yolla,yəni müqayisə dərəcəsindən sifətdən əvvələ "more", üstünlük dərəcəsində isə "most" sözü artırmaqla düzəldilirAzərbaycan dilində olduğu kimi, ingilis dilində də üstünlük dərəcəsi əşya və ya şəxsin onun daxil olduğu sinifdə ən yüksək keyfiyyətə malik olduğunu bildirir. Məsələn:

1) The Volga is the longest river in Europe – Volqa Avropada ən uzun çaydır.
2) The USA is the most democratic country in the world – ABŞ dünyada ən demokratik ölkədir.. Ümumi məna nöqteyindən adektiv suffikslər iki böyük qruplar yaradır.

1) Birinci qrupda əsas "münasibət" mənasını kəsb etməsi hesab olunur: "aid olan, oxşarlığı olan, xarakterik xüsusiyyətlər və əlamətlər, kökün ifadə etməli olduğu bir şeyi xatırladan" kimi mənanı ifadə edir. Məsələn, "Ornamental" – bəzək əşyası kimi istifadə olunan, "volcanic" – vulkanik, "neighbourly" – qonşu münasibəti, dost münasibəti və s.
2) Ikinci qrup suffikslər üçün əsas mövcud olma/olmama hesab olunur: kökün ifadə etməli olduğu bir şeyin miqdarını və yaxud olmayan bir şeyi təyin edir

-able (-ible) suffiksi ilə düzələn sifətlər:Modellər: v+able → Adjective

Müassir ingilis dilində dəyişə bilən –able suffiksi çox geniş yayılib. Onun üstün cəhəti ondan ibarətdir ki, o felin kökünə əlavə olunur, amma həmçinin isimlərin də kökünə əlavə oluna bilir. –able suffiksinin ümumi mənası hər hansı bir xarakterik xüsusiyyəti ifadə etməkdir.

-al suffiksi ilə düzələn sifətlər Model: n+ -al → Adj.

"-al" suffiksi müasir ingilis dilində yüksək produktivliyi ilə fərqlənir və kökün ifadə etdiyi bir şeylə əlaqəni (oxşarlığı, törəməni və s.) bildirir. Məsələn:Addicdental – təsadüf

"Ornamental" – bəzək əşyası kimi işlənən gələcəkdə daha aktiv düzəltmə sözlər yaratması imkanları vardır: accidentally, normalize, ensociality (something "completely or perfectly social")

Müasir ingilis dilində amonim "-al" suffiksi də vardır ki, isim yaratmaq üçün onlardan istifadə olunur.

-an suffiksi ilə düzələn sifətlər (-ean, -ian) ;Model: n+ an → Adj.

"-an" suffiksi və onun törəmələri olan "-ean, -ian" kökü isim olan sözlərə əlavə olunur və əlaqə və mənsubiyyət kimi ümumi məna verir. Əlavə olunduqları köklərin xarakterindən asılı olaraq onun üç əsas mənalarını ayırd etmək olar:

1) Ölkə,şəhər və digər coğrafi adları bildirən isimlərə əlavə olunarkən "-an" suffiksi "bu ölkəyə və şəhərə aid" mənasını bildirir. Məsələn: African – afrikalı, Bostonian – bastonlu

Xüsusi adlar bildirən isimlərlə birləşdikdə "-an" suffiksi "nəyəsə aid olan, hər hansı ərazinin, nəzər baxışların tərəfdarı olan və s. mənasını ifadə edir. "-an" suffiksinin üçüncü mənasının elmi çərçivə daxilində tətbiqi qismən məhduddur: "müəyyən sinifə, növə (biologiyada) aid olma, (neyrobiologiyada) bioloji ritmə olma" və s.

-ate suffiksi ilə düzələn sifətlər.Model: n+ ate → Adj.

"-ate" suffiksi çoxmənalı hesab olunur, isim köklü sözlərdən sifət yaradır. Suffiks "-ate" aşağıdakı mənalara malikdir:

1) "Kökün ifadə etdiyi bir şeyin xarakterik xüsusiyyətini" bildirir. Məsələn: graphicate – able

"Kökün ifadə etdiyi bir şeyin mövcudluğu ilə xarakterizə olunan" mənasını verir. Məsələn: quorate – "containing or consisting of a quorum"

-ful suffiksindən düzələn sifətlər.Model: n+ ful → adj.v+ -ful → adj.

Çoxmənalı "- ful" suffiksi həm isimlərin, həm də fellərin kökləri ilə birləşir. "-ful" suffiksi isimlərin kökünə əlavə olunur. Bununla yanaşı "tam mənada göstərilən keyfiyyətə malik olan" mənasını verir. Məsələn: healthful – sağlam

"-ful" suffiksi konkret isimlərin köklərinə birləşərək "nə üçünsə xarakterik, məxsus" mənasını verir: Məsələn:

-ic suffiksi ilə düzələn sifətlər.

Model: n+ -ic →adj.

Çoxmənalı olan "-ic" suffiksi müasir ingilis dilində terminologiya və kitab leksikasında kifayət qədər produktiv hesab olunur. "-ic" suffiksi "ibarət olan, kökün sturukturunun tərkibi və ya tərkib hissəsi" kimi mənaları ifadə edir. Məsələn:

atomic – atom tərkibli,

"-ic" suffiksi həmçinin "münasibət" mənasını verir. Məsələn: volcanic – vulkanik, arabic - ərəb milliyətli ola, quadrosonic – kvadrafonik, tachyonic – having to do with tachyons (hypothetical elementary particles that travel faster than the speed of light)".

-less suffiksi ilə düzələn sifətlər.

Model: n+less →adj.

V + less →adj.

"-less" suffiksi produktiv hesab olunur, "malik olmayan, məhrum olunmuş" kimi ümumi mənalı sifətləri yaradır.

"-less" suffiksi ilə yaranmış sözlərin linqvistik status çox rəngarəngdir: bəzi sözlər lüğətdə yerləşdirilib (heartless), produktiv sözdüzəldici model əsasında yaranmış törəmə sifətlərin böyük əksəriyyəti okkazionalizm (moneyless) adlanır.

"-less" suffiksi müxtəlif əşya, maddə və material ifadə edən isim mənşəli söz kökləri ilə birləşərək universal produktivliyə malik olur. Məsələn:

İnsanlar arasında münasibət bildirir: (hairless – keçəl, brainless – ağılsız. Friendless – yalqız): fiziki və mənəvi keyfiyyət bildirir (motionless – sabit,hərəkətsiz, sleepless – yuxusuz, guiltless – günahsız).

-ous suffiksi ilə düzələn sifətlər

Model: N+ous→adj.

"-ous" suffiksi isim mənşəli söz köklərindən sifət düzəltmək üçün işlənir. – ous suffiksi "söz kökünün ifadə etdiyi bir şeyin xarakterik cəhətləri ilə oxşarlıq, onun xassələrinə malik" mənalarını verir

ƏDƏBİYYAT

1) Мешков О.Д Словообразование современного английсково языка, М. 1986.

2) И.В. Арнольд. Лексикология современного английского языка.

3) A. Koonin. English Lexicology.

4) Е.Н. Бортничук. И.П. Пастушенко. Словообразование в английском языке.

R.MOUSSAYEVA

ADJECTIVE BUILDING SUFFIXES

SUMMARY

Suffixes can be varied according to their being productive and non productive. They enrich English language for their wordbuilding character and almost owns the borrowed words.

Since, technics develop in the society new words appear in the language. In these cases the role of suffixes is great. Suffixes will be important and helpful element for building adjectives in the English language in the future.The article deals with the derivational comprounds (comprounds adjectives)"ed" and the adjective+noun+ed type of phrseolojical units.The article deals with the articles belonding to the English that connect the words to cach other and define the concrete idea inside of the text,their role and importance,also the function and influence to the idea of the articles in the content of the sentence.

The article deals with semantic and grammat5ic caracteristics of the prefixes in contemporary English and Azerbaijani, also their structure in the words

Р.МУСАЕВА

СУФФИК Ы, ОБРАЗУЮЩИЕ ПРИЛАГАТЕЛНЫХ

РЕЗЮМЕ

Суффиксы могут различаться своей продуктивностью и непродуктивностью. Они обогащают английский язык словообразующым характером и почти присваивает заимствованныеслова. С развитием технологий в обществе появляются неологизмы. В таких случаях велика роль суффиксов. В будущем суффиксы будут важным и полезным элементом в образовании прилагательных английского языка.

В статье также рассматривается образования производных и сложнопроизводных прилагательных на суффикс "ed"и некоторые субстантивные прилагательные которые входят в состав номинативных фразеологических единиц.Производные прилагательные с разными суффиксами в Английском языке широко и разнообразно употребляется в простых и сложных предложенияхю

Rəyçi: Həbib Mirzəyev
filologiya üzrə fəlsəfə doktoru, dosent

b.m. ŞAMİL ALMƏMMƏDOV
BDU

TÜRK DİLİNDƏ ÖZLƏŞMƏNİN MAHİYYƏTİ

Açar sözlər: *Osmanlıca, Türk Yazı Dili, ərəb izafətləri, fars izafətləri*
Ключевые слова: *Osmanlıca (Османский язык), Турецкий литературный язык, Арабские Изафеты, Персидские Изафеты*
Key Words: *Turkish, Arabic and Persian ezafe, written language, language reform*

İctimai şüur forması kimi dil həm də çox mürəkkəb ictimai hadisə olaraq iki formada özünü göstərir: Biri obyektiv inkişaf yolu tutmuş xalq danışıq dili, digəri isə subyektiv faktorların təsiri ilə formalaşan, Türk dili termini ilə ifadə etmiş olsaq, Yazı Dili

Məqalədə Türk Yazı Dili, onun milli dil kimi formalaşmasından və bu mənada da "özleşme" kimi türk dil tarixinə girmiş dil prosesinin mahiyyətindən bəhs ediləcəkdir.

Bu gün öz xalq danışıq dilinə yaxın, anlaşılan müasir türk ədəbi dilinin "Osmanlıca" deyilən xüsusi bir mərhələsi də mövcud olmuşdur.

Osmanlıcanın mahiyyəti müxtəlif şəkildə alqılanmış və izah edilmişdir. Bəzi dilçilər ərəb əlifbası ilə mövcud olan yazı dilinin hamısını, yanlış olaraq Osmanlı dilinə aid etmişlər və edirlər. Bu səhv fikirdə olanlar XX əsrin əvvəllərinə qədər ərəb əlifbası ilə yazılmış sadə, xalqın başa düşəcəyi əsərlərin dilini də buraya aid etməklə, ciddi elmi qarışıqlığa səbəb olmuşlar. Halbuki Osmanlıca dedikdə yalnız leksik tərkibi ərəb və fars sözlərindən ibarət olan Türk dili deyil, eyni zamanda qrammatik quruluşu etibarilə yad ünsürlərə dayalı dili başa düşmək lazımdır. Bu bir süni dil hesab edilməlidir.

Türkiyədə Cümhuriyyətin qurulmasından sonra yeni meydana gəlmiş iqtisadi-siyasi, ideoloji v.s. situasiyalar anlaşılmaz, qəliz bir dildən imtina etməyi zəzuru qılırdı.

M.K.Atatürkün islahatlarının tərkib hissəsi olan "Özleşme" dil prosesi milli ədəbi dilin formalaşmasını və onun milli xalq dili əsasında normalaşmasını nəzərdə tuturdu.

M.K.Atatürkün ölümündən sonra, "özleşme" uzun zaman həm sıravi insanlar, həm də müxtəlif təbəqələr arasında ciddi mübahisələrə, müzakirələrə səbəb olmuşdur.

Kimi, "Dededen Babadan alıştığımız bir dili bırakıp kimsenin anlıyamadığı bir dille mi konuşacağız (3, 69) deyə yazırdı, kimisi də obyektivliyə yaxın, real fikirlər söyləyirdi. Osmanlıcanın necə bir "Dil" olduğunu ən yaxşı şəkildə Ali Püsküllünün "Öz Türkçe Sözlük" kitabında

oxuyuruq. O yazır ki, "Arap ve Fars dilleri onu (Türk dilini - Ş.A) bir aylık sarmaşık otu gibi bürümektedir. Öyle ki, sonunda "Türke söylesen anlamaz, Araba söylesen anlamaz, Aceme (farsa - Ş.A) söylesen anlamaz" diye alay edilebilecek olan ve adına "Osmanlıca" denilen karma bir dil doğmuştur (2, 19)

Ali Püsküllüoğlu "Dil Değişmesini" "Toplum değişmesi" ilə bağlayaraq (s.23) özləşmənin zəruri bir proses olduğunu qeyd etmişdir.

Bu günkü Türk ədəbi dilinin formalaşmasını Türk cəmiyyətinin dəyişməsi ilə əlaqələndirən A.Püsküllüoğluna haqq qazandırmaq olar.

Çoxmillətli bir cəmiyyətdə (türklərdən başqa ərəb v.s. xalqların bu cəmiyyətdə mövcudluğu) ərəb əlifbasından istifadə, ərəb dili ünsürlərindən faydalanma müəyyən mənada yaranmış şəraitlə sıx bağlı olmuşdur. Fikrimizcə, M.F.Axundovun ərəb əlifbasından imtina etmə fikri də məhz bu faktor üzündən müsbət həllini tapmamışdır. Buraya İslam dini faktorunu da əlavə etmək yerinə düşərdi.

Məlumdur ki, cəmiyyətdəki fundamental dəyişmələr (bazis, üstqurum dəyişmələri, ideoloji dəyişmələr v.s.) özü ilə bərabər dildə dəyişmələri də zəruri etmişdir. Cümhuriyyətin bərqərar olması əvvəlki sistemə nisbətən mütərəqqi olub milli birlik, milli şüur, milli ideologiyanın meydana çıxmasına səbəb olmuşdur. Bu baxımdan aşağıda qeyd etdiyimiz Kinross`un fikri doğru hesab edilməlidir.

Türk cəmiyyətindəki siyasi, iqtisadi v. s. dəyişmələr köhnəliyi əks etdirən söz və ifadələrin dildən çıxaraq tarixi sözlər sırasına daxil olmasına səbəb olmuşdur. Eləcə də insanlar arasında yeni yaranmış münasibətləri bildirən söz və ifadələrə ehtiyac zərurəti doğurmuşdur.

"Bir Ulusun Yeniden Doğuşu" adlı kitabında Lord Kinross özləəmə prosesi ilə əlaqədar bu sözləri yazmışdır: "Bu reform Türklere Türklülüklerini Gazinin (Mustafa Kemal Atatürk - Ş.A) öteki reformlarından daha çok sezdirdi (2, 23) Özləşmə islahatını Türkiyənin Qərbə meyli və qərbləşmə siyasətilə bağlayanlar da olmuşdur (həmin əsər s.23-25)

M.K.Atatürkün dil islahatı təsadüfi bir proses deyildi. 1930-cu illərə qədər Türk dilinin öz təməlinə qayıtması uğrunda uzun mübarizələr getmişdir. Hələ XIX əsrdə yaşamış və yaratmış Vətən Şairi Namik Kamal Türk dilinin mövcud durumdan ciddi narazı olduğunu bildirmiş, bədii əsərlərini olduqca sadə, anlaşılır bir dildə yazmış, lakin ictimai-siyasi və fəlsəfi fikirlərini məqalələr vasitəsilə oxucusuna çatdırarkən istər-istəməz ərəb və fars ünsürlərindən istifadə etmək məcburiyyətində qalmışdır.

Namiq Kamal bu məcburiyyəti Türk dilində ictimai-siyasi-elmi terminlərin olmamasında görürdü.

N.Kamaldan fərqli olaraq T.Fikrətin şeirlərində osmanlıcaya meyl daha güclüdür.

Akad. A.Axundov yazır ki, ədəbiyyatda belə bir fikir formalaşmışdı ki, ədəbi-bədii dil o zaman gözəl ola bilər ki, o ümumxalq dilinin təsirindən bir o qədər uzaq olsun (1, 13)

Belə bir meyl Azərbaycan ədəbiyyatında da olmuşdur. Məs: Ə.Hüseynzadə Hötenin "Faust" əsərini Azərbaycan oxucularına belə bir dillə təqdim edir:

Ənvari-şəbabimdə pədidar olan ey zil,
Ey zilli-tuluat oluyorsun yenə peyda (1,13)

Türk ədəbiyyatında da eyni vəziyyəti görmək mümkündür. Məs: T.Fikrətin "Sis" şeirində oxuyuruq:

Sarmış yine afakını bir dud-u muannit
Bir zulmet-i beyza ki, peyapey mütezait

Bu iki şeir misalında təkrar olunan (olmaq, yine) 3-4 sözdən başqa qalan bütün leksik vahidlər Türk və Azərbaycan dilinə yad ərəb və fars sözləridir.

Göründüyü kimi ərəb və fars ünsürlərinin türk mənşəli sözləri sıxışdıraraq həm Türk poeziyasında, həm də Azərbaycan poeziyasında dominant vəziyyətə gəlməsi bu dillərin ədəbi dil səviyyəsində dialekt və şivələrdən tamamilə uzaqlaşaraq anlaşılmaz bir dil şəklinə düşməsinə səbəb olmuşdur. Bu səbəbdən də "Türk və Azərbaycan dillərində özləşmə prosesinin tarixi (XX əsr)" mövzusunda dissertasiya müdafiə etmiş Lamiə Vaqifqızı "Dildə özləşməni dilin tarixi təkamülündə yeni bir mərhələ hesab edir (bax: L.Vaqifqızı. Avtoreferat s.3) əlavə edək ki, haqqında bəhs tarixi mərhələ daha əvvələ gedib çıxır. XX əsrdə Türk dilinin özləşmə prosesi son dövrünü yaşamışdır.

Məsələ yalnız ərəb və fars sözlərinin işlədilməsində deyildi, ən vacibi o idi ki, Türk dilinin qrammatik qaydaları unudulmuş, sözlər ərəb və fars izafətləri əsasında birləşdirildi. Bu isə Türk dilinin iltisaqiliyinə zərbə idi. İltisaqilik əsasında söz yaradıcılığı məhv olurdu. Doğrudur, xalq danışıq dili bu təsirə məruz qala bilməzdi və o dil folklor yaradıcılığında obyektiv inkişafına davam edirdi. Lakin bir qrupun dili hesab olunan Osmanlıca məhdud mühitdə işlədilir, xəlqilik qazana bilmirdi və bu imkansızdı.

Osmanlıcaya aid çoxlu tarixi sənədlərlə tanışlıq göstərmişdir ki, idarə dili (rəsmi yazışmalar ərizə və göstəriş sənədləri) tamamilə anlaşılmaz bir dildə yazılmış, bu gün belə sənədlərin oxunması üçün xüsusi mütəxəssis hazırlığı lazım gəlir. Elə ifadələrə rast gəlmək olur ki, onu lüğətlərdən belə çətin tapmaq olur (umay-ı ileyh, haşmetpenah v.s. kimi)

XVII əsrin əvvəllərində yazılmış Veysinin "Xabnamə" əsərinin müqəddimə hissəsində sultanların tərif edilməsi ilə bağlı səhifədə işlədilən söz və ifadələr göstərir ki, idarə sistemindəki qəliz dil ədəbiyyatçılara da təsir etmişdir. Əsərin ümumiyyətlə çətin bir dildə yazılması ilə yanaşı müqəddimə hissəsinin başa düşülməsi olduqca çətindir. Buradakı dili gerçəkdən də nə ərəb, nə fars, nə də türk başa düşə bilər. Dolayılı ifadə tərzi, ərəb və fars izafətləri, bəlağətli və məcazi mənada ifadə edilmiş deyimlər, nəinki müasir oxucuya, hətta o dövr oxucusuna da çətinliklər törədə bilərdi.

Bütün bunlar M.K.Atatürkün Dil siyasətini obyektiv olaraq şərtləndirirdi. Xalqa yad dildən imtina etmək, ədəbi dili (eləcə də rəsmi-idari

dilini) xalqın anlayacağı səviyyəyə gətirmək dil islahatının başlıca məqsədi olmuşdur.

Türkiyə Cümhuriyyətinin qurucusu, bir sıra önəmli islahatın yaradıcısı M.K.Atatürkün vəfatından sonra (1938) özləşmənin istiqamətinin dəyişdirilməsinə cəhd edilmişdir. Bu ola bilsin ki, şüurlu cəhd olub, bəzən ifrat dərəcəyə yüksəldiyindən dünya dilçiləri Türkiyəni purizmdə günahlandırmışlardır.

Qarışıq bir dil mühitində bəzən verilən qiymətlər də gerçəyi əks etdirmirdi. Belə bir fikir oyanmışdı ki, osmanlıcadan imtina etmək uzun illər və əsrlər görkəmli şəxsiyyətlər tərəfindən yaradılmış mədəni sərvətlərdən tamamilə imtina etmək deməkdir. Halbuki osmanlıca yaradılmış (istər rəsmi, istər bədii olsun) əsərlər Türk xalqının milli mədəniyyətinin tərkib hissəsi olub bu xalqın tarixini əks etdirən əsərlərdir.

Görkəmli ədəbiyyatçı və tənqidçi Mehmet Kaplan yazırdı: "Yunus Emre, Aşık Paşa, Baki, Nedim Nef`i, Şeyh Galib v.b. eserlerini "Osmanlıca" denilen dil ile vücuda getirmişlerdir. Daha doğrusu eserleri ile Osmanlıca denilen "zengin" ve "ince" "Kültür dili"ni cümle cümle, beyit beyit onlar yaratmışlardır" (5,47). Zengin və İnce sözlərini dırnaq içində verməyimizin səbəbi vardır. Müəllif bu sözləri inanaraq işlətmişdir. O, əsasən ədəbiyyatçı idi və məsələyə məhz bu müstəvidən yanaşaraq zengin və ince terminlərini işlətmişdir. Onu əsasən əsərlərin ideya-bədii tərəfi maraqlandırmışdır. Halbuki yuxarıda verdiyimiz "Habname" əsərinin məqaləyə daxil edə bilmədiyimiz müqəddiməsində oxucunu yormaqdan başqa və bir də sultanlar haqqında tərifdən başqa zənginlik və incəlik heç nə yoxdur. Halbuki M.Kaplan daha sonra gerçəyə uyğun fikirlərini söyləyir: "Biz dili, kelime kelime değil, cümle cümle öğreniriz. Kelimeleri alfabe sırasına dizen sözcükler, onları canlı mühitlerinden çıkarırlar. Dil konuşulan ve yazılan Cümlelerden ibarettir. Cümleler ise bir duyguyu ve düşünceyi ifade eder. Gerçek dil hakkında bir fikir edinmek için sözcüklere değil konuşmaya veya yazılı metinlere bakmak lazımdır (4, 46)

M.Kaplanın bu fikrinə antitezis olaraq bunları demək məntiqə uyğun olardı: "Əgər osmanlıca yazılmış bir cümlənin ifadə etdiyi duyğunu" oxucu başa düşə bilmirsə, onda belə bir dil nə funksiyası yerinə yetirir. Müəllif bu mənada haqlıdır ki, ərəb və ya fars dilindən alınmış hər sözü dildən çıxarmaq olmaz. Xüsusilə, o sözləri ki, artıq onlar "özleşmişler", hər türkün malına çevrilmişlər. Öz fikrinin təsdiqi üçün müəllif "akıl" sözünün işləkliyi və özləşməsini təsdiq edən, ifadələrdəki yerini göstərən bu misalı verir: "Akıl kelimesi Türkçeye Arapçadan geçmiştir ama bu yirmi kadar deyimi Türkler vücuda getirmişler: "Akıl almak", "akıl almamak", "akıl dağıtmak", "akıl defteri", "akıl dışı", "akıl erdirememek", "akıl hocası", "akıl işletmek", "akıl karı", "akıl kesmek", "akıl kumkuması", "akıl öğretmek", "akıl satmak", "akıl sır ermez", "akıl vermek", "akılda bulundurmak", "akıldan çıkmamak", "akılla ölçmek", "akıllara durgunluk vermek", "akıllı düşman" (5, 46)

Özleşmede amaç əslində bu qəbildən olan söz və ifadələri dəyişdirmək

olmamışdır. Çünki, məsələn, "akıllara durgunluk vermek" ifadəsində yalnız sözün kökü "akıl" ərəb mənşəli söz olub, bütün türk xalqları tərəfindən özününküləşdirilmiş, yəni özləşdirilmiş bir sözdür. İfadənin qalan parçaları: -lar-cəm şəkilçisi; -a- yönlük hal şəkilçisi; -dur-feil kökü, -gun-sifət düzəldən leksik şəkilçi, -lık-isim düzəldən leksik şəkilçi türk dili ünsürlədir. Bütün bu dil elementləri əsl türk mənşəli elementlərdir. Özləşmə bu qəbildən olan sözləri deyil, mətn içərində türk dili elementləri olmayan və yaxud da olduqca az olan, qrammatik quruluşu ərəb dilinə aid olan söz və ifadələri nəzərdə tutmuşdur. Məs, yüksək təbəqədən olan birisi oğluna qız istərkən "kerimeyi-iffet vesimenizin dest-i izdivacına talibim" deməli idi. 3-4 Türk dili elementi (şəkilçiləri) olan bu ifadənin yerinə xalq danışıq dilində "kızınızı oğluma isterim" ifadəsi də olmuşdur. Özləşmə prosesi birinci osmanlıca ifadədən imtina edilməsinin normal xalq dilindəki ifadənin ədəbi dil səviyyəsinə yüksəldilməsini nəzərdə tutmuşdur. Beləliklə, Özləşmə:

1.Osmanlıcadakı ərəbi kaidəsi ve farsi kaidəsi izafətlərin dildən çıxarılması, bunun yerinə bütün türk dillərində mövcud olan təyinedən və təyinolunandan ibarət olan türk dili prinsipinə dayanan ad tamlamalarının işlək hala gətirilməsini öngörmüşdür. Bu isə dilin qrammatik quruluşu ilə bağlı məsələdir. Bir dil sözlərdən və sözlər arasındakı bağlılıqlardan ibarətdir ki, bu qrammatika adlanır. Dilin qrammatik quruluşu o dilin daşıyıcılarının milli şüuru ilə birbaşa əlaqəlidir. Deməli özləşməni milli şüura qayıtma kimi də qiymətləndirmək olar.

2.Köhnə idari, ideoloji v.s. sistemlə bağlı olan termin və ifadələrin yeni türk mənşəli sözlərlə əvəz edilməsini öngörmüşdür.

3.Xalq danışıq dili əsasında, müxtəlif türk mənbələrindən istifadə etməklə hamının başa düşə biləcəyi bir milli dili formalaşdırmaq və norma halına salmaq üçün öngörülmüşdür.

4.Özleşme, osmanlıcada yazılmış türk mədəniyyətinin bir parçası olan ədəbiyyatların yeni nəslə çatdırılması üçün onları yeni Türk dilinə tərcümə etməyi də öngörmüşdür.

60-cı illər dilçilərinin bəziləri bu fikirdə olmuşlar ki, guya Türkiyədəki özləşmə nəticədə ona gətirib çıxaracaqdır ki, digər Türk xalqları Türk dilində yazılmış əsərləri oxuyub başa düşə bilməyəcəklər. Nəticədə türkdilli xalqlar arasında bağlar qırılacaqdır. Bu məsələdə oxucu özü qənaətə gəlsin deyə bir neçə sözün osmanlıca və yeni türkcəsini misal veririk:

1.Nazır-Azərbaycan dilində "Nazir"

Azərbaycan dilində bu söz termindir və onun vəzifə mənası ifadə etdiyini başa düşürük. Türk dilində bu köhnə söz "Bakan" kimi əvəzlənmişdir. Bu, süni yaradılmış söz olmayıb "Nazır" sözünün kalka üsulu ilə tərcüməsidir. Ərəb dilində Nazir nəzərə (baxmaq) feilindən Nazir şəklinə salınaraq feili sifət əmələ gətirilmişdir. Demək, ərəb dilində bu söz Nazir yox "baxan" feili sifət mənasını ifadə edir.

2.Rus-Azərbaycan dilində bu gün də rəis sözü vəzifə mənasında işlədilən sözdür. Türkcədə rəis əvəzinə "Başkan" sözü daha işləkdir və rəis

köhnə söz hesab olunur. Yeri gəlmişkən deyək ki, ərəb dilində rasun-baş deməkdir. Türk dilində Baş sözünə -gan şəkilçisi artırılaraq "başkan" sözü yaradılmışdır. Hal-hazırda Azərbaycan dilində "Başçı" sözü Türk dilindəki Başkan yerinə işlədilir.

3. Katip-Azərbaycan dilində katib. Özləşmə nəticəsində bu sözün mənasına dayanılaraq Yazar (yazıçı) sözü yaradılmışdır. Bu gün çox işləkdir.

Göründüyü kimi yeni sözlərin hamısı türk dilinin qanunauyğunluğu ilə bütün türklərin anlayacağı türk mənşəli sözlərdir və bunlar differensiallığa deyil, inteqrallığa xidmət edə bilər.

1990-cı illər Türk dilli xalqların həyatında ciddi dəyişmələrə səbəb olmuş, onlar müstəqillik əldə edərək yeni bir inkişaf mərhələsinə qədəm qoymuşlar. Öz növbəsində bu da bir Devrim sayıla bilər. Köhnəlik yeniliklə əvəz olunur, yeni iqtisadi şərait yeni ideologiya, yeni siyasi xətt müəyyənləşdirilir. Türk dili xalqlar arasında ticarət, siyasət, elm, mədəniyyət sahəsində inteqrallaşma hərəkatı günü-gündən güclənir. Bu əlaqələr zamanı özləşmə prosesində Türk dilinə qazandırılmış sözlər və terminlər asanlıqla və maneəsiz azərbaycanlılar tərəfindən mənimsənilir. Lakin bu prosesin birtərəfli olmasını düşünənlər səhv edirlər. Belə ki, ölkəmizə gəlmiş və ya təhsil almış Türk vətəndaşları Azərbaycan dili sözü olan "açar" leksik vahidinin nə qədər milli olduğunu daim qeyd edir, bunu xalq arasında yayacaqlarını söyləyirlər. Eləcə də "Döner" və "Endirim" sözləri müstəqilliyimizə qədər dilimizdə işlək olmamışdır. Halbuki Azərbaycan dilində dönmək feili də, -ər feili sifət şəkilçisi də vardır. Həmçinin dilimizdə enmək feili -dır (təsirli feil əmələ gətirən şəkilçi) və -im (isim düzəldən şəkilçi) olmuşdur.

Daha bir misal:

"Bacı" sözü Azərbaycan dilində çox işlək olmasına baxmayaraq Türk ədəbi dilinə girə bilməmişdir. (Yalnız Türkiyənin Şərqində yaşayan Azərilərin dilində işlədilmişdir). Məhz Azərbaycan dilinin təsiridir ki, bu söz artıq 80 milyonun leksikonuna daxil olmuşdur. (Hətta "Yetiş Bacım" televerilişi belə vardır).

Bütün bunlar onu təsdiq edir ki, özləşmə bir dil hadisəsi kimi özünə qayıtma, özünü dərk etmə ilə doğrudan-doğruya əlaqədar olmuş və nəticədə KİV vasitəsilə və adi ünsiyyətlər zamanı şahid olduğumuz müasir Türk ədəbi dilinin təşəkkül tapmasına başlıca səbəblərdən biri olmuşdur.

ƏDƏBİYYAT

1. Ağamusa Axundov. Dilin estetikası, Bakı 1985
2. Ali Püsküllüoğlu. Öz Türkçe Sözlük, Ankara 1970
3. Cikiya. Türkçe Okuma Kitabı, Tiflis 1971
4. Lamiə Vaqifqızı. Türk və Azərbaycan dillərində özləşmə prosesinin tarixi (avtoreferat), Bakı 2014
5. Mehmet Kaplan. Kültür ve Dil, İstanbul 1983
6. Veysi. Habname. (rus dilinə tərcüməsilə), Moskva 1971

АЛМАМЕДОВ Ш.

ЗНАЧЕНИЕ ЯЗЫКОВОГО ЯВЛЕНИЯ, ПОД НАЗВАНИЕМ “ÖZLEŞME” (ОЧИЩЕНИЕ) ДЛЯ ТУРЕЦКОГО ЯЗЫКА

РЕЗЮМЕ

Турецкий письменный литературный язык заимствовал из арабского и персидского языка слишком много лексических единиц, в результате чего образовался смешанный язык, называемый «Osmanlıca”, изменивший турецкий язык в корне. В результате этого процесса из письменного употребления вышли принципы образования словосочетаний и предложений, на смену которых пришли арабские и персидские изафеты. В турецкий литературный язык проникли не только лексические элементы, но и целые арабские и персидские синтаксические конструкции. Пренебрежительное отношение к своему родному языку, свойственное верхушке феодального общества, привело к тому, что словарный состав турецкого литературного языка в XVI–XVIII вв. примерно на 90% состоял из арабо-персидских заимствований. История борьбы за очищение турецкого языка началась еще в XVI веке (Татавлалы Мухарреми и Эдирнели Назми), получив новое развитие во второй половине XIX в. (Ибрагим Шинаси) и продолжившись на новой основе деятелями группы „Новый язык" (1910 г.).

ALMAMEDOV SH.

THE MEANING OF PROCESS “OZLESHME” (PURIFICATION) IN MODERN TURKISH LANGUAGE

SUMMARY

Turkish written literary language borrowed from Arabic and Persian language so many lexical units, resulting in a mixed language called «Osmanlıca", which changed the Turkish language completely. As a result of this process the principles of the formation of phrases and sentences were out of use in written language, which were replaced by the Arabic and Persian ezāfe. Not only lexical items, but also the whole Arab and Persian syntactic constructions were penetrated to the Turkish literary language. The top of Feudal society, neglected of their mother tongue didn't use it and it has led to the fact that approximately 90% of the vocabulary of the Turkish language in the XVI-XVIII centuries consisted of the Arab-Persian borrowings. The history of the struggle for the purification of the Turkish language began in the XVI century, received a new development in the second half of the XIX century and continued on the new basis by the new leaders of the group “New language" (1910).

Rəyçi: Rüfət Rüstəmov
filologiya üzrə elmlər doktoru, professor

DÜRDANƏ VƏKİLOVA
ADİU
dürdanə.@.mail.ru.

MÜASİR İNGİLİS DİLİNDƏ NƏTİCƏ ƏLAQƏLİ MÜRƏKKƏB CÜMLƏLƏR

***Açar sözlər**: kauzal, funksional-semantik kateqoriya, korelyativ cütlük.*
***Key words:** causal, functional-semantic category, correlative pair.*
***Ключевые слова:** каузальный, функционально-семантическая категория, коррелятивная пара.*

Kauzallıq problemi Demokrit, Aristotel, Platon kimi antik filosofları hələ lap qədim zamanlardan maraqlandırmışdır. Bu filosoflar tərəfindən "səbəb" fəlsəfi kateqoriya olaraq obyektiv aləmdə hadisələrin inkişafında genetik əlaqə kimi xarakterizə edilir. Bu, o deməkdir ki, bir hadisə (səbəb) digər bir hadisəni (nəticə) doğurur. Səbəb və nəticə bir- birindən ayrılmazdır.Belə ki, hər bir səbəbin nəticəsi, hər bir nəticənin bir səbəbi vardır.Bu proses linqvistikada da özünü doğruldur.

Struktur- semantik yanaşma ilə həyata keçirilən linqvistik tədqiqat cümlənin semantikasından çox onun quruluşuna əsaslanır. Cümlə strukturunun öyrənilməsində N.S.Pospelovun səbəb-nəticə əlaqəli tabeli mürəkkəb cümlələrin baş və budaq cümlələri arasında əlaqəni tədqiq etməsi xüsusi maraq kəsb edir. O yazır: ".....həm səbəb budaq cümləli tabeli mürəkkəb cümlələr, həm də nəticə budaq cümləli tabeli mürəkkəb cümlələr məhz mürəkkəb cümlənin eyni struktur- semantik növünün korelyatlarıdır." Müəllif qeyd edir ki, səbəb və nəticə budaq cümləli tabeli mürəkkəb cümlələr aşağıdakı quruluşda ola bilər: 1) baş cümlə səbəb bildirərsə, budaq cümlə nəticə, baş cümlə nəticə bildirərsə, budaq cümlə səbəb mənasını ifadə edir.

He was praised, as he sang well.
He sang so well that he was praised.

Sinsematik budaq cümləli tabeli mürəkkəb cümlələrin əsas məqsədi rematik funksiya daşıyan budaq cümlədə nəticə bildirməkdir.Səbəb informasiyası daşıyan baş cümlə isə müvafiq şəkildə tematik yükü öz üzərinə götürür. A.B. Bondarkonun sahələr nəzəriyyəsində deyilir: " ....xüsusi formalar sistemində morfoloji ifadəni əldə edərək, anlam kateqoriyası qrammatik kateqoriyaya çevrilir. O, məhz söhbətin həm məzmun, həm də ifadəyə əsaslanan dil hadisəsindən getdiyini vurğulamaq üçün funksional-semantik kateqoriya (FSK) adlı termindən istifadə edir. FSK digər səviyyə elementlərinin qrammatik kateqoriyalarla funksional əlaqəsini nəzərdə tutur.

FSK ümumi kateqoriya daxilində mikrosahələrin əlaqəsindən yaranan sahəni xatırladır. Funksional semantik sahə (FSS) isə qrammatik kateqoriya olaraq nüvəni təşkil edir. Nəticə kateqoriyasının FSS nüvəsi nəticə budaq cümlələri olduğu halda, FSS-nin periferik sərhəddində nəticə mənalı müxtəlif tipli budaq cümlələr mövcuddur. Nəticə əlaqəli budaq cümlələrin ontologiyasına nəzər salaq. Əslində səbəb-nəticə əlaqəsi çox mürəkkəb əlaqə olaraq, məqsəd, güzəşt, şərt, zaman budaq cümlələrində də özünü biruzə verir. Səbəb və nəticə əlaqələri bir-biri ilə sıx bağlı olduğuna görə səbəb əlaqəsi müəyyənləşdirildikdən sonra nəticə haqqında dəqiq bir fikir söylənilə bilər.Heç də bütün ontoloji mühakimələr eksplisit olmaya da bilər. Belə ki, informasiyanın böyük həcmi implisit halda qalır, yəni danışanın şüurunda qalaraq presuppozisiya yaradır. İngilis dilinin akademik qrammatikasında əbəs yerə nəticə budaq cümləli tabeli mürəkkəb cümlələri *result clauses* və *effect clauses* adlanan iki qrupa ayırmırlar. Məsələ burasındadır ki, nəticə (result) hər hansı arzuedilən və ya gözlənilən hərəkətin (yəni subyektiv səbəbin) yekunu, nəticə (effect) isə təsadüfi hərəkətin və ya hadisənin (obyektiv səbəbin) yekunu kimi izah olunur.

Səbəb-nəticə əlaqəsi bildirən dil strukturunda fəlsəfi, məntiqi və dil kateqoriyalarının birləşdiyini əsas tutaraq kauzal kateqoriyanın presuppozisiyasının tərkibini aşağıdakı kimi görmək olar:

1. Kauzal korelyasiyanın komponentlərinin mühümlüyü. Səbəb və nəticə əlaqələrinin bir-birilə kauzal implikasiya vasitəsilə bağlanmasına baxmayaraq, onlar bir-birindən ayrı dil hadisəsi kimidir. Bu, kauzal kateqoriyanın korelyativ cütlüyü vasitəsilə ifadə olunur. (A⊥B)

(A) səbəb bildirdiyi halda (B) nəticə göstərir.

You were so strange the other day (A) *that I wondered if I did something to offend you.*(B)

2. Genetiklik. Yəni nəticə səbəbin genetik hərəkətinin yekunu kimi verilir. Səbəb və nəticə əlaqələrinin genetik planda tədqiqi kauzal implikasiyada korelyatların (A⊥B) aşağıdakı semantik əlamətlərə xas olduğunu göstərir.

(A) Törədən hadisə (B) Törənmiş hadisə

He wanted to arrange a foursome,but there was no one available(A), *so I saw him only at meals.(*B)

3. Zaman baxımından bütün hallarda səbəb nəticəni qabaqlayır.

(A) Öncə gələn hadisə (B) Sonrakı hadisə

I had a few bad moments (B) *because she arrived almost two months ahead of schedule.(*A)

Səbəb-nəticə budaq cümləli tabeli mürəkkəb cümlələrin hər iki komponentində xəbər bir qayda olaraq felin xəbər şəkli ilə ifadə olunur.

Araşdırmalar sübut edir ki, bu cümlələrdə ən çox keçmiş zaman istifadə olunur. Məsələn,

As she had no ideas of distance or steamboats, her notions were somewhat erroneous.

Tabeli mürəkkəb cümlə daxilində həm baş, həm də budaq cümlənin xəbəri eyni zamanla ifadə olunsa da, əksər hallarda nəticə səbəbi izləyir.Tabeli mürəkkəb cümlə komponentlərində xəbər müxtəlif zaman formaları ilə ifadə olunduqda belə, səbəb və nəticə mənalarının ardıcıllığının şahidi oluruq. Məsələn,

He cannot give a definite answer, because they parted long ago.

4. Məna əlaqəsi. Səbəb-nəticə əlaqəsi məntiqi əlaqəyə əsaslanır, yəni əgər A varsa, onda B də var.

(A) Səbəb olan hadisə (B) Şərtləndirilən hadisə

I have certain things I wouldn't do (A), *because they wouldn't please my class, my family. (*B)

Kauzal korelyasiyanın komponentləri semantik planda B-ni differensial əlamətlərin kompleksi kimi qəbul edir.

B mütləqdir, törənmişdir, sonrakı və şərtləndirilmiş hadisədir. Mürəkkəb cümlələrin ierarxik quruluşu presuppozisiya əlaqələrinin ifadəsinə zəmin yaradır.

Belə ki, mürəkkəb cümlələrdə presuppozisiyanın ifadəsi üçün budaq cümlələrdən istifadə olunur. Səbəb presuppozisiyaları əsasında da nəticə əlaqələrinin paradiqması yaranır. Bu transformasiyanın hər birində səbəb-nəticə mənası qalır, transformasiya isə bağlayıcıların dəyişməsilə baş verir. T paradiqma:

1. T kauz (*because*)
2. T gen. (*consequently*)
3. T temp (*first...then*)
4. T şərt (*if*)

T paradiqmada transformasiyaların bu cür sıralanması B-nin semantik əlamətlərini differensiallaşdırmağa kömək edir.

Tədqiqat obyekti kimi kauzal korelyasiyanın eksplisit markerlərinin (*because, since, as, so that, such that, for, so, therefore, so that)* birinin və ya heç birinin iştirak etmədiyi lakin intuitiv olaraq kauzal korelyasiyanın hər iki komponentinin mövcud olduğu mürəkkəb cümlələri götürmüşük. Bu cümlələrə parataksisdə *and, or,else, otherwise* bağlayıcıları, hipotaksisdə isə *when,if, so that, though* bağlayıcıları ilə bağlanan mürəkkəb cümlələr aid etmişik.

T paradiqmaya görə cümlə dörd transformasiya işləmindən keçməlidir.

Tədqiqat obyekti kimi çoxmənalı *and* bağlayıcılı cümləni götürək.

1. *Then on an instant the lights went out, and she was in complete darkness*.

T kauz: (A⊥B) - (B *because* A)

T kauz B komponentinin törənmiş hadisə olduğunu göstərir.

She was in complete darkness (B) *because on an instant the lights went out* (A).

2. T gen: (A⊥B) --- (A *consequently* B)

Then on an instant the lights went out (A), *consequently she was in complete darkness.*

T gen B komponentinin törənmiş hadisə olduğunu göstərir.

3. T temp: (A⊥B) ----- (*first* A, *then* B):

First on an instant the lights went out (A), *then she was in complete darkness*.

T temp B komponentinin növbəti hadisə olduğunu göstərir.

4. T şərt (A⊥B) ---- (*if not* A, *not* B)

If on an instant the lights didn't go out (A), she wouldn't be in complete darkness.

T şərt B-nin bir başqa əlamətini, şərtləndirilmiş hadisəni göstərir.

Nəticənin diaqnostik transformasiya paradiqması bizə tabesiz mürəkkəb cümlədə nəticə əlaqəsinin (B) differensial əlamətlərinin kompleksini təyin etməyə kömək etdi. *And* bağlayıcısı ilə bağlanan tabesiz mürəkkəb cümlələr də səbəb-nəticə əlaqəsi bildirdiyindən, demək biz üç tabesiz mürəkkəb cümləni tədqiq edərək, onun T paradiqmasına baxmalıyıq.

1) Then on an instant the lights went out,(A) and she was in complete darkness.(B)

2) Then on an instant the lights went out,(A) so she was in complete darkness.(B)

3) Then on an instant the lights went out,(A) so that she was in complete darkness.(B)

Əgər birinci, ikinci və üçüncü cümlə semantik cəhətdən ekvivalentdirsə, onda onlar nə ilə fərqlənir? T.A.Van Deyk mətn praqmatikasında bu sualı belə cavablandırır: "A⊥B ifadəsinin üst variantlarının seçimi məhz konkret danışıq kontekstindən yox, sırf ontoloji səviyyədə faktlar və obyektlər arasında əlaqədən yəni bilavasitə semantik fokusdan asılıdır. Bu fokusa tabesiz mürəkkəb cümlələrin komponentləri arasında olan əlaqə də aid edilir.

And bağlayıcısının semantikası aşağıdakı kimidir. *And* bağlayıcılı tabesiz mürəkkəb cümlənin həqiqi olması üçün, onun hər iki komponentinin həqiqi olması lazımdır. Öz-özlüyündə birinci cümlədə bağlayıcı A və B arasında sıx əlaqəni göstərmir. Buna baxmayaraq o, A və B

komponentlərinin bir- biri ilə əlaqələndirilməsinə, müəyyən dərəcədə onların fiziki, psixoloji, məntiqi mümkünlüyünə şərait yaradır. Beləliklə, birinci cümlədə *and* bağlayıcısının işlənməsi A və B komponentlərində verilən faktların şərtləndirilmiş münasibətini ifadə edir. Bu halda fokusda təsvir olunan hərəkətlərin ardıcıllığı durur.İkinci və üçüncü cümlələrdə, göründüyü kimi, semantik fokusda səbəb və səbəb əlaqəsi durur. Bu halda hər iki cümlədə B komponenti ya presuppozisiya, ya da ümumi kontekstdən yaranan təbii nəticədir. *So*, *so that* bağlayıcıları göstərir ki, onlardan sonra gələn B komponentləri A komponentlərində ifadə olunan fikirlərin mühakiməsidir.İkinci və üçüncü cümlələrin bənzərliyi onunla izah edilir ki, bu cümlələrin hər ikisində eyni ardıcıllıq öz əksini tapır: səbəb, səbəb əlaqəsi, motiv.

ƏDƏBİYYAT

1. Семантико-синтаксические особенности предложения в романо-германских языках., Ярославль, 1978
2. http://www.dslib.net/germanskie-jazyki/kauzalnye-svjazi-v-anglijskomslozhnopodchinennom-predlozhenii.html
3. Huddleston R., Pullum G., The Cambridge Grammar of the English Language, -Cambridge, 2003.
4. Kipling R., Poems, Short stories, Moscow, 1983.
5. F.Scott Fitzgerald, Selected short stories, Moscow, 1979

D.VEKILOVA

THE ADVERBIAL CLAUSES OF CONSEQUENCE IN MODERN ENGLISH

SUMMARY

The article deals with the adverbial clauses of consequence and result in Modern English. It is also noted that cause stands in a converse relationship with result: if X caused Y, then Y resulted from X, and vice versa.

As a result of logical and semantic analysis of the components of causal correlations, we come into conclusion that in terms of semantics consequence (B) can be represented as a set of distinctive features, as compulsory, generated, conesquential, conditional.

The article deals with some structural rypes of sentences in Azerbaijani and English.Also the following variants are analisedin the article:

-the simple sentence,the compound sentence,subjet clauses,predicative clauses,objet clauses,attributive clauses,adverbial clauses.

Д.ВЕКИЛОВА

СЛОЖНЫЕ ПРЕДЛОЖЕНИЯ ВЫРАЖАЮЩИЕ СЛЕДСТВЕННЫЕ ОТНОШЕНИЯ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье рассматриваются придаточные предложения следствия. В результате логике-семантического анализа компонентов каузальной корреляции мы приходим к выводу, что в семантическом плане следствие (В) можно представить в виде комплекса дифференциальных признаков, как обязательное, порожденное, последующее, обусловленное событие.

В данной статье также анализируется некоторые структурные типы сложного предложения в Английском и Азербайджанском языках и рассматривается нижеследующие варианты:

- простое предложение, сложное предложение, сложно-подчиненные предложение, сложно-неподчиненные предложение, подлежащие, сказуемые и прдаточные предложениедополнения и т.д.

Rəyçi: Dilarə Zeynalova
Filologiya üzrə fəlsəfə doktoru,dosent.

ELNARƏ ABBASOVA
ADİU
elnarə.@.mail.ru.

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ELLİPTİK CÜMLƏLƏRİN TƏSNİFATI

Key words: *text linguistics, cohesion, ellipsis, types of ellipsis*
Açar sözlər: *mətn dilçiliyi, koheziya, ellipsis, ellipsisin növləri*
Ключевые слова: *лингвистика текста, когезия, эллипсис, типы эллипсиса*

Müasir dilçiliyin ən aktual məsələlərindən biri də mətn dilçiliyidir. Müvafiq olaraq mətn dilçiliyinin tədqiqat obyektini mətn təşkil edir. Mətni xarakterizə edən, ona spesifik bir sıra əlamət və xassələr vardır. Bunlardan biri kimi mətnin tamlığını, bütövlüyünü qeyd etmək olar. Mətnin bütöv olması onun hərtərəfli dərk olunması üçün lazım olan başlıca tələblərdən biridir. Mətnin bütövlüyünü, tamlığını da şərtləndirən bir sıra amillər vardır. Bütöv olmaq üçün mətn eyni zamanda əlaqəli olmalıdır (1).Mətndaxili əlaqələr, onların struktur semantik parametrləri mətn dilçiliyi üçün vacib əhəmiyyət kəsb edir. Bu səbəbdən onların öyrənilməsinə bir çox linqivistik tədqiqatlar həsr olunmuşdur. Bu tədqiqatlar içərisində M.A.K. Halliday və R.Hasanın əsərlərini vurğulamaq olar. Müəlliflər öz əsərlərində mətndaxili əlaqəliliyi bildirmək üçün koheziya (cohesion) terminindən istifadə etmiş, koheziv vasitələrin əhatəli təsvirini vermişdir (2).Burada irəli sürülən əsas konsepsiya və konseptual əsasda koheziyanın leksik və qrammatik üsullarının təsnifatı çox böyük uğur qazandı. Lakin bununla yanaşı qeyd etmək lazımdır ki, həmin konsepsiyanın bütün müddəaları bütün linqivistlər tərəfindən qeyd-şərtsiz qəbul edilmədi.

De Boqrand və Dreslerin koheziya termininin izahı ilə bağlı fikirləri mövcuddur. Sözü gedən dilçilər və onlara həmfikir bəzi dilçilər yuxarıda qeyd olunan konsepsiyanı tənqid edərkən haqlı olaraq göstərir ki, M.A.K. Halliday mətn əlaqələrində dərinlik və səthi planlar arasında həddi düzgün müəyyənləşdirmir (9).Müəyyən məlumatın maksimal dərəcədə səmərəli ötürülməsi üçün mətn sintaktik və semantik çərçivəyə malik olmalıdır. Mətn həm də daxili təşkilatlanmaya, orqanizasiyaya malikdir (3).Mətnin səthi struktur elementləri olan dil ifadələri arasındakı əlaqələrdən, yəni koheziyadan danışmaq lazım gəlir (8). Koheziya linqivistik cəhətdən eksplisitdir və mətnin elementləri arasında semantik əlaqələri vurğulamaqla özünü göstərir. Ardıcıl cümlələr arasında semantik bağlar koherensiya və

koheziya üçün fundamentaldır. Fikrimizcə burada tematik ardıcıllıq, qanunauyğunluq olmalıdır. Məhz bu cür ardıcıllıq və qanunauyğunluq koheziya ilə koherensiyanın qarşılıqlı əlaqəsini və onların birinin digərini vurğulamasını şərtləndirən amillər sırasına daxildir.

Ulla Connor koheziyaya aşağıdakı təyinatı verir: " Koheziya cümlələr və mətnin hissələri arasında əlaqələri göstərmək üçün istifadə eksplisit linqivistik vasitələrin işlədilməsidir. " Bu cür koheziv vasitələr oxucunun öncəki müddəaları müvafiq olanlarla əlaqələndirməyə köməkçi olan ifadə və sözlərdən ibarətdir. (4)Mətn tekstuallığın tələblərinə cavab verən kommunikativ hadisədir. Mətnin tamlığını təyin edən standartları mövcuddur ki, bunlara koherensiya (mətnin alt qatlarından bəhs edir, o, mətn istifadəçiləri arasında koqnitiv proseslərin məhsuludur.), intersionallıq və koheziya aiddir. Qeyd edildiyi kimi koheziya mətnin üst qatının komponentlərindən, yəni bizim eşidib yaxud gördüyümüz real sözlərin əlaqə daxilində qarşılıqlı birləşməsini bildirən yollardan bəhs edir. Fikrimizcə əsas olaraq bunlardan aşağıdakıları vurğulamaq lazımdır: qrammatik-referensiya; substitusiya; ellipsis; leksik-qrammatik-bağlayıcı; leksik koheziya;Biz bu məqalədə qrammatik koheziyanın növlərindən biri olan ellipsisdən danışırıq.

Generativ dilçilikdə ellipsis termini bir sıra hadisələrə aid edilir, onların dərk edilən mənası linqivistik formalarla ifadə edilən mənasından daha əhatəlidir. Ellipsis o zaman yaranır ki, struktur cəhətdən vacib olan buraxılmamış, deyilməmiş olsun. (5)Ellipsis leksiko-qrammatik kateqoriyadır. Mətnə xas olan bu hadisə zamanı adətən mətn vahidlərinin, yəni sözlər, birləşmələr, budaq cümlələr və s. işlədilməməsi baş verir. Ellipsisdə əvəz etmə mümkündür. Ellipsis anaforik səciyyə daşıyır, nadir hallarda katafori ola bilir (4). Bu fenomenon həm yazılı, həm də şifahi mətnlərə xas tipik cəhətdir, baxmayaraq ki, o daha çox danışıqda peyda olur, çünki danışıq daha az eksplisit olmağa meyllidir. Ədəbiyyatda, bədii əsərlərdə dialoq, danışıq əlavə edilirsə o, ellipsislə zəngin olur.Ellipsis danışığa xas, situasiyadan doğan tipik hadisədir. Bu məqsədyönlü şəkildə edilən bir vasitədir. Ellipsis hadisəsi zamanı söz və ifadələri cümlələrdən bilərəkdən, məqsədəuyğun şəkildə buraxılır, baxmayaraq ki, məna başa düşülə bilir. Adətən o söz ifadələr buraxılır ki, onlar lüzumsuzdur, onların adı artıq əvvəl çəkilir və qeyd olunur. Ellipsis birləşmələrdə, qısa cavablarda və s. müşahidə olunur. Kiçik bir nitq nümunəsinə nəzər salaq:

A)Where are you going?B)To town:Tam cavab belə olmalı idi. " I'm going to town "

Ümumiyyətlə ellipsis anlaşılması sadə, mətnin əlaqələnməsində isə olduqca mühüm əhəmiyyətə malik dil fenomenidir. Onun unikallığı lazımı dil vahidinin işlənmədiyi hallarda mətnin bütövlüyünün təmin olunması,

məzmunu ötürücünün niyyətinə müvafiq olaraq çatdırıla bilməsidir.Ellipsis bu və ya digər mətndə hər hansısa bir mətn vahidinin (sözlər, cümlələr, birləşmələr, budaq cümlələr) işlədilməməsi və yaxud məqsədəuyğun şəkildə buraxılması, asanlıqla bərpası mümkün olsa da, buna ehtiyacın duyulmadığını, əsasən şifahi şəkildə ifadə olunan mətnlərə xas, nitqə yüngüllük gətirən, lakin mənaya xələl vurmayan danışanın zaman və dil vahidlərinə qənaət niyyətindən irəli gələn, əvvəlki ifadədən və ümumi mənadan asanlıqla bərpa oluna bilən çox mühüm koheziya vasitəsidir.

Ellipsisin 3 növü vardır: Nominal ellipsis; Klausal ellipsis; Feli ellipsis;1-ci növ ellipsis nominal birləşmə daxilində sözün buraxılmasıdır.Məsələn, The teacher went to the board and (he\ the teacher) wrote on it.Feli ellipsis dedikdə feli birləşmə daxilində mövcud hansısa elementin buraxılması nəzərdə tutulur.Məsələn, Have you been swimming? Yes, I have (been swimming üçün boşluq qoyulmuşdur.)I could tell you, but I won't.

Elliptik feli birləşmənin mənasının birləşmədəki sözlərdən anlamaq olur. Buraxılmış sözlərin yeri bir növ dolu olur.Klauzal ellipsisdə ellipsisə fərqli yanaşılır. Budaq cümlə başlanğıc nöqtəsi kimi götürülür. İngilis dilində budaq cümlə müxtəlif nitq funksiyalarının (təsdiq, sual, cavab və s.) ifadəsi kimi başa düşülür. Bu iki hissədən ibarət olur. Modal element və propozisional elementə bölünür.

Məsələn, The Duke was (modal element) going to plant a row of poplars in the park

What were they going? Holding hands (They were üçün boşluq qoyulmuşdur)

Ellipsis hadisəsi o zaman müşahidə olunur ki, vacib bir struktur element cümlədən buraxılır və yalnız əvvəlki mətndəki elementə istinadən bərpa oluna bilir.A. Why'd you only set three places? Paul's staying for dinner isn't he?Aşağıda müəyyən bədii əsərdən götürülmüş nümunəyə nəzər salaq.They hauled Piggy clear of the wreckage and leaned him against tree. The night was cool and purged of immediate terror. Piggy's breathing was little easier.

Did you hurt, PiggyNot much.That was Jack and his hunters, said Ralph bitterly. Why can't they leave us alone.We gave them something to think about, said Sam. Honesty compelled him to go on. At least you did. I got mixed up with myself in a corner.

I gave one of them what for, said Ralph, Is mashed him up all right.He won't want to come and fight us again in a hurrySo did I, said Eric. When I woke up one was kicking me in the face. I got an awful bloody face, I thing, Ralph. But I did him in the end.What did you do?

I got my knee up, said Eric with simple pride, and I hit him with in the… You should have heard him holler! He won't come back in a hurry either. So we didn't do too badly.

Ralph moved suddenly in the dark; but then he heard Eric working his mouth.What's the matter?Just too loose.Piggy drew up his legs.You all right, Piggy?Thought they wanted the conch.Müəyyən əsərdən götürülmüş yuxarıdakı hissə əsasən dialoq nümunələrindən təşkil olunmuşdur və bu dialoqlarda müvafiq sözlərin buraxıldığını müşahidə etmək mümkündür. Diqqətlə nəzər salsaq, görərik ki, işlədilməyən elementlərin bərpa edilməsi istənilən halda mümkündür, lakin onların buraxılması nitqə ağırlıq gətirməmək üçün edildiyindən deyilməyən dil vahidlərinin mövcud olduğu ifadələrin verildiyi kimi saxlanılması məqsədəuyğundur.Bildiyimiz kimi ellipsis zamanı hansısa bir söz buraxılır. Ellipsis bu cəhətdən koheziyanın digər növü subtitusiyanı xatırladır. Bu iki hadisəni ayırmaq çətinləşir, lakin qeyd etmək lazımdır ki, ellipsis sözün birləşmənin cümlənin "sıfır" morfemlə əvəz olunmasıdır. Praktiki nöqteyi-nəzərdən hər iki anlayışa ayrıca yanaşmaq məqsədə uyğundur. Baxmayaraq ki, substitusiya da, ellipsis də mətnin hissələri arasında mövcud eyni fundamental əlaqəni əhatə edir və bunlar struktur mexanizminin iki müxtəlif növüdür. Ellipsis deyilməyəni ifadə edir (something unsaid). Lakin o demək deyil ki, deyilməyən anlaşılmayandır, əksinə "deyilməyən" altında "hər vəziyyətdə başa düşülən" nəzərdə tutulur.

Məsələn., Histories make men wise; poets witty; the mathematics subtle; natural philosophy deep; moral grave; logic and rhetoric able to contend.

Yuxarıda verilən cümlələrin strukturlarına nəzər salsaq, görərik ki, birincidən başqa hamısının xəbəri buraxılmışdır. Cümlələr mübtəda və komplementdən ibarətdir. Budaq cümləsi aşağıdakı şəkildə şərh etmək olar. İkinci budaq cümlə *poets make men witty*; üçüncü cümlə *mathematics make men subtle*; dördüncü cümlə *natural philosophy makes men deep* beş və altıncı cümlələr də müvafiq şəkildə şərh olunur.

ƏDƏBİYYAT

1. A.Məmmədov "Mətnin yaranmasında formal əlaqə vasitələrinin sistemi" Bakı, "Elm" 2001. 144s səh 25-58
2. Halliday, M.A.K. and Hasan, R., Cohesion in English. London: Loğman, (1976)
   Галъперии И.Р. Текст как объект лингивистических иследований. М.1981.

E.ABBASOVA.

THE TYPES OF ELLIPSIS IN ENGLISH AND AZERBAIJANI LANGUAGES

SUMMARY

This article deals with one of the types cohesion – ellipsis. Here the types of ellipsis are singled out and studied. The peculiarities of ellipsis are analyzed on the basis of certain examples.In the article the main conception of elliptic sentences is also analized in English and Azerbaijani and noticed the thoughts of wellknown scientists and lingnists.

The article deals with some sitactical pacularities ellipsis of English words in the Azerbaijani language,also is educated actual problem of contemporary linguistics.The functional ellipsis of the simple sentence in modern English and Azerbaijani language,in the function anf spoken language are considered in thos ellipsis.The article speaks about the word-order in contemporary literarural Anglish,its compare with Azerbaijani,also some kinds ellipsis of simple and compround sentences English language.

Э.АББАСОВА.

ЭЛЛИПТИЧЕСКИЕ ПРЕДЛОЖЕНИЯ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ.

РЕЗЮМЕ

В етой статъе рассматривается один из видов когезии эллипсис. Здес выделяются и изучаются определенные виды эллипсиса. Свойства эллипсиса анализируются на базе конкретных применов.В статъе также анализируются основные концерсия эллинтические придложения в англиском и азербайджанском языках.Синтаксис-эта част грамматики языка,указывающая правила соединениние слов и словосочетания в предложениях. В статье также рассматривается некоторые аспекты эллисиса в современном Английском и Азербайджанском языках,его роль и значения в художественном и разговорном речи.

В данной статье также анализируется активное употребление эллипсиса в простых и сложных предложениях,их некоторые виды в современном Английском и Азербайджанском языках.

Rəyçi: Rəfiq Cəfərov
Filologiya elmləri namizədi, dosent

SEVİNC HÜSEYNOVA
ADİU
Sevinc.@.mail.ru.

QƏDİM VƏ ORTA ƏSRLƏRDƏ İNGİLİS DİLİNİN SİNTAKSİSİNDƏ BAŞ VERƏN ƏSAS DƏYİŞİLİKLƏR

Açar sözlər: *ingilis dili,sintaksis,qədim dövr,orta əsr,dəyişilirlər.*
Ключевые слова: *английский язык,синтаксис,трансформация*
Key words: *English,sintaksis,transformation.*

Müasir ingilis dilində olduğu kimi qədim ingilis dilində də məqsəd və intonasiyasına görə cümlənin üç növünü fərqləndirmək olar:

1.Nəqli cümlə - bu özü də təsdiq və inkar formasında ola bilər, məs.:Nu wille we secgan be suban Donna paere ea ymbe Creca land… (Orasius) (Now will we speak about Greece, on the south of the river Danuba)

Hem liste nat to go to bedde sone. (They did not like to go to bed soon)

2.Sual cümləsi, məs.

Hu moeg se ealda mann eft beon acenned ? (how can the old man be born again?)

Qədim ingilis dilindəki sual cümlələrindən danışarkən Peter S.Baker fel+mübtəda (V+S) söz sırasının sual cümlələri üçün xarakterik olduğunu yuxarıdakı misalla izah etmişdir. O, qeyd edirdi ki, bu tip cümlələr sual sözü ilə başlasa da, başlamasa da, V+S söz sırasına malik olurlar (13). Başqa bir mənbədə də qədim ingilis dilində sual cümlələrinin mübtəda və xəbər inversiyasının nəticəsində əmələ gəldiyi qeyd olunur. Bu cür cümlələrdə "do" köməkçi sözü tələb olunmurdu(12).Hwaet getacniad donne da twelf oxan buton da XII apostolas? (What signify then those twelve oxen except those XII apostles?) Gördüyümüz kimi hər iki mənbədə də sual cümləsinin mübtəda və xəbərin yerdəyişməsi nəticəsində əmələ gəlməsi qeyd edilmişdir. Bununla belə Peter S.Baker bu cür söz sırasının (V+S) həm də nəqli cümlələrdə də ola biləcəyini göstərmişdir. O, "Beowulf" əsərindən belə bir misal çəkir.Eart pu se Beowulf, se pe wid Brecan wunne. (7, 23)Baker qeyd edir ki, bir çoxları bu parçanı sual cümləsi kimi tərcümə edirlər: "Are you the Beowulf who contended with breca?" Lakin, müəllif təkidlə bu cümlənin nəqli cümlə olduğunu söyləyir. "You are that Beowulf? the one who contended with Breca!"(13).Qədim ingilis dilindən sual cümlələri müxtəlif

vasitələrin köməyi ilə əmələ gəlmişdir. Bu vasitələrə sual əvəzliklərini və zərflərini, yuxarıda haqqında danışdığımız cümlənin baş üzvlərinin inversiyasını (burada xüsusi sualların yaranması nəzərdə tutulur) və ya sadəcə inversiyanı (burada isə ümumi sualların düzəldilməsi nəzərdə tutulur) aid eləmək olar. O dövrdə sual cümlələrində işlənən əvəzliklərə Hwaet (what), hwa (Who is that man?); Hwaet sceal ic sinzan? (What shall I sing?); Hwylc is min modor? (which is my mother?)

Bununla yanaşı qədim ingilis dilində xüsusi sual vermək üçün bu cür sual zərflərindən də istifadə olunmuşdur: Hwanne (when), hu (how), hwy (why), hwaeder, hwider (where) və s. Bu zərflərdən sonar da baş üzvlərin inversiyası olur. Məs.: Hwider hweorfad we? (Where do we set out?) (10? 268-269) Suzan Pintzuk qeyd edir ki, "Helsinki corpus"- da ponne (then) zərfinin daxil olduğu 43 "vh-sualların"dan birində vh-tərkibi ilə təsriflənən fel arasında zərf işlənir: Forhwy ponne sceal anegum men dyncean to rede odde to uniede? (Why then shall it seem too severe or hard to any man?)

O göstərir ki, 42 sual cümləsində isə zərf təsriflənən feldən sonrta işlənir. Məs.: Bid he ponne buton swylce stan oppe treow? (What is it then but like stone or log?); Hwaer beop ponne his welan and his wista? (Where are then his riches and his feasts?) (8,164).

1. Əmr cümləsi: cümlənin bu tipinə gəldikdə isə müasir ingilis dilində olduğu kimi qədim ingilis dilində də əmr cümləsi fellə başlamışdır. Bu da onun fel əsasında qurulduğunu göstərir. Məs.: Brinz pa pinz (Bring those things); Beod ze on soelum (Be you happy); Brinz me tva pa betstan tyccenu (Bring me tvo, the best kids). Misallardan göründüyü kimi burada II şəxsin təkinə və yaxud cəminə müraciət olunur..Qədim ingilis dilində də yuxarıdakı cümlə növləri yüksək hiss və həyacanla ifadə edildikdə nida cümləsi kimi işlədilmişdir. Məs: and cwoed: "Foeder min" (and said: "My Father!"); Cedmon, sinz me hwoet – hwuzu! (Cedmon, sing me something!)Qədim ingilis dilində struktur cəhətdən nida cümləsi əmr cümlələrində demək olar ki, fərqlənməmişdir. Onlar yalnız tonun dəyişməsi və emosionallıq dərəcəsinə görə bir - birindən seçilirdilər. Belə bir misala nəzər salaq: Doet woes zod cyninz ! (That was a good king!) (10, 270).

Orta ingilis dili və erkən yeni ingilis dili dövründə cüttərkibli cümlənin kommunikativ tiplərinin strukturunda müəyyən dəyişikliklər baş verir. Orta ingilis dilində cümlənin kommunikativ tiplərindən olan sual cümləsinin qurulmasında elə bir əhəmiyyətli dəyişiklik baş vermir. Onu qeyd edə bilərik ki, bu dövrdə sual cümlələrinin ümumi və

xüsusi tiplərində felin analitik formaları ilə əlaqədar olan natamam inversiya halları daha da artmışdır.

Sual cümlələrinin yaranmasında əsaslı dəyişikliklər isə məhz erkən yeni ingilis dili dövrünə təsadüf edir. Bu yeniliklər cümləıdə sabit söz sırasının yaranması ilə bağlı olmuşdur. Dövrün ilk vaxtlarından cümlədə sintaktik münasibətlərin əsas ifadə vasitəsi söz sırası olmuşdur. Bu dövrdə sual cümləsində ki, sıraya əsasən sözönsüz tamamlıq feldən sonra işlənmişdir. Məhz elə bu vəziyyətdə sözönsüz işlənən tamamlığın əsas sintaktik əlamətinə çevrilmişdir. Lakin bununla belə XVI əsrin əvvəllərində bəzi sual cümlələrində xəbərlə sözönsüz tamamlığın arasında mübtədanın işləndiyi hallarda olurdu. Məs.: Eat cats mice? Orta ingilis dilində sual cümlələri ilkə qarışıqlıq tam inversiyanın olduğu hallarda ortaya çıxmışdır. Belə ki, tam inversiya zamanı köməkçi feldən istifadə olunmadan indiki və ya keçmiş zamandakı xəbər cümlənin əvvəlində işlənmişdir. XVI əsrin əvvəllərində indiki və ya keçmiş qeyri-müəyyən zamanda olan cümləyə istər ümumi, istərsə də xüsusi sual verərkən tam inversiya baş vermişdir. Məs.: Call you? What find I here?

Sual cümlələrinin bu cür işlənməsi erkən yeni ingilis dili dövrünə qədər davam etmişdir. Tədricən erkən yeni ingilis dilində indiki və keçmiş qeyri – müəyyən zamanların analitik formaları olan "do" və "did" köməkçi fellərindən istifadə olunmağa başlanmışdır. Qeyd etmək lazımdır ki, "perifrastik" (yəni, semantik yükə malik olmayan) "do" ilk dəfə XIII əsrdə meydana gəlmiş, ancaq o dövrdə onun nə inkarlıq, nə də inversiya ilə heç bir xüsusi əlaqəsi olmamışdır (11, 156).

Köməkçi fel kimi "do" sözündən XV əsrdən başlayaraq həm sual, həm də inkar cümlələrinin qurulmasında istifadə olunmağa başlamışdır. Xüsusən də, sual cümlələrində "do" köməkçi felindən istifadə olunması cümlədə mübtəda və xəbərin yerinin sabitləşdiyini göstərirdi. Qeyd edək ki, erkən yeni ingilis dilinin sonlarına yaxın "do" və "did" analitik forması xüsusi sual cümlələrinin yaranmasında istifadə edilirdi. Məs: Why did you not speak to him? (3, 202)

Bu dövrün görkəmli siması V.Şekspirin əsərlərində həm "do" ilə, həm də onsuz işlənən xüsusi suallarada rast gəlmək olur. Məs.: What meanes this, my lord?;How like you this play?; What doe you call this play? və s.

Ümumi sualların düzəldilməsində hələ uzun müddət qədim quruluş tipindən istifadə olunmuşdur. Belə ki, XVIII əsrin ortalarına qədər ümumi suallar tam inversiyanın köməyi ilə (yəni, köməkçi feldən istifadə olunmadan felin, cümlənin əvvəlinə keçməsi ilə) qurulmuşdur. Məs: Seemed he a gentleman?; Know you to whom you

speak? Ümumi sual cümlələrinin müasir dövrdəki quruluşu isə ancaq 1750-ci ildən sonra formalaşmağa başlamışdır (10, 269).

"Do" köməkçi felindən danışarkən Kroch məsələnin funksional izahını verməyə çalışmışdır. O qeyd edir ki, cümlədə işlənən "do" dinləyiciyə mübtəda və tamamlığı fərqləndirməyə kömək edir. O, "V+NP+NP" modelli cümlə ilə " Do+NP+V+NP"modelli cümləni fərqləndirir. Kroch fikrini bununla əsaslandırır ki, ikinci modeldəki "do" sözünün köməyi ilə ondan sonra işlənən birinci NP-in mübtəda olmasını söyləmək çətin deyildir (6,72).

Müəllif öz araşdırmasında beş cümlə tipinin həm qədim, həm də müasir dövrdəki strukturlarını fərqləndirmiş və diqqəti də "do" köməkçi felinin işlənməsinə yönəltmişdir. O, bu cümlə tiplərinə nəqli inkar (negative declarative), sual inkar (negative question), təsdiqdə olan təsirli sual (positive question transitive), təsdiqdə olan təsirsiz sual (positive question intransitive) və təsdiqdə olan "wh-obyekt" suallarını (positive wh-object) aid etmişdir.

Bundan başqa "do" sözü nəinki köməkçi fel kimi sual cümlələrinin yaranmasında, həmçinin fel əvəzləyicisi kimi nəqli cümlələrdə də istifadə edilmişdir. "Do" sözünün bu mənada işlənməsi əsas fel olmadan işlənən modal və köməkçi fellər kimi, cümlədə xəbərin yerini də boş qala bilməyəcəyini göstərmişdir. İngilis dilinin tarixində diqqəti cəlb edən məsələlərdən biri də müəyyən dəyişikliklərə məruz qalmış inkarlıq olmuşdur. Qədim ingilis dilinin sintaksisindən məlum olduğu kimi o dövrdə inkar cümlələrinin yaranmasında iki və daha çox inkarlıq bildirən elementdən istifadə olunurdu. "Ne" ədatı qədim dövrdə beon (to be), habban (to have), willan (to want), witan (to know) kimi fellərlə birləşib cümlədə inkarlığı bildirmək üçün işlənirdi: ne+isnis; ne+waes > naes; ne+waeron naeron; ne+ hadde nadde; ne+had nad və s.Qədim ingilis dilinin sonlarına yaxın başqa qüvvətləndirici inkar ədatı naht (noht) inkar cümlələrinin düzəldilməsində istifadə olunmağa başlayır (4,96).

ƏDƏBİYYAT

1. Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Maarif,1996.
2. Abdulrahimov E.H. The ABC of the history of the English language. Baku: Mütərcim, 2005.
3. İlyish B.A. History of the English Language. Leningrad,1973.

S.GOUSSEYNOVA

THE CHANGES IN THE COMMUNICATIVE TYPES OF THE SENTENCE IN THE COURSE OF THE HISTORICAL DEVELOPMENT OF THE ENGLISH

SUMMARY

The article focuses on the changes in the communicative types of the sentence throughout the development of the English language.The content of the article comprises the following problems: -the changes happened in the structure of the declarative sentences; -the use of the analytical forms in the formation of the negative and interrogative sentences; the formation of the imperative and exclamatory sentences in the course of the historical development of the English language, etc.

Here is presented different examples from old, Middle and Modern English literature in order to interpret this theme. The article is also devoted some kinds of verbs in simple and compround sentences,their role and significance in morphological system analisis the construction of a sentences and phrase in context of praramatically prononciation.

С.ГУСЕЙНОВА

ТРАНСФОРМАЦИЯ В СТРУКТУРЕ СИНТАКСИСЕ В ДРЕВНЕЙ И СРЕДНЕЙ АНГЛИЙСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

В статье рассматривается трансформация в синтактическом структуре в средней и древней английского языка,их типология на современном этапе,взаимосвязь родственных языков и коммуникативные формы синтаксиса и их употребление на современном этапе. В статье также анализируется история языковые и культурные связи английского языка с другими Западноевропейскими языками а также рассматривается в древнем английского языка синтактические трансформация в составе предложений и его всесторонные развития в историческом этапе. В статье также рассматривается основные трансформация в структуре синтаксисе в простых и сложных предложениях в древней и средней эпохах в Англии и анализируется с современным синнтаксисом Английского языка.В данной статье рассматривается также конструкция предложения и фразы в древней и средней эпохах Английского языка в контекстах прагьатических пропозициях.

Rəyçi: Nuriyyə Rzayeva
Filologiya üzrə fəlsəfə doktoru,dosent

f.e.n., baş müəl.KADIYEVA SEVDA
Azərbaycan dili və nitq mədəniyyəti kafedrası
Azərbaycan Tibb Universiteti

TİBB UNİVERSİTETİ TƏLƏBƏLƏRİNİN NİTQDƏKİ QÜSURLARI VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

Ключевые слова: речь, недостаток, слово, студент, врач, внимание, значение
Açar sözləri: nitq, qüsur, söz, tələbə, həkim, diqqət, əhəmiyyət
Keywords: speech, defect, word, student, doctor, attention, mean

Məlumdur ki, qədim dövrlərdən insanlararası əlaqələr nitqin köməyi ilə mümkün olurdu. Hələ o vaxtlardan nitqə böyük diqqət və əhəmiyyət verilirdi.

Nitq vərdişləri insanlara nəsillikçə keçmir, o birdən-birə də peydə olmur. Bu vərdişlərə insan tədricən yiyələnir. Nitq bacarıqlarına yiyələnmək bütün peşə sahibləri və hamı üçün vacibdir.Gözəl danışığa, sözdən düzgün və yerində işlətmək bacarığına malik olmaq, əsasən, tibb işçiləri üçün çox vacib bir amildir.

Məlumdur ki, heç bir peşə tibb kimi həyatla sıx əlaqədə deyil. İnsanlar öz həyatlarını, uşaqlarını, doğmalarını həkimlərə etibar edir. Həkimlik peşəsi daxili etik mədəniyyət tələb edir, həkimin hər işlətdiyi sözün böyük əhəmiyyəti var və söz möcüzələr yaradan mühüm vasitələrdən biridir.Sözün köməyi ilə xəstəyə yaxşılaşması ümidini vermək, bəzi hallarda ürəkləndirmək olar. Həkim tərəfindən bacarıqla deyilən söz terapevtik əhəmiyyətli vasitə kimi ola bilər və xəstənin vəziyyətinin yaxşılaşmasına, inamının möhkəmləndirilməsinə doğru apara bilər. Nahaq yerə deməyiblər ki, "söz həm məlhəmdir, həm də yara". V.M.Bexterev həkimin xəstələrlə ünsiyyətə böyük əhəmiyyət verərək deyirdi: "Əgər həkimlə söhbətdən sonra xəstənin halı yaxşılaşmasa, deməli o, həkim deyil".

Həkimin, ümumiyyətlə, tibb işçilərinin nitqində diqqətini əsasən nəyə yönəltmək lazımdır? İlk növbədə - səsin intonasiyasına (tonuna). Həkimin intonasiyası həmişə mülayim olmalıdır. Öz xeyirxah təbəssümü və baxışı ilə həkim xəstəyə, sanki, çatdırmalıdır ki, "mən sənə kömək etmək istəyirəm".Tibb işçilərinin nitqində kəskin, sərt sözlərə və ifadələrə yol verilməməlidir. Onlar öz sözləri və jestləri ilə xəstələrdə özlərinə qarşı inam yaratmalıdırlar.

Tibb işçilərinin nitqində əsas keyfiyyətlərdən biri – nitqin aydınlığı, sadəliyi və asan başa düşülməsidir. Xəstə isə öz şikayətlərini bildirərək əmin

olmalıdır ki, ona diqqətlə qulaq asırlar, başa düşürlər və kömək etməyə çalışırlar. Bir sözlə, həkim nitqinin keyfiyyətlərindən biri də inandırıcılıq, qaneedicilikdir. Nitqin inandırıcı olması üçün həkim öz sözlərinin dəqiqliyinə əmin olmalıdır. Tibb işçisinin söz ehtiyatı nə qədər zəngin olsa, xəstələrlə ünsiyyətdə olmaq bir o qədər asan olar.

Həkimlik peşəsi üçün dinləmə və eşitmə bacarığı da vacib keyfiyyətlərdəndir. Xəstənin şikayətlərinə qulaq asma bacarığı hərdən dərmanlardan da vacib olur, bəzi hallarda isə müalicənin düzgün yolunun tapılmasına da kömək edir. Həkimlik peşəsində hər bir şey vacibdir: həkimin özünü necə təqdim etməyi, xəstə ilə necə ünsiyyət qurması, onu necə dinlənməsi, sualların cavablanması, hər hansı nəticələrə gəlməsi və s. Bunların hamısını nəzərə alaraq sual yaranır. Sadalağımız bütün keyfiyyətlərə gələcəyin həkimləri, indiki Azərbaycan Tibb Universitetinin tələbələri "Azərbaycan dili və nitq mədəniyyəti" kursunun öyrənilməsi prosesində necə nail ola bilərlər?

"Azərbaycan dili və nitq mədəniyyəti" fənni Tibb Universitetində tədris olunan əsas fənlərdən biridir. Bu kursun əsas məqsədi tələbələrin nitq mədəniyyətinin inkişafıdır. Nitq mədəniyyəti əsaslarının öyrənilməsi gələcəyin həkimləri üçün ona görə vacibdir ki, öz vəzifə borcunu yerinə yetirərkən həkimlər xəstələrlə, onların qohumları, öz kolleqaları ilə daima ünsiyyətdə olurlar və işlə bağlı lazım olan sənədləşməni edirlər. Cox vacibdir ki, gələcəyin həkimləri savadlı olsun, həm yazılı, həm şifahi ədəbi nitqə yiyələnsin, öz doğma dilinin müasir dövrdə əhəmiyyətini dərk etsin, ona xüsusi qayğı ilə yanaşsın, dilin incəliklərini və gözəlliyini anlasın, mətnləri təhlil etməyi bacarsın və müxtəlif üslublardan istifadə edərək öz nitqlərini qursunlar.

"Azərbaycan dili və nitq mədəniyyəti" kursunun keçməsi üçün 60 saat ayrılıb. Qeyd etdiyimiz gələcək həkimlər üçün vacib bacarıqlara yiyələnmək üçün bu vaxtı kifayət hesab etmək olmaz. Fənnin Proqramı tələbələrin mədəni nitqə yiyələnmək üçün dilin lüğət tərkibinə dərindən bələd olmaq, onun fonetik, leksik və qrammatik normalarını mükəmməl öyrənmək, dil qanunlarını nitqdə düzgün tətbiq etməsinə istiqamətləndirilib.

ATU-ya daxil olan tələbələr Azərbaycanın müxtəlif bölgələrindən gəlir və sözləri yaşadıqları yerin danışıq tərzinə uyğun işlədirlər. Məlumdur ki, hər bölgənin öz dialekt, şivə və ifadələri var.Tələbələrin nitqində dialekt xüsusiyyətləri ən çox fonetik səviyyədə və heca vurğusundan düzgün istifadə edilməməsində müşahidə olunur və bu da tələbələrin nitqinin pozulmasına səbəb olur. Belə hallar vaxtında aradan götürülməsə gələcəyin ziyalıları dilə məsuliyyətsiz yanaşacaq və ədəbi dilin normalarını pozaraq danışacaq. Bunu nəzərə alaraq, müəllimin işi tələbələrin tələffüzünə, onların dialektlərdən və həmin dialektə xas olan intonasiyadan azad olmasına istiqamətlənməlidir.

Respublikamızda Azərbaycan dili – Dövlət dilidir və həkimin xəstə ilə ünsiyyəti bu dil vasitəsi ilə həyata keçir. Qeyd etmək lazımdır ki, bu ünsiyyətdə bir çox qüsurlara rast gəlirik. Təəssüf ki, bəzi həkimlərin dilində nitq qüsurları tez-tez müşahidə olunur. Bəzi həkimlər bir neçə cümlədən ibarət fikrini aydın, rəvan, səlis dillə ifadə etməkdə çətinlik çəkirlər, öz aydın və dəqiq olmayan söhbətləri ilə xəstələri çox halda narazı qoyurlar. Doğrudanmı səlis, rəvan, gözəl danışmağı bacarmaq belə çətindir? Axı gözəl danışığa yiyələnmək həyatda qazanılır və hər kəsin özündən asılıdır.

Düzgün, dəqiq, savadlı nitqə yiyələnməsi Tibb Universitetinin tələbələri üçün çox vacibdir və gələcəyin ziyalıları – Universitetin tələbələri özləri bu nəticəyə gəlirlər ki, düzgün, aydın, təsirli danışmaq nüfuzludur. Belə nitq danışanın yüksək mədəniyyətinin göstəricisidir və belə nitqlə xəstənin etibarını qazanmaq mümkündür. Söz ehtiyatının və leksikasının zənginləşməsi - həkimin nitq mədəniyyəti üçün çox vacibdir. Buna görə də artıq ilk məşğələlərdə tələbələrə xüsusi bir lüğətin tutulması məsləhət görülür. Bu lüğətdə bütün yeni və mənası aydın olmayan sözlər və terminlər qeyd olunmalıdır.

Nitq mədəniyyəti üzrə aparılan dərslərdə sərbəst mövzuların hazırlanması əhəmiyyətli rol oynayir.Sərbəst məruzələr tələbələrin dünyagörüşünü artırır, istənilən bir mövzuda öz fikirlərini bildirməklə yanaşı, nitq mədəniyyətinin tələblərinə riayət edərək öz düşüncələrini müstəqil formada təqdim etmək vərdişlərini yaradır. Tələbələrə sərbəst mövzuları verərkən prezentasiyaların (təqdimatların) hazırlanması da təklif oluna bilər. Müəllim sərbəst mövzulara və belə təqdimatların hazırlanması üçün mövzuların seçilməsində kömək edə bilər. Məsələn, tibb elmi ilə bağlı mövzular: "Sözlə necə müalicə etmək olar", "Həkimin xəstəsi ilə söhbət", "Həyat davam edir", "Həkimin kodeksi", "Laboratoriyada", "Həkim müayinəsində", "Xəstənin şıkayətləri", " Hər kəs öz sağlamlığının qayğısına qalmalıdır" və s. Tələbələrin vətənpərvərliyini artırmaq üçün onlara başqa müxtəlif mövzular təklif olunmalıdır. Məsələn, Azərbaycanın Dövlət xadimləri, Respublikamızın görkəmli şəxsiyyətləri, milli qəhrəmanlar, muzeylər, heykəllər, kitabxanalar və s.Bu nəinki düzgün nitqin formalaşmasına kömək edəcək, həm də vətənpərvərliyi artıracaq.

Tələbələrin cıxışlarından sonra məruzələrin qiymətləndirilməsi təxminən bu sxemlə aparılmalıdır:

1.Mövzu və məqsəd maraqlıdırmı? Aktualdırmı?

2.Girişi maraqlıdırmı? Diqqəti cəlb etmə üsulundan istifadə olunubmu? Cox yorucu deyil ki?

3.Əsas hissənin planı düşünülmüşdürmü? Materialın hamısı mətləbə uyğundurmu? Nümunələr yetərlidirmi? Məzmunu konkretdirmi? Məqsədə nail olunmuşdurmu?

4.Nəticə aydındırmı? Deyilənlərə yekun vurulubmu?
5.Tələffüz zamanı danışan özünə inanırmı? Duruşu düzgündürmü? Jestlər? Nitqin tempi düzgündürmü? Monoton deyil ki? Auditoriya ilə ünsiyyət yaradılmışdırmı? Nitq nöqsanları varmı?
6.Mühazirəçiyə məsləhətlər.

Məşgələlərdə oyun situasiyalardan istifadəsi dərsi praktiki cəhətdən daha da əhəmiyyətli edər. Məsələn, müəllim tələbələrə belə bir oyun situasiyasını təklif edə bilər:

a)Nitq etiketinin formullarından istifadə edərək, müraciət edin:

1) sizə lazım olan xəstəxana şöbəsinin, ordinator, rentgen və tibb universitetinin kafedrasının yerini öyrənmək üçün tibb işçisinə;
2) müəyyən dərmanların olması, tibb personalının iş qrafiki, xəstənin digər palataya keçirilməsi haqqında baş tibb bacısına;
3) xəstənin yanına baş çəkməyə qələn yaşlı insana;
4) apteki, sarğı otağını və prosedur kabinetini tapa bilməyən öz palatanızdan olan xəstənizə

b) Nitq etiketinin formullarından istifadə edərək, salamlaşın:

1) şöbə müdiri ilə;
2) poliklinikanın baş həkimi ilə;
3) baş tibb bacısı ilə;
4) növbətçi tibb bacısı ilə;
5) palatanın xəstələri ilə

c) *Nitq etiketinin formullarından istifadə edərək, vidalaşın:*

1) şöbə müdiri ilə;
2) palatanızın xəstəsi ilə;
3) pasiyentin qohumları ilə;
4) iş yoldaşlarınızla

d) Pasiyentin şikayətlərinin xüsusiyyətlərindən asılı olaraq təəssüf və təsəlli formullarından istifadə edin. Ünsiyyət şəraitinə müvafiq danışığı dialog formasında tərtib edin.

1) mən özümü o qədər də yaxşı hiss eləmirəm: boğazım ağrıyır və burnum tutulub;
2) oynaqlarım ağrıyır və gözlərim qamaşır. Qorxuram ki, bu qripdir;
3) ürəyim nəsə narahatdır. Qızdırmam yüksəkdir və titrətmə məni narahat edir;
4) məni yuxusuzluq narahat edir, pis yatıram;
5) öskürəyim keçmir;
6) mənə elə gəlir ki, məndə mədə xorasıdır;
7) antibiotiklərdən istifadə etməmək olar?

e) Mətni oxuyun. Onun məzmununu dialoq formasında verin.

Bir xəstənin sağalmasına ümid verərək həkim onda sağalma əlamətlərini axtarırdı. Həkim gah xəstənin nəbzini, gah onun analizinin nəticəsini müayinə edərək inandırmağa çalışırdı ki, xəstənin hətta tərləməsi belə vəziyyətinin yaxşılaşmasının göstəricisidir. Xəstədən soruşanda ki o, özünü necə hiss edir, o, zəif səslə: "Bu sonsuz "sağalmalardan" ölürəm" - deyə cavab vermişdir (Emmanuel Kant "Fakültələrin mübahisəsi").

Tələbələr hazırlaşıb bu ünsiyyətin necə keçə biləcəyini təsvir etməlidirlər. Belə situasiyalarda həkimin vacib və əsas xüsusiyyətlərindən biri olan eşitmək bacarığına da əsas diqqət yetirilməlidir. Diqqətlə qulaq asmaq, eşitmək, situasiyanı tez təhlil edib, cavab vermək bacarığına bugünkü tələbələr yiyələnməlidirlər. Bundan başqa, xüsusi jest, mimika və səsin intonasiyası ilə gələcəyin həkimləri xəstələrə öz mərhəmətini, dərdə şərikliyini olmalarını göstərməyi bacarmalıdırlar.

Nəzərə almaq lazımdır ki, nitq mədəniyyəti fənni ümumi humanitar xarakter daşıyır və ixtisas fənlərlə daim əks-əlaqədə olur. Dərslərdə ixtisas terminlərinin işlədilməsi ilə yanaşı, nitq mədəniyyətini ixtisas etikası ilə əlaqələndirmək olar. Şübhəsiz ki, nitq mədəniyyətinin yüksək səviyyəyə qalxması, gözəl, düzgün danışığa yiyələnməsi hər hansı bir mütəxəssisin peşəkarlığını qaldırır. Aydın, təsirli, düzgün nitq mədəni insanların əsas göstəricilərindən biridir.

Azərbaycan dili və nitq mədəniyyəti fənninin əsas məqsədi – tələbələrin savadlı, qüsursuz, düzgün nitqə yiyələnməsi, nitqin inkişafı və təkmilləşdirilməsidir. Bu fənnin öyrənilməsi peşəkarlığı xeyli artırır, təcrübənin formalaşmasına təsir göstərir. Tələbələr daim nitqin təkmilləşməsi üzərində çalışmalıdırlar və bu işdə mütaliənin, internetin, ünsiyyətin böyük rolu var. Dilə diqqətlə yanaşma, onun qorunması nitqin təkmilləşməsinə kömək edir.

Yekün olaraq qeyd edək ki, mədəni nitq sözlərin düzgün tələffüzü, danışıqda sözlərin düzgün seçilməsi və onlardan mənasına uyğun istifadəsini, dil vahidlərinin bir-biri ilə düzgün əlaqələndirilməsini tələb edir. Hər bir tələbə, gələcəyin ziyalısı ədəbi dilin qaydalarını bilməlidir və onlara riayət etməlidir.

СТ.ПРЕПОД.КАДИЕВА С. А.
ATU

ОШИБКИ В РЕЧИ СТУДЕНТОВ МЕДИЦИНСКОГО УНИВЕРСИТЕТА И ПУТИ ИХ УСТРАНЕНИЯ

РЕЗЮМЕ

Одним из важнейших показателей уровня культуры медицинских работников, их мышления, интеллекта является речь, с

помощью которой они вступают в общение со своими пациентами. Кроме того, речь – это совместная деятельность, которая не должна вызвать дискомфорта у ее участников. Поэтому необходимым является соблюдение каждым из них норм речевого этикета. Выявление действенных способов речевого воздействия на пациента позволяет современным врачам так построить общение с пациентами, чтобы оно было максимально эффективным. Каждый врач должен знать тактику медицинского общения, кроме того, уметь применять ее на практике. Соблюдение правил вежливости и речевого этикета в общении с пациентом, проявление заботы и уважения к нему является обязательным в работе врача. В предлагаемой статье «Ошибки в речи студентов Медицинского университета и пути их устранения» говорится о допускаемых в речи студентов ошибках и о возможных путях их устранения. На уроках культуры речи особое внимание уделяется выработке навыков слышать, слушать, быстро анализировать ситуацию и отвечать.

KADIYEVA S.A.

ERRORS IN THE SPEECH OF STUDENTS OF THE MEDICAL UNIVERSITY AND WAYS TO ADDRESS THEM

SUMMARY

One of the most important indicators of the level of culture of health workers, their thinking, it is the intelligence with which they come into contact with their patients. In addition, it - it is a joint operation, which should not cause discomfort to the participants. So necessary is to comply with each of them the rules of speech etiquette. Identify effective ways to impact on the patient's speech allows physicians modern way to build communication with patients that it is as effective as possible.

Every doctor should know the tactics of medical communication, in addition, be able to apply it in practice. Compliance with the rules of politeness and etiquette of speech in communication with the patient, caring and respect for him is a must in the doctor.

In this article, "Errors in the speech of students of the Medical University and the ways to overcome them" refers to the speech of students admitted in error and possible ways to address them. On the lessons of speech focuses on developing the skills to hear, to listen, to quickly analyze a situation and respond.Increasing the level of speech is the main task of this subject.

Rəyçi: dos. D.M.Rəhimzadə

baş müəl. ƏLIYEVA N.Ə.
Azərbaycan Tibb Universiteti
Azərbaycan dili və nitq mədəniyyəti kafedrası

NİTQ MƏDƏNİYYƏTİ VƏ OBRAZLILIQ

Açar sözlər: *nitq, mədəniyyət, obrazlılıq, bədiilik, metod*
Ключевые слова: *речь, культура, образность, художественность, метод*
Keywords: *speech, culture, figurative, imagery, art, method*

Nitq mədəniyyəti insanlara məxsus ümumi mədəniyyətin ən vacib və aparıcı tərkib hissələrindən biridir. Belə yüksək keyfiyyətə yiyələnən şəxs cəmiyyətin ictimai həyatında, onun hər hansı bir sahəsində fəal və məhsuldar iştirak etmək imkanına malik olur. Xüsusən ziyalıların nitq mədəniyyətinə yiyələnməsi vacib sayılır. Yazıçılar, şairlər, müəllimlər, aktyorlar, radio və televiziya işçiləri, jurnalistlər, bədii söz ustaları sözlərinin təsirliliyi, obrazlılığı, ifadəliliyi, məntiqliyi, zənginliyi ilə fərqlənməlidirlər. Başqaları isə onların danışığından, oxusundan, yazdıqlarınlan nümunə götürməli və faydalanmalıdırlar.

Məlumdur ki, dil lüğət fondu, qrammatik quruluşu, fonetik sitemi ilə təşəkkül tapmış ünsiyyət vasitəsidir. Nitq isə xalqın hər bir nümayəndəsinin bu ünsiyyət vasitəsindən fərqli istifadəsidir, ayrı-ayrı insanların danışığıdır.Hər hansı bir xalqın milli mədəniyyətinin göstəricilərindən biri də gözəl nitqdir. İnsanın nitqi onun iç dünyasını aşkarlayan başlıca vasitədir. Adamları tanımaq, onlara bələd olmaq üçün hər şeydən əvvəl, ünsiyyətə girmək, təmasda olmaq lazımdır. Antik dövrün böyük filosofu Sokrat vurğulamışdır: «Ey insan, danış, səni tanıyım». Həzrəti Əli buyurmuşdu ki, hər kəs öz dilinin altında gizlənib. Danışmayınca onun ağıllı və ya ağılsız olması məlum olmur.

Tarixi inkişafın bütün mərhələlərində nitqə, onun gözəlliyinə xüsusi diqqət yetirilmiş, qiymət verilmişdir. Qobusnamədə deyilir: «Sözü ən gözəl tərzdə söyləmək lazımdır ki, həm söz anlayan olasan, həm də söz anladasan».

N.Tusinin danışıq etikası haqqında XII əsrdə dediyi sözlər bu gün üçün də əhəmiyyətlidir. O, demişdir: Az danışmağı, susmağı, soruşanda cavab verməyi, böyüklərə qulaq asmağı öyrətməli, nalayiq sözlər, yersiz kəlmələr işlətməkdən çəkinməli, gözəl, zərif, xoş kəlamlardan istifadə etdikdə tərifləməli və belə adət etməyə hüsn-rəğbət oyatmalıdır. Özünə, müəllimə, özündən yaşca böyük olanlara hörmət və xidmət etməyi bilməlidir. Maraqlı və canlı danışıq səslərin deyiliş tərzi, işlənmə forması ilə çox bağlıdır. K.S.Stanislavskinin dediyi kimi «sadə və gözəl danışığı bacarmaq özü bir elmdir. Və onun xüsusi qanunları var.

Görkəmli rus yazıçısı A.P.Çexov «Gözəl danışığa etinasız yanaşan adamların özlərini insana layiq ola biləcək ali, nəcib bir sözdən məhrum etdiklərini söyləmişdir». Bir latın atalar sözündə deyilir ki, şair anadan şair doğulur, natiqlər isə tədricən yetişir.Buradan aydın şəkildə bəlli olur ki, gözəl danışığa yiyələnmək həyatda qazanılır və hər kəsin özündən asılıdır. Lap qədim zamanlarda yaranmış bir zərb-məsəldə deyilir: «Sözün zahiri zərif, batini lətif olmalıdır».Fransız yazıçısı V. Hüqo yazırdı ki, yaşadığımız dünyada səmadan da gözəl mənzərə vardır. Bu insan qəlbinin dərinliyidir. Həmin dərinliyə baş vura bilmək üçün gözəl danışmağı, dinləməyi bacarmaq lazımdır.

Bir şeirdə deyildiyi kimi:
Sözü çöz, sonra söylə,
Üzə söylə, qeybət olmasın
Elə söylə ki, xoş gəlsin sənə, həm əğyara
İşarə ilə söylə, rəmzlə söylə
Ancaq səddini çək sonra söylə…

Bir faktı vurğulamaq lazımdır ki, dilin gözəlliyi ilk növbədə bədii təsvir vasitələrindən yerli-yerində, hərtərəfli, geniş istifadə etməkdən bəhrələnir.Dili zənginləşdirən, zinnətləndirən onun obrazlılığıdır. Bu xüsusiyyət özünü bədii əsərlərdə xüsusilə aydın şəkildə göstərir.

Azərbaycan şifahi xalq ədəbiyyatı inciləri obrazlılığa ən yaxşı nümunədir. Azərbaycan ədəbiyyatının klassikləri həmişə sözə yüksək qiymət vermiş, ondan düzgün istifadə etməyi vurğulamışlar.Dahi Nizaminin «Az danışmağın gözəlliyi» şeirində sözə, obrazlılığa verdiyi qiymət bu gün də məna tutumunu qoruyub saxlayır və söz sənəti xiridarları üçün ən yaxşı nümunədir:

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda
Artıq içiləndə dərd verir bu da
İnci tək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin.

Həqiqi sözün, obrazın min il əvvəlki təbiəti, tarixi, keçmişi, etnoqrafiyanı, ilin fəsillərini yaşatmaq, gələcək nəsillərə çatdırmaq kimi ecazkar qüvvəsi vardır.

Dahi Nizaminin «Xosrov və Şirin» poemasında Bərdə şəhəri, torpağı, təbiəti haqqında söylədiyi sətirlər obrazlılığın zirvəsidir.

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yayı da, qışı da güldür, çiçəkdir.
İyulda dağlara lalələr səpər
Qışını baharın nəsimi öpər
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər
Söyüdlük çöllərə vermişdi zinət.

Fikrimizcə, obrazlılıq yenilikdir, yeni nəfəsdir. Barsız söyüdün susuz çöllərə zinət verməsi sadə, əməksevər insanların zəhmətinin bəhrəsidir, onlara böyük şair hörmətinin, ehtiramının nəticəsidir.Nizamnin şeirlərindəki obrazlılıq, ifadəlilik, sadə əmək adamlarına məhəbbət XX əsrdə Səməd Vurğun tərəfindən «Muğan» poemasında düzgün ifadə olunmuşdur.

Susuz torpaq kimi sevinir torpaq
O insan əliylə şəfa tapacaq.

Azərbaycan ədəbiyyatında sözü yerdən göylərə qaldıran, onu möcüzələr, əfsanələr aləminə aparan Füzuli «Söz» qəzəlində yazırdı:

«Xəlqə ağzın sirrin hər dəm qılır izhar söz,
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz??
Ver sözə ehya ki, tutduqca səni xabi əcəl,
Edə hər saət səni ol uyqudan bidar söz».

XVII-XIX əsrlərdə Azərbaycan aşıq ədəbiyyatını yeni, daha uca zirvələrə qaldırmış Qurbaninin, Abbas Tufarqanlının, Xəstə Qasımın, Aşıq Alının, Aşıq Ələsgərin yaradıcılığında obrazlılıq əhəmiyyətli yer tutur.

Bir faktı vurğulamaq lazımdır ki, sonrakı illərdə də obrazlılıq Azərbaycan ədəbiyyatında əsas təsir və ifadə vasitələrindən biri olmuşdur. Şərqdə ilk komediyanın müəllifi olan M. F. Axundov əsərlərində hər tipi öz dili ilə danışdıraraq forma və məzmun vəhdəti yaratmışdır. Yazıçı, canlı xalq danışıq dilindən, atalar sözlərindən, zərb məsəllərdən bəhrələnmişdir. Bu gün də dramaturqun yaratdığı obrazlar milliliyi, koloritliyi, canlılığı, sadəliyi və ifrat dərəcədə azərbaycanlılığı ilə oxucuları təəccübləndirir.

XIX əsr Azərbaycan həyatının ən kiçik zərrəciyi belə M. F. Axundovun nəzər– diqqətindən yayınmamışdır. Yazıçının komediyaları XIX əsr Azərbaycan həyatının güzgüsüdür– desək, səhv etmərik. «Hacı Qara» komediyasında Heydər bəyin, Hacı Qaranın monoloqu iqtisadi, siyasi, mədəni, məişət həyatının çətinliyinin, mürəkkəbliyinin necə də dolğun şəkildə əks etdirildiyindən xəbər verirdi.

Heydər bəy:«Pərvərdigara, bu necə əsrdir? Bu necə zəmanədir? Nə at çapmağın qiyməti
var, nə tüfəng atmağın hörməti var! Sabahdan axşamadək, axşamdan sabahadək arvad kimi dustaq alaçığın içində oturaram. Dövlət dəxi hardan olsun, pul hardan olsun? Ah, keçən günlər, keçən dövrlər! Hər həftədə, hər ayda bir karvan çapmaq olurdu, bir ordu dağıtmaq olurdu. İndi nə karvan çapmaq olur, nə ordu dağıtmaq olur».

Hacı Qara:«Allah kəssin belə bazarı! Belə alış- verişi! İt oğlu qədək, şilə verənin əli
qurğuşun imiş! Üç aydır satmamışam. Zalım oğlu, yüz yol qurana, peyğəmbərə and içdi ki, çox rəvac maldır. Ağcabədi bazarında hamısını satarsan. Üç gün

indi üç ay olubdur. Üç ay deyil ki, bu mal üç ilə də satılmaz. Yaxşı məni aldatdı. Bu hesab ilə düz yüz manat zərərim var. Bu dərd məni şəksiz öldürəcək ».

Azərbaycan dramaturgiyasında M. F. Axundov ənənələri sonrakı illərdə N. Vəzirov. Ə. Haqverdiyev, C. Məmmədquluzadə, C. Cabbarlı, H. Cavid və digərləri tərəfindən davam və inkişaf etdirilmişdir. Müasir dövrdəki şairlər, yazıçılar, dramaturqlar yaxşı bilməlidirlər ki, Azərbaycan ədəbiyyatında Nizami, Füzuli, M. F. Axundov, M. Ə. Sabir kimi zirvələr mövcuddur…

XIX əsrin sonunda – XX əsrin əvvəllərində N. Vəzirov, Ə. Haqverdiyev, C. Məmmədquluzadə, Y. V. Çəmənzəminli hekayə, povest və romanlarında Şeyx Şəban, Mirzə Səfər, Qurubanəli bəy, Xudayar bəy, Məhəmmədhəsən əmi kimi realist tiplər yaratmaqla bədii nəsrdə obrazlılığı yeni, daha yüksək mərhələyə qaldırdılar və müasirləşdirdilər.

Ə. Haqverdiyevin «Mirzə Səfər» hekayəsində Mirzə Səfərin dediyi «De, sən öl, Həsən Ağanın qohumuyam» sözləri məna dərinliyinə, əhəmiyyətinə görə keçmiş və müasir cəmiyyətin eyni vəziyyətdə olmasından xəbər verir. Əks təqdirdə hekayə qəhrəmanının sözləri dildə bu qədər uzunömürlü olmazdı və özünə «əbədilik» hüququ qazandırmazdı.

C. Məmmədquluzadə Qurbanəli bəyin, Xudayar bəyin portretini yaradarkən elə təsirli bədii təsvir vasitələrindən istifadə etmişdir ki, oxucuda onların «dindar, mömin", yaltaq, ikiüzlü, qəddar olmalarına azacıq da olsa şübhə yeri qalmır. Ona görə də yuxarıda adları çəkilən surətləri bizim «dövrümüzdə yaşayan və bizimlə birgə addımlayanlar» kimi qəbul edirik.Bütün hallarda mənfi və müsbət olmalarına rəğmən, mükəmməl tiplər hesab edilən surətlər yüksək bədiilik və obrazlılıq sayəsində yaradılmışlar. Onlar sadəcə olaraq cinayətkar və yaxud da xeyirxah insanlar kimi qəbul edilmirlər.

Bu mənada M. Ə. Sabirin satira yaradıcılığı müasirləri arasında xüsusilə fərqlənirdi. Sabirin yaratdığı tiplər hərəkətləri, danışığı, davranışı ilə özlərini ifşa edir, xalqa zidd münasibətlərini göstərirdilər. Sabir cəmiyyətin bütün təbəqələrindən nümunələr götürmüş və yüksək bədiiliyə, obrazlılığa nail olmuşdu. Böyük şairin "həpəndlərini" min kilometrdən belə tanıtmaq olur. Fikrimizcə, şairin satiralarının ifşaedici gücü onun obrazlılığındadır. «Fəhlə özünü sən də bir insanmı sanırsan», «pulsuz kişi insanlığı asanmı sanırsan», «millət necə tarac olur-olsun nə işim var», «eyləməyin dəngəsər, oxutmuram əl çəkin», «neylərdin, ilahi», «səbr eylə» ifadələri xalq arasında zərb-məsələ çevrilmişdir.

Təsadüfi deyildir ki, 70 illik Sovet hakimiyyəti dövründə bədiilik, obrazlılıq şairlərin, yazıçıların mənəvi silahına, onların qoruyucu sipərinə çevrilmişdi. Sənətkarlar "sosialist realizmi" yaradıcılıq metodunun sərt qanunlarından, qadağalarından yayınmaq, "ideal surətlər" yaratmaqdan yaxa qurtarmaq üçün canlı xalq danışıq dilindən, atalar sözlərindən, müxtəlif bədii təsvir vasitələrindən, obrazlılıqdan geniş və hərtərəfli istifadə etməyə üstünlük

verirdilər. Bu xüsusiyyət XX əsr Azərbaycan ədəbiyyatının məcburi şəkildə qəbul etdiyi "ezop dili" idi.

XX əsrin 30- cu illərində C. Cabbarlı dram əsərlərində bu üsuldan bəhrələnmişdi və böyük uğurlar qazanmışdı. Sonrakı illərdə 70 illik Azərbaycan sovet ədəbiyyatında baş verən hadisələr inandırıcı şəkildə sübut etdi ki, bədii təsvir vasitələrindən, obrazlılıqdan "möhkəm yapışmağın" alternativi yoxdur.

S. Vurğun, M. İbrahimov, S. Rüstəm, İ. Əfəndiyev, İ. Şıxlı, B. Vahabzadə, İ. Məlikzadə, M. Araz və digərləri əsərlərində yuxarıda göstərilən xüsusiyyətləri əyani şəkildə həyata keçirdilər. Xalq şairi Səməd Vurğunun "Azərbaycan" poemasında yaratdığı Azərbaycan obrazı Azərbaycan xalqının milli pasportudur.

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən,
Anam, doğma vətənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan.

Həqiqətən, "Könül, Candan, Azərbaycan xalqı Azərbaycandan ayrılmazdır". Danılmaz faktdır ki, bütün bunlar yüksək obrazlılıq, ifadəlilik vasitəsilə mümkün olmuşdur. Ona görə şifahi nitqdə, bədii əsərlərin dilində obrazlılığın alternativi yoxdur. Zaman keçdikcə biz bu həqiqətə daha çox inanırıq və yaxınlaşırıq.

Obrazlılıq- Nizami, Füzuli, Nəsimi, Vaqif, Səməd Vurğun yaradıcılığına təkrar-təkrar müraciətdir, onlara qayıdışdır. Elmi- texniki tərəqqinin sürətli inkişafı keçmişə, eyni zamanda bugünə, gələcəyə daha ehtiyatlı yanaşmağı tələb edir. Çünki keçmiş heç vaxt keçmiş olaraq qalmır. Gələcəyə aparan bütün yollar küçmişdən başlayır.

ƏDƏBİYYAT

1. Gəncəvi N. (2011). *Xosrov və Şirin*, tərc.: Xəlil Yusifli ((azərb.)), Bakı: Adiloğlu, 388 səh.
2. Füzuli M. Əsərləri. Altı cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, 336 səh.
3. 3.Xəlilov S. Aforizmlər: seçilmişlərdən seçilmişlər.Bakı, Çaşıoğlu, 2012, 560 səh.
4. 4.В мире мудрых мыслей. Крылатые фразы и афоризмы. Москва. «Просвещение», 1968

АЛИЕВА Н.А.

КУЛЬТУРА РЕЧИ И ОБРАЗНОСТЬ

Р Е З Ю М Е

Речь является одним из показателей национальной культуры того или иного народа.

Она отражает нравственное состояние общества, национальные и культурные традиции. На всех стадиях исторического развития красивой, образной речи придавали особое значение, т.к. она помогала раскрыть внутренний мир человека.

Предлагаемая статья посвящена культуре речи, в ней говорится об её образности. Речь писателей, поэтов, актеров, преподавателей, работников радио и телевидения отличается выразительностью, логичностью, богатством своего слова. На примере отрывков из произведений классиков азербайджанской литературы, выдающихся людей и деятелей культуры автор показывает, что овладение навыками красивой, правильной речи зависит от каждого из нас. Эффективность речевого общения зависит от соблюдения требований, предъявляемых к ней. Автор отмечает, чтобы речь могла взволновать, воздействовать на читателя или слушателя, она должна обладать образностью, которой в художественной литературе нет альтернативы.

ALIYEVA N.A.

CULTURE OF SPEECH AND IMAGERY

SUMMARY

It is one of the indicators of the national culture of a people.

It reflects the moral state of society, national and cultural traditions. At all stages of the historical development of beautiful, figurative speech attached special importance, since she helped to reveal the inner world of man.

This article is devoted to the culture of speech, it says on its imagery. These writers, poets, actors, teachers, workers of radio and television is different expressiveness, logical richness of his word. For example, extracts from the works of classics of Azerbaijani literature, famous people and culture, the author shows that mastering the skills of beautiful, right speech depends on each of us. The effectiveness of speech communication is dependent on compliance with the requirements for it.The author notes that it might excite, influence the reader or listener, it must have the imagery, which in the literature there is no alternative.

Rəyçi: dos.Rəhimzadə D.M.

NAİLƏ QƏDİMOVA
ADİU
nailə.@.mail.ru.

İNGİLİS DİLİ MƏNŞƏLİ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİNİN METOD VƏ ÜSULLARI

Açar sözlər: *frazeologizm, tərcümə, xüsusiyyət, növ, mürəkkəb, qrammatik*
Key words: *phraseologism, translation, feature, type, complex, grammatical*
Ключевые слова: *фразеологизм, перевод, особенность, вид, сложный, грамматических*

İngilis dilinin frazeologizmləri öz zənginliyi və mgliyi ilə digər dillərin frazeologizmlərindən fərqlənir. Bu frazeologizmlərin başqa dillərə tərcüməsi dilçilikdə ən mühüm və mürəkkəb məsələlərdən biridir. İstər ölkəmizdə, istərsə də xaricdə ingilis dili frazeologizmlərinin tərcüməsi işinə xüsusi diqqət yetirilir. Onların başqa dillərə tərcüməsi çox çətin və məsuliyyətli bir işdir. Görkəmli yazıçı M.Qorki belə hesab edirdi ki, hər hansı fikri tərcümə etmək üçün hər bir dilin kifayət qədər imkan və vasitəsi vardır. Bü muddəa eyniliyə azərbaycan dilinə də aidola bilər. Tərcümə göstərir ki, dünyanın ən zəngin dillərində verilmiş elə bir fikir tapmaq çətindir ki, onu bizim dilimizdə ifadə etmək qeyri-mümkün olsun. Bununla belə, ingilis dilində olan frazeologizmləri azərbaycan dilinə tərcümə edərkən müəyyən çətinliklərə də təsadüf olunur ki, bu çətinliklər ingilis dili ilə azərbaycan dilinin lüğət tərkibi və qrammatik quruluşu arasındakı fərqdən irəli gəlir. İngilis dilindəki sabit söz birləşmələrinin azərbaycan dilindəki qarşılığı ilə tam, eyni ilə uyğun gəlməməsinin əsas səbəbi onların ingilis dilinin qayda-qanunları əsasında, xalqın həyat tərzindən, məişətindən, dünyagörüşünə təsir edən amillərdən asılı olaraq həmin dilin yüz illər boyu davam edən tarixi inkişafı nəticəsində sabitləşməsidir. Buna görə də frazeologizmlərin lüğətlərdə dəqiq qarşılığının verilməsi, demək olar ki, mümkün deyil. Frazeoloji birləşmələr hər bir xalqın milli kaloritini, adət-ənənəsini, nəhayət dil sistemindəki özünəməxsus leksik-qrammatik formalarını əks etdirdiyindən belə ifadələr Azərbaycan dilinə tərcümə edilərkən orijinaldakı xüsusiyyətlərinin hamısını eyni dərəcədə saxlamaq imkanı xaricindədir.

Digər tərəfdən, sözün daxili formasında və bir sıra başqa hadisələrdə dillər arasındakı yalnız ayrılan cəhətlərin deyil, həm də uyğun gələn cəhətlərin frazeologizmlərdə mövcud olmasını görməmək olmaz. Belə ki, frazeologizmlərin leksik vahidlərinin mənalarını hər iki dilə məxsus lüğətlərlə tutuşdursaq, onlar arasında müəyyən məna yaxınlığı tapmaq olar. Müxtəlif dillərə məxsus frazeoloji birləşmələrin məna və formaca bəzən bir-

birinə uyğun olması insan təfəkkürünün eyni istiqamətdə, eyni qanunlar üzrə inkişaf və təkamül etməsini göstərən əlamətlərdən biridir. Burada həm də oxşar tarixi şəraitin, mənəvi yaxınlığın rolu böyükdür. Buna görə də, müxtəlif dillərdə həm semantik-üslubi, həm də formaca bir-birinə uyğun gələn frazeologizmlərin tərcüməsi o qədər də çətinlik törətmir. Belə tərcümədə yazıçının demək istədiyi fikir dəqiq çatdırılır, əsərin bədii emosionallığı qorunub saxlanılır.

Frazeologizmlərin yanlış tərcüməsinin əsas və ilkin səbəblərindən biri onların verilmiş mətndən düzgün seçilməməsi, səröəst söz birləşmələri ilə qarışdırılmasıdır. Digər bir səbəb isə tərcüməçinin seçilmiş bu frazeologizmləri yalnız lərk etməsidir ki, bu da çox zaman mətnin təhrifinə gətirib çıxarır. Buna görə də, frazeologizmlərin tərcüməsində səhvə yol verməmək üçün tərcüməçi ilk növbədə onları verilmiş mətndən düzgün seçməli, onları düzgün dərk etməli və orijinaldakı fikri təhrif etmədən ifadə edə bilməlidir. Onun orijinalda təsvir olunan xalqın həyatını və milli varlığını təşkil edən xüsusiyyətlərini bilməsi vacibdir. Frazeologizmlərin tərcüməsi zamanı lüğətdən düzgün istifadə olunmalı, dil və üslubi məsələlərinə dərindən diqqət yetirilməlidir. Frazeologizmlərin tərcüməsi dedikdə hər şeydən əvvəl aşağıdakı iki başlıca moment nəzərdə tutulur:

a) tərcümə olunacaq frazeologizmi tam başa düşmək;

b) başa düşülmüş frazeologizmin adekvat şəkildə ana dilində ifadə olunması.

Bu iki momentin vəhdətindən ibarət olan tərcümə prosesində ingilis dilində söylənilmiş frazeologizm semantik, stilistik və qrammatik nöqteyi-nəzərdən təhlil olunurn, həmir birləşmənin leksik mənası və üslubi xüsusiyyəti ilə yanaşı, onun qrammatik məna və vəzifəsi müəyyən edilir. Bütün bunlar ana dilinin normaları ilə tutuşdurulur və nəticədə ingilis dilində söylənmilmiş frazeologizm ana dilindəki ifadə vasitələr ilə müəyyənləşdirilir. Bütün tərcümə prosesi tutuşdurma və müqayisə əsasında gedir.Frazeologizmlərin dəqiq və mükəmməl formada tərcüməsi ingilis dilinin frazeologizmləri ilə Azərbaycan dilinə frazeologizmləri arasındakı əlaqədən, uyğunluq dərəcəsindən asılıdır. Frazeologizmlər tərcümə nöqteyi-nəzərdən iki qrupa bölünürlər:

1)ekvivalent frazeologizmlər;2)ekvivalentsiz frazeologizmlər.3)Ekvivalent frazeologizmlər.

Tərcümə olunduğu dildə ekvivalent olan frazeologizmdərə ekvivalent frazeologizmlər deyilir. Bu frazeologizmlərin iki növü var: tam frazeoloji və natamam frazeoloji ekvivalentlər.

Tam frazeoloji ekvivalentlər – bu frazeoloji ekvivalentlərin tərkibinə məna, leksik tərkib, bədiilik, qrammatik quruluş və üslubi çalarlıq baxımından tərcümə olunduğu dilin frazeologizmləri ilə uyğun gələn və

yaxud üst-üstə düşən, dildə hazır şəkildə olan frazeologizmlər daxildir. Bunlara aşağıdakı frazeologizmləri misal göstərmək olar:

achilles heel – axilles dabanı; augean stables – agin tövlələri; to show somebody the door – bir kəsə qapını göstərmək (bir kəsi qovmaq); as cold as ice – buz kimi soyuq; the iron heel – dəmir dana (imperializm); in the sweat of one′ s brow – alının təri ilə; a labour of Sisyphus – sizin əməyi; in the seventh heaven – göyün yeddinci qatında; to frown one′ s eyebrows – qaşlarını çatmaq; Lares and Penates – larlar və penatlar; a labor of Hercules – hekrules əməyi; to stick like a leech – zəli kimi yapışmaq; to dig a pit for somebody – bir kəsə quyu qazmaq; to gnash the teeth – dişlərini qıcırdatmaq.

Natamam frazeoloji ekvivalentlər – bu frazeoloji ekvivalentlərin tərkibinə isə tərcümə olunduğu dilin frazeologimzləri ilə bədiilik və məna baxımından nisbətən uyğun gəlməyən frazeologizmlər daxildir. Tərcüməçi bu cür frazeologizmləri tərcümə edərkən onun ifadəliliyni, emosionallığını də nəzərə almalıdır. Natamam frazeoloji ekvivalentlərə aşağıdakı frazeologizmləri misal göstərə bilərik:

to be in black book – qara siyahıda olmaq; golden opportunity – gözəl fürsət; to be in pins and needles – tikan üstündə oturmaq; tof all on stony ground – boşa çıxmaq; to have pity on (smb.) – bir kəsə ürəyi yanmaq; to catch somebody red-handed – bir kəsi cinayət üstündə yaxalamaq; to call a spade – necə var, elə demək; one swallow does not make a summer – bir güllə bahar omaq; to burn the candle at both ends – ömrünü puç etmək; between hammer and anvil – od ilə su arasında; to make a monkey out of somebody – bir kəsi ələ salmaq; fly off the handle – özündən çıxmaq; small talk – boş sözbət.

Natamam frazeoloji ekvivalentlər özləriilə üç qrupa bölünür. Birinci qrup natamam frazeoloxi ekvivalentlərin tərkibinə tərcümə olunduğu dilin yaxın olan, lakin leksik tərkibinə görə fərqlənən frazeologizmlər daxildir. Məsələn: a wlof in sheep′ s clothing – qoyun dərisi geymiş canavar; the game is not worth the candle – əl bulamağa dəyməz; the talk of the town – dillərə dastan; don′ t count your chickens before they are hatched – cücəni payızda sayarlar; the first portent – müjdəçi, ilk əlamət.

Üçüncü qrup natamaam frazeoloji ekvivalentlər tərcümə olunduğu dilin frazeologizmləri ilə bütün xüsusiyyətlərinə görə uyğun gələn, lakin bədiilik baxımından fərqlənən frazeologizmlərdir. Məsələn: to spread before the eye – elə bil ovcumun içindədir; as old as hills – dünya qədər qoca; be born with a silver spoon in one′ s mouth – xoşbəxt ulduz altında doğulmaq.

2. Ekvivalentsiz frazeologizmlər.

Ekvivalentsiz frazeologizmlər dildə sayca ən çox olan frazeologizmlərdir. Belə frazeologizmlərin sırasına tərcümə olunduğu dildə ekvivalenti olmyan frazeologizmlər daxildir. Onları tərcümə edərkən tərcüməçi tərcümənin qeyri- frazeoloji üsullarından istifadə edir. Onların tərcüməsi frazeoloji deyil, leksik vasiğələrin köməyi ilə verilir. Ekvivalentsiz frazeologizmlərin tərcüməsini heç bir zaman dəqiq tərcümə adlandırmaq olmaz. Bu cür frazeologizmlərin tərcüməsində həmişə bəzi çatışmazlıqlarlar olur (bədiilik, ekspressivlik, məna çalarları və s.). Məsələn:

What will Mrs. Crundy say? – Camaat bizə nə deyər;

Paul Pry – Paul Pray; burnuni hər yerə soxan insan; Cordelia′ s gift – sakit, incə qadın səsi (King lear əsərinin qəhrəmanı Kordeliyanın səsi kimi); Jack Sprat – cırtdan, çox kiçik boylu; Tom Tiddler′ s ground – xəzinə (bu frazeologizm qədim uşaq oyununun adı ilə əlaqədar olaraq yaranmışdır. Bu oyunda kim Tom Tiddler olarsa, o, öz dayandığı yerə heç kəsi qoymamalıdır). Ekvivalentsiz frazeologizmlərin tərcüməsində kalka tərcümə növündən geniş istifadə olunur.

İngilis dilində verilmiş frazeologizmin Azərbaycan dilində maksimal adekvat tərcüməsini əldə etmək üçün tərcüməçi tərcümənin müxtəlif növlərindən istifadə edir. Bunların sırasına ekvivalent, analoq, təsviri, kalka və ya hərfi, antonim, müştərək, parallel tərcümə növləri daxildir.

ƏDƏBİYYAT

1. Амосова Н.Н. Основы английской фразеологии. Л., 1963.
2. Arnold I.V. The english word. M-L, 1966.
3. Babayev A. Dilçiliyə giriş. Bakı, 1992

.

G.NAILA

TRANSLATION OF ENGLISH PHRASEOLOGISMS INTO AZERBAIJANI

SUMMARY

The article deals with translation of English phraseologisms into Azerbaijani. Translation of phraseologisms in Engglish is very difficult and reponsible. The difficulties is caused with the difference between composition and grammatical structure of the English and Azerbaijani languages.

In order to get the most appropriate translation of the phraseologisim from English into Azerbaijani the translator uses different types of translation. It includes equivalent, analog, description, tracing paper, or

letter, antonym, common, parallel translations. The article may be important for those who are interested in the translation of phraseological units

Г.НАИЛА

ПЕРЕВОД АНГЛИЙСКИХ ФРАЗЕОЛОГИЗМОВ В АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

РЕЗЮМЕ

В статье речь идет перевод английских фразеологизмов на азербайджанский язык. Перевод фразеологизмов в английском языке очень сложная и ответственная. Трудности вызывает с разницы между составом и грамматической структуре английского и азербайджанского языков.

Для того чтобы получить наиболее подходящий перевод из фразеологизмов с английского на азербайджанский, переводчик использует различные виды переводов. Она включает в себя эквивалентное, аналог, описание, кальку или письмо, антоним, общие, параллельные переносы. Статья может быть важно для тех, кто заинтересован в переводе фразеологических единиц.

Rəyçi: Həbib Mirzəyev
Filologiya üzrə fəlsəfə doktoru, dosent

AFƏTXANIM NƏSİROVA
ADİU
afətxanım.@.mail.ru.

MƏDƏNİYYƏTLƏRARASI ÜNSİYYƏTDƏ TƏRCÜMƏNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Açar sözlər: *tərcümə mədəniyyəti, tərcüməçilik sənəti, mədəniyyətlərarası ünsiyyət, elm, yazıb-oxuma, dil və təfəkkür.*
Key word: *literary, literary translation, international culture, important role, well-known inter-preters, communication, speech process.*
Ключевые слова: *статья, перевод, международная культура, развития перевода, устный перевод, речь, язык, речевой процесс.*

Mədəniyyətlərarası əlaqələr artdıqca, dilləri öyrənmə, mükəmməl tərcüməçilik sənətinə yiyələnmə zərurətə çevrilir. Bu zərurət xalqların dilinə, adət - ənənəsinə, ədəbiyyatına, mədəniyyətinə bələd olmaq istəyindən irəli gəlir. Vaxtı ilə qədim yunanlar başqa dildə danışanları barbar adlandırırdı. Antropoloji mənada hər xalqın öz mədəniyyəti var. Cəmiyyət daxilində də ayrı-ayrı qrupların öz mədəniyyəti var. Y.Herder bunu belə izah edirdi: "Dil və təfəkkür əlaqəlidir, dil və mədəniyyət isə millətin ruhunun və düşüncə tərzinin inikasıdır". "Dil bizim əqlimizin xarakteridir". Mədəniyyət insanın üzvü olduğu cəmiyyətdə əldə etdiyi bilik, adət və vərdişlərin toplusudur. Bilik deyəndə nəyisə etmək, nədənsə özünü tam hüquqlu insan kimi hiss etmək başa düşülür. Elm də bu mənada mədəniyyətin tərkib hissəsidir.

Hər hansı bir xalqın mədəniyyətilə tanışlıq üçün o xalqın dilinə yiyələnmək, tərcümə sənətinin incəliklərinə bələd olmaq, hələ qədim zamanların özündə belə çox vacib idi. Ona görə də elmə böyük üstünlük verilmiş, hətta quldarlıq dövründə elmli, yazıb-oxumağı bacaran kölələr köləlikdən azad edilərək, başqalalrına da savad öyrətməklə görəvləndirilmişlər. Başqa xalqların mədəniyyətinə yiyələnmək üçün müxtəlif dilləri bilmək, tərcümə sənətinə yiyələnmək lazımdır. Tərcümə işi orta əsrlərdən Şərq xalqlarını yaxından maraqlandırmışdı. Lakin bu dəyərli tərcümələr aşağı təbəqə üçün nəzərdə tutulmurdu, beləki, bilik özü böyük sərvət olduğu üçün bu tərcümələri şahlıq xəzinədə hifz edib nəsildən – nəsilə ötürürdü. Buna "Kəlilə və Dimnə" əsərinin yayılma tarixini misal göstərmək olar. Bu əsərin vətəni Hindistandır və hind padişahının sifarişi ilə yazıldığı üçün, onu ölkənin sərvəti kimi qoruyur, ölkəxaricinə çıxmasına, üzünün köçürülməsinə izn verilmirdi. İran şahı özünün kamil bilikli, etibar etdiyi

tərcüməçisini Hindistana yollamış və həmin şəxs iki il orada kitabı oxuyaraq beyninə həkk etmiş və vətəninə gətirmişdir.

Azərbaycan da orta əsrlərdən bu sahədə çox iş görmüşdür, çünki dilimiz vaxtilə Yaxın Şərqdə ünsiyyət dili olmuşdur. Rus istilasından sonra Azərbaycanda tərcümə işi sürətlə inkişaf etmiş, böyük tərcüməçilər ordusu yaranmışdır. Ən yaxşı şair, yazıçı və ədiblərimiz tərcümə ilə məşğul olmuşdur. Onlar həm elmi, həm də bədii ədəbiyyatın tərcüməsilə məşğul olmuşlarŞ çünki bədii tərcümə dünya milli mədəniyyətinin mütərəqqi inkişaf mərhələsinə yaxından təsir göstərən, onun ayrılmaz və inkaredilməz zəruri şaxələrindən biridir. Bədii tərcümə dövrdən asılı olmayaraq, bu fikri tam yerinə düşür. O haqlı olaraq qeyd edir ki, Vətənimizin tarixi təcrübəsi xüsusilə aydın göstərir ki, həm mədəniyyətin inkişafı, həm də bütövlükdə milli münasibətlərin daha da yaxşılaşması, genişlənməsi və təkmilləşməsi üçün xüsusi emosional təsir gücünə malik ən səmərəli vasitələrdən biri bədii ədəbiyyatların qarşılıqlı əlaqələri və həmin əlaqələrin ən çox yaşadan, təsir göstərən sahəsi bədii tərcümədir.

Bədii tərcümə üçünsə xüsusi ustalıq və məharət gərəkdir. Bu barədə böyük alman şairi H.Heyne öz fikrini belə ifadə etmişdir: "Orijinalın hərfini, hətta dəqiq fikrini, qrammatikanı öyrənib söz ehtiyatına malik olan hər kəs tərcümə edə bilər, lakin əsərin ruhunu tərcümə etmək hər adamın işi deyil".Azərbaycanın ən görkəmli sənətkarları M.F.Axundov, A.Səhhət, C.Cabbarlı, M.Müşfiq, Ə.Cavad, S.Vurğun, S.Rüstəm, M.Rahim, R.Rza və onlarla ədiblərimiz tərcüməyə öz töhfəsini vermişlər.Tərcümə sahəsində uğur əldə etmək üçünsə, hər hansı bir xarici dili bilmək çox vacibdir. Dil bizim hər birimizin həyatında mühüm rol oynayır. Müraciət etdiyimiz auditoriyanın dilində danışmaq, təkcə fərdi intellektual səviyyənin göstəricisi deyil, həm də məqsədə çatmağın ən asan yoludur.Bəs dil özü həyatımızda hansı rolu oynayır? Dilçi alim, fonetist F.Veysəlli özünün "Dil" adlı kitabında bunu belə cavablanıdırır: - Dili öyrənirik (ana dili kimi idarə olunmayan), öyrədirik (xarici dil kimi-idarəolunan), tədqiq edirik, onların təsvirini yaxşılaşdırmaq üçün müxtəlif yollar, modellər və nəzəriyyələr düşünüb tapmaq (nəzəri dilçilik) üçün külli miqdarda vəsait ayırırıq, dildəki defektlərin (qüsurları) müalicə edirik (yeni əlifbanın yaranması), səmərəli klaviaturaların tərtibi afaziya, paralic, dilöyrənmədəki yayılmaların paylaşdırılması, səhvləri öncəgörmə, islahetmə, maşınla tərcümə və ünsiyyətin həyata keçirilməsi və danışığına əsasən şəxsiyyətin tanınması və s. bu və ya digər problemləri həll etmək üçün dilləri öyrənməyi qarşımıza məqsəd qoyuruq (tətbiqi dilçilik).

Yuxarıda da qeyd etdiyimiz kimi, tərcümə təkcə dillərarası deyil, həm də mədəniyyətlərarası ünsiyyət vasitəsidir. Odur ki, peşəkar tərcüməçi təkcə iki dil üzrə mütəxəssis deyil, həm də bu iki işçi dildə yüksək mədəni

səriştəyə malik bir dilçi olmalıdır. O öz mədəniyyətini dərindən bilməklə yanaşı, məxəz dil daşıyıcılarının mədəniyyətinin incəliklərinə də sahib olmalıdır. Bu, təbii və məntiqi bir tələbdir, çünki hər bir dil özündə o dildə danışıqların mədəniyyətinin elementlərini daşıyır. Başqa sözlə, hər bir mədəniyyət, o cümlədən həyat tərzi dildə öz əksini tapır. Ona görə də dilin incəliyini bilmək çox vacibdir.Tərcümə ünsiyyət vasitəsi kimi müxtəlif dillərdə danışan insanların bir araya gəldiyi vaxtdan meydana çıxmışdır. Bütün elmlərin nəzəriyyəsi olduğu kimi, tərcümə nəzəriyyəsi də yaranmışdır və o, tərcümə prosesində qarşıya çıxan problemlərin çözülməsi zamanı meydana gəlir və formalaşır. Bütün elmlərdə belədir, problem yoxsa, onun həlli istiqamətində də heç bir təşəbbüs göstərilmir.Tərcümə işinə əsrlər boyu müraciət edilmiş, xalqlar, mədəniyyətlər inkişaf etdikcə, həmin xalqların dili, ədəbiyyatı maraq doğurmuşdur. Tarixən belə olmuşdur və olmaqda davam edir. Tərcümə işinə böyük mütəffəkkirlər yüksək qiymət vermiş, bu barədə maraqlı mülahizələr söyləmişlər. Onlardan biri də alman şairi Y.V.Qöte dil öyrənməyin vacibliyini tövsiyyə edir və əhəmiyyətini belə ifadə edirdi: "Alman bütün dilləri öyrənməlidir ki, vətənində (evində) hər hansı bir əcnəbi ilə rahatsızlıq keçirməsin, özü isə istənilən yad ölkədə özünü evindəki kimi hiss etsin". Bu fikrin aktuallığı özünü Azərbaycanda keçirilən ovrovijn mahnı müsabiqəsinə ev sahibliyi edərkən göstərdi. Beləki, əhalimizin yarıdan çoxu ingilis, rus, digər avropa dillərinə bələd idi. Bu da rahat ünsiyyət qurmaqda böyük rol oynayırdı.Onun ən maraqlı fikirlərindən biri də tərcümə barədə olmuşdur. O, bədii tərcümə işinə həmişə böyük əhəmiyyət vermiş onu xalqlar arasındakı mədəni əlaqələrin yaranmasında və inkişafında mühüm vasitələrdən biri saymışdır. Tərcümə sahəsində fransızların çox iş gördüyünü bildirmiş və hər hansı bir ölkə barədə ətraflı məlumat almaq üçün tərcümənin üç növ rolu barədə yazmışdır. O, özü N.Gəncəvidən, Qurani-Kərimdən tərcümələr etmişdir.Bədii janrların hər birinin özünəməxsus xüsusiyyətləri və ifadə tərzi olduğundan, onların tərcüməsi də bunları hədəf mətndə əks etdirməlidir. Bədii mətnlərin içərisində ən çətin olanı poeziyadır.Məşhur dilçi R.Yakobson vaxtı ilə poeziyanı hətta "tərcüməolunmaz" hesab etmişdir. Bu da onunla izah olunur ki, hər bir dilin şerinə fərqli struktur, qafiyə, ritm və s. poetik elementlər xasdır. Şeri tərcümə edərkən eyni məzmunu hədəf dildə ifadə etməkdən ötrü eyni, yaxud oxşar poetik elementləri tapmaq çox çətin və ya qeyri-mümkündür.Bu fikir olduqca yerində və doğru səslənmişdir, çünki, vaxtilə Azərbaycan dilini öyrənən, tədqiq edən avropa tədqiqatçıları qadının gözlərini ulduza, yanaqlarını almaya, dodaqlarını laləyə bənzədən şeirlərdən heyrətə düşmüş və bunu öz xalqlarına necə çatdırmaq yolunu aramışlar.

Alman şairi Y.V. Qöte "Qərb-Şərq Divanı"nı yazdıqdan sonra oxuculara belə müraciət etmişdir:"Hər şeyin öz zamanı var! Elə anlar var ki,

susmaq gərəkdir, elə anlar da gəlir ki, bu barədə danışmalı olursan. Mən bütün yazılarımı izahatsız yazdım, hər şeyi mühakiməni, müzakirəni, nəticəni oxucuların ixtiyarına buraxdım və heç vaxt necə düşünmələri barədə kiçik bir işarə vermədim. Lakin, bu kitabçanı yazarkən Şərq barədə heç və ya az xəbəri olan oxucularımı məlumatlandırmaq üçün izahatsız ötüşə bilmədim".Yaxud da, S.Vurğun A.S.Puşkinin "Yevgeni Onegin" poemasını "Vaqifin şirin dilinə" çevirmək üçün 2 il saz sədaları altında çalışdığını, çəkdiyi əziyyətləri təsvir etmişdir.Deməli, öz ana dilimizə mükəmməl yiyələnməklə və xarici dil bilməklə hər hansı bir ünsiyyəti asanlıqla qura və tərcümə edə bilərik. Tərcümə prosesində isə nitq şifahi və ya yazılı ola bilər. Hər iki tərcümə növü mütəxəssisdən işçi dillərini mükəmməl bilmək, aidiyyatı olan sahə üzrə geniş məlumat, müəyyən vərdişlər tələb edir. Bu tələblərlə yanaşı, yazılı tərcüməni şifahi tərcümədən fərqləndirən bir sıra mühüm cəhətlər mövcuddur. Bunlar hər iki növ tərcümə üzrə peşə hazırlığı, vərdişlər tələb edir.

Tərcümə və tərcümə nəzəriyyəçisi V.Ryaşentsev "Ən yaxşı tərcümə nədir?" sualına belə cavab vermişdir. "Əgər ikinci dildə yaradılan əsər orijinalın oyatdığı təəssürata maksimum dərəcədə yaxın təsir oyada bilirsə, onu ideal tərcümə hesab etmək olar."Ümumiyyətlə, bir dilin lüğət tərkibinə daxil olan sözləri o dildə danışanlardan heç biri bilə bilməz. Hər adam öz ixtisasından, təhsilindən, sənətindən asılı olaraq, müəyyən miqdarda müxtəlif söz işlədir. Bu cəhətdən dilin ümumi lüğət tərkibi olduğu kimi, hər adamın da bir-birindən fərqli olan, özünəməxsus lüğət ehtiyatı vardır. Bu, tərcümə sənətində də belədir.Bəs tərcümə peşəsi nədir?

ƏDƏBİYYAT

1. Q.Bayramov "Tərcümə sənəti", Bakı, 2008.
2. F.Abdullayeva. "Sinxron tərcüməçi hazırlığı təcrübəsindən" Elmi xəbərlər-2006.
3. R.Qurbanova "Qöte yaradıcılığında məhəbbət mövzusu".
4. Чернов Г.В. Основы синхронного перевода, Москва, 1987.

А.НАСИРОВА

РОЛЬ ПЕРЕВОДА В МЕЖКУЛЬТУРНОЙ ОБЩЕНИИ

РЕЗЮМЕ

В статье говориться о художественном переводе. Художественный перевод относиться международной культуре. Наши выдающиеся переводчики провели много работ в этой сфере. В статье

говориться о ролях, значениях, об истории и развитии перевода. Здесь замечается также отличия и трудности письменным и устном переводе. Речь – форма появления языка, язык и речь взаимосвязаны, связь между ними существует как объективная необходимость, так –как речевой процесс не может проявится без языка, а язык без речевого общения.
В статье также рассматривается перевод с иностранного языка как метод трансформации в общей лингвистической системе,а также перевод и обратный перевод с Английского языка на родной и с родного на Английский язык.

A.NASSIROVA

THE ROLE OF TRANSLATION IN INTERCULTURAL DIALOGS

SUMMARY

In this article literary translation is discussed. Literary translation has important role in international culture. In this area there are many well-known interpreters in Azerbaijan Speech.Is the form of emergence of language, and speech are interconnected. Communication between them exists as objective need because language finds the existence in speech, and speech finds the sources in language.

The article speaks about the translation from foreign language,as a method of transformation in general linguistic system,also translation or bacs-translation from English into mother language or from mother language into English.

Rəyçi: Adilə Zeynalova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SEVİNC BABAYEVA
ADİU
sevinc.@.mail.ru.

MÜASİR İNGİLİS DİLİNDƏ METAFORİZMLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ EKVİVALENTLƏRİ

Açar sözlər: *İngilis dili, Azərbaycan dili, məcazi sözlər, metafora, növ, heyvan adları, quş adları, üslubi xüsusiyyət*
Ключевые слова: *английский язык, азербайджанский язык, метафорические слова, вид, животные имена, имена птиц, стилстические особенности*
Key words: *The English language, Azerbaijan language, the words with figuratve meaning, metaphor, kind, the names of animals, the names of birds, stylistic feature*

Tarixi kateqoriya olan söz nəinki dildə fikri ifadə edir, həmçinin obyektiv varlığın obrazlı təsvirinə də xidmət edir. Söz əsasən dil tarixinin müəyyən dövründə yaranıb formalaşır. Danışanlar ondan hazır şəkildə istifadə edir. Dildə sözlər real şəkildə mövcuddur, obrazlı olur, hadisələrə subyektiv qiymət verir, incə hisslər ifadə edir, emosional təsir göstərir. Sözün bu cür səviyyəsi onun semantikasında olan müxtəlif hadisələrdir ki, bu semantik hadisələrdən biri də məcazi mənalardır.Ə.Dəmirçizadə belə sözlərin əvəzçilik vəzifəsi daşıdığını qeyd edərək yazır: "Diqqətlə yoxladıqda aydın olur ki, bu əlavə mənaların əslində sözün ilk mənası ilə uzaq və ya yaxın əlaqəsi də vardır və məhz belə əlaqələr nəticəsində həmin sözlər əvəzçilik vəzifəsi daşıyır" . buradan belə bir nəticəyə gəlirik ki, sözün əsas mənası ilə əlaqədar dolayı mənası da ola bilər və sözlərin belə əlavə-dolayı mənalarda işlədilməsi mümkündür, hətta zəruridir (2, 152). Müəllif bundan nəticə çıxardaraq məcazi mənalı sözlərə aşağıdakı kimi tərif verir: "Sözün əlavə vəzifədə dolayı yolla ifadə etdiyi məna məcazi məna adlanır (yenə orada).Çoxmənalı sözün əksəriyyətinin mənalarından biri həqiqi olduğu halda, digər mənaları ikinci dərəcəli və ya məcazi mənada olur. Bu cür xüsusiyyət bütün dillərə, o cümlədən də İngilis dilinə xasdır.Məsələn, " Azərbaycan dilinin İzahlı Lüğətində "alçaq" sözünün 5 mənası göstərilmişdir ki, bunun da 2 mənası məcazi məfhum bildirir:

Alçaq sif.

1. Hündürlüyü, ucalığı az olan, hər hansı bir səviyyədən azacıq hündür olan...
2. Bəstəboy, boyu gödək...
3. m. (məcazi) pis, xarab, keyfiyyətsiz...

4. m. (məcazi) rəzil, şərərfsiz, namərd, çox pis...(3, 50)

"İngiliscə-Azərbaycanca lüğət"də isim kimi "charge" sözünün 9 mənası verilmişdir ki, burada da axırıncı mənanın məcazda da işlədilməsi göstərilmişdir:

Charge n.

1) Ödəmə, vermə, qiymət (xidmət və s.):pl. Xərc, məxaric; ~for admission-giriş üçün ödəmə; free of ~ pulsuz; extra ~ əlavə xidmətlər üçün ödəniş;

2) Ittiham, təqsirləndirmə; on a ~ of it- ittihama görə (bir şeydə)

3) Məsuliyyət (vəzifəyə); vəzifə, birc; who is in ~ here? Burada başçı kimdir?; to take ~ of- nəzarət altına almaq, nəzarətində saxlamaq (nəyisə), idarə etmək, baxmaq (nəyəsə);

4) Baxım, qayğı, himayə; to be in ~ of – baxmaq, qayğı göstərmək (kiməsə); to leave children in smb s ~ uşaqlari kiminsə himayəsi altinda qoymaq; to give smb.in charge – kimisə polisə təslim etmək;

Dildə məcazın əsasən, metafor, metonomiya, sinektoxa, alleqoriya, epitet və s. kimi növləri fərqləndirilir ki, bunlar da hələlik polemika doğurur.Qeyd edək ki, məcazın növləri içərisində ən geniş yayılanı metafordur. Yığcamlıq və ifadəlilik cəhətdən metafor ən qüvvətli vasitədir.

Metafor əşya və hadisələr arasında mövcud olan qarşılıqlı əlaqələrin dərkedilməsi təffəkürlə bağlıdır. Bu da onunla əlaqədardır ki, bir çox əlamətlərin, məsələn, predmetlər arasında oxşarlıq, bənzəyiş, müqayisə kimi əlamətlərin varlığı həmin predmetin adı başqası üçün işlədilir.

Məsələn, "meymun" heyvan adıdır; İngilis dilində "ape", "monkey" kimi sözlərlə ifadə olunur. Bu heyvana məxsus başqasını yamsılama, təqlid etmə, ağız əymə, əzilib-büzülmə və s. kimi səciyyəvi xüsusiyyətlər onun adının metafora çevrilməsinə zəmin yaradır."Meymun" sözün həm Azərbaycan dilində, həm də İngilis dilində eyni məfhumu, eyni mənanı ifadə edir. Hər iki dildə "meymun" sözündən meymunluq etmək (ape, to act\to play the ape) ifadəsi də işlədilir ki, bu da-"yamsılamaq," "təqlid etmək", "oyun göstərmək", "ağzını əymək" və s. kimi mənaları bildirir. Həmin söz və ifadə Azərbaycan və İngilis dillərində tez-tez işlədilir.Bəzi məcazi sözün özünün də məntiqi bir mənası var. Məsələn "lair" İngilis sözünün isim kimi əsqas məna kimi "mağara", "yuva" (vəhşi heyvanların məskunlaşdıqları yer), "adamım gizləndiyi, daldalandığı yer", fel kimi "mağaraya girmək" mənalarını bildirir. Məcazi mənada isə "qış yuxusuna girmək" ifadəsi kimi işlədilir – yəni çox yatmaq, heç nədən xəbəri olmamaq.Qeyd edək ki, "mağara" dedikdə ilk olaraq ayı yuvası nəzərdə tutulur. Ayı da çox yatanda (bütün qış yatır) qış yuxusuna gedib-deyirlər.Metaforun yaranma xüsusiyyətləri rəngarəngdir, onlar müxtəlif yollarla əmələ gəlir. Onlar ilk növbədə bənzəyiş əlamətləri nəticəsində yaranır.Metaforlar zahiri cəhətdən

oxşarlıqla əlaq\ədae, daxili əlamətlərinə görə oxşarlıq nəticəsində, canlılara məxsus hərəkətlər əşyaların üzərinə keçirilməklə və s. yollarla əmələ glir.Deməli, metafor müxtəlif əşyalar arasında müqayisə prinsipi əsasında yaranır. Yaranan metaforlar mənalı və ifadəli olur.Dildə həm ümumişlək, həm də üslubi metaforlar vardır. Üslubi metaforlar poetik metaforlar da adlanır.

Dilçilikdə metaforları quruluş etibari ilə sadə və mürəkkəb – deyə iki qrupa ayırırlar. Ayrı-ayrı sözlərin məcazlaşması sadə metaforlardır. Bunlar, sadəcə olaraq, leksik metaforlardır. Həmin metaforlar müxtəlif qruplardan əmələ gəlir ki, bunların da bir qismi aşağıdakılardan ibarətdir:

1.Daxili əlamətlərinə görə yaranan metaforlar. Buraya, əsasən, aşağıdakı sözlər daxildir:

a) Heyvan adlarını insan üzərində yönəldilən sözlər. Məsələn:

Həqiqi mənasıMəcazi mənası

Wolf (isim) canavar, qurd acgöz, qarınqulu; xain, paxıl

Wolf (fel) yemək acgözlüklə yemək

Wolfish canavar, qurd(canavara aid olan) qəddar, zalım, yırtıcı, vəhşi

Fox (isim) tülkü bic, hiyləgər

Fox (fel) _____hiyləgərlik etmək

Tiger pələngdalaşqan, qəddar insan

Foxy tülküyə aid olanhiyləgər, bic

Lion (isim) şir, aslan1)cəsur; 2) şöhrət, məşhurluq **Lion-**

Çox maraqlı haldır ki, İngilis dilində "donuz" sözünün həm isim, həm də fel kimi bir çox mənası vardır ki, bunların da əksəriyyəti məcazda işlədilir. Sözün mənalarına fikir verək:

Pig n.

1) Donuz, çoşka, donuz potası, donuz balası;2)Iri çoşka; roast ~ qızardılmış çoşka3)D.d. donuz, sırtıq, utanmaz, nacins, nankor, həyasız, ədəbaz (adam)Pinti, natəmiz adam4)Amer, əxlaqsız, pozğun qadın 5)Dəmir parçası, külçə 6)D.d. xoşagəlməz situasiya; pis vəziyyət 7)Tex. Külçə, qəlib 8)Sl. Polis...(4, 665)

Pig II (V)

1) Çoşkalanmaq, balalamaq (donuz haq.)
2) Donuz kimi çirk içində yaşamaq
3) ~ te d.d. daldalanmaq, sığınmaq, sıx və darısqallqda yaşamaq (4, 665)

"cat" sözü də həmçinin bu cür xüsusiyyətə malikdir:

Cat (n)

1) Erkək pişik, dişi pişik
2) Pişikkimilər fəsiləsi

3) D.d intriqaçı, aravuruşduran qadın

Bill (v) ~ and coo

1) Quruldamaq (göyərçin haqqında)
2) Şirin-şirin söhbət etmək

Coo (n)

1) Quruldama (göyərçinlərdə)
2) Şirin söhbət

Coo (v)

1) Quruldamaq (göyərçin haqqında)
2) Şirin-şirin söhbət etmək

Brood I (n)

1) Anadan ayrılmış balalar (quş, heyvan haqqında)

ƏDƏBİYYAT

1. Ə. D.əmirçizadə "Azərbaycan dilinin üslubiyyətı". Bakı, 1962.
2. "Azərbaycan dilinin izahlı lüğəti" (3 cildlik) 1ci ciold. Bakı, 1997
3. " İngiliscə- Azərbaycanca lüğət". Bakı, KM, 2012

S.BABAEVA

THE WORDS WITH QA FIGURATIVE MEANING IN THE AZERBAIJAN LANGUAGE

SUMMARY

The article deals with the words with figurative meaning and its ways of expressions are shown here. The words with figuratve meanings appear in the multiciphered process and a lot of examples are given in the article. At the same time the ways of formation the words with figurative meanings are expressed here. The figurative meaning of every word are reflected in this article.

In both English and Azerbaijani language the use of metaphors are frequantli observed.Because they are widely used in the English language,in press materials and literary works reders encounterwith them.In these cases,it is important to comprehend them and some methods must be employed to translate these metaphors.Otherwise some misunderstandings will occur and language norms will be violated.In the article analyses of some metaphors have been presented.

С.БАБАЕВА

СЛОВА МЕТАФОРИЧЕСКИМ ЗНАЧЕНИЕМ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье рассказывается о словах метафорическим значением, исползованные на английском языке и указывается их средства выражения на азербайджанском языке. Здесь подробно говорится о форморивании метафора, главном образом в процесс абстрактные слова, приводятся примеры.Также в статье нашло свое отражение пути появления метафор на английском языке. Даны метафорические значении каждого слова на азербайджанском языке.Как на английском,так и в Азербайджанском языке часто встречаются случаи использования метафорах.Широкое распростронение метафоровбв частности на Английском языке,приводит к их частому появлению перед читателями в прессах и в литературных произведениях.

В этом случае,в их понимание для перевода на Азербайджанский язык должны быть использованы различные методы.В противном случае произойдут определенные недаразумения и это привидут к нарушению норм языка.

Rəyçi: Yusif Süleymanov
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Təranə Kələntərova
Azərbaycan Dillər Universiteti
tarana_adu@yahoo.fr

LES CALQUES LINGUISTIQUES : DU FRANÇAIS AUX AUTRES LANGUES

Mots clés : emprunt, calque, vocabulaire
Açar sözlər : alinmalar, kalka, lüğət
Ключевые слова : заимственные слова, словарь, калка
Key words : borrowing words, calque, vocabulary

Etant un phénomène si habituel, si indispensable et si fréquent dans toutes les langues, l'emprunt linguistique jouit d'une certaine importance puisqu'il n'est difficile pour personne de le remarquer en lisant telle ou telle œuvre de même qu'en écoutant n'importe quelle discussion. Donc, nous n'avons pas tort quand nous prétendons que l'emprunt linguistique tient sa place dans tous les types de discours, de communication ou de langue ; il apparaît pareillement dans tous les niveaux de langue – soutenue, courante, etc. et – en d'autres termes, il ne cesse de faire partie de la vie des gens et d'être utilisé dans la vie quotidienne dans la plupart des pays.

Donc, les mots entrent dans la langue sans visa et sans contrôle, ils envahissent le quotidien du peuple. Beaucoup de ces mots fait partie de la vie de tous les jours. Tout naturellement, ils s'installent dans la langue, l'enrichissent et deviennent simplement indispensables pour la parole. Plusieurs raisons peuvent expliquer l'emprunt lexical. Ainsi, quand de nouveaux animaux, des plantes ou des instruments alors inconnus ont été découverts, leur nom a souvent été directement emprunté aux langues des pays qui les abritent.

The teacher needs two kinds of planning. The plan of series of class periods for a lesson or unit planning, unit of the text book or a unit plan and a daily plan or a plan of a class period for a definite lesson. In compiling a unit plan, in planning the lesson of the text book, the teacher determines all the difficulties: phonetic, grammar and lexical. Then he distributes the difficulties; over the number of class periods allotted to the lesson in the calendar plan. The teacher starts by stating the objectives or objectives of each class period. Of course the long – term goals of the course help the teacher to ensure that every particular lesson is pulling in the right direction and is another step forwards gaining the ultimate goals of the course. The lesson objectives are as follows:

1) Teach pupils to understand the given words when hearing and to use them in sentences orally.2) Teach pupils to form new words with the help of the suffixes, to use them in situations given. 3) Teach pupils to consult dictionary to look up the meaning of the words.4) Teach pupils to recognize the international words when hearing (or reading).5) Teach pupils to ask and answer questions in the present perfect and to make up dialogues following situations, etc.

The teacher can state no more than three concrete objectives for a particular class lesson depending on the stage of instructions, the material of the lesson and some other factors. The teacher distributes the linguistic material throughout the class periods, trying to teach new vocabulary on the grammatical material familiar to pupils and to teach a new grammatical item within the vocabulary assimilated by pupils; or first teachers pupils hearing and speaking on the new material presented and then pupils use this in various forms either in reading or in writing. The teacher selects and distributes exercises for class and homework using various teaching aids and teaching materials depending on the objectives of each class period. In distributing exercises throughout the class periods the teacher should involve his pupils in oral practice and speech, in oral and silent reading and in writing. Difficult exercises should be done under the teacher's supervision in class. But rather easy exercises are left to perform as a home work.

The unit plan involves everything the teacher needs for the detailed planning of a lesson namely; the objectives of each lesson, the material to work at, the exercises for home work and in class.

The unit plan includes several columns:

1. The number of class period
2. The objectives of each period
3. Linguistic material
4. Language skills

5. Accessories
6. Home work
7. Note

Unit planning allows the teacher to concentrate pupils' attention on one or two language skills during the lesson. In this case the class hour is divided into two main parts; careful unit planning helps the teacher to keep pupils' progress in language learning under constant control and use teaching aids and teaching materials more effectively.

All above mentioned should be done by the teacher if there are no teacher's books to the text books. If there are such books, the teacher's planning should deal with 1) the study of the author's recommendations and 2) the development of these recommendations according to his pupils' abilities. The teacher tries to adapt the plan to his pupils. He may either take it as it is or he may change it a bit. If he has a group of bright pupils the teacher utilizes all the exercises involved in Pupils' book and includes some additional material, or object for pupils' speaking within the same class periods. If he has a group of slow pupils he needs at least one more period to cover the material. He may also omit some exercises. The teacher may also increase the number of oral exercises and give pupils special cards to work individually and in pairs. The plan manifests the importance of planning. Pupils work in the classroom and at home. The teacher therefore thoroughly studies the plans in Teacher's Books and adapts them to his pupils.

When the unit plan completed the teacher moves into planning a class period or a daily plan which indicates the ways the teacher will follow to organize his class to work during the lesson. The daily plan includes 1) what should be achieved during this particular lesson. 2) What material is used for achieving the objectives 3) how the objectives should be achieved (aim, content and method). When the teacher has several classes of one level he usually makes preparations for each level. A separate plan needed for each class proceed at different speed. The teacher makes adaptations in his plans to compensate for varying of progress in the classes of the same level. The teacher must write his daily plan if he intends to use time effectively. That is why we may state that the effectiveness of pupils' desired learning is fully dependent on the teacher's preparation for the lessons. Therefore the teacher should thoroughly plan pupils' work during the lesson if writes his daily plans in advance. Some experienced teachers assume that the content changes continuously as well as the methods and techniques of teaching. The plan should be brief, to assign a definite number of minutes, to each activity, indicate exactly what words, phrases, facts, items are to be learned and how to make use of a variety of classroom activity for every pupil. Every lesson should begin with a greeting in the foreign language and a brief talk between the teacher and the pupils. There should be a variety of activities at every lesson. The lesson should be conducted at a high speed when oral drill exercises are performed. The lesson should be well equipped, with teaching aids and teaching materials.

ƏDƏBİYYAT

1.C.Robertson, R. Acklam. Action Plan for Teachers
2.G. Cunningham. The New Teacher's Companion: Practical Wisdom for Succeeding in the Classroom
3.J. C. Richards and T. S. Rodgers. Approaches and methods in language teaching.
4.J. Harmer. The practice of English language teaching
5.Ur. P. A course in language teaching.

İNGİLİS DİLİ DƏRSİNİN PLANLAŞDIRILMASI

XÜLASƏ

Məqalə müəllimin dərsi plana uyğun olaraq necə təşkil etməsindən bəhs edir. Təcrübəli müəlim dərsi təşkil etməzdən əvvəl planın nə demək olduğunu və onun növlərini bilməlidir. Müəllim nəzərə almalıdır ki, dərsin planlaşdırılması dərsin ssenariləşdirilməsi demək deyil. Planlaşdırmadan əlavə dərsin uğurlu keçməsi müəllimin şəxsi təcrübəsindən, bilik və bacarığından asılıdır. Məhz bundan sonra o uğurlu dərs təşkil edə bilər. Müəllim dərs prosesini uğurlu etmək üçün sinifə rəhbərlik etməyi bacarmalı, dərsi şagirdlərin biliyi və təcrübəsi üzərində qurmalıdır. Bu zaman müxtəlif vasitələrdən istifadə etməlidir. Buraya dərsliklər və müasir informasiya kommunikasiya texnologiyaları da daxildir. Əvvəlcədən planlaşdırılmış dərsin müsbət cəhəti odur ki, dərs şagirdlərin yaşına və dili mənimsəmə qabilliyətinə uyğun olaraq təşkil edilir. Yaxşı planlaşdırılmış və təskil edilmiş dərs şagirdlərdə materialı öyrənməyə və dərsdə aktiv iştirak etməyə həvəsləndirir.

ПЛАНИРОВАНИЕ УРОКА АНГЛИЙСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

Данная статья посвящается планированию урока английского языка. Опытный преподаватель перед планированием урока должен знать типы планов. Преподаватель должен учитывать что, планирование урока не означает по сценаринование. Помимо, планирования успешное проведение урока зависит от личного опыта, знания умения преподавателя. И после этого он может успешно организовать урок. При проведении урока преподаватель должен учитывать возрастные особенности, умения навыки учащихся. При планировании урока преподаватель использует различные средства такие как, учебники и современные информационно – коммуникативные технологии. Хорошо спланированный и организованный урок мотивирует учащихся и даёт возможность активно участвовать на уроке.

Rəyçi: f.ü.f.d. R.Hüseynova

ZAMİRƏ MƏMMƏDOVA
ADİU zamirə.@.mail.ru.

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ TƏRCÜMƏ TARİXİNİN TƏDQİQATI VƏ ONUN BƏZİ PROBLEMLƏRİ

Açar sözlər: *Azərbaycan dili, ingilis dili, tərcümənin tədqiqatı, bədii ədəbiyyat, dünya klassikləri.*
Ключевые слова: *Азербайджанский язык,язык,исследования перевода,художественная литература,мировые классики.*
Key words: *English, Azerbaijani, investigation of the translation,art literature,world classics.*

Dünya klassiklərinin dilimizə tərcümə işi XX əsrin əvvəllərindən başlanmışdır. O hələ də davam etməkdədir. Müasir tərcümə əvvəlkilərdən özünün rəngarəngli, dərin məzmunu, fikir dolğunluğu və zəngin ifadələri ilə oxucuların tələblərinə tam cavab verir.

Müasir dövrümüzdə şifahi tərcümə heç də yazılı tərcümədən az əhəmiyyət kəsb etmir. Çünki şifahi tərcümə vasitəsilə dövlət rəhbərləri öz görüşləri zamanı daha vacib dünya əhəmiyyətli məsələlərin həllinə asanlıqla nail olurlar. Buna misal olaraq son dövrlərdə dövlət başçımızın müxtəlif dövlətlərlə və onları təmsil edən şirkətlərlə, kompaniyalarla bağladığı böyük sazişləri misal göstərmək olar.

Şifahi tərcümənin bir əhəmiyyəti də ondadır ki, onun vasitəsi ilə xarici dildən ana dilinə, ya da əksinə tərcümə olunur ki, ba da iki müxtəlif dillərdə danışanlar arasında bir vasitəçi rolunda çıxış edir. Tərcümə xalqlar və dillər arasında körpüdür. Bu körpü vasitəsi ilə xalqlar bir-biri ilə dostluq, qarşılıqlı anlaşma, elmi, siyasi, mədəni və digər bu kimi əlaqələrini daha da inkişaf etdirir və möhkəmləndirir. Odur ki, müasir dövrümüzdə ikitərəfli tərcümənin rolu əvəz olunmazdır. Tərcümə vasitəsi ilə ölkəmizdə böyük kontaktlar, sazişlər imzalanır. Bunlar da iqtisadiyyatımızın inkişafına öz müsbət təsirini göstərir. Buna misal olaraq müxtəlif neft kontaktlarını, ipək yolu szişini və başqalarını göstərmək olar.

Hələ ən qədim dövrlərdən bütün xalqlar ədəbi nümunələrin öz dillərinə tərcümə etmişlər və bu zəmində xalqlar arasında ədəbi-mədəni əlaqələr qurulmuşdur. Məhz buna görə də müxtəlif xalqların müxtəlif dövrlərdə edilmiş bədii tərcümələrində bəzi oxşar cəhətlər tapmaq mümkündür. Bir qayda olaraq hər bir xalqa ədəbiyyatın təşəkkülü dövrü qonşu xalqlara məxsus ədəbi nümunələrin tərcüməsiylə müşayiət olunur və tərcümə praktikası get-gede genişlənir. Demək olar ki, tərcümə olunmuş nümunələr

tərcümə edən xalqa məxsus ədəbi nümunə kimi qəbul olunur və xalqın mənəvi cəhətdən zənginləşməsində mühüm rol oynayır.

Dünya xalqlarının inteqrasiya prosesində tərcümə nümunələrinin həm kəmiyyət, həm də keyfiyyət baxımından dəyişməsini müşahidə etmək olar.

XX əsr "Tərcümə yüzilliyi" də adlanır. Bu əsrdə bədii tərcümə xalqlar arasında informasiya mübadiləsi və kimmunikasiyaya çevrildi.

XX əsrin 30cu illərində Qərbi Avropa ədəbiyyatının klassik nümayəndələrinin, məsələn Şekspir,Dikkens, Bayron və digərlərinin əsərlərinin tərcüməsi prosesində "texnoloji dəqiqlik" prinsipinin üstün cəhətləri və çatışmazlıqları ilə bağlı diskussiyalar geniş vüsət aldı. "Texnoloji dəqiqlik" konsepsiyanın tərəfdarları orijinalın bütün cəhətlərini qoruyub saxlamağa çağırırdılar. Onlar tərcüməni sənət yox "dəqiq elm" elan edirdilər.

Ayrı-ayrı xalqların yaratdığı gözəl sənət əsərləri tərcümə vasitəsilə müxtəlif dillərə tərcümə olunurvə xalqlar bir-birinin zəngin ədəbiyyatı ilə yaxınış olurlar. Tərcümə ədəbiyyatı xalqlar arasında mədəni əlaqələrin sıxlaşmasına səbəb olur, dostluğu, əməkdaşlığı daha da möhkəmləndirir.

Dilçilikdə belə bir qəti fikir də vardır ki, dünya mövcud olan dillərin heç birinin lüğət tərkibi saf, yəni ancaq öz sözündən ibarət deyildir. Bundan belə bir nəticə çıxır ki, dillərin bir-birindən söz alıb verməsi təbii, obyektiv, qanunauyğun hadisədir. Bu proses dillərin inkişafına əsasən müsbət təsir göstərir. Bir dildən başqa dilə tərcümə insanları və onların mədəniyyətlərini yaxınlaşdırır. Minilliklər boyu tərcüməçilər xalqlar arasında bir körpü yaratmışdır. Bütün dillərdə olduğu kimi, ana dilimizin inkişafında da müsbət təsir göstərmişdir. Tərcümə vasitəsi ilə çoxmillətli xalqlar bir-birini daha yaxından tanıyır, bir-birinin ədəbiyyatına, incəsənətinə müsbət təsir göstərir.

Respublikamızda Avropa dillərindən tərcümə işində yeni bir mərhələnin başlandığına sevinirik. Bildiyimiz kimi, Azərbaycanda Avropa dillərindən tərcümə işi əsasən XX əsrin əvvəllərindən başlayır. Bu dövrdə Avropa dillərindən edilən tərcümələrin əksəriyyəti orijinaldan olan tərcümələrdir. Lakin sonralar Avropa dillərini bilən mütərcimlərimiz aramızdan getdiyi üçün və bir müddət orijinaldan tərcümələr edilmirdi. Son zamanlar ingilis, fransız və ispan dillərindən olunan tərcümələr öz tədqiqatçısını gözləyir.

"Tərcümə" sözü dilimizdə bir neçə anlayış ifadə edir. Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasını Səməd Vurğunun tərcüməsində oxuyub, "gözəl tərcümədir" , yaxud, Götenin "Faust"unun yeni tərcüməsi, dedikdə biz müəyyən bir fəaliyyətin-prosesin nəticəsini nəzərdə tuturuq. "Tərcümə zor işdir, hər kəs bacarmaz"-dedikdə biz məhz elə bir fəaliyyətdən-prosesdən bəhs edirik ki, bu proses nəticəsində tərcümə mətni yaranır. Tərcümə nəzəriyyəsidə məhz bu prosesdən, yəni bir dildə yazılmış

mətn başqa bir dilə çevrilə bilir? Bu hansı yollarla olur? Bütün bu məsələlər indiki dövrdə təkcə dilçiləri deyil, psixoloqları, ədəbiyyatşünasları da maraqlandırır. Lakin dilçilik baxımından tərcümənin özünün bir fəaliyyət-prosesi kimi mahiyyətində danışarkən adəta psixi və əqli proses deyil, məhz müəyyən dil vahidlərindən başqa bir dil vahidlərinə çevrilməsi nəzərdə tutulur.

Beləliklə, tərcüməni dillər arasında transformasiya adlandırmaq olar. Tərcümədə transfornasiya dedikdə biz müxtəlif dillərin bir-birinə real münasibətini nəzərdə tuturuq.

Tərcümə bildiyimiz kimi tutuşdurma və müqayisə arasında gedir ki, bu da xarici dili daha yaxşı öyrənməyə kömək edir. Bundan başqa tərcümə dil öyrənənin yaddaşını inkişaf etdirir, dil sahəsindəki bütün dillərini səfərbəyliyə alır, söz ehtiyyatını artırır, onu müxtılif söz və ifadələrlə tanış edir.

Görkəmli alimlər belə hesab edir ki, hər hansı fikri tərcümə etmək üçün hər bir dilin kifayət qədər imkan və vasitələri var. Təcrübə göstərir ki, dünyanın ən zəngin dillərdən olan ingilis, alman, rus, fransız, ərəb, fars və s. dillərində söylənilmiş elə bir fikir tağmaq çətindir ki, bunu adekvat şəkildə azərbaycanca ifadə etmək mümkün olmasın.

Beynəlxalq əlaqələrin sürətlə inkişaf eydiyi bir vaxtda dil öyrənən hər bir adam yazılı və şifahi tərcümə vərdişinə yiyələnməlidir. Tərcümə hər bir mədəni xalqın elmi, sayasi və iqtisadi əlaqələrinin inkişafında, əxlaq və tərbiyyəsinin, estetik zövqünün və mədəniyyətinin yüksəldilməsində müəyyən müsbət rol oynayır, bəşəriyyətin inkişafında böyük yer tutur.

Tərcümə vasitəsilə xalqların bir-birinə mədəniyyətini, ictimai-siyasi həyatı ilə tanış olur, daha yaxından tanıyırlar. Bugünkü elmin misilsiz dəyərləri ilə dünya xalqlara məhz tərcümə vasitəsilə tanış olur. Odur ki, istər ölkəmizdə, istərsə xaricdə tərcümə işinə xüsusi yer verir və əsrimiz tərcümə əsri adlanır.

Respublikamızda tərcümə dövlət əhəmiyyəti olan bir iş kimi qiymətləndirilir. Ədəbi və elmi konfranslarda tərcüməçilik sənətinin müxtəlif problemləri haqqında görkəmli tədqiqatçılar dəyərli fikir söyləmişdir. Artıq neçə ildir ki, tərcüməçilik bir sənət kimi, tərcüməşünaslıq isə bir elm kimi tanınır. Tərcümə yalnız ədəbi deyil, həmçinin siyasi və iqtisadi əlaqələrin də inkişafında mühüm rol oynayır.

Tərcümə rolu böyükdür. Ümumiyyətlə, nə qədər ki, xalqlar var, nə qədər ki, bəşəriyyət var, tərcüməyə, tərcüməçilərə həmişə olacaq.

Bugünkü müasir həyatımızı elmin və texnikanın nəiliyyətlərindən təcrid olunmuş halda düşünmək qeyri-mümkün olduğu kimi, onu təcüməsiz də təsəvvür etmək olmaz. Tərcümə hər bir mədəni xalqın elmi, siyasi və iqtisadi əlaqələrinin inkişafında, əxlaq və tərbiyyəsinin, estetik zövqünün və

mədəniyyətinin yüksəlməsində müəyyən müsbət rol oynamış və indiki dövrdə onun tutduğu yer daha vacib və mütləqdir.

Bugünkü elmin misilsiz nailiyyətləri ilə dünya xalqları tərcümə vasitəsilə tanış olur. Buna görədir ki, istər ölkəmizdə, istərsədə, istərsə də xaricdə tərcümə işinə indiki dövrdə xüsusi fikir verilir.

Ölkəmizdə tərcümə dövlət əhəmiyyəti olan bir işdir.

Respublikamızda Avropa dillərindən tərcümə işində yeni bir mərhələnin başlandığına sevinirik. Bildiyimiz kimi, Azərbaycanda Avropa dillərindən tərcümə işi əsasən XX əsrin əvvəllərindən başlayır. Bu dövrdə Avropa dillərindən edilən tərcümələrin əksəriyyəti orijinaldan olunmuş tərcümələrdir.

Dünya klassiklərinin dilimizə tərcümə işə hələ davam etməkdədir. Onu da qeyd etməliyik ki, bununla belə, hələ indiyə kimi əsərlərin tərcüməsi ictimaiyyətimiz üçün çox vacib olan, dünyanın ən tanınmış ədiblərinin əsərləri tam tərcümə olunmamışdır.

ƏDƏBİYYAT

1. Нешумаев,И.В.Синтактические трансформации при перевода английского текста.М.
2. Комиссаров В.Н. Теории перевода. Москва.1993г
3. Bəşirov M,Xocayev O. Azərbaycan dilindən rus dilinə və əksinə tərcümənin nəzəriyyəsi.
4. Швейцер А.Ф.Теория перевода,Статус,проблемы,аспекты.Москва.Наука.1988ан.

M.ZAMIRA

INVESTIGATION OF THE HISTORY OF THE TRANSLATION AND HIS PROBLEMS IN AZERBAIJAN AND ENGLISH LANGUAGES

SUMMARY

The article is devoted to the role meaning of the translation in bicultural communication,some thoughts and philosophical appreciating of translation in modern linguistics also about stylistically translation in literature and humanitarian sphere.In the given article some parts of translation in contemporary literature of Azerbaijan and literature of Westen-European countres and Russia are analized.

The article examines the a few,the basic principle teaching students foregh language especially English institutions of higher education it is noted

training terminology vocabulary national audience strongly differs from the other principles of training.

The article examines also the main tasks of the for success ful learning foreing language institution of higher education;translation tasks,semantics of the tasks,comparable tasks,sinonymestasks,encrypted tasks,all tasks training realizable students audiences.

З.МАМЕДОВА

ИССЛЕДОВАНИЯ ИСТОРИИ ПЕРЕВОДА И ЕГО НЕКОТОРЫЕ ПРОБЛЕМЫ В АНГЛИЙСКОМ И В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

В данной статье рассматривается роль и значение перевода в межкультурной коммуникации,некоторые мысли и философские оценки об истории перевода и о перевод переводанической деятельности в современной лингвистике,а также о стилистике перевода о литературе и в гуманитарной сфере.В этой статье также анализируется некоторые фрагменты в современной литературе Азербайджана и литературой Англии,Западноевропейские страны и России.

В статье также рассматривается некоторые основные принципы обучения перевода студентам Английского языка в высших учебных заведаниях, отмечается обучения основные принципы перевода в младших и старших курсов университета.В статье также анализируется некоторые основные задачи переводнической деятельности обучения Английского языка в ВУЗ-ах:задачи для переводов,по семантикам, сравнительные задачи,синонимические задачи,шифровые задачи и др.Все задачи обучения реализуется студентами в аудиториях ВУЗ-ах.

Rəyçi: Rauf İsmayılov
Filologiya elmləri doktoru, professor

YEGANƏ ƏLƏSGƏROVA
ADİU
yeganə.@.mail.ru.

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SADƏ CÜMLƏNİN MÜQAYİSƏLİ XARAKTERISTIKASI

Açar Sözlər: *Azərbaycan dili, ingilis dili, sadə cümlə, semantika, dilçilik, mürəkkəb cümlə, müqayisəli xarakteristika.*
Ключевые слова: *Азербайджанский язык, Английский язык, простое предложение семантика, лингвистика, сложное предложение, сравнительная характеристика.*
Key words: *Azerbaijani, English, simple sentence, semantics, linguistics, complex sentence, comparative description.*

Bildiyimiz kimi, cümlə nitqin əsas vahidlərindən biridir. Cümlə haqqında təlim ümumi dilçiliyin mübahisəli, həm də maraqlı məsələlərindən biridir. Dilçilərin bəziləri bu fikirdə olmuşlar ki, cümlənin vəzifəsi hökmü bildirməkdir. Digər dilçilər isə hökm ilə cümlənin eyniləşdirilməsinin əleyhinə çıxmışlar. Məsələn: A.M.Peşkovski də cümlənin hökm ilə eyniləşdirilməsinin əleyhinə çıxaraq göstərmişdir ki, bir qayda olaraq, cümləni hökmə gətirib çıxarmaqdan əl çəkmək lazımdır. Çünki hökm məfhumunun özü (həm məntiqi, həm də psixoloji) cümlənin təhlili üzərində qurulmuşdur. Cümlə öz tərsözlər daxil edir ki, bunlar öz məntiqi qarşılıqlı əlaqəsinə görə hər hansı bir hökmü ifadə edir, yəni hər hansı bir yeni bitmiş fikir və yaxud mühakimə bildirir. Dilçi alim Z.Budaqova da qeyd edir ki, hökmlə cümləni qarışdırmaq olmaz. Hökmlərin hamısı cümlədir. Lakin bütün cümlələr hökm bildirmir. Məsələn: əmr və sual cümlələri hökm hesab edilmir, çünki bu cümlələrdə subyekt və yoxdur. Deməli, sual və əmr cümlələrində predikat və subyekt olmadığı üçün bunlar hökm sayılmır. Bundan başqa, hökmdə nə isə təsdiq və ya inkar edilir. Əmr cümləsində isə əşya və ya şəxs nəyə isə təhrik olunur, sual cümlələrində isə soruşulur. Sualla hökmün bir fərqi də ondan ibarətdir ki, biz sual verərkən mühakimə etmirik, soruşuruq, hökm verərkən isə mühakimə edilir. Sual cümlələrində məqsəd müəyyən cavaba nail olmaqdır.

Hökm ümumbəşəri, cümlə isə milli səciyyə daşıdığına görə, eyni bir hökm ayrı-ayrı dillərdə həm oxşar cümlə quruluşu ilə, həm də müxtəlif cümlələrlə verilə bilər. Cümlənin üzvləri və quruluşu hökmün üzvləri və quruluşun-dan bəzən fərqlənir, bəzən də uyğun gəlir. Bütün bu göstərilənlər hamısı sadə cümlə probleminə bilavasitə aiddir. Hər bir sadə cümlə müəyyən aspektdən öyrənilir. Bu aspektlərdən birincisi onun strukturudur. Sadə

cümlənin strukturuna əsasən onun malik olduğu komponentlər daxildir. Digər bir aspekt isə onun semantikası, yəni mənasıdır. Üçüncü aspekt isə praqmatika adlanır, yəni onun ifadə edilməsi. Bu özünü əsasən nitq prosesində göstərir.

İngilis dilində sadə cümlənin struktur quruluşu nəinki nitq prosesində rol oynayır, həm də cümlə daxilində hər bir modelə uyğun üzvlər arasında sin-taktik əlaqələri birləşdirir. "İngilis dilində sadə cümlənin strukturunda işlənən komponentlə asılı olmayan, birinci dərəcəli və ya ikinci dərəcəli komponentlərə (üzvlərə) bölünmüşlər". Deməli həm ingilis, hm də Azərbaycan dilinin, eləcə də başqa dillərin əsas struktur vahidi – *cümlə* adlanır. Bildiyimiz kimi, hər bir cümlə struktur əlamətlər əsasında bölünürlər. Bu əsasda sadə cümlələr – təktərkibli və ya cüttərkibli, bütöv və ya yarımçıq, adlıq və s. olmaqla növlərə ayrılırlar. Belə ki, dilçi alimlər Q.Q.Poçertsov və B.B.Burlakova ingilis dilində sadə cümlələri iki yerə bölürlər»:

1. Nəqli sadə cümlələr;
2. Kvazi (yalançı) sadə cümlələr.

Nəqli sadə cümlələr özləri dörd yerə bölünürlər:

1. Nəqli cümlələr

Məsələn: *John came.* - *Con gəldi.*

2. Sual cümlələr

Məsələn: *Did John come?- Con gəldimi?*

3. Əvəzləyici cümlələr

Məsələn: *If John came, come - Əgər Con gəldisə, gəl.*

4. Təkidedici cümlələr

Məsələn: *Come - Gəl*

Kvazi (yalançı) cümlələr isə üç yerə bölünür:

1. Müraciət cümlələri (vokativ) - ***John!***
2. Nida cümləsi - *Oh, Hello!*
3. Nitq münasibətini təyin edən cümlələr:

Məsələn: *Good day. Good morning. Yack, good-bye!*

Nəqli cümlələr subyekt-predikat əsasında hər hansı bir hadisəni xəbər verirlər. Kvazi cümlələr isə heç bir subyekt-predikata əsaslanmır və heç bir məlumatı əhatə etmirlər. Nəqli cümlələr öz arasında məlumat vermək və almaq əlaqəsini yaradırlar.

Kvazi cümlələr isə nitq prosesində cümlənin müəyyən vəziyyətinə təsir edir və həqiqi cümlənin bir elementinə çevrilməklə digər üzvlər-dən asılı olmur, yəni müstəqil olur. Həm ingilis dili, həm də Azərbaycan dilində və ümumilikdə konkret dil-dən asılı olmayaraq hər bir sadə cümlə ən azı aşağıdakı tələblərə cavab verməlidir:

1. *Müəyyən bir fikir ifadə etməlidir;*
2. *Müəyyən sintaktik quruluşa malik olmalıdır;*
3. *Müəyyən intonasiyaya malik olmalıdır.*

Ünsiyyət prosesində işlədilən sadə cümlələr fikri ifadə məqsədinə və quruluşuna görə müxtəlif olur. Buna müvafiq olaraq sadə cümlələr, əsasən, aşağıdakı əlamətlərə görə təsnif olunurlar:

1. *Ünsiyyətdəki məqsədinə görə;*
2. *Malik olduğu quruluşa görə.*

Hər iki dildə sadə cümlənin aşağıdakı növləri vardır:

1. *The Declerative Sentence - Nəqli ciimlə;*
2. *The Interrogative Sentence - Sual cümlə;*
3. *The Imperative Sentence - Əmr cümlə;*
4. *The Exclamatory Sentence - Nida ciimlə;*

Azərbaycan dilində də ingilis dilində olduğu kimi «nəqli cümlələr maddi və mənəvi aləm haqqında əldə etdiyimiz məlumatları xəbər vermək üçün işlədilir. Ünsiyyət prosesində bu və ya digər fikir ya təsdiq, ya da inkar edilir». Azərbaycan dilində olduğu kimi, ingilis dilində də nəqli cümlənin sonunda səs tonu aşağı düşür. Bütün bunlar aşağıdakı nümunələrdə öz əksini tapmışdır.

Məsələn:

A delegation of Turkish students has visited to our University - Tiirk tələbələrinin nümayəndə heyəti Universitetimizə səfərə gəlmişlər.

I have not seen the newfilm - Mən yeni filmi görməmişəm.

Məsələn, Azərbaycan dilində *«not»* inkar sözü yoxdur, onu fellə birlikdə yazılan - *ma, - mə* inkarlıq şəkilçisi vasitəsi ilə ifadə etmək olar. Bu yalnız inkar cümlələrdə işlədilir.

İndi bu müqayisəsini sual cümlələrində də aparmaq olar:

Sual cümləsi - bilmədiklərimizi öyrənmək və ya təxmini bildiklərimizi dəqiqləşdirmək məqsədilə işlənən cümlələrdir.

İngilis dilində sual cümləsi ünsiyyət prosesində qarşıya qoyulmuş məqsəd baxımından müxtəlif olur. Belə ki:

- bəzən sualı ifadə edilən fikrə bütövlükdə aid etmək olur.

Məsələn: *Do you live in Baku? - Siz Bakıda yaşayırsınız?*

- bəzən sual iki fikirdən hansının həqiqətə uyğun olmasını müəyyənləşdirmək məqsədi güdür.

Məsələn:

Do you live in Baku or in Sumqait? - Siz Bakıda, yoxsa Sumqayıtda yaşayırsınız?

- bəzən onun bir hissəsinə aid olur.

Məsələn: *Where do you live in Baku - Bakıda harada yaşayırsınız?*

- bəzən isə danışanın şübhəsini dəqiqləşdirmək üçün işlədilir. Məsələn: *You live in Baku, dou't you? - Siz Bakıda yaşayırsınız, elə deyilmi?*

Bütün bunlara müvafiq olaraq müasir ingilis dilində suallar aşağıdakı dörd yarımqruplara bölünür:

1. *General guestions - Umumi suallar;*
2. *Special guestions - Xüsusi suallar;*
3. *Altemative guestions - Altemativ suallar;*
4. *Disjunctive guestions - Discantiv suallar.*

Bütövlükdə cümləyə aid olan "yes" və "no" cavabı tələb edən suallara ümumi suallar deyilir. Belə sual cümlələri bir qayda olaraq köməkçi fellə başlanır. Məsələn:

ƏDƏBİYYAT

1. Знаменская Н.А Семантико –синтаксический анализ предложений в современном английском языке . АКД, Москва, 1982, с. 1
2. Azərbaycan dilçiliyi məsələləri. Bakı. 1981. s.9.
3. O.Musayev. İngilis dilinin qrammatikası. Maarif nəşriyyatı. Bakı 1979, s.225-226.
4. Детериева Т. И. Субьективно – обьектные отношения в разноструктурных языках. Москва, Наука, 1985, с. 59.
5. M.Ganshina and N.Vasikevskaya English Qrammar, VIII, Moscow, 1957, s. 260-261.

Е.АЛЕСКЕРОВА

СРАВНИТЕЛЬНАЯ ХАРАКТЕРИСТИКА ПРОСТОЕ ПРЕДЛОЖЕНИЯ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

В статье рассматриваются сравнительный анализ предложения в английском и азербайджанском языках, исследуются актуальные вопросы, цель и задачи, методы, источники и практическое значение простого предложения в английском и азербайджанском языках.

В статье также рассматриваетсяпростое предложение в Английском и в Азербайджанском языках в результате логике-семантического анализа компонентов каузальной корреляции,мы приходим к выводу,что в семантическом плане можно представить в виде комплекса дифференциальных признаков просго предложения.

В данной статье анализируется некоторые структурные типы простое предложения в Английском и Азербайджанском языках и выделяются нижеследующие варианты: простое предложение, неподчиненныесложное предложение, подложающи
Придаточного предложения,сказуемые придаточные предложения, придаточные предложение дополнения ,придаточные предложение определения и обстоятельства.

Y.ALESKEROVA

THE COMPARATIVE DESCRIPTION OF THE SIMPLE SENTENCE IN ENGLISH AND AZERBAIJAN LANGUAGE

SUMMARY

The introductions deals with, the aims and purposes scientific methods and sources, theoretical and practical significances of the theme, the structure and prac-ticing of the research work. By giving the short summary of the literature con-nected with the theme in English of Azerbaijan.
The article deals with the simple sentence and result in moderne English.It is also noted that cause stand in a converse relation ship with result,caused,resulted from and vice versa.As a result of lojical and semantic analisys of the component of causal correlations,we come into conclusion that in therms of semantics consequence?can be represented as a set distinctive conditional.The article some simple sentence in Azerbaijani fnd in English.Also the following variants are analised in the article:the simple sentence,thecomproundsentence.In all these strutural kinds of sentence simple are learned and investigated in scientific investigation worcs and textbooks.

Rəyçi: Nuriyyə Rzayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

NƏRMİN İBRAHİMOVA
ADPU
ibrahimova_narmin@yahoo.com

FONOLOGİYA VƏ FONETİKANIN İNKİŞAF DİNAMİKASI

Açar sözlər: *Artikulyasiya, fonetika, fonologiya, fonoloji, ünsür, tələffüz, səs, tembr, ton, qarşılıqlı əlaqə, psixoloji və fiziki vəziyyət, nəzəriyyə, funksiya kombinasiya, fərqləndirici ünsür, metod, istifadə etmək, səs axını, akustik, fizioloji, tədqiq etmək;*
Key Words: *articulation, phonetics, phonologic, phonological, element, pronunciation, sound, timbre, tone, mutual relation, psychological and physical situation, theory, functional combination, distinguishing element, method, use, sound flow, acoustic, physiological, investigate;*
Ключевые слова: *артикуляция, фонетика, фонология, фонологический, элемент, произношение, звук, тембр, тон, взаимоотношение, психологическое и физическое положение, теория, функциональная комбинация, отличительный элемент, метод, использовать, звуковой поток, акустический, физиологический, исследовать.*

Ünsiyyətin çox şaxəli bir danışıq aktı olması hamıya məlumdur. Danışıq aktı zamanı dil danışan tərəfindən ilk növbədə səsləndirilir. Beləliklə ünsiyyətin artikulyator bazası vacibdir. Eyni zamanda danışan insanın danışıq prosesi zamanı tələffüz etdiyi səslər bir-birindən fərqlənir. Əgər belə olmasaydı tələffüz olunan səslər başa düşülməyən səs axınından ibarət olardı. Prosesin növbəti mərhələsində danışanın səsləri dinləyicinin qulaq aparatı tərəfindən qəbul edilir. Beyindəki fonem etalonları ilə üst-üstə düşdükdə isə qavrama prosesi başlayır. Kommunikantların eyni dil sisteminə yiyələnmələri və konkret bir ötürülmə kanalından istifadə etmələrilə şərtlənməsi də ünsiyyət prosesində vacib komponentlərdən sayılır. Danışıq aktının baş tutması üçün bir amil də vacibdir ki, bu da dinləyənin başa düşməsi üçün onların qarşılıqlı olaraq eyni dili bilməsi və eyni dildə danışanların şüurunda canlı dilin mövcud olmasıdır. Dil və ya dil sistemi bir dəfə baş verən danışıq aktından fərqli olaraq ümumi və sabitdir. Dil bir sistem olaraq müəyyən toplumun bütün fərdlərinin şüurunda mövcuddur və konkret danışıq aktlarının əsasında dayanır. Başqa bir tərəfdən dil sisteminin danışıq aktının həyata keçməsində başqa mövcudluq hüququ yoxdur və onu ifadə edən konkret danışıq aktı kimi, onda aktuallaşan məvhum kimi mövcuddur. Danışıq aktı olmadan dil sistemi də mövcud deyil. Bu da öz növbəsində onu göstərir ki, danışıq və dil sistemi bir-birinin mövcudluğunu şərtləndirir. Onlar qırılmaz surətdə bir-biri ilə əlaqəlidir və eyni dilin bir-biri ilə bağlı olan iki tərəfi kimi nəzərdən keçirilməlidir. Lakin bu o demək deyil ki,

danışıq aktı ilə dil sistemi eyni məvhumdur. Ferdinad de Sössüzə görə dilə aid olan həm danışığın, həm də dil siseminin iki tərəfi var: məna tərəfi "Le signifiant" və ifadə tərəfi "Le signifie". Bu isə öz növbəsində o deməkdir ki, danışıq fəaliyyəti məna tərəfi ilə ifadə tərəfinin birləşməsindən və qarşılıqlı əlaqəsindən ibarətdir (1,26). Eyni fikrə H. Qordinerin "Speech and language". Oxford1992 əsərində, K. Bülerin Axiomatik der Sporch wissensenoft. "Kant Studien" XXXVII: Sprachtheorie. Jena, 1934 əsərlərində də rast gəlmək mümkündür.

Danışığın ifadə tərəfi konkret səs axınıdır, fiziki hadisədir. Dildə ifadə olunan bütün məna sahəsini müvafiq şəkildə tənzimləməklə tərkib hissələrinə bölməyə imkan yaradan qaydalardırsa, onda ifadə edən danışıq aktının səs tərəfini nizamlamağa xidmət edən qaydalar da ola bilər.

Danışıq aktında özünü büruzə verən müxtəlif konkret təsəvvürlərin və fikirlərin miqdarı çoxdur. Dildəki leksik mənaların miqdarı isə əksinə məhdud saydadır. Sadə dillə desək dili bilmək o deməkdir ki, öyrənilən dildə istifadəmizdə olan məhdud miqdarda qrammatik və semantik vasitələrin köməyi ilə biz bütün konkret təsəvvürləri, fikirləri və onların arasındakı əlaqəni ifadə edirik. Beləliklə, dildə ifadə olunan danışıqdakından fərqli olaraq on həddə məlum olan vahidlərdən ibarətdir. Lakin dillə danışıq arasındakı belə münasibət eynilə ifadə edənə də şamil oluna bilər. Danışıqda meydana gələn tələffüz üzvlərinin hərəkəti və buna uyğun gələn intahasız səslənmələr insansız olduğu halda ifadə edənin vahidlərini düzəldən səslərin normalar daxilində sərhədləri vardır. Yeri gəlmişkən dilin mahiyyətindən danışarkən dilin ünsiyyət vasitəsi olması fikri də unudulmamalıdır. Konkret bilmək lazımdır ki, dil danışıq aktı zamanı hansı funksiyaları yerini yetirir. Təxminən ötən əsrin 30-cu illərində məşhur Avstriya psixodilçisi K.Büler özünün "Dil nəzəriyyəsi" əsərində dil işarələrinə danışanın mövqeyindən yanaşmada onların üç funksiya yerinə yetirdiyini xüsusilə vurğulayırdı. Danışanın hər hansı ifadə etməli (Audrucks funktion), kiməsə (dinləyiciyə) müraciət etməli (Appelfunktion) nəyisə təsvir etməlidir (Dorstellungfunktion) (2, 50). Adı çəkilən funksiyanı misalla aydınlaşdıraq. Düşünək ki, danışan qarşı tərəfə belə deyir: Sizə dilçiliyə aid bir sual verim. Bu nitq aktı ilə o qarşı tərəfə sual vermək hər hansı bir məsələni dəqiqləşdirmək fikrini ifadə edir. Eyni zamanda qarşısındakına hazırkı psixoloji və fiziki vəziyyətini təsvir edir. Həmçinin həmsöhbətinə müraciət edərək onun fiziki vəziyyətini başa düşməyə imkan yaradır. K. Bülerin bu nəzəriyyəsini inkişaf etdirən Praqa Dilçilik Məktəbinin nümayəndəsi R. Yakobson dilin funksiyalarını daha da genişləndirdi. F.Y. Veysəlli isə dilin fuksiyalarını səkkiz qrupa ayırmışdır. Buraya danışanın mövqeyini əks etdirən, dinləyiciyə yönələn referensial, faktik poetik və estetik metodu ötürmək, tanıma kimi funksiyalar daxildir (3, 38-39).

Yuxarıda qeyd olunduğu kimi dil qarşılıqlı anlaşma məqədinə xidmət edir. Bura onun funksiyaları da daxildir. Eyni zamanda dil insanın danışıq üzvləri vasitəsilə yaranan və qulaqla eşidilən işarələrdən ibarət olan normalar sistemidir. Təbii ki, bu normalar qarşılıqlı anlaşma vasitələri rolunu o zaman yerinə yetirir ki, bir dil kollektivinə mənsub olan həm danışan, həm də dinləyənlər ondan eyni şəkildə bir cür istifadə etsinlər. Bütün bunlar o işarələrin deyilməsi və dərk olunması üçün əhəmiyyətlidir ki, danışıq üzvləri tərəfindən əmələ gəldikləri üçün dil xarakterləri kəsb etmirlər. Ona görə ki, həm danışıq prosesində, həm də dərk edəndə danışan və dinləyən bu ənənəvi normalara riayət edirlər.

Burada bir məsələni də xüsusilə vurğulamaq lazımdır ki, dərk olunan, saya gəlməz realizasiya deyil, yalnız əvvəlki nəsillərdən qəbul edilmiş və hazırda sabitləşmiş normalar danışıq aktının ayrılmaz tərkib hissəsidir. Bütün bunlar isə öz növəsində danışıq aktının nəticəsidir. Danışıq aktı isə fonologiya və fonetik proseslərə bağlıdır. Baxmayaraq ki, fonologiya dil səsləri, fonetika isə danışıq səsələri haqqında elm kimi müəyyənləşdirilmişdir.

Danışığın ifadə tərəfinin yalnız bir dəfə baş verən təbiət hadisəsi, bir səs axını olduğundan bununla məşğul olan elmdə təbiətşünaslığın metodlarından istifadə etmək olar. Səs axını sırf fiziki, akustik yaxud fizioloji artikulyasiya baxımdan tədqiq edilə bilər. Bu tədqiqatçının səs axınının akustik varlığını və onun yaranma xüsusiyyətlərini öyrənməsindən asılıdır. Bu arada qeyd etmək lazımdır ki, səs eşidilməklə dərk olunan fiziki hadisədir və danışığın akustik tərəfini tədqiq etməklə fonetika dərk etmə psixologiyasına yaxınlaşır. Əslində səs mürəkkəb və geniş anlayışdır. Təbiətdə və cəmiyyətdə qulaq vasitəsilə nəyi eşidiriksə səs adlanır. Ümumiləşdirsək qulaq eşitmə üzvünün qəbul etdiyi hər bir şey səsdir. Maraqlıdır ki, ətraf mühitdə mövcud olan bütün səsləri qulaq qəbul edə bilmir. Qulaq saniyədə rəqslənmənin sayı 16 hers olan ən alçaq səs dalğalarını və saniyədə rəqslənmənin sayı 20000 hers olan ən yüksək səs dalğalarını qəbul edir. Səs dalğalarının saniyədə sayı 16 hersdən aşağı olanı qulaq aparatı qəbul edə bilmir. Eyni zamanda saniyədə rəqslənmənin sayı 20000 hersdən çox olan səs dalğalarını da qulaq qəbul edə bilməz. Əks təqdirdə, qulaq pərdəsi rəqslənmənin sayı saniyədə 20000 hersdən çox olan səs dalğalarının təsiri altında davam gətirə bilməz. Təbiidir ki, mövcud olan səslər çoxdur, suyun şırıltısı, küləyin, cisimlər toxunduqda yaranan səslər, şimşəyin və s. Bu səslərin bir çoxunu fizikanın akustika bölməsi öyrənir. Fonetika isə danışıq səslərindən bəhs edir. Danışıq səsləri dil və keçici səslər olmaqla iki yerə ayrılır. Dil səsləri elə səslərdir ki, onların yaranmasında danışıq üzvləri fəal iştirak edir. Eyni zamanda bu səslərin akustik mahiyyəti olur və onun tələffüz dəqiqliyinə diqqət yetirilir. Danışıq səsləri adlandırdığımız bu səslər səs ucalığı, səs gücü, səs uzunluğu, əsas ton, oberton ton tembrdən ibarət olur. Həmçinin danışıq səsləri fizioloji mənbələrə, əlamətlərə ictimai xüsusiyyətlərə malik olur. Dil səslərinin artikulyasiyası yarımavtomatlaşmış hərəkətlərin psixologiyasına yaxınlaşır.

Lakin fonetikanın tamamilə insan psixologiyasına aid olmasına baxmayaraq onun tədqiqat metodları təbiətşünaslıq metodlarına yaxındır. Fonetika üçün xüsusi səciyyəvi olan cəhət bir də odur ki, o, tədqiq etdiyi səs komplekslərinə onların dildə ifadə etdiyi mənaya təmamilə laqeyd qalır.

Dil sisteminin ifadə tərəfi mahiyyət etibarı ilə bir-birindən fərqlənən elementlərin məcmusudur. Dildə hər bir söz başqalarından nəiləsə fərqlənməlidir. Dil sistemində bu cür fərqləndirici vasitələr məhdud miqdardadır və onların sayı dildəki sözlərin sayından xeyli az olduğundun sözlər fərqləndirici ünsürlərin birləşməsindən ibarətdir. Lakin burada fərqləndirici ünsürlərin güman olunan bütün kombinasiyaları mümkün deyldir. Bu qaydalar hər bir dilin xüsusi düzülüş qaydalarına tabedir. Fonologiya müəyyən bir dildə səs fərqlərinin hansılarının məna fərqləri ilə bağlı olduğun, fərqləndirici ünsürlərin bir-birinə münasibətini və onların hansı qaydalar əsasında sözlərdə birləşə bilməsini araşdırır.

Fonetikanın danışıq səsləri fonologiyanın isə dil səslərindən bəhs edən elm kimi müəyyənləşdirilməsi ilə yanaşı fonetika dil səslərinin sırf fenomonoloji tədqiqi ilə, fonologiya isə bunun əksinə həmin səslərin dildəki funksiyasını öyrənməklə məşğul olur fikrini də irəli sürmək mümkündür. Fonologiya istisnasız olaraq həm də dil sistemi sahəsinə aiddir, lakin fonetikanın danışıqla əlaqədə götürülməsinə əhəmiyyət vermir. Fonetika bir növ insanın danışdıqlarıdır. Fonetikanın öyrəndiyi səs axını istənilən qədər hissələrə bölünə bilən arasıkəsilməz bir axındır. Fonologiyaya gəlincə isə qeyd etmək lazımdır ki, o, məlum fonetik anlayışlardan istifadə edir. Məsələn, rus dilində sözlərin mənalarını fərqləndirməyə xidmət edən samitlərin kar və cingiltili qarşılaşmaları haqqındakı hökm fonologiyaya aiddir, lakin "cingiltili", "kar", "küylü" anlayışlarının özü fonetikaya məxsusdur. İstənilən fonoloji təsvir müəyyən bir dildə səslənən məna fərqləndirən qarşılaşmalarını müəyyən edir. Həmin dilin fonetik təsviri ilkin nöqtə və maddi baza kimi götürülməlidir. Daha yüksək fonoloji təsvirə sistemləşdirilmə mərhələsinə gəlincə isə onlar qətiyyən fonetikadan asılı deyildir.

Məlum olduğu kimi dil çoxsəviyyəli və çoxşaxəli bir sistemdən aşağı səviyyənin ünsürləri fərqləndirməni, yuxarı səviyyənin vahidləri isə bütövlükdə ünsiyyəti təmin edir. Məhdud miqdarda aşağı səviyyə ünsürləri fonemlərdə birləşir. Fonemlər isə müxtəlif dillərdə müxtəlif sayda olurlar.

Beləliklə, fonetika ilə fonologiya arasında məlum əlaqələr onların prinsipial şəkildə asılı olmasına baxmayaraq labüddür.

ƏDƏBİYYAT

1. Ferdinande de Saussere. Cours de İnguist ique generale. Lausanne. 1996.
2. Bühler K. Sprachtheorie. Jena Gustov Fischer Vernağ, 1934, Sturttgorf: New York, 1982.
3. Niels O. Schiller, Antje S. Meyer Phonetics and Phonology in Language Comprehension and Production Differences and Similarities New York, 2003
4. F. Veysəlli "Dilçiliyin əsasları" I hissə Bakı, Mürtəcim 2013
5. Ağamusa Axundov. Ümumi dilçilik. Bakı, 2006
6. Azərbaycan Dilçiliyi müntəxəbatı I, II, III cilddə. Bakı, 2013.

ARMIN IBRAHIMOVA

THE DEVELOPMENT DYNAMICS OF PHONOLOGY AND PHONETICS

SUMMARY

One of the urgent themes of contemporary Azerbaijan, as well as the world linguistics school, is phonology, phonetics. The development regularities of phonology and phonetics have always been at the centre of attention of the linguists.

The article deals with one of the main problems of phonetics- interrelation of phonology and phonetics. In the article phonetics is considered as the science which studies the speech sounds, and phonology- as the science which studies language sounds. In addition, it is advanced that phonetics deals with just phenomenological investigation of language sounds, but phonology deals with the study of the function of these sounds in the language.

Phonetic review of the formation of speech act, the phonetic functions of the language, phonetic normality, interrelation of phonetic peculiarities with phonology are presented in the article.

НАРМИН ИБРАГИМОВА

ЗАКОНОМЕРНОСТИ ФОНОЛОГИИ И ФОНЕТИКИ

РЕЗЮМЕ

Одной из самых актуальных тем современной азербайджанской, а также мировой школы языкознания является фонология, фонетика. Закономерности развития фонологии и фонетики всегда были в центре внимания языковедов.

В статье рассматривается одна из актуальных проблем фонетики– взаимоотношение фонологии и фонетики, а также даётся фонетический обзор формирования речевого акта. В статье фонетика рассматривается как наука о звуках речи, а фонология - как наука о языковых звуках. Вместе с тем, выдвигается идея о том, что фонетика занимается именно феноменологическим изучением языковых звуков, а фонология – изучением функции этих звуков в языке.

Статья отражает функции языка с фонетической стороны, фонетическую нормальность, взаимоотношения фонетических особенностей с фонологией.

Rəyçi: b/m Sevda Ağayeva

SEVDA AĞAYEVA
ADPU
seva.ava.17@mail.ru

ƏVƏZLİK NİTQ HİSSƏSİ AZƏRBAYCAN İNGİLİS DİLLƏRİ İLƏ MÜQAYİSƏLİ MÜSTƏVİDƏ

Açar sözlər: *əsas nitq hissələri, əvəzlik, şəxs, sintaktik, mübtəda, tamamlıq, cins kateqoriyası, omonim, konkret, morfologiya, qayıdış əvəzliyi, kəmiyyət, sual əvəzliyi, təyini əvəzlik, qeyri-müəyyən əvəzlik, sintaktik funksiya, bağlayıcı, təyin budaq cümlə, mürəkkəb cümlələr;*
Key Worda: *the notional part of speech, pronoun, person, syntactic, subject, gender category, homonym, concrete, morphology, reflexive pronoun, quantity, interrogative pronoun, defining pronoun, indefinite pronoun, syntactical function, conjunction, attribute clause, composite sentences;*
Ключевые слова: *самостоятельные части речи, местоимение, синтаксический, подлежащее, дополнение, категория рода, омоним, конкретный, морфология, возвратные местоимения, количество, вопросительные местоимения, относительные местоимения, неопределённые местоимения, синтаксическая функция, союз, определительное придаточное предложение, сложное предложение.*

Müasir Azərbaycan dilində əsas nitq hissələrindən olan əvəzlik konkretlik bildirmir. Əşyanın məzmununu müəyyən etmir. Əşyaya ad vermir. Əvəzliyin bir nitq hissəsi kimi vəzifəsi sadəcə əvəz etməkdir, işarə etməkdir. Elmi ədəbiyyatda əvəzliyə qısaca olaraq belə bir tərif verilir: isim, sifət, say, zərf-əsas nitq hissələrini əvəz edən əsas nitq hissəsi əvəzlik adlanır (1, 290). Əvəzlik nitq hissəsinə Azərbaycan dilində belə bir tərifin verilməsi təsadüfü deyildir. Eləcə də, əvəzliyin özünün yerində işlənmə əvəzliyin əsas xüsusiyyətlərindən biridir. Məsələn: *Sən əlaçı tələbəsən cümləsində* "Sən" şəxs əvəzliyi hər hansı bir xüsusi ismi əvəz etmişdir. *Bütün insanlar bərabərdirlər* cümləsində "bütün" təyini əvəzliyi sifəti, *Siz neçənci kursda oxuyursunuz?* Cümləsində "siz" xüsusi ismi "neçənci" əvəzliyi isə sıra sayını əvəz etmişdir. Eyni faktı *O belə düşünür* cümləsindəki "belə" əvəzliyinin zərf nitq hissəsini əvəz etdiyini də söyləmək mümkündür. Azərbaycan dilçiliyində əvəzlik nitq hissəsi və bir nitq hissəsi kimi əvəzliyin xüsusiyyətləri haqqında araşdırmalar aparan alimlərin fikirləri müxtəlifdir. Y. Seyidov qeyd edir ki, Azərbaycan dilində ümumilikdə 28 əvəzlik var: mən, sən. o, biz, siz, bu, həmin. belə, elə, bura, ora, kim, nə, hara, hasnsı, haçan, neşə, neçə, kimi, kimsə, biri, birisi, öz, bütün, hər, filan, eyni, filankəs

(2, 292). Bir nitq hissəsi kimi sayca digər nitq hissələrindən az olmasına baxmayaraq əvəzliyin say etibarı ilə sadəcə 28 əvəzlikdən ibarət olması fikri ilə razılaşmasaq belə dilçiliyimizdə ümumilikdə əvəzliyin məna növləri ilə əlaqədar aparılan bölgü qəbul ediləndir.

Azərbaycan dilində əvəzliyin məna növləri dedikdə ilk yada düşən şəxs əvəzlikləridir. Məlumdur ki, dilimizdə şəxs əvəzlikləri isim nitq hissəsinin yerində işlənib kim?, nə? sual əvəzliklərindən birinə cavab verir. Maraqlıdır ki, bu əvəzliklər türk dillərinin demək olar ki, hamısında eynidir. Dilimizdə işlənən şəxs əvəzliklərinin daha bir özəlliyi ondan ibarətdir ki, bu əvəzliklər dilimizdəki mənsubiyyət, şəxs-xəbərlik şəkilçilərinin yaranmasında mühüm rol oynamışdır. (3, 188) .

Azərbaycan dilində şəxs əvəzlikləri.

Şəxs əvəzlikləri dilimizdə ismi əvəz edir və şəxs anlayışını bildirir. Şəxs sözü qrammatik məna daşıyır, bu isə o deməkdir ki, həmişə insan anlayışı bildirmir. Şəxs əvəzlikləri azərbaycan dilində hər üç şəxsin təkini və cəmini bildirir.

I şəxs-mən I şəxs cəm-biz
II şəxs- sən II şəxs cəm-siz
III şəxs-oIII şəxs cəm –onlar

Şəxs əvəzliklərini I və II şəxsin cəmini bildirən sözlər leksik, III şəxsin cəmini bildirən əvəzlikisə -lar şəkilçisini artırılması ilə yaranır. Azərbaycan dilində I II şəxs əvəzlikərinin həm təki, həmdə cəmi əsasən insan anlayışı bildirir. Kim sual əvəzliyinə cavab verir. Bəzən isə istisnalar da mümkündür. Bəzi üslubi məqamlarda xüsusilə nağıllarda, təmsillərdə bəzi canlılar (qurd, dovşan, tülkü) təbiət hadisələri və ya cansızlar (külək, ağac, meyvə və s.)şəxsləndirilir. Məsələn, M.Ə. Sabirin "Uşaq və buz" şeirində

Sən nə yamansan, a buz.

Adam yıxansan, a buz və yaxud –Ay külək, sən nə güclüsən?-Quzu, sən burda neyləyirsən? Qurd dedi:-Mən səni yeyəcəyəm kimi nümunələrdə qeyd olunan faktlara rast gəlmək mümkündür.

III şəxs tək və cəm əvəzliyi isə həm insana, həm də digər canlı və cansızlara aid ola bilir. Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycan dilində əvəzlik mahiyyət etibarı ilə bir əvəzedicidir. Odur ki, əvəzliyin bütün növləri kimi şəxs əvəzliyi də konkret bir nitq hissəsi ilə ortaq xüsusiyyətlərə malikdir. Sadə dillə desək, şəxs əvəzlikləri bir nitq hissəsinin –ismin müəyyən xüsusiyyətlərini daşıyır. Müəyyən məqamlarda ismi əvəz edir, bəzi suallarına cavab verir. Lakin bu elə anlaşılmalıdır ki, şəxs əvəzlikləri isimə çevrilir. Bu mümkün deyil. Ona görə mümkün deyil ki, şəxs əvəzlikləri isim nitq hissəsi kimi hallana bilsə də məsələn, mən, mənim, mənə, məni, məndə, məndən, əşya yerində işlənsədə ismin kim? nə? suallarına cavab verib

sintaktik cəhətdən cümlənin mübtədası, tamamlığı, ismi xəbəri vəzifəsində işlənsə də isim nitq hissəsi kimi əşyanın adını bildirmir, sadəcə onu əvəz edir, ismin hara? sualına cavab vermir. İsim nitq hissəsində olduğu kimi mənsubiyyət kateqoriyasını qəbul etmir.

Qeyd etdiyimiz faktlar Müasir Azərbaycan dilində şəxs əvəzliklərinin yığcam, ümumiləşmiş ən vacib xüsusiyyətləri idi. Müasir İngilis dilində isə mövcud olan şəxs əvəzlikləri üç qrupa ayrılır.

1. Konkret şəxs bildirən əvəzliklər: *I, you, we, they, one;*
2. Şəxs bildirməyən: *it*
3. Qeyri-müəyyənlik bildirən əvəzliklər: *you, we, they, one.*

İngilis dilində I, she, he və we əvəzliklərinin obyekt hal forması suppletive yolla, yəni başqa kökdən olan sözlə düzəlir. Məsələn: *I-me, he-him, she-her, we-us.*

Azərbaycan dilindən fərqli olaraq ingilis dilindəki şəxs əvəzliklərindən üçüncü şəxs təkdə cinsə görə fərqlənir: kişi cinsində *he*, qadın cinsində *she*, orta cinsdə isə *it* işlənir. Sadə dillə desək *he* kişi cinsi bildirən isimlərin, *she* qadın cinsi bildirən isimlərin, isə orta cinsi bildirən isimlərin əvəzində işlənir. Məsələn, *My brother is ten years old. He is schoolboy. His sister is twelve years old. This is my book. It is very interesting*. İngilis dilindəki III şəxs əvəzliklərinin hər üçü (*he, she, it*) Azərbaycan dilində III şəxs tək o əvəzliyinə cevrilmişdir. Müqayisə üçün He is a *worker-O fəhlədir. She is a doctor-O həkimdir. It is a table- o stoldur.* Bu da ondan irəli gəlir ki, Azərbaycan dilində ingilis dilindən fərqli olaraq cins kateqoriyası yoxdur.

İngilis dilində işlənən qeyrri-müəyyən şəxs əvəzliklərinin bir çoxu (you, we, they) omonimdir. Formaca konkret şəxs bildirən əvəzliklərlə mahiyyət etibarı ilə eynidir. Buna baxmayaraq bildirdikləri şəxsin reallığı baxımından onlar konkret şəxs bildirən əvəzliklərdən fərqlənir. Belə ki, The *workers have come; they want to begin; they say he is a kind man* cümləsində işlənən *they* əvəzliyi şəxs bildirir, konkretlik isə yoxdur. Eyni sözü *you*, *we* və *they* əvəzlikləri haqqında da demək mümkündür. Məsələn: *We are fighting for peace.*

Heron was his name, a Professor, so they tell him (Galsworthy)

They say a woman always remembers her first lover with affection. (Maugham)

В концепции Остина понятие перформатив, отвечающее тенденции соединения языка и деятельности, было позднее сближено с понятием «иллокутивной силы» - коммуникативной направленности высказывания, а перформативами стали называться глаголы, выражающие цель речевого акта (to order, to promise, to object). Для таких глаголов характерно функциональное обособление формы первого лица настоящего времени изъявительного наклонения: «I promise» - есть акт обещания, «he promises» - описание акта обещания, его констатация. Перформативные глаголы включают в свое значение признак речевого выражения коммуникативного намерения. Глаголы обозначающие предосудительные коммуникативные цели (to lie, to insult) не допускают перформативного употребления.. Большинство перформативных глаголов вводит пропозицию и рассматривается в ряду других глаголов пропозиционального отношения. При определенных условиях перформативный глагол не теряет своей функции в позиции, зависимой от модальных слов. Вопрос Would I invite you to dance? равнозначен приглашению. Такой перформатив называется смягченным или косвенным (hedged performative) [5, c.57].

Одно из положений теории речевых актов состоит в том, что минимальной единицей человеческой коммуникации является не предложение или высказывание, а «осуществление определенного вида актов, таких, как констатация, вопрос, приказание, описание, объяснение, извинение, благодарность, поздравление и т. д. ». Эта установка оказалась созвучной тем взглядам в современной лингвистике, для которых характерно стремление выйти за пределы предложения, раздвинуть рамки лингвистического анализа.

Одним из вопросов теории речевых актов (ТРА), который привлекает внимание исследователей-лингвистов на протяжении более чем полвека является вопрос о классификации речевых актов.

Основатели ТРА с целью предметного изучения их функционирования, изначально предложили ряд общих признаков для выделения различных типов речевых актов в определенные группы.

В своей основополагающей работе How to do things with words Джон Остин дал первую классификацию речевых актов,

учитывая иллокутивную цель, психологическое состояние говорящего, направление отношений между пропозициональным содержанием речевого акта и положением дел в мире, отношение к интересам говорящего [6].

Выделяются следующие основные классы речевого акта: информативные речевые акты,

- сообщения “the train came”,
- акты побуждения “go away”, в том числе требование информации, то есть вопрос What's the time?,
- акты принятия обязательств “I promise to come in time”,
- акты, выражающие эмоциональное состояние, в том числе формулы социального этикета “Excuse me for interruption”,
- акты - установления (декларации, вердикты), такие, как назначение на должность, присвоение имен и званий, вынесение приговора, объявление при заключении брака “I pronounce you man and wife” [6].

Характеристика речевого акта обычно дается через их сопоставление с пропозицией. Значение речевого акта не сводится к значению входящего в него пропозиционального содержания. Одна и та же пропозиция способна входить в разные речевые акты: “I'll come tomorrow”, может быть обещанием, сообщением, угрозой. Понимание речевого акта, обеспечивающее адекватную реакцию, предполагает правильную интерпретацию его иллокутивной силы. Последняя определенным образом взаимодействует с пропозицией, например побуждении и обязательства могут включать только пропозиции, относящиеся к плану будущего. Их цель - создать такое положение вещей, которое соответствовало бы значению пропозиции.

Джон Остин в своей работе выделяет три аспекта речевого акта:
1)локутивный (речение)
2)иллокутивный (цель), который отвечает на вопрос зачем?
3)перлокутивный, отвечающий на вопрос что следует?

Классификация речевых актов соответствует их иллокутивной силе:

- вердективы (verdictives) суждение
- экзерситивы (exercitives) побуждение
- коммисивы (commissives) принятие обязательства
- бехабативы (behabatives) формулы речевого этикета
- экспозитивы (expositives) описательные [6].

Автор подчеркнул, что основным признаком иллокутивного акта является его цель, которая должна быть распознана адресатом.

Наиболее известная универсальная классификация иллокутивных актов построена американским логиком и философом

Дж. Сёрлем. Базу этой классификации составляет группа признаков, которые сам автор называет «направлениями различий между иллокутивными силами».

Джон Серль проводит классификацию на основе следующих параметров, по которым могут различаться речевые акты:

1. цель речевого акта;
2. направленность акта;
3. выраженное психологическое состояние говорящего;
4. сила стремления к достижению цели;
5. различия в статусе говорящего и адресата;
6. выражение интересов говорящего и слушающего;
7. отношение к речевому контексту;
8. различие между актами, имеющими только речевую реализацию, и актами, которые могут быть осуществлены как вербально, так и невербально;
9. различие в пропозициональном содержании;
10. различие между речевыми актами, успешность которых обусловлена определенными экстралингвистическими факторами и теми актами, успешность которых не зависит от социальных институтов;
11. различие между актами, в которых иллокутивный глагол функционирует как перформатив, и актами, в которых он не пренадлежит к категории перформативов;
12. стиль осуществления речевого акта (ср. заявление и признание).

На основе названных параметров Дж. Серль выделяет:

репрезентативы - речевые акты, представляющие некоторое положение дел; исполняя их, говорящий возлагает на себя ответственность за истинность сообщения (утверждения, предсказания, описания, объяснения, классификации);

директивы - речение акты, используемые говорящим для побуждения слушающего к совершению некоторого поступка (приказания, просьба, совет, инструкции);

коммиссивы - речение акты, возлагающие на говорящего обязательства совершить некоторый поступок (обещания, клятвы, заверения, угрозы, предложения);

экспрессивы - речевые акты, передающие психологическое состояние, вызванное некоторым событием (выражение благодарности, извинения, поздравления, приветствия, соболезнования);

декларации - речевые акты, успешность совершения которых гарантирует установление соответствия между их пропозициональным

содержанием и некоторым положением дел (отречения, завещания, объявление войны, назначение на должность) [3, с.118].

Д.Вундерлих предлагает использовать следующие четыре критерия при классификации речевых актов:

1. Речевые акты могут классифицироваться в соответствии с основными грамматическими показателями в данном языке. К такого рода показателям в языках типа английского и немецкого относятся по крайней мере следующие:

а) вопросительное наклонение;

б) повелительное наклонение;

в) изъявительное наклонение;

г) специфические перформативные формулы.

2. Речевые акты могут классифицироваться в соответствии с

а) типом пропозиционального содержания;

б) типом иллокутивного результата.

3. Речевые акты могут классифицироваться по выполняемым ими функциям в рамках языковой интеракции.

4. Речевые акты могут классифицироваться по своему происхождению (первичные и вторичные речевые акты) [7, с.293-312].

Проблема классификации речевых актов рассматривается также Т. Баллмером и В. Бренненштуль. В данной классификации подчеркивается, что глаголы, обозначающие речевые акты, относящиеся к речевой деятельности и различным аспектам языкового поведения, могут рассматриваться как указания на то, что говорящие считают релевантным для своего языкового поведения. Авторы рассмотрели 4800 глаголов, обозначающих акты речи. На основе проведенного лексико-семантического анализа Баллмер и Бренненштуль выделили восемь основных групп глаголов, 24 подгруппы и 600 категорий. Одной из групп является модель воздействия. Эта модель выражает различные степени побуждения кого-либо к совершению определенного действия (требования, приказы, в том числе и просьбы). К подразделу просьб (asking for) относятся такие глаголы, как *ask, appeal, apply, ask for advice, aspire, beg, beseech, bid, entreat, implore, request* [8, с.301].

В последующих классификациях речевых актов аргументативные или контраргументативные акты стали занимать отдельную нишу, однако как показали исследования Ф. Еемерена и Р. Гроотендорста экспрессивные речевые акты, с помощью которых говорящий проявляет свои чувства, касающиеся определенного события, и декларативные речевые акты, с помощью которых говорящий отражает определенное состояние дел, не являются частью

аргументативного дискурса. Как указывают авторы, назначение этих речевых актов - способствовать пониманию слушающим других речевых актов путем указания на то, как их надо интерпретировать. Речевые экспрессивы и декларативы могут выполнять важную роль на всех стадиях критической дискуссии и могут предотвращать поспешное принятие и непринятие решения, однако для собственного аргументативного решения используется только ассертивные, директивные и комиссивные речевые акты [9, с.41].

Вопрос классификации речевых актов со значением просьбы рассматривается в диссертации А.А. Романова. Автор исследует высказывания-просьбы, в немецком языке, которые как и все директивные высказывания, характеризуются значением перформативности, каузирующего отношения между говорящим и адресатом. Высказывания - просьбы конструктивно могут быть эксплицитными и имплицитными. Автор уточняет, что наиболее адекватным средством выражения иллокутивного характера высказываний-просьб является стандартная эксплицитная формула типа Ich bitte Sie (или I want you to...).

Высказывания-просьбы входят вместе с приказами, советами, приглашениями, рекомендациями в так называемый директивный тип, который характеризуется побуждением говорящего к совершению указанного им действия. Вместе с тем, высказывания - просьбы занимают промежуточное место между приказами, требованиями, распоряжениями, указаниями, с одной стороны, и советами, рекомендациями, приглашениями, с другой стороны [10, с.14].

В этом отношении важно замечание, которое делают Ф. Еемерен и Р. Гроотендорст. Ученые отмечают, что использование языка является и формой вербальной коммуникации, и формой социальной интеракции. Авторы считают, что использование языка никогда не направлено только на то, чтобы произвести иллокутивный эффект, который означает, что слушающий распознает иллокутивную силу высказывания и знает, к какой пропозиции применен эта иллокутивная сила.

С помощью своего речевого высказывания говорящий также хочет произвести более далеко идущий перлокутивный эффект на слушающего, который вызовет определенную реакцию у слушающего - возможно, ответ, выражение своего согласия или какое-либо действие. Например, говорящий, выражающий просьбу к слушающему, в принципе достигает не только того, что слушающий понимает, что к нему обращена просьба и что эта просьба влечет за собой, но также и то, что он либо выполнит, либо воздержится от выполнения

определенного (вербального или невербального) акта или действия [11, с.218-219].

Таким образом речевой акт просьбы как побуждение к действию не всегда реализует перлокутивный эффект. Выполнение или невыполнение действия зависит с одной стороны от личных установок адресата и аргументативных функций речевого акта просьбы с другой, что косвенно подтверждает положение о том, что высказывания-просьбы в классификации речевых актов являются директивными речевыми актами, однако занимают переходящую зону между приказами, распоряжениями и советами, рекомендациями.

СПИСОК ЛИТЕРАТУРЫ

1. Дж. Остин. Слово как действие / Дж. Остин.. М.: Прогресс, 1986, с .22-129.
2. Дж. Остин. Избранное / Дж. Остин. М.: Идеал-пресс, 1999, 88 с.
3. Дж. Серль. Классификация иллокутивных актов / Дж. Серль. Новое в зарубежной лингвистике. Вып.17. Теория речевых актов. М.: Прогресс, 1986, с. 170-194.
4. Богданов В.В. Классификация речевых актов просьбы / В.В. Богданов. Калинин, 1989, 68 с.
5. Вендлер З. Философия. Логика. Язык./ З. Вендлер. М.: Прогресс, 1987, 336 с.
6. Austin, J.T. 1962. How to do things with words // J.T. Austin. Oxford: Clarendon Press, 1962, 166 p.
7. Wunderlich D. Methodological remarks on speech acts theory / D. Wunderlich. Speech acts theory and pragmatics.1980, p. 292-312.
8. Ballmer T., Brennenstuhl W. Speech Act Classification: A Study in the Lexical Analysis of English Speech Activity Verbs // T. Ballmer, W. Brennenstuhl, Berlin, 1981, 340 p.
9.Еемерен Ф. ,Гроотендорст Р. Аргументация коммуникации и ошибки / Ф. Еемерен и Р. Гротендорст. Петербург: «Васильевский остров», 1992, 207 с.
10. Романов А.А. Коммуникативно-прагматические и семантические свойства немецких высказываний - просьб. автореф. дисс. канд. …филол.наук. Калинин, 1982, 16 с.
11. Еемерен Ф., Гроотендорст Р. Речевые акты в аргументативных дискуссииях. Теорети-ческая модель анализа дискуссий, направленных на разрешение конфликта мнений. Перевод с английского. СПб, Нотабене, 1994, 239 с.

A.E.ALLAHVERDIYEVA
E.İ.ALLAHVERDIYEV

İNGİLİS DİLİ NİTQ AKTLARI BÖLGÜSÜNÜN ÜMUMİ SİSTEMİNDƏ XAHİŞ

XÜLASƏ

Məqalədə nitq aktının yaranması və təsnifatından bəhs edilir. Linqvistik praqmatikanın əsas nəzəri konsepsiyası nitq aktı nəzəriyyəsidir. C.Ostin öz əsərində nitq aktının üç aspektini qeyd edir: lokutiv, illokutiv və perlokutiv. C.Ostinə görə, performativlər – söyləm, hərəkət və rəftarın ekvianlentidir. Performativlər sosial və kommunikativ situasiya yaradaraq həyati hadisələrin kontekstinə daxil olur. Performativ – praqmatika və söyləm nəzəriyyəsinin əsas anlayışıdır. İllokutiv aktın ən tanınmış universal təsnifatı amerikan məntiqçisi və filosofu C.Ostin tərəfindən tərtib edilmişdir. Nitq aktı nəzəriyyəsinin müddəalarından biri ondan ibarətdir ki, insan kommunikasiyasının vahidi cümlə və söyləm yox, məhz müəyyən növ aktların həyata keçirilməsi, belə ki, etiraf, sual, əmr, təsvir, izah, üzr, minnətdarlıq, təbrik və s.

A.E.ALLAKHVERDIYEVA
E.I.ALLAKHVERDIYEV

REQUEST IN THE GENERAL SYSTEM OF THE CLASSIFICATION OF SPEECH ACTS IN ENGLISH

SUMMARY

The article deals with the origin and classification of speech act. The main idea of linguistic pragmatics is speech act. J.Austin in his work notes three aspects of the speech act: locutive, illocutive, perlocutive. According to J.Austin performatives is expression, equivalent to the action, act. Performatives part of the context of life events, creating a social, communicative and interpersonal situations. Performative - one of the central concepts of pragmatics and theory of expression. The most famous universal classification of illocutionary acts based by American logician and philosopher J.Searle. One of the assumptions of the theory of speech acts is that the minimum unit of human communication is not a sentence or a statement, but the realization of a certain kind of acts, such as admission, ask, order, description, explanation, apology, thanks, greetings and so on.

Рецензент: Доктор филологических наук Земфира Алиева

ƏDƏBİYYATŞÜNASLIQ

DÜRDANƏ SƏMƏDOVA
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Milli Aviasiya Akademiyası

ELMİ-FANTASTİK ƏDƏBİYYATIN TƏDQİQİ TARİXİNƏ BİR NƏZƏR

Açar sözlər: *fantastika, ədəbiyyat, tədqiqat, elm, texnika, məqalə*
Keywords: *fantastic, literature, research, science, technical, article*
Ключевые слова: *фантастика, литература, исследование, наука, техника, статья*

Elmi-fantastik ədəbiyyatın tədqiqi tarixinə XX əsrin əvvəllərindən nəzər salmağa başlasaq, ədəbiyyatın bu istiqamətinin sözügedən əsrin əvvəllərində öyrənilməsinin çox aşağı səviyyədə olduğunu söyləməliyik. Bunun da çox sadə səbəbləri vardır. Elmi-fantastik ədəbiyyatın təşəkkül və inkişaf tarixinin əsasən XX əsrin ortalarına (məsələn, postsovet məkanında fantastik ədəbiyyat daha çox 20-ci illərdən sonra təşəkkül tapırdı) təsadüf etdiyini nəzərə alsaq,bu çox təbii bir proses kimi görünə bilər. XX əsrin 40-cı illərində isə seyrək də olsa artıq ədəbiyyatın bu istiqamətinin tədqiqinə cəhdlər edilir. Bu cəhdlər də daha çox jurnalist münasibəti idi. Həmin illərdə işıq üzü görən elmi-fantastik əsərlərə yazılan resenziyalar, publisistik jurnalist məqalələri, oxucu rəyləri də bu sıradandır.

Çağdaş elmi fantastikaya münasibət bu sahənin görkəmli tədqiqatçısı və yazıçı-fantastı A.Klark tərəfindən düzgün bildirilmişdir. Tədqiqatçıya görə, çağdaş dönəmdə yaradılan fantastik ədəbiyyat nümunələri "günümüzdə nəşr olunan hər hansı bir bədii əsərlər müqayisə olunacaq səviyyədədir". Özgə sözlə, XXI əsrin fantastik ədəbiyyat nümunələri rəqabətə yararlı şəkildə yazılır və bədii fikir dövriyyəsinə buraxılır. Amma söylənilənlərə baxmayaraq etiraf etmək lazımdır ki, sözügedən dövrdə yaradılan elmi-fantastik ədəbiyyat nümunələri nə qədər yüksək səviyyəli olsa da, onların bədii dəyəri klassik ədəbiyyatın artıq formalaşmış və qəlibləşmiş poetik qanunlarına cavab verə bilmir. Elmi fantastikanın ümummədəni dəyəri bədii ədəbiyyatın dəyərini üstələyə bilmir.

Fantastik ədəbiyyatşünaslığın əsas çətinliklərindən biri fantastik ədəbiyyat nümunələrindəki materialın ənənəvi yanaşmaya tabe olmaması, bədii analizə uyğunlaşmamasıdır. Tənqidçiləri və şərqşünasları o hal çətinliyə salır ki,

fantastik ədəbi əsərlərin qəhrəmanları ümumiləşmiş tipik personajlar deyil, daha çox fantastik ideyaların abstraktlaşdırılmış obrazıdır. Bu zaman fantastik ideyaların estetikası belə əsərlərin poetik çatızmaqlıqlarını üstələyir. Məsələn, Kapitan Nemonu gəmisiz, İxtiandrı balıq fəqərələrsiz təsəvvür etmək mümkün deyildir. Bu qəhrəmanların fantastik dondan məhrum edilməsi – uzun illər ədəbi tənqidin başlıca məqsədlərindən biri olmuşdur.

Bu gün elmi fantastikaya dair əsas müzakirə hədəfi isə onun oxucular arasındakı uğuru və ənənəvi ədəbi qanunlar çərçivəsinə sığmaması ilə əlaqədardır. Bəzi mütəxəssilərin fikrincə, məhz bu ədəbi qanunlara riayət olunmaması elm fantaskikanın ilk və ən əsas özünəməxsusluğdur.

Elmi fantaskit ədəbiyyarın yuxarıda söylədiyimiz kimi, həddən artıq çəşhurluğu, ona kifayət qədər oxucu diqqətinin olması ədəbiyyatşünaslıarı bu ədəbi-bədii hadisəni tədqiq etməyə səbəb olmuşdur.

"Gələcəyin carçıları və yalançı peyğəmbər" adlı məqalədə E.Brandis və V.Dmitrovski ilk dəfə Qərb ədəbi tənqidində fantastika janrına münasibəti araşdırmışlar. XX əsrin 60-cı illərində isə eyni müəllifin – E.Brandisin "Jül Vern" (1) və Y.Kaqarlitskinin "Herbert Uels" (2) kitabları işıq üzü görür. Hər iki monoqrafiya elmi fantastika janrının ictimai potensilanın açılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu kitablar o vaxtacan elmi fantasktika barədə kök salmış bir anlaşılmazlığın açılmasına da xidmət etmiş oldu və göstərdi ki, elmi fantastika heç də "texnisizm", yni sırf elmi-texniki tərəqqi və s.ilə bağlı olan janr deyildir. Hər iki müəllif elmi fantastik əsərlərin hər şeydən öncə ədəbi- bədii funksiya daşıdığını da tutarlı dəllilərlə sübut edə bilmişlər.

Bu iki monoqrafiya barədə danışarkın mütləq onu da qeyd etmək lazımdır ki, yuxarıda söylədiyimiz kimi, o zamana qədər elmi-fantastik ədəbiyyatın tədqiqi və tənqidi resenziya janrından o yana keçə bilmirdi. Yazılan resenziyalarda isə daha çox elmi-fantastik əsərlərdəki fantastik süjet və tematikanın çağdaş dönəmlə müqayisəsi bu əsərlərdə irəli sürülən fantastik hipotezlərlə real elmin imkanlarının qarşılaşdırılması baş verirdi. Məhz bu iki kitabla elmi-fantastik ədəbiyyatın təhlil, tədqiq və tənqidində yeni mərhələ başladı. Belə ki, E.Brandis və Y.Kaqarlinski elmi-fantastik ədəbiyyatın hipotezlərinə "proqnozlaşdırma" kimi yanaşaraq, onu bədii düşüncənin ənənəvi aspektləri ilə əlaqələndirmişlər.

XX əsrin 60-cı illərindən sonra elmi-fantastik ədəbiyyatı tədqiqində bir neçə istiqamət formalaşmağa başladı:

- ayrı-ayrı fantast yazıçıların yaradıcılığının tədqiqi. Məsələn, B.Lapunovun
"Aleksandr Belyayev" tənqidi-bibliorafik oçerk-məqaləsi (3) və ya Y.Zvansevanın "İ.Yefremovun Elmi-fantastik nəsri" dissertasiyası (4) və s. buna misal ola bilər.

- ədəbi-sosioloji təhlil. Məsələn, Y.Rürikovun "100 və 1000 ildən sonra. Gələcəyin insanı və sovet bədii fantastikası" kitabı (5), K.Zelinskinin "Ədəbiyyat və gələcəyin insanı" məqaləsi (6) və s.

- tarixi-nəzəri yanaşma. Məsələn, T.Çernişovanın "Müasir elmi insan və təbii mühit" mövzusunda dissertasiyası (7) və H.Çerniy adlı müəllifin "Arzular və xəyallar aləmində" adlı məqaləsi (8) və s.

- tipoloji yanaşma. Məsələn, Y.Tamarçenkonun "Müasir elmi fantastikanın ictimai-fəlsəfi janrı" mövzusunda dissertasiyası (9) və s.

- elmi-fantastik ədəbiyyatın üslub və poetika istiqamətində araşdırılması. Məsələn, Çex tənqidçisi M.Qençkovanın silsilə məqalələri və s.

Son dövrlər elmi-fantastik ədəbiyyatın tənqid üfüqlərinin və təhlil diapazonunun genişləndiyinin şahidi oluruq. Bu da tam təbiidir və elmi-fantastik ədəbiyyatın real olan müxtəlifliyindən irəli gəlir. Elmi-fantastik ədəbiyyatın tənqidinə həsr olunmuş bu çoxsaylı araşdırmaları ilə bir cəhət birləşdirir. Yəni, onlar nə qədər subyektiv yazılsalar da, hamısında elmi-fantastik ədəbiyyat öz tarixi inkişafında götürülür. Q.Qureviç adlı müəllifin "Xəyallar ölkəsinin xəritəsi" kitabı (10) buna bariz nümunə ola bilər.

Bəzi tədqiqatlarda elmi-fantastik ədəbiyyatda əlahiddə bir hadisə kimi deyil, tarixi-ədəbi prosesin tərkib hissəsi kimi yanaşırlar. Leninqrad Universitetindən K.Jinqr adlı müəllifin "Sovet ədəbiyyatında elmi-fantastika janrının inkişaf yolları" mövzusunda dissertasiyası (11) və s.

XX əsrin 50-ci illərində elmi-fantastik ədəbiyyat barədə ilk ədəbi tənqid əsəri yuxarıda adını dəfələrlə çəkdiyimiz E.Brandisin "Sovet elmi-fantastik romanı" (12) monoqrafiyası olur. Həcm etibarilə çox da böyük olmayan bu monoqrafiyada bu "janrın" inkişaf tarixinin əsas mərhələləri dəqiq müəyyənləşdirilmiş, haqqında sözügedən janrın qırx illik inkişaf tarixi nəzərdən keçirilmişdir. Müəllif sonralar yazdığı və eyni tematikaya həsr etdiyi "Qanadlı xəyalın ədəbiyyatı" oçerkində də eyni məsələləri davam etdirmişdir. Bu müəllifin əsərləri və tədqiqatları sonrakı dövrlərdə elmi-fantastik ədəbiyyatın müstəqil deyil bədii ədəbiyyatın bir janrı kimi ədəbiyyatşünslığa və ədəbiyyat tarixinə salınmasına vəsilə olmuşdur. Məhz bu tədqiqatlardan sonra elmi fantastika janrların ümumi tarixinə salınmış və ədəbiyyatın, daha dəqiq desək, nəstin bir istiqaməti kimi öyrənilmişdir.

Elmi fantastikanın nəzəriyyəsinin formalaşması da asan proses olmamışdır. Ilk illər bu nəzəriyyə yalnış qurulmuş, ədəbi-bədii təcrübənin azlığı və ya tamamilə yoxluğu özünü göstərirdi. Bu proses çox çətin və mübahisəli gedirdi, elmi müstəvidə müəlliflərin diskussiyaları səngimək bilmirdi. Məsələn, 1070-ci illərdə Rusiyanın "Ədəbiyyat qəzeti" belə bir diskussiyaya meydan vermişdir. Qəzetin səhiflərində Struqatski qardaşları yazırdı: " Biz içərisində spesifik bədii üsul istifadə olunan, yəni içərisində qeyri-adi, mümkünsüz elementin istifadə olunduğu ədəbiyyatı fantastik ədəbiyyat adlandırırıq. Belə

olduğu təqdirdə, eyni müstəviyə tamamilə fərqli əsərlər gətiriləcək və eyni sıraya düzüləcəkdir. Bu sıra "Su altında 80000 kilometr, "Amfibiya-adam" əsərləri dayanacaq, sıranı isə "Möcüzələr yaradan insan", "Ustad və Marqarita" və "Çevrilmə" əsərləri qapayacaqdır. Halbuki, bunların içərisindən "Amfibiya-adam" əsəri bizim fikrimizcə, elmi-fantastikadırsa, "Çevrilmə" daha çox realistik-fantastikadır".

Göründüyü kimi, "Ədəbiyyat qəzeti"nin səhifələrində çap olunmuş bu yazıda Struqatski qardaçları özləri diskussiya yaradaraq elmi-fantastikaya qarşı realistik –fantastikanı qoyurdular. Bizim fikrimizcə, Struqatski qardaşlarının realistik fantastika adlandırdıqları ədəbi hadisə şərti poetik tipə malik fantastikadan savayı bir şey deyildir.

Maraqlıdır ki, bu məqaləyə ilk etiraz edən "Ədəbiyyat qəzeti"nin özü olmuşdur. "Redaksiyadan" başlığı ilə ilə verilmiş bu münasibətdə oxuyuruq: "Nə ictimai-fəlsəfi, nə elmi, nə də ənənəvi (*bizim dediyimiz – şərti-poetik fantastika – D.S.*) fantastikanı şişirtmək, hətta qarşı-qarşıya qoymaq lazım deyildir" (13).

Elmi fantastikanın tədqiq tarixinə nəzər saldıqdan sonra fantastikaya və ya fantastik ədəbiyyata verilən tərifləri də gözdən keçirmək maraqlı olardı.

Fantastika yunan sözü "phantastike" olub mənası *xəyal etmək sənəti* deməkdir. Çağdaş dönəmdə fantastika dedikdə ədəbiyyatın ayrıca, müstəqil bir növü nəzərdə tutulur. Fantastik ədəbiyyat isə reallığa zidd olan, uyğun gəlməyən, dünyanın qeyri-adi, möcüzəvi mənzərəsini sözlə yaradan, təsvir edən ədəbiyyat anlayışını ehtiva edir. Fantastikanın özü nəzəri ədəbiyyatlarda bir neçə istiqamətə bölünür ki, bunlardan ən əsasları aşağıdakı formada qruplaşdırılır:

1. Elmi fantastika (- əsil elmi fantastika - kosmik fantastika - kosmik odisseya -planetar roman -kosmik opera); 2. Döyüş fantastikası; 3. Yumoristik fantastika; 4. Məhəbbət fantastikası; 5. İctimai fantastika; 6. Fentezi; 7. Mistika və dəhşət.

Elmi fantastika ədəbiyyatdan başqa kino istehsalı sahəsində də istifadə olunur. Bu janrda real dünyada baş verən hadisələr təsvir olunur, amma onları reallıqdan fərqləndirən bir qisim cəhətlər mövcud olur. Yəni bu hadisələr tarixi gerçəkliyə uyğun olmur. Bu uyğunsuzluqlar isə texnogen, elmi sosial, tarixi və s. aspektləri əhatə edir. Elmi fantastika öz növbəsində iki yerə bölünür: əsil elmi fantastika və kosmik fantastika.

Döyüş fantastikası fantastika janrının elə bir növüdür ki, burada uzaq gələcəkdə baş verən döyüş səhnələri təsvir olunur. Bu əsərlərdə təsvir olunan bütün döyüş səhnələri qeyri-adi, güclü və yeni, çağdaş insana tanışç olmayan, habelə fantastik silahların tətbiqi ilə həyata keçir. Döyüş fantastikasında qəhrəmanlar çox zaman robotlar olur.

Yumoristik fantastikada yazılmış əsərlərdə bütün fantastik hadisələr və situasiyalar yumoristik planda təsvir olunur. Bu janr fantastik əsərlər içərisində

ən qədim heab edilir. Alimlərin böyük əksəriyyəti yumoristik fantastikanın hətta antik dövrlərdə mövcudluğunu irəli sürürlər.

Məhəbbət fantastikası janrında yazılmış əsərlər romantik macəra əsərləri hesab olunur. Uydurulmuş ölkələrdə baş verən məhəbbət macəraları, uydurulmuş məhəbbət qəhrəmanlarının üstünlük təşkil etdiyi süjet xəttinin mövcud olduğu əsərləri bu janra aid etmək mümkündür.

Nəticə. Nəhayət, elmi-fantastik ədəbiyyatın tədqiqi ilə bağlı sonrakı polemikalarda Struqatsi qardaşları öz mövqelərini belə müdafiə edirdilər. Onların fikrincə, "şərti-pozitiv" fantastika daha uzun ömürlü olacaqdır. Halbuki elmi fantastika isə içində əks olunduöu hadisələrin hətaya keçməsindən sonra öz aktuallığını və marağını itirəcəkdir. Bu zaman cəmiyyətin maraqları və diqqəti tamam ayrı istiqamətə yönələcəkdir. Gördüyümüz kimi, müəlliflərin dediyində müəyyən həqiqət vardır. Doğrudan da, elmi-texniki tərəqqinin inkişafı ilə mənbələrdə "texnoloji fantastika" adlandırılan ədəbi hadisə öz aktuallığını və zərurətini itirə bilər. Amma bir məsələ vardır ki, bu da Struqatski qardaşlarının ictimai-elmi fantastikaya toxunmamalarıdır. Məhz bu istiqamət hər zaman mövcud olacaq və öz aktuallığını heç zaman itirməyəcəkdir.

ƏDƏBİYYAT

1. Брандис Е. Жюль Верн. Ленинград: Детгиз, 1963
2. Кагарлицкий Ю. Герберт Уеллс. Москва: Гослитиздат, 1963
3. Ляпунов Б. Александр Беляев. Москва: 1967
4. Званцева Е. Научно-фантастическая проза И.Ефремова. Москва: 1968
5. Рюриков Ю. Через 100 и 1000 лет. Человек будущего и советская художественная фантастика. Москва: 1961
6. Зелинский К. Литература и человек будущего // Вопросы литературы, 1962, № 2
7. Чернышева Т. Человек и естественная среда в современной научной фантастике. Москва: 1969
8. Чёрная Н. В мире мечты и предвидения. Киев:1972
9. Тамарченко Е. Социально-философский жанр современной научной фантастики. Москва: 1970
10. Гуревич Г. Карта страны фантазий. Москва: Искусство, 1967
11. Джингр К. Пути развития научно-фантастического жанра в советской литературе
12. Брандис Е. Советский научно-фантастический роман. Ленинград: 1959
13. Заметка «От редакции» // Литературная газета, 4 марта 1970

САМЕДОВА ДУРДАНА

ВЗГЛЯД НА ИСТОРИЮ ИССЛЕДОВАНИЯ НАУЧНО-ФАНТАСТИЧЕСКОЙ ЛИТЕРАТУРЫ

РЕЗЮМЕ

В статье исследуется история формирования и развития научно-критической базы научно-фантастической литературы в период начала и середины XX века. Как известно, научная фантастика — литературный жанр, который является одной из разновидностей фантастики. Научная фантастика основывается на фантастических допущениях (вымысле, спекуляции) в области науки, включая как точные, так и естественные, и гуманитарные науки. Научная фантастика описывает вымышленные технологии и научные открытия, контакты с иным и нечеловеческим разумом, возможное будущее или альтернативный ход истории, а также влияние этих допущений на человеческое общество и личность. Действие научной фантастики часто происходит в будущем, что роднит этот жанр с футурологией. Автор старается охватить самые значимые научные труды и исследования научно-фантастической литературы.

SAMEDOVA DURDANA

A LOOK AT THE HISTORY OF THE STUDY SCIENCE FICTION

SUMMARY

The article investigates the history of the formation and development of scientific and critical base of science fiction during the early and mid-twentieth century. As you know, science fiction - a literary genre that is a kind of fiction. Science fiction based on fantastic assumptions (fiction, speculation) in the field of science, including both exact and natural and human sciences. Science fiction describes fictional technologies and scientific discoveries and contacts with other non-human reason, a possible future alternative or course of history, as well as the impact of these assumptions on human society and the individual. Action science fiction often takes place in the future that unites the genre with futurology.The author tries to cover the most important scientific works and studies of science fiction.

Rəyçi filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Ramazanova

QƏDİM RUFULLAYEV
filologiya üzrə fəlsəfə doktoru
Lənkəran Dövlət Universiteti

AZƏRBAYCAN EPİK POEZİYASINDA DASTAN JANRININ TƏZAHÜR FORMALARI

Açar söz: *Xalq yaradıcılığı, dastan, yazılı ədəbiyyat, şair.*
Key words: *folk literature, saga, written literature, poet.*
Ключевыя слова: *народная литература, сага, письменная литература, поэт.*

Yazılı ədəbiyyatın inkişafında şifahi xalq ədəbiyyatının rolunu qeyd etməmək mümkün deyildir. Çünki "folklor xalqın əsrlərdən bəri yaratdığı və qoruyub yaşatdığı mənəvi sərvətlərin ən qiymətlilərindəndir. Burada hər şeydən öncə, xalqın istək və arzusu, gələcəyə ümidi, tarixə münasibəti, dünya, zaman, mühit haqqında dünyagörüşü yüksək şəkildə öz ifadəsini tapır. Məhz buna görə də folklor zaman ötdükcə köhnəlmir, əksinə keçmiş haqqında ən etibarlı, ən mötəbər idrak mənbələrindən biri olaraq qalır."(8; 3) Ədəbiyyatımızın zənginləşməsində, onun dünyəvi və xəlqi mahiyyət daşımasında söz sahibi olan şair və yazıçılarımız ona gorə də xalqın bu söz xəzinəsinə daim müraciət etmiş, əsərlərinin əbədiyaşar olmalarına zəmin yaratmışlar. Bu mənada istənilən xalq yaradıcılığı nümunəsi, ən kiçik janr belə sonradan yaranacaq söz sənəti üçün çox mühüm mənbəyə çevrilmişdir. Mənəvi mədəniyyətimizin tərkib hissəsi olan ədəbiyyatımıza zaman-zaman töhvə verən sənətkarlar da yaxşı bilirdilərdi ki, "milli düşüncə, milli kimlik, milli mənəvi sərvət ədəbiyyatın başlanğıcı olan folklordadır. Folklor və onun motivləri yazılı ədəbiyyata mövzu və forma verir. Folklorun yarandığı qaynaqların yazılı ədəbiyyata-bədii əsərə təsiri günəşin torpağa təsirinə bərabərdir. Günəş almayan torpaqda hərarət çatışmaz. Başqa sözlə, nüvəsinə folklor ruzigarı əsməyən əsər, distillə olunmuş suya bənzər. Bütün təmizliyinə və saflığına baxmayaraq içmək olmur".(4; 6) Azərbaycan ədəbiyyatında öz dəst-xətti ilə seçilən sənətkarlar, o cümlədən Nizami Gəncəvi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətayi, Səməd Vurğun və neçə-neçə yazarlarımız xalqımızın bu söz xəzinəsindən məharətlə və yaradıcı səkildə faydalanmışlar. Onlar söz sənətimizdən təkcə faydalanmamışlar, xalq ədəbiyyatına müraciət etməklə həm də folklor nümunələrinin bir daha yaşamasına, yenidən xalqa qaytarılmasına səbəb olmuşlar. Tağı Xalisbəylinin N.Gəncəvi haqqındakı fikirləri bu məqamda maraq doğurur: "Əfsanə, rəvayətlər, nağıl və dastanlar, qissə və hekayələr- xalq arasında yaranıb yaşayan söz inciləri həmişə Nizami Gəncəvi üçün istifadə mənbəyi

olmuşdur. Şair xalqın yaratdığı nə varsa, onu əldə edib, məqsəd və amalına uyğun şəklə salaraq yenidən xalqa qaytarmışdır".(5; 8) Söz sənətkarlarımızın əsərlərində xalq ədəbiyyatının bütün elementlərinə-janrlarına rast gəlinir. Bunların içərisində dastan janrının izləri xüsusilə seçilməkdədir. Buradan bəlli olur ki, şifahi xalq ədəbiyyatının ən mühüm janrlarından olan dastanlar, nəinki el şənliklərində aşıqların, hətta yazılı ədəbiyyatımızda şairlərin daha çox müraciət etdiyi ədəbi nümunələrdəndir. Çünki dastanlar və bütövlükdə "folklor-xalqın bədii təfəkkürünün məhsulu olan yaradıcılıq nümunələri ədəbiyyatın dərin, daxili qatlarına nüfuz edir, əsərin quruluşu və ideya konsepsiyasına təbii surətdə daxil olur".(4; 10) Həm də dastan janrı yüksək sənətkarlıq baxımından da cəlbedici xarakterə malikdir. Onu yaradan, ərsəyə gətirən sənətkarlar özləri də yaradıcı qüvvələr üçün daim məktəb rolunu oynamışdır. "Qədim epos və dastan yaradıcılığı daha çox düzüb-qoşan el sənətkarlarının fəaliyyəti ilə bağlıdır. Sehrbazlıq, rəqqaslıq, musiqişünaslıq, həkimlik və bu kimi bir sıra qabiliyyətlərə malik həmin insanların xalq arasında böyük hörməti olmuşdur. Bu sənətkarlar- ən böyük türk şairləri ayrı-ayrı tarixi kəsimlərdə altaylar içərisində "qam", tunquzlarda "şaman", oğuzlarda "ozan" adlanmışlar"(9; 18). Bu sənətkarların yaratdıqları əsərlər-dastanlar və onların mahiyyəti haqqında elmi ədəbiyyatlarda kifayət qədər məlumat verilmişdir. "Dastanlar nəzm və nəsr hissələrindən ibarət olur. Nəsr hissəsi aşıqlar tərəfindən nağıl edilir, nəzm hissəsi isə müxtəlif aşıq havaları üstündə oxunur".(2; 222)Azad Nəbiyev qeyd edir ki, dastan həm nağıl, həm povest, həm də şifahi roman deməkdir.(7; 339) M.H.Təhmasibə görə, "bu söz əhvalat, hekayət, macəra,. rəvayət, hətta xalq romanı, xalq kitabı mənalarını da daşımışdır."(9; 57) Başqa bir mənbədən oxuyuruq ki, " tarix boyu yaradıb yaşadan, çalıb-çağıran ozan-varsaq-dədə-yanşaq-aşıq-baxşı-akınların böyük bir yaradıcılıq irsi vardır. Bu yaradıcılıq yolunun əsasını, bu xəzinənin epopeyasını türk xalqlarında müxtəlif adlarla tanınan hekayət, qissə, nağıl, xalq romanı, epos, dastanlar təşkil edir. Təkcə bir faktı xatırlamaq kifayətdir ki, əsli farsca olan "dastan" istilahının Əhməd Vaqif Paşada "mənzum hekayə", Şəmsəddin Samidə "olmuş bir əhvalatı nəql edən mənzumə", Müəllim Nacidə "qissə, hekayə, nağıl" mənalarında işləndiyi qeyd edilmişdir".(1; 19)

Bizcə, dastan özlüyündə nağıl, rəvayət, əfsanə, lirik təqdimat və dramatik ünsürlərini əks etdirən zəngin və bədii yaradıcılıq nümunələridir. Ancaq sadalanan bədii nümunələr forma baxımından dastan adlandırılırsa da, mahiyyət etibarilə onu əks etdirməyə bilər. Yəni, hər hekayə, yaxud nağıl və ya əhvalat əsl dastan düsturuna cavab vermədiyindən dastan sayıla bilməz. Bizim fikrimizcə, əhvalatın həcmi də onu dastan adlandırmağa əsas vermir. "Dastan" zalımla məzlumun, köhnəliklə yeniliyin mübarizəsində ikincinin nəhayət ki, qələbəsini əks etdirən əhvalat və hekayətlərə verilən

addır. Burada baş vermiş həyat hadisəsində fərqli bir məna, bir inqlab vardır. Zaman- zaman yaddaşlardan silinməyən bu hadisələr gələcək nəsillər üçün xüsusi bir örnək, tərbiyə mənbəyinə çevrilirlər. N.Gəncəvinin "Kərpickəsən kişinin dastanı" mənzum hekayəsi həcm etibarilə o qədər də böyük əsər deyildir. Ancaq əsərdən alınan fikrin dolğunluğu, ümummilli dəyərlərin ifadəsi, əməyə münasibətin birmənalı, köklü surətdə dəyişməsi bu əsərin dastan adlanmasına əsas verir.

Dastan yaradıcılığına səbəb olan nədir və o hansı zərurətdən yaranmışdır? Dastan yaradıcılığı özünəməxsus bir bədii hadisədir. Bir dastanın yaranması üçün həm ictimai, həm siyasi, həm də tarixi faktorlar eyni zamanda rol oynamalıdır. Bir sozlə, ictimai mühit dastan yaradıcılığına sanki "hamilə" olmalıdır. Bütövlükdə el onun yaranmasında iştirak etməli və "keşiyində " dayanmalıdır. Beləliklə, ictimai həyatda baş verəcək cox nadir, ibrətamiz və taleyüklü hadisələr, eyni zamanda cəmiyyətin hər bir üzvünü düşündürən, onda heç vaxt indiki kimi olmayan hiss və emosiyalar yaradan əhvalatlar dastan yaradıcılığına rəvac verir. Xalqın hər bir nümayəndəsi bu ümumxalq "tədbirdə" iştirak edir. Zaman-zaman yeni və gənc nəslə bunu nağıl edir və hər zaman bu "nağıl" cilalanmış yeni məzmun və forma kəsb edir. İlk vaxtlar hadisə, əhvalat, nağıl xarakteri daşıyan bu nümunələr bir neçə yüz il müddətində,nəhayət, dastana çevrilirlər. Ancaq xalq tərəfindən yaradılan, ağızdan- ağıza dolaşaraq cilalanan və əsrlər tələb edən dastan yaradıcılığı hər kəsin deyil, məhz fenomen bir şəxsiyyətin ifasında sonrakı və əbədi ömrünü yaşayır.

Azərbaycanlıların bir xalq kimi formalaşmasının "canlı" şahidi olan "Kitabi-Dədə Qorqud" dastanı gəldiyimiz qənaətləri özündə birləşdirən monumental xalq yaradıcılığı nümunəsidir. Əsərdə Oğuz igidlərinin öz yurdunu və elini yadelli qüvvələrdən qorumaq uğurundakı mücadilələri əks olunmuşdur. Məsələ burasındadır ki, bu igidlərin apardığı mübarizə və göstərdiyi qəhrəmanlıqlar birbaşa olum və ölüm qarşısında qalan xalqın taleyinə hesablanmışdır. Əsərdən görürük ki, oğuz xalqı öz müqəddəratını qorumaq üçün girişdiyi mübarzədə qələbələr qazanırdısa da, az itkilər vermirdi. Xalq onun yaşaması üçün canından keçən qəhrəmanları əbədiləşdirmək məqsədilə haqqında rəvayətlər söyləmiş, dastanlar qoşmuşdur.

Xalq ədəbiyyatında artıq mövcud olan dastan janrı söz yox ki, bir bədii əsər kimi böyük əhəmiyyətə malikdir. Ancaq biz bu məqamda dastanın həm də ictimai əhəmiyyətini vurğulamaq niyyətindəyik. Əvvəla, yaranmış olan hər bir dastan nümunəsi məxsus olduğu xalqın həyatını, adət-ənənəsini, həyata baxışını, mübarizə əzmini heyranlıqla əks etdirdiyindən uzun zaman özündən sonrakı ədəbiyyatı təsiri altında "saxlayır". İkincisi, dastanlar ənənəvi olaraq xalqların öz gələcək talelərini həll etməsi yolunda apardığı

ədalətli mübarizənin təsviri və məntiqi sonluğunun bədii hesabatıdır. Dünya xalqları ədəbiyyatına nəzər yetirdikcə bunun şahidi oluruq. Dörd-altı min il bundan qabaq Dəclə və Fərat çayları hövzəsində yaşamış şumerlər haqqındakı bədii nümunəni -"Bilqamıs dastanı"nı bu məqamda misal çəkə bilərik. Elmi və tarixi mənbələrdən bilirik ki, "şumerlər öz dövrlərində çox zəngin şəhərlər salmış, məktəbləri, abidələri ilə məşhur olmuşlar. Onlar dünyanın ən qədim xalqlarından hesab olunurlar. Uzaq gəmi səfərlərinə çıxmaq, ovçuluq etmək, şəhər və qalalar ucaltmaq, yer, göy, dünya və kainat haqqında ilkin təsəvvürlərə malik olmuşlar. Əsrlər keçsə də, sərhədlər dəyişsə də, şumerlərin mədəniyyəti, onların qoyub getdiyi yadigarlar bu günədək qalmışdır ".(6; 124) . Bu yadigarları məhz "Bilqamıs dastanı"ndan əldə edə bilirik. Dastan qəhrəmanı kimi Bilqamıs xalqı üçün şəhərlər saldırır, igidliyi ilə eldə şöhrət qazanır. Elinin ölümsüzlüyü üçün əlindən gələni edir. Çətinliklə də olsa, dirilik çiçəyini əldə edir, lakin onu özü yemir, şəhərinin adamları üçün aparmağı qərara alır. Şərq ədəbiyyatında gördüyümüz qədim dastan yaradıcılığı ənənəsi avropa xalqları ədəbiyyatı üçün yad deyildir. Avropanın qədim sakinlərindən olan İrland tayfalarının yaratdıqları eposlar insan cəmiyyətinin ilkin təşəkkülü dövrlərinin izlərini özündə saxlamışdır. "İrlandiyanın şimalında, Olsterdə yaşayan ulad tayfalarının yaratdığı epos silsiləsi ən qədim İrland eposu sayılır. Bu eposun mərkəzi fiquru uladların tarixi şəxsiyyət hesab etdikləri kral Konxobar, baş qəhrəmanı isə onun bacısı oğlu Kuxulindir. Kuxulin obrazı qədim irlandiyanın şücaət və mənəvi kamillik ideyalının təcəssümü idi. Təsadüfi deyil ki, Kuxulinin üzərinə götürdüyü öhdəliklərin əksəriyyəti yüksək mənəvi dəyərlərə bağlıdır... O özü qabaqcadan ölümünü bilə-bilə xalqını xilas etmək üçün döyüşə yollanır".(3; 451) Əlbəttə, sadaladığımız dastan nümunələri ümumən dünya xalqlarının dastan yaradıcılığını əhatə etmir. "Qədim və zəngin mədəni- mənəvi irsə malik əksər dünya xalqları bəşər mədəniyyəti xəzinəsinə bir sıra həmişəyaşar dastanlar bəxş etmişlər. Yunanların "İlliada" və "Odisseya"sı, hindlilərin "Ramayana" və "Mahabarata"sı, iranlıların "Şahnamə"si, Şimali Qafqaz xalqlarının "Nart"ı belə əsərlərdəndir".(1; 17)

Göründüyü kimi, dünyanın bir çox xalqları dastan yaradıcılığına xüsusi diqqət yetirmişlər. Bu, əlbəttə, hər bir xalqın öz şanlı keçmişinə olan sevgisi ilə bağlı olmuşdur. Ancaq dastan yaradıcılığı üçün təkcə tarixi proseslər kifayət etməmişdir. Bunun üçün böyük ədəbi "məşqlər", hazırlıqlar həyata keçirilmişdir. Artıq nağıllar formalaşmış, əfsanə və rəvyətlər öz yerini tutmuş, lirik poeziya öz inkişafında əhəmiyyətli mövqedə dayanmışdır. Hətta dramatik ünsürlər xalq ədəbiyyatında bu məqamda uzun yol keçmişdir.

Bu yaradıcılıq forması yalnız yüksək ədəbi inkişaf mərhələlərinə malik olan xalqlara məxsusdur. Çox sevindirici haldır ki, Azərbaycan xalqı

da belə xoşbəxt xalqlardan biridir. Çünki onun bədii söz xəzinəsində iki böyük epos, o cümlədən "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları qorunmaqdadır.

Bu dastanların sonrakı bədii əsərlərin yaranmasındakı rolu danılmazdır. Sözügedən məsələ bir çox dünya xalqları ədəbiyyatı üçün də xas olan ədəbi hadisədir. Mənbələrdən görürük ki, adını çəkdiyimiz qədim İrland eposu və onun qəhrəmanları neçə-neçə sonrakı yaradıcılıqlar üçün mühüm bir mənbə olmuşdur. Dastan qəhrəmanının-"Kuxulinin zahiri görünüşü və xarakteri mifik əlamətlərlə zəngindir. Onun xarici görünüşünün təsviri zamanı digər epik qəhrəmanlara da xas hiperbolalardan istifadə olunmuşdur. Eposda ilahi varlıq kimi təqdim olunan Kuxulinin mənəvi-əxlaqi keyfiyyətləri sonralar neçə-neçə tarixi-əfsanəvi qəhrəman obrazlarının yaranmasına təkan verdi".(3; 451)

Azərbaycan dastanları da öz növbəsində neçə-neçə əsərlərin yaranmasında mühüm pay sahibi olmuşdur. İstər şifahi, istərsə də yazılı ədəbiyyatda sonradan yaranan bir çox əsərlər haqqında bunu demək olar. "Kitabi-Dədə Qorqud" eposuna daxil olan dastanlar "Koroğlu" eposunun bəzi sujetləri üçün mühüm mənbə olmuşdur. Hər iki dastan qəhrəmanının minikləri dərya atlarından olması, əhvalatların səfərlərdə baş verməsi, ozan-aşıq repertuarlarından, xeyir-dualarından istifadə və s.bu əlaqələrin ilkin görüntülərindəndir.

Xalq romanlarının yazılı ədəbiyyata təsiri və yazılı ədəbiyyatda yeri gəldikcə ondan bəhrələnmə məsələləri də diqqətçəkən məqamlardandır. Yazılı ədəbiyyatda epik əsərləri ilə daha çox yadda qalan və Azərbaycan ədəbiyyatının əsas dayaq nöqtələrindən biri olan Nizami Gəncəvi yaradıcılığına nəzər yetirsək, qənaətlərimizin doğruluğuna şübhə yeri qalmayacaqdır. N.Gəncəvinin "Sirlər xəzinəsi" poemasında bir neçə dastan başlıqlı hekayələr vardır. Bu hekayələr özlüyündə böyük və mühüm ictimai əhəmiyyət daşıyan ideyaları ifadə etməkdədir. "Kərpickəsən kişinin dastanı", "Zalım padşahla zahidin dastanı", "Ədalətli Nuşirəvan və vəzirin dastanı" hekayələri bu qəbildəndirlər. Bundan başqa, "Xosrov və Şirin" poeması əsl məhəbbət dastanıdır. Hələ N. Gəncəvinin sağlığında el arasında "dolaşan" bu dastan böyük şairimizin yaradıcılığında ikinci örünü yaşamaqdadır. Şah İsmayıl Xətai yaradıcılığında xalq şeirinin təsirini görməmək mümkün deyildir. Onun nəticəsidir ki, "Dəhnamə" poeması məhəbbət dastanlarımızdakı bir çox cəhətləri özündə əks etdirməkdədir.

Yeni dövr Azərbaycan ədəbiyyatında və sonrakı mərhələlərdə dastan səciyyəli əsərlər ayrı-ayrı sənətkarlarımız tərəfindən yaradılmışdır. Hal-hazırda da sözügedən məzmun və xarakterli bədii nümunələrin yarandığını görməkdəyik. Xalq şairi Zəlimxan Yaqubun "Hüseyn Saraclı dastanı" əsəri buna misaldır.

Ədəbiyyatımızın bütün tarixi inkişaf mərhələlərini nəzərdən keçirdikcə aydın olur ki, xalq yaradıcılığı nümunəsi olan dastan janrı hər bir mərhələ boyu ədəbi şəxsiyyətlərimizin müraciət etdiyi əsas mənbələrdən biri olmuşdur. Əlbəttə, Bütün bu məqamları bir məqaləyə sığışdırmaq mümkün deyildir. Gələcək araşdırmalarımızda adıçəkilən məsələnin ayrı- ayrı dövrlər üzrə tədqiq etməyimizi məqsədəuyğun hesab etdik.

ƏDƏBİYYAT

1. Abbaslı İ. Azərbaycan dastanlarının yayılma və təsiri məsələləri. Bakı: Nurlan, 2007, 272 s.
2. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif,1981,407 s
3.Əliyeva H.Ə. Qədim kelt saqaları ilə qafqaz nart eposu arasındakı paralellərə dair. "Filologiya məsələləri" jurnalı. Bakı: Elm və təhsil №-9, s.451
4.Hacıyeva M. Ədəbi qaynaqlar.Bakı: Elm və təhsil, 2014, 242.
5.Xalisbəyli T. Nizami Gəncəvi və Azərbaycan qaynaqları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı,1991, 296.
6.Qədim Şərq ədəbiyyatı müntəxəbatı. / İ.Vəliyev, E.Ağaoğlu, N. Səfərovun tərtibi ilə/Bakı: Şərq-Qərb,2007, 672
7.Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, 2 cilddə, II cild. Bakı: Elm, 2006, 648
8.Paşayev S. Nizami və xalq əfsanələri. Bakı: Gənlik, 1983, 128.
9.Təhmasib M.H. Azərbaycan xalq dastanları. Bakı: Elm, 1972, 402 s.

QADIM RUFULLAYEV

THE USE FORMS OF THE SAGA IN AZERBAIJAN EPIK POET

SUMMARY

The article deals with one of the most popular literary genres collecl saga. It investigates hte character and originality of saga, it is place and role in written literature . The article empasises the fact that the genre of saga in Azerbaijan written literature was widely used in every stage of it is development. In old period we come across with it in creative work of N.Ganjavi. In middle period SH.I. Khatai's poem "Dehname" was created on the basis of saga motives. In modern times the above mentioned genre is also used. "The saga of Huseyn Sarajlı" by Z. Yaqub is a good sample of it.

In future we are planning to investigate the genre in the work of other pats.

ГАДИМ РУФУЛЛАЕВ

ПРИЗНАКИ ФОРМЫ ПОВЕСТОВАВАТЕЛЬНОГО ЖАНРА В АЗЕРБАЙДЖАНСКОЙ ЭПИЧЕСКОЙ РОЭЗИИ

РЕЗЮМЕ

Статья посвящена одному из широко распространённых жанров устного народного творчества-саге. В статье расематривается характер и своеобразность этого жанра, а также его место и роль в писеменной литературе. Здесь также особо выделяется тот факт, что к жанру сагу обращались во всех этапах развития письменной литературы. С этим фактой мы сталливаемя в двевнем периоде в творчестве Н.Гянджеви. В литературе среднего периода поэма «Дахнаме» Ш.И.Хатаи написана на основе мотивов этово жанра. В совроменной литературе также обращаются к данному жанру. «Сага о Гусейне Сараджлы» З.Ягуба является примером этого. В будущем в своих исследованиях мы рланируем анализирование жанра саги в работах мастеров разных периодов.

Rəyçi: İslam Qəribli
filologiya üzrə elmlər doktoru

SƏDAQƏT QASIMOVA
SEVİL NƏCƏFOVA
ADNSU

SÖHRAB TAHİR LİRİKASINA BİR NƏZƏR

Açar sözlər: *lirika, şeir, azadlıq, mübarizə, sevgi, vətən, cəsarətli*
Key words: *the lyrics, poet, the Freedom, fighters, the love, nativeland, brave*
Ключевые слова: *лирика, поэзия, свобода, борьба, любовь, родина, отважный*

Söhrab Tahir dünyanı olduğu kimi dərk etməyə qabil bir ziyalıdır. O, Azərbaycan xalqının taleyinin hansı uğursuz əllərdə olduğunu yaxşı bilirdi.Şair sovet hökumətinin qatı çağlarında İranın cənubi Azərbaycandakı 170 illik, Rusiyanın Şmali Azərbaycanda 20-ci ildən sonrakı 70 illik əsarətini ustalıqla senzuradan keçirərək sevimli yazıçımız İsa Hüseyinova həsr etdiyi ‘‘Qurban” şeirində yazırdı:

Mən gizli ağlaram, hamı yatanda,
Gecə yağışıyam, günəş batanda.

Müasir Azərbaycan poeziyasında özünməxsus ədəbi taleyi, sənətdə orijinal dəsti-xətti olan şairlərdən sayılan Söhrab Tahir söz bütövlüyü və səmimlikdə onun dünyagörüşunə, hiss və duyğularına dayaqdır. Əsl ziyali və şair təbiətinə uyğun olaraq,o, həmişə xalqın mənafeyini üstün tutur, gördüklərini və bildiklərini təhlil, müzakirə etməyi sevir, həqiqəti söyləməyi özünə muqəddəs borc bilir.

Onun bu məziyyətləri təfəkkürünün gücünü, mənəvi aləminin zənginliyini, yaradıcılığının poetikasına xas bir səciyyəvi əlaməti görmək və göstərmək üçün kifayət edir. Xalq şairi, dostu Cabir Novruz yazır: “Söhrab Tahir başqa sənət sahibi deyil, məhz nəğməkar olmalı idi. Həsrətlər, həyəcanlar, mübarizələr, ümidlər, ağlı-qaralı günlər nəğməkarı. O, mütləq şeir yazmalı idi, sərt, amansız, mürəkkəb, çətin həyat yolundan, ikiyə parçalanmış ürəyindən, öz böyük faciəsindən, Təbriz döyüşlərindən, azadlıq yolunda canlarından keçən fədailərdən, dostluqdan mütləq söhbət açmalı idi. Gah qəzəbli, narahat, gah həzin, kövrək nəğmələr oxumalı idi. Başqa cür də ola bilməzdi. Çünki həmin şeirlər, həmin nəğmələr onun tale nəğmələridir, tale şeirləridir”

Cəsarətlə qeyd etmək lazımdır ki, şairin ikiyə bölünmüş Azərbaycan haqqında yazdığı şeirlər öz lakonikliyi və axıcılığı ilə diqqəti cəlb etdiyi kimi, sənətkarlıq baxımından da çox qüvvətlidir.

Gözaltı baxsa da Təbrizə doğru,
Görürəm həsrətdən sökülüb bağrı,
Bir damcı yaş olub, bir damcı ağrı
Qəlbimə, gözümə doldu Səhəndim

Tənha qala bilməz nə dağ, nə insan,
Tənha qala bilən bu dağa qurban,
Tahir tənhalıqdan ah çəkən zaman
Töküb ağ saçını yoldu Səhəndim.

Onun şeirlərini oxuduqca insan sevinir, tutulur, dolur, boşalır. Çünki bu şeirlərdə həsrətli ilham, əziz, ülvi kədər, Vətən dərdi, azadlıq eşqi motivləri çox güclüdür.

Şairin dostları, onun yaradıcılığına dərindən bələd olanlar deyirlər ki, şeirlərində hər şey odludur, alışıb yanır. Həqiqətən də cəsarətlə qeyd etmək olar ki, onun əsərlərində "yer də yanır, göy də; dağ da yanır, daş da; quru da yanır, yaş da; çay da yanır, bulaq da" Şair özü isə yanğını belə izah edir:

Dünən vətən sözü dedim,
Öz ağzımda dilim yandı.
Barmaq ilə nişan verdim
Barmaqlarım əlim yandı.
Kül sovruldu gözlərimə,
Yel qarışıq külüm yandı.

Əl uzadıb bulağından su götürdüm

Yandım yandım.
Xalqın gözü-qəzəb gözü,
Odlar məni, əriyərəm,
Dağ götürüb təpə kimi
Başım üstə hərləyərəm.
Bir söz desən, bir ah çəksək
Bu şaxtada tərləyərəm,

Burda kimdən söz soruşdum, ya dindirdim,
Yandım yandım.
Burda kimə, burda hara üz döndərdim
Yandım yandım...

S.Tahir insan gözəlliyini özünəməxsus bir heyranlıqla vəsf edir. Şair insana, onun gözəlliyinə vurğun olan qəlbin adi sözlə ifadə edilə bilməyən böyük məhəbbətini sənət, şeir dili ilə şərh etməyi bacarır. Onun əsərlərində təbiətin gülləri, çiçəkləri qədər gözəl olan insanın zərifliyi, yerişi yüksək

sənətkar zövqü ilə vəzf olunur. Gənclik və gözəllik şairin şeirlərində bir-birini uğurla tamamlıyır:

Salam,od baxışlı,
Dəmir biləkli,
Salam,daş kökslü,
Polad ürəkli
Basılmaz gəncliyim
Qala gəncliyim
Yolu düz, yönü düz
Məhəbbəti düz
Sarsılmaz gəncliyim.
Qala gəncliyim...
Nə vaxt tunc olmusan
Dəmir olmusan?!
Salam, tunc gəncliyim,
Polad gəncliyim!
Səngərdə boy atan
İnad gəncliyim.

Istər xalq yaradıcılığında, istərsədə klassik ədəbiyatda olduğu kimi Söhrab Tahir yaradıcılığında da, qadın həyatın bəzəyi, səadət mənbəyidir, dünya öz işığını onun camalından alır; saf eşqi, ağlı, kamalı insanlara sevinc gətirir.

Nənəm bir güc oldu, qüvvət qolumda
Cəsarət öyrəndim hər bir sözündən.
Elə qormaq odum haqqın yolundan
Bəzəndə qorxuram özüm-özümdən.

Bəllidir ki, poeziyada bu və ya digər hadisələrini, insan münasibətlərini, məişət qayğılarını təsvir etmək və bu zaman təbiiliyi qorumaq, şairdən böyük bacarıq, qələmdən püxtəlik tələb edən bir işdir. O, bütün əsərlərində xüsusilə də poemalarında bu işin öhdəsindən bacarıqla gəlmişdir.

Təvazökarlıq və həssaslıq hissələri çox güclü olan şairin sevgisi və məhəbbəti də qüvvətlidir. Məhəbbəti, eşqi özündə yaşatmağa qadir olan lirikası sevgi şeirləri, ilahi məhəbbəti, insanları bir-birinə bağlayan hicransız, intizarsız münasibətlərlə doludur.

Onun sevgisi də, sevgilisi də realdır, həyatidir. Bu real, həyati sevgi şairin bütünlüklə insana həyata, onun gözəlliklərinə məhəbbətinin inkasıdır.

Soyuq qürubuma yan alır gecə,
Bir isti sobayam bu soyuq küncə,
Insan divar deyil, sevgi əyləncə,
Mənim bu halimdan xəbərin olsun.

Gecə gözlərimdə əridi axdi,
Sürməsi gözümü yandırdı, yaxdı.
Bu gün gecə özü mənə qonaqdı.
Mənim bu halımdan xəbərin olsun.

Əsərlərində aşiqin həsrətini, kədərini, qəmini, ahını, göz yaşını bacarıqla qələmə alır. Onun lirik qəhrəmanı tez-tez kədərli, qəmli olur, sanki dövrün istəmir, əksinə gözəllik həsrəti ilə yanıb külə dönmək istəyir, bununla da sadiq, etibarlı olduğunu, sevgisindən dönməyəcəyini sübut etməyə çalışır.

Sevmək dərsim vardır, sevmək təcrübəm,
Unutmaq dərsindən befər olmuşam olmuşam
Unutmaq neməti paylanan zaman,
Görünür sonuncu nəfər olmuşam.
Baxışım saralıb, rəngim boğulub,
Gərək unudanı unuda biləm.
Sevmək səadəti əkiz doğulub,
Unuda bilməmək faciəm ilə.

Öz sevgisinə qovuşa bilməyən aşiq onun xəyalı ilə yaşayır, kədərlənir, keçirdiyi qəmləri, iztirabları heç olmasa məktubla ona şərh etmək, çatdırmaq istəyir. Lakin bunun üçün özündə taqət görmür, kağız və qələm götürsə də, ürəyi dolur, ağlayır, yazdıqları yarımçıq qalır.

Sənə hər gün, hər gün məktub yazıram,
Yazdığım məktublar yarımçıq qalır.
Narahat sevgimdən aralandıqca,
Sevgim azalmayır, sevgim coxalır.
Şəklinə baxıram, gülüm arada,
Yox, deyən, şəklinə qulaq asıram.
Yarımçıq qoyduğum məktublara da
Mən özüm yarımçıq cavab yazıram.

Şeir psixoloji cəhətdən o qədər məharətlə qurulmuşdur ki, həsrət və düşüncə məngənəsində sıxılan aşiqin əhvalı haqqında aydın bir təsəvvür yaranır. İstər-istəməz o hislərə biganə qalmaq mümkün olmur.

Şairin poeziyasına bələd olanlar da, ayrı-ayrı şeirlərini oxuyanlar da onun necə həssas, odlu qələmə malik olduğunu bilirlər. Onun poeziyası ilk şeirindən başlayaraq qaynar gənclik ehtirası ilə müdrikliyin qovuşduğu sevgi, insan əməyinə bəslənən poetik məhəbbət, doğma Azərbaycan təbiətinin tərənnümü, nəhayət, ali vətənpərvərlik duyğuları ilə səciyyələnir.

Şair nədən yazırsa-yazsın, hansı mövzuya müraciət edirsə-etsin, fərqi yoxdur, istisnasız olaraq onun bütün əsərlərində odlu-alovlu ürəyinin nidaları əks olunur. Şairin qəlbi hərarəti azalmayan odlu bir küreni xatırladır və şeirləri adi qələmlə kağız üzərinə yazılmaq əvəzinə, həmin kürədən parlaq alov kimi fəvvarə vurub sətirlərə düzülür. Bu od, bu alov şeirlərdəki sevgiyə

də, müdrikliyə də, humanizmə də, vətən məhəbbətinə də eyni dərəcədə aiddir.

Bu odlu ürək sahibi keşməkeşlərin, azadlıq mübarizələrinin qoynunda doğulub yetişdiyi üçün, həyatı boyu davam etdirdiyi siyasi lirikası da daxil olmaqla, "Səttarxan" poemasına qədər bütün yaradıcılığında millətinin siyasi və silahlı mübarizəsini əks etdirmişdir. Şair nədən yazırsa yazsın: real həyat həqiqətlərindənmi, yaxud romantik arzulardan, xəyallardanmı, fərqi yoxdur, son məqsədi, son hədəfi yalnız xalqının azadlıq idealıdır. Bu xətti onu hətta sevgi lirikasında vüsal həsrəti çəkən nakam bir aşiqin duyğularında da, Araz adlı siyasi qılıncla ikiyə ayrılmış Azərbaycanın vəhdətə can atması timsalında da görürük.

ƏDƏBİYYAT

1. Azərbaycan Sovet ədəbiyyatı. Bakı, 1988.
2. Söhrab Tahir. Mənim səsim. Bakı, 1997.
3. Söhrab Tahir. Mühacir qeyrəti. Bakı, 1997.

GASIMOVA SEDAGET N., NAJAFOVA SEVIL E.

AN OVERVIEW OF SOHRAB TAHIR'S LYRICS

Sohrab Tahir is unique literary destiny of style poeter in modern Azerbaijan's poetry. He always prefer the interests of the people according real nature of poet. People who read his poems sometimes be happy and sometimes be sad. There are both love and longing in his poems. Sohrab Tahir also described beauty of human. Youth and beauty completed each other in these poems. Sohrab Tahir worth to women in own poems and he glorifed her as source of happiness.

КАСЫМОВА С.Н., НАДЖАФОВА С.А.

ВЗГЛЯД НА ЛИРИКУ СОХРАБА ТАХИРА

В современной Азербайджанской поэзии Сохраб Тахир считается одним из поэтов с уникальной судьбой и оригинальным почерком. Он как настоящий поэт и интеллектуальный человек всегда думает об интересах своего народа. Читая его стихи человек и радуется и огорчается. Потому что, в этих стихах вместе с любовными мотивами чувствуется горечь Родины, тоска, печаль. С. Тахир человеческую красоту описывает с уникальным восхищением. Молодость и красота удачно чередуется в стихах поэта. Как в народном творчестве и в классической литературе, так и в творчестве С.Тахира женщина украшение жизни, источник счастья.

Rəyçi: dos. A.R.Salahova

ÇİNARƏ RZAYEVA
AMEA Naxçıvan Bölməsi
cinarerzayeva@yahoo.com.tr

UŞAQLARIN FORMALAŞMASINDA FOLKLORUN ROLU VƏ MƏKTƏBLƏRDƏ FOLKLORA AYRILAN YER

Açar sözlər: *folklor, laylalar, nağıl, tapmaca, müəllim, uşaq*
Keywords: *folklore, lullabies, stories, puzzles, teachers, children*
Ключевые слова: *фольклор, колыбельные, сказки, головоломки, учителя, дети*

Xalq ədəbiyyyatı inciləri ilə zəngin olan Azərbaycan xalqının həyat fəlsəfəsini, yaşam tərzini təsdiq edən elə folklor nümunələri vardır ki, onlar var olduğu andan bu günə qədər dilimizi, ədəbiyyatımızı, ən əsası isə ruhumuzu işıqlandırmışdır. Elə buna görə də "Folklor nümunələri aid olduğu xalqın heç silinməyən qan yaddaşı, əlindən alınmayan milli varlığı-varidatı, onu əsrlərdən-əsrlərə daşıyan mənəvi ruhunun, mentalitetinin möhürü sayılır" (3, s. 6). Şifahi xalq ədəbiyyatının tarixi çox qədimdir. İlk insan məskənlərinin meydana gəlməsi ilə birlikdə folklor da yaranmağa başladı. Azərbaycan folkloru ilk növbədə janr baxımından rəngarəngliyi ilə diqqəti cəlb edir. Lap qədim zamanlardan yurdumuzun sakinlərinin, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahür forması olan folklor nümunələri-miflər, əfsanələr, nağıl və rəvayətlər, zərb-məsəllər, tapmacalar, dastanlar, aşıq yaradıcılığı, meydan tamaşaları, xalq musiqi və rəqsləri nəsildən-nəsilə, əsrdən-əsrə Azərbaycan türklərinin ruhunu yaşadaraq zəmanəmizə qədər gəlib çatmışdır. Ağızdan-ağıza keçərək möhkəmlənmişdir.

Şifahi xalq ədəbiyyatı özümüz də bilmədən ruhumuza axır. Bu ədəbiyyat analarımızın laylası, alqışı, arzusu, atalarımızın sözü, nənələrimizin nağılı, oxşamaları, babalarımızın dastanı ilə qəlblərimizə hopur. Şifahi xalq ədəbiyyatının uşaqların formalaşmasında xüsusi təsiri olmuşdur.

Müasir dövrümüzdə milli kimliyimizi, folklorumuzu qoruyub saxlamaq xüsusilə zəruridir. Şübhəsiz ki, yüz illərlə yaşayan ədəbi nümunələrin bu qədər uzun yaşamasının sirri onların mahiyyətindəki obrazların mükəmməlliyində, xalq həyatına bağlılığında və onun xalq tərəfindən yaşadılmasında, obrazlı söz və ifadələrin zənginliyindədir. Ədəbiyyatın bu dəyərli cövhərini dərk etmək üçün hələ uşaqlıq dövründən daha çox valideynlər və müəllimlər tərəfindən həmin obrazlı söz və ifadələrin mahiyyətini gənc nəslə aşılamaq lazımdır.

Uşaqlar ana dilinin zərifliyini, incəliyini, saflığını və gözəlliyini lap körpəlikdən anlamalıdır. Analar dilin gözəlliyini beşik başında oxuduqları laylalar, bayatılar, əzizləmələr vasitəsilə uşağın ruhuna hopdurur. Anaları tərəfindən körpələrinə oxunan bu həzin nəğmələrdən bir neçəsinə diqqət yetirək.

Laylay dedim doyunca,
Baş yastığa qoyunca.
Pardaxlan qızıl gülüm,
Bir iyliyim doyunca (5 s. 306).

Laylay dedim, can dedim,
Yuxudan oyan dedim.
Sən yuxudan duranda,
Canımı qurban dedim.

Balam laylay, a laylay,
Körpəm, laylay, a laylay (1, s. 375-376).

Laylalar, oxşamaları həmçinin beşik nəğmələri də adlandırılır. "Beşik nəğmələrindəki ahəng və ritmlərdə milli düşüncənin ilkin notları vardır. Bu nidalar altında tərbiyələnən körpələr hələ gözünü açmamış, qəhrəmanlıq, saflıq, doğruçuluq, düzgünlük kimi dəyərlər sisteminin sədaları altında böyüyür, bu səslər sistemi uşaq xarakterini formalaşdırır" (8, s.12). Bir sözlə uşaq dünyaya göz açan gündən folklor nümunələri ilə qarşılaşır, anaların şirin laylası ilə uyuyur, nənələrin, xalaların, bibilərin həzin mahnısı ilə əzizlənir, onlara xoş gələn duzlu oxşamalarla gülür, yanıltmaclarla dil açır və beləcə həyatda mənəvi nemətlərdən ilk payını alır. Qeyd etdiyimiz hər bir folklor nümunəsi uşağın milli ruhda böyüməsinə xüsusi təsir edir. Beləliklə uşaqlar yaşa dolduqca folklorun digər nümunələri ilə də tanış olur, onlarla qidalanır.

Saf, təmiz ana dilinin öyrənilməsi prosesində məktəbəqədər uşaqların və ibtidai sinif şagirdlərinin intellekt qabiliyyətlərinin inkişaf etdirilməsi vacib problem kimi diqqəti cəlb edir. İbtidai sinif şagirdlərinin intellekt qabiliyyətlərini, nitq və təfəkkürünü inkişaf etdirən "Ana dili" fənni digər fənlərin öyrənilməsinə də güclü təsir göstərir.

Bu gün təhsilimizin yeniləşməsini tələb edən mühüm amillərdən biri də fənlərin həddindən artıq çoxalmasıdır. Bu fənlərin tədrisi şagirdlərin dünyagörüşünün artmasına, məntiq baxımdan inkişafına hədsiz təsir edir. Uşaqların yaxşı formalaşmasında bu fənlərin tədrisi zamanı folklor nümunələrinin yer almasının da önəmi çoxdur. Folklor həm də uşaqların hərtərəfli inkişafına və yaradıcılıq qabiliyyətlərinin formalaşmasına böyük

təsir edir. Həmçinin "Hər bir folklor nümunəsi estetik zövqün inkişaf etdirilməsinə xidmət göstərir" (2, s. 302).

Uşaq ana dilini öyrənməyə ana laylası ilə başlayır və biz bilirik ki, "Laylanın estetik gözəlliyi onun lirizmində, poetikasındadır, ifadə etdiyi mənəvi dəyərlərlə ölçülür" (2, s. 302). Bununla yanaşı uşaqlar paralel olaraq folklorumuzu da öyrənir. Onun beynində, ruhunda vətən sevgisi yaranır və elə də böyüyür. Hətta məktəbəqədərki dövrdə, yəni uşaqlar məktəbə gələnə qədər kifayət qədər şeirlər əzbərləyir, nağıllar öyrənirlər. Bu biliyə malik olan uşaqlar məktəbə böyük bir həvəslə gəlirlər. Amma bəzi hallarda bu həvəsi uşaqlarda inkişaf etdirmək yerinə körpələrin poeziyaya olan marağını konkret bir qəlibə salır, onu məhdudlaşdırırıq. Bunun nəticəsi olaraq dünən şeirləri, nağılları, əfsanələri, tapmacaları çox asanlıqla əzbərləyən, öyrənən bir uşaq birdən-birə passivləşir. Məktəbə qədər uzun-uzadı foklor nümunələrini birnəfəsə deyən balacalar sanki çevrilib başqa uşaq olur. Doğma diyardan-foklor dünyasından azad bir dünyadan başqa (çərçivələnmiş) bir aləmə düşür. Bunu əksinə inkişaf etdirmək lazımdır. Bu da ibtidai sinif müəllimlərinin üzərinə düşür. Yəni poetikanın əsas xüsusiyyətlərini öyrətmək üçün müəllim özü bir ədəbiyyatşünas kimi onun ən incə xüsusiyyətlərini dərk etməli və ibtidai siniflərdə tədris prosesində folklorla bağlı dərslərin, tapşırıqların yerinə yetirilməsinə ciddi yanaşmalıdır.

İbtidai siniflərdə folkloru şagirdlərə elə mənimsətmək lazımdır ki, şagird keçmişini, folklorunu hər zaman yaddaşında saxlasın. Folklorumuz özü bir tərbiyədi. Uşaqlara folkloru ilk olaraq laylalarla öyrətməyə başlayırıq. Sonra bu genişlənir, əzizləmələr, oxşamalarla, nağıllarla, tapmacalarla və digər folklor nümunələrilə davam edir. Müəllim şagirdlərə həm folklor nümunələrini, həm folklor oyunlarını öyrətməli, həm də məktəbə qədər öyrəndiklərini təkmilləşdirməlidir. Demək müəllimin üzərinə böyük məsuliyyət düşür. Müəllim şagirdə folkloru əzbər formada deyil, onu dərk edərək öyrətməklə daha yüksək nəticə əldə edə bilər. İbtidai siniflərdə uşaq folkloruna nə qədər geniş yer verilsə bir o qədər yaxşıdır. Həmçinin dərsdən sonra sinifdənxaric tapşırıqlarda da folklorun öyrənilməsinə geniş yer ayrılmalıdır. Xalqın keçmişindən bu gününə kimi davam edən folklor nümunələri indiki şagirdlərə öyrədilməlidir ki, gələcək nəsillərə aparılsın. Müəllim şifahi xalq ədəbiyyatını nə qədər mükəmməl bilsə, şagirdlərə bir o qədər yüksək səviyyədə tədris və təbliğ edə bilər.

Şagirdlərə folkloru dərindən mənimsədilməsinin əsas və yüksək keyfiyyətlərindən biri ondadır ki, sabah uşaq böyüyəndə hər hansısa bir xalqın nümayəndələri Azərbaycan folklor nümunələrini öz adına istifadə etsə, o, onun yanlış olduğunu bilib, buna etiraz edə biləcək. Əgər şagird bilməsə ki, bu folklor nümunəsi Azərbaycan folkloruna aiddi ya yox, onda keçmişimizi özününküləşdirmək istəyən xalqlardan qoruya bilməz.

Folklorun mənimsədilməsinin əsas yollarından biri də əyanilikdir. İndi bütün tam orta məktəblərdə elektron lövhələrdən istifadə imkanları genişdir. Müəllim bu texnologiyalardan istifadə etməklə folklorumuzu şagirdlərin yaddaşında asanlıqla qalacaq şəkildə mənimsədə bilər. Folklor nümunələrinin demək olar ki, çox növü şagirdlərə tədris olunur. Uşaq folkloru janırlarından biri olan tapmacalar daha çox uşaqların diqqətini çəkmiş və onların marağına səbəb olmuşdur. Məsələn, müəllim şagirdlərə tapmacaları keçəndə maraqlı əyani vasitələr və slaytlar hazırlayaraq şagirdlərin yüksək səviyyədə mənimsəməsinə nail ola bilər. İstər əyani vəsaitlər, istərsə də slaytlar elə hazırlanmalıdır ki, uşaqların tapmacaları asanlıqla tapmağına köməklik etsin. Həmçinin müəllim uşaqların yaşını və səviyyəsini nəzərə alıb ona uyğun tapmacaları seçməli, onların məntiqini inkişaf etdirməlidir. Deməli tapmacaları öyrədəndə istər müəllim, istərsə də evdə valideyin tək folklor nümunələri olaraq şagirdlərə mənimsətmir, həm də onların məntiqini inkişaf etdirir. Belə desək, uşağın zehninin inkişaf etdirilməsində tapmacaların rolu böyükdür. Elə tapmacalara aid bir neçə nümunəyə diqqət yetirək.

Bir cüt rəqəmim var,
Yerini dəyişəndə otuz üç artır.
Tap görək hansıdır onlar?
(66 rəqəmidir tərsinə çevirəndə 99 alınır) (5, s. 299)

Bu necə sirrdir,
Görəsən o nədir,
Biri öldürür, biri dirildir.
(qışda ağaclar ölür, yazda dirilir) (5, s. 298)

Laylalar, tapmacalar kimi uşaqların tərbiyəsində mühüm rol oynayan janrlardan biri də nağıllardır. Şifahi xalq ədəbiyyatının epik növünün ən qədim, ən çox yayılmış, çox sevilən və həcmcə ən böyük janrı olan nağıllar uşaqların tərbiyəsində, onların dünyagörüşünün artmasında, vətənpərvər ruhda böyüməsində, yaxşı əməl sahibi olmasında, bir sözlə mükəmməl fərd kimi formalaşmasında mühüm yer tutur. Məhz buna görə də nağılların öyrədilməsinə xüsusi önəm vermək gərəkdir. Nağılları danışarkən nə qədər canlılıq yaratsaq bir o qədər yüksək nəticə əldə etmiş olarıq. Nağılları öyrədərkən yaxşı olar ki, nağıl qəhramanlarının şəkillərini əks etdirən slaytlar hazırlasın. Bununla yanaşı uşaqların iştirakı ilə nağıl qəhrəmanlarını əks etdirən kiçik səhnəciklər də hazırlamaq olar. Daha da maraq doğurması üçün nağıllarla bağlı suallar hazırlayıb onlara təqdim edilə bilər.

Məsələn, suallar bu istiqamətdə ola bilər. Nağılın müəllifi sən olsaydın, nağıla hansı adı verərdin? Nəyə görə? Nağılın müəllifi sən olsaydın sonunu necə bitirərdin? Sən nağıl qoşsaydın nələrə diqqət edərdin?

Nağıldakı qəhrəmana nə dəmək istərdin? və s. bu kimi suallar uşaqların nağıl sujetlərindən yola çıxaran öz təfəkkürlərini inkişaf etdirə bilərlər.

Müəllim dərsi nə qədər maraqlı qurarsa, bir o qədər yüksək nəticə əldə edib məqsədinə nail olacaq. Folklor nümunələrini tədris edərkən müəllim əyani vasitələrdən, slaytlardan istifadə etsə şagirdlərin mənimsəməsində daha yüksək nəticə əldə edər. Hətta müəllim şagirdlərdə elə həvəs yarada bilər ki, şagirdlər özləri həm nağıllar qura bilər, həm əfsanələr yarada bilər, həm tapmacalar hazırlaya bilər. Təbii ki, bu uşaq təfəkkürünün məsulu olacaq. Hazırlanan və söylənilən yeni folklor nümunələri çox mükəmməl olmayacaq, uşaq təfəkkürü, düşüncəsi orda öz əksini tapacaq. Amma uşaq bundan həm həvəsə gələcək, həm də özünə inamı artacaq ki, gələcəkdə yaxşı bir iş ortaya çıxarda biləcək. Hətta uşaqlar özlərini nağıl qəhrəmanlarına oxşadacaqlar, onlarla özlərini müqayisə edəcəklər. Nağıl qəhrəmanlarının müsbət keyfiyyətlərini özlərində əks etdirəcəklər. Əslində bu yaxşı keyfiyyətdir. Bu düşüncələr, özlərini nağıl qəhrəmanlarına oxşatmaları uşaqların formalaşmasına müsbət təsir edəcək. Burda şagirdlərin təfəkkürünün inkişafına təsir yenə müəllimin üzərinə düşür. Çünki bu həvəsi şagirddə müəllim yaradır. Müəllimin keçdiyi dərs elə olmalıdır ki, uşağın özünə inamı, folklora marağı olsun. Folkloru şagirdlərə sevdirsə, onlarda maraq yaratsa, şagirdlər həvəsə gələcək və öz xəyyallarında canlandırdığı obrazları yaradacaqlar.

Həm evdə, həm məktəbəqədər təhsil müəssisələrində, həm ibtidai siniflərdə, həm də yuxarı siniflərdə folklora geniş yer verilməlidir. Folkloru uşaqlara, şagirdlərə sevdirməliyik. Gələcək nəsillər də bu zənginlikdən faydalansın deyə bunu qoruyub nəsillərdən nəsillərə, əsirlərdən əsirlərə keçirməliyik.

ƏDƏBİYYAT

1. Azərbaycan folkloru antologiyası, XIV kitab (Dərbənd folkloru). Bakı: “Səda”, 2006, 430 s.
2. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı (Müasir aktual problemlər). Bakı: 2014. 350 s.
3. Əsgərova A. “Oğuznamə”nin dili. Bakı: “Təhsil” NPM, 2011, 210 s.
4. Mustafayeva X. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: “Elm”, 2011, 292 səh.
5. Naxçıvan folklor antologiyası. I cild. Naxçıvan: “Əcəmi”, 2010, 513 səh.
6. Naxçıvan folkloru antologiyası. II cild. Naxçıvan: “Əcəmi”, 2011, 525 səh.
7. Nəbiyeva Ş. Ana dili tədrisi metodikasinin aktual problemləri (Metodik vəsait). Bakı: 2010, 127 səh.
8. Nəbiyev A. Azərbaycan uşaq folkloru. Bakı: “Elm”, 2000.

ЧИНАРА РЗАЕВА

РОЛЬ ФОЛЬКЛОРА В ФОРМИРОВАНИИ ДЕТЕЙ И ОБУЧЕНИЕФОЛЬКЛОРА В ШКОЛАХ

РЕЗЬЮМЕ

В современноммире сохранение национального удостоверения, и в частности фольклора очень важно. Дети должны с младенчества осознавать нежность, хрупкость, чистоту и красоту родного языка. Матери уколыбеливпитывают в дух ребенка красоту языка с помощью колыбельных песен, баятов и ласкАтельных стишков. Должность сохранения этого достояния в первую очередь зависит от матерей, а потом от учителей. В статье рассматривается значение уделяе моеосвоению фольклорных примеров в начальных классах, а такжеспособы наилучшего использования современных методов в обучении. Значение обучения колыбельных, загадок, а также сказок выдвигается на первый план.

CHINARA RZAYEVA

THE ROLE OF FOLKLORE İN THE FORMATİON OF CHİLDREN AND FOLKLORE STUDİES İN SCHOOLS

SUMMERY

In today's world the preservation of national identity, and in particular of the folklore is very important. Children need to be aware of infancy tenderness, fragility, purity and beauty of the native language. Mothers at the cradle try to absorb the beauty of the language into the spirit of the child with the help of lullabies, bayatis and caressing rhymes. Position of preserving this heritage is primarily dependent on the mothers, and then on teachers. The article investigates the importance given to the development of folk examples in primary school, as well as ways to better use of modern methods in its teaching. The value of learning lullabies, riddles and tails comes on the first place. The article also notes the special influence of.

Rəyçi: Afaq Əsgərova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

NURLANA ƏLIYEVA
"Naxçıvan" Universiteti

MÜZƏFFƏR NƏSİRLİ, HÜSEYN RAZI YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLİK MOTİVLƏRİ

Açar sözlər: *vətənpərvərlik, poeziya, müstəqillik, şair, poema, ədəbi nümunə*
Ключевые слова: *патриотизм, поэзия, независимость, поэт, поэма, литературная среда.*
Key words: *patriotism, poetry, independence, poet, poem, literary sample.*

Məqalədə Naxçıvan ədəbi mühitinin tanınmış nümayəndələrindən – Müzəffər Nəsirlinin, Hüseyn Razinin yaradıcılıq axtarışları izlənilmiş, vətənpərvərlik mövzusunda qələmə aldıqları poeziya nümunələri araşdırılmışdır. Müzəffər Nəsirlinin müharibədən sonrakı illərdə qələmə aldığı poeziya nümunələri məqalədə təhlil edilmişdir. Müharibə iştirakçısı kimi şahidi olduğu faciəli günlərə həsr etdiyi poetik ifadələr məqalədə öz əksini tapmışdır. Doğma yurdumuzun füsunkar təbiətinə həsr etdiyi şeirləridə ədibin yaradıcılığının zirvəsini təşkil edir. Naxçıvan ədəbi mühitinin digər tanınmış nümayəndəsi Hüseyn Razinin də yaradıcılığı məqalədə araşdırılmış, ədibin vətənpərvərlik ehtirası ilə yazdığı şeirləri diqqətə çatdırılmışdır. Hüseyn Razinin müharibə mövzusuna həsr etdiyi şeirlər, poemalar onun yaradıcılığında mühüm yer tutur. Bu silsilədən olan nümunələr ədibin yaradıcılığında saysız-hesabsızdır. Vətənpərvər şair bu mövzuya xüsusi diqqət yetirmiş və bu ədəbi ustalıq məqalənin ana xəttini təşkil etmişdir. Beləliklə, sözügedən şairlərin poeziyasında olan xüsusi özəlliklər və onların yaradıcılıqlarında olan müstəqillik və vətənpərvərlik duyğularının ön plana çəkilməsi məqalənin əsas xəttini təşkil edir.

"Hər bir xalqın həyatında ədəbiyyatın, bədii söz sənətinin mühüm yeri və rolu vardır" - ədəbiyyatın ən böyük amalını və tarixi missiyasını mənsub olduğu xalqa xidmətdə görən ümummilli liderimiz hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan ədəbiyyatının inkişafına çalışmış, yaradıcı ziyalıları himayə etmiş, sağlam ədəbi mühitin yaradılmasını bir nömrəli vəzifə saymışdır.

Biz bu gün ədəbiyyatımızın dünəninə, bu gününə nəzər yetirəndə - "Müstəqillik dövrünün özünəməxsus ədəbiyyatı olmalıdır " fikrini bir daha təsdiq edir, sübut edəcək faktlarla, ədiblərimizin yaradıcılıq məhsulları iləfikirlərimizi əsaslandırırıq. Belə ki, bu dövr əvvəlki dövrlərdən tamamiə fərqlənir. Əsas fərq bundan ibarətdir ki, indi artıq ədiblərimizin yaradıcılığında mövzu seçimində tam sərbəstlik var, ikinci fərq budur ki,bu

gün bədii yaradıcılıqda "Vətən" anlayışıöz rel məzmununa qovuşmuş, Azərbaycan müstəqil dövlət olmuşdur. Əgər ədəbiyyatımızın dünənində şair və ya yazıçılarımız "Vətən" deyərkən xəyali sərhədlər cızır və ya keçmiş Sovetlər Birliyini nəzərdə tuturdusa, bu gün real sərhədlər hüdudunda müstəqil Azərbaycanımız – öz doğma Vətənimiz mövcuddur".

Milli zəmində yaranmış zəngin bir irsə dayanan Naxçıvan ədəbi mühiti ilə bağlı olan maraqlı xüsusiyyətlər Azərbaycan ədəbiyyatının yaşarı cəhətlərinin zənginləşməsində müəyyən rol oynamış, onun maraqlı, bütün zamanlar üçün aktual hesab edilən örnəklərini çoxalması prosesinə öz payını vermişdir.

Naxçıvan ədəbi mühitibu gün yetərincə inkişaf etməklə bərabər həm də köklü şəkildə formalaşıbdır. Ədiblərimizin yaradıcılığı təkcə muxtar republikada deyil, ölkə səviyyəsində tanınır, oxunur. 20-ci əsri əhatə edən 70 ildə bütün Azərbaycan ədəbiyyatı kimi Naxçıvanda da yaranan ədəbiyyat Sovet ideologiyasının təsiri ilə formalaşmağa məcbur idi. 1920-90-cı illər ərzində SSRİ adlanan imperiyanın ab-havası bizim də ölkəmizdən yan keçməmişdi. Amma maraqlı fakt budur ki, həmin ərəfədə Sove ideologiyasını təbliğ etmək məqsədilə verilən "sifarişli ədəbiyyatda" yenə də milli yaradıcılıq kökləri özünü qoruyub saxlaya bilmişdi. Bu mühitin bu gün də müstqil dövlətçiliyimiz və xalqımız üçün əhəmiyyətini itirməyən dəyərlərindən biri – müxtəlif problemlər haqqında orijinal düşüncələrin, ədəbi-bədii inikasıolan əsərlərin məna zənginliyi və estetik gözəlliyidir.

"XX əsrin ikinci yarısında Naxçıvan ədəbi mühitində vətən mövzusu" əsasında fikirlərimizi Naxçıvan ədəbi mühitinin tanınmış simalarından olan, bu mühitin inkişafında xüsusu yeri və rolu olan Müzəffər Nəsirlinin, Hüseyn Razinin yaradıcılığı və yaradıcılıq məhsulları ilə əsaslandıracıyıq.

Müzəffər Nəsirli Naxçıvan ədəbi mühitinin Azərbaycan ədəbi mühitinə verdiyi töhfələrdən biridir. "Muxtar respublikamızın mədəni həyatında Müzəffər Nəsirli həmişə fəal iştirak etmiş, mədəniyyət ocaqlarında, istehsalat sahələrində onun ədəbiyyat və sənət adamları haqqında çıxışları maraqla qarşılanmışdır" (4, 4). Müzəffər Nəsirli şair idi, o həm də sadə bir insan, təmkinli və sevilən müəllim, qayğıkeş rəhbər işçi, alovlu natiq, mətin döyüşçü, gözəl ailə başçısı, yaxşı dost olmuşdur. Çoxsaylı işlərinə baxmayaraq, yaradıcılığa həmişə yüksək münasibət göstərmişdir. 50-ci illərdən sonra Naxçıvanda poeziya sahəsində də bir sıra uğurlar qazanılmışdı. Hələ 20-ci illərin sonlarından yaradıcılığa başlayan Müzəffər Nəsirli müharibədə iştirak etmiş, yüz minlərlə insanın faciəsinin şahidi olmuş və bu mövzuda onlarla şeir yazmışdır. İlk əsərlərindən tutmuş, poemaları da daxil olmaqla onun yaradıcılığında məsuliyyət hissi həmişə öndə durmuşdur. "Səngər sətirləri" başlığı ilə çap olunan bu şeirlərdə

azərbaycanlı döyüşçülərin qəhrəmanlığı, qələbəyə olan inam hissləri öz poetik ifadəsini tapmışdır.

Duyuram yaxındır ellər büsatı,
Səadət müjdəsi, zəfər saatı.
Deyirəm qanadlı bir quş olaydım,
Mən də o günləri görmüş olaydım (9, 61).

"Əlvan çiçəklər" adlı almanax haqqında fikir söyləyənlər bu faktı diqqətdən kənarda qoymamışlar: "Müzəffər Nəsirlinin yaradıcılığa ciddi münasibət bəslədiyi almanaxdakı "Partizan Əfruz" adlı poemasında özünü bir daha göstərir" (8, 3).

Müzəffər Nəsirli müharibə görmüş, Böyük Vətən müharibəsi cəbhələrində iştirak etmiş şairlərdəndir. "Qələmi silaha döndərən şairlərimizdən biri kimi, o, həmişə sülh carçısı olmuş, "ölüm", "dava" sözlərinin lüğətdən silinməsini arzu etmişdir" (3, 4).

M.Nəsirlinin Buhenvald qəhrəmanı, həmyerlimiz Əkbər Ağayev haqqında yazdığı "Əsgər haqqında ballada" da maraqla oxunur. Müharibənin sərt üzünü bütün dəhşətləri ilə görən şairin yaradıcılığında sülhə çağırış mövzusu da olduqca aktualdır.

Söyləyirəm: ey insanlar,
Duman gələr, sayıq olun.
Körpələrin dincliyini
Qorumaqçün ayıq olun!
Bir də alov bürüməsin
Planetin göylərini,
Milyon-milyon insanların
Vətənini, ellərini (9, 62).

Müharibədən sonrakı illərdə şairin əsərlərində doğma yurdumuzun füsunkar təbiəti məhəbbətlə tərənnüm olunmuşdur. Onun şeirlərində əmək adamlarının həyatı geniş şəkildə öz poetik ifadəsini tapmışdır. "Bacılar", "Arpaçayın dastanı" poemalarının mövzusu əmək qəhrəmanlarının həyatından alınmışdır.

Müzəffər Nəsirlinin müxtəlif illərdə "Həyat haqqında mahnı", "İşıq", "And", "Qafqaz yollarında", "Araz sahillərində", "Qaynar bulaq" və s. kitabları çap olunmuşdur.

Müzəffər Nəsirli elə bir dövrdə yaşamışdır ki, "sosialist realizmi" adı ilə sənətkarların səlahiyyəti məhdudlaşdırılır, onlar bütün fikirlərini olduğu kimi ifadə etməkdən çəkinirdilər. O, siyasət adamı olmamışdır, lakin xalqın, demək olar ki, bütün ictimai-siyasi tədbirlərində fəallıq göstərmişdir. Çünki o, xalqının oğlu, vətəndaş şair idi. "Onun şeirlərinin böyük bir qismi əsl vətəndaşlıq mövqeyindən yoğrulub" (1, 4). Şairin elə bir əsərini tapmaq çətindir ki, orada vətən sevgisi, xalqına məhəbbət hissləri duyulmasın. Bu

baxımdan, Müzəffər Nəsirlinin də özünə məxsus imzası vardır. Məsələn, aşağıdakı ifadələrdə duyulan yeni nəfəsin, yeni təravətin müəllifi şairin özüdür:

Nə gözəldir söyləyirəm ürəkdən
Vətənimin gündüzü tək axşamı.
Arzum budur, mən olaydım dünyada
Gündüzün də, axşamın da rəssamı (9, 61).

M.Nəsirli elini, obasını sevən, xalqını yüksək dəyərləndirən şairlərdən olmuşdur. O, belə bir həqiqəti yaddaşlara həkk etmişdir ki:

Ellər üçün nəğmə deyən
Nəğməkara ölüm yoxdur (9, 63).

Şairin vətən eşqini tərənnüm edən aşağıdakı misraları bu baxımdan səciyyəvidir:

Nə qədər ucaya qalxsam da belə,
Ürəkdən bağlıyam bu doğma elə.
İlhamım dönərsə coşqun bir selə,
Vətən torpağına axmaq istərəm! (9, 63).

Vətən mövzusundakı əsərlərini böyük zövq və şövqlə yazan şairlərdən biri də XX yüzilllik Azərbaycan şerinə özünəməxsus töhfələr verən Hüseyn Razidir. O, Naxçıvan ədəbi mühitinin fəxarətli nümayəndələrindən olmuşdur. R.Behrudi yazır: "Hüseyn Razi Naxçıvan torpağının 20-ci yüzilliyin sonunda ədəbiyyatımılza verdiyi böyük sənətkarlardan biridir... Naxçıvan ədəbi mühitindən çıxan elə bir şair yoxdur ki, H.Razi şerindən bəhrələnməsin.

Hüseyn Razi bütün ömrü boyu sözü üzə şux deyən, sözü ucalığa qaldıran, lap ölüm gününə qədər ədəbiyyata mərdi-mərdanə xidmət eləyən şair idi" (6, 6). Şairin bu xüsusiyyəti əsərlərindən də bəlli olur.

"Şüardan heç kəsə təsəlli olmaz!" deyən Hüseyn Razi yaradıcılığının bəzəyi həqiqətlərdir. Ancaq bu həqiqətlər dərin məna daşıyır, onların ecazkarlığı şairin qələmində daha güclü şəkildə üzə çıxır. Ürəyin, hissin, duyğuların öz qayda-qanunu, həyatın isə öz qayda-qanun və həqiqətləri vardır. Bunların hər ikisi Hüseyn Razi qələmində fərqli və güclü görünür, onun poeziyasında ürək də, söz də dilə gəlir, həyat gerçəklikləri də danışır. Hüseyn Razi dilində adi sözlər bir araya gələrək aforizmlərə, hikmət saçan, nəsihət verən, öyrədən, tərbiyə edən fikirlərə çevrilir. Elə fikirlərə ki, onlar hamıya lazımdır, hamı üçün faydalıdır:

Ey dost, qoy ömrümüz dönsün çırağa,
Dan yeri ürəkdə sökülməlidir.
Ölməzlik istəsən, ana torpağa
Ya tərin, ya qanın tökülməlidir (5, 15).

Hüseyn Razi vətənlə bağlı istək və duyğularını tərənnüm edir. Elə fikirlər və hisslər ifadə edir ki, onlar harada yaşadığından asılı olmayaraq bütün qabaqcıl adamlar üçün səciyyəvidir. Doğrudan da, Hüseyn Razi vətən haqqındakı əsərlərini xüsusi bir zövqlə, şövqlə yazmışdır:

Vətən bir əvəzsiz gülüstan kimi
Bütün qüdrətilə göründü mənə.
Dağ gülləri kimi sətirlərimi
Səpdim bu qüdrətin qədəmlərinə (5, 15).

Hüseyn Razinin "Azərbaycan gözəliyəm" adlı şeiri də yurd sevgisi üzərində köklənib. Bu əsərdə şair Naxçıvan haqqında "sözün, eşqin, düz ilqarın əzəli" kimi maraqlı və yerinə düşən bir ifadə işlədir. Hüseyn Razinin "Azərbaycan gözəliyəm" şeri canlı və coşqun dili ilə diqqəti çəkir. Əsərdə "memarlığın gülzarı", "romantika çələngi" kimi təravətli ifadələr işlənmişdir. Bu baxımdan şerin aşağıdakı hissələri səciyyəvidir:

Memarlığın gülzarına,
Əcəminin zər naxışlı,
Ulduzlardan yaraşıqlı
Yüz rəngini gətirmişəm (5, 12).

Bir sözlə "Hüseyn Razi qəlbində Vətənini əzizləyən, Vətənində qəlbini əridən gözəl qələm ustasıdır" (6, 5).

Hüseyn Razi əsərində XIX yüzil Naxçıvan ədəbi mühitinin seçkin nümayəndələrindən biri olan Heyran xanım Dünbülinin də adını çəkir və onun şirin dilini vurğulayır:

Heyran xanım övladıma
Şirin dillə,
Yüz nisgillə layla çalıb (5, 13).

Hüseyn Razinin vətənpərvərliyi hələ sağlığında diqqəti cəlb etmiş və bu haqda maraqlı fikirlər söylənmişdir. Ə.Qənbər yazır: "Hüseyn Razi qəlbində Vətənini əzizləyən, Vətənində qəlbini əridən gözəl qələm ustasıdır".

1941-1945- ci illər müharibəsinin iştirakçısı olmuş, elə bu illərdə də bədii yaradıcılığa başlamış Hüseyn Razi də 50-ci illərdən sonra gözəl lirik şeirləri, nəsr və dram əsərləri ilə tanınmış, Əməkdar İncəsənət xadimi adına layiq görülmüş, əsərləri müxtəlif dillərə tərcümə olunmuşdur:

Arzu şeir olmaz, susar nəğmələr,
Vətən havasıyla nəfəs almasam.
Yaşaya bilmərəm bircə gün əgər
Torpağın hüsnünə məftun olmasam (5, 12).

Bu misraları şairin yaradıcılıq proqramı adlandırmaq olar. H.Razinin yaradıcılığında doğma yurdun tərənnümü geniş yer tutur . Gündən –günə gözəlləşən muxtar respublikamızın inkişafı və tərəqqisi, gözəl təbiəti, şəffaf

bulaqları, zəhmətsevər insanları H.Razinin şeirlərində ilhamla tərənnüm edilir.

Bu cəhətdən "Naxçıvan", "Naxçıvandandır", "Ordubad", "Şahbuz" şeirləri oxucuya dərin təsir bağışlayır. Oxucu bu şeirlərdə zamanın min bir tufanına vüqarla sinə gərmiş əzəmətli memarlıq abidələrinin pozulmaz rəngini görür, Ordubad bağlarının xoş ətrini duyur, "Qızlar bulağının" misilsiz gözəlliyinə heyran olur.

Bu yer qardaşıdır Milin, Muğanın
Başında yazılmış neçə dastanın,
Qurbanı olduğum Azərbaycanın
Gözəl bir guşəsi Naxçıvandadır (5, 11).

Coşğun vətənpərvərlik ehtirası ilə yazılmış bu misraları həyəcansız oxumaq mümkün deyildir.

Şair təkcə Naxçıvanı deyil, bütün Azərbaycan torpağını- qocaman Xəzəri, qoynunda sıx buruqlar meşəsi olan Bakını, təbiətin nadir incisi Göy –gölü, şəfa qaynağı İsti-suyu belə məhəbbətlə vəsf edir.

Şair yaradıcılıq axtarışları və ciddi zəhmət sayəsində yeni söz, yeni fikir deməyə çalışır. O, şeirlərinin birində belə yazır:

Şeir bal şəhdinə bəzəyir əslən,
Ətri yüz çiçəkdən alınmalıdır.
Gücü fırtınadan, odu günəşdən,
Sürəti şişməkdən alınmalıdır (5, 12).

H.Razi həmçinin "Canlı tonqal", "Zülmətdə işıq" (N.Tusi haqqında), "İnsanlar tələsin, xeyirxahlığa" (Y.Məmməliyevə həsr olunub), "Sahil həsrəti" və s. poemalar da yazmışdır.

Beləliklə, sözügedən şairlərin poeziyası ilə bağlı araşdırmalar göstərir ki, Naxçıvan ədəbi mühitində yaranan ədəbi nümunələr "sifarişli sovet ədəbiyyatı dönəmində" belə milli kök, milli xüsusiyyət anlayışını əsas tutmuş, bu ədəbi nümunələr Azərbaycan ədəbiyyatını tamamlayan, ona seçkin, orijinal, maraqlı xüsusiyyətlər verən örnəklər sırasındadır. Bu prosesdə hər bir sənətkarın öz mövqeyi vardır. Naxçıvan ədəbi mühitində yazıb-yaradan sənətkarların əsərlərində müstəqillik və vətənpərvərlik ideyalarının ön plana çıxması dediklərimizi sübut etməkdədir.

Ədəbi nümunələrdə "Vətən" sözünü çox işlətməklə vətənpərvərlik mövzusunda ədəbiyyat yaratmaq mümkün deyil. Bu gün istər ədəbiyyatımızın, istərsə də günümüzün mövzusu vətənpərvərlik olmalıdır. Vətənpərvərlik yazıçı və ya şairin yaradıcılığının bütün mahiyyətini ifadə etməli, vətəndaşlıq duyğusunun daşıyıcısına çevrilərək gələcək nəsillərə ötürülməlidir.

ƏDƏBİYYAT

1. Axundov A. Belə bir şair var idi / "Şərq qapısı" qəzeti, 2001, 6 sentyabr, № 112 (17000)
2. Axundov A. Qoynu gülşən bir vətənin oğluyam mən... / "Şərq qapısı" qəzeti, 2008, 5 sentyabr, № 174 (28.590).
3. Elsevər H. Elinin, obasının məftunu / "Şərq qapısı" qəzeti, 1991, 26 iyul, № 141 (15.981).
4. Əliyev E. Şair, müəllim, döyüşçü / "Sovet Naxçıvanı" qəzeti, 1986, 30 oktyabr, № 230 (14.571).
5.Hüseyn Razi. Sahil həsrəti. Bakı, Yazıçı, 1985.
6.Hüseyn Razi. Ömür keçdi. Bakı, Elm və təhsil, 2011.
7. Müasirləri Hüseyn Razi haqqında / Hüseyn Razi. Ömür keçdi. Bakı, Elm və təhsil, 2011, s. 4-6.
8. Mollayev İ. "Əlvan çiçəklər" kitabında M.Nəsirlinin "Partizan Əfruz" şeri haqqında / "Şərq qapısı" qəzeti, 1966, 26 avqust, № 200 (8414).
9. Nəsirli M. Araz sahilində. Bakı: Azərnəşr, 1962.
10. Nəsirli M. İki ürək. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1974.
11. Talışlı M. Əsərləri, I c. Bakı: Adiloğlu, 2007

НУРЛАНА АЛИЕВА

ПАТРИАТИЧЕСКИЕ МОТИВЫ В ТВОРЧЕСТВЕ МУЗАФФАРА НАСИРЛИ И ГУСЕЙНА РАЗИ

РЕЗЬЮМЕ

В статье прослежены творческие поиски Музаффара Насирли и Гусейна Рази – видных представителей Нахичеванской литературной среды проанализированы образцы поэзии, которые использованы в их творчестве. В статье проанализированы образцы поэзии, которые написаны Музаффаром Насирли в послевоенные годы. Как участник войны, очевидцет которого он сам был, в статье нашли своё отражение поэтические выражения, посвященные этит трагическит днят. Стихи, посвященные прекрасной природе нашего родного края, составляют творческию вершину поэта. В статье проанализированы и доведены до сведения читателя творчество и другого знаменитого представителя Нахичеванской литературной среды - Гусейна Рази, внимательно прослежены стихи поэта, написанные в патриотическом духе. Стихи, поэмы Гусейна Рази, посвящённые теме войны, занимают важное место в его творчестве. Образцы из этой серии в творчестве поэта множество. Патриотичесткий о поэт к этой тетепридал пристальное внимание и это литературное мастерство составляет статье единое целое. Такии

образом, особые превосходства творчества этих поэтов, их независимое творчество и чувство патриотизма, выводимое в передний план – основная линия статьи.

NURLANA ALIYEVA

PATRIOTISM MOTIVES IN THE CREATIVITY OF MUZAFFER NASIRLY, KHUSEYN RAZI PATRIOTISM MOTIVES IN THE CREATIVE ACTIVITY OF MUZAFFAR NASIRLI, KHUSEYN RAZI

SUMMERY

In the article the well-known literary representative of Nakhchivan Muzaffar Nasirly and Khuseyn Razis creative searching are noticed, the poetry samples are researched penned in the theme of patriotism. The poetry samples of Muzaffar Nasirly after the war are analyzed in the article. The poetic phrases are reflected in the article by him as an participant of the war whose devoted works to the tragedical days that witnessed. In the poems are to the beautiful nature of our land comprises the top of the poet's creative activity. The other well-known literary representative of Nakhchivan Khuseyn Razi are researched in the article, the poems written in the motives of patriotism are brought to the attention. The poems and the poetry have great role in his creative activity. Samples as these are much more in the creativity of the writer. Patriotic poet paid great attention to this topic and this literary mastership organizes the main, plot of the article. So mentioned poets, special peculiarities and independence in their creativity brought the feel of patriotism comprises the main plot of the article.

Rəyçi: Fərman Xəlilov
Filologiya üzrə fəlsəfə doktoru

FƏRƏH ASLANOVA
Bakı Avrasiya Universiteti
fereh_aslanova@mail.ru

SOVETLƏR DÖNƏMİNDƏ "KOROĞLU" DASTANININ ORTA MƏKTƏBLƏRDƏ TƏDRİSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Açar sözlər: *"Koroğlu", orta məktəb, tədris, nöqsan.*
Key words: *Koroghlu, school, education, shortcoming.*
Ключевые слова: *"Короглы", средная школа, обучение, недостатки.*

Türk xalqı yüzlərlə qəhrəmanlıq dastanları yaratmışdır. Onların arasında "Koroğlu" dastanı variantlarının çoxluğuna və yayılma coğrafiyasının genişliyinə görə xüsusi yer tutur.

Koroğlu Azərbaycan xalqının yaratdığı və sonradan əksər türk xalqları arasında geniş yayılmış qəhrəmanlıq dastanıdır. Bütün qəhrəmanlıq dastanlarında, o cümlədən, "Koroğlu" dastanında xalq öz qəhrəmanlıq hisslərini, duyğu və düşüncələrini ifadə etmiş, onu min illər boyu yaddaşında yaşatmış, nəsildən-nəslə ötürmüşdür. Xalqın qəhrəmanlıq tarixini yaşatmaq və qəhrəmanlıq ruhunu saxlamaq baxımından "Koroğlu" dastanının misilsiz əhəmiyyəti vardır.

Sovetlər dönəmində "Koroğlu" dastanı məktəblərdə ədəbiyyat proqramlarında yer almış, dərsliklərdə tədrisinə müəyyən saatlar ayrılmışdır.

Məsələn, "Koroğlu" dastanının tədrisinə 1967-ci il nəşri olan həm VIII, həm də IX sinif "Ədəbiyyat" dərsliklərində yer ayrılmışdır. Ə.Qarabağlı və M.Aslanovun müəllifliyi ilə nəşr olunmuş VIII sinif "Ədəbiyyat" dərsliyində "Koroğlu dastanı" və "Koroğlunun Bağdad səfəri" (Durna teli) başlıqları altında dastandan parçalar verilmişdir. Dərslikdə şagirdlərə "Koroğlu" dastanı haqqında aşağıdakı məlumatlar verilir:

""Koroğlu" dastanı XVII əsrin əvvəllərində Azərbaycan xalqının yerli feodallara, Türkiyə sultanlarına, İran xanlarına qarşı apardığı mübarizənin bədii təsvirini verir. XVII əsrin tarixi kitablarında xalq içərisindən çıxan və xüsusən yadelli düşmənlərə qarşı mübarizə aparan adamların arasında bu dastanda olan qəhrəmanların çoxunun adı çəkilir: Koroğlu, Giziroğlu Mustafa bəy, Kosa Səfər, Dəmirçioğlu, Bəlli Əhməd və başqaları." [7, 7]

İllərdir ki, "Koroğlu" dastanı məhz belə tədris olunur. Koroğlunun XVI əsrin sonları XVII əsrin əvvəllərində yaşaması, mübarizə aparması bütün "Koroğlu" dastanının tədrisinə yer ayrılmış ədəbiyyat dərsliklərində qeyd olunur. Lakin fil.e.d.,dos. İslam Sadıq bu məsələni daha geniş və dərindən araşdıraraq bütün gerçəklikləri açığa çıxarmışdır. İslam Sadıq "Koroğlu kim

olub" adlı kitabında bu barədə tutarlı dəlillər gətirərək Koroğlunun XVI-XVII əsrlərdə yaşadığı fikrini təkzib edir. Belə faktlardan birini qeyd etmək istəyirəm:

"Bir sıra tarixi dəlillər Koroğlunun XVI-XVII əsrlərdə deyil, ən azı XIV-XV əsrlərdə yaşadığını göstərməkdədir. Bunlardan ən birincisi tüfəng məsələsidir. Koroğlu "Mənmi qocalmışam ya zəmanəmi" qoşmasının dördüncü bəndində tüfəngin çıxmağı ilə mərdliyin getdiyini bildirir:

Axır əcəl gəldi yetdi ay haray!
Çəkdiyim qovğalar bitdi ay haray!
Tüfəng çıxdı mərdlik getdi ay haray!
Mənmi qocalmışam, ya zəmanəmi!

Deməli, Koroğlu bir ömür igidliklər eləmiş, qəhrəmnlıqlar göstərmiş, bir ucu Bağdad, bir ucu İstambul arası dünyanın yarısını gəzmiş, ancaq hələ tüfəngin nə adını eşitmişdi, nə də üzünü görmüşdü. Halbuki çox uzağa getməsək, Çaldıran döyüşündə Osmanlı sultanı Sultan Səlim Səfəvilər xanədanı Şah Ismayılın üstünə tüfənglə yox, toplarla gəlmişdi. Təkcə bu faktdan belə anlaşılır ki, 1514-cü ildə tüfəng artıq topun kölgəsində qalmışdı." [8, 27]

Kitabda Koroğlunun XVI-XVII əsrlərdə deyil, məhz daha erkən-XIV əsrdə yaşadığı barəsində bir çox tutarlı faktlar vardır. Lakin məncə burada bu faktla kifayətlənmək mümkündür.

Həmçinin, 1967-ci ilin nəşri olan IX sinif "Ədəbiyyat" dərsliyində də "Koroğlunun Bağdad səfəri" qolu geniş şəkildə tədris materialı kimi dərsliyə əlavə edilmişdir.

1967-ci ilin nəşri olan 5-ci sinif "Ədəbiyyat" dərsliyində Koroğlu dastanının tədrisinə rast gəlinir. Qılman Musayevin müəllifi olduğu dərslikdə "Həmzənin Qıratı aparması" qolunun tədrisinə vaxt ayrılmışdır və dastan ümumilikdə aşağıdakı kimi xarakterizə olunur: ""Koroğlu", "Qaçaq Nəbi" kimi qəhrəmanlıq dastanlarında Azərbaycan xalqının yadelli işğalçılara, yerli feodal və xanlara qarşı apardığı mübarizə təsvir olunmuşdur. Dastanın əsas qəhrəmanı Koroğludur. Xalq Koroğlunun simasında özünün ən gözəl və nəcib sifətlərini, qəhrəmanlıq və sədaqətini vermiş, düşmənə qarşı amansız olduğunu göstərmişdir. Xalq öz qəhrəmanını məğlubedilməz və qüvvətli göstərmək üçün ona bəzən əfsanəvi, qeyri-adi sifətlər verir; məsələn, Koroğlunun bir qılınc çalmaqla yüz düşməni yerə sərməsi, bir oturumda dörd pud düyünün plovunu yeməsi, Misri qılıncın göydən düşmüş ildırım parçasından qayrılması, Qıratın yel kimi uçması və s. Koroğlunun ətrafındakı adamlar- "dəlilər" də qorxmaz, sədaqətli və namuslu qəhrəmanlar kimi göstərilir. Dastanda Koroğlu və onun adamlarının məskəni olan Çənlibel daha geniş mənada, vətən mənasında göstərilir" [6, 18]

Dərslikdə dastanın "Həmzənin Qıratı aparması" qolundan öncə verilmiş bu qısa xülasə ilə şagirdlər həm irəlidə onlara tədris olunacaq "Koroğlu" dastanı ilə, həm Koroğlu surəti ilə, həm onun dəliləri ilə, həmçinin də yaşadıqları,

özlərinə vətən bildikləri yurdları Çənlibellə tanış olurlar. Dastanın 5-ci sinifdə şagirdlərə doğru-düzgün tədrisinin əhəmiyyəti böyükdür. Bu şagirdlərin daha yuxarı siniflərə qalxdıqca "Koroğlu" dastanının geniş şəkildə tədrisinin demək olar ki ilk pilləsini təşkil edir.

1971-ci ilin nəşri olan V və VIII siniflərin "Ədəbiyyat" dərsliklərində "Koroğlu" dastanından müəyyən qollar tədris olunur. V sinifdə dastandan "Həmzənin Qıratı aparması" qolu tədris materialı kimi dərsliyə əlavə olunmuşdur. V sinif dərsliyində ixtisarla verilmiş bu qolun tədrisinə VIII sinifdə daha əhatəli şəkildə yer verilmişdir. VIII sinif "Ədəbiyyat" dərsliyində "Koroğlu" dastanının tədrisinə beş saat vaxt ayrılmışdır. Dastandan olan "Həmzənin Qıratı aparması" ("Koroğlunun Toqat səfəri") qolunun da həmin saatlar ərzində oxunub təhlil edilməsi nəzərdə tutulmuşdur. Proqramda tədris saatların bölgüsü aşağıdakı kimi verilmişdir:

1. "Həmzənin Qıratı aparması" qolundan oxu- 1saat
2. Oxunmuş hissənin məzmunu üzərində iş- 1saat
3. "Koroğlu" dastanının ümumi məzmunu üzərində iş- 1saat
4. "Koroğlu" dastanının təhlili- 2saat

1975-ci ildə nəşr olunmuş VI sinif "Ədəbiyyat" dərsliyində də dastanın iki qolunun tədrisinə yer ayrılmışdır. Dərsliyin lap əvvəlində verilmiş "Alı kişi" və "Dəmirçioğlunun Çənlibelə gəlməsi" qolları bu sinifdə ədəbiyyat tədrisinin ideya istiqamətini, onun hansı ədəbi qaynaqlardan qida aldığını, bir qədər sonra tədris olunacaq təlim materiallarının məhz hansı bünövrə üzərində təşkilini aydın təsəvvür etmək üçün çox faydalıdır. Dastanın iki qolunun tədrisinə başlamazdan öncə dərslikdə dastan haqqında aşağıdakı fikirlər verilmişdir:

"Qəhrəmanlıq dastanları içərisində "Koroğlu" dastanı xüsusi yer tutur. Bu dastanda xalqımızın qəsbkarlara, zalım hökmdarlara, xanlara və paşalaraqarşı mübarizəsi öz bədii ifadəsini tapmışdır. "Koroğlu" dastanının ideyasını vətənə, xalqa dərin məhəbbət, yadelli işğalçılara qarşı dərin nifrət və qəzəb hissi təşkil edir. "Koroğlu"da xalqın ruhu, idealları və azadlıq mübarizəsi əks etdirilmişdir. Qoç Koroğlu xalqın gücünə, məsləhətinə arxalanır. Onun silahdaşları-dəliləri də zəhmətkeş xalqın nümayəndələridir." [4, 20]

VI sinif üçün "Ədəbiyyat" dərsliyindən götürülmüş bu parçada verilmiş bu fikirlərdən bəziləri doğru, bəziləri isə yanlışdır. Məsələn, ""Koroğlu"da xalqın ruhu, idealları və azadlıq mübarizəsi əks etdirilmişdir" cümləsini doğru hesab etmək olar. Bu dastanın mayası xalqın idealları ilə yoğrulmuş, xalqın ruhu onun canına hopdurulmuşdur. Bundan əvvəlki ""Koroğlu" dastanının ideyasını vətənə, xalqa məhəbbət, yadelli işğalçılara qarşı dərin nifrət və qəzəb hissi təşkil edir" cümləsindəki vətənə, xalqa məhəbbət dastanın ideyasının özəyində durur. Çənlibel vətənin rəmzidir və onu göz bəbəyi kimi qoruyurlar. Biz "Koroğlu" dastanında vətənə və xalqa məhəbbətin ən gözəl nümunəsini görürük. Gənclər vətəni necə sevməyi bu dastanın qəhrəmanlarından öyrənirlər. Sonuncu

cümlədəki "yadelli işğalçılar" ifadəsi dastanın ümumi məzmunu ilə səsləşmir. Burada yadelli işğalçı yoxdur. "Bu dastanda xalqımızın qəsbkarlara, zalım hökmdarlara, xanlara və paşalara qarşı mübarizəsi öz bədii əksini tapmışdır" cümləsini də düzgün başa düşmək lazımdır. Xalqı əzən, onun hüquqlarını tapdalayan zalım və qəddar sultanlar, paşalar, xanlar və bəylər Koroğlunun mübarizə apardığı əsas düşmənlərdir. Onları qəsbkar adlandırmaq düzgün olmasa da, qəddarlıqları, zalımlıqları, rəhmsizlikləri göz qabağındadır və bu məsələlər dastanda yüksək sənətkarlıqla bədiiləşdirilmişdir.

VI sinifdə "Koroğlu" dastanından öyrədilən ikinci parça- "Dəmirçioğlunun Çənlibelə gəlməsi" qoludur. Dastanın dördüncü qolu olan bu parça dərslikdə müəyyən ixtisarlarla verilmişdir.

Şagirdlər bu qolda Koroğlunun sərkərdələri (dəliləri) ilə ilk dəfə tanış olurlar. Dastan oxunarkən onların döyüş qüdrəti ilə şagirdlər hələ tanış olmasalar da bu sərkərdələrin özləri ilə tanış olurlar. Dəli Həsən, Dəli Mehtər, Halaypozan, Tupdağıdan, Toxmaqvuran, və başqaları. Yaxşı olar ki, şagirdlərin diqqəti bu sərkərdələrin adlarına cəlb olunsun. Hər şeydən əvvəl qəhrəmanlara verilən "dəli" epitetinin mənasını (məcazi mənada qorxmaz, cəsur, qəhrəman, igid, dəliqanlı) şagirdlərə başa salmaq lazımdır.

Şagirdlər bilməlidirlər ki, Koroğlu əfsanəvi bir qəhrəman deyil. Dastanın əsasını təşkil edən hadisələr, motivlər reallığı əks etdirir, tamamilə real bir dövrün təzahürüdür. Xalqımızın Koroğlu kimi igid, cəsur, mətin bir qəhrəmanı olmuşdur və o xalqın sevimlisinə çevrilərək dastanlara qəhrəman olmuş, adı xalqın dilində, yaddaşında əsrlərlə yaşayaraq, dövrdən-dövrə adlayaraq bu günümüzə qədər gəlmişdir.

"Koroğlu" dastanının mükəmməl tədqiqatçılarından olan fil. e.d.dos. İslam Sadıq bu fikrə öz "Koroğlu kim olub" kitabında toxunaraq geniş şəkildə izahını vermişdir: "Koroğlu" dastanına təkcə bədii əsər kimi baxmaq da düz deyil. "Koroğlu" dastanının tarixi, etnoqrafik, coğrafi, toponimik materiallarla zənginliyi bu əsərə həm də elmi yönümdən yanaşmağı tələb edir. Böyük Azərbaycan şairi Səməd Vurğun hətta əfsanələrdə də bir həqiqət şəfəqləri görür, onların həyatdan və insanlardan sonra yarandığını xatırladaraq yazırdı: "Əfsanə sözündən qorxmaq lazım deyil, hər hansı bir əfsanə olursa olsun, biz onda həqiqət şəfəqləri görməliyik. Çünki onu insan yaratmışdır. Bütün əfsanələr həyat və insan yaranandan sonra yaranmışdır"

Səməd Vurğun bu fikri söyləməkdə haqlıdır**. Əgər hər hansı bir əsəri insan yaradırsa, onu insansız və həyatsız təsəvvür etmək düz olmaz. "Koroğlu" dastanı isə insanla, həyatla birbaşa bağlı olduğundan onda daha çox tarixilik, həyatilik, gerçəklik görmək mümkündür."** [8, 8]

H.Araslı və H.Eyvazovun müəllifliyi ilə 1975-ci ildə nəşr olunmuş VIII sinif "Ədəbiyyat" dərsliyində də "Şifahi xalq ədəbiyyatında janrlar" başlığı altında dastanlardan bəhs olunur. Dərslikdə "Koroğlu" dastanının tədrisinə geniş

yer ayrılmışdır. Belə ki "Koroğlu" dastanı başlığı altında "Dastanın məzmunu", "Dastanın ideyası", "Koroğlu surəti", "Koroğlunun silah yoldaşları", "Qadın surətləri", "Düşmən tipləri", "Yardımçı qüvvələr", "Həmzənin Qıratı aparması" və "Dastanın quruluşu kimi yarımbaşlıqlar verilmişdir.

"Dastanın məzmunu" yarımbaşlığında adından da məlum olduğu kimi dastanın ümumi məzmunu haqqında məlumat verilir: **"Dastan on yeddi qoldan ibarətdir. Bu qolların əsas hissəsi xalq qəhrəmanlarının paşalarla mübarizəsindən bəhs edir. Giriş hissəsində əsərin qəhrəmanı olan Koroğlunun atası Alı kişinin faciəsindən danışılır. Dastanın əsas canı Koroğlunun və onun ətrafında toplanan qəhrəmanların ayrı-ayrı səfərləri və bu səfərlərdə göstərdikləri qəhrəmanlıqlardır. "** [1, 125]

"Koroğlu" dastanından xüsusi bir qol tədris materialı kimi dərsliyə daxil edilməmişdir.Yalnız dastandan olan "Həmzənin Qıratı aparması" qolunun məzmunu və ideyası təhlil olunmuşdur: **"Bu qolda Keçəl Həmzənin kələkbaz bir adam olduğu, təhlükələrdən bacarıqla qurtara bildiyi aydın göstərilir. Bu qolda Koroğlu surətinin bir sıra xüsusiyyətləri daha qabarıq şəkildə verilmişdir. Burada Koroğlunun qəhrəmanlığı, cəsarəti, mərdliyi daha aydın nəzərə çarpır. Onun aşıq paltarı geyib düşmənlərin içərisinə getməsi, məclisdə özünü məharətlə aparması, Toqat paşasını ələ salıb Qıratı ələ keçirə bilməsi, paşaların saysız-hesabsız qoşunları ilə təkbaşına vuruşub böyük qəhrəmanlıqlar göstərməsi sevilə-sevilə tərənnüm edilir."** [1, 128]

İbad Məmmədov "Azərbaycan Müəllimi" qəzetinin 1978-ci il 2 avqust nömrəli buraxılışında "Koroğlu" dastanını tədris edərkən başlıqlı məqaləsi ilə dastanın orta məktəbdə tədrisinin bir sıra mətləblərinə toxunur. Müəllif qeyd edir ki, **"Azərbaycan xalq ədəbiyyatının şah əsərlərindən olan "Koroğlu" dastanı orta məktəblərin VI və VIII siniflərində tədris olunur. VI sinifdə dastanın iki qolu keçilir. VIII sinifdə isə bu əsəri geniş və əhatəli öyrətmək üçün 4 saat vaxt ayrılır."**[3]

Müəllif həmçinin qeyd edir ki, **"...dastanın ilk sovet tədqiqatçısı və naşiri Vəli Xuluflu olmuşdur. O, "Koroğlu" ətrafında yaranmış rəvayətlərin bir çox yerlərdə yayıldığına dair məlumat vermişdir. Lakin, "Koroğlu"nun ilk kamil nəşri görkəmli folklorşünas H.Əlizadənin adı ilə bağlıdır. O, aşıqlarımızdan topladığı bu eposun 14 qolunun, bir çox variantını və bu dastana aid olan 50 müstəqil qoşmanı 1941-ci ildə kitab şəklində çap etdirmişdir. Bununla da H.Əlizadə Azərbaycanda "Koroğlunun nəşri və tədqiqinin əsasını qoymuşdur. VIII sinifdə "Koroğlu" dastanını şagirdlərə geniş şəkildə mənimsətmək üçün xeyli vaxt verilmişdir. Ədəbi-ictimai fikir tariximizdə özünəməxsus yeri olan H.Əlizadə haqqında şagirdlərə həmin vaxtdan səmərəli istifadə etməklə məlumat vermək lazımdır və faydalıdır."**[3]

İbad Məmmədovun verdiyi bilgilər və "Koroğlu" dastanının tədrisinin əhəmiyyəti haqqında söylədikləri şagirdlərin dastanı daha dərindən mənimsəmələri üçün olduqca dəyərlidir. Lakin İ. Məmmədovun məqaləsində bir yanlışlıq da var ki, onu mütləq qeyd etmək lazımdır. Bu da ondan ibarətdir ki, Hümmət Əlizadə 1941-ci ildə "Koroğlu" dastanının 14 qolunu və 50 müstəqil qoşmasını ayrıca kitab halında nəşr etdirmişdir. Həmin kitabda "Koroğlu" dastanının başqa heç bir variantı yoxdur. Məqalədəki "bir çox variantını" ifadəsi artıqdır və şagirdlərə H. Əlizadənin nəşr etdirdiyi "Koroğlu" kitabında (1941) belə bir yanlış məlumatın çatdırılmasına yol vermək olmaz.

1982-ci il nəşri olan, İ.Babayev və C.Əhmədovun müəllifliyi ilə yazılmış VI sinif ədəbiyyat dərsliyində "Dastandan parçalar" başlığı altında "Alı kişi", və "Dəmirçioğlunun Çənlibelə gəlməsi" qolları verilmişdir. Bu qolların tədrisi zamanı şagirdlər Koroğlunun necə mərd cəsur bir qəhrəman olduğunu öyrənirlər. Elə məhz bu səbəbdəndir ki, o öz ətrafına da mərd, cəsur adamlar toplamağı xoşlayar, bundan zövq alardı. Koroğlu Dəmirçioğlunu da bir nalbənd dükanında görür və o da Çənlibelə gələrək Koroğlunun dəstəsinə qoşulur.

"Koroğlu" dastanının tədrisinə 1985-ci il nəşri olan VIII sinif ədəbiyyat kitabında da rast gəlinir. Dərslikdə dastandan "Koroğlu dastanı", "Həmzənin Qıratı aparması" ("Koroğlunun Toqat səfəri"), "Durna teli" ("Koroğlunun Bağdad səfəri"), "Koroğlu dastanının qısa məzmunu" kimi başlıqlar verilmişdir.

ƏDƏBİYYAT

1. Araslı. H, Eyvazov. H - Ədəbiyyat 8-ci sinif üçün dərslik, "Maarif", Bakı-1975, 125 səh.
2. Araslı. H, Eyvazov. H - Ədəbiyyat" 8-ci sinif üçün dərslik, "Maarif", Bakı-1985, 188 səh.
3. "Azərbaycan müəllimi" qəzeti- 1978, 2 avqust.
4. Babayev. İ, Əhmədov. C - Ədəbiyyat 6-cı sinif üçün dərslik, "Maarif", Bakı-1975, 261 səh.
5. Babayev. İ, Əhmədov. C - Ədəbiyyat 6-cı sinif üçün dərslik, "Maarif", Bakı-1982, 259 səh.
6. Musayev. Q - "Ədəbiyyat" 5-ci sinif üçün dərslik-müntəxəbat, "Maarif", Bakı-1967, 126 səh.
7. Qarabağlı. Ə, Aslanov. M - "Ədəbiyyat" 8-ci sinif üçün dərslik, "Maarif"-1967, 239 səh.
8. Sadıq İslam - Koroğlu kim olub. B; Azərnəşr, 1998, 206 səh

ФАРАХ АСЛАНОВА

ПРЕПОДОВАНИЕ ЭПОСА "КОРОГЛЫ" В СРЕДНИХ ШКОЛАХ СОВЕТСКОГО ВРЕМЕНИ

РЕЗЮМЕ

"Короглы" является самый грандиозный монумент слова Азербайджанского народа. Его обучение в средних школах имеет большое значение. В этой статье исследован преподование эпоса "Короглы" в средних школах Советского времени, показаны положными стороны его обучения, обрашено внимание на недостатки. В преподавании дастана (эпоса) "Кероглу" главной целью является воспитание молодого поколения в патриотическом духе и поэтому правильное ознакомление молодежи с "Кероглу" является главным условием. В исследовательских работах в этом направлении велось много поисков, освидетельствований, которые можно использовать в дальнейших исследованиях. Выводы, которые были получены от исследовательских работ основаны многочисленными весомыми фактами. Все факты совпадают с текстом дастана (эпоса) поэтому и были взяты в основу.

FARAH ASLANOVA

THE TEACHING OF THE "KOROGHLU" EPOS DURING THE SOVIET UNION

SUMMARY

Koroghlu is the great literary work which is created by Azerbaijan people. Teaching this at the schools has a great importance. In this article the teaching issuse of the epos Koroghlu was investigated also were depicted the advantages of its teaching and was paid attention to the missed shortcomings. The main purpose of teaching "Koroghlu" epic is, the behavior of the younger generation in the patriotic spirit, that`s why it is an inportant condition for promoting Koroghlu youth correctly. In reseach work was conducted considerable research in this area, which can be used in future studies. The results obtained in research work is based on available scientific evidence. If all evidence in topic of the epic text is overlapping, then they took as a basis.

Rəyçi: Fil.e.d., dos. İslam Sadıq

SƏBİNƏ BAYRAMOVA.
AMİ
rsabina90@hotmail.com

NİSGİLLİ AZƏRBAYCANIMIN NİKBİN GƏLƏCƏYİ

Açar sözlər: Azərbaycan, ədəbi prosses, M.Şəhriyar , poema, söhbət.
Ключевые слова: Азербайджан , литературный процесс , М.Шахрияр , поэма , разговор.
Key words: Azerbaijan , the literary process , M. Shahriyar , poem , conversation.

Azad qardaşım var, onunla xoşam.
Mən gərək sahili sahilə qoşam.
İki bölünməkdən elə qorxmuşam
Çöpü də ikiyə bölmərəm daha.
(Söhrab Tahir)

Bu, ikiyə bölünmüş Azərbaycanım idi. Başı bəlalı o taylı bu taylı Azərbaycanım. 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsi ilə Azərbaycan iki yerə parçalandı. Şimalı Rusiyanın, Cənubu isə İranın tərkibinə qatıldı və bununla da dövlətçilik ənənələrimizə, milli dirçəlişimizə son qoyuldu. Bir xalqı, onun vətənini iki yerə bölərkən heç bu xalqın özünə məhəl də qoyulmadı. Bu ədalətsiz müqavilə, bu ədalətsiz bölgü vətəni parçaladı, ananı baladan, bacını qardaşdan, dostu dostdan ayırdı. Bu ayrılığa Araz çayı şahid oldu və damlaya çevrilərək gözlərdən axdı. Cənubda şahlıq rejimi, fars şovinizmi, şimalda isə bolşevik imperiyası öz müstəmləkəçilik siyasətini yeridirdi. Cənubi Azərbaycanda Azərbaycan dili yasaq edilmişdi, bu dildə məktəblərin fəaliyyətinə, qəzet və jurnalların nəşrinə icazə verilmirdi. Şimalda isə çar Rusiyasının ədəbiyyatımız, mədəniyyətimiz, dilimiz üzərində hökümranlığı dövrü başlamışdı. Ziyalılarımız, onların yaradıcılığı daima təqib olunurdu və bunun nəticəsi idi ki, 1937-ci ildə ölkəni repressiya dalğası bürüdü, vətənin bir çox istedadlı oğulları çar Rusiyasının güdazına getdi, güllə yağışına tuş gəldi. Neçə-neçə Azərbaycan övladı bu siyasətin qurbanına çevrildi. Bütün bunlar ədəbiyyatımızın inkişafında öz ürəkağrıdıcı təsirini göstərməyə bilməzdi. Şair və yazıçılarımızdan dövrün tələbinə uyğun əsərlər yazmaq tələb olunurdu, bu tələbə boyun əyməyənləri isə ağır cəza gözləyirdi. Bütün bunlara baxmayaraq, vətənin ikiyə bölünməsi ilə ziyalılarımız heç cür barışa bilmirdi. Ona görə də hər iki tərəfdə dil, musiqi, bədii ədəbiyyat, poeziya qarşılıqlı əlaqədə öz inkişafını davam etdirirdi. O taydan Mustafa Payan

Vahidin qəzəllərini oxuduğu kimi, bu taydan da Mirzə Fətəli Axundzadə və başqalarının əsərləri sərhəddi aşaraq cənuba gedirdi. Eyni zamanda Əndəlib Qaracadağı, Heyran xanım, Seyid Əbülqasim Nəbati, Məhəmmədbağır Xalxali, Məhəmmədəmin Dilsuz,Mirzə Əbdürəhimbəy Talıbov, Zeynalabdin Marağayi kimi cənublu şair və ədiblərimizin əsərləri də sərhədləri aşaraq şimala gəlir, şer məclislərində, təziyə mərasimlərində oxunur, az miqdarda da olsa, nəşr edilirdi. Bu da onu göstərirdi ki, torpağı böldülər, xalqı ayırdılar, lakin onun ədəbiyyatını bölə bilmədilər. Söz ustaları əllərinə qələm alıb vətənin çətin günündə ona dəstək, arxa-dayaq oldular.

Əsrin əvvəllərində Cənubi Azərbaycan ədəbiyyatında xarici təsirlərə, geriliyə, cəhalətə qarşı maarifpərvər, demokratikfikrlər o qədər gücləndi ki, hətta ömrünü ən çox aşiqanə və ənənəvi qəzəllər yazmağa həsr etmiş şairlər belə qələmini bu tərəfə döndərmiş,xalqa səhər açıldığını bildirən, onun gözünü açmağa çalışan, onu ayılmağa çağıran ictimai mənalı şeirlər yazmışdır. Azad gələcəyə inam, əvvəl-axır zalimlərin məhv ediləcəyinə, qaranlığın çəkilib səhər açılacağına sarsılmaz inam şairlərin ürəyinə xalq və vətən məhəbbətini doldurmuşdu. Bəli, vətən eşqi, xalqa məhəbbət insanın fikrini hərəkətə gətirən, iradəsini möhkəmlədən ecazkar qüvvədir və işıq saçan bu qüvvə cənub şairlərini həmişə ilhamlandırmışdır.

Şimali Azərbaycanda yaşayıb-yaratmış M.F.Axundov, M.Ə.Sabir, C.Məmmədquluzadə, M.Araz, X.Rza Ulutürk, Cənubi Azərbaycanda isə M.Gülgün, S.Tahir, Ə.Tudə, B.Azəroğlu, M.Möcüz, H.Billuri, M.Şəhriyar və başqalarını yalnız və yalnız bir amal birləşdirirdi: vətən həsrəti,vətənin və xalqın taleyi, ayrılıq dərdi, vətən məhəbbəti, yurd sevgisi, vətən yanğısı, bir sözlə, bütöv bir nisgil:

Mən də bir şairəm, sinəsi dağlı,
Ayrılıq nəfəsli, hicran soraqlı.
Vətənin qapısı üzümə bağlı,
Hər axşam bu dərddən alışır sinəm
Vətən həsrətliyəm, el həsrətliyəm.
(H.Billuri)

Füzulim qəmli neydi.
O bir də mi qara geydi?
Yarasına kimlər dəydi,
O sahildə, bu sahildə.
(X.R.Ulutürk)

Mənim də vətənim bir gülüstandır.
Əzəldən varlığım ona qurbandır.
Sözümün ziynəti, şerimin tacı
Könlümün nəğməsi Azərbaycandır.
(Ə.Tudə)

Nə qədər ağırmış dərdin, möhnətin
Ağrıdır sinəmi acı xəyallar.
Araz, dilin olsa, sözün, söhbətin
Min il yazılası bir dastan olar.
(M.Araz)

Cənubi Azərbaycan poeziyasından danışarkən ustad Şəhriyarı mütləq qeyd etməliyik. Çünki Şəhriyar poeziyası başdan-başa vətən həsrətindən, vətən məhəbbətindən yoğrulmuşdur. Bu poeziyanın bünövrəsi yurd sevgisi, ayrılıq dərdi, vətən həsrətidir. Onun yaradıcılığında bir yanğı var. Bu yanğı onu bütün həyatı boyu izləmiş, onunla yaşayıb, onunla da son mənzilə köçmüşdür. Bu yanğı insana bir növ Füzulini, Vidadini, Natəvanı xatırladır. Şairin tədqiqatçılarından olan Əbülfəz Əli Məhəmmədi müsahibələrinin birində qeyd edir: " Şəhriyarın danışığında, yerişində, baxışında sanki bir həsrət, bir nisgil var idi. Bunun bir səbəbi nakam məhəbbəti idisə, digər səbəbi isə xalqının başına gələn faciələr idi".

Mən deyərdim ki, Ulu Tanrı Şəhriyardan bir sevgini aldı. (Sürəyyanı) Lakin ona böyük bir məhəbbət-xalq sevgisini bəxş eylədi. Bir şair üçün bundan böyük xoşbəxtlik ola bilməz, məncə. Şəhriyar vətənin övladı olaraq xalqın taleyinə biganə qala bilməzdi. O, son nəfəsinə kimi Azərbaycan, Azərbaycan dedi, bir gün bakıya gəlib buradakı qardaşları ilə görüşəcəyinə ümid etdi, dörd bənddən ibarət olan aşağıdakı şeiri də bu məqsədlə yazdı, bir gün Bakıya gedib qardaşlarına oxuyacağına inanaraq yazdı. Lakin bu görüş ona heç cür qismət olmadı. Hətta bir dəfə Bakı səfəri haqqında ona konkret vəd verilmiş,vaxtında öz ünvanına gedib çatmayan bir dəvətnamə göndərilmişdi. Lakin səfər baş tutmadı, şairin arzusu ürəyində qaldı. Ömrünün sonuna kimi Bakı həsrətiylə qovruldu, alışdı, yandı Şəhriyar:

Sazımın qəmli simlərində mənim
Bakımın başqa bir təranəsi var.
Sinəmin dar xərabəsində dərin
Bu cəvahirlərin xəzanəsi var.
Sən kimi qardaş öz qarın daşını
Atmayıb, özgə kimsə tutmayacaq.
Qoca Təbriz də yüz min il keçsə,
Bakı qardaşların unutmayacaq.

Güney Azərbaycan ədəbiyyatı deyərkən Şəhriyar, Şəhriyar deyərkən isə "Heydərbaaya salam " poeması yada düşür. Bu poemada lirik qəhrəman uşaqlıq illərini qoynunda keçirdiyi Heydərbaba dağı ilə danışır, ona xitab edir, başı bəlalı xalqın taleyindən doğan narahatlıq onun Heydərbaba ilə söhbətindən görünür. Poemadan göründüyü kimi, Heydərbaba bir dağ obrazıdır. Mən isə düşündüm ki, bu obrazı dağ kimi yox, bütün çətinliklər qarşısında dağ kimi dayanan, bütün faciələrə şahid olan insan obrazı kimi

verim. Düşünək ki, Heydərbaba şairin müasiridir, dostudur, sirdaşıdır və Şəhriyar onunla söhbətləşir, onunla dərdləşir. Bəzən yatmış bəxtindən şikayətlənir, bəzənsə ümidsizliyə qapılaraq heyfsilənir, bəzən də Heydər babadan uşaqlarına Şəhriyar haqqında qəmli əhvalat danışmağı istəyir:

Heydərbaba gün dalıvı dağlasın.
Üzün gülsün, bulaqların ağlasın.
Uşaqların bir dəstə gül bağlasın,
Yel gələndə ver gətirsin bu yana,
Bəlkə, mənim yatmış b.xtim oyana.

Heydərbaba, kəndin günü batanda,
Uşaqların şamın yeyib yatanda.
Ay buluddan çıxıb qaş-göz atanda
Bizdən də bir sən onlara qissə de,
Qissəmizdə çoxlu qəmi-qüssə de.

Poemanın birinci hissəsində Şəhriyar Molla İbrahimin adını çəkir. Misraları oxuduqca aydın olur ki, bu şəxs axunddur və mədrəsədə dərs deməklə məşğuldur. Şəhriyar da o illəri yada salaraq Heydərbabadan Molla İbrahimə salam yetirməsini xahiş edir:

Heydərbaba, Molla İbrahim var, ya yox?
Məktəb açar, oxur uşaqlar, ya, yox?
Xırman üstü məktəbi bağlar, ya yox?
Məndən axunda yetirərsən salam
Ədəbli bir salami-malakəlam.

Poemanın ikinci hissəsinin ikinci bəndində isə vətənin və özünün başına gələn fəlakətləri Yaqub peyğəmbərin oğlu Yusifin başına gələnlərə oxşadaraq özünü Yusif, doğma Azərbaycanı isə Yəqub adlandıraraq belə bir bənzətmə yaradır:

Heydərbaba, çəkdin məni gətirdin.
Yurdumuza, yuvamıza yetirdin.
Yusifivi uşaq ikən itirdin.
Qoca Yəqub,itmişsəm də, tapıbsan.
Qovalayıb qurd ağzından qapıbsan.

Bu olduqca mənalı və doğru həqiqətdir. Qoca Yaqub öz Yusifini uşaq ikən itirdi, ancaq bu Yusif düşməndən betər qardaşların saldığı quyuda qalmadı, onun Yusifin hüsnündən daha artıq gözəlliyə malik olan şeirinin, sənətinin şöhrəti bütün ölkəni bürüdü.

Poemanın aşağıdakı bəndində Şəhriyar xalqın öz səadətini sədəqə şəklində yox, mürtəce qüvvələrə(qurdlara) qarşı igid oğullarının mübarizəsi

sayəsində əldə edəcəyinə inanır, o gözəl əyyamı qəlbindən gələn böyük səmimiyyət duyğusu ilə tərənnüm edir:

Heydərbaba, mərd oğullar doğginən,
Namərdlərin burunların ovginən.
Gədiklərdə qurdları tut, boğginən,
Qoy quzular ayın-şayın otlasın...

Güneyin Heydərbabasından müəyyən qədər danışdıq. Bəs Quzeyin? Bəli, Quzeyin Heydər babası Heydər Əliyev idi. O Heydər baba ki, heç vaxt Azərbaycan ədəbiyyatını ayrı təsəvvür etməmişdir, o taylı bu taylı Azərbaycanı vahid məkan hesab etdiyi kimi, onun ədəbiyyatına da yüksək qiymət verərkən bir bütöv halında vəhdətdə götürürdü.O, rus imperiyasının son dərəcə güclü olduğu bir zamanda, hələ Mərkəzi Komitənin birinci katibi olarkən Azərbaycan Yazıçılar İttifaqında ayrıca bir şöbə yaradılmasına göstəriş vermiş, Balaş Azəroğlunu da həmin şöbəyə müdir təyin etmişdir. Heydər Əliyev Azərbaycan ədəbiyyatında, xalqın yaratdığı ədəbi-mədəni irsə həmişə qayğı göstərmişdir. Fərqi yoxdur, bu, istər Şimali Azərbaycan ədəbiyyatı olsun, istərsə də Cənubi. Onun ustad Şəhriyar haqqında söylədiyi fikirlər olduqca qiymətlidir: ”Şəhriyar poeziyası dövrün ictimai-siyasi, fəlsəfi və ədəbi görüşlərinin əksidir. O böyük sənətkar, klassik-romantik poeziyanın mütərəqqi ənənələri ilə bədii ünsiyyətin qoruyaraq dövrünün novator sənətkarı kimi çağdaş şeirin inkişafında müstəsna rol oynayan yeni ədəbi məktəbin yaranmasına nail olmuşdur”.

Belə bir deyim var: “Yaman günün ömrü az olar“. Azərbaycan xalqı da inanır ki, Qarabağ torpağı daxil olmaqla bütün işğal olunmuş torpaqlarımız düşmən tapdağından azad olacaq, o cümlədən, gün gələcək o sahillə bu sahil birləşərkən ürəyində bu arzunu özüylə qəbrə aparan Şəhriyarın ruhu Araz üstdən boylanaraq sevinəcəkdir:

Nə həsrət, nə hicran olsun.
Qoy birləşib bir can olsun.
Vahid Azərbaycan olsun
O sahil də, bu sahil də.

ƏDƏBİYYAT

1. anl.az, lit.az, kult.az
2. IX sinif Azərbaycan Tarixi
3. Cənubi Azərbaycan Ədəbiyyatı Antalogiyası
4. H.Billuri “Seçilmiş əsərləri”
5. Müasir Azərbaycan Ədəbiyyatı Bakı 2007
6. M.Şəhriyar “Aman Ayrılıq”. Bakı 1966
7. M.Şəhriyar “Seçilmiş əsərləri”

S/BAYRAMOVA

СВЕТЛОЕ БУДУЩЕЕ МОЕГО МНОГОСТРАДАЛЬНОГО АЗЕРБАЙДЖАНА

РЕЗЮМЕ

В 1828 году Азербайджан был разделен на две части. Север примкнул к России, а южная часть осталась в составе Ирана. Настал конец национальным традициям. Этот несправедливый договор разлучил мать с детей, брата с сестрой, а друзей с друзьями. Это событие также оказало влияние на литературу. Многие поэты в своем творчестве затрагивали тему южного Азербайджана. Х. Биллури А. Туде , М. Гульгун и т.д. Одним из них был. М. Шахрияр основой его творений являлась тоска по дому. В поэме Гейдар Бабая салам мы можем видеть более ясно.

S/BAYRAMOVA

BRIGHT FUTURE OF MY SUFFERING AZERBAIJAN.

SUMMARY

In 1828, Azerbaijan was divided into two parts. North joined to Russia, while the southern part remained part of Iran. Then came the end of the national traditions. This agreement unfair to separate mother and child, brother and sister, and friends of friends. This event has also had an impact on literature. Many poets in his work touched on the subject of South Azerbaijan.

A.H. Billur, Tudeh, M. Gulgun etc. One of them was M. Shahriyar basis of his creations was homesick. we can see more clearly in the poem Heydar Babaya Salam.

Rəyçi: prof. Tofiq Hüseynov

GÜNEL VƏKİLOVA
AMEA Folklor İnstitutu
gunel_novruzova@mail.ru

MİFOLOGİYADA ƏKİZLƏR MODELİNİN DUAL QARŞIDURMALARI

Açar sözlər: *mifologiya, əkizlər mifi, dual qarşıdurma, ağıllı-axmaq əkizlər, doğru-yalan əkizlər, qəhrəman-qorxaq əkizlər.*
Ключевые слова: *мифология, близнецы миф, двойное противостояние, умные-идиот близнецы, истинно-ложные близнецы, трусливые-герой близнецов.*
Key words: *mythology, twins myth, dual confrontation, smart-stupid twins, true-false twins, cowardly-hero twins.*

Məsələnin qoyuluşu: Mifologiyada əkizlər mifinin folklorda təzahür tiplərindən biri özünü dual qarşıdurmalarda göstərir. Əkiz bacı-qardaşlar haqqındakı nağıllarda dual qarşıdurmalar yəni, ağıllı-axmaq əkizlər, doğru-yalan əkizlər və qəhrəman-qorxaq əkizlərin təhlili aparılmışdır. Belə ki, əkiz bacı-qardaş mif modeli folklorda təkcə mənşə təsviri ilə deyil, daha çox münasibətlər problemi ilə təzahür edir. Bu da mifologiyada bütün duallıqların əkizlər mifi kimi izah oluna biləcəyini göstərir.

İşin məqsədi: Tədqiqatın aparılmasında əsas məqsəd mifologiyada əkizlər modelinin dual qarşıdurmalarını araşdırıb, təhlil etməkdir.

Mifologiyada əkiz qarşıdurmaları hər şeydən öncə əkizlərin xarakterindən, daxili aləmindən və ətraf mühitə münasibətindən irəli gəlir.

Əkizlər arasında olan münasibətlər həm iki, həm də üç bacı-qardaşların qarşıdurmaları kimi göstərilir.

Azərbaycan folklorunda əkizlər həm bu modelin məna sıraları, həm da qarşıdurmaları kimi göstərilir.

Nağıl, əfsanə və dastanlarda olan əkizlər modelində qarşıdurmalara rast gəlinir. Bu mətnlər də göstərilən bacı və qardaşlar əkizlik modelinin fərdi xüsusiyyətləri sayəsində qarşıdurmalar yaranır.

Mifologiyada əkizlər mifinin dual qarşıdurmaları dedikdə aşağıdakılar nəzərdə tutulur:

yaxşı-pis (yaxşı-yaman) qarşıdurması;
kişi-qadın qarşıdurması;
işıq-qaranlıq (gecə-gündüz) qarşıdurması;
qəhrəman-qorxaq qarşıdurması;
ağıllı-axmaq (ağıllı-dəli) qarşıdurması;
yuxarı-aşağı qarşıdurması;

doğru-yalan qarşıdurması.

Bu qarşıdurmalar həm mif, həm də folklor mətnlərində çox geniş formada işlənmişdir.

Mifologiyada əkizlər modelindəki ağıllı-axmaq qarşıdurmaları bir sıra xüsusiyyətləri ilə fərqlənir. Belə ki, mifik mətnlərdə əkizlərdən, iki dostdan, iki qardaşdan və yaxudda bacılardan birinin ağıllı, digərinin isə axmaq olduğunun şahidi oluruq. Folklormuzdakı mifik mətnlərdə çox vaxt bir əkizin axmaqlığı nəticəsində düşdükləri çətinliklərdən, məhz ağıllı əkizin sayəsində qurtulurlar.

"Kiçik bacı" (2, səh. 126) adlı nağılda məhz bunun şahidi oluruq. Nağılda göstərilir ki, bir kişi ilə arvadın üç qızı varmış. Kişi səhərdən axşama qədər zəmidə işləyirmiş. Bir gün arvadına deyir ki, mənin üçün kökə bişirib qızla göndərərsən. Arvad bişirib böyük qızla göndərir. Qız yolayrıcına çatanda bilmir, hansı tərəfə getsin. Bu zaman bir quş uçub gəlir və sağ tərəfə getməyini deyir. Kolun arxasında gizlənmiş canavar isə sol tərəfə getməyini deyir. Qız sol tərəfə gedir və yolun sonunda bir koma olur. Burada canavar kökələri alıb yeyir, qızı da zirzəmiyə salır. Ata-ana və bacıları elə bilir ki, qız rəfiqəsigildə gecələyib. Səhəri gün ana ortancıl bacını göndərir. Bu qızda gedib zəmiyə çatmır. O biri gün kiçik bacını göndərir. Bu bacı da gedib kökələri atasına verə bilmir.

Canavar ortancıl və kiçik bacını da bu üsulla tutub, zirzəmiyə salır. Kiçik bacı bacılarını görüb sevinir. Böyük və ortancıl bacı ağlayır, kiçik bacı isə onları sakitləşdirir.

Bir gün canavar qazanda qatran qaynadıb içinə üzük atır. Və bacılara deyir ki, kim bu üzüyü qazandan əli yanmadan çıxarsa, onu zirzəmidən buraxacağam. Böyük bacı da, ortancıl bacı da əlini yandırır. Canavar onları yenidən zirzəmiyə salır. Lakin, kiçik bacı çox fərasətli və ağıllı idi. O, bir taxta parçası ilə üzüyü əli yanmadan qazandan çıxarır. Canavar qıza deyir ki, evdə evdarlığı sən edəcəksən. Kiçik bacı canavarın komasında yaşamağa başlayır. Bütün günü böyük bacılarını zirzəmidən necə qurtaracağını fikirləşir.

Kiçik bacı çox fikirləşib, çıxış yolu tapır. Çubuqlardan iri bir səbət hörüb canavara deyir ki:

- Bu səbətə pay-püş qoyacağam, səbəti səhər tezdən ata-anama apar. Amma bir şey var, yolda səbəti açma ha! Dama çıxıb bütün vaxtı sənə göz qoyacağam.

Canavar razılaşır. Qız bir çəngə güləş götürüb gəlincik düzəldir, əyninə də öz paltarlarını geydirir və qoyur dama. Qız bacıları ilə birlikdə səbətə girir. Canavar səbəti götürüb meşəyə gedir. Yorulub səbəti qoyur ki, açsın qız deyir:

-Baxıram ha səbəti açma.

Canavar səbəti götürüb yoluna davam edir. Fikirləşir ki, görəsən qız bunun içinə nə qoyub ki, səbət bu qədər ağırdı. Yenə səbəti yerə qoyur ki açsın, qızın səsi eşidilir:

- Görürəm, səni görürəm. Səbəti açma, apar.

Canavar fikirləşir ki, buna bax aa, gözləri nə itidir. Canavar səbəti qızların ata-anasının evinə gətirib, qoyur. Özü də meşəyə evinə qaçır. Ata-ana səbəti açıb, qızlarını görüb, sevinirlər. Qızlar canavarın zirzəmisinə düşmələrindən, ordan canlarını qurtarmalarından danışırlar.

Canavar evə gəlib, damda qızın yox, gəlinciyin olduğunu görüb, aldandığını başa düşür.

Bu nağılda verilən kiçik bacı obrazı ağıllı, böyük bacılar isə axmaq kimi göstərilir. Bacılar, məhz kiçik bacının ağlı sayəsində canavarın zirzəmisindən canlarını qurtarırlar.

Folklormuzda olan mifik mətnlərdə işıq-qaranlıq, gecə-gündüz, ağ-qara kimi qarşıdurmalar yaxşı-pis, uğurlu-uğursuz kimi izah olunur. Belə ki, bir çox mətnlərdə görürük ki, qəhrəmanlar işığı qaranlıqdan, gündüzü gecədən, ağı da qaradan üstün tuturlar. Təsadüfü deyil ki, xalq arasında belə bir deyim var: "Gecənin xeyrindənsə gündüzün şəri yaxşıdır". Yəni xalq inancına əsasın, gecə vaxtı, qaranlıqda gələn xeyri bir növ zərərlidir, lakin gündüz vaxtı, yəni işıqlıqda gələn zərər isə özü bir xeyirdir.

Folklormuzda olan bir mifik mətndə göstərilir ki, bir ovçu yaralı ağ ilanın ondan kömək istəməsini başa düşür və arxasınca gedir. Gəlib bir quyunun yanında dayanır. Ovçu quyudan çıxan qara ilanı öldürür və ağ ilanda quyuya girir. Sonda ağ ilan ovçuya bir muncuq verir. Ovçu muncuğu da götürüb evinə gedir. Deyirlər ki bu muncuq həmişə evi və həyəti işıqlandırırmış. (3, 203 səh.)

Başqa bir mifik nağılda göstərilir ki, bir bağban həyətini bellədiyi zaman torpağın altında bir-birinə sarılmış ağ və qara ilan görür. Bağban qara ilanı öldürmək istəyəndə ağ ilanı öldürür. Qara ilan qaçıb gedir. Bağban ağilanı basdırır. İllər keçir bağbanın oğlunun toyu olur. Qara ilan bəy otağına girib gizlənir ki, intiqamını alsın. Lakin hər oğlanı çalmaq istəyəndə həyətdən qonaqların bağbana dualarını eşidir və dayanır.

Bu nağlın sonunda göstərilir ki, qara ilan o zaman bağbandan əl çəkir ki, kəndin ağsaqqalı onun sevgilisi ağ ilanı dirildir və özünü də cavanlaşdırır. (3, 216-217 səh.)

Nağılda göstərilir ki, bağban düşünmədən qara ilanı öldürmək istəyir. Yəni qara qaranlıq və pislik rəmzi kimi verilmişdir.

Bu mifik nağıllarda da təsvir olunmuş ağ ilanla, qara ilan işıqla-qaranlığın, gecə-gündüzün transformasiyasında verilmişdir. Yəni ağ ilan işığın, gündüzün, qara ilan isə qaranlığın, gecənin təsəvvür nöqtəsi kimi göstərilmişdir.

Mifologiyada əkizlərin xarakteri aydınlıq və qaranlıq arasında dəyişir. Bunu xaricə və daxilə çevrilmək kimi göstərə bilərik. Yəni xaricə çevrilərək aydınlıq, işıqlıq, daxilə çevrilərək qaranlıq xarakterini göstərir. Təbii ki, bu qarşıdurma həm əkizlər, həm də ətrafdakılar üçün fərqli görsənə bilrər.

Apardığımız araşdırmaya əsasən qeyd edə bilərik ki, işıqla-qaranlıq qarşıdurması əkizlər arasında olan xarakterik qarşıdurmadır.

Azərbaycan folklorundakı ağıllı və axmaq (səfeh) qarşıdurması əkizlər modelinin önəmli xüsusiyyətlərindən biri kimi göstərilir. Mifologiyada göstərilən əkiz qardaş və əkiz bacılardan biri ağıllı kimi verilir. Ağıllı olan qardaş və ya bacı əkiz taylarından mütləq öndə göstərilir və əsas obraz olaraq verilir.

Azərbaycan folklorunda olan "Tilsim padşahınının qızı" (1, səh. 42) adlı mifoloji nağılda verilən üç qardaşdan biri məhz ağıllı obrazdır. Padşahın oğullarına etdiyi vəsiyyəti diqqətə almayan həm böyük qardaş, həm də ortancıl qardaş ov üçün günbatana gedir və orada da tilsim padşahın qızına əsir düşürlər. Bu da həm böyük qardaşın, həm də ortancıl qardaşın səfehliyinin göstəricisidir. Nağılda qarı qardaşlara deyir ki, getmə, əgər gedirsənsə, o zaman qızı danışdırmağa çalış. Çünki tilsim padşahın qızı belə bir şərt kəsib ki, kim məni danışdırsa, ona da ərə gedəcəyəm. Böyük qardaşların axmaqlığı burda da aydın göstərilir: onlar qızı danışdıra bilmirlər.

Amma kiçik qardaş böyük qardaşlarından fərqli olaraq atasının vəsiyyətini pozmur. Sadəcə, qardaşlarını xilas etmək günbatana gedir. Kiçik qardaşın ağıllı obraz olması onda göstərilir ki, o tilsim padşahın qızını danışdıra bilir. Sonra da qızın tilsimindən xilas olaraq, öz ağlı sayəsində dar ağacından canını qurtarır. Kiçik qardaş tilsim padşahın qızını alıb, qırx gün, qırx gecə toy çaldırıb, qardaşlarını da götürüb, öz vilayətlərinə qayıtmaq üçün yola çıxır. Yolda böyük qardaşlar kiçik qardaşı aldadaraq quyuya salırlar. Kiçik qardaş yenə ağlı və gücü sayəsində quyudan xilas olur. Quyuda kiçik qardaşın ağ qoçun üstünə atılmasına baxmayaraq, ağ qoç onu qara qoçun üstünə atır. Buna baxmayaraq, kiçik qardaş düşdüyü qaranlıq dünyadan işıqlı dünyaya məhz ağlı sayəsində çıxır. Belə ki, zümrüd quşunun balalarını xilas etməsi, bu quşa ət və su verərək işıqlı dünyaya gəlib çıxması bu obrazın ağlı sayəsində olur.

Sonda bu obrazın öz vilayətini, sarayını və arvadını axmaq qardaşlarının əlindən qurtarması da məhz ağlı sayəsində olur.

Ümumiyyətlə, bu nağılda olan əkiz qardaşlardaki obrazlar məhz ağıllı və axmaq qarşıdurmasını əks etdirir.

Mifologiyada yalançı qəhrəman doğru qəhərəmandan fərqli olaraq bəzi səciyyəvi cəhətlərinə görə daha çox təhlilə ehtiyacı olan obrazdır. Çünki yalançı qəhrəman, həm mifə, həm rəvayətə, həm də yumora daha yaxındır.

"Doğru-yalan" qarşıdurmasının mifoloji kökünə gəldikdə, əkizlər mifinin qarşıdurmalarını xatırlatmaq lazımdır. Məlumdur ki, əkizlər mifinin qarşıdurmalarında tərəflərdən biri müsbət planda təqdim edilib diqqət mərkəzində durduğu kimi, digər qarşı tərəf mənfi planda təqdim eilir. Burada sanki mənfi planda təqdim edilən tərəf digər tərəfin gücünü əks etdirir. Yalançı qəhrəmanın yenilməsi və cəzalandırılması əsas tərəfin sanki yenidən dirilməsinə səbəb olur.

Folklorumuzda qəhrəman-antiqəhrəman əkizlər modelində qəhrəman və qorxaq qarşıdurması özünəməxsus yer tutur. "Göyərçin qızlar" (1, səh.21) mifik nağılında verilən kiçik qardaş obrazı qəhrəman, böyük qardaşlar isə qorxaq obrazını əks etdirmişlər.

Ümumiyyətlə, mifologiyada verilən hər bir mifik mətndə qəhrəman obrazı öz əksini tapmışdır. Belə ki, mətnlərdəki qəhrəman ya ağlı, ya cəsarəti, ya fərasəti, ya da gücü sayəsində əsas obraza çevrilir.

Nəticə. Məqalədə gəlinən nəticə qoyulmuş məqsədin tam araşdırmasını göstərir. Nəticədə folklormuzda olan mifik nağılların təhlili əkizlər modelinin dual qarşıdurmalar verilmişdir.

ƏDƏBİYYAT

1.Allah yıxan evi qızlar tikər. Nağıllar. Bakı. Yazıçı, 1994, 304 səh.
2.Azərbaycan xalq nağılları. Bakı: Gənclik, 1988, 464 s.
3.Əsatirlər, əfsanə və rəvayətlər. Bakı, "Şərq-Qərb", 2005, 304 səh.
4.Əliyev R. Mif və folklor genezisi və poetikası. Bakı: Elm, 2011, 224 s.
5.Kazımoğlu M. Folklorda obrazın ikiləşməsi. Bakı: Elm, 2011, 228 s.
6.Qafarlı R. Mif və nağıl. Bakı: 1999, 442 s.

GUNEL VEKILOV

MODELS TWINS DUAL CONFLICTS IN MYTHOLOGY

SUMMARY

The article, which conflicts with dual smart-stupid gay twink model, true-false and the hero-coward analysis of the twins was gay. Azerbaijani folklore of the mythical tales based on the analysis twins model, this conflict is shown. In mythology, of the text as a mythical clash reflected twins the positive and negative image. The mythical hero texts or white, or courage, or foresight, or is becoming, through the power of the image. The article shown

the hero and anti-hero twins specificity of the model folklore between hero and coward confrontation.

Mythical texts light-dark conflict is explained, like night and day, good and bad. Many texts, we see that the heroes of the light from the darkness, day and night, are superb. Described mythical tales of the white snake, black snake, light, darkness, night and sun, was the transformation. In mythology, characters twins

ГЮНЕЛЬ ВЕКИЛОВ

МОДЕЛИ БЛИЗНЕЦЫ ДУАЛЬНОЙ КОНФЛИКТЫ В МИФОЛОГИИ

РЕЗЮМЕ

В статье, анализ близнецов которая вступает в противоречие с двойной смарт-глупый модели, правда-ложь и герой-трус. Азербайджанские фольклорные рассказы о модели мифических близнецов на основе анализа, представленного в этом конфликте. В мифологии, позитивное и негативное изображение текста в качестве мифического столкновение отраженных близнецов. В статье, показано на фольклорный герой и трус противостояние специфика модели герой, антигерой близнецы.

Мифические текстых светло-темные конфликт объяснимо, как день и ночь, хорошие и плохие. Многие тексты, мы видим, что герои свет от тьмы, дня и ночи, являются превосходным. Описываемые мифическом рассказы о белой змеи, черная змея, свет, темнота, день и ночь, было преобразование. В мифологии, характер близнецами изменений между ясность и темный.

Rəyçi: filologiya elmləri doktoru, professor
Seyfəddin Rzasoy

SEVDA İMANOVA
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutunun doktorantı

"ƏSLİ-KƏRƏM" DASTANINDA MAGİK GÖRÜŞLƏRLƏ BAĞLI OBRAZLARIN TİPOLOGIYASI

***Key words**: folklore, magic, epos, "Asly-Karam", applause, curse, spell, magic, black magic*
***Ключевые слова:** фольклор, магия, дастан, «Асли-Керем», благопожелание, проклинание, колдовство, порча*
***Açar sözlər**: folklor, magiya, dastan, "Əsli-Kərəm", alqış, qarğış, cadu*

"Əsli-Kərəm" dastanında magik görüşlərin zənginliyini ilk növbədə dastan janrının struktur tipologiyası ilə şərtləndirir. Dastan bir janr kimi folklorun bütün başqa janrlarından fərqlənir. Bu, ilk növbədə dastanın məkan-zaman strukturu baxımından folklorun ən iri struktur vahidi olması ilə əlaqədardır. Dastan elə bir janr strukturuna malikdir ki, o, folklorun digər janrlarını da öz strukturu daxilinə ala bilir. Məsələn, Azərbaycan dastanlarında folklorun bütün növlərinin tipoloji əlamətləri var. Burada dramatik növün dialoq, monoloq ünsürlərindən, lirik növün bütün şeir janrlarından istifadə olunur, eləcə də dastanda epik növün əsas əlamətləri inikas olunur. Bunlar, əlbəttə, dastanın formal-poetik tərəfləridir. Dastan bu baxımdan ən əhatəli poetik tutuma malikdir. Ancaq dastanın əsas xüsusiyyəti onun milli düşüncənin ən dərin qatları ilə bağlı olmasındadır.

Nizami Cəfərov yazır ki, "epos", sadəcə, dastan deyil, müxtəlif süjetlər, motivlər verən, mənsub olduğu xalqın ictimai-estetik təfəkküründü bütövlükdə ifadə edən möhtəşəm dastan – potensiyasıdır. Onu tam halında bərpa etmək mümkün deyildir, mövcud mənbələr əsasında yalnız təsəvvür etmək mümkündür ki, həmin təsəvvür ideya-estetik, poetexnoloji, linqvistik və s. komponentlərin üzvi vəhdətindən ibarətdir" (4, 12).

Göründüyü kimi, dastan-epos milli düşüncənin potensiyası, yəni milli-mənəvi dəyərlər xəzinəsi, mənəvi ehtiyatlar sistemidir. Bu sistem minillər ərzində formalaşmışdır. Orada hər bir xalqın milli düşüncə tərzinin ən lazımlı dəyərləri toplanmışdır. Magiya da mifik düşüncənin vacib dəyərlərini özündə əks etdirir. Buna görə də magiya da dastanın yaddaş potensiyasına aid dəyərdir.

Qeyd edək ki, N.Cəfərovun yuxarıdakı fikri mərhum Məhərrəm Cəfərli tərəfindən aşağıdakı şəkildə şərh olunmuşdur: "N.Cəfərovun epos haqqındakı bu fikri mürəkkəb məzmuna malikdir və müasir dövrdə dastana

baxışın əsasında durur. Beləliklə, epos anlayışı aşağıdakı məzmunu əhatə edir:

a) Epos xalqın dastan potensiyasıdır.

Yəni epos dastan düşüncəsinin potensiyası, sənətkarların ifadə etdiyi dastanlar isə sazın, sözün və ifaçılığın vəhdətində əmələ gələn mətndir. Epos həmin mətnləri öz içinə alan, onları bütövlükdə əhatə edən dastançılıq düşüncəsidir.

b) Eposda dastançılığın bütün süjetləri və motivləri cəmlənir.

Yəni hər hansı bir dastan konkret bir süjeti və onun tərkib hissələrini təşkil edən motivlərdən ibarətdirsə, epos bütün dastanların süjetlərini və motivlərini əhatə edən dastançılıq ənənəsi, dastançılığın düşüncə ehtiyatı, xəzinəsidir.

c) Epos xalqın ictimai-estetik təfəkkürünü bütövlükdə əhatə edir.

"İctimai-estetik təfəkkür" cəmiyyətin bədii düşüncəsinin kamilliyini ifadə edir. Estetika – bədii gözəllikdir. Epos düşüncəsində gerçəkliyin bədiiləşdirilmə-sinin estetik sistemi mövcuddur. Hər bir xalqın gözəlliyə öz münasibəti olur. Bədii gözəlliyin milli özünəməxsusluğu xalqın poetik düşüncəsinin bədii təsvir və ifadə vasitələrində ifadə olunur" (2, 6-7).

Beləliklə, dastanlar, etnopsixoloji kontekstdə milli yaddaş ehtiyatlarıdır. Bu yaddaş öz tipologiyası baxımından, əsasən, iki səviyyəni əhatə edir:

1. Qəhrəmanlıq yaddaşı.
2. Lirik-emosional yaddaş.

Dastanlar buna uyğun olaraq iki əsas tipoloji qrupa ayrılır: qəhrəmanlıq və məhəbbət dastanları. Birinci qrup üçün qəhrəmanlıq ruhunun aparıcı olması, ikinci qrup üçün isə lirik-emosional ruhun qabarıqlığı əsas tipoloji əlamətdir.

M.H.Təhmasib Azərbaycan dastanlarını bu şəkildə təsnif etmişdir:

I. Qəhrəmanlıq dastanları.

1. Qədim bahadırlıq nağılları, sehirli nağıllar və əsatiri görüşlərlə səsləşən qəhrəmanlıq dastanları.
2. Tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları.
3. Adi qəhrəmanlıq dastanları.

II. Məhəbbət dastanları.

1. Məhəbbətlə qəhrəmanlığın hüdudlarında dayanan dastanlar.
2. Əsl məhəbbət dastanları.

a) nağıllarla bağlı məhəbbət dastanları;

b) qədim eposla bağlı məhəbbət dastanları;

v) yazılı ədəbiyyatla bağlı məhəbbət dastanları;

q) orijinal məhəbbət dastanları.

3. Məcazi məhəbbətə həsr olunmuş dastanlar.

a) astral dastanlar;

b) rəmzi dastanlar.

III. Ailə-əxlaq dastanları (8, 112).

Göründüyü kimi, bu bölgüdə əsas olan qəhrəmanlıq və məhəbbət dastanlarıdır. Ailə-əxlaq dastanları bu iki təsnifat tipi arasında, bir növ, aralıq mərhələni təşkil edir. Yəni həm qəhrəmanlıq dastanlarının, həm də məhəbbət dastanlarının əsas əlamətlərini özündə daşıyır.

Qəhrəmanlıq dastanları məhəbbət dastanlarına nisbətən daha qədim hesab olunur. Bu cəhətdən qəhrəmanlıq dastanları öz köklərini ilk əcdad haqqında mifoloji eposlardan götürür. Buna görə də qəhrəmanlıq dastanlarında arxaik-mofoloji görüşlərin bədii obraz və motivlər şəklində ifadəsinə daha çox rast gəlinir. Məhəbbət dastanları bu cəhətdən daha çox realistik təsir bağışlayır. Ancaq "Əsli-Kərəm" dastanında elə magik-mifoloji elementlər mühafizə olunmuşdur ki, bunlara hətta qəhrəmanlıq dastanlarımızda da rast gəlinmir. Belə ki, bu dastan tilsim, cadu, sehr kimi magiya elementləri ilə zəngindir. Bu da öz növbəsində məhəbbət dastanlarının qəhrəmanlıq dastanlarından "cavan" olmadığını deməyə də əsas verir.

M.Cəfərli yazır ki, Azərbaycan dastanlarının ümumi kütləsindən məhəbbət işarəsi altında üzvlənmə, ayrılma-diferensiasiya böyük bir proses olmuşdur. Məsələnin bütün mahiyyəti isə iki cəhətin buradakı tədqiq müstəvisində qabardılması ilə bağlıdır:

1. Sevgi-məhəbbət motivi, ələməti qəhrəmanlıq dastanlarına tarixən mənsubdur. Əslində qəhrəmanlıq dastanları öz başlanğıcından həm də məhəbbət dastanları olmuşdur.

Müəllif bu əsəsrdə “Böyük Depresiya” zamanı fermerlərin çıxılmaz vəziyyətinə də toxunub. Steynbek göstərib ki, hadisələrin baş verdiyi böhran dövründə insanlarin əsas qayəsi sağ qalmaq idi. Amma əsəsrin qəhrəmanları olan iki dost Corc və Lenni sadəcə olaraq sağ qalmağı düşünmürdülər. Onların həyata keçirmək istədikləri xəyalları var idi. Məhz bu xəyallar da qarşılarına çıxan cətinliklərlə mübarizə aparmağa onlara güc verirdi.

Əsəsrdə bir çox psixoloji vəziyyətlər, insan münasibətləri öz əksini tapıb.

Rəyçi: Fəridə Allahverdiyeva

filologiya üzrə fəlsəfə doktoru, dosent

AYGÜN YUSUBOVA
Azərbaycan Milli Elmlər Akademiyası akad.
Z.M.Bünyadov adına Şərqşünaslıq
İnstitutunun elmi işçisi

ƏHMƏD NƏDİMİN "DİVAN"INDA BƏDİİ İFADƏ VASİTƏLƏRİ

Açar sözlər: *Nədim, djvan şairi, ifadə vasitələri, ilham*
Ключевые слова: *Надим, Диванный поэт, талмех, каламбур, пропорция, мудрый, ихам, товрия (двусмысленность)*
Keywords: *Nadeem, Divan poet, talmeh, pun, proportion, wise, iham, tovriya (ambiguity)*

X əsrdən başlayarak XIX əsr Tənzimat dövrü ədəbiyyatına qədər davam edən divan ədəbiyyatı şairlərinin yaradıcılığında Şərq poeziyası bədiiyyatının geniş bir yer tutduğunu müşahidə edirik. Onlar bədiiyyatdan formal bir vasiitə kimi deyil yaradıcı bir şəkildə faydalanmışdılar. Bədii ifadə vasitələri bədii dilin əsas tərkib hissəsidir və bir şeiri başa duşmək və şərh etmək üçün yol gostərici bir xüsusiyyətə malikdir. Bu baxımdan klassik türk ədəbiyyatı mövzu və ideya zənginliyi ilə yanaşı forma məzmun bütövlüyünü təmin edən, əsərlərin bədii cəhətdən qüvvətlənməsinə, təsvir olunan duyğuların oxucuya daha qabarıq bir dillə çatdırılmasına xidmət edən bədii ifadə vasitələri ilə oldukca zəngindir. Bədii ifadə vasitələri, bədii təsvir vasitələri kimi divan şeirinin əsas tərkib hissəsidir və əsərin bədii cəhətdən daha da qüvvətlənməsinə xidmət edir. Ədəbiyyatşünaslıqda bəzən poetık sintaksis və ya sintaktik fiqurlar adlandırılan ifadə vasitələri bütöv cümlə və ifadə ilə bağlıdır.

Divan şairləri əsərlərində bədii ifadəni daha təsirli, daha qüvvətli söyləmək, bütün diqqəti onun üzərinə toplamaq üçün fikir və ya duyğularını sual tərzində ifadə edirdilər. Bu bədii üsul ədəbiyyatşünaslıqda bədii sual (istifhəm) adlandırılır. Nədim Divanında bədii sual poetik fiquruna müxtəlif şəkildə müşahidə olunur. Birinci şəkil -mı, mi, mu, mü sual şəkilçiləri vasitəsi ilə meydana gətirilir.

Şərabı atəşinin keyfi ruyun şölələndirmiş
Bu halətlə çırağı məclisi məstanmısın kafir. (1, 294)

Şair bu beytdə sanki atəş rəngli şərabın alovunda üzünü yandırmış, yanaqları qızarmış sevgiliyə səslənərək, "Şən bu halınla sərxoşlar məclisinin işığısan?" - deyir. Bildiyimiz kimi, nitqdə sualdan, hər hansı bir hadisəylə, vəziyyətlə əlaqədar məlumat almaq üçün istifadə olunur. Burada isə şair sevgilidən cavab gözləmir. Bu sualı soruşmaqda məqsədi cavab almaq deyil, şeirdəki bədii ifadəni daha da qüvvətləndirməkdir.

Mən kimsəyə açılmaz idim damənin olsam
Kim görürdü sinəni pirahənin olsam. (2,32)

Bu beytdə istifhəm sənəti "kim?" sual sözü ilə təmin olunmuşdur. Sevgilisini qısqanan aşiq, həyəcan və duyğularından doğan bu hisslərini sual ilə ifadə etmişdir. Bu beytdə "Ətək və köynəyin olsaydım səni heç kəs görə bilməzdi"- deyən aşiq eyni zamanda, sevgili ilə qovuşma arzusunu da dilə gətirmişdir.

Sənə kimisi canım kimi cananım deyü söylər
Nəsən sən doğru söylə can mısın canan mısın kafir. (2,282)

Nədimin məşhur kafir rədifli qəzəlidən almış olduğumuz bu beytdə şair təsvir olunan sevgiliyə "kafir" deyə səslənir. "Sənə bəziləri canım, bəziləri isə sevgili deyir. Doğru söylə, sən nəsən? Aşiqin canısan, yoxsa sevgilisisən?" Verilən nümunədə gördüyümüz kimi, sual şəkilçisi "–mısın " ilə sual sözü " nəsən" birlikdə istifadə olunmuşdur.

Nümunələrdən də gördüyümüz kimi, "Bədii sual heç bir şeyi öyrənmək, məlum olmayanı soruşmaq məqsədi güdmür, əksinə, söz sənətkarına məlum olan bu və ya başqa hadisə ilə əlaqədar fikir təsdiq edilir. Mahiyyəti, meydana gəlmə səbəbi məlum olan bir hadisəni, vəziyyəti, əhval-ruhiyyəni poetik sual şəklində ifadə etmək onun emosional təsirini daha da qüvvətləndirir. (3,159) "

Divan ədəbiyyatında ən çox işlənən bədii ifadə vasitələrindən biri də, bədii təzad (antiteza) adlanır. Llüğəti mənası "zidd", "əks" olan təzad poetik kateqoriyası divan şeirində məzmunca bir-birinə zidd anlayışların, əks mənalı sözlərin qarşılaşdırılması ilə meydana gəlir. Müxtəlif əsrlərdə yaşayıb yaratmış divan şairlərinin əsərlərində bir-birinə qarşı qoyulmuş meyxanə-məscid; ədalət və zülm; xarab və abad; ab (su)- atəş; vüsal və hicran; yalan-doğru və.s kimi əks mənalı sözlərə rast gəlirik. Bu növə ən gözəl nümunələrdən biri də Nədimin aşağıdakı beytləridir:

Sıxılma bezmə gəl biganə yox dəvətımız ancaq
Nədima bəndəniz var bir dahi sultanımız vardır. (2, 272)

Şair beytin ikinci misrasında "bəndə" (qul, kölə) və "sultan" kimi əksmənalı sözlərilə təzad yaratmışdır.

Mən şairəm o qaməti mövzunu doğrusu
Sevməm desəm də bəlkə yalan söylərəm sənə. (1, 274)

Beytdə də göründüyü kimi, bədii təzadı meydana gətirən "doğru" və "yalan" sözləri bir-birinə zidd olan anlayışlardır.

Divan şairləri şeirlərində fikri daha bariz bir şəkildə ifadə etmək, mənanı qüvvətləndirmək, misraların ahəngdarlığını, musiqiliyini artirmaq məqsədilə eyni söz və ifadələrin təkrarından istifadə edər. Ədəbiyyatşünaslıqda bu poetik kateqoriya "təkrir" adlanır. Digər divan şairlərində olduğu kimi, Nədim yaradıcılığında da təkrir sənəti xüsusi yer tutur.

Muradın anlarız ol qəmzənin izanımız vardır
Bəli, söz bilməziz amma bir az irfanımız vardır. (2, 272)

Şairin bu misralarının sonunda "vardır" sözü təkrar olunur. Ədəbiyyatşünaslıqda təkririn bu növünə "epifora" deyilir.

Dəhrin abı ruyisan bu haqdan durdukca dur
Aləm içrə müshəfi-möcız-nişan durdukca dur
Sidre vü Cibrilü Tuba vü canan durdukca dur.
Ey sehi sərvi kərəm bağı cahan durduqca dur.
Gülşəni pür-ziynəti kəvn ü məkan durduqca dur. (1,231)

Nədimin divan şairi Razinin şeirinə yazdığı təxmisdən aldığımız bu parçada gördüyümüz kimi, təkrar edilən "durduqca dur" ifadəsi şeirin təsir gücünü artıran vasitələrdən birinə çevrilir.

Eyd erişsin baisi şövqü cədid olsun da gör
Seyri Sadabadı sən bir kərrə eyd olsun da gör
Guşə guşə mihrlər mehlər bedid olsun da gör
Seyri Sadabadı sən bir kərrə eyd olsun da gör. (1, 243)

Nədim Sadabadda bayram şənliyinə həsr etdiyi bu şərqisində "Seyri Sadabadı sən bir kərrə eyd olsun da gör" misrasını nəqarət kimi bütün bəndlərin sonunda işlədərək təkririn xüsusi bir formasını yaratmış və beləliklə, şeirin emosional təsirini artırmış, oxucuya çatdirmaq istədiyi fikri daha da qüvvətləndirmişdir.

Klassik türk şairlərinin yaradıcılığında tez-tez rast gəldiyimiz ifadə vasitələrindən biri də mübaliğədir. Mübaligə (hiperbola) mənşəyi etibarilə ərəb sözüdür və " şişirtmək, böyütmək, üstünlük vermək" mənasını ifadə edir. Şair oxucunun zehnində qüvvətli bir iz qoymaq məqsədi ilə bir varlığı, bir hadisəni, nəzərdə tutulan fikri, ideyanı həddindən artıq böyük və ya kiçik göstərir. Görkəmli ədəbiyyatşünas Əhməd Kabaklının fikrinə görə, mübaliğənin şərti sağlam zövq və incə zəkadır. (3,200)

Məscidlərinin hər biri bir lüccəyi ənvar
Kandilləri məh kimi leb-rizi ziyadır. (1,85)

Nümunədə gördüyümüz kimi, Nədim İstanbulu vəsf edərkən, "Məscidlərinin hər birini sanki bir nur okeanı, bu məscidlərin işıqları isə ay kimi ağzına qədər işıqla doludur"- deyir. Şair İstanbulun məscidlərini nur okeanına bənzədərkən bu təsvir qarşısında həyəcanlanmış və bu həyəcanın dərəcəsinə görə mübaliğə poetik kateqoriyasında məharətlə istifadə etmişdir.

Güllü diba geydin amma qorxuram azar edər
Nazəninin sayəyi xarı gülü diba səni. (2,352)

Məlumdur ki, mübaliğənin bir sıra növləri mövcuddur. Bunlardan biri də, ədəbiyyatşünaslıqda guluvv dərəcəsində mübaliğə adlandırılır. Bu növə əsasən, hər hansı bir varlıq təsvir edilərkən mübaliğənin ifrat dərəcəsindən istifadə edilir. Yuxarıda verilmiş beytdə Nədim bir gözələ səslənərək, "Ey nazlı sevgilim, gül naxışlı ipək bir paltar geyinmisən, amma qorxuram ki, o ipək paltarın üzərindəki gülün tikanının kölgəsi səni incidər" deyir. Şairin bu beyti mübaliğənin bu növünə tipik nümunədir.

Ədəbiyyatşünaslıqda mübaliğə poetik kateqoriyasının əksi "lilota" adlanır. Lilota yunan sözü olub, kiçiltmək, əhəmiyyətsizləşdirmək, miqyasını kiçiltmək mənasını ifadə edir. Divan ədəbiyyatında bir hadisəni

həddindən artıq şişirtməklə yanaşı həddindən artıq kiçiltmək də lilota vasitəsi ilə mümkündür. Lilota bədii ifadə vasitəsinə aid nümunələrə Nədimin divanında da rast gəlirik.

Şöylə gird olmuş Firəngistan birikmiş bir yerə
Sonra gəlmiş guşəyi əbruda xal olmuş sənə. (1, 273)

Şair bu beytdə Firəngistanın bir yerə yığılıb, sonra da sevgilinin qaşının ucunda xal olduğunu söyləyərək, qüvvətli lilotadan istifadə etmişdir.

Divan şairləri şeirlərində cox tez-tez müraciət etdikləri poetik kateqoriyalardan biri də kinayədir. Kinayə ərəb sözüdür və tənə etmək, toxunmaq mənasını bildirir. Divan şairləri açıq söylənməsi mümkün olmayan duyğularını ifadə etmək üçün bu bədii ifadə vasitəsindən istifadə etmişlər. Onu da qeyd edək ki, kinayə yalnız bu məqsədlə deyil, eyni zamanda ifadəyə zənginlik, rahatlıq qatmaq üçün də istifadə edilir. "Kinayə üçün xarakterik cəhət ondan ibarətdir ki, fikrin ifadə tərzi onun məzmununa, daxili mənasına qarşı qoyulur, ifadəyə, danışığa emosianal təsir göstərilir" (3,165) .

Çeşmi əburya qafadarsan ey zülfü siyəh
Sən də kafirsən o kafirlərə imdadın üçün. (2,315)

Nədim bu beytdə, "Ey zülfi-siyah (qara saç), sən də sevgilinin gözü və qaşı ilə bir başda yerləşdiyin üçün onlarla yaxşı anlaşırsan. Kafirlərə kömək etdiyin üçün sən də kafirsən"- deyir. Bildiyimiz kimi, beytin ilk misrasında istifadə edilən "qafadar"sözünün lüğəti mənası düşüncə baxımından bir-birinə uyğun olan insan deməkdir. Şair, həm saçın, gözün və qaşın eyni başda yerləşməsini (həqiqi məna) həm də, eyni düşüncəyə sahib olmalarını (məcazi məna) işarə etmişdir. Bu beytdə kinayə sənəti vardır. Çünki divan şeirində kinayəli işlənən söz və ya ifadənin biri həqiqi, biri də məcazi olmaqla iki mənası nəzərdə tutulur. Bu sözü və ya ifadəni hər iki mənada dəyərləndirmək mümkündür. Lakin kinayə poetik fiqurundan istifadə edən divan şairi, sözün və ya ifadənin həqiqi mənasını qeyd edərkən, mütləq olaraq məcazi mənasını da nəzərdə tutmalıdır.

Sən kim gəlsin məclisə bir yer mi bulunmaz
Baş üzrə yerin var. (2, 286)

Türk dilində deyimlərin əksəriyyəti məcazi mənada istifadə edildiyi üçün kinayəli sözlər hesab olunur. Bu cəhətdən, Nədimin şeirlərinə də nəzər yetirdikdə kinayə poetik kateqoriyasına aid nümunələrə daha çox rast gəlirik. Çünki Nədim, yaradıcılığında ən çox deyim istifadə edən divan şairləri arasında müstəsna yerə sahib olan bir şairdir. Verilmiş nümunədə "baş üstə yerin var" deyimi ilə şair kinayə sənətindən ustalıqla istifadə etmişdir.

Divan ədəbiyyatında bu poetik vasitələrlə yanaşı hüsnü təlil poetik fiquru da geniş yayılmışdır. "Hüsnü təlil" ifadəsi ərəbcədir, lüğəti mənası isə bir hadisənin yaranma səbəbi (həqiqi) gözəl və eyni zamanda xəyali bir səbəblə əvəz olunmasıdır. Divan şairi həqiqi səbəbi bildiyi halda, onu

inkar edərək, yerinə öz həyacanına uyğun bir səbəb göstərir. Bu poetik kateqoriya ilə əlaqədar görkəmli ədəbiyyatşünas alim Əli Nihat Tərlan demişdir: "Bu sənət şairin daxili dünyasını əks etdirən bir güzgüsüdür " (5.42) .

İsinib cümlə kulub abı-bürudər getdi
Cilvə-riz olsa əcəb mi dönərək arzı səma. (2,266)

Bir qəzəlindən aldığımız bu nümunədə şair, baharın gəlişi ilə soyuq hava isti hava ilə əvəz olunmuş, bütun qəlblər isinmiş, bu hadisənin sevincindən yer və göy dönərək özlərini göstərsələr, heç də təəccüblənilməz-deyir. Məlumdur ki, yer və göyün firlanması bir təbiət hadisəsidir. Şairin qeyd etdiyinə görə özünü göstərmək kimi davranış sərgiləməsi həqiqətə uyğun deyildir. Burada şair ifadəyə gözəllik və incəlik qatmaq üçün bir təbiət hadisəsini həqiqi səbəbinə deyil, xəyali və şairanə bir səbəbə bağlayaraq tərənnüm etmişdir.

Divan şeirində başqa bədii ifadə vasitələri ilə bərabər istifadə olunan poetik kateqoriyalardan biri də "təcahülül-arif" dir. Təcahülül-arif bədii fiquru divan şairləri tərəfindən geniş bir şəkildə istifadə olunmuşdur. Təcahülül-arif ifadəsi də ərəb dilindədir və özünü bilməməzliyə vurmaq mənasını ifadə edir. Divan şairinin bu sənətdən istifadə edərkən mühakimə yürütdüyü hadisə haqqında ya heç bir məlumatı yoxdur, ya da o, bildiyini tamamiylə gizlətməkdədir. Özünü bilməməzliyə vuraraq bələd olduğu bir məsələnin həllini sual formasında oxucuya yönləndirir. Bütün bunları edərkən divan şairləri adətən, təşbeh, mübaliğə və bədii sual poetik kateqoriyalarından faydalanırlar. Ancaq bədii sual sənəti ilə təcahülül- arif sənəti arasında müəyyən qədər oxşarlıq olduğu üçün zamanla bu poetik vasitələr eyniləşdirilmişdir. "Əski türk ədəbiyyatı terimlər sözlüyü" kitabında verilən məlumata əsasən, "Təlimi-ədəbiyyat" adlı əsər yazılana qədər bəlağat kitablarında bədii sual (istifhəm) təcahülül-arif başlığı ilə verilmişdir. Ancaq "Təlimi-ədəbiyyat" adlı əsərindən sonra bədii sual ayrıca bir poetik kateqoriya kimi təqdim olunmuşdur (6,100) . "Bədii sualda misra və ya beytdə hər hansı məna gözəlliyi yaratmaq üçün ümumi sual verilir. "Təcahülül-arif" də isə iki mövzu arasında müqayisə aparılır. Bu müqayisə sual şəklində elə incə qurulur ki, müəllif verdiyi bənzətmədə özünü bilərək, bilməməzliyə vurur. Bu müqayisədəki şairin münasibəti cavabsız qalsa da, onu şeirin məzmunundan bilmək olur" (7,102).

Digər divan şairlərində olduğu kimi Nədimin də divanında təcahülül-arif sənətinə aid nümunələr mövcuddur.

Nədimi zarı bir kafir esir etmiş eşitmişəm
Sən ol cəlladı din ol düşmanı imanmısın kafir. (2,282)

Bu beytdə guya şair, bir kafirin Nədimi əsir etdiyini, ağlatdığını eşitmişdir. O, "Din cəlladı, iman düşməni sənsən kafir?"- deyərək sevgiliyə sual formasında müraciət edir. Sanki ağlayan aşiqin özü olduğunu bilmir. Beləliklə, bu beyt təcahülül-arif poetik vasitəsinin tipik nümunəsidir.

Bədii ifadə vasitələrinin mühüm növlərindən biri də tənasübdür. Tənasüb mənşə etibarilə ərəb sözüdür. Lüğəti mənası uyğunluq və yaxınlıq deməkdir. Ədəbiyyatşünaslıqda bu sənət bəzi hallarda mura`atun-nazir, muvahat, tevfik, telfik, istilaf və.s adlandırılır. Divan şeirində tənasüb ifadə vasitəsi, beytlərdə mənaca bir-birinə uyğun olan sözlərin (zidd olmamaq şərtilə) ardıcıl işlənməsinə riayət edilməsidir. Divan şairləri bu sənət vasitəsilə elmi terminləri; əfsanəvi, tarixi qəhrəmanları; heyvan; bitki, çiçək adlarını və müxtəlif sahələrə aid mənaca uyğun olan sözləri bir beyt içində istifadə edərək, tənasüb sənəti meydana gətirmişlər. Bu poetik vasitəyə Nədimin yaradıcılığında da böyük yer verilmişdir.

Kanı o gecələr o tarablar təranələr
Ey dəf anıb o zövqü döyünməzmisin dəxi. (2,348)

"Ey dəf, o gecələr, o coşqun əyləncələr, o təranələr harada qaldı? İndi o zövqü xatırlayıb döyünməzsən?". Nədim musiqi terminləri olan "təranə" və "dəf" sözlərini bir beyt içində toplamışdır.

Başqa bir misal:

Bezmi şərabdan keçəməm doğrusu Nədim
İşrət təbiətimcə tarab məşrəbimcədir. (8, 271)

Bu beytdə isə verilən "bəzm", "şərab", "tarab" (əyləncə), " işrət", "məşrəb" (içki içilən yer) kimi içki və içki aləmləri ilə əlaqədar olan sözləri bir yerdə istifadə edərək zəngin bir tənasüb nümunəsi yaratmışdır.

Divan şeirində bəzən bir sözün heç bir məqsəd daşımadan mənasından irəli gələn bir tənasüb yaranır. Tənasübün bu növü "ihamı-tənasüb" adlandırılır. Nədimin də şeirlərində buna aid nümunələr vardır.

Bir cam çək ey qönçə -dəhan dəfi xumar et
Çeşmində xəyalın kimi gəl gəşt ü güzar et.
Nəqşın kimi ayinəyi sinəmdə qərar et
Sərd oldu hava çıxma koyundan kuzucuğum. (1, 252)

Şairin bir şərqisindən aldığımız bu parçada "nəqş" sözünün şeirdəki mənası sevgilinin güzgüdəki əksinin güzgünü bəzəməsidir. Bu söz, eyni zamanda bir musuqi nümunəsidir. "Qərar" sözü isə bəzi musiqi parçalarında, daha doğrusu muğamlarda müəyyən yerlərdə durmaq mənasında istifadə edilir. Beləliklə, burada " ihamı-tənasüb" bədii ifadə vasitəsindən istifadə edilmişdir.

Nədim Divanına nəzər yetirdikdə görürük ki, onun ən çox istifadə etdiyi poetik vasitələrdən biri "ləff və nəşr" sənətidir. Lüğəti mənası " büküb toplama və yaymaq" olan "ləff və nəşr" ifadəsi ərəb dilindədir. Bədii təsvir vasitəsi olaraq isə aralarında məna uyğunluğu olan iki və daha çox sözün beyt içərisində həndəsi şəkildə yerləşdirilməsinə deyilir. Ləff və nəşr sənətində beytin birinci misrasında verilmiş qəlibləşmiş sözlərin ikinci misrada izahı qeyd edilir. Bu poetik kateqoriya beyt içində bir-birinin qarşılığı olan sözlərin sıralanışına görə iki yerə bölünür. "Əgər aydınlaşmağa, açılmağa ehtiyacı olan bir söz (ləff) öz aydınlaşdırıcı, izahedici sözü ilə (mənşurəsi ilə) eyni sırada, eyni fəqərədə olarsa, belə növ

nizamlı ləff və nəşr (mürəttəb) adlanır" (7,78) Nədimin aşağıda verilmiş beyti nizamlı ləff və nəşr ikinci misradaki növünə gözəl nümunədir.

Baxın o şux ilə naz u niyaza məşq edəriz
Gülün təbəssümünə bülbülün təranəsinə. (1, 337)

Beytin birinci misrasında "naz" sözünün qarşılığı ikinci misradakı "gül" ilə; yenə birinci misrada yer alan "niyaz" sözünün qarşılığı isə beytin ikinci misrasındaki "bülbül" sözü ilə verilmişdir.

Nümunədən də gördüyümüz kimi, nizamlı ləff və nəşr bədii təsvir vasitəsi beytin ilk misrasında istifadə edilən sözlərin sırası ikinci misradakı qarşılığı olan sözlərin sırası paralel verilir. Nizamsız ləff və nəşr (leff ü nəşri qayri mürəttəb) növündə isə bu sıra çarpaz şəkildədir.

Şəm olmaz isəm bezminə bu suz ilə bari
Dərgahına bir məşəli rövşən olsam. (2,312)

Nədim bu beytində nizamsız ləff və nəşr növündən istifadə etmişdir. Çünki beytdə "şəm-məşəl", "bezim-dərgah", "suz-rövşən" şəklində sıralanış sərgilənmişdir. Göründüyü kimi, sözlərin beyt içindəki yerləri sira ilə deyil qarışıq, çarpazlaşmış şəkildə verilmişdir.

Məlumdur ki, divan şairləri öz sənətkarlıq hünərlərin nümayiş etdirmək üçün bu iham ilə tövriyyə poetik vasitələrindən istifadə etmişdilər. Bədii ifadə vasitələri içində ən çox mübahisə doğuran və bir neçə poetik fiqurla qarışdırılan iham sözü ərəb dilindədir və sözün uzaq mənasını ifadə etməkdədir. Bu poetik vasitə ilə əlaqədar ədəbiyyatşünas alimlərin müxtəlif fikirləri mövcuddur. "Əski Türk Ədəbiyyatı" adlı kitabda verilən məlumata əsasən, bütün ədəbiyyat nəzəriyyəsi kitablarında tövriyyə, iham, istihdam başlığı altında verilən nümunələrin belə qarışdırıldığını, xüsusilə iham ilə istihdamın tərifərinin belə eyni olduğunu müşahidə edirik. Bu üç anlayışın eyni olduğunu nəzərə alaraq, tamamilə toyriyyə bədii ifadə vasitələri ələ almanın daha doğru olduğu qənaətindəyik. (6, 283) "Klassik şərq poetikası" adlı kitabda da iham ilə tövriyyənin eyni ifadə vasitələri olduğu qeyd edilmişdir. (7,74) Görkəmli ədəbiyyatşünas Əhməd Kabaklı da "Türk ədəbiyyatı" adlı kitabında bu iki poetik fiquru (iham ilə tövriyyə) eyni sənət kimi dəyərləndirmişdir. (4,204) Beləliklə, bir beyt və ya misra içində birdən çox mənası olan hər hansı sözün uzaq mənasını işarə etmək tövriyyə sənətidir. Bu sözün lüğəti mənası "örtmək, bir şeyi arxaya atmaq"dir. Bu sənətlə yazılan nümunələrdə şairin söyləmək istədiyini qavramaq, başa düşmək üçün oxucudan iti zəka və xüsusi qabiliyyət tələb olunur. Nədimin də divanında bu sənətə aid nümunələrə rast gəlirik.

Çeşmanının öyrənsəm o kafircə nigahın
Bir lahza Nədimi nigehi pür-fənin olsam. (2,312)

Şair sevgilisinə xitabən, "Gözlərinin kafircə baxışını öyrənsəm də, bir an o hünərli baxışınla həmsöhbət olsaydım" deyir. Bu beytdə "Nədim" sözü həm şairin öz adı, həm də bu sözün lüğəti mənasıyla (*nədim*- dost, məclis dostu, həmsöhbət) istifadə edilmişdir. Beləcə, şair bu beyti yazarkən, iham (toyriyyə) poetik kateqoriyasından faydalanmışdır.

Nədim yaradıcılığında rast gəldiyimiz bədii ifadə vasitələrindən biri də təlmihdir. Azərbaycan ədəbiyyatı tarixində nəzəri cəhətdən izah edilməyən təlmih, həm klassik şairlərimiz, həm də türk divan şairləri tərəfindən tez-tez müraciət edilmiş bir poetik kateqoriyadır. "Təlmih" ərəb dilində bir söz olub "göz ucuyla nəzər yetirmə" mənasını ifadə edir. Təlmih, hər kəsə məlum olan bir əfsanəyə, tarixi hadisəyə, ayəyə, hədisə, hər hansı bir inanca işarət etmə sənətidir. "Divan ədəbiyyatında Süleyman, Yusif, Musa, İsa kimi peyğəmbərlər və onların möcüzələri; Leyli-Məcnun, Fərhad-Şirin kimi məhəbbət qəhrəmanları və əfsanələri; Nəsimi, İbrahim Ədhəm kimi vəlilər və mənkəbələri; adət və ənənələr və s. təlmih mövzuları geniş yayılmışdır" (8,153).

Cila vermiş isə ayinəyi İskəndərə Risto
Mənim sən saykalı ayinəyi rəyi savabımsan. (2, 77)

Beytdə adı keçən Risto (Aristotel), bizim eradan əvvəl Makedoniyada Böyük İskəndər zamanında yaşamış məşhur yunan filosofudur. Qaynaqlarda verilən məlumatlara əsasən, Makedoniyalı İskəndərin müəllimi, atasının dostu və eyni zamanda sadiq müşavir olmuşdur. İskəndərlə olan münasibətləri saysız - hesabsız rəvayətlərə mövzu olmuş və bundan da bir çox divan şairləri faydalannmışdır. Şairin qəsidəsindən aldığımız bu beytdə "Aristotel İskəndərin güzgüsünə necə parlaqlıq veribsə, sən də, mənim doğru fikirlərimin güzgüsünün cilasısan" - deyərək, Aristoteli xatırlatmış və bu vəsilə ilə təlmih poetik vasitəsini yaratmışdır.

Əsdikcə badı sübh pərişansan ey könül
Bənzər əsiri turrayı canansan ey könül. (2, 308)

Nümunə gətirdiyimiz şeir parçasında şair "Ey könül " müraciət vasitəsiylə bədii xitab sənəti yaratmışdır. Ey könül, səhər küləyi əsdikcə pərişan olursan. Çünki səhər küləyi şairə sevgilisinin telinin qoxusunu gətirir. Onu da qeyd edək ki, bədii xitab poetik kateqoriyasına Nədimin yaradıcılığında genış yer verilmişdir. O, şeirlərində "behey zalım", "ey Nədim", "Nədima", "ey hünərli Nədim", "ey qönçə ağızlım", "ey bərraq gövhərə bənzəyən şərab", "ey Nədimin qələmi" və s. xitablardan istifadə edərək əsərin emosional təsirini artırmış və məna çalarlarını qüvvətləndirmişdir.

Divan şairləri gözəl söz söyləməyə, sənətli, bəzəkli misralar yazmağa meyilli olduqlarından bəzən bir beyt içində bir neçə poetik kateqoriyaya aid nümunələrə rast gəlirik. Nədimin də divanında belə beytlər çoxluq təşkil edir.

Əlin qoy sineyi - billurarəhm et aşiqə zira
Bəyaz üzrə bizim də pəncəyi fərmanımız vardır. (2, 272)

Bu beytdə "əlini qoy sineyi- billura" (əlini billur kimi parlaq olan sinənə qoy) ifadəsi "insaf et" mənasında istifadə edilmişdir. Bu ifadə ilə şair kinayə poetik vasitəsini meydana gətirmişdir. Bildiyimiz kimi, aralarında bənzərlik əlaqəsi olan məfhumların birinin digərinə bənzədilməsi ədəbiyyatşünaslıqda

təşbeh adlandırılır. Burada sinə, billura təşbeh edilmişdir. "Əlini sinənə qoy" ifadəsi eyni zamanda "ağ kağız üzərinə qoyulan pəncə" işarəsini də xatırladır. Gördüyümüz kimi, beytdə "kağız" sözü "bəyaz" sözü ilə əvəz edilmişdir. Yəni, şair bənzətmə məqsədi olmadan bir söz yerinə başqa bir söz işlətmiş və beləcə, məcazi-mürsəl (metanomiya) poetik kateqoriyasından istifadə etmişdir. "Sineyi-billur, bəyaz kağız" və "əl-pəncə" ifadələri vasitəsiylə nizamsız ləff və nəşr sənətindən istifadə edilmişdir.

Nədimin yaradıcılığında məna gözəllikləri ilə yanaşı söz gözəlliyinə xüsusilə cinasa da geniş yer verilmişdir. Qeyd edək ki, cinas şəkilcə eyni, mənaca müxtəlif olan sözlərin beyt içində istifadə edilməsidir.

O şuxun sunduğu peymanəyi rədd etməniz əlbət
Anınla böyləcə əhd etmişiz peymanımız vardır. (2, 272)

Məlumdur ki, cinasın bir cox növləri mövcuddur. Nümunə gətirdiyimiz bu beyt "peymanə" və "peyman" cinasları üzərində qurulmuş və əlavəli cinas növünə aiddir. Şəkilcə eynicinsli olan peymanə (qədəh) və peyman (əhd) sözlərindən birinin sonunda istifadə edilən artıq hərf məna fərqliliyi yaratmışdır.

Divan ədəbiyyatı müxtəlif ifadə vasitələri ilə olduqca zəngin bir ədəbiyyatdır. Nədim də klassik şərq poeziyasına yaxından bələd olduğundan divanında bədii ifadə vasitələrinin ən gözəl nümunələrinə rast gəlirik.

ƏDƏBİYYAT

1. Muhsin Macit, Nedim Divanı, Akçağ yayınları,İstanbul, 1996
2. Abdulbaki Gölpınarlı, Nedim Divanı, İnkilap Kitap evi,İstanbul, 1951
3. Ş. Mikayılov, Ədəbiyyat Nəzəriyyəsi, VIII-X siniflər üçün dərs vəsaiti, Maarif, Bakı 1986
4. Ahmet Kabaklı, Türk Edebiyatı, cilt I, Türk Edebiyatı Vakfı yayınları, İstanbul, 2006
5. Ahmet Mermer, Neslihan Koç Keskin, Eski Türk Edebiyyatı Terimlər Sözlüğü, Akçağ yayınları, Ankara, 2005.
6. "Əski Türk Ədəbiyyatı El Kitabı, Grafiker Yayıncılık, Ankara, 2006
7. Mahirə Quliyeva. Klassik Şərq Poetikası, Bakı, Yazıçı yayınları, 1991.
8. İskender Pala, Ansiklopedik Divan Şiiri Sözlüğü, cilt I-II, AkçağYayınları, Ankara, 1989.

ЮСУВОВА АЙГЮИ

СРЕДСТВА ХУДОЖЕСТВЕННОЙ ВЫРАЗИТЕЛЬНОСТИ В ДИВАНЕ АХМЕДА НАДИМА

РЕЗЮМЕ

Средства художественной выразительности являются основным компонентом диванной поэзии и служат усилению произведения с художественной точки зрения. Так как Ахмед Надим был близко знаком с поэзией Востока, он ссылался на имеющиеся поэтические фигуры этой литературы. Таким образом, поэт в своем Диване создал лучшие образцы таких средств художественной выразительности, как художественный вопрос, повторение, художественный контраст, гипербола, хусну талил и так далее. В Диване Надима поэтическая фигура художественного вопроса рассматривается с разных аспектов. Повтор же занимает особое место в творчестве Надима. Повторяющиеся слова и словосочетания превращаются в средства, усиливающие смысл стихотворения. Помимо всего этого, в стихотворениях Надима можно столкнуться с поэтической фигурой гиперболой и с образцами ее нескольких видов. Так как писатели диван любили говорить красноречиво, писать разукрашенные и орнаментированные полустишия, иногда можно встретить в одном двустишии образцы нескольких поэтических категорий. Большое количество таких двустиший в Диване Надима особо привлекло наше внимание.

AYGUN YUSUBOVA

MEANS OF ARTISTIC EXPRESSION IN THE DIVAN OF AHMED NADEEM

SUMMARY

Means of artistic expression are the main components of Divan poetry and serve to strengthen the work from the artistic point of view. Since Nadeem Ahmed was familiar with the poetry of the East, he referred to the existing poetic figures of the literature. Thus, the poet in his Divan created the best examples of such means of artistic expression, as an artistic question, repetition, artistic contrast, hyperbole, Husnu Talil and so on.In the Divan by Nadeem poetic figure of the artistic question is studied from different aspects. Iteration plays a special role in the work of Nadeem. Repeated words and phrases turn into means reinforcing sense of the poem. Besides all this, in Nadeem's poems one can come across with the poetic figure of hyperbole and samples of its several forms. Since the divan writers loved to speak eloquently, and write decorated and ornamented hemistiches, one can sometimes come across with samples of several poetry categories in one couplet. A large number of such couplets in Divan by Nadeem quite catches our attention.

NÜŞABƏ MƏMMƏDOVA
Filologiya üzrə fəlsəfə doktoru
"Naxçıvan" Universiteti
n.memmedova@nu.edu.az

H.CAVİDİN VƏ M.S.ORDUBADİNİN TARİXİ ƏSƏRLƏRİ

Açar sözlər: *tarixi roman, H.Cavid, M.S.Ordubadi, Naxçıvan ədəbi mühiti, ədəbiyyat, tarixi əsər*
Ключевые слова: *исторический роман, Г.Джавид, М.С.Ордубади, Нахчыванская литературная среда, литература, историческое произведение.*
Keywords: historical novel: *H. Javid, M.S.Ordubadi, Nakhchivan literary environment, literature, historical works*

Ədəbiyyatımızın mühüm qolunu təşkil edən tarixi roman xalqın soykökünü, mənşəyini, inkişaf yolunu öyrənməkdə mühüm tərbiyəvi əhəmiyyət daşıyır. "Doğma xalqımızın ulu keçmişini, keşməkeşli taleyini, azadlıq eşqini, milli-istiqlal uğrunda mübarizə əzmini, zəngin mədəniyyətini, eləcə də qılınc və qələm mücahidlərinin, dövlət və ictimai xadimlərin, ədəbiyyat və sənət nümayəndələrinin, bir sözlə, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini əks etdirən tarixi romanlar hər bir oxucunun, xüsusən gənclərin vətənpərvərlik hissinin və milli iftixar duyğusunun yüksəldilməsində misilsiz əhəmiyyətə malikdir"(1, 10).

Ədəbiyyatımızın yeni uğurları sırasında tarixi mövzuda yazılmış əsərləri qeyd etmək vacibdir. C.Cabbarlının «Od gəlini" qəhrəmanlıq dramı, Ordubadinin "Dumanlı Təbriz", Y.V.Çəmənzəminlinin "Qızlar bulağı", "Qan içində" romanları, S.Vurğunun "Vaqif", S.Rüstəmin "Qaçaq Nəbi" dramları bu sahədə atılan ilk addımlar idi. XIX əsrdən əvvəl yazılmış tarixi əsərlər, əsasən, didaktik-əxlaqi mahiyyət daşımış, bu əsərlərdə tarixilik prinsipi gözlənilməmişdir.Tarixi janrın yüksəlişi ölkəmizdə 1930-cu illərə təsadüf edir. Bu illərdən Azərbaycan ədəbiyyatında yeni keyfiyyətli tarixi roman janrının ilk nümunələri meydana gəlmişdir. Sonrakı illər ərzində tarixi roman janrı ətrafında bir sıra müzakirə və mübahisələr olmuş, yüzlərlə məqalə yazılmış, janrın inkişafına diqqəti artırmaq, tələbkarlığı yüksəltmək, tarixiliyi daha obyektiv mənalandırmaq, sənətkarlığı təkmilləşdirmək məqsədi daşımışdır. Həmin illərdə tarix elminin inkişafı sahəsində də bir sıra mühüm nailiyyətlər qazanılmışdır. Bu dövrün yazıçıları da həmin nailiyyətlərə istinad edir və keçmişə müraciət edəndə hadisələri adi bir salnaməçi kimi qələmə almırdılar. "Dumanlı Təbriz", "Döyüşən şəhər", "Gizli Bakı", "Qızlar bulağı", "Qan içində" əsərləri ədəbiyyatımızda tarixi

roman janrının ilk uğurlu addımları olmuşdur. Bu əsərlərdə xalqımızın tarixinin bir sıra əlamətdar dövrləri müvəffəqiyyətlə işıqlandırılmışdır. Naxçıvan ədəbi mühitində də tarixi əsərlər Azərbaycan ədəbiyyatının ümumi inkişafı ilə bir sırada böyümüş və yüksəliş yolu keçmişdir. Tarixi dövrün düzgün verilməsi üçün tarixi sənədlərdən, faktlardan istifadə edilməsi çox zəruri məsələlərdəndir. Lakin bunlara baxmayaraq yazıçı öz təxəyyülündən də istifadə edir. Əgər əsərdə bədii uydurmalar olmazsa, bu zaman həmin sənətkar tarixi hadisələrin qeydiyyatçısı olar. Əsərdə hadisələrin inandırıcı və həyati olması da əsas şərtlərdən biridir. Tarixi əsərlər gənc nəslin tərbiyəsində, vətənpərvərlik hisslərinin yüksəldilməsində böyük bir vasitədir. Ümumiyyətlə, ədəbiyyatın bütün növ və janrlarında tarixi mövzuda yazan sənətkar tarixi dürüstlüyə, həqiqiliyə xüsusi diqqət yetirdiyindən külli miqdarda materialın içərisindən ən zərurilərini seçib istifadə etməlidir. Tarixçi və ədəbiyyatçı mütəxəssislərin tarixi əsərlərə yazdıqları rəylərdə bu mövzuda yazan yazıçının tarixi hadisələri və qəhrəmanları doğru, düzgün işıqlandırdığı, keçmişə və inqilabi hərəkat tarixinə dair həqiqətləri dürüst öyrənib təsvir etmələri qeyd olunmalıdır.

Həmin dövrdə Naxçıvanda dövrün elə böyük, kiçik ictimai-siyasi hadisə və məsələləri yoxdur ki, yazıçıların sənət dünyasında öz əksini tapmasın. XX əsrin əvvəllərində Naxçıvan ədəbi mühitinin görkəmli simalarından biri H.Cavid olmuşdur. H.Cavid Naxçıvandan kənarda yaşadığı illərdə də həmişə buranın ziyalıları və açıq fikirli adamları ilə daim əlaqə saxlamış, məktublaşmış, Naxçıvan ədəbi mühiti barədə onlardan məlumatlar əldə etmişdir. Ən çox məktublaşdığı ziyalılar isə M.T.Sidqi və Q.Şərifzadə olmuşdur.

O, Naxçıvanda olarkən yerli ziyalılar onun başına toplaşardılar. Cavid Naxçıvanın ziyalıları haqqında həmişə iftixarla danışmışdır. Q.Şərifzadənin də ölümü onu çox təsirləndirmiş və kiçik nekroloq çap etdirərək o dövr Naxçıvan ədəbi mühiti barədə fikirlərini söyləmişdir. Bu nekroloqda yazırdı: «Naxçıvan kiçik bir şəhərdir. Lakin az bir zamanda naxçıvanlılar, Naxçıvandakı ziyalılar, ədəbi simalar bir neçə həqiqətpərvərlər və Şərifzadə sayəsində cəhalət qaranlığından qurtuldu. Və bugünkü Naxçıvan, demək olar ki, Qafqazın digər şəhərlərinə nisbətən heç də geridə olmayıb, az-çox düşüncəli, mühakiməli, ziyalı simalar yetirmək ümidini bəsləməkdədir» (2, 238-239).

H.Cavid «Həqiqət» qəzetinin 1910-cu il 4 yanvar, 3 saylı nömrəsində «Naxçıvanda nə gördüm» adlı yazısında qeyd edir: «Rəvayət olunduğuna görə Naxçıvan əski yarımtanrılardan məşhur «Daqyanos»un mərkəzi səltənəti imiş. Demə ki, çox da kiçik yer sayıla bilməzmiş. Naxçıvan 15 il əvvəl cəhalət uyqusundan diksinmək ehtiyacını duydu, maarif dairəsinə

girmək istədi. Milli məktəb təsis etdi, mərhum Sidqi sayəsində çalışıb çapalamağa həvəsləndi, gündən-günə arş irəli» (2, 185).

H.Cavidi ədəbi yaradıcılığının ilk dövrlərindən başalyaraq son əsərlərinə qədər sinfi bərabərsizliyin doğurduğu faciələr düşündürürdü. O, əzənlə əzilənlər arasındakı zidiyyətləri erkən yaşlarından duymuş, ədalətsizliyi, istismarı, zorakılığı, bir sözlə, insanın həyatını zəhərləyən mənfilikləri pisləmiş, tənqid etmişdir. Həm də bu tənqid və inkar mücərrəd mövqedən ümumiyyətlə pisliyə, yamanlığa, mənfiliyə, şərə qarşı mübarizə mövqeyindən aparılmır, sinfi zidiyyətlərin konkret hüdudları, tərəfləri açılıb göstərilməklə ictimai məzmun qazanırdı. Ədibin yaradıcılığına diqqətlə yanaşılsa, asanlıqla görmək olar ki, ictimai cizgiləri dərin və mənalı xarakterlər, problemlər, dramatizm Cavid dramaturgiyasını şərtləndirən cəhətlərdir.

H.Cavid sovet dövründə bir-birinn ardınca bir sıra əsərlərini yaratdı. Həmin dövrdə yazdığı ilk tarixi dramı "Peyğəmbər"dir. H.Cavid "Peyğəmbər"də dinə, inama, əqidəyə münasibət məsələsini qoymuş, özündən əvvəl bu mövzuda yazılan əsərlərdən tamamilə fərqli bir dram yarada bilmişdir. Din müəssisləri haqqında yazmış dünyanın müxtəlif yazıçıları Məhəmməd peyğəmbərə öz fikirlərinin ruporu kimi baxmış və mənsub olduqları ölkə və xalqların müasir istək və arzularının ifadəsinə çalışmışlar. Bu ondan irəli gəlir ki, tarixi şəxsiyyət olan Məhəmməd peyğəmbərin özünün bioqrafiyasında material zəngindir: onun özü sinfi mənsubiyyətcə aşağı təbəqədən çıxmış, "Yetim Məhəmməd" ləqəbini qazanmışdır. H.Cavidin əsərində də Məhəmməd ilk səhnələrdə məhz məzlumların dərdini düşünən, haqsızlığa, ədalətsizliyə qarşı üsyan edən bir xadim kimi görünür. Ona görə də dünyanın bir çox mütəfəkkir şair və yazıçılarının islam dininə, onun müəssisi və müməssili Məhəmmədin həyatına, dövrünə müraciət etmələri təsadüfi sayıla bilməz. Əlbəttə, bunların bəziləri onu mənfi, bəziləri isə müsbət planda işləmişlər.H.Cavidin "Peyğəmbər" əsəri dörd hissədir: Bəsət, Dəvət, Hicrət, Nüsrət. Dramaturq bu hissələrin hər birində qəhrəman Məhəmmədi müxtəlif şəraitdə göstərir, bu və ya digər cəhətdən tamamlayır.

H.Cavidin ikinci taixi dramı "Topal Teymur"dur (1926). Əsər nəsrlə yazılmışdır. İki böyük hissəyə ayrılır: Əmir Teymur və onun ətrafındakılar-Səmərqənd hökmdarlığı; İldırım Bəyazid və onun ətrafındakılar – Bursa hökmdarlığı (Turan). Əsərdə Teymurun müharibələrinə və ümumiyyətlə müharibəyə qüdrətli bir etiraz vardır. Əsərin birinci hissəsindən etibarən Teymur bir tərəfdən fateh, istilaçı, dünya ağalığı fikrinə düşən, qan tökən, möhtəris bir cahangir, digər tərəfdən isə böyük islahatlar aparan, elm, maarif və mədəniyyətin inkişafına çalışan " yaşatmaq, yapmaq, qurmaq, tikmək tərəfdarı" kimi canlanır. Dramaturqa görə, Teymurun əsas faciəsi ondadır ki, bütün tərəqqi və inkişafı cahangirliklə, fatehliklə, müharibə və

qalibiyyətləbağlayır: guya müharibə olan yerdə tərəqqi də var. Deməli, bunun üçün dünyanın hər zaman tirana, müstəbidə və fatehə ehtiyacı vardır.

1935-ci ildə H.Cavid özünün II dövr dramaturgiyasının əsası sayılan məşhur "Xəyyam" pyesini yazır. Məzmun, şeiriyyət, problemlər, tarixilik və müasirlik baxımından dolğun və mənalı çıxmış bu əsər ən yaxşı dramlar üçün təsis olunmuş müsabiqədə mükafata layiq görülmüşdür. Dünyanın böyük söz ustalarından, filosof və alimlərindən biri olan Ömər Xəyyamın şəxsiyyəti, mütərəqqi dünyagörüşü, həqiqət axtarıcılığı, realist düşüncə tərzi, cənnət-cəhənnəm xülyasına qarşı həqiqi həyat konsepsiyasını qoymuş bu adamın tarixi fəaliyyəti həmin dövr yaradıcılığında realizmə böyük sürətlə yaxınlaşan Hüseyn Cavid üçün maraqlı idi.

H.Cavid milli məhdudiyyət bilmədən daim bəşəri, bütün insanlığı düşündürən böyük şair, dramaturq və filofof kimi Azərbaycan xalqının ictimai fikir tarixində özünəməxsus mövqe tutan ölməz sənətkarlardan biridir. Onun əsərlərindəki həyat materialı, bədii məzmun tarix, etnoqrafiya, etika, estetika, fəlsəfə, folklorşünaslıq, ədəbiyyat nəzəriyyəsi, teatrşünaslıq və s. kimi çox rəngarəng fikir sahələri üçün də əbədi, tükənməz bir xəzinədir.

Дюврцн эюркямли сималарындан бири дя Мяммяд Сяид Ордубадидир. M.S.Ordubadi inqilab mövzusunu romanlarında daha geniş əks etdirmişdir. Ədəbiyyatın bütün növlərində yazıb-yaratsa da, romanları ilə daha böyük şöhrət tapmış və tarixi romanın banisi olan Ordubadi sənətkarlıq bacarığını bütün parlaqlığı və dolğunluğu ilə təkrarsız romanlarında nümayiş etdirə bilmişdir. Tarixi keçmişi, xalqımızın tarixinin mühüm, əlamətdar hadisə və qəhrəmanlarını dərindən öyrənib, duyan, sənətkarlıqla əks etdirən ədib roman sahəsində ədəbiyyatımızda özünəməxsus yol açmış, böyük iz qoymuşdur. Ədəbiyyatımızda ilk tarixi roman olan M.S.Ordubadinin "Dumanlı Təbriz"inin (1933-1948) birinci kitabı çap ediləndən (1933) sonra janrın nəzəri problemlərinə maraq artmış və bu gün də davam edən fikir mübadiləsi doğurmuşdur.

"Dumanlı Təbriz"in dörd kitabında oxucu külli miqdarda tarixi hadisə və qəhrəmanla tanış olur, xüsusən Səttar xan hərəkatının əsas mərhələləri, üsyançı kütlələrin nümayəndələri onun gözləri qarşısında canlanır. Xalqın tarixi keçmişi ilə həmişə maraqlanan, bu mövzuda müxtəlif janrlarda onlarla əsər yazan Ordubadi "Dumanlı Təbriz" romanı ilə qədimdən bəri üsyankarlığı, qəhrəmanlığı ilə tanınan Təbriz şəhərinin, Təbriz oğullarının əzəmətli heykəlini ucaltmışdır. XX əsrin ilk illərindən başlayaraq yazıçı İran Azərbaycanında azadlıq hərəkatı ilə əlaqədə olmuş, evində İran inqilabına aid intibahnamə və silah saxladığı üçün hətta həbsə də alınmışdır. M.S.Ordubadi qələmə aldığı dövrü mümkün qədər doğru əks

etdirməyə çalışmışdır. Bunun üçün isə o, müxtəlif tarixi mənbələrə müraciət etmişdir.

"Dumanlı Təbriz" romanı yazıçının yaradıcılıq üslubunu və sənətkarlıq məharətini araşdırmaq üçün də zəngin material verir. Ümumiyyətlə, taixi mövzuda yazan sənətkarlar qələmə aldıqları dövrün hərtərəfli öyrənilməsi və obyektiv təsvir edilməsinə xüsusi diqqət yetirməlidir.

M.S.Ordubadinin tarixi romanlarından sonuncusu "Qılınc və qələm"dir. "Qılınc və qələm" Nizami dövründə geniş təbəqələrin vəziyyətini, ölkənin xarici əlaqələrini, əsrin ədəbiyyat və incəsənətini, sənətkarlarını, dövlət xadimlərini, xalqın azadlıq mübarizələriniəks etdirən bir romandır. Ordubadi əvvəlki romanlarından fərqli olaraq daha uzaq keçmişdən bəhs etdiyindən burada daha ətraflı tədqiqat işi aparmışdır. Əsər külli miqdarda tarixi, elmi, ədəbi məxəzə istinadən yazılmışdır. Nizami haqqında, xüsusilə onun həyatı barədə məlumatın azlığı müəllifi bir çox hallarda öz yazıçı təxəyyülünə sığınmağa vadar etmişdir. Tarixi sənədliklə bədii təxəyyül əsərdə ustalıqla əlaqələndirilmişdir.

Ümumiyyətlə. M.S.Ordubadi əsərdə bir şəxsin taleyi, bir hadisə, bir qısa dövrün konkret mənzərəsini verməklə qənaətlənmir, onun ilhamı bir qayda olaraq məzmun dolğunluğu şərtilə genişlik qazanır.

M.S.Ordubadinin Azərbaycan ədəbiyyatında ilk tarixi roman olan "Dumanlı Təbriz", habelə "Gizli Bakı", "Döyüşən şəhər" əsərlərinin mövzusu tarixi səpkidədir. Daha dəqiq desək, "Dumanlı Təbriz"də XX əsrin əvvəllərində İran inqilabı, xüsusilə Cənubi Azərbaycanda demokratik hərəkat əks olunmuşsa, "Gizli Bakı" və "Döyüşən şəhər"də xalqımızın yaxın keçmişindən alınmış hadisələr təsvir obyekti kimi seçilmişsə, "Qılınc və qələm" isə oxucunu XII əsrə aparır. "Qılınc və qələm"in sonluğu da maraqlıdır. "Dumanlı Təbriz"də hadisələri nəql edənin Nüsrət Hüseynov olduğunu öyrənmək üçün bütün cildləri intizarla, maraqla izləyən oxucu "Qılınc və qələm"də də buna bənzər səhnə ilə rastlaşır. Romanın sonunda bəlli olur ki, ögey qardaşı Əbubəkrə ox atarkən səhvən öz xalası, Əbubəkrin həyat yoldaşı Təliəni öldürən, sonra isə Ələnciq qələsinə sürgün edilən Qutluğ İnanc, eləcə də Xarəzmşah Cəlaləddin tərəfindən həmin qalada dustaq saxlanan Özbək həftələrdən bəri bir-birinə olub-keçənləri danışmışlar. Və bu söhbət "Qılınc və qələm"in süjetini təşkil edir.

Bütün deyilənlərə yekun vuraraq göstərmək olar ki, Azərbaycan ədəbiyyatında tarixi əsərlər son dövrlərdə özünəməxsus inkişaf yolu keçmiş, yeni mövzu, problematika və sənətkarlıq məziyyətləri ilə zənginləşmişdir. Xüsusən Azərbaycan nəsrinin XX əsrin əvvəllərindən diqqət yetirdiyi bir sıra mövzular son dövrün Naxçıvan ədəbi mühitində də önəmli yer tutmuşdur. Sovet dövründə ədəbiyyatımızda toxunulması bir növ yasaq olan

ayrı-ayrı mərhələlərin mühüm hadisələri və görkəmli şəxsiyyətləri Naxçıvan ədəbi mühitində indi daha çox diqqət mərkəzinə çəkilir. Ədəbiyyat tariximizi zənginləşdirən, xalqımızın mənəvi dünyasında əbədi iz salan görkəmli söz ustaları, böyük sənətkar və alimlərin ömür yolu və çoxcəhətli fəaliyyətləri Naxçıvan ədəbi mühitində də tarixi əsərlərin əsas mövzularından biridir. Beləliklə, Azərbaycan ədəbiyyatında tarixi mövzuda yazılmış əsərlər ədəbiyyatımızın ümumi inkişafı, həm də xalqımızın milli özünüdərki üçün mühüm rol oynayır.

İstifadə edilmiş ədəbiyyat

1. Y.Axundlu. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər. Bakı, Adiloğlu", 2005, 549s.
2. Cavid.H.A. Əsərləri. IV cilddə, IV c., Bakı, "Yazıçı", 1985, 318s.
3. Əlioğlu.M.Ə. H.Cavidin romantizni. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975, 214 s.
4. Həbibov İ.Ə. Ədəbi yüksəliş. Bakı: «Bilik» cəmiyyəti, 1985, 62 s.
5. Müasir Azərbaycan ədəbiyyatı. Dərslik, I cild, Bakı., 2007, 500s.
6. Mir Cəlal. F.Hüseynov. XX əsr Azərbaycan ədəbiyyat tarixi. Bakı.,1982,425 s.
7. M.S.Ordubadi. Seçilmiş əsərləri. Bakı., 1975

МАМЕДОВА НУШАБА

«ИСТОРИЧЕСКИЕ ПРОИЗВЕДЕНИЯ Г.ДЖАВИДА И М.С.ОРДУБАДИ»

Р Е З Ю М Е

В научной статье на тему «Исторические произведения Г.Джавида и М.С.Ордубади» проанализированы произведения обоих мастеров, написанных на историческую тему. Здесь говорится о том, что эти исторические произведения являются великим средством в нашей литературе по воспитанию молодого поколения, в повышении патриотических чувств. В статье показывается, что ряд знаменательных периодов в истории нашего народа успешно освещены в исторических произведениях. Исторические произведения в Нахчыванской литературной среде прошли путь роста и восхождения вместе с общим развитием Азербайджанской литературы. Для правильного отражения исторического периода необходимой задачей является использование исторических документов, фактов. Важные события и выдающиеся личности отдельных этапов, освещение которых в нашей литературе в советское время было в какой-то мере запрещено, в настоящее время в

Нахчыванской литературной среде выдвигается в центр внимания. Выдающиеся мастера слова, обогатившиеся историю нашей литературы, оставившие неизгладимый след в духовном мире народа, жизненный путь великих мастеров и учёных и их многосторонняя деятельность являются основной темой исторических произведений Нахчыванской литературной среды. В статье говорится о ряде произведений Г.Джавида, написанных на историческую тему. В том периоде написана первая историческая драма «Пейгамбер» и вторая историческая драма «Хромой Теймур» (1926), в 1935-ом году написана пьеса «Хаййам». Основоположник исторического романа Ордубади продемонстрировал свое мастерство в неповторимом романе.

MAMMADOVA NUSHABA

"HISTORICAL WORKS OF H.JAVID AND M.S.ORDUBADI"

SUMMARY

In the scientific article written on the theme "Historical works of H.Javid and M.S.Ordubadi" the works on historic consept of both of the artists have been analyzed. The author touched upon the the importance of historical works in bringing up, edudating and promotiong the feeling of partiotism in young generation. The article deals with the facr that some historical periods of our nation has successfully highlighted in the epic works. The historic works of Nakhchivan literary environment has grown along with the development of Azerbaijani literature and has gone the way of progress together. For giving the correct historical dates the use of the documents and facts is one of the necessary issues. In Soviet times, the separate parts of the literature were banned to be touched.The important events and prominent personalities of those banned periods are kept much more in the center of attention today in Nakhchivan literary environmentr. Life and manifold activities of the masters of the word, great artists and scholars who enriched the literary history and spiritual world of our people is one of the main topics of epic works in Nakhchivan literary environment. The article deals with a number of historical works written by H.Javid. At the period he wrote his first historical drama "The Prophet", the second epic tragedy is "Topal Timur" (1926),in 1935 the play "Khayyam". M.S.Ordubadi who is the founder of the historical novels could demonstrate his master ability in unique historical novels.

Rəyçi: prof.Əbülfəz Quliyev
AMEA-nın müxbir üzvü

KİFAYƏT MƏMMƏDOVA
AMEA Nizami adına
Ədəbiyyat İnstitutunun elmi işçisi

QULAMRZA SƏBRİ TƏBRİZİNİN MÜASİR ƏDƏBİYYAT HAQQINDA DÜŞÜNCƏLƏRI

Key words: *oeuvre, well-known, literature, criticism, publicism.*
Ключевые слова: *творчество, известный, литература, критика, публисистика.*

Azərbaycanln tanınmış şairi Qulamrza Səbri Təbrizi hərtərəfli ziyalıdır. Onun zəngin və dərin mənalı ədəbi fəaliyyəti buna gözəl sübut ola bilər. Ədəbiyyatın, tarixin və cəmiyyətinin elə bir məsələsi olmamışdır ki, o barədə fikri, mülahizəsi olmasın. Onun tarixi və ədəbiyyatının bu və ya digər hadisəsi haqqındakı mülahizələri həmişə cəmiyyəti maraqlandıran, milli inkişafınının zəruri milli məsələləri ilə bağlı olmuşdur. Yəni o, tarixi də, ədəbiyyatın məsələlərini də böyük ustalıqla dövrün ictimai-siyasi həyatı ilə bağlaya bilir. Q.S.Təbrizi yazır: "Xalqın hər nəslinin münəvvərləri tarixə, yaşadıqları dövrün bədii təfəkkürünün yaratdığı məhsullara münasibətlərini müxtəlif şəkillərdə, rəngarəng vasitələrlə açıb ortaya qoyurlar. Bu baxımdan elmi və nəzəri ədəbiyyatda sadəcə olaraq tənqid adlanan janrın çiyinləri üzərinə düşən yük çox siqlətli olur. Tənqid elə bəsirət gözünə malik olmalıdır ki, onun nəzərləri həm keçmiş dövrlərin qatlarında olan incilərə nüfuz edə bilsin, həm onun yaşadığı günlərdə yaranan ədəbi-bədii əsərlərin xalqa nə səviyyədə xidmət etdiklərini məhək daşından keçirə bilsin. Bir də, əlbəttə, bu günün zəka və dərrakə karvanının keçməli olduğu mənzillərin aydın mənzərəsini yarada bilsin" (8, 60).

Azərbaycanın istiqlaliyyət əldə etməsi ilə tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın tədqiqi və təbliğində hökmran olan ənənəvi streotiplərin və yasaqların aradan qalxması şübhəsiz ki, "Kitabi-Dədə Qorqud" eposunun araşdırılması tarixində yeni bir mərhələnin əsasını qoymuş oldu. Qısa bir müddət ərzində dastana tamamilə yeni prizmalardan yanaşılmağa başlandı, onun əvvəllər təfsiri mümkün olmayan cəhətlərinə diqqət yetirildi. Ötəri müqayisə aparılarsa, ötən illərin tədqiqatları ilə son illərin araşdırmaları arasında ciddi fərqlərin olduğu dərhal üzə çıxar. Bu hər şeydən əvvəl, eposun sosial-siyasi, ideya-məfkurəvi, dövlətçilik, vətənpərvərlik və s. aspektlərdə təhlilinə meyl və marağın artması ilə müşayiət olunmaqdadır, "Kitabi-Dədə Qorqud" ensiklopediyasının yaranması da müstəqil dövlətçiliyin qorqudşünaslığa gətirdiyi yenilik kimi səciyyələndirilə bilər.

Q.S.Təbrizi də "Kitabi-Dədə Qorqud" dastanına biganə qalmamış və ona müasir prizmadan yanaşaraq "Qorqud xarakteri və Türk ruhu" məqaləsini dərc etdirmişdir. Məqalədə Q.S.Təbrizi deyir: "Hər şeydən əvvəl, Dədə Qorqud öz zəmanəsinin məhsuludur və bunu nəzərə almadan onun xarakteri haqqında fikir yürütmək yanlış nəticələrə gətirib çıxara bilər. Dədə Qorqudun ideyaları insanlığın əsrlərcə susdurulmuş harayı, xalqların qəlblərindəcə məzara çevrilən arzuları, ümidləridir ki, bu dastan qəhrəmanının şəxsində vulkan kimi püskürərək tarix səhnəsinə çıxmışdır. Demək olar ki, tarix Dədə Qorqudun simasında canlanaraq hərəkətə gəlir, türkün keçmişini və gələcəyini öz bətnində yetirərək körpə kimi dünyaya gətirir. Dədə Qorqud dastanları bu ideyalardan qay-

naqlanaraq IX-XI əsrlərdə Oğuz türkləri arasında yayılmağa başlamışdır. Dədə Qorqud yer üzündə tarixin yaşayan ruhudur. İnsanın dahiliyi, yaradıcılığı, Allah mənbəyidir. O, bir ruhani insandır ki, insanlığın eybəcər keyfiyyətlərinə qarşıdır. Bir ruhani xüsusiyyətdir ki, nə elmləri, nə millətləri, nə də ayrı-ayrı kültürləri qarşı-qarşıya qoyur. O, əsrlər boyu yaradıcılığın konsepsiyasıdır. Başqa sözlə, Dədə Qorqud dəyişməyən qüdrət, xüsusiyyətdir insanlıq tarixində. O, yaradıcılıq qüdrəti, insani keyfiyyətləri, məhəbbəti yer üzündə cəm edir. Bir sözlə, o, türk xalqlarının ruhani atasıdır" (8, 13, 14).

Vətənpərvərlik duyğuları Q.S.Təbrizinin bütün yaradıcılığında ifadə olunmuşdur. Onlar xalqın həyatını yaxşılaşdırmaq, zəmanənin hərəkəti, tərəqqi və inkişafı ilə ayaqlaşmasına kömək etmək məqsədilə yazılmışdır. Onda atəşin bir ürək döyünür: vətəni, xalqı sonsuz bir məhəbbətlə sevən vətəndaş ürəyi! Çox maraqlı və qiymətlidir ki, Q.S.Təbrizidə vətənpərvərlik duyğuları ümumbəşəri hisslərlə vəhdət təşkil edir, bütün insanlığa, bütün xalqlara mühəbbəti ifadə edən dərin humanizmlə aşılanmışdır. Q.S.Təbrizi insan adını yüksək tutur, insaniyyəti bütün dini və irqi təəssüblərdən uca və müqəddəs sayır. Onun bütün həyatı və yaradıcılığı üçün səciyyəvi olan budur.

Müasir bədii-ideoloji hərəkatda, mövcud əxlaqi-tərbiyəvi sistemdə hər şeyi müasirliyin qlobal problemləri səviyyəsinə qaldırmaq, tarixi də, keçmişi də məhz müasir bədii düşüncə və oxucu təfəkkürü üçün konkret xeyri, mənası baxımından tədqiq və təhlil etmək qarşıda birinci dərəcəli vəzifə kimi durur. Ədəbiyyatşünaslıqda indiki müasirliyin ifadəsi və əlaməti də elə odur ki, onun həyata müdaxiləsi getdikcə daha fəal intensivlik kəsb edir, müasir mənəvi sərvətlər sistemində rolu artır, həqiqi böyük ədəbiyyatşünaslıq bu məqsədə həm bilavasitə müasir ədəbi prosesin, həm də klassik bədii təcrübənin materialında nail olur. Q.S.Təbrizi "Müharibə və ədəbiyyat" məqaləsində yazır: "Şair, yazıçı xalqdan ayrı yaşaya bilməz, yaşasa da əsl yazıçı ola bilməz. Çünki hamımız bir vücudun üzvüyük: o da insanlıqdır. Bir hiss məndə ermənilərin Azərbaycanın torpaqlarına son illərdə təcavüzü zamanı Xocalı soyqırımı törədiləndə yaşandı. Amma bu dəfə daha dərdli yaşadım bu faciəni. Çünki burada ümuminsani məsələlərlə yanaşı, mənim millətimin faciəsi dayanır gözüm qarşısında. Amma əlim yetməyən yerlərdə mənim minlərlə soydaşımı məhv etdilər, yurdundan-yuvasından didərgin saldılar. Əlimdən bir şey gəlmirdi ki, bunun qarşısını alam, millətimə kömək edəm. Amma bir yazıçı olaraq qələmimi ox eləyib radio və televiziya vasitəsilə düşmənin ürəyinə sancırdım. BBS və digər televiziyalar vasitəsilə deyirdim ki, bir məzlum millət rus imperiyasının başçılığı və erməni nökərçiliyi ilə tapdalanır" (9, 71).

Q.S.Təbrizi Azərbaycan ədəbiyyatını və mədəniyyətini qiymətli əsərlərlə zənginləşdirmiş yazıçıdır. O, Azərbaycanın azadlığı və səadəti üçün yorulmaz bir qüvvətlə çalışmış, həyat və təfəkkürün köhnəlmiş, mürtəce cəhətlərinə qarşı barışmaz mübarizə aparmışdır. Onun əsərləri dərin ideyalılıqla yüksək bədiiliyin nümunəsidir. O, zəmanəsinin qabaqcıl adamı olmuş, cəmiyyəti maraqlandıran ən canlı məsələlərlə yaşamış, mübarizələrin içində böyümüş, xalqının tarixini, həyat və arzularını çox gözəl bilmiş, bəşər mədəniyyətinin ən yaxşı nümunələrini mənimsəmiş və həmişə insanı irəli aparan, insan fikrini ucaldan, ürəyində nəcib humanizm duyğuları oyadan ictimai şəraitin tənənəsi üçün çalışmışdır.

Q.S.Təbrizinin əsərlərində təqdir etdiyi gözəl estetik keyfiyyətlərdən biri də təbiilik və səmimilikdir. Sünilikdən uzaq bu əsərlər adama səmimi təsir bağışlayır. Orada qeyri-təbii, boğazdan yuxarı deyilmiş bir söz belə yoxdur. Bütün ifadələr, fikirlər və obrazlar, bədii ifadə vasitələri yaradıcının həyəcan və iztirablarından, həyatla, insanlarla əlaqəsindən, düşüncə və xəyallarından doğmuşdur, müəllifin daxili aləmini ifadə edir.

Buna görə də onun əsərlərində süni və qeyri-təbii səslənən heç bir şey yoxdur. Görünür Q.S.Təbrizinin fikirlərinin bu qədər səmimi və təbii olmasında onun şəxsiyyəti az rol oynamamışdır: "Azərbaycana gəldim və onun ictimai-siyasi, mədəni həyatında fəal surətdə iştirak etdim. Diaspora üçün iqtidar, müxalifət yoxdur, Azərbaycan dövləti, Azərbaycan mətbuatı, Azərbaycan xalqı, onun milli maraqları var. Mən Güney və Quzey Azərbaycanın tarixini, mədəniyyətini yazan ziyalılara minnətdaram. Milli mətbuatda məhz belə ziyalılar, millətini, Vətənini sevən soydaşlarımız çalışmalıdırlar. Məhz bu ziyalıların fəaliyyəti nəticəsində Azərbaycan dili inkişaf edib, milli-mədəni sərvətimiz, milli varlığımız qorunub saxlanıb. Güneyli soydaşlarımızı, görkəmli ziyalılarımızı, milli mətbuatın fəallarından olmuş Mir Cəlal Paşayevin, Mirzə İbrahimovun, Nəsir İmanquliyevin, Süleyman Rüstəmin, Qulam Məmmədlinin, Qafar Kəndlinin, Balaş Azəroğlunun, Söhrab Tahirin və b. adlarını məmnunluq duyğusu ilə xatırlayıram" (8, 67).

Q.S.Təbrizinin sənət baxışına görə, həyat və varlıqdan yazmaq, yaratdığı surətlərin mümkün qədər naturaya yaxın olmasına çalışmaq yazıçının istedadına zərər vurmur, əksinə, xeyir verir. Əksinə, mücərrəd aləmə qaçmaq, xəyali və qeyri-tipik hadisələr və şəxsiyyətlərin təsviri ilə məşğul olmaq həqiqi istedad üçün qüsurdur. Çünki Q.S.Təbriziyə görə, insanda istedaddan kənar amillər nə qədər yüksəkdirsə, bir o qədər həmin şəxs əsrinin övladı, dünyasının vətəndaşıdır. O, yaradıcılığında mənsub olduğu xalqın və ölkənin həyatını, zəmanə və əsrinin ideal və qayələrini əks etdirməlidir. Bunun üçün onun həyatı düzgün göstərməsi lazımdır.

Q.S.Təbrizi bədii yaradıcılıqla realizm, xəlqilik və ideyalılıq tələblərini dərindən əsaslandırmış və elmi-tədqiqat əsərləri ilə bu sahədə yeni bir dövr açmışdır. O, Cənubi Azərbaycan ədəbiyyatının ayrı-ayrı yazıçılarına həsr etdiyi "Səməd Behrəngi yaradıcılığında humanizm", "Mühacirət, yaxud ömrün qrüb çağları", "İrəc Mirzə kimdir" , "Fikir mücəssəməsi", "Böyük mütəfəkkir" , "Şərq və Qərb kültürünün vəhdəti və ayrılıqları" kimi dərin mənalı məqalələr yazmışdır. Bu əsərlər müasir Cənub ədəbiyyatımızın istər o zamankı, istərsə də sonrakı inkişafında, həyatı düzgün göstərməsində, ictimai mühitini və əsrin ən canlı aktual məsələlərini əks etdirməsində müstəsna rol oynamışdır.

Q.S.Təbrizi ayrı-ayrı yazıçıların yaradıcılığını təhlil edərkən həmişə onu ədəbiyyatının taleyi ilə bağlayır, sənətin aktual və mühüm məsələlərini qaldırır və həll edir. Burada onun xalqına, vətəninə olan sonsuz məhəbbəti, humanizm və yüksək azadlıq idealları əsas istiqamətverici rol oynayır: "Azərbaycanın Cənubunda yaranan zəngin ədəbiyyatımız ciddi, sistemli şəkildə tədqiq olunmadığı üçün onun ümumi mənzərəsinə hələ də aydınlıq gətirilməmişdir. Başqa sözlə, bu ədəbmyyatı yaradanların şəxsiyyəti və ədəbi kimliyi dəqiq müəyyənləşdirilməmişdir. Məhz bunun nəticəsidir ki, bir çox Azərbaycan klassikləri İran ədəbiyyatına həsr olunmuş tədqiqatlarda dil faktoru əsas tutularaq fars mədəniyyətinə aid edilmiş, onlar yanlış şəkildə dünyaya təqdim olunmuşdur. Bunlardan biri də İrəc Mirzədir. İrəc Mirzə poeziyası həqiqi mənada vətənpərvərlik poeziyasıdır. Tədqiqatçılar onun şeirlərini ənənəvi poeziya nümunələrindən məhz bu keyfiyyətinə görə fərqləndirirlər. Xüsusilə, İrəc Mirzənin şeirlərinin satirik yönümü daha qabarıq nəzərə çarpmaqdadır. Satirik şeirlərində Cənubi Azərbaycan və İran xalqının məişətində təsadüf olunan nöqsanları ciddi tənqid obyektinə çevirən şair mənsub olduğu millətin azadlıq və hürriyyətə qovuşması yolunda əngəl olan cəhətləri bir vətəndaş qeyrəti ilə aradan qaldırmaq arzusu ilə yaşadığını göstərir. O, bu tipli şeirlərində dini fanatizmi, varlıların zülmkarlığını, xaricilərin ağalığını kəskin şəkildə tənqid etmişdir" (9, 47, 48).

Q.S.Təbrizi ürəkdən arzu edir ki, insanın həyatı yaxşılaşsın, təmiz və gözəl olsun. O, dövründəki adamları, onların ağır həyatını dərindən öyrənməyə çalışır. O, yaşadığı cəmiyyətin həyatında baş verən hadisələri izləməklə qalmır, təhlil edir, ümumiləşdirir, nəticə çıxarır, münasibətini bildirir və beləliklə də mübarizədə iştirak edir. Q.S.Təbrizi çox müasir yazıçıdır. Bu cəhətdən o, Azərbaycan ədəbiyyatının ən gözəl ənənəsini davam etdirirdi. Onun əsərlərinin əbədi yaşamasının bir sirri də zəmanəsini əks etməsidir. Zəmanə ilə mənəvi bağlılıq, cəmiyyətin həyatını, mübarizəsini, ideallarını əks etmək sənətdə yalnız ideoloji problem deyil, həm də estetik problemdir. Q.S.Təbrizi "Qulamhüseyn Saedi yaradıcılığında sosial-mənəvi problemlər" məqaləsində yazır: "Yenə həmin səpkidə yazılmış "Bəyəldə yas" əsərində Qulamhüseyn Saedi bir kəndin timsalında xalqın ağır həyatını əks etdirir. Xalq ədəbiyyatından bəhrələnən yazıçı bu əsəri dastan üslubunda qələmə alıb. Bu dastanların hər birində yazıçı kənd camaatının üzləşdiyi müxtəlif problemlərə diqqət yönəldir. Məsələn, yazıçının dastanlarının birində kənddə həkim olmadığı üçün eşşəyin belində şəhərə aparılan və xəstəxananın qapısındaca canını tapşıran naxoş bir qadının acı taleyi təsvir olunur. Qulamhüseyn Saedi Molla obrazının simasında, bir tərəfdən cəmiyyəti həşərat kimi saran, müftəxorluq edən təbəqənin ümumiləşmiş surətini yaradır, həm də göstərmək istəyir ki, İran deyilən məmləkətdə şəriət adına cürbəcür oyunlar çıxarılması, dinin hərraca qoyulması adi haldır. Bu mənzərəyə hər bir kənddə, hər bir əyalətdə rast gəlmək mümkündür. Qulamhüseyn Saedini başqa yazıçılardan fərqləndirən əsas cəhətlərdən biri onun ictimai və insani dəyərlərə əhəmiyyət verməsidir. Onun tənqidi-satirik üslublu yazıları kütləni hərəkətə gətirir, onu ayıldır, öz haqqı-hüququ uğrunda mübarizəyə səsləyir" (8, 31, 32).

Tarixi şəxsiyyətlərin fəaliyyəti yalnız irəli sürdükləri fikir və ideyaların böyüklüyü, qabaqcıllığı ilə deyil, bir də zamanın şəraiti ilə, hansı maneələri aradan qaldırması, hansı müqavimətləri qırıb, hansı əks-qüvvələrlə mübarizəyə girişməsi ilə ölçülür. Bu cəhətdən də Q.S.Təbrizi bizim nəzərimizdə bir mübariz kimi canlanır. O, yalnız mütərəqqi ideyalarına carçısı olmaqla qalmamış, bu ideyalara qarşı çıxan mürtəce və qaragüruhlarla mərdanə və qəhrəmancasına mübarizə aparır. O, Səməd Behrəngi haqda deyir: "Qeyd edək ki, Səməd Behrəngi yaradıcılığa başlayan kimi dərhal geniş oxucu kütlələrinin diqqətini cəlb elədi. Bəs bunun səbəbi nəydi? Hələ sağlığında o, Güney Azərbaycanın ayrı-ayrı şəhər və kəndlərində şöhrət tapmış, adı dillər əzbərinə çevrilmişdi. Yazıçının nakam ölümündən sonra əsərlərinin nəşri istər Cənubi Azərbaycanda və İranda, istərsə də dünyanın müxtəlif ölkələrində böyük maraq doğurdu. Bəs necə oldu ki, Səməd Behrəngi xalqın sevimlisinə çevrildi? Buna belə cavab vermək olar ki, Səməd öz yaradıcılığında elə dərin insani münasibətlərdən danışmış və onları elə sadə bir dillə əks etdirmişdi ki, həm kənddə, həm şəhərdə yaşayan xalq kütlələri öz müştərək dərdlərini və səslərini onun yazılarında gördülər və eşitdilər. Səməd Behrəngi ilk dəfə olaraq Azərbaycan xalqının içərisindəki odu şöləndirdi. İlk dəfə olaraq o, Azərbaycan dilinin tədrisi üçün kitablar yazdı. O, çox çətinliklərə və Pəhləvi rejiminin təzyiqlərinə baxmayaraq, bir hekayəsində yazırdı ki, işıq nə qədər az olsa da, qaranlıqda görünür. Səmədin bir ulduzundan min ulduzlar yarandı, balaca işığı hər yeri tutdu" (8, 20).

Q.S.Təbrizi ədəbiyyatın vəzifəsini hər şeydən əvvəl həyatı, varlığı düzgün göstərməsində görür. Ona görə ədəbiyyat insanların praktik fəaliyyətinə, həyatı yaxşılaşdırmaq uğrunda mübarizəsinə kömək etməlidir. Bunun üçün birinci şərt həyatı düzgün, doğru göstərməkdir. Bədii yaradıcılığı mütləq ideyanın hərəkəti ilə, yaxud yaradıcının subyektiv duyğu və xəyalları ilə şərh edən idealist estetikanın ziddinə olaraq, Q.S.Təbrizi həyatı sənətin əsasına qoyur: "Yazılarımla kimlərləsə müxalif olmaq, yaxud hansı

məsələ ətrafındasa mübahisə və müzakirə açmaq niyyətində deyiləm, sadəcə olaraq uzun illər mühacirət həyatı yaşadığım Böyük Britaniya və Avropanın bir sıra başqa ölkələrində öyrəndiklərimi, görüb müşahidə etdiklərimi izhar etmək istəmişəm. Həmçinin Avropa alimlərinin bizdən yaxşı düşündüklərini, daha səviyyəli olduqlarını deyil, əksinə bizimlə onlar arasında nəzərə çarpacaq dərəcədə intellektual fərq olmadığını anlatmağa çalışmışam. Lakin diqqəti cəlb edən bir fərq vardır ki, Avropa elmi-nəzəri fikrində istisnasız olaraq mənəvi azadlıq hökm sürür ki, bu da cəmiyyətə hakim olan sosial-iqtisadi azadlıqdan qaynaqlanır. Məsələn, mən qırx ildən artıq Böyük Britaniya universitetlərində dərs demişəm, ancaq bir dəfə də olsun nə baş nazirin, nə kraliçanın, nə də hər hansı səlahiyyət sahibinin elmə, təhsilə müdaxilə etdiyinin şahidi olmamışam. Bu ölkələrdə qanun mütləq hakimdir, pulla, rüşvətlə, yaxud hər hansı qeyri-qanuni üsullarla nəyə isə nail olmaq mümkün deyildir" (8, 3).

Q.S.Təbrizi xalqın gələcəyini düşünən, uzağa, sabahkı günə baxan bir ziyalıdır. Buna görə də o, gənc nəslin tərbiyəsinə xüsusi diqqət verir və bunun böyük əhəmiyyətini dərk edir. Gənclər üçün yazdığı əsərlər duzlu və şirindir. Bu şeirlər nə qədər gözəl, vətənpərvər insanlar tərbiyə etmişdir! Q.S.Təbrizi romantikdir, onun romantizmi həyatla, xalqın mənəvi ehtiyacları ilə bağlı olduğundan işıqlıdır, mücərrəd fikirlərdən uzaqdır. Bu romantizm əsas mahiyyəti ilə müasirliyə yönəldilmiş, şairin mütərəqqi fikirlərini və xəyallarını, sabahkı xoş gün arzularını əks etdiyindən insanda həyat və mübarizə eşqi oyadır.

Son illərdə ənənəvi həyatımızın normasına çevrilən prinsipin - nöqsanlara qarşı barışmazlıq, fəal həyat mövqeyi kursunun real gerçəkliyə tətbiqi istiqamətində xüsusən nəsrimizin axtarış və nailiyyətlərini etiraf etmək lazımdır. Məhz bu axtarışların əyintilər şəklində meydana çıxan məsələlərə diqqəti vaxtında cəlb etməklə Q.S.Təbrizinin göstərdiyi həssaslıq ədəbi tənqid üçün yeni metodoloji nümunədir: "Məhmidin güclü qələmi, dərin düşüncəsi vardı. Bir neçə dili, o cümlədən fars, fransız, rus dillərini bilirdi, ingilis dilini öyrənmişdi. O, ərəb dilini və Quranı mükəmməl bilirdi. Zarafatla deyərdi: "Mən ki, Quranı əzbər bilirəm, daha mollaya nə ehtiyacım var". Məhmid Peyğəmbərə (s.) böyük sevgi bəsləyirdi. Deyərdi ki, o sözlər ki, Quranda var, Peyğəmbər gəlib bu gün desə İranda onu edam edərlər. Məsələn, Quran deyir ki, Allah bizə şah damarımızdan yaxındı. Quranda yüzlərlə ayə var ki, xalqları ədalətli olmağa, ağıl işlətməyə dəvət edir. Amma indi mollalar deyir ki, fikrinizi boşlayın, biz sizin fikrinizdə olacağıq, öz ağlımızla sizi idarə edəcəyik. Məhmidə görə, bu, İslama tamam müxalifdi" (8, 26).

Q.S.Təbrizinin əsərlərində estetik gözəllik insanın ruhunu oxşayır. Buna görə də onlar maraqla oxunur, adamı cəlb edir. Oxuduqca sətirlərin arasından gözə görünməyən, lakin əbədi olaraq orada yaşayan xoş bir hərarət və işıq qalxaraq sinəmizi isidir, gözlərimizi nurlandırır. Bu, bədii sözün əsl sehrkar qüdrətidir.

İndi Azərbaycanda müasir, yeni sosial əxlaq tərzinin, fəal həyat, vətəndaşlıq və beynəlmiləlçilik mövqeyinin inikası və təbliği sahəsində bədii-estetik hərəkatın nailiyyətləri bütünlükdə bu vaxta qədərki milli-ədəbi təcrübəyə getdikcə daha çox əsaslanır. Bu təcrübəni əməli olaraq bu günün xidmətinə səfərbər eləməkdə mədəniyyat, ədəbiyyat böyük rol oynayır. Q.S.Təbrizi yazır: "Azərbaycan Respublikası öz istiqlaliyyətinə yenicə qovuşmuşdur. Ölkədə milli-mənəvi dəyərlərin formalaşdırılması prosesi gedir və bu çətin və məsuliyyətli işdə gənc nəslin üzərinə böyük vəzifələr düşür. Çalışmalıdır ki, cəmiyyət ötən illər ərzində qazanılmış müsbət dəyərləri yaşatsın, xalqımıza və mənəviyyatımıza yabançı olanları isə aradan qaldırsın. Təəssüf ki, bəzən bunun əksi olan proseslə də qarşılaşsın. Ancaq mən ümidsiz deyiləm, çünki Azərbaycan gəncliyində böyük

potensialın olduğunu hiss edirəm. Xüsusilə, son illərdə Avropaya təhsil almağa gedən gənclər çox böyük uğurlar əldə ediblər, çünki orada onların bilik əldə etməsi üçün daha münbit zəmin vardır. Avropanın universitetlərində rüşvətlə, tapşırıqla, saxtakarlıqla, hansısa səlahiyyət sahibinin övladı olmaqla heç bir uğur əldə etmək mümkün deyil, yeganə meyar bilik, bacarıq və istedaddır ki, bu da gənclərin cəmiyyətə layiq bir insan kimi formalaşmasında mühüm amillərdən biridir. Mən inanıram ki, Azərbaycan elmi, mədəniyyəti və təhsili gənclərimizin və ziyalılarımızın fəaliyyəti sayəsində öz yolunu tapacaqdır. Ölkənin tərəqqisini neftlə bağlamaq doğru deyil, çünki neft bu məsələdə yalnız yardımçı vasitə ola bilər və olmalıdır. Dünya dövlətlərinin mədəni səviyyəsi öz xalqlarına bəslədiyi münasibətə görə ölçülür. Başqa sözlə, öz millətinə hörmət bəsləməyən dövlətlərə başqa dövlətlər də hörmət bəsləmir. Mən bunu öz təcrübəmdə və taleyimdə hiss etmişəm və bu gün Azərbaycanlı olmağımın qürurunu yaşayıram" (8, 3, 4).

Q.S.Təbrizi mədəniyyətin və ədəbiyyatının mənliyi, orijinallığı yolunda mübarizə aparıb, onun özünəməxsus yüksək keyfiyyətlərini müdafiə edərkən heç bir vəchlə milli məhdudluğa yol vermir. Əksinə, Q.S.Təbrizi dönə-dönə həqiqi elm mədəniyyətin, ədəbiyyatın əsl yüksək sənətin məhdud çərçivələrə sığmadığını, bütün xalqların, bütün millətlərin malı olduğunu göstərirdi. Hətta dini buna mane ola bilmədiyini, əsl böyük fikir və böyük sənətin hər yerdə yayılmasının qabağını ala bilməyəcəyini qeyd edir. Milli ədəbiyyatımızın ümumdünya, xüsusən Ümumşərq əhəmiyyəti özünü bir də onda göstərir ki, bütün Yaxın Şərqdə bədii və fəlsəfi fikir tarixində humanist, demokratik və realist mədəniyyətin yayılmasında fəal tarixi rol oynamışdır. Renessansın da, maarifçiliyin də, realizmin də zirvəsini və mənşəyini ədəbiyyat təşkil etmişdir. Bu ideoloji və ədəbi hərəkatların ən tam tipologiyasını və bitkin nəzəriyyəsini hazırlamaq üçün bitkin materialı bədii ədəbiyyatın təcrübəsi verir. Odur ki, ədəbiyyatının nüfuzu diqqət mərkəzində durmalıdır.

Xalqın dilinin dərdinə qalmaq, xalqın səadəti yolunda mübarizə etmək Q.S.Təbrizinin müqəddəs hesab etdiyi ideyadır. Bu yolda o, bacardığını edir, qəlbi və vicdanı təmiz olan, satqınlıq bilməyən hər kəsi də bu mübarizəyə qoşulmağa çağırır: "Mənim qürbət illərində düşüncələrimin əsasında dayanan, vaxt-bivaxt zehnimi, şüurumu narahat edən məsələlərdən biri Ana dili olmuşdur. Şəxsi təcrübələrim Ana dilinin Azərbaycanın Güneyində öyrənilməsi zərurətini istər elmi, istərsə də adi insani baxımdan şərtləndirmişdir. Ana dilinə olan həssas münasibətim mənim S.Behrəngi ilə sıx əlaqə yaratmağıma bais oldu. S.Behrəngi ilk dəfə olaraq Ana dilinin öyrənilməsi üçün kitabı yazdı. Şah hökuməti bunu biləndə bərk təşvişə düşmüşdü. Həmin kitabın əlyazmasını məhv etmək istəyirdilər. Lakin S.Behrəngi ayıq düşüb həmin əlyazmanı aradan çıxardı, sonradan da onun çap olunmasına icazə vermədilər. Ömrümdə neçə dil öyrəndim, ingiliscə kitab yazdım, amma ana dilinin şirinliyi ruhumdan getmədi və getməyəcək. Ən çətin günlərimdə yeməyimdən kəsib Londondan anama zəng edərdim, onun səsini eşidib qüvvət alardım. Anamın səsi - mənim qüdrətim, ictimai durumumdu. Əcnəbi dili məni yorurdu, yorğunluğu ana dilində danışığa qulaq asmaqla çıxarırdım. Balıq sudan kənara düşməsə, suyun qədrini bilməz. O insanlar ki, ana dilindən ayrı düşməyiblər, məni çətin dərk edərlər. Ümidvaram ki, bir zaman gələcək insanların həyatı bu cür mənəvi terror və məhrumiyyətlərdən uzaq olacaq. Ana dili varlıqdır, həyatdır, ruhdur, yaradıcılıqdır" (8, 7, 8).

Mütərəqqi ictimai ideallar, yüksək humanizm və internasionalizm, bədii təfəkkürün orijinallığı və işıqlı, döyüşkən realizmi Q.S.Təbrizi sənətini ümumbəşəri bir hadisəyə çevirir. O, bütün Azərbaycan üçün əziz və qiymətlidir.

ƏDƏBİYYAT

1. Şəhriyar S.M. Divani – türki, Bakı: Sabah, 1993, 216s.
2. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası, II cild, Bakı: Elm, 1983, 580s.
3. Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XIX-XX əsrlər), Bakı: Nurlar, 2009,480s.
4. Mənsimoğlu T. Qulamrza Səbri Təbrizi, Bakı: Şirvannəşr, 2002, 88s
5. Nəbioğlu S. Əsrin övladı, Bakı: Turan evi, 2004, 144 s.
6. Nəbioğlu S. Təbrizdən başlanan dünya, Bakı: Azərnəşr, 2010, 114s.
7. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi, Bakı: Mütərcim, 2008, 360s.
8. Təbrizi Q.S. Zamanın nəbzi, Bakı: Turan evi, 2006, 336s.
9. Təbrizi Q.S. Müdriklik fəlsəfəsi, Bakı: Turan evi, 2006, 272s.
10. Təbrizi Q.S. Sönməz ocaq, Bakı: Şirvannəşr, 2000, 172s.

КИФАЕТ МАМЕДОВА

РАССУЖДЕНИЯ ГУЛАМРЗЫ САДРИ ТАБРИЗИ О СОВРЕМЕННОЙ ЛИТЕРАТУРЕ

РЕЗЮМЕ

Статья посвящена рассуждениям Гуламрзы Садри Табризи о современной литературе. Автор в статье указывает, что рассуждения Г.С.Табризи о литературе, истории Азербайджана и интересующие общества другие темы всегда были для нашей страны важными и интересными. А также, автор в статье указывает что, Г.С.Табризи считал священной идеей борьбу для счастья народа. Г.С.Табризи очень современный писатель. Он в своих произведениях отражает действительность окружающей его жизни, а также анализирует, обобщает, делает выводы, выражает своё мнение и таким образом участвует в борьбе.

KIFAYAT MAMMADOVA

GHOLAMREZA SADRI TABRIZI ARGUMENTS ABOUT CONTEMPORARY LITERATURE

SUMMARY

The article is devoted to arguments Gholamreza Sadri Tabrizi about contemporary literature. The author in the article indicates that G.S.Tabrizi discussion of literature, the history of Azerbaijan and the interests of the Company other topics have always been important and interesting for our country. Also, the author of the article points out that G.S.Tabrizi considered sacred idea of the struggle for the happiness of the people. G.S.Tabrizi is a very modern writer. He analyzes the events occurring in the life of society where he lived, as well as summarizes, takes conclusion, expresses attitude and thus participate in the struggle.

АШУРБЕЙЛИ Э.А,
старший преподаватель
кафедры теории и практики
перевода, БСУ

ФОРМЫ ОБРАЩЕНИЯ И ОСОБЕННОСТИ ИХ ОТРАЖЕНИЯ В ПЕРЕВОДЕ (НА МАТЕРИАЛЕ ПЕРЕВОДА ФЕЛЬЕТОНОВ ДЖ.МАМЕДКУЛИЗАДЕ)

Ключевые слова: *фельетон, эмоциональность, жанр, оригинал, обращение*
Açar sözlər: *felyeton, emosionallıq, janr, orijinal, müraciət*
Key words: *feuilleton, emotionality, genre, original, appeal*

Джалил Мамедкулизаде - одна из ярких фигур азербайджанской литературы и прессы XX века. Основным жанром, определяющим литературное «лицо» и общественно-политическую направленность журнала «Молла Насреддин», являются бессмертные фельетоны писателя. Главным, ведущим признаком языковой формы фельетона является эмоциональность, оценочность. Фельетону органически присущи речевые приемы создания комического. А комическое, как известно, это яркое средство эмоциональности. Вместе с тем Джалил Мамедкулизаде был и переводчиком, его литературные переводы до сих пор не исследованы. Его произведения переводили на русский язык такие переводчики, как Шариф Азиз, Сиявуш Мамедзаде, Чингиз Гусейнов, Т.Калякина.

Одну из важнейших ролей в создании языка фельетонов Джалила Мамедкулизаде играют различные типы форм обращений, представляющие немалую сложность для переводчика.

Разнообразные способы используются переводчиком для выражения экспрессивных слов и выражений, таких основных разновидностей эмоционально-экспрессивного стиля, как, к примеру: а) бранные слова и проклятия; б) заклинания; в) выражения благословений; г) ласкательные слова и обращения.

Бранные слова и выражения проклятий нередко содержат идиоматику, которую невозможно перевести буквально. В других же случаях переводчик использует калькирование, замену аналогом, передачей смыслового значения. В нижеприведённом примере при переводе бранного выражения “Ay kopəyin qızı” переводчик прибегнул к методу калькирования, переводя его как «Ах, собачья дочь». Сравним текст и перевод: “Ay kopəyin qızı, sən nə səbəbə bu uşağı doğdun ki, gedəydi rus dərsi oxumağa və qoyunlarımızın ölməyinə bais olaydı!”(1, с. 33) «Ах, собачья дочь, зачем ты родила этого ребёнка, чтобы он пошёл

на уроки русского языка и стал виновником гибели наших овец!» Переводы предложений с азербайджанского языка на русский язык в дальнейшем в статье будут даваться по книге: Мамедкулизаде Дж. Избранные произведения, в 2-х томах. Фельетоны, статьи, воспоминания, 1966, т 2.

Выражение-проклятие “başına dəysin” не утрачивает своей идиоматичности и тогда, когда оно выступает в контексте, сравним с переводом: “Ey, müqəddəs yoldaşım! Sənin həbbi-səlaminin başına dəysin!” (1, с. 17) «О святой друг! Подавиться бы тебе своей «чудодейственной пилюлей»!»

У великого азербайджанского писателя осталось нимало не переведённых, более того, не напечатанных, а то и недавно обнаруженных фельетонов и других произведений. Исследователей творчества писателя в будущем ожидает большая работа.

К примеру, такой отрывок можно преподнести русскому читателю дословно, не прибегая к бранным выражениям, при которых утрачивается колорит оригинала:
“Danabaş kəndinin arvadları burada olaydı, deyəydi: ay görüm sizin dodaqlarınız qurusun öpüşdüyünüz yerdə!”«Были бы здесь жительницы селения Данабаш, сказали бы: «Чтобы губы ваши отсохли во время поцелуя!»

Рассмотрим следующий пример: “Allah şeytana lənət eləsin” - «да проклянет Аллах шейтана». В данном случае, чтобы добиться наибольшей приближенности к автору, переводчик строит фразу в форме религиозных текстов, прибавляя к ней в начале частицу «да», что сразу изменяет «структуру» всей фразы и в то же время окрашивает её в восточный колорит.

Таким образом, как следует из вышеприведённых примеров, снятие точной кальки с традиционных проклятий позволяет сохранить переводчику точный дословный смысл проклятий и свойственный оригиналу колорит.

Итак, важным фактором, способствующим сохранению национального и исторического колорита при воссоздании различного рода экспрессивных слов и выражений, включая бранные слова и проклятия, является внимание к элементам, идущим от религиозных и этнических представлений и включающих религиозное чувство, суеверие, нравы и обычаи, образ жизни и т.д. Рассмотрим также заклинания типа “vallah”, “alah kərimdir”, “vallahi”, “ilahi”, которые переводимы дословно и буквально. Становится понятно, что использование заклинаний в составе авторской речи или речах персонажей подводит к необходимости творческого отношения, соблюдения лексико-грамматической точности при переводе. А теперь обратимся к следующим выражениям: “Ay başına dolanım, bəs nə içim ki, yaxşı olum?” (1, с.15). «Но что же, дорогой мой, мне пить, чтобы

поправиться?» Следует обратить внимание на тот факт, что это выражение переводится как «дорогой мой», что само за себя говорит о непереводимости подобных форм обращений.

Как следует, выражения благословений, обычно адресованные какому-либо лицу, равно как и выражения проклятий, обычно легко поддаются дословному переводу. Однако, будучи по-разному вставлены в текст оригинала (в авторскую речь, диалоги и описания), они требуют творческого подхода от переводчика. Так, например, часто встречающееся в фельетонах Джалила Мамедкулузаде выражение “atan rəhmətlik”, выступая в предложении как субъект (существительное с относящимся к нему прилагательным), может быть переведено и как «покойный твой отец», и как «твой отец, царство ему небесное…», в этом случае слово звучит как констатация факта «твой умерший отец». В тексте фельетонов это выражение “rəhmətlik”, как правило, дается как восклицание-благословение с оттенком уважения к собеседнику. Переводчик Ч.Гусейнов обоснованно воспроизводит выражение в форме традиционного у мусульман благословения: «Царство небесное твоему отцу!» (2, с.221). Ч.Гусейнов отмечает, что «работа на национальном языке вовлекает в орбиту текста богатства данной языковой системы, а последующая работа на другом языке даёт возможность, сохранив национальные черты оригинала, привнести в него новые краски, открыть новые грани, развить текст до степени нового, иноязычного оригинала. При этом я убежден, развивается и обогащается язык и нового оригинала - русский язык» (3, с.403).

В подлиннике дано другое предложение: “Di belə de, rəhmətliyin oğlu! Ta məni niyə dağ-daşa salırsan?”(1) В переводе оно даётся так: «Так бы сразу и сказал, сын праведного! Зачем же ты заставляешь меня голову ломать!»

Во многих случаях, стремясь сохранить экспрессию стиля, переводчик вместе с тем отказывается от применения традиционных азербайджанских оборотов, хотя нередко они сохраняют свой колорит именно при буквальном воспроизведении. Например, также не реже встречающаяся фраза “ Sənə qurban olum...” (1, с.174) дана в переводе «Да буду я жертвой твоей…», где при буквальном переводе сохранено и художественное значение.

А теперь рассмотрим ласкательные слова, обычно выраженные в оригинале в форме обращений, которые также допускают разнообразные формы воплощения при переводе. Бывает и так, что некоторые из них остаются без перевода, хотя и легко переводимы, другие воссозданы методом калькирования; иные опущены, хотя и они могли быть скалькированы. В передаче ласкательных слов и обращений переводчики исходили из контекста, «подсказывающего» им ту или иную форму воплощения, различные способы их перевода, в целом верно воссоздающего дух и содержание оригинала фельетонов.

Сравним примеры: “ Dadaş, məni qoy dərsə” - «Отец, пусти меня в школу». В этом случае переводчик сталкивается с диалектным словом “dadaş”, который переведён нейтральным словом «отец». С одной стороны, переводчик мог бы перевести диалектизм диалектизмом, переводя “dadaş”, как «батька». Однако, переводчик учитывал и то, что слово «батька» не характерно для азербайджанского фельетона на русском языке, поэтому в этом случае нейтральное слово «отец», хотя и не совсем подходящее слову, имеющему яркую окраску в языке оригинала, тем не менее сохраняет простоту обращения и является наиболее оптимальным в переводе с азербайджанского языка на русский. Вообще, передача форм обращения является одной из спорных и неразрешенных проблем в теории перевода. А.Н.Соболев об этом так пишет: «Переводчик-формалист тоже обманывает читателя, превращая в самодовлеющую ценность ту или иную формальную черту оригинала: порядок слов или количество слов в данной фразе, или идиоматические словосочетания, вопреки их непонятности при буквальном переводе, или те или иные особенности обращения, свойственные одному языку и не свойственные другому: сохранение английского «вы» там, где по-русски необходимо сказать «ты» и т.д.» (5, с.271).

Итак, каждый переводчик решает по-своему стоящую перед ним конкретную задачу. Обратимся к примерам: “ Ey yarı-bivəfa Qoloşapov!” - «О Голощапов, друг неверный!» (1,с. 63). “Məqər belə sədaqətin əvəzidir ki, indi sən eləyirsən, ey vəfasız Qoloşapov?”- «Так-то ты платишь за эту преданность, о коварный Голощапов?» (1, с.64). В данном случае на наш взгляд всё-таки точнее было бы перевести «неверный», «изменник», вместо «коварный». В данном примере слово «милый», казалось бы, на месте находится, но вместе с тем не передает смысловую окраску обращения “bala”, в котором так сквозит пренебрежение. “Get bala, get nağıl deməyinə, sənin əlindən nağıl deməkdən savayı özgə bir iş gəlməz”.- «Ступай, милый, и рассказывай свою сказку другим. Тебе только сказки и рассказывать, ни на что другое ты не способен» (1, с.58). “Ey mənim yolçu, dilənçi, lüt-müt qardaşlarım həmşərilər!”- «О, амшари, братья мои нагие и босые, голодные и холодные!» (1, с.133).

Рассмотрим следующие предложения: “Aman günüdür, cənab şeyx, bunlar nə işdir?” -«Умоляю вас, господин шейх, объясните, в чём же тут дело?» (1, с.184). Здесь, возможно, уместнее было бы вместо «умоляю» перевести «пожалейте», однако переводчик для усиления драматизма передает это как «умоляю». А теперь обратим внимание на нижеследующие примеры, где одинаковое обращение на азербайджанском языке нашло три различных перевода на русском языке: 1.”Ədə, çuval dəlinib, çuvalduzu ver mənə, deşiyi tikim.”- «Слушай, чувал продырявился, подавай шило, зашью» (1,с. 274). 2. “Ədə,

çuvalduzu ver mənə.”- «А ну-ка, подавай мне шило, зашью». 3. “Ədə, yavaş sür! Yavaş sür! Bu zəhrimar çuval yerinə dəlinib.”- «Эй, не гони осла! Да стой же! Опять продырявился чувал!» (1, с.275).

Таким образом, приёмы перевода обращений следует рассматривать в тесной связи с вопросами стиля, воспроизведения колорита оригинала. При этом необходимо учитывать традиции, сложившиеся у народа, с языка которого делается перевод. Произведения Джалила Мамедкулизале переводились и переводятся на разные языки мира. Недавно Анна Парткулашвили перевела его пьесу «Олулар-Мертвецы» на грузинский язык. Мария Кенеши перевела избранные рассказы Джалила Мамедкулизаде на венгерский язык. Эти факты говорят о бессмертии и востребованности творчества великого сатирика и в наши дни, независимо от национальной и религиозной принадлежности читателей.

ЛИТЕРАТУРА

1. Məmmədquluzadə C. Secilmiş əsərləri. 3 cilddə. Elm, Bakı, 1967.
2. Гусейнов Ч. Этот живой феномен, Баку, Азернешр, 1988, 338 с.
3. Гусейнов Ч. Неисчерпаемые возможности и «грозящие опасности»// Художественный перевод «Проблемы и суждения». Сб. статей. М., 1986, с. 397-406.
4. Мамедкулизаде Дж. Избранные произведения, в 2-х томах. Фельетоны, статьи, воспоминания, 1966, т 2, с. 452.
5. Соболев А.Н.О переводе образа образом. - В сб.: Вопросы худ. перевода (сборник статей), М., 1955.

AŞURBƏYLI E.A.

MÜRACİƏT FORMALARI VƏ ONLARIN TƏRCÜMƏDƏ ƏKS OLUNMA XÜSUSIYYƏTLƏRİ (C. MƏMMƏDQULUZADƏNİN FELYETONLARININ TƏRCÜMƏ MATERİALI ƏSASINDA)

XÜLASƏ

Bu məqalədə müəllif C. Məmmədquluzadənin felyetonlarının tərcümə materialında tərcüməçinin emosional ekspressiv üslubun müxtəlifliklərini, ekspressiv ifadə və sözləri ifadə etmək üçün istifadə etdiyi müxtəlif üsulları tədqiq edir. Söyüşlərin tərcüməsi zamanı tərcüməçi kalka etmə metodundan istifadə edir. Ənənəvi qarğışlardan kalka etmə üsulu tərcüməçiyə qarğışların kəliməsi-kəliməsinə dəqiq mənasını və orijinala xas koloriti saxlamaq imkanı verir. Ovsunların tərcüməsi zamanı tərcüməçi hərfi tərcümədən istifadə edir. C. Məmmədquluzadənin felyetonlarında istifadə olunan müraciət formaları əksərən tərcümə olunmayandır və bu da tərcüməçi üçün çətinliklər yaradır.

Felyetonda hər hansı bir şəxsə ünvanlanmış xeyir-duala ifadələri asanlıqla hərfi tərcümə olunur. Mətndə müraciət şəklində verilən əzizləmə sözlərini tərcümədə müxtəlif cür ifadə etmək mümkündür. Tərcüməçilər felyetonların orijinal mənasını, məzmununu ötürmək və canlandırmağa çalışırlar. Tərcümə zamanı orijinalın əsl ruhunu vermək lazım gəldiyi zaman felyetonun mətnindəki ifadələrdə istifadə olunan bəzi dialekt sözlərin mənasının ötürülməsində tərcüməçilər çətinliklərlə qarşılaşırdılar. Beləliklə, tərcüməçi tərcümə olunan mətnin orijinalının dilinin məxsus olduğu xalqın ənənələrini, xüsusiyyətlərini nəzərə almalıdır.

ASHURBAYLI E.A.

MANNERS OF ADDRESS AND TEIR FEATURES OF REFLECTION IN THE TRANSLATION (ON THE MATERIAL FEUILLETONS J.MAMMADGULUZADA)

SUMMARY

In this article based on translations of feuilletons of J.Mammadguluzada the author explores the different methods used by translator to express expressive words and expressions, varieties of emotional and expressive style. While translating abusive language translator has resorted to tracing method. The tracing method from traditional curses allows the translator to preserve the exact literal meaning of the original curses and characteristic feature. While translating spells translator uses a verbatim literal translation.

Appeal forms used in the feuilletons of J.Mammadguluzada often untranslatable, which creates difficulties for the translator. Expressions of blessings addressed to some person in the feuilleton are easily amenable for literal translation. Caressing words, which are given in the text in the form of appeals, during the translation, allow various forms of embodiment. Translators are trying to convey and recreate the original content of feuilletons. In conveying some dialectal words used in the appeals in the text of feuilletons, translators faced difficulties when it came to recreate the true spirit of the original while translating. Thus, the translator must take into account the traditions of the people, from which language translation is done.

Rəyçi: Hacıyeva Almas
filologiya elmləri namizədi, dos

MƏMMƏDOVA ÜLVİYYƏ
ADU

Açar sözlər:gender problemi,qadın azadlığı,hüquqsuzluq,bərabərlik
Keywords:gender problem,women freedom,lawlessness,equality
Ключвые слова:гендерная проблема,свобода женщины,безправие,равенство

Cəfər Cabbarlının dramaturgiyasında gender problemi

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Cəfər Cabbarlı az yaşayıb fəqət çox yazmış,çoxsahəli yaradıcılıq yolu keçmişdir.Görkəmli sənətkarımız daima xalqın taleyini düşünmüş,bir çox problemlərin həlli baxımından əsərlərində müəyyən mövzulara yer ayırmışdır.Bunların içərisində "gender problemi" mövzusu da vardır ki,C.Cabbarlı istər yaradıcılığının ilk,istər son illərində hekayə və dramlarında bu problemə toxunmuş və onun aradan qaldırılması yolları üzərində düşünmüşdür.

Dramaturqun ilk səhnə əsəri "Vəfalı Səriyyə" yaxud "Göz yaşları içində gülüş" (1915) pyesidir ki,burada qadın azadlığı problemi bariz bir şəkildə gözə çarpır.Müəllif əsər vasitəsilə qadın hüquqsuzluğunu,ictimai mühiti və feodal sinfinin mənəvi-əxlaqi eybəcərliklərini tənqid atəşinə tutmuşdur.Burada hadisələr ailə-məişət fonunda baş verir. Əsərdə müəllif Səriyyənin simasında dövrün,zamanın yetişdirdiyi hüquqsuz bir qadın obrazını əks etdirmişdir.Bu elə bir mühitdir ki,orada patriarxal tayfa əxlaqı,dərəbəylik təsəvvürləri hakimdir.Səriyyənin Rüstəmi sevməsi,Qurbanın təklifinə etirazı,eləcə də başqasının adaxlısı olması dramın mənfi obrazları-Həmzə,Qurban,Çimnaz,Camal üçün heç bir əhəmiyyət kəsb etmir,çünki bu mənfi obrazların təsəvvüründə onların tayfa əxlaqından yüksəkdə,patriarxal qaydalardan güclü heç nə yoxdu.

Həmzə və Çimnazın bu dialoquna diqqət yetirək:

"Həmzə:Sən necə bilirsən,ay Çimnaz?Mən deyirəm ki,bu sözü Səriyyəyə deyək.
Çimnaz:Səriyyə nə itdir ki,bir də ona məsləhət edək.Mən razıyam,vəssəlam!
Həmzə:Yox deyirəm,axır ki,ona deyək.Sözdür də,razı olar...olar,olmaz...onda canını çıxardıb güc ilə razı edərik"[1,s.9].

Dialoqdan da açıq görünür ki,patriarxal feodal cəmiyyətində qadın nə dərəcə hüquqsuz bir varlıqdır və onun heç bir söz haqqı yoxdur.Əgər Səriyyə etirazını bildirirsə o zaman zor ilə,güc ilə qarşılaşır və ölümlə təhdid olunur.Dramaturq müxtəlif epizodlarda bu dərəbəylik qayda-qanunlarının və təsəvvürlərinin hələ tam mənası ilə fəaliyyət göstərdiyini bir neçə yerdə bildirir.Məsələn,Həmzə Səriyyənin taleyi haqda deyir:"Biz nikah eləyərik,iş düzələr,düzəlməz,necə bayaq dedim,doğrarıq və aparıb tullarıq.Heç kəs də onun burda olduğunu bilmir"[1,s.12].Həmzənin bu nitqindən aydın olur ki,Səriyyənin yaşadığı mühit hələ öz daxili,məhdud patriarxal qaydalarından kənara çıxmır,həmin qaydalarla da yaşayır.Belə bir avtoritar feodal qaydaları və əxlaqı ilə yaşayan bir mühitdə Səriyyənin-qadınların hüququnu qorumaq üçün müəllif çar Rusiyasının hüquqi orqanlarını sonda əsərə cəlb edir.Çarizmin idarə orqanlarının nümayəndələri öz

müdaxilələri ilə Səriyyə və Rüstəmin qovuşmasına yardım edir və ədalət bərpa olunur.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan teatrı hələ öz problemlərini həll etmiş sayılmır və xalq teatr mədəniyyətindən demək olar ki,uzaq idi.Bu problemdən çıxış edən Cəfər Cabbarlı teatrın topluma aşılanmasında və Azərbaycan qadınlarının teatra aktiv qatılmaları üçün "Oqtay Eloğlu"(1922) əsərini yazır.

Əsərdə maddi çətinliklərə görə teatrların səhnələşdirilməsində müəyyən sıxıntılar çəkilməkdə,aktyorların əmək haqları çətinliklə qarşılanmaqdadır.Teatr üçün bunlardan daha çətin olanı isə yerli qadın aktrisa tapmağın imkansızlığına görə qeyri-millətdən olan,xüsusilə,rus və gürcü aktrisalarla işləmək məcburiyyətinin yaranmasıdır.Milli teatrın tərəqqisi üçün mütləq bir şəkildə yerli qadın aktrisaya ehtiyac duyulur.Çünki yerli dili və mədəniyyəti yetərincə bilməyən qeyri-millətdən olan aktrisalar səhnədə təsirsiz qalmaqdadır və beləcə teatr sənəti inandırıcılıqdan uzaq,süni bir dünyanı xalqa,topluma izlədir ki, bu da teatrın istiqamətverici,yönləndirici kimi funksiyasından uzaqlaşmasına səbəb olur.Başqa sözlə desək,teatrın inkişafı üçün xalqın içindən gələn qadınlara ehtiyac vardır.Məhz tək amalı milli teatrın tərəqqisi olan Oqtayın nitqində də bu daima öz əksini tapır:"Oqtay:...Azərbaycan səhnəsində,Azərbaycan qadınlığının həyatını şəxsən keçirmiş bir Azərbaycan qızı,mühitimizdən çıxmış doğma bir yavru olmadıqca..."[1,s.254].Oqtay bunu bilir və Azərbaycan qızının bir gün səhnədə olacağına daima ümid edir və inanır.Lakin bu dövr elə bir dövrdür ki,nəinki səhnədə azərbaycanlı qız görmək qeyri-mümkündür,hətta qadının teatra getməsi xoşagəlməz və qəbul edilməzdir.

Əsərdə ülvi bir məhəbbətlə yaşayan bacısı Firəngizi meşşan cəmiyyətdə özünə nüfuz qazanmaq istəyən,Oqtayı öz ailəsinə uyğun görməyən Aslan bəy öz sevgisindən imtina etməyə məcbur edir və beləliklə,Firəngizin Oqtaya olan sevgisi ilə bərabər qadın azadlığı,qadın səadəti məhvə sürüklənir.

Firəngiz qardaşının mənsəbinin qurbanına çevrilir və sevdiyi şəxsə deyil,başqa bir adama ərə verilir.Əgər "Vəfalı Səriyyə"də Səriyyəni zor gücü ilə Qurbana vermək istəyirlərsə,Firəngizdə isə məsələ buna nisbətən bir qədər mülayimdir.Çünki Firəngiz ziyalı bir qardaşın bacısıdır.

Əsərin ziyalı obrazlarından olan Aslan bəyi "Vəfalı Səriyyə" dramındakı Həmzə,Qurban ilə müqayisə etsək,zahirən onların fərqli olduğunu görmək mümkündür.Daxildə isə hər üç obrazda eyni xüsusiyyət aşkarlanır ki,bu da onların qadınlara münasibətdə özünü göstərir.Burada incə bir məqam vardır.Aslan bəy oxumuş,savadlı,ziyalı bir şəxsdir və o,cəmiyyətin,qadının tərəqqisini,onun oxumasını,teatra getməsini müsbət,lazımı bir hal kimi dəyərləndirir,lakin Həmzə və Qurban bu məsələlərdən tamamilə uzaqdır,onlar öz məhdud patriarxal düşüncələrindən uzaqlaşmaq istəmir.Ancaq Aslan bəy nə qədər qadının cəhalətdən çıxmasına marağı olsa da,bir o qədər də bacısını sevmədiyi biriylə evləndirərək onun haqlarını göz ardına edir.

Əsərdə Aslan bəyin Firəngizin təhsilinə səy göstərməsi,onun teatra getməsinə izin verməsi,ümumiyyətlə,qadının cəhalətdən çıxmasına dair müsbət fikirlər

söyləməsinin arxasında iki həqiqət vardır.Bu,Firəngizin teatra getməsini eşidib qəzəblənən,arvad tumanı geyən kişilərin rəngli üzünü qız xeylağının görməsini namussuzluq hesab edən ata Hacı Zamanla mübahisəsində açılır.”Aslan bəy:Arvad da kişi kimi bir insandır.Biz analarımızı çarşaf içində cəhalətdə saxlamışıq.Başqa millətlər...Bir də axı mən də bacımı gizlətsəm,sabah qlava,qubernator və başqaları mənə də bir vəhşi deyərlər,gülərlər.Mən bir qapıdan girə bilmərəm...”[1,s.262].Buradan aydın olur ki,Aslan bəy həqiqətən qadını cəhalətdə görmək istəmir.İkinci yanaşmada maraq doğurur:Aslan bəy öz mənsəbinə görə çəkinir ki,ona vəhşi deyərlər və bu onun mənsəbinə xələl gətirər.”Aslan bəy asanlıqla varlanaraq indi yüksək təbəqələrlə yaxınlaşıb-qohumlaşmaq istəyən bir kəsdir ki,bütün əxlaq prinsipləri qlava və qubernatorun xoşuna gəlmək,upravada özünə vəzifə tapmaq,kübarlar məclislərinə yol tapmaq və bu kimi istəklərlə məhdudlaşır”[4,s.35].

Əsərdə Aslan bəy daim öz mənsəbini düşünür və bacısının sevdiyi şəxslə ailə qurmasına mane olur.Belə ki,o “...kakoy-to bədbəxt,niçtojniy jalkiy,razvratniy aktyor ki,heç bir xeyrə-şərə buraxmırlar.İt dəftərində də adı yoxdur”[1.s.263] deyə haqqında danışdığı Oqtaya Firəngizin verilməsinə qəti şəkildə narazıdır və bacısının istəkləri onun üçün heç bir əhəmiyyət daşımır.Müəllif bununla qadın azadlığının ziyalı biri tərəfindən məhdudlaşdırıldığını bizə göstərir.

Cəfər Cabbarlı qadınların cəmiyyətdə məruz qaldığı bir sıra problemlərə,hüquqsuzluqlara neştər vurmaq məqsədi ilə daha da qabarıq mövzuları qələmə almağa ehtiyac hiss edər.“Vəfalı Səriyyə”də, “Solğun çiçəklər”də ,”Od gəlini”ndəki qadın qəhrəmanlar dirənişdən uzaq passiv bir qadın obrazı sərgiləmişlər,cazibə mərkəzi olsalar da,cəmiyyətin tərəqqisində əsas rolu üstlənəcək bir dirçəliş göstərməmişlər.Bunun ən əsas səbəbini Azərbaycan cəmiyyətində qadının özünə verilən rolu istər-istəməz qəbul etmək məcburiyyətində qalması şəklində ifadə etmək yanlış sayılmaz.Bu rolun içində isə qadının cəhalətdən çıxması,təhsil alması,istədiyi şəxslə ailə qurması,cəmiyyətə faydası toxunması yoxdur.Bu təsbitdən çıxış edən Cabbarlı qadının yeni toplumdakı yerini müəyyənləşdirməyə istiqamətlənən düşüncələrini 1928-ci ildə yazdığı “Sevil” pyesində əks etdirir.Bu pyes Azərbaycan qadınının azadlığını necə əldə edəcəyini göstərən ən önəmli əsərlərdəndir.

Məlumdur ki , “Sevil” çox böyük əks-sədaya səbəb olmuş,mübahisələrə,fikir ayrılığına,həm tənqidə,həm də tərifə məruz qalan əsər olmuşdur.”Mühitin yaratdığı Sevili ittiham edənlər çox,onun ağrılarını anlayan,xilasına,nicatına çalışan kimsə yoxdur”[3,s.270].Köhnəlik-yenilik çatışması,qadının köləlikdən qurtulması üçün iqtisadi azadlığını qazanmış olması əsərin ana xəttini təşkil edir.

“Sevil”əsərində zamanın tələblərinə uyğun olaraq qadının azad olması üçün ən başlıca şərt çadranın atılması idi.Dramaturq qadının cəhalətdən çıxması üçün bu mövqedə dayanmış və hətta həyat yoldaşı Sona xanımın da çadranı atmasında özü səy göstərmişdir.Ancaq demək olmaz ki,qadın azadlığı elə çadranı atmaqla izah olunur.Qadın azadlığı üçün çadranı atmaq problemin bir hissəsi idi.Yəni qadın ətalətdən çıxmaq üçün ilk növbədə məsələyə çadradan azad olmaqla

başlamalıdır.Problemin ikinci tərəfi isə qadının iqtisadi cəhətdən azad olması idi.Cəfər Cabbarlı bu cəhəti "Sevil" pyesində ustalıqla qələmə almışdır.

Sevil əri Balaşın ona münasibətinə müticəsinə boyun əyən bir qadın ikən,həqiqətləri görüb dərk etdikdən sonra tərəqqi yolunu seçir,o artıq tapdalanmayacaq,cəhalət içində batmayacaq,həyatın baş gicəldən oyunlarına qarşı dayanıqlı olacaqdır.Pyesdə sanki həyat iki zaman kəsiyinə-yenilik və köhnəliyə bölünmüşdür və biz bu zaman kəsiyinin qarşılaşdırılmasını Sevil obrazında cəmləndiyinin şahidi oluruq.Müəllif əsərin əvvəlində köhnəliyi,köhnə düşüncə,köhnə mühitin hakim olduğu bir zaman kəsiyini təsvir edirsə,sonraki hissələrdə isə köhnəliyi sıxışdırıb aradan çıxaran yeni dövrün və bu dövrün insanlarını ön plana çəkir.

Cabbarlı Sevilin simasında Azərbaycan qadınının mübarizəsinin təkamül proseslərini göstərməyə çalışdı.Belə ki,əsərin əvvəlində gördüyümüz Sevil sonrakı pərdələrdə gördüyümüzlə eyni deyildir.O,artıq zəmanənin,dövrün,əsrin,günün qadınıdır.İlk pərdələrdə gördüyümüz sadəlövh,hüquqsuz,müti,avam qadın getmiş,yerinə ətalətdən çıxaraq dəyişən, köhnə adət-ənənələrin təsirindən çıxan,savadlı, qəhqəhələrlə danışan biri gəlmişdir.Sevil bu eyhamları,kinayələri,qəhqəhələri ilə Balaşdan bir növ intiqam alır ki,bu intiqamın özü də bir şəxsin digər şəxs üzərindəki intiqamı,qələbəsi deyil,öz tapdanan haqqını axtarıb tapan qadının qələbəsi və intiqamıdır.C.Cabbarlı dramaturgiyasında fərqlənən obrazlardan olan Sevil qısa müddət ərzində daxili inkişaf keçirmiş və qarşılaşdığı çətinlikləri sadəcə öz fərdi problemləri deyil,özü kimi qadınların problemi hesab edərək ictimai problem səviyyəsinə qaldıra bilmişdir."Axı,Sevil,bu əxlaqsızlıqdır,namussuzluqdur.Yox,ola bilməz.Yalvarıram,Sevil,söylə ki,bunların hamısı yalandır" deyən Balaşa Sevil bu cür cavab verərək qadınların qarşılaşdığı problemləri dilə gətirir:

Sevil:Namus!Ha...ha...Nədir namus?..Yalnız qadınların daşıyacağı bir yükdür.Sən hər gün beş dəqiqəlik zövqün üçün tuş gəldiyin hər bir qadına göz basırkən,kimsə sənə namussuz demirdi..."[2,s.52]

Görkəmli sənətkar "Sevil" pyesində Azərbaycan qadınının hüquqsuzluğunun çıxış yollarını göstərmiş olsa da,əsərin sadəcə şəhər həyatı və şəhər qadınlarının aydınlanmasına xidmət edərək məhdud dairədə qalması bir başqa əsərin ortaya çıxmasına zəmin yaratmışdır.Beləliklə,dramaturq kənd insanının,qadınının aydınlanmasına həsr etdiyi "Almaz" (1930) pyesini yazır."Bilavasitə sosializmin özünün hərəkətini,ziddiyətli tərəflərini isə C.Cabbarlı ilk dəfə "Almaz" pyesində göstərir"[6,s.140].

Pyesin qadın qəhrəmanı Almaz öz ideallarından və fikirlərindən əl çəkməyən,qadınların haqlarını,hüquqlarını öz əllərinə almasına səy göstərən ,savadlı,şərəfli bir kənd müəlliməsidir."Almazın arzusu kəndi öz mənimsədiyi ideyalara uyğun salmaqdır.Uşaqlara dərs deməklə kifayətlənməyən bu kənd müəlliməsi gəldiyi ilk gündən kəndin bütün işlərinə birbaşa müdaxilə edir"[5,s.38].Almaz qadın azadlığının iqtisadi azadlıqdan keçdiyinə ürəkdən

inanmaqda və qadınları təkidlə,israrla fabriklərdə işləməyə çağırır:"Almaz:Yoldaşlar,sizin arvadlarınızı yaman bir yola çıxartmırıq,doğru əməyə çağırırıq.Onları buraxsanız da gələcəklər,buraxmasınız da gələcəklər.Bu gün deyilsə,sabah gələcəklər,çünki həyat özü bunu tələb edir.Bunsuz həyat irəliləyə bilməz"[2,s.77].Almaz inanır və daima ümidlidir ki,cəmiyyətin tərəqqisində qadın bu gün olmasa da,sabah öz hüquqsuzluğunu aradan qaldıracaq,"Yeni yol"a yazılacaqdır.Eyni zamanda Almaz müəllimlik etdiyi kəndin yetirməsidir və bizə Almazın istəklərindən aydın olur ki,o ,qədim adət-ənənələrinin daşlaşdığı bu kənd mühitiylə barışmaq istəmir,köhnəliyi daim tənqid edir,mühafizəkar,toxunulmaz qanunlara birbaşa hücuma keçir.O,məscidi qadın yurduna çevirməyi təklif edərək kəndliləri özünə qarşı qaldırır:

"Almaz:Hələlik,bir təklifim də var.Məktəb darısqaldır,maşınlarımız üçün yer yoxdur.Kənddə böyük bina bircə məsciddir.Qərar çıxardın:məscidi qadın yurduna,həyətini də uşaq baxçasına çevirək.

Hacı Əhməd:Necə?Məscidi bağlayaq?Məscidi oyunbazxanaya döndərək?

Kəndlilər:Ayə,məscid nə olsun dedi?

Ocaqqulu:Vay,məscidlərə at bağlamaq istəyirlər.Kül başımıza.Ay camaat,ay müsəlmanlar,nə üçün dayanmışsınız?Daha Sahibin zühuruna az qalıbdır,cahaddır,cahad!Məscidlərə at bağlayırlar"[2,s.81].

Almazın bu dialoqundan və əsər boyu dilə gətirdiyi fikirlərindən,amalından aydın olur ki,o artıq yeni dövrün insanıdı,bir növ Sevilin davamıdı. "Mürəkkəb epoxal münasibətləri əks etdirən "Almaz pyesində hadisələrin cərəyan etdiyi dövr varlı və ortabab təsərrüfatları sıxışdırıb məhdudlaşdırmaq,nəhayət,ləğv etmək və sıradan çıxarmaq kimi sovet siyasətinin həyata keçirildiyi dövrdür.Lakin hələ qolçomaqların bir sinif kimi tamamilə ləğv olunması haqqında qərarın verildiyi 1929-cu il deyil.Ucqar olduğu üçün sovetləşmə hələ bu kənddə özünə möhkəm yer tapa bilməyib"[5,s.36].

Cəfər Cabbarlı "Almaz"əsərində Almazın simasında mərd,öz idealları naminə daima mübarizə aparan,şərəfli,azad qadın obrazını yaratmışdırsa,əsərin digər qadın qəhrəmanı olan Yaxşının timsalında da hüququ,haqqı tapdanan,avam bir qadını göstərmişdir.

"Almaz"pyesində də qadın azadlığına,tərəqqisinə,ətalətdən çıxmasına qarşı çıxan obrazlar vardır ki,bunlar İbad,Balarza kimi şəxslərin timsalında verilmişdir.

Göründüyü kimi,Cəfər Cabbarlı gender ayrı-seçkiliyi məsələsi üzrə daim düşünmüş,əsərlərində qadın azadlığını önə çəkərək onların təhsil almaq,oxumaq,seçmək haqlarının olduğunu dönə-dönə vurğulamış,qadın hüquqsuzluğunun həll yollarını göstərərək onun aradan qaldırılması üçün böyük səy göstərmişdir.

Ədəbiyyat

1. Cəfər Cabbarlı.Əsərləri.II cild.Bakı,2005
2. Cəfər Cabbarlı.Əsərləri.III cild.Bakı,2005
3. Rüstəmli A."Cəfər Cabbarlı və ədəbi-mədəni mühit" Bakı,2010

4. Məmmədova Ə.”İngilis və Azərbaycan dramaturgiyasında sosial problemin qoyuluşu” Bakı,2008
5. Məmmədova S.”30-cu illər gerçəkliyinin C.Cabbarlı dramaturgiyasında inikası”Bakı,2001
6. Məmməd T.”XX əsr Azərbaycan dramaturgiyasının poetikası” Bakı,2004.

MAMMADOVA ULVIYYA

PROBLEM OF GENDER AT THE DRAMA OF CAFAR CABBARLI

SUMMARY

In XX century,Jafar Jabbarli has become one of the greatest personalilities for Azerbaijan’s literature.He has always thought about fortune of his people and deal with various themes in his works.Gender problem is one of his topics.Jafar Jabbarly has thought about this problem not only at the beginning of his career,but also recent years of his.He has tried to find the best way to solve gender problem.He talked about the problems which have broken the rights of women and made towards women in society.He wanted to raise awareness of this controvelsial issue.He wrote about women who have faced obstacles in developing community,showed effective ways to overcome these problems.Even though he wrote his works about gender balance in xx century,todays again we notice these issues in our society.Therefore his works keep their actuality for these days,we can use stat of his works when we can use stat of his works when we try to uniform society about gender problem.

МАМЕДОВА УЛЬВИЯ

ПРОЛЕМА ГЕНДЕРА В ДРАМАТУРГИИ ДЖАФАРОВ ДЖАББАРЛЫ

РЕЗЮМЕ

Знаменитый Азербайджанский драматург Джафар Джаббарлы дал без ценные драмы,пьесы на Азербайджанскую литературу в XX век.Он всегда думал о будущее своего народа и писал разные статье щ несправедливость.Ранние сатирические стихи и рассказы направлены против социоального наренства,женского бесправия и отсталости.И в начале и во время его творчестве он часто думал как уличшить ети проблемы.Драматург описывал несправедливость котороя не дала женщинам говорит об их мечты и интересы.Он пытался дать информации о разные состяние женщин живущих в мучений.Все эти проблемы и неравенства среди мужчин и женщин заставил его думать об улучшение проблемы.Чтобы улучшать ети проблемы Джафар Джаббарлы всегда старался и работал с усилием.

Rəyçi:f.f.d. A.X.Zeynalova

TÜRKAN MURADOVA
ADU
muradof-turac@mail.ru

MÖVLUD SÜLEYMANLININ HEKAYƏLƏRİNDƏ FOLKLOR MOTİVLƏRİ

Açar sözlər: folklor, mif, motiv, süjet
Keywords: folklore, myth, motif, plot
Ключевые слова: фольклор, миф, мотив, сюжет

Mövlud Süleymanlı çağdaş Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən biridir. O, müasir Azərbaycan ədəbiyyatının, nəsrinin inkişafında müstəsna xidmətləri olan yazıçılardandır. Ədəbiyyata ötən əsrin 70-ci illərində gəlmiş Mövlud Süleymanlının orijinal yazı manerası, milli düşüncə, etnoqrafik elementlərin bolluğu ilə seçilən əsərləri vardır. Yaradıcılığa lirik şeirlərlə başlasa da, yazıçının sonrakı yaradıcılığı göstərdi ki, onun stixiyası məhz nəsrdir. Bu baxımdan müasir ədəbiyyatımızı nəsr sahəsində-roman, povest, hekayələrlə zənginləşdirmişdir. 1970-ci illərdən başlayaraq Mövlud Süleymanlının mətbuatda hekayələri və povestləri çap olunmağa başladı və tezliklə ədəbi mühitin diqqətini cəlb etdi, ən başlıcası, oxucuların böyük marağına səbəb oldu. Çünki yazıçının əsərlərində bir əlvanlıq var, yazıçının dili, üslubu çox rahatdır, aydındır, oxucu tərəfindən başa düşüləndir, ən əsası isə yazıçının əsərlərində biz qədim adət-ənənələrimizi görürük, yazıçı tez-tez xalq ifadələrindən, canlı danışıq dilindən istifadə edir. Bu xüsusiyyətlər əsəri daha maraqlı edir, oxucunu əsərə bağlayır, oxucuda əsərə qarşı maraq oyadır.Yazıçının hekayələrinə, ümumiyyətlə, bütün əsərlərinə nəzər salsaq görərik ki, əsərlərində Azərbaycanın milli-mənəvi dəyərlərinin təbliğinə geniş yer ayırmışdır. M.Süleymanlının yaradıcılığını fərqləndirən, səciyyələndirən başlıca amillər ondan ibarətdir ki, əsərlərindən məxsus olduğu xalqın tarixi, etnoqrafiyası, mənəvi-əxlaqi dəyərləri, folklor qaynaqları kimi bəhrələnmək mümkündür.

Mövlud Süleymanlı nəsrində folklora, xalq yaradıcılığına ardıcıl, sistemli şəkildə müraciət etmişdir. Yazıçı nəyinki əsərlərində, həm də bir sıra fəaliyyətində folklora böyük maraq göstərmişdir. O, əsərlərində folklor motivlərinə müraciət etməklə müasir dövrdə folklorumuzu, xalq yaradıcılığımızı inkişaf etdirmişdir. Yazıçının yaradcılığındakı bu motiv, yəni folklordan istifadə milli özünüifadənin təcəssümüdür. "Əgər bədii sənətdə milli kolorit güclü və vüsətlidirsə, obrazlar milli dəyərlər və adət-ənənələrlə möhkəm bağlıdırlarsa, onlar milli təfəkkürə, canlı duyğu və təxəyyülə malik insanlar kimi yadda qalırlarsa, bunun başlıca səbəblərindən biri folklorla əlaqələrin qırılmaz və dərin olmasıdır" [4, s.51]. Bu baxımdan Mövlud Süleymanlının əsərlərindəki güclü xəlqi kolorit, xalq yaradıcılığından qaynaq götürmüş mövzu, süjet və obrazlar onun bütün varlığı ilə milli-mənəvi dəyərlərə bağlı olduğunun, xalq ruhu ilə nəfəs aldığının əyani ifadəsidir.

Mövlud Süleymanlının hekayələrində folkor motivlərinə müraciət etməsi yeni hadisə deyildi. Ədəbiyyatımızda hər zaman folklora, folklor süjetlərinə böyük maraq olmuş, ən qədim zamanlardan yazıçılar öz əsərlərində folklor motivlərindən, nümunələrindən istifadə etmişlər və bu ənənə bugünümüzə qədər davam etdirilmişdir. Hər zaman folklor və onun motivləri yazılı ədəbiyyata mövzu və forma verir, ədəbiyyatın milli xarakterini müəyyənləşdirir. Ona görə də yazılı ədəbiyyat hər zaman folklordan bəhrələnmişdir. Beləki, Xaqani Şirvani, Nizami Gəncəvi, Füzuli, Vaqif, Vidadi, Zakir, Nəcəf bəy Vəzirov və s. folklora, xalq zəkasına, el sözünə müraciət edib, ondan bəhrələnmişlər. Bu ənənə-folklor motivlərinə müraciət müasir dövrdə də davam etdirilmişdir. Mövlud Süleymanlı da hekayələrində, ümumiyyətlə bütün yaradıcılığında folklor motivlərindən bəhrələnmişdir.Yazıçı bu ənənəni özünəməxsus şəkildə əsərlərində davam etdirmişdir. Ədəbiyyatımızdakı əsərlərə nəzər salsaq görərik ki, az yaradıcı sənətkar tapmaq olar ki, onun əsərləri xalq dilindən, folklor qaynaqlarından qidalanmasın.

Mövlud Süleymanlının nəsrində hekayələri öz əlvanlığı, fərqliliyi, mövzu müxtəlifliyi ilə seçilir. Yazıçının hekayələrinin əsas xüsusiyyətlərindən biri hekayələrində folklor motivlərindən istifadə, folklor nümunələrinə müraciət etməsidir. Azərbaycan folkloru, söz sənəti hər zaman M.Süleymanlının diqqət mərkəzində olmuşdur və bütün yaradıcılığı boyu folklor süjetlərinə, folklor obrazlarına, canlı xalq dilindən gələn söz və ifadələrə müraciət etmişdir. M.Süleymanlı hekayələrinin çoxunda folklor motivlərinə müraciəti görürük.Yazıçı hekayələrində folklor nümunələrindən-atalar sözü və məsəllərdən, mərasim nəğmələrindən, qarğış, alqışlardan, nağıllardan, inanclardan, daha çox mifologiyadan, mifoloji süjetdən istifadə etmişdir. Yazıçının bu hekayələri xəlqi ruhu və milli səciyyəsi ilə seçilmişdir. Bu da yazıçının milli dəyərlərə, adət-ənənələrə dərin köklərlə bağlılığının sübutudur.

Mövlud Süleymanlının "Yamacda bir kənd", "Armud ağacının nağılı", "Füşkürək", "Dünyanın işığı", "Sapand", "Ayın aydınlığında", "Çoban İbrahim və velosiped", "Quru kəllə", "Qaraca kişinin yaylaqları", "Qar" və s. hekayələrində folklora istinad etməklə əsərlərində xəlqi kolorit yaratmışdır. Folklora müraciət yazıçı yaradıcılığının üzvi tərkib hissəsinə çevrilmişdir.

Yazıçının hekayələrində folklor mədəniyyətimizin daha dərin qatı olan əski inanclara və mifoloji yaddaşa müraciət ədibin yaradıcılığında özünəməxsus yer tutur. Xalqımızın əski, qədim inanclara bağlılığını, inamını əks etdirən ən bariz nümunələrindən biri "Armud ağacının nağılı" hekayəsidir. "Etnoqrafik hekayə" kimi janr statusu verdiyi əsərdə, həqiqətən də, el arasında yaşayan bir üsulla, qurumaqda olan ağacı daş-dəmir, balta, küylə qorxudub həyata qaytarmaqdan söhbət gedir. [2, s.43] Hekayənin məzmunu belədir ki, kənd həyatı təsvir olunur, təbiətin təsviri verilir, yaz fəsli gəlib və Mahmud kişi günlərin bir günü görür ki, bağındakı armud ağacı tumurcuqlanmayıb, ağacın canındakı ölümü duyur və bu hadisədən narahat olur:"Qorxa-qorxa ağacın başına dolandı, cücərti görə bilmədi. Dünyagörmüş kişiydi, ağacın canındakı ölümü duyub Telli qarını səslədi:

-Ağac quruyur, arvad! [3, s.374]. Arvadı Telli deyir ki, bu hansı bədbəxtliyin xəbəridi? Əsgərlikdəki nəvəmin ağacı quruyur,olmaya uşağın başında bir iş var. Buradan görünür ki, Telli qarı ağacın qurumasını hansısa bədbəxtlik əlaməti kimi görür, bu xalqımızın qədim inanclarından biridir. Mahmud kişi ilə Telli qarının təşvişi tədricən bütün kəndə yayılır, hamı ağacın başına, sanki canlı bir varlığın yasına yığılır:"Daha eldə, obada da qalmayıb, azza bu yas yeridi daa, birciyəzi başına qara bağlamayıb". Hekayədə başqa bir inancımızı da görürük. Beləki, Mahmud kişi deyir ki, ağacı kəsəcəm, doğrayıb odda qalayacam, Telli arvad da qonşu qadınlara söyləyir ki, ağacı daşlasınlar və Mahmud kişi ağaca balta ilə vurur. Belə etməklə onların məqsədi o idi ki, ağacı qorxudub səksəndirsinlər ki, ağac bar versin. Belədə olur, ağac tumurcuqlayır, qonşular bayram edirlər, ağacdakı baltanın izini kəlağayı ilə bağlayırlar. Təbii ki, folklor nümunələrimizdə el inamı, duası, alqışı qalib gəlir,hekayədə də bu qalibiyyəti görürük.Hekayədə bir aqronom əhalidən fərqlənir.O,əhaliyə söyləyir ki, belə inanclara inanmayın:"-Belə şeylə ağac diriltmək olmaz, gedin işinizdə, gücünüzdə olun!". Ağacın həyata qayıtmasını toy-çalğıyla qeyd edirlər, aqronomun "seçilməsi" isə heç kəsin yadına düşmür:"Sonra sinidən fəsəli götürüb hərəsinə birini payladı, aqronoma isə lap yekəsini seçib verdi". Bu hekayədə biz xalqımızın qədim adət-ənənələrini, inanclarını və canlı xalq ifadələrini gördük.

Yazıçının 1975-ci ildə yazdığı "Füşkürək" hekayəsində də folklor motivlərinə rast gəlirik. "Hekayənin qəhrəmanı İmran da, onun balaca oğlu Elbəy də nağıllar aləmində, dünyasında yaşayırlar". Hətta məişəti də ata balaca oğluna nağıllar quraşdırmaqla izah etməyə çalışır. Beləki, əsər boyu İmran oğlu Elbəyə tez-tez nağıl danışır, ata, hətta gündəlikdə baş verən hadisələri quraşdıraraq, dəyişdirərək oğluna sehirli nağıl kimi danışır:"Biri var idi, biri yox idi, Elbəy bir kəlin qoyun var idi, bir gün... bu kəlin qoyun dedi..-Qoyun danışmaz axı, dədə! -Qulaq as ,məcbur eliyəndə danışır. Bu kəlin qoyun bir gün..." Ata bu nağılı oğlu ilə bazarlığa gedəndə danışır. Yol boyu nə görürsə Elbəyə gördüklərini nağıl formasında nəql edir.

Elbəyin öz balaca dünyası vardı. O, evdə anası, nənəsinə, baş verən hadisələrə məhəl qoymurdu. Atası ona o qədər nağıl danışmışdı ki, Elbəy nağıllar aləmində yaşayırdı, hər hadisəni də nağıl kimi başa düşürdü:"Amma Elbəy öz işindəydi. Özünün balaca təpələri vardı, nağıl filmlərdə gördüyü güləyən qız üzünə oxşayan günəş kimi günəşi vardı. Dədəsinin danışdığı ağ-ağ, qırmızı-qırmızı atlardan ilxısı vardı. Onun bu dünyasına heç bir səs yaxın düşə bilmirdi". [3, s.383]

Hekayədə başqa bir inancımızı görürük. Beləki, İmran oğlu Elbəyə səslənəndə uzun-uzadı füşkürək çaldı. "Nənəsi başını qaldırıb gözlüyünü düzəltdi. –Elə ona görə bərəkətimiz yoxdu,-dedi. –Neçə kərə demişəm evdə füşkürək çalma". Hekayədə ana İmrana əsəbləşir ki, hər şeyi nağıla döndərmisən, uşaq qalıb tək-tənha, bizə də nağıl kimi baxır:"-Niyə üzürsən uşağın ürəyini, bu nə xasiyyətdi, bilmirəm, səndə? Nə tapmısan nağılı qarada, hansımıza xeyir verdi nağıl? Çıxıb dinməz-söyləməz gedə bilməzsənmi, işinə?".

Hekayə belə bitir ki, Elbəy yenə nağıllar aləmindədi, "mən Məlikməmmədəm, məni quyuya sallayın". Mövlud Süleymanlı hekayələrində folklor motivlərindən, nümunələrindən istifadə etməklə əsərin məzmununu daha maraqlı edir. Yazıçı hekayələrində folklor nümunələrindən olan alqış və qarğışlara tez-tez müraciət edir. Məsələn, "Dumanın, çiskinin qara geysin hey", "Ay çovğun aparsın səni" və s. Bu qarğışlar obrazın dilindən verilməklə yazıçı onların dilini xəlqiləşdirir, canlı danışıq dilinə yaxınlaşdırır. Daha sonra yazıçının hekayələrində atalar sözü və məsəllərdən tez-tez istifadə olunur. Yazıçının "Sapand" hekayəsi atalar sözü ilə başlayır:"Ay daş atan bəxtəvər daşın da bir vaxtı var". "Sapand" hekayəsində kənd-şəhər qarşılaşdırılmasını görürük. "Ümumiyyətlə, şəhər-kənd qarşılaşdırılması, bu iki dünyanın rəğbəti-həsədi, bir-birinə cəlb olunması və bir-birindən aralanması tema kimi 60-cı illərin nəsrində də, şeirində də, 70-ci illər ədəbiyyatında da müəyyən yer tutur [2, s.35]. Bu problemlər Mövludu da məşğul edir. "Sapand" hekayəsi demək olar ki, bu problemə həsr olunub. Hekayə kəndin təsviri ilə başlayır:"Kənd ev içi kimi silinib-süpürülmüşdü. Nə tozu-torpağı vardı, nə palçığı". Yazıçının hekayələrinin demək olar ki, hamısında ya müəllifin, ya təhkiyəçinin dilindən kənd həyatı göstərilir, kəndin təsviri verilir. Bu da müəllifin el-obasına, adət-ənənələrə, folklora, xalq yaradıcılığına bağlılığını göstərir.Hekayədə göstərilir ki, "Kənd camaatı artıq şəhərli olmuşdu, kənd də şəhər olmaqdaydı. Daha evlərin bacasında tüstü görməzdin. İndi antenalar, telefon xətləri, işıq xətləri evlərin üstündə hörümçək toruna oxşayırdı". Yazıçı bir məsələyə də toxunur ki, əhalinin danışığı da şəhər danışığıdır. Əsərdə Əliş, onun arvadı Pəri şəhərli olublar, öz adət-ənənələrindən ayrı düşüblər. Bir yaşlı nəslin nümayəndəsi olan Mahmud kişi el-obasına bağlıdı. Mahmud kişi bağlamada tapdığı sapandı nəvəsi Babəkə verir. Yazıçı burada sapandla avtomatı müqayisə edir. Mahmud kişi nəvəsinə deyir:"Ver, başına dönüm, aparım saxlayım. Tüfəngini götür, o yaxşıdır, o yalannandı".

Hekayənin əvvəlindən axıradək Mahmud kişigilin həyətindəki daşdan danışılır. Beləki, Mahmud kişi hər dəfə oğluna deyir ki, həyətdə artıq qalan daşı atmaq lazımdı. Ancaq oğlu Əliş atasına məhəl qoymur. Əslində, daş burda rəmzdir. Mahmud kişi gecə yuxuda da daşları görür. Bəzən fikirləşirdi ki, "öləcəyəm, o dünyada yıxacaqlar üstümə ki, o daşı niyə həyətdə qoyub gəldi?!" Mahmud kişi torpaq adamı idi, torpağın dilini bilirdi. Gübrə ilə böyüyən yaşıllığa baxıb deyirdi ki, bu bitkilər böyüməyib, şişib. Ancaq oğlu Əlişi inandıra bilmir. O, hətta bu rəngi, bu şişi oğlu Əlişin də üzündə görmüşdü. O, çəkinə-çəkinə həmişə oğluna deyirdi ki, içmə o zəhrimarı! Hekayədə biz Mahmud kişinin timsalında onun vətənə, soy-kökə, adət-ənənələrə bağlılığını, kənd əhalisinin isə bu adət-ənənələrdən uzaqlaşdığını görürük."Bu o demək deyil ki, Mövlud kənd dəyərlərini şəhər dəyərlərindən üstün tutur, yəni kəndi şəhərə qarşı qoyur... Məsələ bunda deyil, məslə ondadır ki, "kənd camaatı artıq şəhərli olmuşdu, kənd də şəhər olmaqdaydı" [2, s.36]. Yazıçını düşündürən, nigaran qoyan da məhz budur.Mövlud Süleymanlının yaradıcılığındakı folklor motivlərini, mifik təfəkkürü XX əsrdə Qərbdə geniş yayılmış magik realizm və

mifopoetika ilə əlaqələndirə bilərik. Magik realizm 20-ci əsrin 30-60-cı illərində Cənubi Amerikada realizmin növbəti milli forması kimi meydana gəlmişdir. Azərbaycan Ədəbiyyatında isə magik realizm ədəbi metod kimi XX əsrin 60-cı illərində yaranmışdır. Azərbaycan nəsrində magik realizmin ən bariz nümunələrinə Yusif Səmədoğlunun "Qətl günü"romanı, Sabir Əhmədlinin "Yasaq edilmiş oyun" və s. əsərləri misal göstərə bilərik. Magik realizmdə magiya, sehrli elementlər birbaşa müasir həyata köçürülür. Əsərdə baş verən hadisələr sırf real xarakter daşıdığı kimi eyni zamanda həm də magik xarakter daşıyır. Magik realizmi səciyyələndirən xüsusiyyətlər:realist əsərə sehrli, magik elementlərin gətirilməsi, əsərdə tez-tez simvollardan istifadə, folklor elementlərindən, mifdən istifadə, inanclara, sehr-caduya inam, əsərdə iştirak edən obrazların magik elementlərin məntiqini qəbul etməsi, amma dərk etməməsi və s. Bütün bu xüsusiyyətləri biz M.Süleymanlının hekayələrində, yaradıcılığında görürük.Bunun ən bariz nümunəsi isə yazıçının yaradıcılığında xüsusi yer tutan "Quru kəllə" hekayəsidir.Ümumiyyətlə, 70-80-cı illər nəsrində xalqın ən qədim bədii təfəkküründün məhsulu olan mifologiyaya və folklora yenidən qayıdışdır, mühüm keyfiyyət əlamətidir [1, s.176]. Bu qayıdışı biz M.Süleymanlının da əsərlərində, xüsusilə, hekayələrində görürük. Yazıçının yaradıcılığındakı mifə qayıdışı müasir dövrdə yaranan mifopoetika ilə də əlaqələndirmək olar. Beləki, mifopoetika poetik bədii obrazlarda (sənətdə) mifoloji məzmunun mövcudluğunu bildirir. M.Süleymanlının hekayələrində müasir mifik təfəkkürün bariz təzahürünü görürük. Mif onun yaradıcılığının belə demək mümkünsə, bütün mayasını təşkil edir. Yazıçının bir çox əsərləri əvvəldən axıracan xalqın mifik dünyaduyumu əsasında qurulmuş,mifoloji ruh, baxış bu əsərlərin, necə deyərlər, bütün toxumalarına hopmuşdur. M.Süleymanlının əsərlərinin, hekayələrinin özünəməxsus xüsusiyyətlərindən biri budur ki, yazıçının hekayələrində mifik təfəkkür, qavrayış, xalqın folklor ənənələri ilə birləşir və nəticədə əsatir folklor sintezi olan əsər yaranır.

Mövlud Süleymanlı hekayələrində mifə böyük maraq göstərmiş və əsərlərində mifə müraciət etmişdir. Yazıçının mifik təfəkkürünü əks etdirən, onun yaradıcılığında mühüm yer tutan əsərlərdən biri "Quru kəllə" hekayəsidir. Əsər Yusif Səmədoğlunun xatirəsinə həsr olunub. Əsər belə başlayır ki, Adam üzünü göyə tutub:

-Yox,-dedi,-yoo-ox, belə yaşamaq olmaz! [3, s.467]. "Artıq belə yaşamaq olmaz" qərarıyla Allahın axtarışına çıxan Adam:"bir vaxt Tanrı adına çıxdım, indi Allah deyib axtarıram". Əsərin maraqlı tərəflərindən biri də hekayədə qəribə obrazların iştirak etməsidir. Adam, Gilbişirən kişi, Alaqarğa, Qurd, Qarı, Hal anası, Dağdağan ağacı və Quru kəllə hekayənin obrazlarıdır. Bu obrazların hər biri qeyri-adiliyi, qəribəliyi ilə əsərdə diqqət çəkirlər. Əvvəlcə Adam çayla qarşılaşır, çayın tərsinə axdığını görür və çayla söhbət edir. Çay söyləyir ki, "-Hamısı Allahın acığınadı,-dedi Çay. –Min ildir ruhum şeytan əlindədir. Min ildir içim boşdu, qarnımı daşlara sürtə-sürtə min ildi yol gəlirəm. –Bilirəm, sən də dərddən gəlirsən". [ss3, s.467]. Adamın getdiyi, bəzən özü də hiss eləmədən qayıtdığı yollarda-məkanda şeytan meydan sulayır, hər şey

tərsinədir, çay tərsinə axır, alaqarğa bala çıxarır, dağdağanın yanında su var. Adam obrazı yaşadığı həyatdan narazıdır, şikayətçidir. O, Allahın yanına şikayətə gedir. Qarşılaşdığı hər kəsdən soruşur ki, "Nə sözün var, sənnən nə deyim, Allaha?". Mövlud Süleymanlı öz demək istədiklərini, yəni cəmiyyətdən narazılığını Adam obrazı vasitəsilə verir. Yazıçı içərisində yaşadığı cəmiyyətin gerçək simasını birbaşa ifadə etməyin mümkün olmadığını başa düşdüyü üçün onu dolayı, sətiraltı üsulla çatdırmaq yolunu seçmişdi. Hekayədəki Şeytan obrazı neqativ missiyalı mifoloji obrazdır və insanları yoldan çıxarır. Şeytan Adamı da yoldan çıxarmışdı. "Şeytanlardan Adamın içinə doluşan oldu. Tıp-tıp...tıp-tıp. Adamın içi daraldı, dərdi yadına düşdü". Məhz Şeytanın təhriki ilə Adam dünyaboyu olmazın oyunlar çıxardır. Bu motivi biz Hüseyn Cavidin "İblis" əsərində görürük. Başqa bir mifoloji obraz olan Hal anası deyir:"Uğur olmasın sənə ay Adam , hara gedirsən yenə? Ayağını hara qoyursan, qan düşür". Hekayədəki mifoloji obrazlardan biri Quru Kəllədir. Əsər boyu Quru Kəllənin dilindən bu söz işlənir:"Allah, bundan betərindən saxla!". Quru Kəllə rastlaşdığı tarixləri, insanları, dinləri, mədəniyyətləri məhv edir.Folklor hər zaman yazılı ədəbiyyata təsir göstərmiş, mövzu qaynağı olmuşdur. M.Süleymanlı da hekayələrində folklor motivlərindən, süjetlərindən, folklor nümunələrindən özünəməxsus şəkildə istifadə etmişdir və müasir nəsrimizi folklordan bəhrələnərək inkişaf etdirmişdir.

ƏDƏBİYYAT

1. Əliyeva N. 60-80-cı illər Azərbaycan nəsrinin qəhrəman və üslub axtarışları. Bakı 2003
2. Salahlı S. 1960-80-cı illərdə Azərbaycan nəsrində psixologizm (M.Süleymanlının yaradıcılığı üzrə monoqrafiya). Bakı 2004
3. Süleymanlı M Seçilmiş əsərləri. Bakı 2006
4. Zeynalova D İsmayıl Şıxlı və folklor. Bakı 2006

TURKAN MURADOVA

FOLKLORE MOTIFS IN MOVLUD SULEYMANLI'S STORIES

SUMMARY

One of the main characteristics of Movlud Suleymanli's stories is his making use of folklore motifs and his making reference to the folklore samples in his stories. The writer has always benefited from Azerbaijani folklore. The writer has given the wide publicity to folklor samples both in author's speech and in characters' speeches. Along with folklore, he has shown an interest in myth in his stories. The writer has made use the folklore samples-proverbs, sayings, imprecations, acclamations, fairytales and beliefs. M.Suleymanli has greatly contributed to the development of our modern literature. His stories are distinguished by their discrepancy, the variety of subject in his literary career.

The writer has used folklore characters, folklore plots, words and phrases that come from live folk speech in his stories.

ТЮРКАН МУРАДОВА

ФОЛЬКЛОРНЫЕ МОТИВЫ В РАССКАЗАХ МОВЛУД СУЛЕЙМАНЛЫ

РЕЗЮМЕ

Один из основных характеристик рассказов Мовлуд Сулейманлы, это использование в своих рассказах фольклорных мотивов, обраизение к фольклорным образцам. Писатель всегда пользовался Азербайджанским фольклорам. Рассказы Мовлуда Сулейманлы играют большую роль в творчесшве писателя. Тема рассказов отличаются своим разнообразием. Писсатель в этих рассказах использовал пациональный язык живего слова. Он в авторской речи и в речи образов показал образцы из фольклора. Наряду с фольклором он показал интерес к мифоломи. В этих рассказах писатель показал примеры из пословиц, убеждений ирц сказок. М.Сулейманлы своими рассказами способетвовал развитию современной литературы.

Rəyçi:dos.Zeynalova.D.V

MÜNDƏRİCAT

NURİDƏ NOVRUZOVA. MƏTNİN KOQNİTİV TƏHLİLİNİN NƏZƏRİ ƏSASLARI ..3
AYGÜL HACIYEVA. R.BAĞDADİ "DİVAN"INDA SUBSTANTİVLƏŞƏN VƏ ADVERBİALLAŞAN MORFOLOJİ VAHİDLƏR 12
RƏHİLƏ HÜMMƏTOVA. İMADƏDDİN NƏSİMİ POEZİYASINDA TEMPORALLIĞIN QRAMMATİK FORMALARLA İFADƏSİ 18
GÜLDANƏ PƏNAHOVA. SİNONİMİK MÜNASİBƏTLƏRİN TƏDQİQİNDƏ DİLÇİLİK ƏNƏNƏLƏRİ 28
ELMİRA ƏLİYEVA. MÜASİR DİLÇİLİKDƏ DİSKURS HAQDA MÖVCUD ELMİ-NƏZƏRİ MÜDDƏALARA DAİR 34
НАИЛЯ ГАДЖИЕВА. ИЗУЧЕНИЕ ГЛАГОЛЬНЫХ КОНСТРУКЦИЙ НА ЗАНЯТИЯХ РУССКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО 39
ZAUR HACIYEV. "MUĞNİL-LƏBİB AN KUTUBİL-ƏARİB" ƏSƏRİNDƏ DİLÇİLİK METODU 46
ÜLVİYYƏ HACIYEVA. AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ LEKSİK BƏDİİ TƏSVİR VASİTƏLƏRİ 54
MİRVARİ QASIMOVA. ANTONİMLƏRİN ÜSLUBİ XÜSUSIYYƏTLƏRİ 61
YEGANƏ ABBASOVA. İNGİLİS DİLİNDƏ SÖZÖNLƏRİ VƏ SÖZÖNLƏRİNİN AZƏRBAYCAN DİLİNDƏ QARŞILIĞI 68
SEVİNC ŞAHLAROVA
NİGAR NAMAZOVA. ÖN ŞƏKİLÇİLƏR VASİTƏSİLƏ YARANAN TÖRƏMƏ FEİLLƏRİN İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İFADƏ ÜSULLARI 75
RƏNA HÜSEYNOVA. KONVERSİYA YOLU İLƏ İNGİLİS DİLİNDƏ YENİ SÖZ YARADICILIĞI VƏ ONUN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ ÜSULLARI 80
SEVİNC ƏSƏDOVA. XALQIN ETNOQRAFİYASININ ZOONİMLƏRDƏ ƏKSİ 85
ƏFSANƏ CƏBRAYILZADƏ. LEKSİKANIN TƏDRİSİNDƏ QARŞIYA ÇIXAN PROBLEMLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI HAQQINDA.....92
XƏYALƏ MÜRSƏLİYEVA. QRAMMATİK KATEQORIYALARDA İNTENSİVLİK ƏLAMƏTLƏRİ.....98
GÜLŞƏN CÜMŞÜDOVA. THE WORDS OF THE CATEGORY OF STATE..... 108
GÜLAY QURBANOVA. SOME APPROACHES AND METHODOLOGIES IN TEACHING ENGLISH 113
AYGÜN QOCAYEVA. LE FUTUR DANS LA GRAMMAİRE FRANÇAISE 118
SAMİRƏ BABAYEVA. SÖYLƏM VƏ KONTEKSTİN SÖYLƏM BÖLGÜSÜ..... 124
YELENA İBRAHİMOVA. ZAMAN BUDAQ CÜMLƏSİNİN MƏTNYARADICI XÜSUSİYYƏTLƏRİ..... 131
FİRƏNGİZ PƏNAHOVA
XALİDƏ ZEYNALOVA. İNGİLİS DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ PROSESİNDƏ LEKSİK-SEMANTİK UZLAŞMALAR..... 139
RÜBABƏ MUSAYEVA. MÜASİR İNGİLİS DİLİNDƏ SİFƏT DÜZƏLDƏN ŞƏKİLÇİLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ ÜSULLARI.....144
ŞAMİL ALMƏMMƏDOV. TÜRK DİLİNDƏ ÖZLƏŞMƏNİN MAHİYYƏTİ 149
DÜRDANƏ VƏKİLOVA. MÜASİR İNGİLİS DİLİNDƏ NƏTİCƏ ƏLAQƏLİ MÜRƏKKƏB CÜMLƏLƏR..... 156
ELNARƏ ABBASOVA. İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ELLİPTİK CÜMLƏLƏRİN TƏSNİFATI 162

SEVİNC HÜSEYNOVA. QƏDİM VƏ ORTA ƏSRLƏRDƏ İNGİLİS DİLİNİN SİNTAKSİSİNDƏ BAŞ VERƏN ƏSAS DƏYİŞİLİKLƏR 167
KADIYEVA SEVDA. TİBB UNİVERSİTETİ TƏLƏBƏLƏRİNİN NİTQDƏKİ QÜSURLARI VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI 172
ƏLIYEVA N.Ə. NİTQ MƏDƏNİYYƏTİ VƏ OBRAZLILIQ 178
NAİLƏ QƏDİMOVA. İNGİLİS DİLİ MƏNŞƏLİ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİNİN METOD VƏ ÜSULLARI 184
AFƏTXANIM NƏSİROVA. MƏDƏNİYYƏTLƏRARASI ÜNSİYYƏTDƏ TƏRCÜMƏNİN ROLU VƏ ƏHƏMİYYƏTİ 189
SEVİNC BABAYEVA. MÜASİR İNGİLİS DİLİNDƏ METAFORİZMLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ EKVİVALENTLƏRİ 194
Təranə Kələntərova. LES CALQUES LINGUISTIQUES : DU FRANÇAIS AUX AUTRES LANGUES 199
GÜLŞƏN ŞAMXALOVA. AZƏRBAYCAN HƏRBİ QÜVVƏLƏRİNİN YARANMASI, ONUN SOVET HƏRBİ MƏKTƏBİNDƏ ROLU VƏ HƏRBİ TERMİNLƏRİN AZƏRBAYCAN DİLİNƏ UYĞUNLAŞMA QAYDALARI 205
SABİNA NOVRUZOVA. THE LONG AND SHORT VOWELS IN A LANGUAGE 210
RUHANE UMAROVA. PLANNING ENGLISH LANGUAGE LESSONS 216
ZAMİRƏ MƏMMƏDOVA. AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ TƏRCÜMƏ TARİXİNİN TƏDQİQATI VƏ ONUN BƏZİ PROBLEMLƏRİ 222
YEGANƏ ƏLƏSGƏROVA. İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SADƏ CÜMLƏNİN MÜQAYİSƏLİ XARAKTERISTIKASI 227
NƏRMİN İBRAHİMOVA. FONOLOGİYA VƏ FONETİKANIN İNKİŞAF DİNAMİKASI 232
SEVDA AĞAYEVA. ƏVƏZLİK NİTQ HİSSƏSİ AZƏRBAYCAN İNGİLİS DİLLƏRİ İLƏ MÜQAYİSƏLİ MÜSTƏVİDƏ 238
NURİYYƏ ŞİRİNOVA. MÜTƏXƏSSİSLƏRİN HAZILIĞINDA İSTİFADƏ OLUNAN VƏSAİT 247
КЁНУЛЬ АБДУРАХМАНОВА. АНАЛИЗ ВЛИЯНИЯ ИНТОНАЦИИ НА ВЫСКАЗЫВАНИЯ 252
АЙТЕН АЛЛАХВЕРДИЕВА
ЭЛЬШАД АЛЛАХВЕРДИЕВ. ПРОСЬБА - В ОБЩЕЙ СИСТЕМЕ КЛАССИФИКАЦИИ РЕЧЕВЫХ АКТОВ В АНГЛИЙСКОМ ЯЗЫКЕ 258

ƏDƏBİYYATŞÜNASLIQ

DÜRDANƏ SƏMƏDOVA. ELMİ-FANTASTİK ƏDƏBİYYATIN TƏDQİQİ TARİXİNƏ BİR NƏZƏR 267
QƏDİM RUFULLAYEV. AZƏRBAYCAN EPİK POEZİYASINDA DASTAN JANRININ TƏZAHÜR FORMALARI 273
SƏDAQƏT QASIMOVA
SEVİL NƏCƏFOVA. SÖHRAB TAHİR LİRİKASINA BİR NƏZƏR 280
ÇİNARƏ RZAYEVA. UŞAQLARIN FORMALAŞMASINDA FOLKLORUN ROLU VƏ MƏKTƏBLƏRDƏ FOLKLORA AYRILAN YER 285
NURLANA ƏLIYEVA. MÜZƏFFƏR NƏSİRLİ, HÜSEYN RAZI YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLİK MOTİVLƏRİ 291
FƏRƏH ASLANOVA. SOVETLƏR DÖNƏMİNDƏ "KOROĞLU" DASTANININ ORTA MƏKTƏBLƏRDƏ TƏDRİSİNİN BƏZİ MƏSƏLƏLƏRİ 299

SƏBİNƏ BAYRAMOVA. NİSGİLLİ AZƏRBAYCANIMIN NİKBİN GƏLƏCƏYİ.... 306
GÜNEL VƏKİLOVA. MİFOLOGİYADA ƏKİZLƏR MODELİNİN DUAL QARŞIDURMALARI 312
SEVDA İMANOVA. "ƏSLİ-KƏRƏM" DASTANINDA MAGİK GÖRÜŞLƏRLƏ BAĞLI OBRAZLARIN TİPOLOGIYASI 318
NƏBİYEVA VÜSALƏ. "OF MICE AND MEN" IDEA, THEME, PROBLEM 332
AYGÜN YUSUBOVA. ƏHMƏD NƏDİMİN "DİVAN"INDA BƏDİİ İFADƏ VASİTƏLƏRİ 341
NÜŞABƏ MƏMMƏDOVA. H.CAVİDİN VƏ M.S.ORDUBADİNİN TARİXİ ƏSƏRLƏRİ..... 351
KİFAYƏT MƏMMƏDOVA. QULAMRZA SƏBRİ TƏBRİZİNİN MÜASİR ƏDƏBİYYAT HAQQINDA DÜŞÜNCƏLƏRI 358
АШУРБЕЙЛИ Э.А. ФОРМЫ ОБРАЩЕНИЯ И ОСОБЕННОСТИ ИХ ОТРАЖЕНИЯ В ПЕРЕВОДЕ (НА МАТЕРИАЛЕ ПЕРЕВОДА ФЕЛЬЕТОНОВ ДЖ.МАМЕДКУЛИЗАДЕ)..... 365
MƏMMƏDOVA ÜLVİYYƏ. CƏFƏR CABBARLININ DRAMATURGIYASINDA GENDER PROBLEMİ..... 371
TÜRKAN MURADOVA. MÖVLUD SÜLEYMANLININ HEKAYƏLƏRİNDƏ FOLKLOR MOTİVLƏRİ..... 377

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***professor* Nadir MƏMMƏDLİ**

Dizayn: Zahid Məmmədov
Texniki redaktor: Tünzalə Vahabova

Çapa imzalanmış **29.01.2017.**
Şərti çap vərəqi **24,25.** Sifariş **№ 01.**
Kağız formatı **60x84 1/16.** Tiraj **300.**

*Kitab **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində*
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.